AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)

İqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent

AYBƏNİZ ƏNVƏR QIZI QUBADOVA

VERGİLƏR VƏ VERGİTUTMA

Bakalavr pilləsi üzrə dərs vəsaiti

Azərbaycan Dövlət İqtisad Universitetinin Tədris Metodiki Şurasının 13 aprel 2023-cü il tarixli 05 saylı protokoluna əsasən çapa tövsiyyə edilmişdir.

BAKI – 2023

Rəyçilər: **Zahid Fərrux oğlu Məmmədov**
iqtisad elmləri doktoru, professor

Xatirə Mail qızı Hüseynova
iqtisad elmləri doktoru, professor

Prof.Dr. Atilla Gökçe
Ankara Hacı Bayram Veli Üniversitesi, Türkiye

A.Ə.Qubadova: "**Vergilər və vergitutma**". Bakalavr pilləsi üzrə dərs vəsaiti. Bakı: "CLASS-PRİNT" MMC. 395 səh.

ISBN 978-9952-39-070-4

© Aybəniz Qubadova
® Vergilər və vergitutma

MÜNDƏRİCAT

ÖN SÖZ.....4
GİRİŞ.....6

FƏSİL 1. AZƏRBAYCANDA VERGİ SİYASƏTİ VƏ VERGİ İSLAHATLARIN ƏSAS İSTİQAMƏTLƏRİ.....47

FƏSİL 2. VERGİ YOXLAMALARI VƏ VERGİ MONİTORİNQİ.....72
2.1. Operativ vergi nəzarəti tədbirləri.....72
2.2. Xronometraj üsulu ilə müşahidənin aparılması.....77
2.3. Kameral vergi yoxlamaları.....85
2.4. Səyyar vergi yoxlama tədbirlərinin keçiriləsi.....109

FƏSİL 3. VERGİ QANUNVERİCİLİYİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT. VERGİLƏRİN HESABLANMASI VƏ ÖDƏNİLMƏSİNİN ÜMUMİ ƏSASLARI.....129

3.1. Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət.....129
3.2. Vergilərin hesablanması və ödənilməsinin ümumi əsasları.....166

FƏSİL 4. VERGİLƏRİN ÖDƏNİLMƏSİ ÜZRƏ ÜMUMİ QAYDALAR.....183

4.1. Fiziki şəxslərin gəlir vergisi.....225
4.2. Hüquqi şəxslərin mənfəət vergisi.....260
4.3. Əlavə dəyər vergisi (ƏDV).....272
4.4. Aksizlər.....302
4.5. Sadələşdirilmiş vergi.....323
4.6. Əmlak vergisi.....352
4.7. Torpaq vergisi.....365
4.8. Yol vergisi.....371
4.9. Mədən vergisi.....381

ÖN SÖZ

Hər ilin əvvəlində vergi qanunvericiliyində, o cümlədən də Vergi Məcəlləsində ötən il ərzində edilən dəyişikliklər və əlavələr haqqında dəyərli tələbələrimizi məlumatlandırmağa çalışırıq.

Ötən ildə də vergi qanunvericiliyində önəmli dəyişikliklər aparılmış, müəyyən yeniliklər daxil edilmişdir. Belə ki, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" ötən (2021-ci) ilin 3 və 27 dekabrında qəbul edilmiş dəyişikliklər Azərbaycan Respublikası qanunları ilə Vergi Məcəlləsində növbəti mərhələnin başlanğıcını qoymuşdur. Sözügedən dəyişikliklər isə bu (2022-ci) ilin yanvarın 1-də hüquqi qüvvəsinə minmişdir.

Biz də bu dəyişiklikləri nəzərə alaraq, Vergi Məcəlləsində yer alan maddələri və bəndlərinə şərh və izahlar verməyi lazım bilmişik. Bu dərs vəsaitində tələbələrimizin diqqətinə çatdırılan praktiki misallar verilən izah və şərhlərin tələbələrimiz tərəfindən daha dəqiq və rahat anlaşılmasına, eləcə də vergi yaddaşının gücləndirilməsinə yaxşı töhfə verəcəyinə əminik. Həmçinin qeyd edək ki, bu dərs vəsaitində müxtəlif dəyişiklikləri əhatə edən xeyli misallar diqqətə çatdırılır. Edilən dəyişikliklər və əlavələrlə bağlı qanunvericilikdə nəzərdə tutulan keçid müddəaların da izahı verilir.

Dərs vəsaitində Vergi Məcəlləsinin 2022-ci il yanvar ayının 1-nə olan əlavə və dəyişikliklər nəzərə alınmaqla mətnin tam versiyası yer alıb, istifadə olunan müvafiq icra hakimiyyətlərinin açılışı təqdim olunub. Son dəyişikliklər nəzərə alınmaqla "Nağdsız hesablaşmalar haqqında" və "social sığorta haqqında" Azərbaycan Respublikasının qanunları, "Vergi ödəyicilərində nağd pul vəsaitinin uçotu və kassa

əməliyyatlarının aparılması Qaydası”nın təsdiq edilməsi haqqında”, eləcə də “Riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların Meyarları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin ezamiyyə ilə əlaqədar normativ aktlar və digər sənədlər yer alıb.

Dərs vəsaiti bakalavr və orta ixtisas kolleclərin maliyyə, vergi, uçot, habelə statistika ixtisaslarında təhsil alan tələbələr, vergi qanun-vericiliyini müstəqil surətdə öyrənən şəxslər üçün faydalı mənbədir.

Dərs vəsaiti sadə formada təqdim edilir. Odur ki, burada müxtəlif alətlərdən – misallardan, nümunələrdən, cədvəllərdən, eləcə də müxtəlif praktiki sənəd formalarından istifadə olunmuşdur. Bunların hamısı mövzunun daha rahat mənimsənilməsi, bu günə qədər kifayət qədər mürəkkəb və qəliz hesab edilə biləcək ifadələrlə izahına adət etdiyimiz məsələlərin hamə üçün anlaşılan, ümumişlək dildə ifadə olunmasına çalışan dərs vəsaitinin müəllifinin gərgin axtarışlasrın bəhrəsidir. Azərbaycan gözəl atalar sözünü unutmataq: “Öyrətmək savab, öyrənmək qazancdır”.

GİRİŞ

VERGİLƏRIN YARANMASI VƏ VERGİTUTMANIN İNKİŞAFI TARİXİ

Sirr deyil ki, tarix istənilən millətin mənəviyyatının təşəkkül tapması ilə, birgəyaşayışın və siyasətin faydaları barədə məlumat verir. Bu maraqlı elm mövcudluluq və yoxsulluğun, yüksəlişin və enişin səbəblərini, gerçək reallıqları, ulu əcdanların vəsiyyət etdiklərini uyğun formada və müfəssəl surətdə gələcək nəsillərə çatdırmağa imkan verən bir fenomendir.

Azərbaycana gəlincə ilk əvvəl bu qədim torpağda eramızdan öncə mövcud olmuş vergilər haqqında tarixi faktlara müraciət edək.

Bütün dünyada olduğu kimi, Azərbaycan adlanan məmləkətdə də qədim yüzilliklərdə dövlətin xəzinəsi daha çox məğlubiyyətə uğramış ərazilərdə yaşamış insanların səvtəi hesabına doldurulurdu. İlhaq olunmuş şəhərlərdən,kəndlərdən, yaşayış məskənlərindən qənimətlərin və bacların alınması adi qanunauyğunluq idi. Üzərində nəzarətin ələ keçirildiyi torpaqlarda özününküləşdirmə həyata keçirən hökmdarlar sonradan orada yamaşım insanlardan ancaq müəyyən məqsədlər üçün pul toplayırdı. İnkişaf edən şəhərləri əhatələyən qala divarların, digər müdafiə təyinatlı səthlərin tikilməsi, kürpü və bu kimi digər keçid vasitələrinin inşası, məbədlərin ucaldılması və, hər şeydən öncə, müharibələrin aparılması xeyli maliyyə vəsaiti tələb edirdi. Məhz bu səbəbə görə dövlət bütün bu məsrəfləri qarşılamaq və öz əzinəsini doldurmaq məqsədilə əhalidən vergiləri toplamaq məcburiyyətində idi. Ancaq onu da qeyd etmək yerinə düşərdi ki, vergilərin tətbiqi sistemsiz şəkildə həyata keçirilirdi və bu prosesin daha çox təsadüfi, qeyri-mütəşəkkil xarakterə malik olduğunu bilridməliyik. Daha çox puldan deyi, qiymətli daş və metallardan savayı insanlar ərzaq məhsulları və ev heyvanları, xüsusilə də atlar da alınırdı. Qədim Assutiyayanın tarixinə nəzər salsaq görərik ki, Urmiya yaxınlığında yerləşən vilayətlərdən alınan bac arasında atlar birinci yer tutur. Bizim eradan əvvəl XX əsrin sonları – X yüzilliyin əvvəllərində bir neçə vilayətlərdə ancaq at

alınırmış. Assuriyada hökmdarlıq etmiş II Sarqonun kitabəsində Manna vilayəti olmuş Subi haqqında öyrənə bilərik ki, burada yaşayan insanları süvari qoşun üçün ata təlim vermək sənətinə görə tanınırdı. Kifayət qədər geniş əraziləri olan həmin ölkədə çarın alayı üçün dayçılar bəslənilirdi, onlar hər il bac qismində alınırdı, lakin tam böyümədikləri qədər onlara minmirdilər. Onların gərdiş etmələri, dövrə vurmaları, dönmələri, bir sözlə - döyüş üçün bütün mühüm vərdişləri öyrənmədiklərinə, bacarmadıqlarına qədər yəhərləmirdilər.

Azərbaycanın cənub zonasında yerləşən Subi vilayətinin Sanqibutu ilə həmsərhəd hissəsində Uşkaya ilə Tarmakisa qalaları arasında Aniaştaniya adı ilə tanınan yerdə xeyli sayda at yetişdirilir və saxlanılırdı.

Assuriyaya hökmdarlıq etmiş çarlar tərəfindən qiymətləri metalları da zəbt etmələri və bac almaları haqqında bilgilər bu günə kimi qorunub saxlanılmışdır. Misal üçün, yazıların birində qeyd edilirdi ki, III Salmanasar bac kimi qızıldan, gümüşdən, misdən, qurğuşundan və bu kimi digər müxtəlif qiymətli metallardan hazırlanmış məişət əşyaları, qab-qacağı alırdı.

Azərbaycan ərazisində eramızın ilk yüzilliklərində vergilərə toxunaraq qeyd etməliyik ki, həmin dövrdə ölkəmizin ərazisində yaşamış insanlar sinfi təbələşməyə görə 4 hissəyə bölünürdü ki, onların arasında kahinləri, döyüşçüləri, katibləri, eləcə də vergi ödəyənləri göstərə bilərik.

Burdan aydın olur ki, ilk 3 zümrəyə daxil olan nümayəndələr vergi tutumundan azad edilirdi. Həmin illərdə Sasanilər dövlətinin tərkinində olan Azərbaycanda Sasani hökmdarı I Şapur haqqında deyilirdi ki, o, bütün vilayətlərin insanlarını, sahiblərini və hakimlərini bac verənə və onlara, yəni Sasanilərə rəiyyət edənlərə çevirdi.

Sözsüz ki, ölkədə yaşayan insanların sayı nə qədər çox olsaydı, toplanan vergilərin həcmi də bir o qədər böyük olardı və dövlət xəzinəsi daha tez və daha iri miqyasda dolmuş olardı. Qədim dövlətlər arasında aparılan qəddar müharibələr yeni-yeni ərazilərin işağı olunması məqsədi güdürdü. Qalib gəlmiş tərəf isə məğlubiyyət acısını yaşayan tərəfi bac verənə çevirirdi və bundan qürur duyurdu.

Yeri gəlmişkən, Sasani hökmdarlarından biri olmuş Şapur öz atası I Ərdəşirin siyasi istiqamətini davam etdirməklə xeyli ərazilərin işğal edilməsinə nail olmuşdur. Bu hökmdarın hakimiyyəti zamanı İranla

kifayət qədər miqyaslı süni suvarma sistemləri yaradılmış, inşaat işləri həyata keçirilməklə şəhərlər salınmışdı. Bizim eranın 260-ci ilində I Şapurun rəhbərliyi altında Roma ordusuna qalib gəlmək mümkün olmuşdur, nəticədə imperator Valerian əsir olaraq götürülmüşdür. Sözügedən dövrdə zərdüştlüyün gücləndirilməsi və öz mövqelərində möhkəmləndirilməsi müşahidə olunurdu.

Sasanilərin hökmranlığı illərində zərdüştlüyün əsas xüsusiyyəti olan atışpərəstlik artıq kifayət qədər böyük ərazilərdə yayılmışdı. Qədim tarixi məxəzlərə görə, Sasanilərin şahı II Yezdigürd Albaniya dövlətinə qoşun çəkmişdi və özü ilə üç yüz kahin gətirmək qərarına gəlmişdi. Bu kahinlər onun göstərişinə uyğun olaraq bütün ölkə ərazisini dolanır və deyirdilər ki, əgər insanlar könüllü olaraq Zərdüştün qanunlarına tabe olsalar, onlara hədiyyələt veriləcək, şərəfə layiq görüləcəklər. Çar onları vergilərdən azad edəcək.

Qafqaz Albaniyası dövlətində xeyli dövr ərzində Aquen məclisi tərəfindən tətbiq edilən vergi qanunları qüvvədə idi. Həmin dövrdə Azərbaycanda yaşamış insanların böyük hissəsi xristianlığın daşıyıcısı idi, vacib və əhəmiyyətli məsələlər isə kilsələrdə təşkil edilən məclislərdə müzakirəyə çıxarılırdı.

Eramızın 448-ci ilində Albaniyanın hökmdarı olmuş III Vaçaqan kilsə məclisini çağırmaq qərarını vermişdir. Aquen adlanan sərhəd məntəqəsində baş tutmuş həmin məclisdə hüquq məcəlləsi qəbul olunmuşdu. Məcəlləyə 21 qanun daxil edilmişdi. Həmin qanunlara əsasən feodallar, zadəganlar və hökmdarların nəslinə mənsubiyyəti ilə seçilən bir bir adam yaşadığı dövrdə vergi qismində at və bunun əlavəsi kimi verə biləcəyi daha bir şey təqdim etməli idi. Həmin verginin adı "can payı" idi. Yaşadığı dövrdə həmin vergini ödəməmiş insanın bu öhdəliyi onun ailəsinə keçirdi.

Yeri gəlmişkən, bizim eranın 487-510 illərində Albaniyanın hökmdarı III Vaçaqan olmuşdur. Onun anadan olduğu və vəfat etdiyi illər barədə məlumat mövcud deyil. Ancaq məlumdur ki, bu hökmdar Arşakilər sülaləsinə aidi idi. III Vaçaqan hakimiyyətə yiyələnəndən sonar zərdüştlüyü rədd edib və xristianlığın yayılmasına qərar vermişdir. Onun əkinçilik, ticarət, sənətkarlıq kimi mühü sahələrin dirçəldirlməsi istiqamətində mühüm addımlar atılması haqqında bilgilər vardır.

Qeyd etmək lazımdır ki, kilsə ruhanilərə verilməli olan vergilər

həmin tarixi dövründə tətbiq edilən ölçü vahidləri baxımından bu təsnifata uyğun nəzərdə tutulurdu.

Belə ki, imkanlı əhali dörd qriv həmcində buğda, altı qriv həcmində arpa və 16 ölçü miqdarında çaxır verməli idi; yoxsul əhalidən iki qriv buğda, üç qriv arpa və imkan verən qədər çaxır tutulurdu. Əgər adamın əkinçiliklə məşğul olmaq üçün torpaq sahəsi və üzümlüklər yox idisə, o, vergilərin ödənilməsindən azad olunurdu. Qoyuna sahib əhali nümayəndələri 1 qoyun, 3 çəngə qədər yun, 1 pendir, atı olanlar isə 1 dayça, inək olanlar da 1 buzov vergi olaraq təqdim etməli idilər.

Məsələ burasındadır ki, o dövrdə tətbiq edilən qaydalar dəqiq deyildi, məhz bu səbəbə görə biz həmin illərin əsas xarakterik xüsusiyyəti haqqında danışarkən qeyri-dəqiqliyi ön plana çəkməliyik. Misal üçün, "qoyuna sahib olan 1 qoyun verməlidir" ifadəsi səlis deyil. Yəni, əgər insanın ümumiyyətlə 1 qoyunu varsa, deməli o, həmin qoyunu verib özü qoyunsuz qalmalıdı? Daha bir misal, vergi qismində verilməli arpa, buğda, çaxırın ölçü vahidi göstərilsə də, "bir pendir", "bir çəngə yun" kimi ifadələr miqdar nöqteyi-nəzərdən anlaşılan deyil.

İndi isə Ərəb xilafətinin vergi siyasətinin nədən ibarət olmasına nəzər salaq. Məlumdur ki, Azərbaycan Ərəb xilafətinə daxil edildiyi zamandan işğal altına düşmüş ərazilərdə mülki və hərbi hakimiyyət bir insane – sərkərdəyə həvalə edilmişdir. Buna görə də vergilərin toplanılması üzərində nəzarət də onun səlahiyyətlər çərçivəsinə daxil edilmişdir.

Növbəti mərhələdə bu işi başçıya (əmirə), hakimə (qazıya) və vergitoplayana (amilə) həvalə edirdilər.

Əməvilər sülaləsi hakimiyyətdə olduğu illərdə əsas vergi növləri sırasında xərac və cizyə istifadə olunurdu. Qeyd etmək lazımdır ki, cizyə vergisi ancaq qeyri-müsəlman əhalisinə tətbiq olunurdu, torpaq vergisi anlamında istifadə olunan xərac vergisi isə bütün əhali təbəqələrinə - yəni müsəlman olanlara və müsəlmançılığı qəbul etməmiş insanlara şamil olunurdu.

Bu arada, Ərəb xilafətinin tərkibində olan ərazilərdə torpaqların kimi ixtiyarında olması sualı meydana çıxır.

Məsələ burasındadır ki, iri miqyaslı torpaq sahələri və münbit torpaqları xəlifə və sultan tərəfindən mənimsənilirdi və yalnız onların mülkiyyəti ola bilirdi. Məmurların ixtiyarında olan əmlakın və

mülkilərin müsadirəsi sayəsində, eləcə də satınalmanın həyata keçirilməsi ilə belə torpaqların ərazisi get-gedə artırdı və kifayət qədər böyük faydalar, gəlirlər gətirirdi.

Yerli feudal zümrəsinin istifadəsində olmuş torpaqlara mülk torpaqları deyilirdi. Həmin ərazilərə sahib olnalardan daha böyük vergi məbləğləri tutulurdu. Bundan əlavə, həmin torpaq sahələrindən keçəm suvarma kanalların bərpası ilə bağlı bütün məsrəflər də onların üzərinə düşürdü. Belə mülk torpaq sahələrinin alışı və satışına, digər şəxsə bağışlanmasına, irsən övladlara hədiyyə, miras kimi ötürülməsinə icazə verilirdi. Mülkiyyətində mülk torpaqları olan adamlar hərbi xidmət keçmirdi və bu xidmətdən tam azad olunurdu.

Əgər bu və ya digər şəxslərin yaxud məmurların öz dövlətləri qarşısında xüsusi xidmətləri olurdusa, onlara müvəqqəti və ya ömürlük istifadə üçün torpaqlar verilirdi, belə torpaqlar iqta torpaqları adlanırdı. İqta sözünün mənası kəsib ayırmaq, pay vermək anlamında işlədilirdi. Mülki iqtanın tətbiqi daha geniş yayılmışdı. Belə torpaqlar məmurlara tutduqları vəzifəyə uyğun verilirdi. Əgər məmur öz əzifəsini itirirdisə, o zaman həmin torpaq payından məhrum olur, onun yeriə vəzifəyə sahiblənmiş şəxs isə bu torpaq sahəsindən istifadə etmək hüququna malik olmağa başlayırdı.

İqta torpaqların sonarkı tarixi dövrlərdə də veriləsinə rast gəlinirdi. Bəzən isə iqta termini əvəzinə monqoldilli əhali "incu", türkdilli əhali isə "tiyul" sözlərindən istifadə edridi.

Tarixi məxəzlərdən aydın olur ki, bəzi torpaq sahələri dini təsisatların istifadəsinə verilə bilərdi, bu halda həmin torpaq sahələri vəqf torpaqları adlandırılırdı.

Kənd əhalisinə məxsus həm də icma torpaqları var idi. Bununla yanaşı, həmin torpaqlar örüş yerləri, yanacaq qismində istifadə olunan odunun yığıldığı meşələri, qəbistanlıqları və bu kimi digər növ əraziləri əhatə edirdi.

Ərəb xilafətinin hökmranlığı zamanı əhalinin istifadəsində olan hər bir həyətdən ayrı-ayrılıqda vergi toplanırdı və bu vergi bac adlanırdı. Həmçinin qeyd etmək lazımdır ki, bacın ödənilməs məqsədilə dörd dirhəm puldan, təxminən üç kilo yarım yaxud üç modi xərbirlənmiş buğdadan, bir kisə, bir sicim və bir cüt əlcəkdən istifadə olunurdu.

Şəhərin girişi olan qapıların yaxınlığında bac vergisini yığanlar

dayanırdı, onlar şəhərə gətirilən yaxud şəhərdən aparılan məhsullara görə məhz bac şəklində ödənilən rüsumları toplayırdı.

Dahi Azərbaycan mütəfəkkiri, filosofu və şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında biz bəzi vergilərin, xüsusilə də bac və xərac adlı vergi növlərinin adlarının çəkildiyini görürük. Hökdarın ölkəni ədalət prinsiplərinə riayət edilməklə idarə edildiyini önə çəkən böyük Nizami belə yazır:

Ədalətə etdi rəiyyəti şad,
Məhbuslar olundu həbsdən azad.
Şəhər qapısından bir bac almadı,
Heç bir əkinçidən xərac almadı.

Göründüyü kimi, ilk baxıçdan belə bir təsəvvür formalaşır ki, Nizami ümumilikdə vergilərin toplanılmasına qarşı idi. Məsələ burasındadır ki, böyük mütəfəkkir şair dövlətçiliyin təməl prinsiplərinə son dərəcə yaxından və gözəl bələd idi və vergilərin həm dövlətin, həm də cəmiyyətin həyatında oynadığı rolu kiçiltmək fikrindən uzaq idi. Nizami qələmə aldığı heç bir əsərində vergilərin, o cümlədən, xüms, zəkat kimi vergi növlərinin aradan qaldırılması ideyasını təbliğ etmirdi. Sadəcə olaraq, Nizami Gəncəvi öz əsərlərində padşahların bəzi vergi növlərinin toplanılması ilə bağlı verdikləri göstərişləri müəyyən zaman kəsiyi üçün əhalinin social durumunun yaxşılaşdırılması məqsədilə toplanan vergilərdə güzəştlərin edilməsi zərurətinə diqqət çəkir.

Yeri gəlmişkən, dövlətin xəzinəsində pul çatışmazlığının həin dövlət üçün fəlakətə çevrilə biləcəyini gözəl anlayan dahi Gəncəvi heç vaxt bu prosesin, yəni vergilərin toplanılmasının əleyhdarı kimi çıxış edə bilməzdi.

"Yeddi gözəl" poemasında oxuyuruq:

Torpaqda mədaxil, məhsul olmadı,
Odur ki, xəzinədə bir şey qalmadı.
Gəlir yox, ödənməz oldu vergilər,
Günləri xoş keçən yoxdu bir nəfər.

Ərəb xilafətinin hökmranlığı illərində sahib olduqları mülkiyyətə yaxud əmlaka görə insanlardan xüms vergisi alınırdı, həmin məbləğ gəlirin 1/5 hissəsi qədər idi. Kasıbların xeyrinə imkanlı müsəlmanların əmlakından tutulan vergi növünə isə zəkat deyilirdi.

Həmçinin qeyd etmək yerinə düşərdi ki, xüms vergisi təkcə pul

şəklində deyil, həm də natura şəklində də toplanırdı. Əldə olunan mənfəətlərdən, mədənlərdən, xəzinələrdən, halal yolla qazanılmış malın haram məhsuluna qarışığından, dənizin alt qatlarından hasil olunan qiymətli daşlardan, müharibələr nəticəsində qənimət formasında əldə olunmuş əşyalardan, müsəlman dininə aid olmayan insanlardan satınalma yolu ilə əldə olunmuş torpaq sahələrindən xüms vergisinin ödənilməsi mütləq idi.

Bütün müsəlmanların müqəddəs kitabı "Qurani-Kərim"in 24-cü "Nur" adlı surəsinin 56-cı ayəsində oxuyuruq: "Namaz qılın, zəkat verin, peyğəmbərə itaət edin ki, sizə mərhəmət edilsin".

"Əl-Bəqərə", "Nisa", "Tövbə" surələrində də zəkatın verilməsi zərurəti xüsusilə vurğulanır, bu haqda həmin surələrin ayələrində danışılır. "Tövbə" surəsinin 60-cı ayısində Ulu Tanrı buyurur ki, zəkat yoxsullar və zəkat toplayan məmurlar üçün yığılır.

Zəkat Ərəb xilafətinin ən vacib vergsidir və onun başqa vergilərdən fərqləndirici cəhəti ondan ibarətdir ki, zəkat məhz imkanı aşağı olan insanlar üçün nəzərdə tutulur. Ərəbcə "zeyn" hərfi ilə başlanan "zəka" sözünün mənası "təmizlənmə", "saflaşma" kimi izah olunur ki, "zəkat" sözünün də məhz bu sözdən əmələ gəldiyini demək lazımdır. Yeri gəlmişkən, ərəb dilindən Azərbaycan dilinə keçid almış, habelə "ağıl", "dərketmə qabiliyyəti" kimi anlamda işlədilən "zəka" sözündə də birinci hərf "zəl"dir.

Sözügedən bu verginin toplanılması vergini toplamaq məqsədilə ayrıca məmurlar seçilirdi. İslam dininin qaydalarına uyğun olaraq, zəngin, varlı hesab olunan hər bir müsəlman ildə bir dəfə malik olduğu sərvətinin qırxda bir hissəsini imkansız, yoxsul adamlara vermək öhdəliyi var. Diqqətçəkən məqam bundan ibarətdir ki, zəkat ödənilməsində riayət edilməli olan qaydalar çağdaş dövrümüzə qədər qorunub saxlanılmışdır.

Misal üçün, qoyun və keçiyə görə verilməli olan zəkatın həcmi belə müəyyən olunur. Qoyun və keçinin sayı qırx başdan yüz iyirmi başa qədər olduğu təqdirdə bir baş heyvan, yüz iyirmi birdən iki yüzə qədər olduqda iki baş heyvan, iki yüz birdən üç yüz doxsan doqquza qədər olduğu təqdirdə dörd baş heyvan, beş yüzdən beş yüz doxsan doqquza olduğu təqdirdə isə beş baş heyvan, yəni qoyun yaxud keçi ödənilməlidir.

İri buynuzlu qaramal və dəvələr üçün də həmçinin zəkatın həcmi heyvanların sayına əsasən müəyyənləşirdi. İri buynuzlu qaramalın sayı otuz başdan otuz doqquz başa qədər olduğu təqdirdə bir yaşında olan dana, qırxdan əlli doqquza qədər olduqda 2 yaşında olan dana, altmışdan altmış doqquza qədər olduğu halda bir yaşında iki dana, səksəndən səksən doqquza qədər olduğu təqdirdə iki yaşında iki dana, heyvanların sayı doxsandan doxsan doqquza qədər olduğu halda bir yaşında üç dana, yüzdən on doqquza qədər olduqda bir yaşında iki və iki yaşında bir dana verilməlidir.

Dəvələrə gəldikdə isə, onların sayı beşdən doqquza qədər olduğu zaman bir qoyun yaxud keçi, iyirmidən iyirmi dördə qədər olduğu təqdirdə dörd qoyun yaxud keçi, bu növ heyvanların sayı iyirmi beşdən otuz beşə qədər olduğu halda iki yaşında dişi dəvə, otuz altından altmışa qədər olduqda dörd yaşında dişi dəvə, altmış birdən yetmiş beşə qədər olduqda isə beş yaşında dişi dəvə və s alınır.

Bütün bunlarla bərabər, Ərəb xilafəti illərində insanlar məhsullarının 1/10—qədər üşr vergisinə, Ramazan ayında orucluğun yekunlaşması ilə bağlı həm də fitrə ("zəkat əl-fitr" adlanırdı) ödəmək öhdəliyinə sahib idi.

Azərbaycan torpaqları Ərəb xilafətinə daxil edildikdən sonar insanlar bəzi güzəştlərdən yararlanmaq imkanı da əldə etmişlər.

Məşhur Abbasqulu ağa Bakıxanovun müəllif olduğu "Gülüstani-İrəm" adlı tarixi əsərində yazırdı ki, ərəb qoşunları Şirvan əyalətinə yaxınlaşdığı zaman həmin vilayətinin başçısı Şəhriyar ona tabe oldu və xahişlə müraciət etdi ki, vergilər tələb olunmasın, lakin ordunun saxlanılmasına tələb olunan xərclər veriləcək. Həmin təklif Ömər xəlifinə şatdırıldı, o da bunun mümkün olduğunu deyərək təkliflə razılaşdı. Nəticədə, Şirvan vilayətinin əhalisi xərac ödəməyib.

Daha bir maraqlı tarixi fakt bununla bağlıdır ki, Naxçıvanda yaşamış əhali ilə bağlanılmış sülh müqaviləsinə uyğun olaraq, həmin şəhəri ələ keçirmiş Həbib ibn Məsləmə adlı ərəb sərkərdə orada yaşayanların həyatına zamin durur, bu insanların əmlakının toxunulmazlığına təminat vermək öhdəliyini üzərinə götürür, Bütün bunların müqabilində isə təyin olunmuş məbləğdə Naxçıvan sakinləri vaxtında vergi ödəməli idi.

Buna bənzər şərtlər əsasında digər şəhərlərin əhalisi ilə də

razılaşmalar əldə edilirdi. Bu zaman insanlar malik olduqları sərvətdən tamamilə məhrum edilmirdi. Həmçinin, Ərəb xilafətinin ilk zamanlarında təyin edilmiş vergilərin miqdarı da ötən illərdəki ilə müqayisədə daha aşağı idi.

VIII yüzilliyin ortalarında Azərbaycan ərazisində Abbasilər hakimiyyətə gəlmişlər. Onların hökmranlığı dövründə vergilər əhəmiyyətli dərəcədə artırılmışdır. Qeyd etməliyik ki, həmin illərdə vergilərin ancaq cüzi hissəsi natura ilə verilirdi, bununla bərabər pulnan ödənilən vergilərin artırılması əhalini çətin duruma salmışdı. Tarixi mənbələrə əsasən demək olar ki, II Abbasi xəlifəsi Əbu Cəfər əl-Mənsur zamanında tətbiq olunan vergilər qarət sistemini xatırladırdı. Həmin illərdə yazılmış mənbədə qeyd olunurdu ki, Əl-Mənsur zorakılığa üstünlük verən hökmdar idi, insanları sıxışdırırdı, nəticədə əhali tamamilə əldə düşmüşdü: "Hətta ölülərdən də vergi tələb edilirdi, bud a insanların diləmçi kökündə yaşamasına gətirib çıxarmışdı. Bu əjdahanın aclığını ödəmək üçün ona at və qatırlar, paltar, qızıl və gümüş əşhalar gətirilirdi".

Onu da əlavə edək ki, sözügedən Əl-Mənsur Əbu Cəfər Abdullah ibn Məhəmməd (707-775) Abbasilər sülaləsinə məxsus idi və 754-775-ci illərdə xəlifəlik etmişdi. O, inzibati-maliyyə istiqamətində vacib reformalar həyata keçirmişdir. Bununla yanaşı, ticarət və sənətkarlığı inkişaf etdirməyə nail olmuşdur. 760-cı illərin əvvəlində məhz onun təşəbbüsü ilə Bağdad şəhərinin əsası qoyulmuşdur. Kifayət qədər az müddət ərzində Bağdad böyümüş, inkişaf etmiş və xilafətin paytaxtına çevrilmişdir.

Əl-Mənsurun hökmranlıq etdiyi illərdə Azərbaycanda neft və duza ayrıca vergilər tətbiq edilirdi. IX yüzillikdə yaşamış ərəb tarixçisi Əhməd Belazuri yazırdı ki, VIII yüzilliyin 50-ci illərindən sonar xəlifə Əl-Mənsurun hökmranlığı zamanı Aran və Şirvan hökmdarı Yezid ibn usayd tabeçiliyində olan vergi yığan məmurlarını "Şirvanda neft və duz çıxaranların yanına göndərmişdir, onlardan vergi toplamağı tapşırmışdı, sonralar isə bu işləri yerinə yetirmək üçün xüsusi vergi yığanları ayırmışdı".

Ərəb xilafəti tarixə qovuşandan sonar isə Azərbaycanda yaşayan insanların durumu daha da ağırlaşmışdı.

Elxanilər dövründə tətbiq olunan vergilər haqqında danışarkən

ilk öncə qeyd etmək lazımdır ki, Çingiz xanın nəvəsi Hülaku xan İranın, Əfqanistanın, Türmənistanın, Azərbaycanın, gürcüstanın və Kiçik Asiyanın bir hissəsi daxil olan nəhəng bir dövlər qurmağa müvəffəq olmuşdur.

Elxanilər sülaləsinin və dövlətinin banisi Hülaku xan (1217-1265) 1256-cı ildə hakimiyyəti ələ almışdır və həyatının son günlərinə qədər hökmranlıq etdiyi dövlətin başında olmuşdur. Şimali İranda İsmaillilər dövləti süqut etdikdən sonar Abbasilə sülaləsi xeyli zəifləmişdi. Bu xilafətin sonuncusu Əl-Müstəsimi məğlubiyyətə uğramışdı. Nəticədə dövlətin ərazisi Aralıq dənizinə qədər böyümüşdü. Hülaku xanın hökmdarlıq etdiyi dövrdə, 1259-cu ildə dahi Azərbaycan alimi, filosofu və şairi Nəsirəddin Tusinin təşəbbüsü və təkidi ilə məşhur Marağa rəsədxanasını yaratmaq mümkün olmuşdu.

Monqol xalqından olan Elxanilər zamanı vergilərin səviyyəsi əvvəlki dövrlərlə müqayisədə xeyli dərəcədə yüksəlmişdir, ölkə iqtisadiyyatı isə tədricən böhrana sürüklənirdi. Həmin illərdə, o cümlədən Mahmud Qaza xanın reformalarına qədər Azərbaycanda yaşayan əhali ağır şəraitdə öz mövcudluğunu davam etdirməli olmuşdur. Vergi ödəmək iqtidarında olmayan əhali nümayəndələri məcburiyyət qarşısında məskunlaşdırları torpaqları, əraziləri tərk edərək və dağlara üz tuturdu. Xeyli sayda kənd, qəsəbələr, şəhərlər bolaşmışdı.

Elxani hökmdarı Mahmud Qazan xan 1271-ci ildə anadan olmuşdur. Onun ömrü 33 il çəkmişdir. Mahmud Qazan 1284-1291-ci illər ərzində hökmdarlıq etmiş Arqun xanın oğlu idi. 1295-ci ildə taxta çıxmış Qazan həyatının son gününə kimi oranı tərk etməmişdir. Gənc illərində Xorasanın, mazandaranın və Reyin hakimi olmuş bu şəxs islamı Elxanilər dövlətinin başçısı olduqdan sonra qəbul etmişdir. Onun hökmdarlığı dövründə inzibati və iqtisadi reformalar aparılmış, vergi yükü isə müəyyən dərəcədə zəifləmişdi. Bundan əlavə, suvarma kanalların çəkilməsi, rəsədxana və xəstəxanaların inşası həyata keçirilmişdir.

Qazan anın vəziri olmuş Rəşadədin yazırdı ki, hökumət qaçmış əhalini qaytarmağa çalışırdı, lakin buna müvəffəq ola bilmədi. Xeyli vədlər, o cümlədən qanunsuz yığımların qarşısının alınması kimi vədlərə baxmayaraq, insanlar bun inanmaqdan imtina etmişdilər.

Zəmanəsinin böyük tarixçisi, həkimi və dövlət xadimi Rəşidəddin Fəzlullah Əbül-Xeyr Həmədani (1247-1318) Abaqa xanın dövründə

(1265-1282) dövlət işinə cəlb edilmişdir. Belə ki, onun fəaliyyətindən həmçinin Qazan xan, Ulcaytu və Əbu Səid yararlanmış, ona vəzir vəzifəsini etibar etmişdilər. Ölkə iqtisadiyyatını canlandırmaq üçün reformalara start verilmişdir. Həmin reformaların əsas təşəbbüskarı da məhz Həmədani olmuşdur. Təbrizdə, Sultaniyyədə və digər yaşayış məskənlərində böyük abadlıq-quruculuq işləri aparılmış, suvarma kanalları çəkilmişdir. "Cami-ət-təvarix", "Məkatibat" adlı tarixi kitablar da onun yaradıcılığının məhsuludur. Lakin həyatının sonluğu faciəvi olmuşdur. Belə ki, o, Ulcaytun hökmdarın ölümündə günahkar bilinərək edam olunmuşdur.

Rəşidəddin yazırdı ki, döyülən qadınların ah-naləsi göylərə qədər çatırdı. Bəzi hallarda vergilərin yığılması ilə məşğul olan şəxslər insanların evlərinin damlarına çıxaraq orada gizlədilmiş rəiyyəti tapırdı, onu tutmaq istəyən zaman öz canını qaçmaqla qurtarmağa çalışan şəxslər özlərini yerə ataraq ağır bədən xəsarətləri alırdı. İyezd vilayətin ərazisində yerləşən kəndlərə səfərə yollanan orada bir nəfəri də görə bilməzdi ki, nəsə soruşsun yaxud qısaca bir ünsiyyət qursun. Yaşayış məntəqələrində azsaylı rəiyyət səhərdən axşama kimi gözdə-qulaqda olur, kənardan gələn insanları görən kimi başqalarına xəbər verirdi. Hamı ani surətdə dağılışırdı.

Mahmud Qazan xa tərəfindən vergilər sistemində az-çox nizam intizam, qayda-qanun yaradılmışdır, ancaq buna baxmyaraq, vergilər çox yüksək idi və insanlar bundan əziyyət çəkirdi.

Elanilərin hökmdarlığı illərində qırxdan çox vergi və mükəlləfiyyət növündən istifadə olunurdu. Onların sırasında ən vacibləri ilə tanış olaq:

1. QOPÇUR:

Bu vergi növü Azərbaycana monqollar tərəfindən gətirilmişdir. "Qopçur" sözü monqol dilində "otlaq yer" anlamında işlədilir. Onun tətbiqi elatlardan başlamışdır. Sözügedən dövrdə bu verginin dərəcəsi 1 faiz təşkil edirdi. Yəni, məsələn, hər 100 qoyundan və ya atdan, inəkdən və bu kimi digər ev heyvanından bir baş heyvan vergi kimi ödənilməli idi. Müəyyən müddət keçdikdən sonra qopçur vergisi pul şəklində alınır və əhalinin bütün təbəqələrinə şamil olunurdu. İlk öncə imkanlı adamlar

yeddi dinar, kasıblar isə 1 dinar ödəməli idi. Lakin çox vaxt keçməmişdi ki, bu həddartırıldı. Qazan xan tərəfindən aparılmış reformalardan sonra sözügedən bu vergi növü daha çox kənd adamlarından birdəfəlik deyil, hissə-hissə şəklində toplanılırdı. Birinci hissə ilin əvvəlində, baharın ilk ayında, Novruz günündən iyirmi gün keçənə qədər ödənilirdi. Qopçurun ödənilməsinin ikinci hissəsi isə payız aylarına təsadüf edirdi və birinci payız ayı olan mizanın ilk iyirmi günü ərzində ödənilməli idi. Köçəri tayfalar qopçur vergisini ildə bir dəfə, novruzda ödəyirdi. Nəsirəddin Tusi yazırdı ki, din xadimləri, yaşlı və ahıl insanlar, xəstələr, dərvişlər, eləcə də uşaqlar bu verginin ödənilməsindən azad olunurdu.

Qazan xandan sonra haqqında danışdığımız bu verginin əhalidən yığılması dayandırılmışdır.

2.XƏRAC:

Xərac adlı vergi Sasanilər dövründən yığılırdı və onun mahiyyəti torpaq vergisi idi. Kifayət qədər yüksək vergilərə aid edilirdi. Belə ki, onun dərəcəsi 70-80 faizə çatırdı. Həmin vergi həcminin on faizi maliyyə işləri ilə məşğul olan şəxslərə, eləcə də vergilərin toplanılmasını həyata keçirən məmurlara ayrılırdı. Bununla yanaşı, kənd təsərrüfatında əldə olunan məhsulun nəql edilməsi məqsədilə hər xərvərdən (yüz Mandan) dörd man (bir man təxminən 3 kiloqrama bərabər idi) daşınma və yükləmə məsrəflərinə yönəldilirdi.

Xərac vergisi haqqında bundan sonra verilən məlumatlar o illərdə Azərbaycanda mövcud olmuş vergi mədəniyyətinin səviyyəsi ilə bağlı müəyyən nəticələri hasil etməyə yardımçı olmaqla yanaşı, həm də kifayət qədər maraq kəsb edir.

Vergini toplayan şəxslər amil yaud mühəssil adlanırdı. Onlar insanların yaşadıqları məkana gələrək, mərkəzə yaxın ərazilərdə özünə yer seçir, çadır qururdu. Onların qurduqları çadırın qabağında beş dəfə təbil çalınırdı. Bu, vergi ödəyən insanlar üçün xəbərdarlıq idi. Əgər verginin verilməsində hər hansı səbəbdən gecikmələrə yol verilirdisə, o zaman bir faizə qədər dəbbə, yəni cərimə alınırdı. Müəyyənləşdirilmiş müddətdən sonra vergi borcunu ödəməmiş insanlar yetmiş dəfəyə qədər çubuqla döyülürdü. Insanların siyahıya alınması məqsədilə xüsusi mirzələr çalışırdı, həmin zamanlarda onlara "pitikçi" deyirdilər.

verginin miqdarı da məhz onlar tərəfindən təyin olunurdu.

İnsanlar həm vergiləri ödəməli, həm də vergi işinə baxan məmurların ərzaq və yeməklə təminatına da baxmalı idi. Tarixi məxəzlərdən əldə olunmuş məlumatlara əsasən, 1318-ci ildə Firuzabad şəhərinə üç hakim, altı naibi, yeddi məmur və 200-ə yaxın nəfərdən ibarət olan bir dəstə daxil olmuşdur. Bu hadisə Elxani sülaləsindən olan Əbu-Səidin hökmdarlığı dövrünə təsadüf etmişdir. Onlar təqribən altı ay ərzində yerli əhalinin hesabına yaşayıb, yeyib içirdilər. Onlar tərəfindən təyin olunmuş vergilər o qədər yüksək idi ki.ş insanlar həmin vergiləri ödəmək imkanında deyildi. Əlacsız və çıxılmaz vəziyyətə düşən əhali öz nicatını qaçmaqda görüb yaşadıqları əraziləri tərk etmişdilər. Nəticədə həmin ildə torpaqlarda işləyən, torpağı becərən əhali tapılmadı və xeyli əkin ərazilərdə heç bir fəaliyyət olmamışdır.

Qeud etmək lazımdır ki, fərqli vəziyyətin digər ərazilərdə olması qeyri-mümkün idi.

3.TAMĞA:

Bu verginin tətbiq edilməsi də Elxanilər sülaləsinin hakimiyyətdə olduğu dövrə aiddir və qopçur vergisi də olduğu kimi, həmin illərdə alınmağa başlamışdır. Bu verginin ödəyiciləri əsasən şəhər əhalisi, ticarət və sənətkarlıq fəaliyyəti ilə məşğul olan insanlar idi. Tamğa vergisi iki məna daşıyırdı. Əvvəla, damğa, ikincisi isə, malların aparılması üçün rüsum. Maraqlı fakt bundan ibarətdir ki, rus dilində hamımıza yaxşı olan «таможня» (“tamojnya”) sözü məhz tamğa sözündən əmələ gəlmişdi.

Tarixçilər məlumat verir ki, Qazan xanın hökmranlığı illərində Təbriz şəhərinə yaxın ərazilərdə yeni bir qəsəbə salınmışdır. Onun adı Qazaniyyə idi. Təbrizə daxil olmaq niyyətində olan rumlar (Kiçik Asiyadan gələn insanları belə çağırırdılar) və əfrəncələr (əfrəncə sözü avropalılara aid idi) məhz həmin qəsəbədi yerləşdirilirdi. Gəlmə insanlar üçün xüsusi karvansara, bazaar, hamam və bu kimi digər social tikililər inşa olunmuşdu. Qazaniyyə qəsəbəsində fəaliyyət göstərən vergi toplayanlar Təbrizə gətirilən məhsullara görə tamğa vergisini yığırdılar. Müasir terminlə desək, bu, gömrük rüsumunun bir analoqu idi.

Tamğa daha çox pul formasında toplanılırdı və bu, nağd sözü ilə ifadə olunurdu.

4.BAC:

Elxanilərin zamanında bac vergisi yol rüsumu qismində çıış edirdi. Burada söhbət quru və su yollarından gedir. Yəni, həmin istiqamətlər üzrə hərəkət edən tacirlərdən və digər insanlardan bac alınırdı. Karvan yolu vasitəsilə hərəkət edən tacirlər həmin yollarda bac ödəyirdi. Bu verginin ödənilməsi işinə xüsusi adamlar baxırdı və məhz onlar karvan yollarını qoruyurdu. Körpülər vasitəsilə keçən tacirlər də bac rüsumunu ödəməli olurdu.

5.QALAN:

Tarixi məxəzlərdə yazılır ki, Çingiz xanın dövründə maldarlıq fəaliyyəti ilə məşğul olan köçəri tayfaların nümayəndələri qorçur vergisi ilə yanaşı həm də "qalan" adlı vergini də verməli olurdu. Belə ehtimallar da mövcuddur ki, əkinçiliklə məşğul olan insanlar qalan, köçərilər isə qopçur ödəyirdi. Tarixi yazılı məxəzlərdə "qalan" (yaxud "kalan") yazılanda bəzi hallarda o zamanlarda tətbiq edilən bütün vergilər nəzərdə tutulur. Məhz bu səbəbə görə, həmin verginin dəqiq mənasını bilmək çox da asan məsələ deyil. Misal üçün, yazılı mənbələrdən birində göstərilir ki, Xuzistanda Tustar əhalisi ildə iki yüz dinar, Dəstəbad əhalisi isə iyirmi dinar qalan vergisi qismində ödəməli idi. Bu isə o deməkdir ki, sözügedən vergi növü bütün insanlara aid olmaqla yanaşı onlar tərəfindən pul şəklində ödənilirdi. Vergilərin ödənilməsi ilə bağlı tərtib olunmuş sayahıların birində belə bir başlıq qoyulmuşdur: "Xanın gələn və gedən amirləri üçün kalan". Belə düşünmək olar ki, qalan (yaxud kalan) vergisi Elxanilərin vilayətlərə göndərdikləri əmirlərin xərclərini ödəmək üçün toplanırdı.

6.BİYAR:

Orta əsrlər dövründə biyar vergisi ən geniş yayılmış və son dərəcə ağır müəlləfiyyət idir. Maraqlıdır ki, XX yüzilliyin ilk illərinə qədər onun tətbiqi davam etmişdi. Monqolların hakimiyyətindən çox-çox əvvəllərdə fəodallar tərəfindən riyyəti biyara, yəni heyvanların otarılması, otların biçilməsi, maldarlıq təsərrüfatlarında müxtəlif ərzaq və qida

məhsulların (yağın, pendirin. Qatığın və bu kimi digər yeyinti əmtəələrinin) hazırlanması, atlara qulluq edilməsi, əmlakların qorunması və s. üçün məcbur edilirdi.

Dahi mütəfəkkirimiz Nizami müəllif olduğu "Sirlər xəzinəsi" poemasında "Zalım şahla düz danışan qocanın hekayəti" adlı hissədə biyarın insanları necə zillətə uğramasını ifadə edir:

Qoca dedi: "Adına mən yoxsa şər demişəm?
Dediklərin nədir ki? Ondan betər demişəm.
Qoca, cavan əlinlə içib ölüm zəhəri,
Biyarın cana yığıb saysız kəndi, şəhəri.
Mən deyirəm eybini, şər işini özünə,
Göstərirəm güzgü tək hər işini özünə.
Hər eybini göstərər alsan ələ güzgünü,
Utan, qızar eybindən, qırma elə güzgünü".

Monqollar hakimiyyətdə olduqları illərdə də biyar vergisindən istifadə olunurdu. Ancaq əvvəlki ilə müqayisədə burada kifayət qədər xeyli fərqliliklərin olduğunu qeyd etmək lazımdır. Misal üçün, yeni şəhərsalma prosesinə daha böyük sürət vermək üçün inşaatda istifadə olunan materialları daşımaq məqsədilə yaşayış yerlərinin riyyəti biyarın ödənilməsinə cəlb olunmuşdu.

7.TAĞAR:

Tağar vergi növü orduda olan əskər heyətinin qidalanmasının təmin olunması məqsədilə alınırdı. Tağar szünü iki mənada şərh etmək lazımdır. Birincisi, bu termin qida məhsulları anlamındı işlədilir. İkincisi isə, onun çəki ölçüsü kimi bir mənası da var. Bir çox hallarda "tağar" terminin yerinə "sər-tağar" işlədirdilər, bu isə həmin verginin əhalinin adambaşına tətbiq olunduğu bir vergi növün olması deməkdir.

Hilaku xan Bağdada qoşun çəkəndə İbn-əl-Ömran həmin ordunu tağar vergisinin yığılması hesabına kifayət qədər yüksək səviyyədə hərtərəfli təchiz edə bilmişdir. Odur ki, məhz İbn-əl-Ömran Bağdadın valisi xan tərəfindən təyin olunmuşdu.

Keyxatu xanın hakimiyyəti illərində Qazan xan Xorasanın canişini idi. Onun döyüşçülərinə Fuşencə kəndinin insanları tağar ödəməkdən imtina etdiyinə görə xan çox qəzəbli idi və həmin kəndə hücum etmişdi.

Kəndi tamamilə talan etmiş döyüşçülər orada yaşayan insanların böyük hissəsi, o cümlədən qadın və uşaqlar qul kimi işləməyə məcbur olunmuşdu.

Qeyd etmək lazımdır ki, tağar vergisi ilə bağlı istifadə olunan dərəcələr tez-tez dəyişikliklərə məruz qalırdı və bunun belə baş verməsi dövlətin özünün, onun feodal zümrəsinin, ayrı-ayrı vəzifəlilərin ehtiyac səviyyəsində adılı idi. Sirr deyil ki, iştah və tamah heç zaman azalmır, əksinə - artır. Və tətbiq olunan vergi dərəcələrində istənilən dəyişiklikləri əsaslandırmaq, xüsusilə də həmin dövrdə, çox da çətin məsələ deyildi.

Yeri gəlmişkən, Hülaku xan bağdada qoşun yeridəndə əskərləri üçün hər nəfərdən 1 tağar, yəni təxminən 300 kiloqram un və 1 tuluq, yəni təxminən 150 litrə yaxın çxaır almışdı. Əbu Səidin hakimiyyətdə olduğu illərdə Xorasan şəhərinə hücuma keçən Çığatay şahzadəsi yasavur öz döyüşçüləri üçün məşəd şəhərinin əhalisindən beş yüzə yaxın qoyun, təminən üç yüz ərvər, yəni təqribən doxsan tona yaxın buğda, beş yüz xərvər, yəni təqribən yüz əlli ton arpa tələbi əhali qarşısında qoymuşdur.

Onu da demək yürinə düşərdi ki, tağar da bir çəki vahidi qismində sabitliyi ilə seçilmirdi. Məsələn, monqollar bu çəki ölçüsünü bir kisə düyünün çəkisi qədər, yəni təxminən 35-40 kiloqram olaraq görürdülər. Elxanilərin hakimiyyəti illərində isə bu, yüz Təbriz manına, yəni təxminən 297 kiloqrama bərabər bir ekvivalent kimi götürülürdü. Daha sonrakı dövrlərdə, XVIII yüzillikdə türkiyə və Azərbaycan ərazisində tağar yüz əlli oka, yəni təxminən 192 kiloqram etalonu ilə qəbul edilmişdi. İyirminci yüzilliyin ilk çağlarında Azərbaycan ərazisində yerləşən Gəncədə və onu yaxın bölkələrdə tağar qırx çanaq buğda yaxud arpa anlamına gəlirdi, yəni təxminən qırx pud arpa və 45 pud buğda. Şamaxı ərazisində isə bir tağar təxminən dörd yüz kiloqram yük demək idi.

8.NUZL (YAXUD NUZUL):

Ərəb dilində "nuzul" sözü qonağın qarşısına qoyulan ərzaq deməkdir. Yəni, evə daxil olduqda onun qabağına hansı yeməyi qoysanlar, deməli "nuzul" təklif etmiş olursan. Nuzul ev sahibi tərəfindən sərgilənən qonaqpərvərliyin səviyyəsindən asılıdır. Elxanilər sülaləsinin hakimiyyətdə olduğu dövrdə bu vergi növü ən ağır vergilərdən hesab

olunurdu. Beləliklə, "Allah qonağının" doyunca yeməsi ev yiyəsinin xeyirxahlığından deyil, həmin qonağın ortaya qoyduğu təkid və sırtıqlığın dərəcəsindən asılı vəziyyətdə qalırdı. Şəhər və kəndlərə gələn çoxsaylı elçi, məmur, vergiyığan və bu kimi digər şəxslər əhalinin evlərində yerləşirdi. Bundan əlavə, onlara məxsus nökər və qulluqçular da olurdu. Bu isə o deməkdir ki, "qonaqlar" istədikləri kimi qidalanır, sözün əsl mənasında əhalinin təsərrüfatına talançılıq nöqteyi-nəzərdən yanaşırdılar. İnsanlar isə bütün bunların nəticəsində get-gedə yoxsullaşır, ağır dürüma düşürdü. Gəlmələr çox vaxt evdə nəzərləri dəyən qab-qacağı, xalça-palazı da götürüb aparırdı.

Qazan xanın hakiiyyəti illərində xüsusi fərman verilmişdir ki, dövlət məmurların əhalinin evində yerləşməsi qadağan olunsun. Onlar elçixana adı ilə tanınan xüsusi evlərdə qalırdı. Ancaq sonralar Əbu-Səid dövründə həmin fərman qüvvədən düşmüşdü, qonaqların özbaşınalığı isə bir çox adamları diləmçi kökünə salmışdı.

9. YAM, ULAQ:

Bu iki vergi növü bir-birinə kifayət qədər yaxın, sıx əlaqəli idi. Odur ki, onların ayrılması düzgün deyil. "Yam" sözü dayanacaqlar, "ulaq" sözü isə yamda saxlanılan minik və qoşqu atlar mənası daşıyır. Qazan xan hökmdarlıq etdiyi dönəmdə yollarda hər üç-dörd fərsəng (bir fərsəng təqribən yeddi kilometrə bərabərdir) uzaqlıqda yam inşa olunmuşdu və bir yamda on beş at olurdu. Dövlətə qulluq edənlər uzaq yola çıxan zaman yamlarda istifadə etdikləri atlatı dəyişirdi. Yamlarda işləmək üçün xüsusi qulluqçular tutulurdu. Yamların və ulaqların saxlanılması məqsədilə, sözsüz ki, müəyyən məsrəflər tələb olunurdu, odur ki, əhali həm yam, həm də ulaq vergiləri ödəmək məcburiyyətində idi. Atların sayı az olduqda kənd və qəsəbələrdə yaşayan sadə adamların, hətta yoldan keçənlərin belə atları zor gücü ilə onların əlindən alınır və tələb olunduğu istiqamətdə istifadə edilirdi.

10.BƏHRƏ:

Toplanan məhsulların müəyyən hissəsi vergi ödənişinə cəlb olunurdu və "bəhrə" vergisi adlanırdı. Müəyyən müddət keçdikdən sonra

həmin vergi növü daha çox məlcəhət yaxud malucəhət adı ilə tanınsa da, bəzi kənd və qəsəbələrdə bəhrə adı qalmaqda davam edirdi. Daha çox 20-25 faiz dərəcəsi əsasında tutulan həmin verginin ¼ hissəsi adı ilə tanınan "çərək" forması iyirmici yüzilliyin əvvəlinə qədər davam etmişdi.

11.ŞİR-BAHA:

Bu verginin sözün hərfi mənasında tərcüməsi "süd pulu" anlamına gəlir. Həm feodalların, həm də onların övladlarının toy mərasimini keçirmək üçün toplanırdı. Məsələn, Xorasan valisinin qızının toy məcmisində əhalidən zor gücü ilə əlli min dinar məbləğində pul yığırdılar. Həmin vergidən növbəti illərdə də istifadə olunurdu, ancaq adı "toypulu" idi.

Bütün bunlarla yanaşı, əlavə olaraq həmçinin çərikdən, savəridən, ələfədən, ulufədən, nəzidən, bəqayadan, tərğudan, tusundan, nəmaridən, ternagirdən, təbğurdan, tərhədən, səranedən, neftidən, urfidən, nal-bahadan, şərab-bahadan, cizyədən, mali-amanidən, rəsme-xəzanədən, bağ-şumardan, xanə-şumardan, mal-əs-silahdan, gərək-yaraqdan vergi və mükəlləfiyyətlər olaraq istifadə olunurdu. Bu haqda Elxanilər dönəminə aid tarixi məxəzlərdə müvafiq qeydlərə rast gəlinir. Yuxarıda sadaladığımız vergi və mükəlləfiyyətlər növbəti dövrlərdə də tətbiq edilirdi, bəzilərin adları dəyişdirilmiş, digərləri isə artıq aktuallığını itirmiş və tarixə qovuşmuşdu. Misal üçün, çərikdən, cizyədən, ulufədən və bu kimi digər vergi növlərindən istifadə olunmuşdur, lakin sərane, bağ-şumar və mali-amini kimi vergilər müvafiq olaraq, sər-şumar, bağdaşı və təzminat adı ilə "ikinci həyat" əldə etmiş oldu.

Qeyd etmək yerinə düşərdi ki, "şərab-baha" termini çaxır pulu mənasını daşıyır. Həmin verginin təyinatı yüksək vəzifələrdə olmuş adamlara çaxır almaq üçün vəsaitin təmin edilməsi idi. Doğrudur, islam dini şərabı haram bilərək onu müsəlmanlara qadağan edir, lakin Elxanilər sülaləsinin hakimiyyəti illərində həmin vergi öz qüvvəsini itirməmişdir. Və yalnız elxanilərdən sonra tarixə qovuşmuşdur. Yaxud şüsun adlı vergi növü haqqında sonrakı tarixi məxəzlərdə rast gəlmək mümkün deyil. Həmin verginin təyinatı isə məmurların ərzaq məhsulları ilə təmin edilməsi idi. Urfi, ternagir, tərğu və bu kimi digər vergi növləri də,

yuxarıda sadaladığımız vergilər kimi, mərhələli şəkildə aradan qalxırdı.

Növbəti nəzər salacağımız dövr isə Ağqoyunlu hökmdarı Uzun Həsənin vergi reformalarına təsadüf edir. Belə ki, XV yüzilliyin rəsmi sənədlərindən görə bilirik ki, həmin mərhələdə Azərbaycan ərazisində otusdan çox vergi növü və mükəlləfiyyət mövcud olmuşdur. Əsas vergilərə gəlincə isə, bu sırada, ilk növbədə, məlcəhət və ya bəhrə qeyd edilməlidir. Bu verginin toplanılmasında əldə olunmuş məhsulun həcminin 1/5-i qədər alınırdı. Bununla yanaşı, kənd camaatı həmçinin istifadə etdikləri su mənbələri müqabilində də bəhrə ödəməyə məcbur edilirdi (həmin əlavə bəhrəyə görə arx sahibi məhsulun 1/15-i qədər məhsul alırdı).

Başqa vergi növləri, misal üçün, tamğa, bac, ixracat da kifayət qədər yüksək dərəcəli vergilər sırasında yer alırdı. Tamğa və bac Elxanilər sülaləsinin hakimiyyəti illərindən qüvvədə idi. Hərbçilərin, mülki və ruhani vəzifələrə sahib insanlar üçün toplanan vergi növü isə ixracat idi. Maldarlıqla məşğul olan əhalidən həmin dönəmdə qopçurun yerinə çobanbəyi adlı bir vergi növü geniş yayılmışdır. Yerli inzabatçılıq vəzifələrində işləyən məmur adamlar üçün dəruğəki vergisi nəzərdə tutulurdu. Vergilərin qoyuluşu istiqamətində işləyən məmurlar isə mumayizanə vergisindən bəhrələnirdi. Ruhanilərin başçıları da kənarda qalmamışdı. Belə ki, onlar üçün rəsm-əl-vüzarə vergisi toplanırdı. Biyar mükəlləfiyyəti ilə bərabər feudalların ziyafətlərinin təşkil edilməsi üçün şilənbəha, süfrəbəha və bu kimi digər vergi növləri də tətbiq olunurdu.

Azərbaycanda yaşamış feodallar yeni də müqatiə, yaxud iltizam, yəni vergi toplanılmasını icarəyə vermək metodundan yararlanırdı. Onlar özləri, bir qayda olaraq, şəhərlərdə məskunlaşırdı. Vergilər bu məqsədlə xüsusilə ayrılmış məmurlar tərəfindən toplanırdı, qazandıqları nemətləri isə, nə dərəcədə acınacaqlı olsa da, böyük israfçılıqla işlədirdilər.

XV yüzilliyin ikinci yarısında Ağqoyunlu hökmdarı Uzun Həsən tərəfindən vergi sistemində dərin və köklü reformaların aparılması ilə bağlı qərar qəbul edilmişdir. Azərbaycanın bütün bölgələrinə "qanunnamə" adlı vergi qanunları yayılırdı.

Uzun Həsənin özü haqqında danışarkən qeyd etmək yerinə düşərdi ki, o, mahir diplomat və sərkərdə idi. Həyatı çox da uzun olmayan bu hökmdar 1423/24-cü ildə anadan olmuş, 1478-ci ildə isə vəfat etmişdir. Məhz Uzun Həsən Ağqoyunlu dövlətinin təməlini qoymuş və 1468-

1478-ci illərdə həmin dövlətə başçılıq etmişdir. 1453-cü ildən etibarən uzun Həsən Diyarbəkirdə Ağqoyunlu tayfa ittifaqının rəhbəri seçilmişdir. Bundan sonra onun gərgin fəaliyyət dövrü başlamışdır. 1467-ci ildə Muş döyüşündə Cananşah adlı hökmdara qəlib gəldikdən sonra az vaxt ərzində ələ keçirdiyi həmin geniş topraqlarda öz hakimiyyətini bərqərar etmişdi. Qaraqoyunlu dövləti süqut etdikdən sonra mərkəzi Təbriz olan Ağqoyunlu dövlətini yaradan Uzun Həsənin siyasətində mərkəzləşdirmə meyilləri güclənmişdir, bundan əlavə o, yüksək peşəkarlıqla seçilən ordu da qura bilmişdir. Nizam-intizamlığı ilə seçilən həmin ordu sıralarında ölkə əhalisinin muzdlu xidmət keçdiyi vurğulanır. Uzun Həsən Təbrizdə Qeysəriyyə örtülü bazarı, Nəsriyyə adı ilə tanınan mədrəsə v məscidi, eləcə də digər hal-hazırda tarixi abidə olan ictimai tikililəri inşa etdirmişdir.

"Qanunnamə"yə daxil olan qanunların tam mətni çağdaş dövrümüzə qədər gəlib çıxamışdı, lakin buna baxmayaraq, digər məlumatlardan Uzun Həsən tərəfindən həyata keçirilmiş reformaların hansı səciyyə daşıdığı aydın olur. Həmin illərdə "Həsən padşahın qanunları" yaxud "Dəsturi Həsən bəy" adı altında işıq üzü görmüş həmin qanunlar haqqında bir elmi-araşdırma, tarixi yönümdə əsər yazılmamışdı:

"Uzun Həsənin diqqət çəkən xüsusiyyətləri ədalətli və xeyirxah olması idi. O, tamğa vergisini tam şəkildə ləğv etmək niyyətində idi. Amma əmirləri bu fikirlə razı deyildi. Sultan tamğanı yarıya qədər kiçildib 1/20-ə çatdırdı."

"Qanunnamə"lərə daxil olan qanunlar vergilərin alınması prosesində qayda yaratmaq məqsədini güdürdü, özbaşına alınan və həmin dönəmdə "şıltaq" adı ilə tanınan hər cür vergi növünün qarşısını alırdı. Vilayətin ərazisindən nəql edilməklə digər bölgələrdə satılması məqsədilə daşınan məhsullar üçün bac, bu ərazidə ticarət edilən məhsullar üçün isə tamğa vergisinin ödənilməsi mütləq idi. Tamğa vergisi beş faiz dərəcəsi ilə, bac da onunla müqayisədə xeyli aşağı dərəcə ilə ödənilirdi.

Uzun Həsənin hakimiyyəti illərində köçəri həyat tərzi sürən maldarlardan qopçur vergisi əvəzinə "rəsmi-yataq" adı ilə tanınan vergi alınırdı. Sözügedən həmin vergi qopçur və çobanbəyi ilə müqayisədə daha aşağı dərəcəli idi. Misal üçün, əvvəlki dövrlərdə hər 100 qoyun müqabilində 1 baş heyvan alınırdısa, reformaların aparılması nəticəsində artıq hər üç yüz qoyuna görə bir baş heyvan alınırdı.

"Həsən padşahın qanunları" sonralar Səfəvilərin hakimiyyətdə olduqları illərdə də qüvvədə qalmışdı. Osmanlı imperiyası ərazisində yerləşən bir sıra vilayətlərdə də həmçinin qeyd etdiyimiz qanunlar xeyli müddət qüvvədə imiş.

İndi isə Səfəvilərin hökmranlığı dövründə qəbul edilmiş qanunlara əsasən alınan vergi və rüsumlara nəzər salaq.

Qeyd etmək lazımdır ki, böyük dövlət xadimi Şah İsmayıl Xətai tərəfindən yaradılmış Səfəvilər dövlətinin ərazisində vergi və rüsumlarla əlaqədar qəbul edilmiş qanunlar işlək idi, həmin qanunlardan bəziləri isə sonrakı illərdə də cüzi şəkildə dəyişikliklərə məruz qalmışdı.

O illərdə əsas hesab edilən vergi növləri sırasında məhz torpaq vergillərinin olması səbəbi ilə torpaqların kimə məxsusluğundan həmin vergilərin dərəcələri asılı idi. Torpaq mülkiyyətinin növlərinə toxunaq:

- Dövlətə məxsus torpaqlar; həmin torpaqlar əraziyi-divani, yəni divana aid ərazi adı ilə tanınırdı.
- Şah ailəsinə məxsus torpaqlar; həmin torpaqlar əraziyi-xassə, yəni hörmət əlaməti kimi əraziyi-xasseyi-şərifə adı ilə tanınırdı.
- Şərti verilmiş torpaqlar, həmin torpaqların müxtəlif adları vardı, məsələn, soyurqal, tiyul və bu kimi digər adlarla tanınan sözügedən torpaqlar hərbi və mülki vəzifələr tutan insanlara müvəqqəti yaxud həmişəlik istifadə olunmaq üçün verilirdi.
- Xüsusi mülkiyyətə aid torpaqlar; bu cür torpaq sahələri, bir qayda olaraq, mülk adı ilə tanınırdı və bir nəsildən digərinə keçirdi.
- Məscidlərin mülkiyyətində olan torpaqlar; vəqf yaxud moqufat adı ilə tanınan həmin torpaq sahələri din xadimlərinin ixtiyarında idi.
- İcmaların mülkiyyətində olan torpaqlar; həmin torpaq sahələri bu və ya digər yaşayış məkanların ümumi istifadəsi üçün ayrılmışdır.

Uşr adlı vergi növü torpaq vergilərinə aid idi, ilk öncə bu verginin alınması məqsədilə məhsulun 1/10-i qədər tələb olunurdu, lakin müəyyən müddət keçəndən sonra torpağın münbitliyi ilə diqqət çəkən ərazilərdə, o cümlədən Azərbaycanın aran sonasına aid olan torpaqlarda məhsulun ¼- alınırdı. Natora şəklində tələb olunan həmin vergi torpaq mülkiyyətçisinə ötürülürdü. Bununla yanaşı, əldə olunmuş məhsulun 1/15-i bəhrə, yaxud malcəhət adlanan vergi qismində tələb olunurdu. Səfəvilər sülaləsinin hakimiyyətdə olduğu illərdə bəhrə, adətən, su arxının mülkiyyətçisinə ödənilirdi.

Əsas məşğuliyyət istiqaməti maldarlıq olan insanlar çobanbəyi alı vergi ödəyirdi.

Bu əsas vergilərdən başqa, əhalinin adambaşına alınan vergi (sər-şumare), müsəlmanlığı qəbul etməmiş adamlardan alınan cizyə, ordunu saxlamaq məqsədilə alınan ulufa, sursat, əsbe-çapar, dövlət işində olan məmurların leyhinə alınan rüsumat, pişkiş, torpaqbasdı (rahdari) və bu kimi digər vergilər toplanırdı. Həmin vergi növlərindən başqa hərbi qulluqda olmaq, mükələffiyəti yerinə yetirmək anlamına gələn çərik, dövlət və feodalların leyhinə alınan biyar və əvrəz adlı mükəlləfiyyətlərdən də istifadə olunurdu.

Ümumilikdə, sözügedən dövrdə vergi və mükəlləfiyyətlərin sayı otuzdan artıq idi.

Səfəvi dövlətinin başında duran hökmdar I Şah Hüseynin hakimiyyəti illərində, yəni 1699-1702-ci illər əhatə edən dövrdə əhalinin siyahıya alınması aparılmışdır, nəticədə ödən illərlə müqayisədə vergi yükü əhəmiyyətli dərəcədə artmışdı.

Sonrakı dövrdə Səfəvilərin vaxtında qəbul edilmiş qanunlar nəhəng Osmanlı imperiyasına daxil edilmiş ərazilərdə də öz qüvvəsini itirməmişdi. Misal üçün, Gəncə-Qarabağ əyalətinin və Naxçıva sancağının 1725-1727-ci illəri əhatə etdiyi dövrdə tərtib edilmiş və bu günə kimi qorunub saxlanılmış müfəssəl dəftəri yazılarında sözügedən məkanlarda vergi və rüsumların toplanılması qaydaları öz əksini tapmışdır. Həmin qaydalar Səfəvilər sülaləsinin hakimiyyəti illərində qəbul olunmuş qanunlar bazasında işlənib hazırlanmış qaydalar olduğunu nümayiş etdirir.

"Gəncə-Qarabağ əyalətinin qanunu" adı ilə tanınan məlumat toplusundan bir iqtibas gətirək:

"Əcəm (yəni, Səfəvilər) dövründə Aranın yayıldığı ərazidə ¼ üşr və bununla bərabər 1/15 bəhrə almaq qaydası qüvvədə idi. Əcəm istilahında bəhrənin məzmunu bu idi: hər bir kənddə axan su arxının bir yiyəsi vardı; sudan istifadə edən insan sahibi-ərzə (yəni, torpağın sahibinə) ¼ qədər uşr verməli, həmçinin arx sahibinə də 1/15 qədər bəhrə verməli idi. Dağklq ərazilərdə yerləşən əkin sahələri Aranla müqayisə edildikdə daha kiçik, məhsuldarlığı daha zəif və nibətən yararsız olduğu səbəbindən Əcəm (yəni, Səfəvilər) illərində oralar 1/10 qədər uşr və 1/15 qədər bəhrə verməli idi. Bunlar da həmçinin

əvvəlki qaydaya uyğun olaraq alınırdı.”

GəncəQarabağ əyalətinin müfəssəl dəftər məlumatında göstərilir ki, düyünün dəvə yükündən 14 para, at yükündən 8 para, ulaq yükündən isə 3 para qapan rüsumu götürülürdü. Həmin zamanlarda daha çox dövriyyədə olan pul vahidi idi və 20 para “abbası”, 40 para isə “quruş” kimi tanınırdı.

Kərə yağın və balın dəvə yükü həcmindən 3 abbası, at yükü həcmindən 1,5 abbası, ulaq yükü həcmindən isə on para qapan rüsumu alınırdı. Taxıl məhsullarının vergi cəlb edilməsi zamanı nəzərdə tutulan rüsum isə çox da böyük deyildi. Belə ki, buğda, arpa və darının dəvə yükü həcmindən beş para, at yükü həcmindən 3,5 para, ulaq yükü həcmindən isə 1,5 para qapan rüsumu tətbiq edilirdi.

Qarpız yükündən 1 qapız, yemiş yükündən isə 1 yemiş “subaşılıq” vergi qismində alınırdı.

Həmin mənbədə yüklərdən başqa həmçinin “xudamiyyə” adlanan gömrük rüzumunun da tutulması öz əksini tapmışdır.

Qüvvədə olmuş qaydalara uyğun olaraq, ipək parçası və məhsulları müqabilində “mizani-hərir” adı ilə tanınan vergi bu formada alınırdı: gündəlik tərəzilərdə çəkisi müəyyən edilən ipək 4 batmandan (bir batman təxminən 7,7 kiloqram qədər idi) az olsa, müştəridən hər bir batman müqabilində on iki para alınırdı; ipək məhsulu 4 batmandan çox olduğu təqdirdə isə hər bir batmana görə on altı para verilməli idi; ticarətlə məşğul olan şəxsin əldə etdiyi ipək “divani-həmlə” adlanan otuz iki batmana bərabər olduğu zaman, yük başına iyirmi iki quruş (yaxud 880 para) alınırdı; beləliklə, “divani-həmlə” qədər ipək məhsulunun hər bir batmanın vergi miqdarı 27 para yarım idi və bu zaman ötən dəfəki çəkilərdə “xərci-mizan” adı ilə tanınan on iki və ya on altı para hesaba daxil olunurdu; əgər ipək məhsulu otuz iki batmana çatmırdı, habelə bir-iki batman az olurdusa, o zaman yük başına ötən dəfəki halda olduğu kimi iyirmi iki quruş əvəzinə, hər batman müqabilində otuz iki para alınırdı.

Yuxarıda qeyd etdiklərimiz vergi növünün dərəcəsini ifadə etmək məqsədilə ipək məhsulunun hər batmanının satışa çıxarıldığı təqdirdə dəyərini bilmək vacibdir. Sözügedən zamanlarda, yəni XVIII yüzilliyin əvvəlində Gəncə şəhərinin qalın ipək növü kimi məşhurlaşmış “kənar” səkkiz quruşdan on iki quruşa, incə növü kimi tanınan ipək isə

"şərbaf" on səkkiz quruşdan iyirmi səkkiz quruşa qədər qiymətə satılırdı.

Misal üçün, ehtimal edək ki, ipəyin "kənar" növündən otuz batmanın hər batmanı qiyməti on quruşolmaqla satışa çıxarılır. Belə olan halda, ticarətlə məşğul olan adam ipəyə görə üç yüz quruş miqdarında vergi verməlidir. Bir həcmdə olan yük altı dəfəyə çəkilirsə və hər çəkilən dəfə çəkisi dörd batmandan çox olursa, o zaman ilkin müəyyənləşdirilmiş vergi miqdarı dörd yüz səksən para, yəni on iki quruş olur. "Divani-həmlə" çəkisi qədər olmayan ümumi yük həcmindən hər bir batmana görə otus iki para, yəni ümumilikdə iyirmi dörd quruş miqdarında vergi alınmalı idi. Bu isə o deməkdir ki, vetginin ümumi miqdarı otuz altı quruşa bərabər idi. Bütün bunlardan aydın görə bilirik ki, sözügedən verginin dərəcəsi 12 faiz bəndi təşkil edirdi.

Müfəssəl dəftər adlanan həmin tarixi məxəzdə Gəncənin müqatiələrinin də sıralanması verilir. Onların içidə ən böyük olanı Gəncə şəhəri və onun tabeçiliyində olan ərazilərdə öz fəaliyyətini həyata keçirən "Mizani-hərir" adı ilə tanınan müqatiədir. Həmin müqatiə iltizam metodu əsasında hər il dörd milyon iyirmi ağça ödəməli idi. Həmçinin yada salmaq yerinə düşər ki, ağça termini 1328-1687-ci illərdə Osmanlı İmperiyasının ərazilərində tədavüldə olmuş və gümüşdən hazırlanan pulu ifadə edirdi. 1687-ci ildə ağçanın əvəzinə yüz iyirmi ağça ekvivalentində olan quruş tədavülə buraxılmış, eləcə də həmin tarixdən etibarən maliyyə məsələlərində ağça təkcə hesablama elementi qismində tətbiq edilirdi. Dedikərimizdən aydın olur ki, "Mizani-hərir" müqatiəsi dövlət xəzinəsinə hər il 33.500-ə qədər quruş ödəmək məcburiyyətində qalırdı və bundan sonra həmçinin vergiləri toplamağı öz öhdəsinə götürürdü.

Başqa əsas müqaitələr sırasında aşağıdakıları qeyd etmək lazımdır:

Gömrük, un qapanı və heyvan yeni anbarı müqatiəsi iltizam üsulu vasitəsilə hr il bir milyon iki yüz minə yaxın ağça, yəni on min quruş ödəmək məcburiyyətində idi.

Gəncənin və nayihələrin mirəbiyyə müqatiəsi suvarma ilə bağlı işləri reallaşdırırdı və hər il üç yüz otuz ağça, yəni 2750 quruş məbləğində vergini ödəməli olurdu.

Gəncənin və nayihələrin boyama ilə məşğul olan emalatxanaların

müqatiəsi hər il yüz otuz ikin minə yaxın ağça, yəni 1100 quruş ödəməli idi.

At bazarı müqatiəsi hər il altmış min ağça, yəni beş yüz min quruş ödəmək öhdəliyini yerinə yetirirdi.

Gəncənin və nayihələrinin sabunun istehsalı ilə məşğul olan emalatxanaların müqatiəsi hər il üç yüz altmış ağça, yəni üç yüz quruş ödəyirdi.

Balıq ovu, habelə ət vergisi müqatiəsi hər il otuz min ağça, yaxud ikii yüz əlli quruş ödəmək məcburiyyətində idi.

"Naxçıvan sancağının müfəssəl dəftəri" adlı mühüm tarixi məxəzə müraciət etsək görərik ki, bir sancaqda 9788 vergi ödəyən dövlət xəzinəsinə ildə 2629059 miqdarında ağça vergisi ödəyirdi. Sözügedən həmin illərdə qəbul edilmiş qaydalara uyğun olaraq, yaşı iyirmidən çox olan bütün kişi cinsinin nümayəndələrinin adları dəftərdə qeyd olunmuşdu. Vergi ödəyənlərin subay ("mücərrəd") yaxud evli ("bennak") olmaları da həmçinin öz əksini tapırdı. Yaşlı insanlar, xəst olanlar, eləcə də şikəst, seyid və rahiblər vergi ödəmək məcburiyyətindən azad idi.

Naxçıvan sancağında pambığın, buğdanın, arpanın, darının, noxudun, çəltiyin, paxlanın, mərciməkin və bu kimi digər bitkilərin yetişdirilməsi ilə məşğul olur, əldə olunan çəhsulun 1/10-i qədər üşr, yəni vergi ödənilirdi. Dövlət xəziləsinə ildə hazırda istifadə olunan çəki vahidlərinin etalonu ilə təqribən 64200 kiloqrama yaxın buğda, 57425 kiloqrama yaxın arpa, eləcə də altı tondan bir az çox pambıq məhsulu təhvil verilirdi.

Müfəssəl dəftərə əsasən, bəzi mal və məhsulların qiymətləri də bizə bəlli olur. Belə ki, həmin qiymətlər tədavüldə olan pul kütləsinin alıcılıq qabiliyyətini təyin etməyə şərait yaradır. Misal üçün, sözügedən zamanlarda bir paraya iki kilo yarım buğdanı, yaxud beş kilo arpanı, və ya 4 kiloqrama yaxın noxudu, eləcə də yarım kiloqrama qədər pamğıq əldə etmək mümkün idi.

İndi isə XVIII yüzilliyin ikinci yarısında Azərbaycan ərazisində mövcud olmuş xanlıqlarda tətbiq edilən vergilərə nəzər salaq.

Qeyd etmək lazımdır ki, İran dövlətində Nadir şahın vəfat etməsindən sonra Azərbaycan valiyətləri arıcıllıqla öz müstəqilliyini elan edərək ayrı-ayrı xanlıqlar yaratmağa müvəffəq oldular.

Məşhur azərbaycanlı iqtisadçı Məhəmmədhəsən bəy Vəlili-Baharlı yazırdı ki ki, Azərbaycan xanlıqlarında mövcud olmuş məsrəflər xanların təminatı, xanlıqların idarə olunması, qoşunların və əskərlərin saxlanılması, yolların çəkilməsi və bu kimi digər məsələlər üçün sərf olunan xərclərdən ibarət olmuşdu. Həmin məsrəflərin qarşılanması məqsədilə natural vergilərdən, şəxsi mükəlləfiyyətlərdən, iltizam maddələrindən, eləcə də digər pul vergi növlərindən istifadə olunurdu.

Xanlıqlar dövrünün əsas vergiödəyiciləri qismində kəndlilər çıxış edirdi. Rəiyyəti təşkil edən məhz kənd adamlarının böyük əksəriyyəti idi. Bu insanlar divan, mülk, habelə vəqf adlanan torpaqlarda yaşayırdı. Kənz icması tərəfindən ayrılmış torpaqların becərilməsi ilə məşğul olan həmin kənd camaatı əldə etdikləri məhsulun müəyyən bir hissəsini feodala və ya dövlət xəzinəyinə yönəltməklə vergi mükəlləfiyyətini yerinə yetirmiş olurdular.

Rəncbər isə torpaq sahəsinə malik deyildi. O, xana yaxud hansısa feodala məxsus mülkiyyətində işləməklə cüzi muzd alırdı, və ya kənd təsərrüfatı ilə məşğul olub əldə etdiyi məhsulun kiçik bir hissəsini, bu, adəti üzrə üçdə bir həcmdə olan məhsul idi, özündə saxlayaraq bununla kifayətlənirdi.

Elatların məşğulluğu maldarlıqla bağlı idi və onlar öz tayfa başçılarından asılı durumda idi.

Azərbaycanın ərazisində yerləşən xanlıqlarda vergilərin əsas növü "məlcəhət" hesab olunurdu. "Bəhrə" kimi tanınan bu vergi isə daha çox Naxçıvan və Şirvan xanlıqlarında yayılmışdı. Sözügedən həmin vergi növünün həcmi məhsulun yaxud əldə olunmuş gəlirlərin onda biri yaxud üçdə biri arasında tərəddüd edirdi.

Malcəhət, yaxud bəhrə vergi növündən əlavə insanlar çöpbaşı, bağbaşı, toypulu, otaqxərci, dişkirəsi, mirzəyanə, kələntərlik, darğalıq və bu kimi digər vergi növlərini də ödəməli idi.

Əgər kəndlilər feodalların torpaqlarından istifadə edirdisə, onlar "çöpbaşı" adlı vergi növünü həmin feodala ödəməli idi. Bağ sahələrindən toplanan məhsul həcminin 1/10-i natura formasında alınırdı və həmin mükəlləfiyyətin adı "bağbaşı" vergisi idi.

Kənd camaatı övladlarına etdikləri hər bir toy mərasimi üçün də haqq ödəmək məcburiyyətində idilər.

Əgər toy mərasimi kənd adamının öz ailəsində baş verirdisə, o

zaman həmin kədli bəyə "toyxərci" verməli olurdu. əgər toy məclisi bəyin ailəsində baş tuturdusa, o zaman kəndli "toypulu" tələb edirdilər.

Hər bir kənd adamının həyətindən də vergi alınırdı. Bu verginin adı "otaqxərci" idi.

Qonşuluqda yerləşən xanlıqlarla mübahisə aparmaq məqsədilə hər bir xanlığın başçısı xeyli sayda əskər, döyüşçü saxlayırdı, onların saxama xərclərini isə rəiyyətin hesabına qarşılayırdılar. Qeyd etdiyimiz həmin mükəlləfiyyətin adı "dişkirəsi" idi. Bundan əlavə, atların saxlanılma xərcləri də ödənilməli idi. Belə ki, kənd adamları atların da xərcini çəkməli və onları arpa yemi ilə təmin etməli olurdu. Xanın dəftərxana işlərini aparan işçilər, eləcə də inzibati idarəçilik istiqamətində fəaliyyət göstərən məmur adamların qidalanması, məvacibləri də qarşılanmalı idi. Həmin məsrəflər üçün də ayrıca bir vergi mükəlləfiyyəti – "mirzəyanə" tətbiq edilirdi. Burada məntiqli bir sual ortaya çıxır – bəs vergilərin toplanılmasını həyata keçirən işçilər kimin hesabına yaşamalı idi? Cavab, çox güman ki, hamı üçün bəllidir - əlbəttə, yenə də kənd camaatının hesabına. Məhz sıravi insanlar, adi vergi ödəyiciləri bütün bu xərcləri çəkməli idi. "darğalıq" adı ilə tanınan vergi mükəlləfiyyəti də məhz vergi işçilərinin saxlanılmasını, onların xərclərinin qarşılanmasını nəzərdə tuturdu.

Daha bir vergi növünə nəzər salaq – "biyar". Bu, ötən yüzilliklərdən davam etməkdə olan bir vergi öhdəliyi idi. Hər şeydən əlavə, İranda tətbiq olunan "əvrəz" də yddan çıxmamalı və mütləq qeyd olunmalıdır. Xanlıqlar dönəmində "biyar" vergisi hər il üç gündən altı günə qədər, "əvəz" də iki gün olurdu. Biyar zamanı insanlar təsərrüfatda cari işlərə, yəni ot biçiminə, heyvanların otarılmasına və bu kimi digər kənd təsərrüfatı üçün səciyyəvi xarakter daşıyan fəaliyyətə cəlb edildiyi təqdirdə, əvrəz zamanı bütün kənd camaatı ya qala divarlarının hörgüsü, yaxud da körpülərin salınması ilə və ya feodalların təsərrüfatlarında müvafiq işlərlə bir yerdə məşğul olmalı idilər.

XIX yüzillikdə və XX əsrin əvvəlində Azərbaycanda qüvvədə olmuş vergi mükəlləfiyəti ilə bağlı mövzuya keçməzdən öncə qeyd etmək lazımdır ki, 1813-cü ildə Gülüstan, 1828-ci ildə isə Türkmənçay müqavilələrinin bağlanılması ilə Şimali Azərbaycana daxil olan ərazilər tam şəkildə Rusiyanın tərkibinə daxil oldu. Həmin dönəmdən etibarən Rusiya imperiyası dağılana qədər Azərbaycan ərazisində

Rusiyada qüvvədə olan vergi mükəlləfiyyəti tətbiq edilirdi.

Həmin zamanda vergi növlərinin əsasən iki hissəyə bölündüyünü qeyd etməliyik:

1. *Dövlət əhəmiyyətli vergilər;*
2. *Yerli əhəmiyyətli vergilər.*

Dövlət əhəmiyyətli vergilərinə gəlincə deməliyik ki, bura daşınmaz əmlakdan tutulan vergilər, torpaq vergisi, ticarətə tətbiq olunan vergilər, sənaye vergisi, pul kapitalından tutulan vergi, eləcə də aksiz vergiləri daxil idi.

Yerli əhəmiyyətli vergilər ərazi idarəçilik orqanlarının müəyyənləşdirdiyi vergi növlərindən ibarət idi və uyğun ərazilər üzrə toplanırdı. Ərazi idarəçiliklə məşğul olan orqanlara quberniyalar, vilayətlər, şəhər və qəza zemstvoları daxil idi. Ticarətə, sənaye müəssisələrinə tətbiq edilən vergi növləri, habelə aksizlər dövlət vergilər ilə yanaşı yerlərdə də alınırdı, habelə bundanla yanaşı hər bir həyətdən tutulan tüstü vergisi, faytonçuların, qəssabların ödənilməli olduqları vergilər, otlaqların istifadəsi müqabilində tutulan vergilər, eləcə də digər vergi mükəlləfiyyətlərin ödənilməsi məcburi idi.

Torpaq vergisi güzəştlər nəzərdə tutulan torpaq sahələrindən başqa bütün növ torpaqlara aid edilirdi. Həmçinin meşələrdən istifadə edilməsi müqabilində də vergi mükəlləfiyyəti təyin olunmuşdu.

Azərbaycanda yaşayan yerli əhalinin böyük əksəriyyətini daha çox müsəlmanlar təşkil edirdi, onlar orduda qulluq etməkdən azad idi, buna görə də XIX əsrin 80-ci illərinin axırlarından başlayaraq hərbi xidmət keçməyən insanlar xüsusi vergi ödəməli idi. Misal üçün, ancaq Bakı quberniyasında orduda xidmət etmədiklərinə görə 1893-cü ildə 158000 rubl məbləğində vergi ödənişləri həyata keçirilmişdir. Yelizavetpol quberniyasında isə həmin vergi məbləği 14000 rebl, İrəvan quberniyasında 69000 rubl, Tiflis quberniyasında isə 14500 rubl vergi mükəlləfiyyəti üzrə pul vəsaiti yığılmışdı.

Sözügedən həmin illərdə aksizli məhsullara alkoqollu içkilər, taxta-şalban məhsulları, tutun və tutundən hazırlanan məmulatlar, eləcə də şəkər tozu, kibrit, yun, dəri və dəri məmulatları, habelə digər məhsullar aid edilirdi.

Bakı və Yelizavetpol quberniyaları üzrə işləyən vergi müfəttişliklərin formalaşması və həmin orqanlara işçilərin işə qəbulu

tamamlanmışdır. Onlar sözügedən ərazilərdə vergilərin toplanılmasına görə məsuliyyətli idi.

Vergi məbləğlərinin böyük hissəsi torpaq vergisi və əskəri vergisi hesabına formalaşırdı. İnsanların əldə etdikləri gəlir məbləğlərindən hesablanan vergilər ümumi vergi həcminin əhəmiyyətsiz bir hissəsini təşkil edirdi.

1847-ci ilin 20 aprel və 28 dekabr tarixlərində Rusiya hökuməti "Kəndli əsasnamələri" qəbul etmişdir. Bu da torpaq mülkiyyətçiləri və kənd əhalisi arasında qarşılıqlı münasibətlərin təyin edilməsi nöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb edirdi. Qeyd etdiyimiz bu əsasnamələrin ən birincisi Şamaxı və Dərbənd quberniyalarında fəaliyyət göstərən sahibkarların və kənd adamlarının qarşılıqlı münasibətlərinə həsr edilmişdi. Yeri gəlmişkən, adı çəkilən quberniyalara bu dönəmdə Şamaxı, Şuşa, Nuxa, Lənkəran, Bakı, Quba, habelə Dərbənd qəzaları aid olunurdu.

İkinci əsasnaməyə əsasən Tiflis quverniyasının Yelizavetpol qəzasına daxil olan Qazax və Şəmsəddin nahiyyələrinin sakinləri olan kənd adamlarının vergi mükəlləfiyyətləri öz əksini tapmışdır. Əsasnamələrdə göstərilmiş qaydalar kənd sakinlərinin mükəlləfiyyətlərinin icra olunması və vergilərin fərqli-fərqli növlərinin ödnilməsi metodlarının şərhini ifadə edirdi. Orada qeyd olunurdu ki, istifadə olunan torpaq sahələri kənd adamının öz vəsaiti hesabına becərildiyi təqdirdə, yəni kənd təsərrüfatları məhsullarının əldə olunması prosesində iştirak edən heyvanlar, istifadə olunan alətlər və toxumlar sırf kəndlinin özünə məxsusdursa, o zaman istehsal olunan məhsulların ümumi həcminin 1/10 hissəsi sahibkara təqdim edilməlidir. Əgər becərilən torpaqda aparılan kənd təsərrüfatı təyinatlı bütün işlər sahibkarların vəsaitləri hesabına reallaşırsa, o zaman vergi məbləği iki dəfə artırılırdı, yəni məhsulun artıq 1/10-i deyil, 1/5-i alınaraq sahibkara ötürülürdü. Adı çəkilən əsasnaməyə əsasən, biyar adı ilə tanınan mükəlləfiyyətin müddəti on səkkiz olaraq təyin edilmişdi, bu isə ötən müddətlə müqayisədə 2 dəfə artıq idi. Biyarla bərabər əvrəz vergisi də qüvvədə qalırdı. Maldarçılıqla məşğul olan sahibkarlara çöpbaşı vergisi ödətdirilirdi, onun məbləği hər bir ailəyə görə gümüş pul ifadəsində 4 rubla təşkil edirdi. Hər on həyətdən bir kişi və hər on beş həyətdən 1 qadın ağaya qulluq etməli idi. Ötən dönəmlərdə də feodallar kənd

camaatını nökər kimi işlədirdi, ancaq kəndli qadın tərəfindən ağalara qulluq etmək tələbi olmamışdı. Çar dövrünün müstəmləkəşilərinin özlərindən çıxartdıqları həmin mükəlləfiyyət, yəni hər 15həyətdən bir qadının ağaya qulluq etməsi məsələsi əhalidə böyük hiddət doğurmuşdu və tezliklə ləğv edilməli oldu.

Azərbaycan şimal qonşusunun tərkibində olduğu illərdə bəzi vergi güzəştlərinin tətbiqi də reallaşdırılmışdı. Belə ki, ticarət və sənayenin bir neçə sahələrində, misal üçün, çörəyin və çörək məmulatlarının satışında, mal-qara ticarətində vergilərdən azad edilmələr nəzərdə tutulurdu. İnsanlar heç bir vergi vermədən əldə etdikləri kənd təsərrüfatı məhsullarını bazarlarda satmaq imkanı da qazanmışdı. Bununla yanaşı, din xadimləri tərəfindən əldə olunan gəlirlərə də vergi vergi tətbiq edilmirdi.

Abşeron yarımadasında xam neftin hasilatına görə 1900-cü ilə qədər aksiz vergisi ödənilmirdi. Və ancaq qeyd etdiyimiz tarixdən etibarən Ağşəhər və Qara şəhər ərazisində həmin güzəştin saxlanılması qərara alınmışdı, digər ərazilərə daşınan neft isə vergiyə cəlb olunurdu.

1900-cu ild "Qafqazda xəzinənin xeyrinə toplanan ev başı mükəlləfiyyətlərin ləğvi və bunun əvəzinə dövlət töyçü mükəlləfiyyəti və torpaq vergisi haqqında" qanun qəbul edilmişdi. Həmin qanunvericilik aktı 1901-ci ilin yanvar ayının birindən başlayaraq öz hüquqi qüvvəsinə minmişdi. Bu qanuna uyğun olaraq aşağıdakılar təyin olundurdu:

1. *kəndlilər tərəfindən daim istifadə olunan xəzinə torpaqlarına görə töycü mükəlləfiyyəti;*
2. *bütün digər torpaqlara görə torpaq vergisi;*
3. *yerli əhəmiyyətli zemski vergisi.*

Haqqında danışdığımız qanun qəbul ediləndən sonra hər bir ailənin ödədiyi vergi bütövlükdə Qafqaz ərazisində 1900-cu ilə qədər hər il 1,5 milyon rubla bərabər bir məbləğ təşkil edirdi, daha sonrakı illərdə isə həmin məbləğ 2 dəfədən də artıq böyüdü və təqribən üç milyon manatdan da çox oldu.

Adi insanlar bütün zamanlarda yaxşı bilirdi ki, yeni qanun və qaydaların əvvəliklərlə müqayisədə daha pis olur, bu ənənə sözügedən dövrdə də dəyişmədi. Haqqında danışdığımız qanun da həmçinin qeyd etdiyimiz ənənədən kənarda qalmadı və vergi yükünün daha da

ağırlaşmasına səbəb oldu.

İndi isə Azərbaycan Xalq Cümhuriyyəti illərində qüvvədə olmuş vergi növlərinə nəzər salaq.

Məlum olduğu kimi, 1918-ci ilin may ayının 28-də bütün müsəlman şərqində ilk demokratik respublika məhz Azərbaycanda yaradılmışdır. Onun süqutu isə 27 aprel 1920-ci ilə təsadüf etmişdi. AXC-nin dövründə Azərbaycanda dörd valyutadan istifadə edilirdi:

1. *çar hökuməti illərində buraxılmış rubl əskinasları, həmin pullara "nikolayevski" deyirdilər;*
2. *müvəqqəti hökumət tərəfindən tədavülə buraxılmış rubllar, onlar "kerenka" adı ilə tanınırdı, habelə 1917-ci ildə iyirmi və qırx rubl dəyərinə malik rus kağız pullar idi.*
3. *Gürcüstanda, Tiflis şəhərində hazırlanaraq tədavülə buraxılmış Zaqafqaziya bonları.*
4. *Bakı şəhərində dövriyyəyə buraxılmış Cümhuriyyət bonları, həmin bonlar 1918-ci ilin 28 sentyabrına qədər buraxılırdı və qırx manat bir türk lirəsi nisbətində dəyişilirdi, daha sonra baş vermiş inflyasiya səbəbindən onların dəyəri əhəmiyyətli dərəcədə aşağı düşmüşdür.*

Özünün dövlət müstəqilliyini yenicə bəyan etmiş Azərbaycan Xalq Cümhuriyyəti ağır müharinə şəraitində, digər ölkələrdən gələn ağır təzyiq şəraitində fəaliyyət göstərirdi, lakin, buna baxmayaraq, iqtisadiyyatın durumunu daim yaxşılaşdırmaq istiqamətində ciddi səylər göstərirdi.

Haqqında danışdığımız illərdə gənc Azərbaycan dövlətinin büdcəsi aşağıda qeyd edilmiş vergi növləri sayəsində dolurdu:

1. *Müstəqim vergilər: bu vergilərə torpaqdan, daşınmaz əmlakdan tutulan vergilər, eləcə də dövlət gəlir vergisi, sənayedən, kapital qoyuluşları sayəsində əldə olunan gəlirlərdən vergilər, habelə hərbi mükəlləfiyyət və notarial vergiləri dail idi.*
2. *Dolayı vergilərə gəldikdə isə qeyt etməliyik ki, bura tütönü, papiros kağızlarına, şəkərə, çay məhsullarına, benzinə, ağ neftə, sürtgü yağlarına və digər neft məhsullarına görə tutulan vergilər, eləcə də gömrük rüsum ödəişləri aid edilirdi.*
3. *Hökumət adamlarına aid vergilər qrupu da mövcud idi, bura mədənlərdən əldə olunan gəlirlərə, poçt və teleqraf gəlirlərinə*

tətbiq olunan vergilər, eləcə də meşə sahələrinə, balıq vətəgələrinə, pambıqçılıq təsərrüfatlarına görə əldə olunan gəlirlərə görə tutulan vergilər daxil idi.

Sözügedən illərdə ağır iqtisadi durumdan biz məşhur Azərbaycan xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin Nazirlər Şurasının sədri Nəsibbəy Usubbəyova 1919-cu il 29 iyun tarixidə yazmış olduğu məktubdan da xəbər tuta bilirik.

Həmin məktubda Tağıyev yazılırdı ki, fikrimcə yaranmış şəraitdə sizin diqqətinizi hökumətin fəaliyyət mərkəzindən kənarda qalmış bir neçə vacib məsələlərə yönəlmtəliyəm – yəni, maliyyə və iqtisadi siyasət kimi əhəmiyyətli məsələlərə: "Son aylarda bizim pul vahidinin məzənnəsində enmələr müşahidə olunur.

Manatımız Qərbi Avropa bazarında iki qəpikdən də az qiymətləndirilir, bu da azmış kimi, artıq dağıldığı şübhə doğurmayan Rusiya imperiyasının və hal-hazırda ümumiyyətlə mövcud olmayan kerenski hökumətinin pul vahidləri də Azərbaycanın paytaxtı Bakı şəhərində üç, dörd hətta beş dəfəyə qədər çox dəyərə malikdir.

Məhsulların xarici ölkələrə satışı ilə bağlı tətbiq edilmiş məhdudiyyətlər bizim milli valyutamızın tamamilə dəyərsizləşməsi ilə nəticələnib. İdxal və ixracın həyata keçirilməsi ilə bağlı sərt şəkildə nəzarət tidbirlərinin aparılması, əmtəə mübadiləsinin məhdudlaşdırılması isə sərmayə yatıran kapital sahiblərinə böyük zərərlər vurub".

Hacı Zeynalabdin Tağıyev Azərbaycanın iqtisadi tərəqqisi məqsədilə təxirəsalınmaz addımların atılmasını tövsiyyə edirdi.

Burada bir haşiyəyə çıxmağı və Hacı Zeynalabdin Məhəmməd Tağı oğıu Tağıyevin kim olmasına nəzər salmağı lazım bilirik. Məsələ burasındadır ki, H.Z.Tağıev (1823-1924) məşhur Azərbaycan sahibkarı və mesenatı olmaqla, 1873-cü ildə 2 nəfərlə Bibiheybət ərazisində icarə əsasında ortaqlı bir torpaq sahəsi götürür, həmin torpaqda isə qazılan quyudan neft fontanı vurur. Bunun sayəsində böyük gəlirlər əldə etmiş hacı qıs bir müddətdə varlanır və milyonçuya çevrilir. 1883-cü ildə o, Bakıda teatr binası tikdirir, sonrakı illərdə isə Bakıya Şollar suyu çəkdirir. Trikotaj fabriki, qızlar üçün məktəb binası inşa etdirir və maliyyələşdirir. Bununla yanaşı, H.Z.Tağıyev "Füyuzat" jurnalının və "Həyat" adlı qəzetinin buraxılmasına da sponsorluq edir.

İndi isə, qayıdan Hacı Zeynalabdinin irəli sürdüyü təkliflərə. Qeyd

etmək lazımdır ki, həm sözügedən təkliflər, həm də Azərbaycan hökumətinin planlaşdırdığı tədbirlər elə kağız üzərində də qaldı. Bolşeviklərin rəhbərlik etdiyi rus ordu qüvvələri Azərbaycan Xalq Cümhuriyyətinin cəmi iyirmi üç ay davaç etmiş istiqlal tarixinə son qoydu və respublikada Sovet hakimiyyəti quruldu..

İndi isə Azərbaycanda həmin dövrdə - yəni Sovetlər dönəmində qüvvədə olmuş vergilərlə tanış olaq.

Məlum olduğu kimi, 1920-ci il aprel ayının 28-də Azərbaycanda Sovet hakimiyyətinin qurulası elan edildi. Xalq sanki yağışdan yağmura düşdü və ölkəmizin ərazisində bir imperiya digər növ imperiya ilə əvəz edildi.

Rus ordusu paytaxt Bakıya daxil olduğu andan hərbi birləşmələrin saxlanılması üçün tələb olunan bütün xərclər ölkə əhalisinin üzərinə qoyuldu. Həmin illərdə Azərbaycanda sosial-iqtisadi vəziyyət heç də ürək açan deyildi. Bir çox problemlər sırasında ön plana çıxan əsas çətinlik taxılın qıtlığı ilə bağlı olub. Misal üçün, 1920-ci ildə ölkədə taxıl qıtlığı doqquz milyon pud təşkil edirdi. Lakiin, buna rəğmən, hər şeydən əvvəl məhz əskərlər çörəklə təmin edilirdi. Geyim əşyalarının təchizatı da problemə çevrilmişdir. Belə ki, paltar və ayaqqabı çatışmırdı. H.Z.Tağıyevin mülkiyyətində olan fabrik isə ancaq ordunu təmin etmək iqtidarında idi. Təsadüfi deyil ki, ayaqqabıların 75 faizə qədəri əskərlərin təminatına yönəldilirdi.

Azərbaycandan sonra rus qoşunları gürcüstana daxil oldu və orada da Sovet hakimiyyəti bərqərar oldu. Belə planlaşdırılırdı ki, bir ay bitəndən sonra əskərlər yenidən ölkəmizə qayıtsıın. Ancaq vəziyyətin kifayət qədər ciddi və ağır olduğunu görən yeni yerli hökumət xahişlə Moskvaya müraciət etdi ki, Azərbaycanı tərk etmiş ordu hissələri geri qayıtmasın. N.Nərimanovun, D.Bünyadzadənin və A.Serebrovskinin imzaladığı teleqramda deyilirdi ki, Azərbaycanın kənd camaatı və fəhlə sinfi 10 ay XI Qızıl Ordusunun hərbi hissələrinin respublika ərazisində yerləşdirilməsi ilə bağlı xərclərin qarşılanması zamanı bir çox çətinlik və məhrumiyyətlərə dözə bildi. Kənd insanların və fəhlələrin qidalanması çox aşağı səviyyədədir, geyimləri də, ümumi vəziyyətləri də acınacaqlıdır.

Nəticədə Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Siyasi bürosunda sözügedən məsələ müzakirəyə çıxarılıb.

Nəticədə, ordu birləşmələrinin gürcüsta ərazisində qalması, eləcə də xarici ölkələrdən taxılın idxalı həcminin artırılması istiqamətində təcili və təxirəsalınmaz tədbirlərin görülməsi barədə qərara gəlinib.

Rusiyanın paytaxtı Moskva şəhərində 1917-ci ilin oktyabrında inqilab baş vermişdir. Bundan sonra şimal qonşumuzun ictimai-siyasi quruluşunda "hərbi kommunizmə" doğru keçid reallaşdırılmışdır. Ordu bütün məsələlərə nəzarət edirdi. Əhali bütün maddi nemətlərini təhvil verməli idi. Qurulmuş nəhəng imperiyanın bütün ərazisində insanlar aclıqla sınağa çəkilirdi. İqtisadiyyat dərin tənəzzül və böhran keçirirdi. Vəziyyətin acınacaqlı dürüma düşdüyünün fərqində olan mərkəzi hökumət 1921-ci ilin yaz aylarında etibarən ölkə ərazisində yeni iqtisadi siyasətə keçmək məcburiyyətində qalmışdır. İlhaq edilmiş Azərbaycan Respublikasında bu siyasətin həyata keçirilməsi nəticəsində ərzaq sapalağını ərzaq vergisi əvəz etmişdi. Ərzə vergisinin ödəyiciləri bütün vergi öhdəlikərini yerinə yetirdikdən sonra qalmış məhsuldan istifadə etmək hüququna yiyələnirdi. Kəndli həmçinin bu məhsulu sata da bilərdi. Amma Azərbaycan özünü taxılla təmin etmək iqtidarında deyildi, odur ki, ərzaq vergisinin ləğv olunmasına qərar verildi.

Moskvada gözəl bilirdilər ki, Bakının neftinə yiyələnmək üçün bu şəhəri çörəklə təmin etmək öhdəliyini öz üzərinə götürməlidir və belə də etdi.

Ancaq sözügedən verginin tətbiqi ilə bağlı güzəştlərin edilməsi çox da davam etmədi. Belə ki, 1921-ci ilin may ayında Azərbaycanda I Sovetlər qurultayı keçirilmişdir. Qurultayda ərzaq vergisinin yerinə "çanaq" adı almış könüllü rüsumun tətbiq edilməsi ilə bağlı qərar qəbul edilmişdir. Həmin rüsumum məbləği iyirmi girvənkə təşkil edilməklə hər bir təsərrüfatdan alınırdı. 1922-ci ildə, yəni bir il keçəndən sonra, ərzaq vergisinin bərpa olunması ilə bağlı yenidən qərar verilmişdir. Bu haqda 1922-ci ilin mayın 3-də Azərbaycanda keçirilmiş II Sovetlər qurultayında dekret qəbul edilmişdir.

Ukrayna və Rusiya ərazisində taxıl becərildiyi yerlərdə 1922-ci ildə quraqlıq olmuşdur. 90 milyonluq əhalisi olan qırx quberniyada aclıq tüğyan edirdi. Aclıqdan əziyyət çəkən əhaliyə kömək etmək məqsədilə Azərbaycanın ayrılmalı olduğu pay bir milyon puddan 2 milyon puda qədər artırılmışdır. Bu isə o demək idi ki, Azərbaycanda

toplanmış ümumi taxıl məhsulunun 6,74 faizi göndərilmişdir.

1930-cu ildən etibarən Sovetlər birliyində vergi dərəcələrinin xeyli azalması prosesi tədricən baş verirdi. Məsələ burasındadır ki, SSRİ-nin dövlət büdcəsinin gəlir hissəsi toplanan vergilər sayəsində deyil, ümummilli məhsulun bilavasitə məcburi qaydada alınması hesabına doldurulurdu.

Müəssisələr üçün 2 növdə vergilər nəzərdə tutulurdu. Birincisi, dövriyyə vergisi, ikincisi isə - mənfəətdən ayrılmalar. Fondlara normativ ayrılmalar xaric, sənaye sahəsində və ticarət sektorunda fəaliyyət göstərən müəssisələr əldə etdikləri bütün mənfəətlərini dövlət büdcəsinə ötürürdü.

Əhalidən alınan vergilər dövlət büdcəsində çox da böyük paya malik deyildi. Qeyd etmək yerinə düşərdi ki, XX əsrin 80-ci illərinin ortasında SSRİ-nin dövlət büdcəsində gəlir hissəsinin doxsan faizdən artığı məhz xalq təsərrüfatından gələn dxilolmalar sayəsində dolurdu. Əhalidən alınan vergilərin xüsusi çəkisinə gəldikdə isə, bu göstərici yeddi-səkkiz faiz civarında idi.

Və, nəhayət, Azərbaycanın çağdaş tarixinin – yəni, öz dövlət müstəqilliyini 1991-ci ilin oktyabrın 18-dən sonrakl dövrə aid vergi növlərinə nəzər salaq.

Məlum olduğu kimi, Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra vergi qanunvericiliyinin formalaşdırılması, uyğun institutların yaradılması baxımından böyük işlər görülmüşdür. Nəzərə almaq lazımdır ki, ölkənin vergi sistemi kifayət qədər qısa zaman kəsiyində xeyli təkmilləşdirilmiş və dərin islahatların həyata keçirilməsi nəticəsində dünyanın ən qabaqcıl vergi sistemlərindən birinə çevrilmişdir. Biz Azərbaycanın vergi sisteminin qət etdiyi institusional tərəqqi yoluna nəzə salmaqla yanaşı, respublikada Vergi Məcəlləsinin qəbul edilməsi, Vergilər Nazirliyinin formalaşdırılması, hansı qanunvericiliyin vergilərlə bağlı müddəalarının Vergi Məcəlləsindən üstün tutulması, eləcə də ikiqat vergitutma problemləri ilə tanış olub onları təhlil eədəcəyik.

Vergi Məcəlləsinin qüvvəyə minməsi məvzusuna toxunarkən demək lazımdır ki, ümummilli liderimiz heydər Əliyevin 2000-ci il 11 iyun tarixində imzaladığı 905-IQ nömrəli "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı

hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsinə uyğun olaraq, 1 yanvar 2001-ci ildən başlayaraq Azərbaycan ərazidinsə vergi Məcəlləsi qüvvəyə minmişdir.

Qeyd etmək lazımdır ki, Vergi Məcəlləsi hələ təsdiq edilmədikdə Azərbaycanda mövcud olmuş vergi sisteminin tənzimlənməsi bir neçə qanun vasitəsilə həyata keçirilirdi. Vergi Məcəlləsi öz hüquqi qüvvəsinə malik olduğu gündən etibarən aşağıda sadaladığımız normativ sənədlərin də hüquqi qüvvəyə düşməsi rəsmiləşdirildi:

- *Azərbaycan Respublikasının "Əlavə dəyər vergisi haqqında" Qanunu;*
- *Azərbaycan Respublikasının "Aksizlər haqqında" Qanunu;*
- *Azərbaycan Respublikasının "Azərbaycan Respublikasında fiziki şəxslərdən gəlir vergisi haqqında" Qanunu;*
- *Azərbaycan Respublikasının "Dövlət vergi xidməti haqqında" Qanunu;*
- *Azərbaycan Respublikasının "Dövət vergi orqanlarının vəzifəli şəxslərinin inizam məsuliyyəti haqqında Nizamnamə barəsində" Qanunu;*
- *Azərbaycan Respublikasının "Dövlət yol fondu haqqında" Qanunu;*
- *Azərbaycan Respublikasının "Mədən vergisi haqqında" Qanunu;*
- *Azərbaycan Respublikasının "Əmlak vergisi haqqında" Qanunu;*
- *Azərbaycan Respublikasının "Torpaq vergisi haqqında" Qanunu;*
- *Azərbaycan Respublikasının "müəssisələrin və təşkilatların mənfəət vergisi haqqında" Qanunu;*
- *Azərbaycan Respublikası Milli Məclisinin "Fiziki şəxslərdən gəlir vergisi tutulmasının qaydasında dəyişikliklər edilməsi haqqında" qərarı;*
- *Azərbaycan Respublikası Milli Məclisinin "Mədən vergisi tutulan faydalı qazıntıların siyahısının təsdiq edilməsi haqqında" qərarı.*

2001-ci ilin yanvar ayının 1-dən etibarən özünün hüquqi qüvvəsinə minmiş ilk Vergi Məcəlləsinin 221 maddəsi və 17 fəsli olub.

İndi isə Vergilər Nazirliyinin nə zaman yarandığına və kimlərin vergilər naziri vəzifəsində işləməsinə aydınlıq gətirək.

Qeyd etmək lazımdır ki, Vergilər Nazirliyi 2000-ci ildə yaradılmışdır. U haqda ulu öndər Heydər Əliyev 2000-ci ilin fevral

ayının 11-də müvafiq Fərman imzalamışdır. Həmin Fərmana əsasən Azərbaycan Respublikasının Baş Dövlət Vergi müfəttişliyi ləğv edilmişdir, ləğv edilmiş həmin qurumun bazasında Azərbaycan respublikasının Vergilər Nazirliyi yaradılmışdır. Diqqətçəkən məqam bundan ibarətdir ki, dövlət başçısı cənab İlham Əliyevin 2005-ci ilin fevral ayının 1-də imzaladığı Sərəncama əsasən hər il fevralın 11-də Azərbaycanda "Vergi işçilərinin peşə bayramı günü"nün təsis edilməsi də məhz ümummili liderimizin imzaladığı fərmanla əlaqədardır.

Vergilər nazirliyi formalaşandan sonra ona iki nəfər rəhbərlik etmişdir. Belə ki, Fazil Əsəd oğlu Məmmədov 11 fevral 2000-ci ildən 5 dekabr 2017-ci ilə qədər, Mikayıl Çingiz oğlu Cabbarov isə 5 dekabr 2017-ci ildən 23 oktyabr 2019-cu ilə qədər bu quruma rəhbərlik etmişlər.

Həmçinin qeyd etmək lazımdır ki, dövlət başçısının 2019-cu il oktyabrın 23-də imzaladığı Fərmanla Azərbaycan Respublikasının Vergilər Nazirliyinə, Azərbaycan Respublikasının Əmlak Məsələləri üzrə Dövlət Komitəsinə, eləcə də Azərbaycan Respublikasının Antiinhisar və İstehlak bazarına Nəzarət Dövlət Agentliyinə dövlət xidmətləri statusu verilmişdir və sadaladığımız qurumlar Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin tərkibinə daxil edilərək bu nazirliyin tabeçiliyinə verilmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin 2020-ci il may ayının 12-də imzaladığı fərmanla "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əsasnaməsi" təsdiq edilmişdir.

İqtisadiyyat Nazirliyinin tabeçiliyində fəaliyyət göstərən Dövlət Vergi Xidməti respublikada həyata keçirilən vahid maliyyə və büdcə siyasəti hüdudlarında müvafiq vergiləri, icbari dövlət sosial sığorta haqlarını, işsizliyəgörə ödənilən sığorta və icbari tibbi sığorta haqlarını, eləcə də ölkə qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin aktı ilə Vergi Xidmətinin səlahiyyətləri çərçivəsinə daxil olan bütün digər məcburi ödənişləri vaxtlı-vatında və tam həcmdə toplanılmasına görə cavabdehlik daşıyır, bunun üzərində dövlət nəzarəti tədbirlərini həyata keçirir və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturunda fəaliyyət göstərir.

Vergi qanunvericiliyi ilə tənzimlənən münasibətlərə toxunaraq qeyd etmək lazımdır ki, Vergi Məcəlləsinin "Ümumi müddəaları" adlanan birinci fəslə uyğun olaraq, Vergi Məcəlləsinin tənzimlədiyi

münasibətlər Azərbaycanda vergi sistemini, vergitutma prosesinin ümumi əsaslarını, vergilərin müəyyənləşdirilməsini, ödənilməsini və toplanılması qaydalarını, eləcə də vergi ödəyicilərinin və dövlət vergi qurumlarının, vergi münasibətlərinin başqa iştirak tərəflərinin vergitutma məsələləri ilə əlaqədar hüquq və vəzifələrini, vergi nəzarəti tədbirlərinin forma və metodlarını, vergi qanunuvericiliyinin pozulması müqabilində məsuliyyəti, vergi qurumlarının və onların vəzifəli simalarının hərəkətlərindən yaxud hərəkətsizliyindən şikayət edilməsi qaydalarını nəzərdə tutur.

Tamamilə aydındır ki, vergi sistemi ilə əlaqəli bir çox münasibətlər mövcuddur ki, onların tənizmlənməsi Vergi Məcəlləsinin özü ilə bərabər həm də başqa qanunvericilik sənətləri vasitəsilə həyata keçirilir. Məsələn, Azərbaycanda vergi qanunvericiliyinə zidd hərəkətlərə görə məsuliyyətin tənizmlənməsi həm İnzibati Xətalar Məcəlləsi, həm də Cinayət Məcəlləsi ilə də nəzərdə tutulur.

Bununla yanaşı, Vergi Məcəlləsinin müddəalarından əlavə normativ sənədlərə istinad edilməsi də diqqət çəkir. Məsələn, əmək haqqına görə hesablanan vergi məbləğinin müəyyənləşdirilməsi zamanı fiziki şəxslərə vergi güzəştlərinin tətbiq edilib edilmədiyini müəyyənləşdirmək məqsədilə müvafiq sənədlərin toplanılması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il yanvarın 4-də verilmiş 4 saylı qərarı ilə tənzimlənir.

Müxtəlif ölkələrin vergi sahəsində topladığı təcrübə göstərir ki, Vergi Məcəlləsi tərəfindən istifad edilən bu və ya digər normativ hüquqi aktın qəbul edilməsi baş vermədiyi təqdirdə, vergi sisteminin bütövlükdə vahid sənəd – Məcəllə vasitəsilə tənzimlənməsi də məntiqli görünür. Bu gün vergi ödyiciləri həyata keçirdikləri fəaliyyət çərçivəsində Vergi Məcəlləsinə istinad edir, ona əsaslanır. Bununla yanaşı onlar həmçinin başqa sənədlərdən də, məsələn, Nazirlər kabinetinin verdiyi qərarlardan, qanunlardan, fərmanlardan, sərəncamlardan və bu kimi digər normativ-hüquqi aktlardan istifadə etməlidir.

Vergi Məcəlləsində Naxçıman MR-da, eləcə də bələdiyyələrdə vergitutmanın ümumi əsasları və vergilərin müəyyənləşdirilməsi qeyd edilir. Bələdiyyələr üçün nəzərdə tutulan torpaqdan, əmlakdan tutulan vergilərin, eləcə də mədən vergisinin müəyyənləşdirilməsi prosesində Vergi Məcəlləsində yer alan müvafiq müddəalarda öz əksini tapmış

qaydalara əsasən ayrılmalı olan vergi miqdarından artıq vergi və ödənməmiş vergi müqabilində maliyyə sanksiyalarından yüksək sanksiyaların tətbiqi qeyri-mümkündür.

Lakin onu da qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində yer alan 4.4-cü maddəyə uyğun olaraq, vergi qanunvericiliyinə əsasən bələdiyyələr onların səlahiyyətləri çərçivəsinə daxil olan torpaq sahələrində vergi ödəyicilərinin ayrı-ayrı təbəqələrini yerli vergi növlərinin ödənməsindən tam yaxud qismən şəkildə azad etmək səlahiyyətinə malikdir, eyni zamanda, onlar qüvvədə olan vergi nüvlərinin dərəcələrinin də azaldılması ilə bağlı qərar qəbul etmək hüququna malikdir.

Bu məsələni misalla izah etsək, daha məqsədəuyğundur. Fərz edək ki, "X" bələdiyyəsi Vergi Məcəlləsinə əsasən Məmmədov Faiq Əli oğluna 2019-cu il üzrə 20 manat məbləğində əmlak vergisinin tutulmasına qərar verib. Lakin Bələdiyyə Faiq Məmmədovun maddi durumu və səhhəti ilə əlaqədar yazmış olduğu ərizəsini nəzərə alaraq belə bir qənaətə gəlmişdir ki, bu vətəndaşın 2019-cu ilə görə nəzərdə tutulmuş əmlak vergisi məbləğinə 50% miqdarında güzəşt tətbiq olunsun. Aydındır ki, bələdiyyə kimi bir qurumun bu cür güzəştlərin tətbiqi ilə bağlı qərarların verilməsi konkret rəsmi sənədlərdə mövcud olan müvafiq müddəalara söykənməlidir.

İndi isə Vergi Məcəlləsində sosial sığorta məsələlərinin necə tənzimləndiyi ilə tanış olaq.

2019-cu ilin yanvarın 1-dən başlayaraq Vergi Məcəlləsinə əlavə olunan 1.4-cü maddəyə uyğun olaraq, həmin tarixdən icbari dövlət sosial sığorta haqlarının, eləcə də işsizliyə görə ödənilən sığorta haqlarının yığım və hesabatlılıq məsələləri ilə əlaqəli səlahiyyətlər ölkənin Vergilər Nazirliyinə həvalə olunmuşdur. Məhz bu səbəbə görə Vergi Məcəlləsi vasitəsilə tənzimlənən münasibətlərə yalnız vergilərlə bağlı məsələlər deyil, həmçinin dövlət sosial sığorta haqqı və işsizlikdən sığorta haqları da əlavə olunub. Dövlət sosial sığorta haqqı və işsizliyə görə ödənilən sığorta haqlarının ödənilməsi funksiyası əvvəllər də olduğu kimi, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Sosial Müdafiə Fondu üzərində qalırdı.

Edilmiş dəyişikliklərin əsas məzmunu və hədəfi ondan ibarət olmuşdu ki, sığortaedənlər sosial sığorta haqqı və işsizliyə görə

ödənilən sığorta hesabatlarını qeyd etdiyimiz quruma deyil, məhz Vergilər Nazirliyinə təqdim edirdi. Yeri gəlmişkən, dövlət başçısının imzaladığı Fərmana əsasən Vergilər Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmaq şərtilə müvafiq hesabat formasını işləyib hazırlamaq tapşırığı almışdır. Vergilər Nazirliyi Bəyannamə Tərtibi Proqramı və "onlayn" rejimdə təqdim edilmək məqsədilə xüsusi formaların işlənib hazırlanmasını həyata keçirmişdi. Vergi ödəyiciləri tərəfindən 2018-ci ilin dördüncü rübündən etibarən sosial sığorta ilə əlaqədar təqdim edilməli olan hesabatları vergi orqanlarına göndərilməsinə başlanıldı.

Lakin qeyd etmək lazımdır ki, hesabatların vergi əməkdaşlarına təqdim edilməsinə baxmayaraq, sosial ödənişlərin aparılması ilə əlaqəli məsələlərin tənzimlənməsi yenə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yerinə yetirilir.

Növbəti nəzər salacağımız məsələ hansı qanunuvericiliyin vergilərlə bağlı müddəalarının Vergi Məcəlləsindən üstün olması ilə bağlıdır.

Məlumdur ki, Vergi Məcəlləsinin 2.5-ci maddəsinə uyğun olaraq, dövlətimizin tərəfdar olduğu bütün beynəlxalq sazişlərdə vergilər barədə bu Məcəllənin və ona uyğun olaraq qəbullanmış normativ hüquqi aktların nəzərdə tutduğu müddəalardan fərqlənən müddəaların mövcudluğu aşkar olunduqda, sözügedən bu beynəlxalq müqavilələrin müddəalarının tətbiq edilməsi nəzərdə tutulur.

Ölkəmizin tərəfdar olduğu beynəlxalq sazişlər dedikdə biz "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, dövlətimizin beynəlxalq sazişi yaxud müqaviləsi, adından asılı olmamaq şərtilə Azərbaycanın xarici öılkələrlə və beynəlalq qurumlarla qeyd etdiyimiz həmin Qanunla müəyyənləşdirilən qaydada yazılı surətdə bağlanan razılaşma nəzərdə tutulur. Daha bir vacib məqama toxunmağı vacib bilirik ki, bü kimi yazılı beynəlxalq razılaşmaların müqavilələr, sazişlər, konvensiyalar, paktlar, protokollar, məktubların yaxud notaların mübadiləsi, eləcə də digər ad altında beynəlxalq müqavilələr formasında da olması mümkündür.

Vergi Məcəlləsində yer alan 2.6-cı maddəyə uyğun olaraq, Azərbaycanın tərəfdar olduğu ikiqat vergitutmanın aradan qaldırılması

barədə beynəlxalq müqavilələrlə müqavilələr imzalayan ölkələrin rezidentinə verilə vergi güzəşt, və imtiyazlar və üstünlüklərinə münasibətdə, bu müqavilələr onları imzalanmış dövlətlərin rezidenti olmayan şəxslər tərəfindən qeyd olunan güzəştlərin və üstünlüklərin əldə edilməsi məqsədilə istifadə oldunduğu təqdirdə, Vergi Məcəlləsinin 2.5-ci maddəsində yer alan müddəaların tətbiqi baş verir.

Indi isə ikiqat vergitutmanın əyani misal üzərində şərhini verək. Fərz edək ki, bir Azərbaycanlı rezident bu müqavilənin müddəalarına uyğun olaraq Türkiyə Respublikasında hər hansı gəlirlərə sahiblənibsə yaxud bu ölkədə vergi ödəyibsə, ödədiyi bu vergi məbləğləri Azərbaycanda həmin rezidentin ödədiyi vergi məbləğlərindən çıxılacaq. Burada söhbət, misal üçün, mənfəət vergisindən, əmlak vergisindən gedə bilər. Həmin məlumatla bağlı vergi orqanlarını bilgiləndirmək məqsədilə azərbaycanlı rezident Türkiyə Respublikasının vergi strukturlarına yazılı ərizə olan xüsusi forma vasitəsilə müraciət ünvanlayır və sözügedən strukturlar vergilərin ödənildiyini təsdiqləyir. Növbəti mərhələdə təsdiq edilmiş həmin bu xüsusi forma ilə Azərbaycanın vergi orqanlarına müraciət olunur və öz əksini tapmış məbləğə bərabər miqdarda vergi ödənişi aşağı salınır.

Burada qeyd etmək yerinə düşərdi ki, Azərbaycanın tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı beynəlxalq müqavilələr barədə məlumat da çox faydalıdır və bu sahəni hərtərəfli öyrənmək istəyənlər üçün böyük önəm daşıyır.

FƏSİL 1:

AZƏRBAYCANDA VERGİ SİYASƏTİ VƏ VERGİ İSLAHATLARIN ƏSAS İSTİQAMƏTLƏRİ

Bu fəsildə biz Vergi Məcəlləsində 2020-ci ilin yanvarın 1-dən etibarən qüvvəyə düşmüş müvəqqəti vergi rejimindən, həmin rejimin müddətindən, onun əhatələdiyi fəaliyyət sahələrindən, bu rejimin tətbiq edildiyi vergi ödəyicilərindən, nəzərdə tutulmuş güzəştlərdən, vergi tətillərindən, eləcə də azadolmalardan xəbərdar olaraq onlara toxunacağıq.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da yayılmış COVİD-19 koronavirus infeksiyası ilə əlaqədar fəaliyyətlərinə məhdudiyyətlər tətbiq edilən vergi ödəyicilərinin hesabatlarının hansı qaydada təqdim edilməsindən, 2019-cu il üzrə vergi hesabatlarının və həyata keçirilməli olan ödəmələrin necə aparılmasından, mikro sahibkarlıq subyektlərinin hesabatlılığından, eləcə də vergi öhdəliklərinin yerinə yetirilməsi və bu kimi digər məsələlərdən söhbət açıb müvafiq təhlillər və araşdırmalaq aparacağıq.

Bununla yanaşı, Vergi Məcəlləsində nəzərdə tutulan son dəyişikliklər və əlavələrlə bağlı vergi ödəyicilərini üçün nəzərdə tutulmuş üstünlüklərə də cədvəl şəklində nəzər salacağıq.

Birinci təhlil edəcəyimiz məsələ müvəqqəti vergi rejiminin tətbiq ilə bağlıdır, burada biz onun zəruriliyinin nədən qaynaqlandığını araşdıracağıq və istər dünya, istərsə də Azərbaycanın üçün yeni bir reallıqda vergi sisteminin necə fəaliyyət göstərməsini dəyərləndirəcəyik.

Məsələ burasındadır ki, koronavirus pandemiyası ilə bağlı 2020-ci ilin martında Azərbaycanda fəaliyyət göstərən vergi ödəyicilərinin fəaliyyəti artıq ya məhdudlaşdırılmış yaxud da fəaliyyətlərinə qismən məhdudiyyətlər tətbiq edilməyə başlandı. Bu zaman dövlət strukturları tərəfindən pandemiyanın zərər vurduğu həmin sferalarda işləyən muzdlu işlərin aprel ayı üzrə öz əmək haqlarının alınması ilə bağlı bütün lazımi şərait yaradılmışdır və uyğun tədbirlər görülmüşdür. Bununla

bərabər, fərdi, yəni mikrosahibkarlıqla məşğul olan iş adamları üçün də 2019-cu ildə onlar tərəfindən ödənmiş vergi məbləğlərinə uyğun olaraq kompensasiya təyinatlı ödənişlər aparılmışdır.

Tamamilə aydındır ki, vergi ödəyicilərinin müəyyən bir qismi əldə etdikləri gəlirlərində xeyli azalmalarla üz-üzə qalmalı olmuşdur. Bu səbəbdən icbari ödənişlərin də, yəni vergilərin, sosial və bu kimi digər ödənişlərin aparılmasında ciddi enmələr baş vermişdir. Yəni, iş adamları sözügedən icbari ödənişləri həyata keçirmək üçün lazımi maliyyə vəsaitlərinə sahib olmadığından, bu istiqamətdə geriləmələr müşahidə olunmuşdur.

Bütün bunları nəzərə alaraq, Azərbaycan dövləti vergi gözəştlərini və tətillərini özündə ehtiva edən müvəqqəti vergi rejiminə keçmək məqsədilə vergi Məcəlləsində və Azərbaycan Respublikasının "Sosial sığorta haqqında" Qanununda müvafiq dəyişikliklərin aparılmasını vacib bilmişdir.

Yəni, müvəqqəti vergi rejiminin tətbiqinin əsas səbəbləri yuxarıda qeyd etdiyimiz vəziyyətlə əlaqədar olmuşdur.

Müvəqqəti vergi rejimi qüvvəyə minəndən sonra vergi məbləğlərinin hesablanmasında və ödənilməsində müəyyən qaydalar nəzərdə tutulmuşdur. Bu qaydaların mahiyyətinə də toxunmaq yerinə düşərdi.

İlk növbədə deməliyik ki, aparılmış dəyişikliklərə uyğun olaraq, Vergi Məcəlləsinin 4.5-ci maddəsində müvəqqəti vergi rejimi ilə əlaqədar aşağıdakılar əlavə olunmuşdu:

Müvəqqəti vergi rejimi dedikdə, təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji və digər qəzalar, eləcə də qlobal iqtisadi məkanda baş vermiş hadisələr nəticəsində iqtisadi şəraitin mühüm dərəcədə dəyişikliklərə uğraması ilə bağlı fəaliyyət göstərən sahibkarlıq subyektlərinin ya tam hissəsinə yaxud müəyyən bir qisminə konkret bir dövr üçün vergilərin hesablanması və ödətdirilməsi ilə bağlı yeni qaydalar qüvvəyə minir.

Bununla yanaı, Vergi Məcəlləsində "Koronavirus pandemiyasının yaılması nəticəsində iqtisdi şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi ilə əlaqədar tətbiq olunan müvəqqəti rejim" adlanan yeni onsəkkizinci fəsil də əlavə edilib.

İndi isə müvəqqəti vergi rejiminin hensı vergo ödəyiciləri

qisminə aid edildiyi məsələsinə aydınlıq gətirək.

Nəzərə almaq lazımdır ki, sözügedən Məcəllənin 222.1-ci maddəisnə uyğun olaraq, COVİD-19 infeksiyasının yayılması ilə pandemiyə səviyyəsinə çıxması ilə bağlı iqtisadi sahədə böyük dəyişikliklər baş vermişdir. Buna görə də müvəqqəti vergi rejiminin tətbiq olunması qərarına gəlinmişdir.

Həmin rejimin aşağıdakı vergi ödəyiciləri kateqoriyalarına şamil olunması nəzərdə tutulmuşdur:

- *Infeksiyanın yayılmasının qarşısının alınması istiqamətində insanların təmaslarının məhdudlaşdırılması məqsədilə avtonəqliyyat vasitələri ilə respublikadaxili, yəni şəhərlərarası, rayonlararası, eləcə də şəhərlərdaxili və rayonlar daxili, o cümlədən də taksi kimi fəaliyyət göstərən nəqliyyat vasitələri ilə sərnişin daşınmalarına;*
- *Tusirzm və yerləşdirmə sektorunda fəaliyyət göstərən mehmanxanalar, otellər, eləcə də mehmanxana tipli digər müəssisələrinin fəaliyyətinə;*
- *Turizm sektorunda fəaliyyət göstərən tuoperator və turizm agenti forma və şirkətlərinin fəaliyyətinə;*
- *Sifarişlər əsasında məhsulların, o cümlədən yeməklərin, ərzaqların və qeyri-ərzaq məhsullarının satışı şəxslərdən alıcı şəxslərə daşınması yaxud çatdırılması fəaliyyətinə;*
- *İctimai iaşə sektorunda işləyən müəssisələrin fəaliyyətinə (kafe, restoran yeməkxanalar, şadlıq evləri və s.);*
- *Kütləvi tədbirlərin, o cümlədən sərgilərin, səhnə, istirahət və əyləncə yaxud oyun tədbirlərinin təşkilinə, kinoteatrlar, teatrlar, muzeylər və konsert zallarının fəaliyyətinə;*
- *İdman-sağlamlıq təyinatlı obyektlərin fəaliyyətinə;*
- *Tədris və təlim xidmətləri göstərən hazırlıq və ixtisasartırma kurslarına, eləcə də məktəbəqədər tədrüs müəssisələrinin, psixoloji mərkəz və bu kimi digər obyektlərin fəaliyyətinə;*
- *COVİD-19 pandemiyasının yayılması ilə əlaqədar insanların sağlamlığının qorunması, onların həyatlarının təhlükəsizliyinin təmin olunması istiqamətində fəaliyyəti səlahiyyətli icra hakimiyyəti orqanının təyin etdiyi orqanın yaxud strukturun qərarına əsasən tam şəkildə yaxud qismən məhdudlaşdırılan*

sahələrin fəaliyyətinə, məsələn, dövlətin mülkiyyətində olan hüquqi şəxslərin, büdcə təşkilatlarının, dövlət büdcəsindən maliyyələşən, habelə büdcədənkənar fondlardan maliyyələşən başqa dövlət strukturların fəaliyyətinəməhdudiyyətlər tətbiq olunmur;

- *Sadələşdirilmiş vergi ödəyiciləri qismində fəaliyyət göstərən mikrosahibkarlıq subyektlərinin fəaliyyətinə.*

Belə düşünmək olar ki, müvəqqəti vergi rejimindən faydalanmaq niyyətində olan vergi ödəyicilərinin siyahısı dəqiq və dürüst deyil. Məsələ burasındadır ki, vergi orqanlarında iqtisadi fəaliyyət istiqamətlərinin təsnifatlaşdırma kodlarına uyğun olaraq qeydiyyatdan keçən vergi ödəyicisinin hansı hallarda sözügedən güzəştlərdən faydalanmaq imkanına malik olub-olmadığını dəqiq təyin etmək çətindir. Burada gələcək perspektivdlər baxımından vergi ödəyiciləri ilə bərabər daxil edilən müracitələrin böyük həmcdə olması səbəbilə vergi orqanı əməkdaşlarının işilərinin də çox olacağı gözlənilir.

Bir məqama da toxunmaq vacib bilirik ki, karantin rejimi zamanı Nazirlər Kabinetinin sifarişləri əsasında məhsulların, o cümlədən də yemək, ərzaq və qeyri-ərzaq məhsullarının satışını həyata keçirən subyektlərdən alıcılara nəql edilməsi yaxud çatdırılması fəaliyyətinə məhdudiyyətlər qoyulmasına baxmayaraq, həmin istiqamət üzrə işlər müvəqqəti vergi rejimi tətbiq olunan işlər qrupuna aid edilmişdir.

Müvəqqəti vergi rejiminin əhatə etdiyi dövrlə əlaqədar onu deyə bilərik ki, Vergi Məcəlləsinin əlavəsi qisində çıxış edən 222-ci maddənin tələblərinə uyğun olaraq, müvəqqəti vergi rejimi 01 yanvar 2020-ci il tarixdə etibarən 1 il müddətində tətbiq olunurdu.

Həmin maddə üzrə təyin edilmiş müddət başa çatdıqda vergi ödəyicilərinin fəaliyyət istiqamətləri ilə əlaqədar vergi öhdəliklərin, vergi ödəyicilərinin hüquq və vəzifələrinin, vergi ödəyicilərinin həyata keçirdikləri əməliyyatlara tətbiq olunan vergi dərəcələrinin, habelə, vergi güzəştlərinin və azadolmalarının, hesablanmış vergi məbləğlərinin ödənilmə müddətlərinin hansı qaydalar üztə müəyyənləşdirilməsi də məhz sözügedən Məcəlləyə uyğun olaraq həyata keçirilir.

Bu isə o deməkdir ki, 2021-ci ilin yanvar ayının 1-dən başlayaraq müvəqqəti vergi rejiminin təqdim etdiyi güzəşt və vergi tətillərinin hamısının tətbiqi aradan qalxır.

Qeyd etdiyimiz məsələni daha yaxşı mənimsənilməsi üçün bir nümunəyə müraciət edək. Ehtimal edək ki, mikro sahibkarlıqla məşğul olan hər hansı subyektə sadələşdirilmiş vergi dərəcəsi üzrə miqdar iki faiz bəndindən bir faiz bəndinə qədər aşağı salınıb. Ancaq 2021-ci ilin yanvar ayının 1-dən etibarən onun ödənilməli olan vergi məbləğinin hesablanması yenidən iki faizlik vergi dərəcəsi üzrə sadələşdirilmiş vergi kimi aparılır.

Müvəqqəti vergi rejiminin təqdim etdiyi üstünlüklərin isə hansı vergi ödəyicilərinə aid edilməyəcəyi məsələsinə aydınlıq gətirək.

Bununla əlaqədar nəzərə almaq lazımdır ki, Vergi Məcəlləsində yer alan 222.2 maddəyə uyğun olaraq, on səkkizinci fəslin müddəaları əmtəəsiz yaxud riskli əməliyyatlar həyata keçirən sahibkarlıq subyektlərinə, əmtəəsiz yaxud riskli əməliyyatlar həyata keçirilmədiyi müddət istisna olmaqla, tətbi edilmir. Həmin fəslin müddəaları vergi ödəyicisi olan sahibkarlıq subyektinin riskli vergi ödəyiciləri siyahısından çıxarılması haqqında səlahiyyətli icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi orqan yaxud qurumun qərarından sonra tətbiq edilməyə başlayır.

Dediklərimizə bir əyani misala müraciət etməklə aydınlıq gətirək.

Fərz edək ki, ictimai iaşə sektorunda fəaliyyət göstərən sahibkarlıq subyekti 2020-ci ilin mart ayının 1-dən etibarən reiskli vergi ödəyiciləri siyahısına daxil edilib. Belə olab halda həmin sahibkarlıq subyektinə müvəqqəti vergi rejiminin bütün qaydaları yanvar və fevral aylarında tətbiq olunur, lakin riskli vergi ödəyicisi qismində tanındığı müddətdə bunun tətbiqi həyata keçirilməyəcək.

Vergi orqanı tərəfindən verilmiş qərara əsasən sözügedən sahibkarlıq subyekti 2020-ci ilin avrust ayının 1-dən başlayaraq riskli vergi ödəyicisi siyahısından çıxarılırsa, o zaman bu dövrdən 2020-ci ilin axırına kimi müddət ərzində, yəni 2020-ci ilin avqust-dekabr aylarını əhatə etdiyi beş ay ərzində də qanunvericiliyə uyğun güzəştlərdən yararlana bilirdi.

İndi isə müvəqqəti vergi rejiminin tətbiq olunduğu sahibkarlıq subyekti tərəfindən bir neçə fəaliyyət istiqaməti üzrə işlər həyata keçirildiyi təqdirdə həmin sahibkarlıq subyekti ilə bağlı vergitutma məsələlərinin necə tənzimləndiyinə nəzər salaq.

Məsələ burasındadır ki, Vergi Məcəlləsində yer alan 22.4-cü

maddəyə uyğun olaraq, on səkkizinci fəslin müddəaları sözügedən Məcəllənin 222.5-ci maddəsinin nəzərdə tutduğu şəslərin ancaq bu fəaliyyəti üzrə tətbiq olunur.

Beləliklə, hörmətli oxuculara biz Məcəllədə yer alan 222.5 maddənin tələblərinə əsasən onun əhatə etdiyi vergi ödəyiciləri barədə bütün ətraflı məlumatı vermiş olduq.

Sözügedən maddədə yer alan tələblərlə bağlı məsələlərin şərhini əyani misallar gətirməklə verək.

Fərz edək ki, mikrosahibkarlığa aid edilməyən sahibkarlıq subyekti və tədris kursları istiqamətində işləyən vergi ödəyicisi bütün bunlarla parallel olaraq vergi xidmətlərinin də həyata keçirilməsi ilə məşğul olur. Belə olan zaman həmin sahbkarlıq subyekti Məcəllədə nəzərdə tutulan əmlakların, mənfəətin və icarə haqqından ödəmə mənbəyində verilər üzrə güzəştləri ancaq tədris kursları ilə əlaqədar iş fəsliyyətinə tətbiq ediləcək. Ancaq tərcümə xidmətləri ilə bağlı vergi öhdəliklərinə əməl olunmasına müvafiq güzəştlər tətbiq edilmədən, yəni adi qaydada davam edəcək. Buna görə sahibkarlıq subyekti həyata keçirdiyi hər bir fəaliyyətlə əlaqədar uçotunu ayrı-ayrılıqda aparır.

Burada haqlı bir sual meydana gələ bilər – müvəqqəti vergi rejiminin qüvvədə olsuğu zaman tətbiq edilən sahibkarlıq subyektlərinin digər vergi öhdəlikləri ilə əlaqədar hər hansı formada güzəştlərin tətbiq olunması nəzərdə tutulurdumu?

Bu suala cavab vermək üçün Vergi Məcəlləsinə əlavə olunan 222.6-cı maddəyə nəzər yetirən. Həmin maddəyə uyğun olaraq, COVİD-19 infeksiyası pandemiyə halına gəlməsi nəticəsində iqtisadi mühit xeyli dərəcədə dəyişikliklərə məruz qaldığı səbəbindən tətbiqinə başlanılan müvəqqəti vergi rejiminin aid olunduğu sahibkarlıq subyektlərinin hüquq və vəzifələri bu fəsildə digər halın nəzərə tutulmadığı təqdirdə, Vergi Məcəlləsinə əsasən müəyyənləşdirilmiş ümumi qaydada reallaşdırılır.

Dediklərimizə əyani bir misal vasitəsilə aydınlıq gətirək. Ehtimal edək ki, hər hansı hazırlıq kurslarının həyata keçirilməsi istiqamətində fəaliyyət göstərən sahibkarlıq subyektinə rəhbərlik edən şəxs divident alarkən bu və ya digər güzəştin tətbiqi nəzərdə tutulmur, eləcə də ödəmə mənbəyindən on faiz dərəcə üzrə verginin hesablanması həyata keçirilməlidir.

Növbəti nəzərdən keçirdiyimiz məsələ COVİD-19 pandemiyası ilə əlaqədar səyyar vergi yoxalmaların aparılmasının müddəti və həmin müddətin necə tənzimlənməsi ilə bağlıdır.

Nəzərə almaq lazımdır ki, vergi Məcəlləsində yer alan 38.2-ci maddəyə uyğun olaraq, səyyar formada vergi yoxlamalarının aparılması maksimum otuz güm ərzində yerinə yetirilməlidir, yəni bu müddəti aşmalı deyil. Müstəsna hallar ola bilər ki, nə zaman yuxarı vergi orqanlarının qəbul etdikləri qərara əsasən səyyar vergi yoxlamasının aparılma müddəti doxsan gün də təşkil edə bilər.

Vergi Məcəlləsinə əlavə edilmiş yeni 222.7-ci maddənin tələblərinə uyğun olaraq, COVİD-19 infeksiyasının yayılması ilə əlaqədar iqtisadi mühitdə köklü dəyişikliklərin baş verməsi səbəbilə öz işini səlahiyyətli icra hakimiyyəti orqanının təyin etdiyi orqan yaxud struktur tərəfindən qəbul edilmiş qərara əsasən tam yaxud qismən şəkildə məhdudlaşdırılmış haqqında səyyar vergi yoxlaması davam olunan sahibkarlıq subyektlərində 2020-ci ilin mart ayının 1-dən başlayaraq yoxlamaların aparılması müddətləri Vergi Məcəlləsinin 38-ci maddəsinin tələbləri ilə müəyyən olunmuş müddətlərə daxil edilmir.

Qeyd etdiyimiz maddədə yer alan tələblərlə bağlı əyani misal gətirək.

Fərz edək ki, vergi orqanları 2020-ci il fevral ayının 20-dən mehmanxana sferasında fəaliyyət göstərən sahibkarlıq subyektində səyyar vergi yoxlama tədbirlərini həyata keçirir. Nazirlər kabinetinin müvafiq qərarına əsasən, mehmanxana sferası fəaliyyəti məhdudlaş-dırılan sahibkarlıq sahəsinə aiddir. Həmin səbəbə görə mehmanxananın karantin rejiminə fəaliyyət göstərmədiyi müddət səyyar vergi yoxla-masına daxil edilmir.

İndi isə fəaliyyətlərinə məhdudiyyət qoyulan sahibkarlıq subyektləri tərəfindən hesabatların hansı formada təqdim edilməli olduqları məsələsinə aydınlıq gətirək.

Vergi Məcəlləsində aparılan dəyişikliklər nəticəsində 223 saylı "Hesabatların verilməsi və cari vergi ödəmələri" kimi yeni bir maddə əlavə olunmuşdur. Həmin maddədə nəzərdə tutulan hesabatların təqdim edilməsi, habelə cari vergi ödənişlərinin aparılasına əsasən sahibkarlıq subyektlərinin müvafiq kateqoriyalara təsnifləşdirilməsi həyata keçirilmişdir.

Sözügdən Məcəllənin 223.1-ci maddəsinə uyğun olaraq, bu qanunvericilik aktının 222.5-ci maddəsində qeyd edilən fəaliyyətlə məşğul olan şəxslərə, o cümlədən əvvəlki vergi ili ərzində fəaliyyət göstərməmiş və sonrakı vergi ilində fəaliyyəti olmuş şəxslərə bu Məcəllənin 151-ci və 201-ci maddələrinə əsasən cari vergi ödənişləri ilə bağlı hesablamaların, habelə cari vergi ödənişləri üzrə arayışların vergi orqanlarına təqdim olunması ilə bağlı müddəalar tətbiq olunmur.

İndi isə qeyd etdiklərimizi aydınlaşdırmaq üçün əyani bir misala müraciət edək. Fərz edək ki, ictimai iaşə sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektinin əvvəlki ilə görə mənfəət və əmlak vergisi uyğun olaraq 10.000 manat və 8.000 manat olmuşdur.

Həmin sahibkarlıq subyekti Vergi Məcəlləsində yer alan 151.1-ci maddəni seçdiyi halda, 2020-ci ilin dördüncü rübünə görə cari ödəniləcək məbləğ ötən vergi ilində hesablanmış vergi məbləğinin dörddə bir hissəsinə, yəni 2.500 manata bərabər olacaq: 10.000 manat : 4 = 2.500 manat.

Əmlak vergisinə gəldikdə isə, sözügedən məcəllənin 201.3-cü maddəsinə uyğun olaraq, əmlak vergisini ödəyən sahibkarlıq subyekti 2020-ci il üzrə əmlak vergisinə görə cari vergi ödəniş məbləği kimi hər rübün 2-ci ayının on beşindən gec olmamaq şərtilə ötən ildəki əmlak vergisi miqdarının iyirmi faizinə bərabər, yəni 1.600 mana məbləğində vergi ödəyir (8.000 x 20 faiz = 1.600 manat).

Vergi Məcəlləsində edilmiş dəyişikliklərə uyğun olaraq, həmin Məcəllədə yer alan 223.1 maddəsində qeyd olunan vergi ödəyicisinin 2020-ci ildə mənfəət yaxud gəlir, habelə əmlak üzrə ödənilməli olan vergilərə görə cari vergi miqdarının ödənilməsi barədə arayışın təqdim edilməsinə və cari ödənişlərin aparılmasına zərurət yaranmır.

İndi isə 2019-cu il üçün vergi hesabatlarının və ödmələrinin hansı qaydada həyata keçirildiyinə nəzər salaq.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, Məcəllədə yer almış 231.1 maddəsinə əsasən, müvəqqəti vergi rejimi tətbiq olunduğu sahibkarlıq subyektlərinin 2020-ci il üçün mənfəət yaxud gəlir, habelə əmlak vergisi barədə zəruri məlumat tərəfimizdən artıq verilmişdir. COVİD-19 pandemiyası ilə bağlı tətbiq olunmuş karantin rejimi zamanı sahibkarlıq subyektləri öz hesabatlarını təqdim edə bilməmişlər, bununla bərabər əvvəlki il üzrə əmələ gəlmiş vergi öhdəlikləri də həyata

keçirilməmiş qalmışdır.

Həmçinin qeyd olunmalıdır ki, sahibkarlıqsubyektləri 2019-cu ilə görə mənfəət yaxud gəlir, habelə əmlak vergisi ilə bağlı tərtib etdikləri bəyannamələri 2020-ci ilin mart ayının 31-nə qədər vergi orqanına təqdim etməyə borclu idi.

Sözügedən Məcəlləyə əlavə olunmuş 223.3 maddəsində deyilir ki, müvəqqəti vergi rejiminin tətbiq olunduğu, habelə mikrosahibkarlar kateqoriyasına aid edilməyən sahibkarlıq subyektləri ötən ilə görə mənfəət yaxud gəlir, habelə əmlak vergisi ilə bağlı tərtib etdikləri hesabatları, uyğun olaraq, Vergi Məcəlləsinin 149.2 və 201.5-ci maddələrində yer alan tələblərə göər təqdim edir, ödənilməli olan vergi məbləği isə cari ilin sentyabr ayının 1-dən gec olmamaq şərtilə dövlər büdcəsinə köçürülməlidir.

Maddənin məzmunundan aydın olur ki, müvəqqəti vergi rejiminin tətbiq olunduğu və mikrosahibkarlıq kateqoriyasına aid edilən vergi ödəyicisi üçün 2019-cu il üçün mənfəət yaxud gəlir, habelə əmlak vergisi ilə bağlı tərtib etdiklərinə bəyannamının vergi orqanına göndərilməsinin ən son tarix kimi 2020-ci ilin mart ayının 31-i qüvvədə saxlanılmışdır. Lakin, müvafiq vergi öhdəliklərin həyata keçirilməsi tarixi 2020-ci ilin sentyabr ayının birinə qədər uzadılması qərara alınmışdır.

İndi isə Azərbaycanda mikrosahibkarlıq kateqoriyasına aid edilən vergi ödəyicilərinin hesabatlılığı, habelə vergi öhdəliklərinin necə tənzimləndiyinə nəzər salaq.

Bununla əlaqədar ilk növbədə yada salmaq lazımdır ki, Vergi Məcəlləsinə 223.3-cü maddə əlavə olinmişdir. Həmin maddəyə uyğun olaraq, mikrosahibkarlıq kateqoriyasına aid olunan vergi ödəyiciləri tərəfindən 2020-ci ilin I və II rüblərinə görə sözügedən Məcəllədə yer alan 221.3 maddəsində göstərən hesabat, eləcə də 149.1-ci və 201.5-ci maddələrin tələbinə əsasən təqdim edilməli olan hesabatlar cari lin 1 sentyabr tarixinə qədər vergi orqanlarına təqdim olunmjalı, hesablanmış vergi məbləğləri isə uzağı sentyabr ayının 1-nə ödənilməlidir.

Daha sonra, Vergi Məcəlləsinə həmçini 223.3-cü maddə də əlavə edilmişdir. Həmin maddənin əsas hədəfi sadələşdirilmiş vergi ödəyən sahibkarlıq subyektləri qismində çıxış edən və mikrosahibkarlıq kateqoriyasına aid edilən vergi ödəyiciləri üçün hesabat dövrünün

dəqiqləşdirilərək təyin edilməsindən ibarətdir.

Sözügedən məcəllədə yer alan 221.3-cü maddəyə uyğun olaraq, sadələşdirilmiş vergi ödəyən sahibkarlıq subyekti hesabat dövründən gələn növbəti ayın iyirmisindən gec olmamaq şərtilə ödənişi həyata keçirilməli olan vergi miqdarı barədə vergi orqanına bəyannamə təqdim etməli və sözügedən müddət ərzində vergi məbləğini ödəməyə borcludur.

Bu isə o deməkdir ki, 223.3-cü maddə ilə 2020-ci ilin birinci və ikinci rüblərinə görə sadələşdirilmiş vergi ilə əlaqədan bəyannamələr aprelin 20-si və iyulun 20-sinə qədər deyil, sentyabrın 1-nə təqdim olunmalıdır. Həmçinin, vergi ödənişi məhz bu tarixə qədər ödənilməlidir.

Müvəqqəti vergi rejimi qüvvəyə düşdükdə hansı vergi güzəştlərinin nəzərdə tutuludğuna dair məsələyə aydınlıq gətirmək üçün deməliyik ki, sözügedən Məcəllənin 224.1-ci maddəsinə uyğun olaraq, pandemiya dövründə fəaliyyətləri məhdudiyyət altına düşən sahibkarlıq subyektləri aşağıda göstərilən vergi növləri ilə bağlı güzəşt və azadolmalardan yararlana biləcəklər.

- Vergi Məcəlləsinin 224.1.2-ci maddəsinə əsasən əmlak və torpaq vergiləri ilə əlaqədar tam məbləğ üzrə. Yəni, sözügedən Məcəllənin tələblərinə görə müvəqqəti vergi rejimi tətbiq olunduğu fəaliyyət istiqamətləri üçün sahibkarlıq subyektləri 2020-ci il üçün əmlak və torpaq vergilərinin ödənilməsindən azad olunurlar;

- Vergi Məcəlləsinin 224.1.2-ci maddəsinə əsasən sahibkarlıq subyektləri tərəfindən əldə olunan mənfəətin yaxud gəlirin 75 faizi. Yəni, sahibkarlıq subyektləri tərəfindən 2020-ci il üçün mənfəət yaxud gəlir vergisi miqdarının 25 faizinə bərabər olan məbləğ vergi şəklində ödənilir.

Yuxarıda göstərilənləri əyani misallarla təsvir edək.

Birincisi, fərz edək ki, sahibkarlıq subyektinin ödənilməli olan vergi miqdarı 2.000 manatdır. Lakin önun yerinə yetirməli olduğu vergi öhdəliyi qismində yalnız 500 manat məbləğində vəsaitin ödənişi aparılmalıdır: 2.000 manat ö 25 faiz = 500 manat.

İkinci misal. Fərz edək ki, müvəqqəti vergi rejimi tətbiq olunduğu və mikrosahibkarlıq kateqoriyasına aid edilən vergi ödəyicisinin 2020-ci il üçün əldə etdiyi gəlirdən tutulan xərcləri nəzərə almaq şərtilə, gəliri 4.000 manat təşkil edir. Mikrosahibkarlıq kateqoriyasına aid edilən

vergi ödəyicisinə 75% güzəşt tətbiq oldunduğu səbəbdən verginin tutulduğu mənfəətin miqdarı 1.000 manata bərabər olacaq: 4.000 manat – (4.000 manat x 75%) = 1.000 manat. 2020-ci il üzrə tutulan vergi miqdarı 200 manat olsarsa, Vergi Məcəlləsinin 224.1.2-ci laddəsinə uyğun olaraq büdcəyə 50 manata bərabər vergi məbləği ödənilməlidir: 200 manar x 25 faiz = 50 manat.

Aydınlıq gətirilməli olan daha bir məsələ müvəqqəti vergi rejiminin tətbiq olunduğu sahəvi fəaliyyətlər üçün hansı növ gözəştlərin nəzərdə tutuludğu ilə bağlıdır.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, sözügedən Məccəlləyə əlavə olunan dəyişikliklərdə sahəvi fəaliyyətlərə tətbiq edilməli müəyyən güzəştlər nəzərdə tutulmuşdur. Belə ki, Məcəllədə yer alan 224.1.3-cü maddədə göstərilir ki, avtonəqliyyat vasitələrilə ölkədaxili, yəni şəhər- və rayonlararası, eləcə də rayondaxili sərnişin daşımaları ilə, taksi fəaliyyəti də daxil olmaqla, məşğul olan şəxslər üçün Vergi Məcəlləsinin 220.5-ci maddəsinin tələblərinə əsasən nəzərdə tutulan sadələşdirilmiş vergi 50 faiz endirilir.

Bununla yanaşı nəzərə almaq lazımdır ki, Vergi Məcəlləsinin 220.5-ci maddəsinə uyğun olaraq, avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını yerinə yetirən vsahibkarlıq subyektlərindən aşağıda göstərilən sadələşdirilmiş vergi dərəcəsi ilə vergi məbləğləri tutulacaq:

Sərnişinlərin daşınması (taksi xidmətlərdən başqa), oturacaq yerlərinin sayına görə:	1 oturacaq yerinə görə	1,8
Taksi ilə sərnişin daşınması	1 ədəd nəqliyyat vasitəsinə görə	9,0
Yüklərin nəql edilməsi	Yükgötürmə qabiliyyətinə görə (hər ton üçün)	1,0

Yüklərin və sərnişinlərin daşınması növünə, eləcə də nəql edilmənin reallaşdırıldığı əraziyə görə sərnişinlərin və yüklərin daşınması ilə məşğul olan sahibkarlıq subyektləri üçün sadələşdirilmiş verginin miqdarı aşağıda qeyd edilən əmsallar tətbiq olunmaqla müəyyənləşdirilir:

Bakıda, paytaxtın kənd və qəsəbələri də daxil olmaqla, habelə Bakı

ilə respublikanın başqa yaşayış məntəqələri arasında – 2,0 əmsalla;

Abşeron rayonu, Sumqayit şəhəri və Gəncə şəhərində, habelə bu rayon və şəhərlərlə yanaşı başqa yaşayış məntəqələri arasında (Vergi Məcəlləsinin 220.6.1 maddəsinin tələblərinə uyğun olaraq orada qeyd edilənlərdən başqa) – 1,0.

Bu isə o deməkdir ki, edilmiş dəyişikliklərə qədər paytaxt Bakına taksi fəaliyyəti ilə məşğul olan şəxslərdən 18 manat məbləğində vergi tutulurdusa, müvafiq dəyişikliklər qüvvəyə mindikdən sonra bu vergi dərəcəsinə 50 faizlik güzəşt tətbiq olunacaq ki, bu da 9 manat vergi ödəməsi deməkdir: 18 manat x 50% = 9 manat.

Abşeron rayonu, Sumqayıt şəhəri və Gəncə şəhəri ərazisində, habelə sadaladığımız rayon və şəhərlərlə yanaşı başqa yaşayış məntəqələri arasında taksi xidmətləri göstərən vergi ödəyiciləri də həmçinin əvvəllər ödədikləri 13 manat 50 qəpik məbləğ əvəzinə 6 manat 75 qəpik ödəyirlər: 13 manat 50 qəpik x 50% = 6 manat 75 qəpik.

Başqa şəhər və rayonların ərazisində, habelə bu şəhər və rayonlarla başqa yaşayış məntəqələri arasında takxi xidmətlərinin göstərilməsi ilə məşğul olan sahibkarların isə cəmi 4 manat 50 qəpik məbləğində vergi ödəməsi tələb olunur: 9 manat x 50% = 9 manat.

İndi isə ictimai iaşə sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin hansı güzəştlər əldə edə biləcəkləri məsələsinə nəzər yetirək.

Məlum olduğu kimi, Vergi Məcəlləsinə 224.1.4-cü maddə əlavə edilmişdir. Həmin maddəyə uyğun olaraq, ictimai iaşə sektorunda fəaliyyətlə məşğul olan sahibkarlıq subyektləri sözügedən Məcəllənin 220.1.1-ci maddəsinin tələblərinə uyğun olaraq, sadələşdirilmiş vergi məbləğində 50% güzəşt nəzərdə tutulmuşdur.

Həmçinin qeyd etmək lazımdır ki, Məcəllədə yer alan 220.1.1-ci maddəyə uyğun olaraq, vergiyə cəlb edilən əməliyyatların həcmi ardıcıl surətdə on iki aylıq dövrün istənilən ayı yaxud ayları ərzində 200 min manat məbləğini aşarsa, o zaman ictimai iaşə sektorunda fəaliyyət göstərən sahibkarlıq subyekti sadələşdirilmiş vergi ilə vergitutumuna cəlb edilir və Məcəllədə yer alan 219.1 maddəsinə uyğun olaraq vergitutma obyekti üzrə 8 faiz bəndinə bərabər dərəcə əsasında hesablamalar aparılır. Burada qiymətləri qiymətləri səlahiyyətli icra hakimiyyəti orqanının tənzimlədiyi məhsulların satış dövriyyəsi istisna

təşkil edir.

Vergi Məcəlləsində ictimai fəaliyyət istiqamətində öz işini quran sahibkarlıq subyektlərinə imkan verilir ki, on iki aylıq dövriyyəsi 200 min manatdan artıq olduğu təqdirdə əlavə dəyər vergisi ödəyicisi qismində işləməyən və sadələşdirilmiş vergi üzrə vergitutumuna cəlb edilən sahibkarlıq subyekti kimi öz işini davam etdirsin. Lakin burada bir mühüm şərt mövcuddur ki, ona mütləq şəkildə toxunmalıyıq. Məsələ burasındadır ki, həmin vergi ödəyicisi sadələşdirilmiş verginin iki deyil, səkkizə bərabər dərəcəsi ilə vergiyə cəlb olunsun.

Sözügedən Məcəlləyə edilmiş dəyişikliklərə uyğun olaraq, müvəqqəti vergi rejimi qüvvədə qaldığı müddət ərzində on iki aylıq dövriyyəsi 200 min manat həddini aşan və ictimai iaşə sektorunda fəaliyyət göstərən saibkarlıq subyektləri səkkiz faizlik deyil, dörd faizlik vergi dərəcəsi ilə öz vergi ödənişlərini həyata keçirə bilər.

İndi də hansı hallarda istehlakçılar tərəfindən verilən sifarişlərin onlara çatdırılması xidmətinə fərqli yanaşmanın şamil oludnuğuna nəzər yetirək.

Məlum olduğu kimi, Vergi Məcəlləsinə 224.2 maddəsi əlavə edilmişdir. Həmin maddənin tələblərinə uyğun olaraq, istehlakçılar tərəfindən verilən sifarişlər üzrə məhsulların, o cümlədən hazır yeməklərin, ərzaq və qeyri-ərzaq məhsullarının satıcılarından alıcılara nəql edilməsi və (yaxud) çatdırılması istiqamətində öz fəaliyyətini qurmuş sahibkarlıq subyektlərinə tətbiq edilən vergi güzəşti bu fəaliyyətlə məşğul olan şəxslərə məhsulların nəql edilməsi yaxud çatdırılması ilə bağlı müvafiq sifarişlər vermiş satıcılara dair və (yaxud) satıcılar tərəfindən nəql edilmə yaxud çatdırılma nəticəsində əldə olunmuş gəlir məbləğinə şamil edilmir.

Yuxaqıda qeyd etdiyimiz şərhə real misalla daha ətraflı izahat verək. Fərz edək ki, tikinti materiallarının satışını həyata keçirən sahibkarlıq subyekti alıcıdan 2.000 manat məbləğində sifariş alıb və həmin məhsulları ona çatdırmalıdır. Sözügedən xidmətin göstərilməsi müqabilində satıcı alıcıdan 100 manat məbləğinin ödənilməsini istəyir. Belə olan halda sahibkarlıq subyekti ona sifariş edildiyi tikinti materialları özü nəql edir və bu səbəbə görə məhsulların daşınmasına görə əldə etdiyi gəlir üçün ona güzəşt edilməyəcək.

Bəs iki faiz vergi dərəcəsi ilə vergitutumuna cəlb olunan

sahibkarlıq subyektinin ödəməli olduğu vergi məbləği necə müəyyən etmək lazımdır? Bu suala da aydınlıq gətirək.

Qeyd edək ki, dövriyyəsindən iki faiz dərəcə üzrə sadələşdirilmiş vergi tutumuna cəlb edilən dshibkarlıq subyktlərinə 50% güzəşt tətbiq olunmur, odur ki bu kateqoriyadan olan vergi ödəyicilərindən 1% dərəcəsi ilə vergu tutulması həyata keirilir.Vergi Məcəlləsinə daxil olunmuş 224.3 maddədə sözügedən hesablanmanın aparılması nəzərdə tutulur. Qeyd etdiyimiz bu maddəyə uyğun olaraq, həmin Məcəllənin 218-ci maddəsinə görə sadələşdirilmiş vergi əsasında öz vergi öhdəliklərini yerinə yetirən sahibkarlıq subyekti qismində çıxış edən vergi ödəyiciləri ilə bağlı Vergi Məcəlləsinin 220.1-ci maddəsində yer alan dərəcəyə müvafiq qaydada hesablanmış sadələşdirilmiş verginin ümumi miqdarı 50% aşağı salınır.

Bəs Vergi Məcəlləsində əlavə dəyər vergisinin ödənilməsindən hansı əmtəə kateqoriyalarının azad edilməsi göstərilir?

Bununla əlaqədar qeyd etməliyik ki, sözügedən Məcəllənin 224.4-cü maddəsinə uyğun olaraq, müvəqqəti vergi rejimi qüvvədə olduğu dövr ərzində insanların sağlalığının qorunmasının reallaşdırılması və mühüm qida məhsulları ilə bağlı tələbatların ödənilməsi üçün siyahı tərtib edilir. Bu siyahı səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş orqanın yaxud qurumun təsdiq edilir və burada hansı əmtəə növlərinin ölkəyə gətirilməsi əlavə dəyər vergisindən azad olunması öz əksini tapır.

Sual olunan məsələlərlə yanaşı həm də hava nəqliyyatının fəaliyyətinin dayandırılması ilə əlaqədar qeyd etdiyimiz sahəyə bu və ya digər güzəştlərin nəzərdə tutulması ilə bağlı suala da aydınlıq gətirilməsini vacib hesab edirik.

Bununla əlaqədar nəzərə almaq lazımdır ki, hava nəqliyyatı sektorunda fəaliyyət göstərən aviadaşıyıcıların müvəqqəti vergi rejiminə cəlb edilməsi qanunvericilik aktlarında öz əksini tapır, çünki COVİD-19 pandemiyası ilə əlaqədar sərnişinlərin daşınmasında məlum məhdudiyyətlər tətbiq edilir və, tamamilə aydındır ki, bu sahəyə də vergi güzətşlərinin tətbiqi labüdür. Belə ki, Vergi Məcəlləsində yer alan 224.5-ci maddəyə görə, aviadaşıyıcılar tərəfindən sərnişinlərin daşınması istiqamətində istifadə olunan hava nəqliyyatı vasitələri müvəqqəti vergi rejimi qüvvədə olduğu zaman əmlak vergisindən

tamamilə azad edilməlidir.

İndi də müvəqqəti vergi rejiminin tətbiq olunduğu dövr ərzində müvafiq kateqoriyadan olan sahibkarlıq subyektləri ilə nəzərdə tutulan maddi yardımların vergidən azad edilməsi məsələsinə toxunaq.

Bu fəslin əvvəlində bizim oxucularımız məlumatlandırılmışdır ki, Azərbaycan dövləti COVİD-19 pandemiyası zamanı müəyyən fəaliyyət istiqamətlərində işləyən insanların muzdlu əmək haqlarının ödənilməsini, eləcə də fərdi, yaxud mikrosahibkarlıqla məşğul olan vergi ödəyiciləinə maliyyə dəstəyi həyata keçirir. Bununla əlaqədar sözügedən maliyyə dəstəyinin təkrarən gəlir qismində tanınması və həmin pul vəsaitlərinin vergiyə cəlb edilməsinin necə tənzimləndiyi ilə bağlı sualın meydana gəlməsi labüddür.

Məsələ burasındadır ki, Vergi Məcəlləsinə əlavə olunmuş 224.6-cı maddəsində deyilir ki, müvəqqəti vergi eüjiminin tətbiq edildiyi dövr ərzində vergi ödəyicilərinə dövlət büdcəsinin vəsaitlərindən ayrılan maddi yardımlar mənfəət yaxud gəlir vergisinin, habelə sadələşdirilmiş verginin tətbiqindən azaddır.

Daha bir maraq doğuran məsələyə aydınlıq gətirmək məqsədilə icarə haqları üçün hansı güzəştlərin nəzərə tutulmasını şərh edək.

Məlumdur ki, Vergi Məcəlləsinə daxil edilmiş 224.7-ci maddəyə uyğun olaraq, bu Məcəllənin 222.5-ci maddəsinin ehtiva etdiyi sahibkarlıq fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən sözügedən Məcəllənin 124-cü maddəsinə əsasən fiziki şəxslərdən icarətə götürülmüş daşınmaz əmlakla bağlı ödəmə mənbəyində tətbiq edilən verginin miqdarı 50% aşağı salınır.

Burada qeyd etdiyimiz maddənin təbələrinin əyani misallarla şərh verilməsinin zəruriliyini nəzərə alaraq oxucularımızın diqqətinə üç misalın təqdim olunmasını vacib bilirik.

Birinci misal. Fərz edər ki, Vergi Məcəlləsində yer almış 222.5-ci maddə ilə ehtiva olunduğu fəaliyyət növlərindən ictimai iaşədə öz işini qurmuş sahibkarlıq subyekti hər hansı fiziki şəxslə 1000 manat dəyərində bir icarə müqaviləsi imzalayıb. Vergi ödəyicisi hər ay ödəmə mənbəyində tutulan on dörd faizlik, yəni 140 manatlıq vergini hesablamaqla fiziki şəxs olan icarədara 860 manat icarə haqqının ödənişini həyata keçirir: 1.000 manat - 140 manat = 860 manat. Lakin burada qeyd etmək lazımdır ki, əgər Vergi Məcəlləsində müvafiq dəyişiklik

reallaşdırılarsa, o zaman vergi ödəyicisi icarədara 860 manat ödədikdən sonra dövlət büdcəsinə 140 manat deyil, 70 manat ödəmə mənbəyində vergi məbləğini ödəməli olacaq: 140 manat x 50% = 70 manat.

Bu misaldan aydın şəkildə görmək mümkündür ki, dəyişikliklərin təsdiq olunması sahibkarlıq subyektinin icarə haqqı miqdarından yetmiş manat qənaət edilməsinə gətirib çıxaracaq.

İkinci misal. Fərz edək ki, Vergi Məcəlləsində yer alan 222.5-ci maddədə fəaliyyəti qeyd olunan, tədris mərkəzi qismində fəaliyyət göstərən sahibkarlıq subyektləri hüquqi şəxslər statusunda olan "Xəzər Plaza" mərkəzi ilə 1.000 manat məbləğində icarə müqaviləsi bağlanılmışdır. Bu Məcəlləyə görə, hüquqi şəxslər götürdükləri daşınmaz əmlaklar üçün ödəmə mənbəyində vergi ödəmir. Bunun səbəbi ondan ibarətdir ki, COVİD-19 pandemiyasına ilə əlaqıdar zərərlə üzləşmiş sahibkarlıq subyektinə bu v ya digər güzəştlər nəzərdə tutulmayıb. Bundan əlavə, həmin vergi ödəyicisi eyni əsaslarla 1.000 manat miqdarında icarə haqqının ödənişini həyata keçirir.

Üçüncü misal. Pərakəndə ticarət sektorunda işləyən sahibkarlıq subyekti hər bir fiziki şəxsdən 500 manat dəyəri olan müqaviləyə uyğun olaraq daşınmaz əmlakın icarəsini reallaşdırır. Həmin sahibkarlıq subyekti tərəfindən daşınmaz əmlak müqabilində ödəmə mənbəyində 70 manatlıq vergi hesablanmışdı (500 manat x 14% = 70 manat).

Sahibkarlıq subyekti sonrakı aylar üzrə də ödəmə mənbəyində eyni miqdarda vergi məbləği hesablamaqla onu dövlət büdcəsinə köçürəcək. Bunun səbəbi ondan ibarətdir ki, ticarət fəaliyyəti COVİD-19 pandemiyasından ən çox ziyan görmüş fəaliyyət növlərinə aid deyil və həmin istiqamətdə işləyən sahibkarlıq subyektlərinə ödəmə mənbəyində hesablanan vergi miqdarı ilə bağlı bu və ya digər güzəştin edilməsi nəzərdə tutulmur.

İndi isə müvəqqəti vergi rejiminin qüvvədə olduğu müddətdə güzəştlər nəzərdə tutulduğu sahibkarlıq subyektlərinin borcları ilə bağlı hansı güzəştlərin tətbiq ediləcəyi məsələsinə nəzər salaq.

Məsələ burasındadır ki, vergi rejiminin tətbiq olunduğu sahibkarlıq subyektlərinin 2019-ci il üzrə vergi öhdəliyi ilə əlaqədar yaranmış borclarda güzəştlərin tətbiqi nəzərdə tutulmuşdur. Məlum olduğu kimi Vergi Məcəlləsinə 222.5-ci maddə əlavə edilmişdir, həmin maddəyə əsasən orada qeyd olunmuş sahibkarlıq subyektlərinə vergilərin həmin

Məcəllənin müəyyən etdiyi dövrdə ödənilməsinə görə bu Məcəllənin 59.1-ci maddəsinə əsasən faizlər hesablanması 2020-ci ilin aprel ayının birindən 2021-ci ilin yanvar ayının birinədək dayandırılmışdır. Həmin dövr Vergi Məcəlləsinin 59.2-ci maddəsində faizlərin hesablanmasına görə müəyyən olunmuş bir illik müddətə daxil edilməmişdir.

Yeri gəlmişkən, sözügedən Məcəllədə yer alan 59.1-ci maddəyə müvafiq olaraq, vergi yaxud cari vergi ödənişləri Vergi Məcəlləsində nəzərdə tutulan vaxt ərzində ödənilmirsə, ödəmə müddətindən sonra hər bir gecikmə gününə görə sahibkarlıq subyektindən yaxud vergi agentindən ödənilməmiş vergi yaxud cari vergi miqdarının 0,1% qədər faiz tutulur.

Dediklərimizin daha yaxşı mənimsənilməsi üçün bir misaldan istifadə edək. Qoy ictimai iaşə sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektinin 2019-cu il dördüncü rübü üçün 1.000 manat məbləğində sadələşdirilmiş vergi hesabatı üzrə borc əmələ gəlmişdir. Məlum olduğu kimi, Vergi Məcəlləsində müvafiq dəyişikliklərə əsasən vergi öhdəlikləri üzrə yaranmış borc məbləğinə 0,1 faiz əlavə məbləğ hesablanır və bu proses 21 yanvar – 1 apreal aralığında yerinə yetirilir. Faiz hesablanması isə 2020-ci ilin aprelin birindən 2021-ci ilin yanvarın birinə kimi dayandırılmışdır.

Lakin, bnunla yanaşı, dayandırılmış müddət Vergi Məcəlləsinin 59.2-ci maddəsində faizlərin hesablanmasına görə təyin edilmiş bir illik müddətə daxil olunmuşdur. Bu isə o deməkdir ki, sözügedən borc tamamilə ödənilməyəndə, qalıq qalmış məbləğə təkrarən 0,1 faiz hesablanır.

Bəs sahibkarlıq subyektinin hansı növ məhsulları əlavə dəyər vergisinə cəlb edilməlidir?

Bu suala cavab vermək üçün yenidən müvəqqəti vergi rejiminin şərtlərinə müracitə edək. Belə ki, həmin rejimin tətbiq olunduğu bəzi sahələr vardır ki, misal üçün, otelçilik, ictimai iaşə sektoru və s., həmin sahələr COVİD-19 pandemiyasından əvvəl müəyyən çeşiddə məhsullar almış, lakin sözügedən rejimin tətbiqi ilə əlaqədar onlar satılmamış və xarab olmuşdur. Vergi Məcəlləsində yer alan 159.5-ci maddəyə uyğun olaraq, sahibkarlıq subyekti satılan məhsulları, görülən işləri və təqdim edilən xidmətləri əlavə dəyər vergisini ödəmək şərti ilə alırsa, habelə müvafiq əvəzləşdirmə həyata keçirə bilir yaxud bunu etmək hüququna sahibdirsə, o zaman belə məhsullardan, görülən işlərdən, təqdim edilən

xidmətlərdən qeyri-kommersiya yönümlü istiqamətlərdə istifadə olunması, fövqəlada hallar istisna edilməklə, məhsulların itməsi, əskikliyi, xarab olması, tam amortizasiya edilmədən uçotdan alınması yaxud oğurlanması vergiyə cəlb edilməli olan əməliyyat hesab olunur.

Vergi Məcəlləsində aparılmış dəyişikliklərdən sonra yer almış 224.9-cu maddəsinə həmin Məcəllənin 222.5.5-ci maddəsində qeyd edilən fəaliyyət istiqamətində öz işini quran sahibkarlıq subyektləri tərəfindən əldə olunmuş ərzaq, eləcə də hazırlanmış qida məmulatlarının xarab olması 2021-ci ilin yanvar ayının birinə qədər Vergi Məcəlləsinin 159.5-ci maddəsinin tələblətinə uyğun olaraq vergiyə cəlb edilən əməliyyat qismində çıxış edə bilməz.

Bütün bunları daha rahat aydınlaşdırmaq üçün bir misala müraciət edək. Qoy mehmanxana sektorunda fəaliyyət göstərən sahibkarlıq subyekti əlavə dəyər vergisinə cəlb olunmuşdur və onun qarşı tərəfdən əldə etdiyi ümumi məbləği 30.000 manat olan məhsullar xarab olmuşdur. Bu səbəbə görə onların uçotdan çıxarılması həyata keçirilmişdir. COVİD-19 pandemiyasına qədər sözügedən sahibkarlıq subyekti bu məhsulun xarab olmasını əlavə dəyər vergisi bəyannaməsində 5.400 manat miqdarında bəyan etməli idi: 30.000 manat x 18% = 5.400 manat. Tətbiq olunmuş müvəqqəti vergi rejimi şəraitində bu kimi məhsulun xarab olması ilə əlaqədar əlavə dəyər vergisinin bəyan olunmasına artıq zərurət yaranmır. Qeyd edək ki, həmin güzəşt 2021-ci il yanvar ayının birinə qədər tətbiq olunur.

Daha bir aydınlıq gətirilməli olan məsələ hansı məsrəflərin heç bir məhdudiyyət tətbiq edilmədən gəlirdən çıxarılmasına icazənin verilməsi ilə bağlıdır.

Bu məsələ ilə əlaqədar qeyd etmək yerinə düşərdi ki, COVİD-19 pandemiyası şəraitində sahibkarlıq subyektləri tərəfindən işçi heyəti və ümumiyyətlə əhalinin həyatını və sağlamlıqlarını qorumaq üçün lazımi profilaktik, həmçinin dezinfeksiya işlərinin yerinə yetirilməsi xüsusi aktuallıq və böyük önəm daşıyır. Vergi Məcəlləsində aparılmış dəyişikliklərdən sonra əlavə olunmuş 224.10cu maddə ilə nəzərdə tutulur ki, müvəqqəti vergi rejimi qüvvədə qaldığı şəraitdə insanların həyatını və sağlamlığını qorumaq üçün sahibkerlıq subyektləri müxtəlif dzinfeksiya işləri görür. Bu yönümdə görülən profilaktik işlərə sərf olunmuş maliyyə vəsaitlərinə gəlirdən çıxarılması ilə əlaqədar hər hansı

məhdudiyyətlər nəzərdə tutulmur.

Burada qeyd etmək yerinə düşərdi ki, sözügedən Məcəlləyə əlavə olunmuş 224.10-cu maddənin imkanlarından yararlanan zaman sahibkarlıq subyektləri hər hansı şişirtmələrə və sui-istifadə hallarına yol verməyəcəklər. lakin ola bilsin ki, bir neçə sahibkarlıq subyekti profilaktika-dezinfeksiya xidmətləri görən sahibkarlıq subyektləri ilə gizli sövdələşməyə daxil olsun və sərf olunan maliyyə vəsaitlərinin şişirdilməsi ilə bağlı müəyyən addımlar atsın. Odur ki, Vergi Məcəlləsində bu kimi xərclərin miqdarına heç bir məhdudiyyətlərin olmaması səbəbindən vergi əməkdaşları belə əməliyatların həyata keçirilməsi zamanı diqqətini və sayıqlığını əldən verməməlidir.

Məsələnin kifayət qədər maraqlı tərəfi bundan ibarətdir ki, sahibkarlıq subyektləri gözləmə mövqeyi tutmuşdular, onları Koronavirusla Mübarizəyə Dəstək Fonduna köçürülən maliyyənin də gəlirlərdən çıxarılıb-çıxarılmayacağı maraqlandırırdı. Lakin Vergi Məcəlləsində aparılan dəyişikliklərdə adıçəkilən Fonda köçürülən vəsaitlərin gəlirlərdən çıxarılması məsələsi nəzərdə tutulmamışdır.

İndi isə vergi güzəştlərindən əvvəl öz vergi öhdəlikləri ilə bağlı zəruri ödənişlərin həyata keçirilməsi təqdirdə prosesin necə tənzimləyəcəyinə aydınlıq gətirək.

Ola bilər ki, müvəqqəti vergi rejiminin tətbiq olunduğu fəaliyyət sferasına müvafiq sahibkarlıq subyekti tərəfindən 2020-ci ilin birinci rübü üçün cari vergi ödənişlərini yaxud sadələşdirilmiş vergi öhdəlikləri bəyan edilsin və bununla əlaqəli ödənişlər aparılsın.

Vergi Məcəlləsində aparılmış dəyişikliklər nəticəsində əlavə olunmuş 224.11-ci maddəyə görə, Məcəllədə yer alan 222.5-ci maddə ilə əks etdirilən fəaliyyət növləri istiqamətində öz işini quran sahibkarlıq subyektlərinə həmin maddə ilə təyin olunan güzəştlər tətbiq edildiyi zaman cari il üçün ödənilməsi aparılmış vergilər, o cümlədən, növbəti dövrlər üçün yerinə yetirilmiş vergi məbləğlərinin təkrarən hesablanması aparılır və artıq köçürülmüş ödəmələr növbəti dövrlərin ödəmələrinə şamil olunur.

Yuxarıda dediklərimizə misalla aydınlıq gətirək. Fərz edək ki, iaşə sektorunda öz işini qurmuş sahibkarlıq subyekti 2020-ci ilin birinci rübü ilə əlaqədar sadələşdirilmiş vergi bəyannamısını təqdim etdiyi zaman ümumi dövriyyədən səkkiz fazlik dərəcəsi ilə sadələşdirilmiş verginin

məbləğinin hesablanmasını aparıb. Vergi orqanları tərəfindən 2020-ci ilin I rübü üçün vergi məbləğinin müəyyənləşdirilməsi təkrar aparılmaqla sahibkarlıq subyektinin vergi öhdəlikləri 50% miqdarında kiçiləcək.

Bəs sabit qəbzlərlə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin işləmədikləri ay yaxud aylara görə ödəmələrin tənzimlənməsi hansı qaydalarla aparılacaq?

Bununla əlaqədar qeyd etmək lazımdır ki, ola bilsin sahibkarlıq subyekti "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz"ə əsasən aparılan ödəmələri əvvəlcədən yerinə yetirib. Məsələn, sahibkarlıq subyekti may ayı üçün ödənişi aparsa da, ölkənin Nazirlər Kabinetinin bu müddətdə fəaliyyətinin məhdudlaşdırılamasına görə işləyə bilməyib.

Vergi Məcəlləsində aparılmış dəyişikliklər nəticəsində əlavə olunmuş 224.12-ci maddəyə əsasən səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş orqan yaxud strukturun qərarına uyğun olaraq, müvafiq fəaliyyətlərin tamamilə yaxud qismən məhdudlaşdırıldığı dövr Vergi Məcəlləsinin 218.4.4-cü maddəsində göstərilən fəaliyyəti davam etdirən sahibkarlıq subyektləri tərəfindən əldə edilmiş qəbzlərin qüvvədə qalma müddətinə daxil olunmur və ödənilmiş vergil məbləğləri növbəti ayların ödənişlərin şamil edilməlidir.

Həmin maddənin tələblərindən aydın olur ki, məsələn, fərdi şəkildə bərbər kimi fəaliyyət göstərən sahibkarlıq subyekti karantin rejiminə təsadüf olunan dövrə "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz"ə görə ödəniş aparıbsa, onda bu ödənmiş məbləğ növbəti aylar üçün vergi ödəməsinə daxil olunacaq.

İndi də ictimai iaşə sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektinin vergi mükəlləfiyyətini dəyişdiyi zaman prosesin hansı qaydalar əsasında tənzimlənəcəyinə aydınlıq gətirək.

Bununla əlaqədar qeyd edək ki, Vergi Məcəlləsində axır zamanda aparılmış dəyişikliklərdən biri ictimai iaşə sektorunda fəaliyyət göstərən vergi ödəyicilərinin əlavə dəyər vergisi qeydiyyatından çıxması yaxud təkrarən əlavə dəyə vergisinin ödəyicisi qismində qeydiyyata götürülməsini əks etdirir.

Vergi Məcəlləsində yer alan 225.1-ci maddəsinə uyğun olaraq,

əlavə dəyə vergisinin ödəyicisi qismində qeydiyyatda duran və ictimai iaşə sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektləri cari ilin sentyabr ayının birindən gec olmamaq şərtilə sadələşdirilmiş verginin ödəyiciləri qismində çıxış etmək hüququndan istifadə etdikəri haqqında yazılı formada məlumatı qeydiyyatda durduqları vergi orqanına təqdim etməlidir. Bu zaman vergi ödəyicisi ərizə ilə müraciət göndərdiyi tarixdən başlayaraq sadələşdirilmiş vergi ödəyicisi qismində fəaliyyətə başlaya bilər və təqdim olunan məhsullara, görülən işlərə yaxud yerinə yetirilən xidmətlərə müvəqqəti vergi rejiminin müddəaları şamil olunur.

Dediklərimizin daha yaxşı mənimsənilməsi üçün bir misal çəkək. Fərz edək ki, əlavə dəyər vergisinin ödəyicisi kimi qeydiyyatda duran "Toy olsun" şadlıq sarayı sadələşdirilmiş vergi ödəyicisi hüququndan yararlanmaq niyyətindədir, belə olna halda bu sahibkarlıq subyekti sentyabr ayının birindən gec olmamaq şərtilə yazılı formada müvafiq məlumatı qeydiyyatda durduğu vergi orqanına təqdim etməyə borcludur.

Sözügedən sahibkarlıq subyekti tərəfindən hansı tarixdən müraciət olunursa, həmin gündən onun sadələşdirilmiş vergi ödəyicisi qismində öz işini davam etdirmək imkanı yaranır və satışa çıxarılan məhsullara, görülən işlərə, habelə təqdim edilən xidmətlərə artıq müvəqqəti vergi rejimində nəzərdə tutulan qaydalar şamil olunur. Əgər son on iki aylıq dövriyyəsi 200 min manat məbləğini üstələyirsə, bu zaman ona faiz dərəcəsi kimi 8 faizlik deyil, 4 faizlik dərəcə şamil olunur.

Şübhə yoxdur ki, sahibkarlıq subyekti sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə etmək niyyətində olarsa, bu zaman onun əlavə dəyər vergisinin ödəyicisi kimi qeydiyyatda olmasının ləğvihaqqında ərizəsi müvafiq vergi orqanına təqdim edilməlidir. Vergi Məcəlləsində yer alan 225.2-ci maddəyə uyğun olaraq, burada qeyd edilən sahibkarlıq subyektləri sadələşdirilmiş vergi ödəyicisi qismində çıxış etmək hüququndan istifadə etmək niyyətində olsalar, sahibkarlıq subyektləri əlavə dəyər vergisi qeydiyyatından çıxmaları haqqında ərizəni Vergi Məcəlləsinin 158.1-ci maddəsində göstərildiyi qaydada yazmalı və bu halda kapital xarakterli məsrəflərin şəkilməsi ilə bağlı ödənilmiş əlavə dəyər vergisi miqdarından başqa, ictimai iaşə sektorunda həyata keçirilən fəaliyyətin təmin olunması məqsədilə satın alınmış məhsullar, görülən işlər və təqdim edilən xidmətlər müqabilində

əvəzləşdirilmiş əlavə dəyər vergisinin məbləği təkrarən hesablanır.

Sahibkarlıq subyekti 2021-ci ilin yanvarın birindən etibarən təkrarən əlavə dəyər vergisinin ödəyicisi qismində öz işinə davam edə bilər və, bununla yanaşı, Vergi Məcəlləsində yer alan 225.3-cü maddəsində nəzərdə tutulmuş tələblər əsas qismində götürülür.

Qeyd etdiyimiz bu maddəyə uyğun olaraq, Vergi Məcəlləsinin 222.2-ci maddəsi ilə müəyyən olunan müddət sona çatdıqda sahibkarlıq subyekti əlavə dəyər vergisi qeydiyyatında öz işinə davam etdiyi təqdirdə sərəncamında olan və Vergi Məcəlləsinin 225.2-ci maddəsində əks etdirilmiş məhsullar haqqında vergi orqanlarına səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş orqan yaxud strukturun təsdiqlədiyi formada məlumat təqdim etməyə borcludur. Həmin məlumatda yer alan məhsulların sonradan təqdim olunması, həmçinin ictimai iaşə sektorunda göstərilən xidmətlərin tərkibi olaraq silinməsi əlavə dəyər vergisi tətbiq edilən dövriyyəyə hesab edilmir.

Məcəllədə yer alan 225.4-cü maddəsinə uyğun olaraq, sahibkarlıq subyekti növbəti hesabat ilində Vergi Məcəlləsinin 218.1.2, habelə 218.2.-ci maddələrinə əsasən sadələşdirilmiş vergi ödəyicisi qismində çıxış etmək hüququndan yararlandığı təqdirdə o, qüvvədə olduğu müvəqqəti vergi rejimində öz fəaliyyətini dayandırdığı üçün kapital xarakterli məsrəflərin çəkilməsi üçün ödənilərək əvəzləşdirilmiş əlavə dəyər vergisinin məbləğlərin təkrarən hesablanması həyata keçirilir.

Bəs müvəqqəti vergi rejimi şəraitində hansı sahibkarlıq subyektləri üçün güzəştlərin tətbiq edilmsi nəzərdə tutulur?

Bu suala dolğun cavab vermək məqsədilə sözügedən Məcəlləyə əlavə olunan "Koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə bağlı tətbiq edilən müvəqqəti vergi rejimi" adlanan və XVIII fəsillə birbaşa əlaqəsi olan ümumiləşdirici cədvələ nəzər yetirək. Bu cədvəlin tərtib edilməsinin başlıca məqsədi hansı sahibkarlıq subyektinə güzəştin tətbiq edilməsi ilə bağlı məlumatların ümumiləşdirilməsindən ibarətdir.

Məsələ burasındadır ki, sahibkarlıq subyektləri müvəqqəti vergi rejiminin tətbiq olunduğu sferalara aid edilməsələr də, ictimaiyyətdə onların müəyyən güzəştlərdən istifadə edmələti barədə fikirlər yer alır.

Müvəqqəti vergi rejimi

№	Gözəştin növü	Müvəqqəti vergi rejimi qüvvədə olduğu dövrdə COVİD-10 pademiyasından zərər çəkən sahibkarlıq subyektləri üzrə siyahı (Vergi Məcəlləsinin 222.5-ci maddəsinin tələblərinə əsasən tənzimlənər)	Müvəqqəti vergi rejimi qüvvədə olduğu dövrdə COVİD-19 pandemiyasından zərər çəkməmiş mikro sahibkarlıq subyektləri üzrə	Müvəqqəti vergi rejiminin tətbiq edildiyi sövrdə COVİD-19 pandemiyasından zərər çəkməyən qeyri-mikro sahibkarlıq subyektləri
1	Əmlak və Torpaq vergiləri ilə bağlı tam güzəşt	BƏLİ	XEYR	XEYR
2	Mənfəət yaxud gəlir vergisi ilə bağlı 75%-lik güzəştin tətbiqi	BƏLİ	XEYR	XEYR
3	Sadələşdirilmiş vergi ilə bağlı 50%-lik güzəştin tətbiqi	BƏLİ (2%-lik dərəcə əsasında sadələşdirilmiş vergi ödəyicisi olan sahibkarlıq subyektləri, ictimai iaşə və avtonəqliyyat vasitələri ilə sərnişinlərin və yüklərin daşınmasını həyata keçirən sahibkarlıq subyektləri	BƏLİ (2%-lik dərəcə əsasında sadələşdirilmiş vergi ödəyicisi olan sahibkarlıq subyektləri üzrə)	XEYR
4	İcarə haqqının ödənilməsi ilə bağlı ödəmə mənbəyindən hesablanana vergiyə 50%-lik güzəştin tətbiq edilməsi	BƏLİ	XEYR	XEYR
5	1 il ərzində cari vergi ödənişləri və arayışları ilə bağlı azad olunmanın tətbiq edilməsi	BƏLİ	XEYR	XEYR

6	2019-cu illə bağlı mənfəətə və əmlaka görə tutulan mergilərin ödəməsinin son müddəti 31 martdan 1 sentyabra keçirilmişdir	BƏLİ (mikro sahibkarlıq mə.şğul olan vergi ödəyiciləri üzrə)	BƏLİ	XEYR
7	2020-ci ilin I və II rüblər ilə bağlı sadələşdirilmiş vergi bəyannaməsi və vergilərin son ödəniş müddəti 2020-ci ilin sentyabr ayının 1-nə qədər uzadılması qərara alınmışdır	BƏLİ	BƏLİ	XEYR
8	Vergilər, sosial sığorta və işsizliyə görə sığorta ilə bağlı ödənilməmiş borc məbləğləri ilə əlaqədar faizlərin hesablanması 2020-ci ilin aprel ayının birindən 2021-ci ilin yanvar ayının birinə qədər təxirə salınması qərara alınmışdır	BƏLİ	XEYR	XEYR
9	Vətəndaşların həyat və sağlamlıqlarının təmin edilməsi üçün sahibkarlıq subyektləri tərəfindən aparılan vacib və təxirəsalınmaz profilaktika, həmçinin dezinfeksiya tədbirləri ilə əlaqədar sərf	BƏLİ	BƏLİ	XEYR

	olunmuş xərclərin məhdudiyyətsiz şəkildə əldə olunmuş gəlirlərdən çıxarılması qərara alınmışdır			
10	Vətəndaşların sağlamlıq ehtiyacının və lazımi ərzaq məhsullarına tələbatlarının qarşılanması üçün qərarda öz əksini tapmış mal və xidmətlərin idxal edilməsi zamanı ƏDV-dən azad olunması qərara alınmışdır	BƏLİ	BƏLİ	BƏLİ
11	Ərzaq məhsullarının və hazırlanmış qidaların xarab olması 1 yanvar 2021-ci il tarixdən Vergi Məcəlləsində yer alan 159.5-ci maddənin tələbləi üçün vergi tutulan əməliyyat qismində çıxış etmir	BƏLİ (ictimai iaşə sektorunda fəaliyyətlə bağlı)	XEYR	XEYR

FƏSİL 2:

VERGİ YOXLAMALARI VƏ VERGİ MONİTORİNQİ

2.1. Operativ vergi nəzarəti tədbirləri

Vergi tutumu prosesini tənzimləyən qanunvericilikdə xeyli sayda verg nəzarəti ilə bağlı tədbirlər nəzərdə tutulur. Operativ vergi nəzarəti onların sırasında xüsusi yer tutur. Burada biz operativ vergi nəzarəti ilə bağlı həyata keçirilən tədbirlərə aydınlıq gətirəcək, onların vergi yoxlamaları istiqamətində aparılan digər tədbirlərlə ümumi və fərqli cəhətlərə toxunacaq, sözügedən tədbirlərin qarşılıqlı bağlılığı, yəni, misal üçün, səyyat vergi yoxlaması prosesində operativ vergi nəzarəti tədbirlərinin aparılması ilə bağlı qərarın verilməsi mümkünlüyü və bu kimi digər məsələlər haqqında söz açacağıq.

Bundan əlavə, oxucular operativ vergi nəzarəti tədbirlərinin nə zaman və hansı əsaslara görə aparıldığını, bu tədbirlərin əhatə dairəsinə daxil olan məsələləri, müvafiq hallarda hansı maliyyə sanksiyaların tətbiq olunacağını biləcəklər. Qeyd etdiyimiz məsələlər ətrafında geniş şərhlər veriləcək, praktiki misallar və nümunlər gətiriləcəkdir.

Əvvəla, operativ vergi nəzarəti tədbirlərinin digər növ vergi yaxlamalarından fərqinin nədən ibarət olduğuna aydınlıq gətirək.

Məlumdur ki, kameral vergi yoxlama tədbirlərinin həyata keçirilməsi vergi orqanlarının əməkdaşları ilə sahibkarlıq subyekti arasında hər hansı ünsiyyət istisna olunur, bu yoxlama tədbirləri həmin sahibkarlıq subyektinin ünvanına gedilmədən reallaşdırılır.

Ancaq səyyar vergi yoxlaması aparılarkən sahibkarlıq subyekti əvvəlcədən aparılacaq yoxlama tədbirləri barədə məlumatlandırılır, yəni onun xəbəri olmadan yoxlamanın həyata keçirilməsinə yol verilmir. Belə yoxlamada, praktiki cəhətdən, sahibkarlıq subyektinin fəaliyyətinin bütün aspektləri və tam şəkildə nəzərdən keçirilir.

Operativ vergi nəzarəti tədbirləri isə bir qədər fərqli xarakter daşıyır. Belə ki, vergi orqanlarının əməkdaşları sahibkarlıq subyektinin

yerləşdiyi məkana baş çəkir, ancaq yoxlama tədbirləri müəyyən konkret sahəni əhatə edir və bu haqda sahibkarlıq subyektinə hər hansı məlumat verilmir.

Bununla yanaşı, Vergi Məcəlləsində yer alan 50.1-ci maddədə deyilir ki, operativ vergi nəzarətinin həyata keçirilməsi ilə bağlı tədbirlərin aparılmasına görə cavabdeh olan vergi orqanlarının vəzifəli nümayəndələrinə zəruri sənədləri bir nümunə qismində götürülməsinə icazə verilir. Ancaq, bununla bərabər, sözügedən Məcəllənin 43.1-ci maddəsində müvafiq dəyişikliklər aparıldıqdan sonra bu hala ancaq səyyar yoxlama tədbiri zamanı icazə verilməsi öz əksini tapırdı. Lakin 2019-cu ilin yanvarın 1-dən etibarən qüvvəyə minmiş dəyişikliklərdən sonra qeyd etdiyimiz həmin ziddiyyətin aradan qaldırılması təmin edilmişdir.

Daha bir məsələyə aydınlıq gətirək. Maraqlıdır, bəs səyyar vergi yoxlaması ilə bağlı vergi orqanı operativ vergi nəzarətinin həyata keçirilməsi istiqamətində qərarlar vermək səlahiyyətinə malikdirmi?

Bu suala cavab vermək üçün, hər şeydən əvvəl, Vergi Məcəlləsində yer alan 50-ci maddəyə nəzər salmağımız yerinə düşərdi. Məsələ burasındadır ki, həmin maddənin tələblərinə uyğun olaraq, vergi orqanlarının əməkdaşlarında operativ vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi üçün əsaslar olmalıdır. Bu kimi əsaslardan biri qismində vergi orqanlarının əməkdaşları tərəfindən aparılan səyyar vergi yoxlaması prosesində üzə çıxar faktlar göstərilə bilər.

Dediklərimizə aydınlıq gətirmək məqsədilə bir misala müraciət edək. Məsələn, "Bəşir" MMC-nin fəaliyyəti ilə bağlı səyyar vergi yoxlamasının aparılmasına qərar verilmişdir. Yoxlamanın gedişatında isə aydın olmuşdur ki, həmin sahibkarlıq subyekti satış dövriyyəsini azaldıb. Belə olan halda vergi əməkdaşları tərəfindən operativ nəzarət forması qismində çıxış edən xronometraj müşahidəsinin həyata keçirilməsinin məqsədəuyğunluğu müəyyən edilir və hmin vergi ödəyicisinin real dövriyyəsinin təyin edilməsi asanlaşır.

Bir çox hallarda sahibkarlıq subyektinin qanunazidd hərəkətlərindən vətəndaşların şikayətləri daxil olduğu təqdirdə operativ verginin aparılması mümkünlüyü ilə bağlı suala aydınlıq gətirilməsi lazım gəlir.

Məsələ burasındadır ki, operativ vergi nəzarətinin reallaşdırılmasına səbəb ola biləcək məsələlərdən biri vergi orqanlarının əməkdaşları tərəfindən mənbəyi məlum olan qaynaqlardan əldə olunmuş informasiyanın mövcudluğudur. Belə informasiyalar rəsmi statistik qaynaqlarda olmaqla bərabər, həmçinin ayrı-ayrı vətəndaşlar, cəmiyyət nümayəndələrindən də daxil ola bilər.

Məsələn, vətəndaşlardan biri öz şikayətində göstərir ki, pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan "Alyans" MMCnağd pul hesablaşmaları aparıldığı zaman kassa çeklərini təqdim etmir. Vergi orqanlarının əməkdaşları əldə olunmuş həmin informasiya əsasında vətəndaşlarla pul hesablaşmaların həyata keçirilməsi qaydalarına riayət edilməsi ilə əlaqədar operativ vergi tədbirinin reallaşdırılması barədə qərar vermək səlahiyyətinə malikdir.

Burada mühüm bir məsələni qeyd etmək lazımdır ki, şikayətçi hər hansı sahibkarlıq subyektinin qanunsuz əməlləri barədə informasiya verərkən özü barədə bütün məlumatlar "Vətəndaşların müraciətləri haqqında" AR Qanununun 6.3-cü maddəsində yer alan tələblərə cavab vermədiyi təqdirdə anonim hesab olunur. Sözügedən qanunun həmin maddəsində deyilir ki, bu vətəndaşın yazılı formada təqdim edilmiş müraciətində özü haqqında aşağıdakı informasiya əks olunmalıdır:

- müraciəti edən fiziki şəxsin adı, atasının adı və soyadı, yaşadığı ünvan yaxud yaşayış yeri, hüquqi şəxsin adı və hüquqi ünvanı;
- əgər müraciət vətəndaşın özü tərəfindən birbaşa deyil, onun səlahiyyətli nümayəndəsi vasitəsilə təqdim olunursa, o zaman müraciəti təqdim edən şəxsin adı, soyadı və atasının adı, habelə ünvanı.

Belə məlumatlar olmadığı təqdirdə bu kimi yazılı formada tərtib edilən müraciətlər anonim müraciətlər kimi qəbul olunur. Qanunvericiliyə əsasən, anonim qəbul edilən müraciətlər bunun əsasında araşdırma aparmaq səlhiyyətində olan subyektlər və onların vəzifəli şəxsləri tərəfindən qəbul olunmur və belə müraciətlərə baxılmır.

İndi isə oprativ vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi üçün digər hansı əsasların lazım olduğuna aydınlıq gətirək.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində yer alan 50.2.3-cü maddəsinə əsasən sahibkarlıq subyekti tərəfindən vergi qanunvericiliyi tələblərinin pozulmasının qarşısının alınması haqqında vergi orqanları əməkdaşlarının qanuni tələblərini Vergi Məcəlləsinin

müəyyən etdiyi müddət ərzində həyata keçirmədiyi təqdirdə operativ vergi nəzarəti tədbirləri aparıla bilər.

İndi isə operativ vergi nəzarətinin hansı məsələləri əhatə etdiyini nəzərdən keçirək.

Bunu daha əyani və aydın şəkildə göstərmək məqsədilə aşağıdakı cədvəli tərtib etdik.

Sıra	Operativ vergi nəzarəti	Tətbiq edilməli maliyyə sanksiyasının məzmunu yaxud qeyd
1	Vergi orqanına uçotda olmayan yaxud Vergi Məcəlləsində yer alan 221.4-7-ci maddəyə uyğun olaraq "Fərqlənmə nişanı"nı almamış sahibkarlıq subyektinin üzə çıxarılması	40 AZN miqdarında maliyyə sanksiya nəzərdə tutulur
2	Üzərində kasiz markaları olmalı, habelə məcburi nişanlanma ilə naşinlanması olan məhsulların, eləcə də dini yönümlü ədəbiyyatın, istər kağız, istərsə də elektron daşıyıcılarında, audio və video materialların, məhsul və məmulatların, habelə dini məzmuna malik digər informasiya materiallarının üzərində markalanma olmadan yaxud saxta markalarla markalanmış, satılması üçün saxlanılması yaxud istehsal sahələrindən kənara çıxarılması faktlarının aşkarlanması	Təqvim ilində bu kimi hallar ilk dəfə baş verdiyi zaman belə məhsulların bazar qiyməti ilə dəyərinin bir misli, təqaim ilində bu kimi hallara 2 yaxud daha çox rast gəlindiyi təqdirdə iki misli miqdarında maliyyə sanksiya nəzərdə tutulur
3	Vətəndaşlarla hesablaşmaların həyata keçikrilməsi qaydalarına riayət edilməsi	Təqvim ilində bu kimi hallara ilk dəfə, 2-ci və daha çox halda baş verdikdə uyğun olaraq 1.000, 3.000 və 6.000 manat miqdarında maliyyə sanksiya nəzərdə tutulur
4	Valyutanın ödəmə vasitəsi qismində qəbul olunması, habelə valyutanı ticarət, iaşə, xidmət müəssisələrində qanunvericiliyə görə qüvvədə olan qaydalar pozulması ilə müşayiət olunan alqı-satqı yaxud dəyişdirmə hallarının baş verməsi	
5	Xüsusi razılığın (lisenziyanın) tələb olunduğu fəaliyyət istiqamətləri üzrə bu cür razılıq (lisenziya) olmadan öz fəaliyyətini davam etdirən sahibkarlıq subyektlərinin üzə çıxarılması	Sahibkarlıqla məşğul olmaq məqsədilə lisenziyanın alınması vacib olan hallarda bu kimi lisenziyaları əldə etmədən və ya lisenziyada nəzərdə tutulan şərtlərin pozulduğu təqdirdə inzibati xəta səbəbindən dəymiş zərərin yaxud əldə olunmuş gəlirin 4 misli qədər cərimə olunur (İnzibati Xətalar Məcəlləsinin 398-ci maddəsinə uyğun olaraq)

6	AR Əmək Məcəlləsinə uyğun olaraq əmək müqaviləsi özünün hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən vətəndaşların bu və ya digər işlərin görülməsinin yaxud xidmətlərin göstərilməsinin həyata keçirilməsi hallarının üzə çıxarılması	Hər belə vətəndaş üçün təqvim ilində ilk dəfə baş verdikdə 2.000AZN, 2-ci dəfə baş verdikdə 4.000AZN, 3 və daha çox dəfə baş verdikdə isə 6.000AZN miqdarında maliyyə sanksiya nəzərdə tutulur
7	İstehsal miqyasının yaxud satış dövriyyəsinin təyin edilməsi və dəqiqləşdirilməsi	Xronometraj üsulu ilə müşahidələr aparılır
8	Vergi Məcəlləsində yer alan 71-1.1-ci maddəyə uyğun olaraq, sahibkarlıq subyektinin sərəncamında və mülkiyyətində olan məhsullara görə elektron qaimə-faktura, öncədən sifarişi verilmədən təqdim olunan məhsullarla bağlı malların təhvil-təslim aktı, idxal gömrük bəyannaməsi və həmin bəyannamə səasında hesab-faktura (invoys), alış aktı yaxud Vergi Məcəllədə yer alan 72-2-ci maddədə qeyd olunan elektron alış aktı, elektron qaimə-faktura verilənədək komissiyaya, emal olunmaya yaxud saxlanılması və məsuliyyətli mühafizə altına alınması üçün götürülmüş məhsullar üçün təhvil-təslim aktı və qaytarpılmış məhsullar üzrə məhsulların qaytarılması aktı olmadığı təqdirdə	Məhsulların alışını yaxud mədaxil olunmasını təsdiqləyən Vergi Məcəlləsinin 58.8-ci maddəsində göstərilən sənədlərin olmadığı təqdirdə - alıcıya təqvim ilində bu cür hal ilk dəfə baş verikdə əldə olunmuş məhsulların ümumi dəyərinin 10%-i, 2-ci dəfə baş verdikdə 40%-i miqdarında. Qeyd edilmiş maddənin tələbləri istehsal sferasında fəaliyyət göstərən sahibkarlıq subyektləri tərəfindən istehsal olunan hazır mallara görə tətbiq olunması tənəzrdə tutulmur
9	Maliyyə vəsaitinin uçotdan yayındırılması yaxud uçota alınmaması halları üzərində nəzarətin təmin edilməsi;	Maliyyə vəaitlərinin 1.000AZN-dən artıq olan miqdarda uçotdan yayındırılması yaxud uçota alınmamasına görə - 1.000AZN-dən artıq təşkil edən hissəsinin 10%-i, ətqvim ilində bu kimi hal təkrar baş verdikdə 1.000AZN-dən artıq olan hissəsinin 20%-i məbləğində maliyyə sanksiyasının tətbiq olunması nəzərdə tutulur
10	Nağdsız pul hesablaşmalarının aparılmasına görə qanunvericilikdə nəzərdə tutulmuş tələblərə riayət edilməsinə nəzarət olunması	Təqvim ilində bu kimi hallar ilk dəfə baş verdikdə 1.000AZN- miqdarında; Təqvim ilində bu kimi hallar 2-ci dəfə baş verdikdə 3.000AZN miqdarında; Təqvim ilində bu kimi hallar 3 və daha artıq baş verdikdə 1.200AZN, Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində qeyd olunan şəxslərə

		6.000 AZN miqdarında maliyyə sanksiyasının tətbiq olunması nəzərdə tutulur.
11	"Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" əldə etməyən sahibkarlıq subyektlərinin üzə çıxarılması	Təqvim ilində bu kimi hallar ilk dəfə, iki və daha artıq baş verdikdə uyğun olaraq bir ay ərzində sabit vergi məbləğinin 40% və 100% məbləğində
12	Məhsulların Vergi Məcəlləsi ilə müəyyənləşdirilən elektron qaimə-faktura əsasında əldə edilməsi üzərində nəzarətin həyata keçirilməsi	Elektron qaimə-fakturanın təqdim olunmalı təqdirdə məhsulların elektron qaimə-fakturasız buraxılmasına, eləcə də məhsulların öncədən sifariş olunmadan buraxılması məqsədilə məhsulların təsərrüfat subyekti yaxud obyektindən avtonəqliyyat vasitələrinə yüklənilməsi üçün təsərrüfatdaxili yerdəyişmə qaiməfakturası olmadan buraxılması müqabilində - məhsulları buraxan şəxsə təqvim ilində bu kimi hal ilk dəfə baş verdikdə buraxılmış məhsulların satış qiymətinin 10%-i, 2-ci dəfə baş verdikdə 20%-i, 3 və daha artıq baş verdikdə 40%-i məbləğində maliyyə sanksiyasının tətbiq olunması nəzərdə tutulur

2.2. Xronometraj üsulu ilə müşahidənin aparılması

Operativ vergi nəzarətinin təmin edilməsi istiqamətində tətbiq edilən növlərdən biri xronometraj üsuludur. Bu metod vasitəsilə müşahidələrin reallaşdırılması, onların aparılmasının səbəbləri, satış dövriyyəsinin aşağı düşməsinin, habelə sahibkarlq subyekti tərəfindən nağd hesablaşmaların aparıldığı zaman nəzarət-kassa çekini təqdim edilməməsinin sözügedən müşahidə metodunun tətbiq olunması üçün əsasların olub-olmaması, müşahidəni həyata keçirmək məqsədilə gələn vergi əməkdaşının sahibkarlıq subyektinin ərazisinə buraxılması qaydası, bundan imtina edən sahibkarlıq subyektinin hüquqi məsuliyyəti, vergi əməkdaşlarının xronometrajın reallaşdırılmasının nəticələrinə uyğun olaraq ortaya çıxan dövriyyəni növbəti dövrə tətbiq etmələri, təkrar xronometrajın aparılması müddəti kimi məsələlərə bu bölümdə nəzər salınacaq. İzah edilən hər bir məsələ ilə əlaqədar əyani

misalların verilməsi sözügedən mövzuların daha yaxşı mənimsənilməsinə kömək edəcək.

Əvvəla, xronometraj vasitəsilə müşahidələrin həyata keçirilməsində məqsədin nədən ibarət olduğuna toxunaq.

Artıq qeyd edilmişdir ki, xronometraj üsulu vasitəsilə müşahidələrin həyata keçirilməsi operativ vergi nəzarətinin bir növüdür. Həmin üsulla vergi nəzarəti istehsal həcminin yaxud satış dövriyyəsinin təyin edilməsi, habelə dəqidləşdirilməsi üçün sahibkarlıq subyektlərinin gəlir əldə etmək məqsədilə istifadə etdikləri, və ya vergilər hesablanan obyektlərin saxlanılması ilə əlaqəli istehsal, anbar, ticarət və bu kimi başqa təyinatlı binalarda yaxud ərazilərdə həyata keçirilir.

Qeyd etdiyimiz həmin proses əvvəlki dövrlərdə Nazirlər Kabinetinin 13 yanvar 2001-ci il tarixli 13 №-li "Xronometraj metodu ilə müşahidə aparılması Qaydalarının təsdiq edilməsi barədə" qərarı ilə tənzimlənirdi. Vergi Məcəlləsində yer alan "Xronometraj metodu ilə müşahidə aparılması" 50-1 saylı maddə yenicə bu qanunvericilik aktına daxil edilmişdir. Bu səbəbə görə də 12 iyun 2013-cü il tarixli, 136 saylı Qərara müvafiq olaraq Nazirlər Kabinetinin bu qərarı qüvvədən düşmüş hesab edilmişdir.

Bəs satış dövriyyəsinin kiçildilməsi halları xronometraj üsulu vasitəsilə müşahidələrin aparılması üçün nə dərəcədə əsasə verə bilər?

Vergi qanunvericiliyinə görə xronometraj üsulunun tətbiqi üçün əsas verən məsələlərdən daha çox istifadə olunan hallar sahibkarlıq subyektinin satış göstəriciləri ilə əlaqəli məlumatlarda enmə dinamikasının baş verməsi ilə bağlıdır.

Yəni, sahibkarlıq subyektinin tərtib etdiyi vergi bəyannaməsində vergiyə cəlb olunan dövriyyənin ötən bəyannamələrlə müqayisədə 30%-dən artıq kiçiləndə, və ya dövriyyəni əks etdirən pul vəsaitləri həcminin sahibkarlıq subyektinin fəaliyyəti haqqında iqtisadi göstəricilərinə, işçi heyətinin sayına, əmtəə və material rezervlərinin miqdarına, satış qiymətlərinə və aktivlərin dəyərinə müvafiq olmaması haqqında vergi əməkdaşlarında qaynağı məlum olmayan informasiyalar olduğu təqdirdə vergi əməkdaşları xronometraj üsulu ilə müşahidənin aparılması ilə bağlı qərar qəbul edə bilərlər.

Dediklərimizi bisal vasitəsilə daha da aydınlaşdıraq. Fərz edək ki, "F" MMC-nin Bakıda yerləşən və tikinti materiallarının satışı

sferasında fəaliyyət göstərən bir mağazası var. Həmin sahibkarlıq subyektinin təqdim etdiyi bəyannamələrin təhlilinə əsasən belə bir qənaətə gəlinir ki, ayrı-ayrılıqda təqvim ilinin ayları üzrə satış həcmini əks etdirən müvafiq göstəricilərdə enmə dinamikası müşahidə olunur. Vergi əməkdaşları tərəfindən "F" MMC-də operativ vergi nəzarəti ilə bağlı qanuunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlərin həyata keçirilməsi ilə bağlı qərar qəbul olunur. Həmin qərarda sözügedən mağazada on gün ərzində xronometraj üsulu vasitəsilə müşahidənin həyata keçirilməsi öz əksini tapır.

Aydınlıq gətirilməli olan daha bir məsələ vergi əməkdaşının xronometraj üsulu ilə müşahidələrin aparıldığı zaman sahibkarlıq subyektindən hər hansı məhsulun əldə edilməsinin mümkün olub-olmaması ilə bağlıdır.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, vergi əməkdaşı xronometraj üsulunun vasitəsilə müşahidələrə başlamazdan əvvəl alıcı kimi çıxış edir. Həmin proses zamanı əsas hədəf sahibkarlıq subyektinin obyektində realızə olunan məhsulların, görülən işlərin yaxud göstərilən xidmətlərin qiymətinin müəyyənləşdirilməsidir. Belə hallar da olur ki, sahibkarlıq subyektləri bunun qanunazidd bir hərəkət olduğunu düşünürlər. Lakin qeyd etdiyimiz hərəkətlərdə qanunazidd hər hansı əməlin olmadığı aşkardır. Məsələ burasındadır ki. Vergi Məcəlləsində yer alan 50-1.4-cü maddəyə uyğun olaraq, müşahidə prosesinə start verməzdən öncə xronometraj üsulu vasitəsilə müşahidələrin aparılmalı olan sahibkarlıq subyektində satılan məhsulların, görülən işlərin yaxud göstərilən xidmətlərin qiymətini müəyyənləşdirmək üçün vergi əməkdaşları nəzarət qaydası olaraq satılam məhsulların, görülən işlərin yaxud göstərilən xidmətlərin istehlakçısı qismində çıxış etmək hüququ var.

İndi isə sahibkarlıq subyekti tərəfindən kassa çekinin verilməməsi hallarının xronometraj üsulu vasitəsilə müşahidələrin aparılmasına nə dərəcədə əsas yaratdığına nəzər salaq.

Bununla əlaqədar xatırlatma etmək yerinə düşərdi ki, Vergi Məcəlləsində yer alan 16.1.8-ci maddəyə uyğun olaraq, aşağıda sadaladığımız fəaliyyət növlərindən başqa pərakəndə ticarət və/yaxud ictimai iaşə fəaliyyəti istiqamətində nağd şəkildə hesablaşmaların aparılması səlahiyyətli icra hakimiyyəti orqanının təyin etdiyi orqan yaxud qurum tərəfindən müəyyənləşdirildiyi kriteriyalara uyğun gələn

və səlahiyyətli icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi orqan yaxud qurumun elektron informasiya sisteminə onlayn rejimdə qoşulan nəzarət-kassa aparatının köməyi ilə həyata keçirilməlidir:

- *Çap medianın, yəni qəzetlərin, jurnalların realizasiyası (bu cür satış dövriyyəsinin ümumi dövriyyədəki payı 50%-dən artıq olduğu təqdirdə);*
- *Kənd əsərrüfatı sektorunda istehsal olunan məhsulların bazarlarda, satış yarmarkalarında, habelə səyyar qaydada realizə olunması;*
- *Səyyar satış yerlərində, bazarlarda, eləcə də başqa kütləvi satış nöqtələrində piştaxtalardan, nəqliyyat vasitələrindən, habelə qoşqulardan istifadə edilməklə pərakəndə satışın həyata keçirilməsi;*
- *Qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövriyyəyə buraxılan qiymətli kağız və lotereya biletlərinin realizə olunması;*
- *Elektrik enerjisi, təbii qaz, içməli və texniki su təchizatı sferasında fəaliyyət göstərən, eləcə də mərkəzi isitmə sisteminə daxil olan obyektlərdə fəaliyyətin həyata keçirilməsi.*

Bununla bərabər, vergi əməkdaşları tərəfindən aparılan operativ vergi nəzarətin gedişatında vətəndaşlarla pul hesablaşmalar aparıldığı zaman müvafiq qaydaların və tələblərin pozulması halları üzə çıxarıldığı təqdirdə xronometraj üsulu vasitəsilə müşahidənin aparılması mümkündür.

Yeri gəlmişkən, xronometraj üsulu vasitəsilə müşahidələrin yerinə yetirilməsi ilə bağlı qərar həm də nəzarət-kassa aparatının çekindən istifadə etmək hüququna malik olmayan, lakin nağd pul vasitəsilə hesablaşmaların gedişatında mədaxil qəbzini təqdim etmək öhdəliyi olan sahibkarlıq subyektlərində də qəbul edilə bilər.

Burada daha bir məsələyə aydınlıq gətirilməsi məntiqli görünür: bəs xronometraj üsulu vasitəsilə müşahidələrin aparılması müddəti ən çox neçə gün təşkil edə bilər?

Buna cavab vermək üçün, ilk növbədə, Vergi Məcəlləsində yer alan 50-1.3-cü maddəyə nəzər salaq. Burada deyilir ki, xronometraj üsulu vasitəsilə müşahidənin aparılmalı olan obyektin normal fəaliyyətinə maneçilik törədilməməlidir. Bundan başqa, Vergi Məcəlləsinin 50.3-50.6-cı maddələrində qaydalar nəzərdə tutulmuşdur ki, onların tətbiqi on beş iş günü müddətini aşmayan zaman kəsiyində reallaşdırılmalıdır.

Növbəti toxunacağımız məsələ sahibkarlıq subyekti tərəfindən

xronometraj üsulu vasitəsilə müşahidələrin aparılmasını təmin etmək üçün gələn vergi əməkdaşlarının əraziyə buraxılması ilə bağlıdır.

Məlumdur ki, vergi əməkdaşları, ilk növbədə, əsaslı informasiyaları rəhbər tutaraq "Xronometraj metodu ilə müşahidə aparılması haqqında Qərar"ın hazırlanmasını təmin etməlidir. Həmin qərarda sahibkarlıq subyektinin adı, onun vergi ödəyicisi olaraq eyniləşdirmə nömrəsi, xronometrajın aparılacağı obyektin adı, ünvanı, xronometrajin başlanıldığı və bitdiyi tarix, eləcə də onu reallaşdıracaq vergi əməkdaşlarının göstəriciləri və xronometrajın həyata keçirilməsini şərtləndirən hallar öz əksini tapır.

Vergi əməkdaşı sözügedən bu qərarı sahibkara təqdim edəndən sonra, sahibkar onu obyektin ərazisinə buraxmaqdan imtina etdiyi təqdirdə vergi orqanının əməkdaşı İnzibati Xətalar Məcəlləsinin 602.4-cü maddəsini rəhbər tutaraq müvafiq qaydada protokol tərtib etməlidir. Qeyd etdiyimiz bu maddəyə görə vergi ödəyicisi tərəfindən yoxlama tədbirinin gedişatında tələb olunan sənədlərin yoxlamanı həyata keçirən vergi əməkdaşına təqdim edilməməsinə, yoxlama vaxtı meydana çıxan suallara şifahi yaxud yazılı izahatlar verməkdən imtina etməsinə görə, yaxud təhrif edilmiş, gerçəkliyi əks etdirməyən informasiyaların təqdim edilməsinə, yaxud sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi əraziyə, istehsal və emal müəssisəsinə, anbara, satış sahəsinə, avtonəqliyyat vasitələrinə, eləcə də sözügedən fəaliyyətin reallaşdırılması məqsədilə istifadə edilən digər binalar, tikililər və sahələrə müvafiq qaydada baxışın keçirilməsinə maneçiliklər törətdiyinə görə vəzifəli şəxsrlər 1.000AZN-dən 1.500AZN-ə qədər cərimə olunur.

İndi də xronometraj müşahidəsinin aparıldığı zaman qiymətlərin necə müəyyənləşdirilməsinə nəzər salaq.

Fərz edək ki, on beş gün ərzində "CBA" MMC-də xronometraj üsulu vasitəsilə vergi orqanlarının əməkdaşları tərəfindən müşahidələr aparılıb. Bunun nəticəsində on beş gün ərzində sahibkarlıq subyektinin xəzinəsinə daxil olmuş maliyyə vəsaitləri cəmlənir və 15-ə bölündükdən sonra həmin zaman kəsiyini əhatə edən orta günlük dövriyyə müəyyən edilir.

Bir misala müraciət edək. Sahibkarlıq subyekti təqdim etdiyi bəyannamədə məhsulun qiymətini 0,55AZN olaraq qeyd edib, lakin xronometraj zamanı aydın olmuşdur ki, həmin məhsulun satış qiyməti

0,80Azn təşkil edir. Belə olan halda sahibkarlıq subyektinin gündəlik dövriyyəsi hesablanarkən vergi orqanlarının əməkdaşları realizə olunmuş məhsulun qiymətini 0,55Azn deyil, məhz 0,80AZN olaraq nəzərə alır.

Bu yolla hesablamaların aparılması Vergi Məcəlləsində yer alan 50-1.5-ci maddənin tələblərinə uyğundur. Bu maddənin məzmununa diqqət yetirək. 50-1.5 – xronometraj üsulu vasitəsilə yoxlama müşahidəsi aparıldığı zaman müxtəlif sahibkarlıq subyektləri tərəfindən istifadə olunmuş qiymətlərin nəzarət qaydasında məhsulun alışı zamanı rəsmiləşdirilmiş qiymətlərdən 30-%-dən artıq, yuxarı yaxud aşağı istiqamətdə, fərqlənməsi halları üzə çıxdığı təqdirdə, istehsalatın miqdarı yaxud satış dövriyyəsi nəzarət qaydasında məhsulların əldə edilməsi zamanı rəsmiləşdirilmiş qiymətlər nəzərə alınmaq şərti ilə hesablanır.

Vergi əməkdaşlarının xronometraj üsulu vasitəsilə aparılmış müşahidələr sonunda üzə çıxarılmış qiymətin, yəni 0,80AZN-nin otuz faizi 0,24AZN-ə bərabər olacaq: 0,80AZN x 30 faiz = 0,24AZN. Vergi bəyannaməsində göstərilmiş məbləğ, yəni 0,55AZN məhsulun ronometraj üsulu vasitəsilə təyin edilmiş qiymətdən otuz faiz artıq miqdarda fərqləndiyinə görə, yəni 0,80AZN – 0,24AZN = 0,56AZN, müşahidə nəticəsində təyin edilmiş qiymətin tətbiq edilməsi qanunauyğun addımın atılması kimi dəyərləndirilməlidir.

Diqqət yetirin, vergi bəyannaməsində məhsulun qiyməti 0,60AZN olaraq qeyd edilsəydi, yəni iki qiymət arasında yer alan fərq otuz faizdən az olsaydı, onda sahibkar 0,60AZN miqdarında hesablamanın aparılması ilə bağlı tələblər irəli sürə bilərdi.

Daha bir maraqlı sual vergi əməkdaşları tərəfindən xronometraj üsulu vasitəsilə aparılmış müşahidələrin nəticələrinə uyğun olaraq təyin edilən dövriyyəni növbəti dövrlə tətbiq edilməsinin mümkünlüyü ilə bağlıdır.

Fərz edək ki, "F" MMC-nin ərazisində xronometraj üsulu vasitəsilə müşahidələrin bitdiyi aydan növbəti ayda dövriyyə 30.000AZN təşkil edib. Aparılmış müşahidələrin nəticələrinə uyğun olaraq isə, orta günlük dövriyyənin həcmi 1.500AZN-dir. Müşahidənin yekunu olaraq dövriyyənin təyin edilməsinin praktiki cəhətdən tətbiqinə şərh və izah vermək üçün iki halı nəzərdən keçirək.

Əvvəla, fərz edək ki, "A" MMC tərəfindən təqdim olunmuş vergi

bəyannaməsində dövriyyə 30.000AZN kimi qeyd edilib. Bu ay ərzində adi iş günlərinin sayı 25 təşkil edib. Deməli, vergi əməkdaşları tərəfindən dövriyyə 37.500AZN kimi götürülməlidir: 1.500AZN x 25 iş günü = 37.500AZN. Bir sözlə, vergi əməkdaşları məhz bu qaydada hesabatını aparıb həmin məbləğlərə əsasən vergilərin də hesablanmasını həyata keçirirlər.

İkinci halda isə fərz edək ki, sahibkarlıq subyektinin həmin ay ərzində aylıq dövriyyəsi 40.000AZN olmuşdur, vergi bəyannaməsində də məhz bu rəqəm göstərilmişdir. Bu da ö deməkdir ki, vergi əməkdaşları tərəfindən hesablamaların aparılması məqsədilə xronometraj üsulu ilə müşahidənin aparılması nəticəsində üzə çıxarılmış 37.500AZN deyil, sözügedən MMC-nin təqdim etdiyi 40.000AZN məbləği əsas olaraq götürüləcək.

İndi isə yoxlamaya cəlb edilmiş sahibkarlıq subyekti tərəfindən təkrar xronometraj müşahidəsinin aparılması ilə bağlı tələblərin irəli sürülməsi mümkünlüyünə nəzər salaq.

Məsələ burasındadır ki, sahibkarlıq subyekti tərəfindən təkrar xronometraj üsulu vasitəsilə müşahidələrin aparılması ilə bağlı tələb Vergi Məcəlləsində yer alan iki maddə ilə tənzimlənir. Bu maddələrin məzmununun və mahiyyətinin şərhini və izahını verək.

15.1.13-cü maddəyə əsasən, xronometraj üsulu vasitəsilə həyata keçirilən sonuncu müşahidə tədbirlərindən sonra Vergi Məcəlləsində yer alan 50-1.2-ci maddənin tələblərində əks olunan müddəalara riayət edilməklə istehsalat həcmində yaxud satış dövriyyəsində baş verən dəyişikliklərlə bağlı xronometraj üsulu vasitəsilə yeni müşahidə tədbirinin reallaşdırılması məsələsi vergi orqanları qarşısında qaldırıla bilər.

50-1.2-ci maddəyə əsasən, Vergi Məcəlləsində yer alan 15.1.13-cü maddəyə uyğun olaraq yeni xronometraj üsulu vasitəsilə müşahidə tədbirinin həyata keçirilməsi barədə tələb sahibkarlıq subyekti tərəfindən istənilən zaman, ancaq sonuncu müşahidə tədbirindən ən azı bir ay keçəndən sonra, növbəti dəfə isə son müşahidə tədbirindən ən azı iki ay sonra istənilə bilər. Sözügedən maddədə yer alan müddətlərin axımına Vergi Məcəlləsinin 16.3-cü maddəsində nəzərdə tutuluş müddət daxil olunmur.

Maddələrə aid yuxarıda verdiyimiz şərhlərdən aydın olur ki,

sahibkarlıq subyekti müşahidə tədbirlərinin nəticələri ilə razı olmadığı təqdirdə xronometraj üsulu vasitəsilə yenidən müşahidə tədbirlərinin keçirilməsi tələbini irəli sürə bilər. Ancaq Vergi Məcəlləsində tələb olunur ki, 50-1.2-ci maddədə qeyd edilmiş müddətlərə riayət edilməklə ilkin müşahidə tədbirindən ən azi bir aydan sonra yeni xronometrajın həyata keçirilməsi üçün və növbəti dəfə isə sonuncu xronometrajdan ən azı iki ay sonra yoxlama tədbirinə cəlb edilmiş vergi ödəyicisi tərəfindən ərizə təqdim oluna bilər.

Dediklərimizi əyani bir misalla daha da aydınlaşdıraq. Fərz edək ki, "F" MMC-də 2021-cu ilin mart ayının 1-də xronometraj üsulu vasitəsilə həyata keçirilən müşahidə tədbiri başa çatıb. Belə olan halda yoxlamaya cəlb edilmiş sahibkarlıq subyekti tərəfindən yeni müşahidə tədbirinin keçirilməsi ilə bağlı ərizə yalnız həmin ilin 2 aprel tarixində təqdim edilə bilər. Ehtimal edək ki, 2 aprel 2021-ci ildə verilmiş ərizəyə uyğun olaraq "F" MMC-də 2-ci dəfə həmin ilin aprel ayının 2-də xronometraj üsulu vasitəsilə müşahidə tədbiriin keçirilməsinə başlanılıb. Bundan on gün keçəndən sonra, yəni həmin ilin aprel ayının 22-də müşahidənin yekunları ilə bağlı akt tərtib edilmişdir. Deməli, artıq 2 aprel 2021-ci ildən köhnə müşahidə tədbirinin nəticələri qüvvəsini itirmiş olur. Beləliklə, yeni nəticələrlə bağlı müşaidələr qüvvəyə minmiş hesab olunur. Əgər "F" MMC tərəfindən bu dəfə də xronometraj üsulu vasitəsilə aparılmış meşahidə tədbirinin nəticələri ilə bağlı narazılıq bildirilsə, artıq 1 deyil, 2 ay keçəndən sonra daha bir müşahidə tədbirinin reallaşdırılması ilə bağlı ərizə yazıla bilər.

Bəs xronometraj üsulu vasitəsilə müşahidə tədbirinin müddətində dəyişikliyin baş verməsi nə ilə əlaqədardır?

Buna suala cavab almaq, ilk növbədə, qeyd etmək lazımdır ki, 2019-cu ilin yanvarın 1-də Vergi Məcəlləsində yer alan 50-1-ci "Xronometraj metodu ilə müşahidə aparılması" adlı maddəsində müəyyən dəyişikliklər aparılmışdır.

Həmin dəyişikliklərdən sonra maddənin müvafiq hissəsi belə oxunur: "Bu maddədə göstərilən müddətlərin axımına bu Məcəllənin 16.3-cü maddəsində nəzərdə tutulan müddət daxil edilmir".

Həmin dəyişikliyin aparılmasının başlıca məqsədi xronometraj üsulu vasitəsilə aparılan müşahidə tədbirinin nəticələri ilə bağlı narazı olan sahibkarlıq subyektlərinin yenidən həmin mşahidə tədbiri vasitəsilə

yoxlamanın həyata keçirilməsi istəyində müddət məsələsinə riayət olunmasıdır.

Bu da o deməkdir ki, aparılmış dəyişikliklərdən sonra sahibkarlıq subyektinin fəaliyyətində müvəqqəti dayanmaların olduğu müddət xronometraj üsulu vasitəsilə aparılacaq yeni yoxlama tədbirinin reallaşdırılması barədə müraciət edilməsi üçün təyin edilmiş müddətə daxil edilmir.

Qeyd etdiklərimizə uyğun olaraq, sahibkarlıq subyekti onda xronometraj üsulu vasitəsilə aparılmış müşahidə tədbirindən sonra ən azı bir ay ərzində öz fəaliyyətini dayandırmalıdır ki, yeni müşahidə tədbirinin reallaşdırılması üçün ərizə ilə müraciət etmək hüququ yaransın.

2.3. Kameral vergi yoxlamaları

Vergi Məcəlləsinin 36-cı maddəsi Vergi yoxlama tədbirlərinin və maliyyə institutlarında vergi monitorinqinin aparılmasını tənzimləyir.

Bununla əlaqədar biz səyyar vergi yoxlama tədbirləri həyata keçirildiyi zaman onun əhatə etdiyi dövrün, eləcə də vergi növlərinin hansı hallarda artırılacağına aydınlıq gətirəcəyik.

İlk öncə qeyd etməliyik ki, 2022-ci il yanvar ayının 1-dən etibarən Vergi Məcəlləsinə əlavə edilən maddələrdən biri 36.3-1 maddəsidir. Bu maddəyə uyğun olaraq, sahibkarlıq subyektində aparılab səyyar vergi yoxlama tədbiri ilə əhatə olunan dövr yaxud vergi növlərinin artırılması aşağıda qeyd edilmiş hallarda mümkündür:

- sahibkarlıq subyektinin müraciəti olduqda (maddə 36.3-1.1.-ə əsasən);
- yerinə yetirilən səyyar vergi yoxlama tədbiri tərəfindən əhatə olunan dövrdən sonrakı dövr ərzində vergilərdən yayınma halları ilə bağlı faktlarla əlaqədar vergi orqanlarında mənbəyi qeyri-müəyyən və məlum olmayan informasiyalar olduğu təqdirdə (maddə 36.3-1.2.-ə əsasən);
- Azərbaycan Respublikasının CPM-yə və müvafiq qanunvericiliyə əsasən məhkəmə orqanı yaxud bu və ya digər hüquq-mühafizə orqanı tərəfindən vergi yoxlaması tədbirinin yerinə yetirilməsi haqqında müvafiq qərar çıxarıldığı təqdirdə (maddə 36.3-1.3.-ə

əsasən).

Yuxarıda göstərdiyimiz halları daha aydın təsvir etmək üçün misala müraciət edək.

Fərz edək ki, vergi əməkdaşları tərəfindən sahibkarlıq subyektində iki il ərzində fəaliyyətəl bağlı səyyar vergi yoxlama tədbiri yerinə yetirilir. Həmin sahibkarlıq subyekti müraciət etməklə üç il ərzində yoxlama tədbirinin aparılmasını tələb etmişdir, belə oldn təqdirdə vergi əməkdaşları yoxlama dövrünü bir il müddətinə uzatmaq səlahiyyətinə malikdir. Lakin qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq, sahibkarlıq subyekti yoxlama ilə əhatə olunan dövrlə əlaqədar 4 il tələbini, yəni yoxlamanı daha 4 il uzadılmasını tələb etmək səlahiyyətində deyil. Məsələ burasındadır ki, bu məsələni Vergi Məcəlləsinin 36.3-cü maddəsi tənzimləyir. Həmin maddəyə uyğun olaraq, vergi qanunvericiliyində hər hansı digər hallar müəyyən olunmadığı təqdirdə səyyar vergi yoxlama tədbiri mənfəətdən, gəlirdən, əmlakdan, eləcə də torpaqdan tutulan vergiləri ilə bağlı sahibkarlıq subyektinin üç təqvim ilindən daha artıq olmayan fəaliyyətini, digər vergi növüləri üzrə sözügedən yoxlama tədbirinin yerinə yetirildiyi il də daxil olmaq şərtilə sahibkarlıq subyektinin üç ildən artıq olmama şərtilə fəaliyyət dövrünü əhatə edə bilər.

Növbəti misal. Fərz edək ki, vergi orqanlarının əməkdaşları tərəfindən sahibkarlıq subyektində ancaq ƏDV ilə bağlı vergi öhdəliklərin necə yerinə yetirildiyi yoxlanılır. Həmin sahibkarlıq subyekti vergi orqanlarına müraciət etmiş və mənfəət vergisi ilə bağlı yoxlama tədbirinin yerinə yetirilməsini xahiş etmişdir. Bu zaman vergi əməkdaşları Vergi Məcəlləsində yer alan 36.3-cü maddəsinə uyğun olaraq bu sahibkarlıq subyektində vergi yoxlama tədbiri çərçivəsində digr növ vergi ilə bağlı yoxlamanı da həyata keçirə bilər.

Üçüncü misalla əlaqədar fərz edək ki, vergi əməkdaşları sahibkarlıq subyektində 2022-ci ildə 2020 və 2021-ci illər üçün vergi yoxlama tədbirini yerinə yetirirlər. Həmin tədbir gedişatında müəyyən edilmişdir ki, sahibkarlıq subyekti yoxlama tədbiri tərəfindən əhatə olunan dövrdən öncəki dövrlər ərzində də vergilərin ödənilməsindən yayınmışdır. Belə olan təqdirdə vergi əməkdaşları yoxlama tədbirinin əhatə olunduğu dövrü uzatmaq səlahiyyətinə malikdir.

Dördüncü misal. Qoy vergi əməkdaşları 2021-ci il üçün səyyar

vergi yoxlama tədbirini yerinə yetirir. Bununla parallel olaraq, hüquq-mühafizə orqanlarının əməkdaşları vergilərin ödənilməsindən yayılma halları ilə bağlı sahibkarlıq subyektində vergi yoxlama tədbirinin yerinə yetirilməsi ilə əlaqədar qərar qəbul edirlər. Vergi əməkdaşları bu qərarı rəhbər tutaraq, vergi yoxlama tədbirinin əhatə müddətini qərarda qeyd edilmiş müddətə qədər uzatmaq səlahiyyətindən istifadə edə bilər.

Vergi Məcəlləsinin 37-ci maddəsi kameral yoxlamalara həsr edilmişdir.

Bununla əlaqədar biz kameral vergi yoxlama tədbirinin keçidilməsi gedişatında müddətlərin uzadılmasının, habelə bölgüsünün necə reallaşdırılmasına aydınlıq gətirəcəyik.

Qeyd edək ki, Vergi Məcəlləsində yer alan maddə 37.2 ilə kameral vergi yoxlama tədbirinin yerinə yetirilməsi tənzimlənir və sözügedən maddə yeni redaksiyada qüvvəyə minmişdir. Burada kameral vergi tədbirinin sahibkarlıq subyekti tərəfindən Vergi Məcəlləsinin 72 maddəsində göstərilmiş vergi bəyannaməsi, eləcə də cari vergi ödənişlərinin hesablanması barədə arayışın verildiyi gündən mənfəət və xüsusi notariusun gəlir vergisi üzrə bəyannaməyə (ödəmə mənbəyində tutulan gəlirlərlə bağlı və xüsusi notariusun gəlir vergisi bəyannaməsi istisna edilməklə) münasibətdə altmış iş günü ərzində, eləcə də cari ergi ödənişlərinin hesablanması ilə əlaqədar arayışlarlarla bağlı otuz iş günü ərzində yerinə yetirilməsi nəzərdə tutulur. Azərbaycan hüdudlarından kənarda daxil olan gəlirlərlə bağlı xarici ölkələrin səlahiyyətli orqanından uyğun informasiyalar daxil olduğu təqdirdə kameral vergi yoxlama tədbiri vergi Məcəlləsinin 85.4-cü maddəsində öz əksini tapan dövr ərzində daxil olduğu gündən otuz iş günü müddətində yerinə yetirilir. Qeyd etdiyimiz həmin müddət bitdikdə sözügedən maddənin 1-ci və 2-ci cümlələrində nəzərdə tutulan bəyannamə, cari vergi ödənişlərinin hesablanması barədə arayış yaxud Azərbaycan hüdudlarından kənar ölkələrdən daxil olan informasiyalar, eləcə də Vergi Məcəlləsinin 37.2-1-ci maddəsində qeyd olunmuş bildirişlə bağlı təqdim olunmuş dəqiqləşdirilmiş bəyannamə əsasında yenidən kameral vergi yoxlama tədbirinin keçirilməsi qeyri-mümkündür.

Həmin maddənin yeni və əvvəlki redaksiyalarında kameral vergi yoxlama tədbirinin müddətinin tənizmlənməsi ilə bağlı yarana biləcək suallara aydınlıq gətirmək üçün müqayisəli xarakter daşıyan aşağıdakı

cədvələ nəzər salaq:

№	**Kameral vergi yoxlama tətbiri tətbiq olunan bəyannamə yaxud arayış növü**	**Əvvəlki redaksiya**	**Hazırki redaksiya**
1	Mənfəət vergisi üzrə bəyannamə	Otuz iş günü	Altmış iş günü
2	Gəlir vergisi üzrə bəyannamə	Otuz iş günü	Altmış iş günü
3	Başqa bəyanamələr	Otuz iş günü	Otuz iş günü
4	Cari vergi ödənişlərinin hesablanması ilə bağlı arayışlar	----------	Otuz iş günü

Burada qeyd etmək lazımdir ki, xarici ölkələrdən daxil olan gəlirlərlə əlaqədar həmin ölkələrin səlahiyyətli orqanından müvafiq informasiyalar daxil etdikdə kameral vergi yoxlama tədbiri Vergi Məcəlləsinin 85.4-cü maddəsində əks olunmuş dövr üzrə informasiyaların daxil olunduğu gündən otuz iş günü ərzində yerinə yetirilməlidir.

Kameral vergi yoxlama tədbirinin müddəti ilə əlaqədar daha bir mühüm məsələ bundan ibarətdir ki, Azərbaycannın Milli Məclisinə təqdim edilən ilkin qanun layihəsində kameral vergi yoxlama tədbirinin müddəti doxsan iş günü nəzərdə tutulurdu. Ancaq təsdiq edilmiş yekun layihə variantında həmin müddət altmış iş günü olmaqla götürülmüşdür.

İndi də cari vergi ödənişlərinin hesablanması ilə bağlı arayışlar üzrə kameral vergi yoxlama tədbirlərinin yerinə yetirilməsi məsələsinə toxunaq.

Bununla bağlı qeyd etmək lazımdır ki, aparılmış ən son dəyişikliyə uyğun olaraq, Vergi Məcəlləsindəki 37.3 və 37.4-cü maddələrinə aşağıdakı ifadə daxil olunub: "cari vergi ödəmələrinin hesablanması haqqında arayış". Yəni, sözügedən Məcəllənin 37.3-cü maddəsinə uyğun olaraq, kameral vergi yoxlama tədbirini yerin yetirmək məqsədilə sahibkarlıq subyekti tərəfindən təqdim edilmiş bəyannamə, habelə cari vergi ödənişlərinin hesablanması haqqında arayışla əlaqədar sənədlərdə yer alan məlumatlarda ziddiyyətlər yaxud hər hansı yanlışlıqlar üzə çıxdığı təqdirdə, vergi əməkdaşları tərəfindən həmin sahibkarlıq subyektindən əvvəlki qaydaya uyğun olaraq əlavə informasiya, sənəd və izahatlar tələb olunurdu.

Sözegdən Məcəllənin 37.4-cü maddəsindəki 1-ci abzzasında aparılmış dəyişikliklərə əsasən, hazırda kameral yoxlama ilə əlaqədar

vargi bəyannamələrində yaxud cari vergi ödən işlərinin hesablanması ilə bağlı arayışlarda vergi məbləğlərinin yanlış hesablanması (yəni, vergilərin az yaxud çox qeyd edilməsi) üzə çıxdığı təqdirdə, sahibkarlıq subyektinə beş iş günü ərzində səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş formaya uyğun şəkildə vergi əməkdaşları tərəfindən vergi məbləğlərinin hesablanması ilə bağlı qərar təqdim olunur.

Artıq bu dəyişiklikdən aydın görünür ki, 2022-ci il yanvar ayının 1-dən başlayaraq vergi əməkdaşları sahibkarlıq subyektinin təqdim etdiyi cari vergi ödənişlərin hesablanması ilə bağlı arayışda bu və ya digər ziddiyyətlərin yaxud yanlışlıqların aşkara çıxarıldığı təqdirdə həmin subyektdə kameral uyğunsuzluğu barədə məlumat çatdırılacaq.

Bununla yanaşı, kameral vergi yoxlama tədbirinin tətbiqi əsas etibarilə Vergi Məcəlləsinin 151.2 və 151.5-ci maddələri üzrə nəzərdə tutulur. Məsələ burasındadır ki, sözügedən Məcəllənin 151.1-ci maddəsinə uyğun olaraq, cari vergi ödənişlərlə bağlı arayışlar üzrə ödənişin məbləğləri öncəki vergi ili ərzində hesablanmış vergilərin ümumi ¼ hissəsinə bərabərdir. Beləliklə, sahibkarlıq subyektinin cari vergi ödənişlərinin hesablanması prosesinə təsir göstərən faktor ötən ilin mənfəətidir, buna görə də kameral vergi yoxlama tədbirinin keçirilməsinə zərurət olmur.

Sözügedən Məcəllənin 151.2-ci maddəsinə uyğun olaraq, sahibkarlıq subyekti tərəfindən təqdim olunan cari vergi ödənişlərinin hesablanması ilə bağlı arayışlarda hazırki vergi ödəmələrinin məbləğini bu rübdəki gəlirlərin miqdarını onun ötən ilin ümumi gəlirlərində (gəlirlərdən çıxılan məbləğlər nəzərə alınmadan) vergilərin xüsusi çəkisini ifadə edən əmsala burulmaqla müəyyən etmək mümkündür.

İndi isə, yuxarıda dediklərimizin daha yaxşı mənimsənilməsi üçün misallara müraciət edək.

Birinci misal. Fərz edək ki, sahibkarlıq subyekti Mergi Məcəlləsinin 151.2-ci maddəsini rəhbər tutaraq təqdim olunmuş vergi ödənişlərinin hesablanması barədə arayışda 2022-ci ilin birinci rübündə 8.000AZN miqdarında gəlirin əldə edilməsi məlumatı təqdim edir. Lakin vergi orqanlarının əməkdaşları AVİS proqram təminatında yer alan informasiyalara əsasən həmin sahibkarlıq subyektinin 2022-ci ilin birinci rübündə təqdim etdiyi elektron qaimə-fakturalara uyğun olaraq sözügedən məbləğin 12.500AZN təşkil edildiyini müəyyənləşdiriblər.

İkinci misal. Qoy sahibkarlıq subyekti sözügedən Məcəllənin 151.2-ci maddəsinə əsasən göndərdiyi cari vergi ödənişlərinin hesablanması barədə arayış sənədində 2022-ci ilin ikinci rübü ərzində 6.000AZN midarında gəlirlərin daxil olduğunu göstərən məlumat verib. Ancaq vergi əməkdaşları bu sahibkarlıq subyektinin hesabları üzrə hərəkətləri ilə əlaqədar bankdan aldığı informasiyadan müəyyən edirlər ki, həmin ilin ikinci rübündə onun mədaxili 18.000AZN olmuşdur. Belə olan halda vergi əməkdaşları sahibkarlıq subyektinə cari vergi ödənişlərinin hesablanması barədə arayışla əlaqədar kameral uyğunsuzluq mətkubunu göndərir.

Vergi Məcəlləsində yer alan 151.1-ci maddəyə uyğun olaraq, ötən vergi ili ərzində işi yaxud vergilərin tətbiq olunduğu mənfəəti və ya gəliri olmanış, habelə növbəti vergi ili ərzində fəaliyyətini davam etdirmiş hüquqi şəxslərin və öz sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan yerinə yetirmiş fiziki şəxslərin, eləcə də fəaliyyətinə yenicə başlamış və işləyən sahibkarlıq subyektlərinin cari vergi ödənişləri aşağıdakı kimi həyata keçirilməlidir:

Beləliklə, əvvəllər fəaliyyət göstərməyən yaxud verginin tətbiq olunduğu mənfəəti və ya gəliri olmamış sahibkarlıq subyektlərinin mənfəət vergisi yaxud gəlir vergisi üzrə cari vergi ödənişlərinin hesablanması təqvim ilində rüblər üzrə artan yekunla Vergi Məcəlləsində müəyyən edilən uyğun vergi dərəcələrinə əsaslanmaqla aparılır (maddə 151.5.1);

Cari vergi ödənişlərinin miqdarı mənfəətə yaxud gəlirə görə ödənilən vergilərin 75%-dən kiçik məbləğ təşkil etməməlidir (Maddə 151.5.2).

Yuxarıda dediklərimizlə bağlı yenidən misallara müraciət edək.

Birinci misalımızda fərz edək ki, ahibkarlıq subyekti Vergi Məcəlləsində yer alan 151.5-ci maddəyə əsasən 2022-ci ilin birinci rübü ilə bağlı göndərdiyi cari vergi ödənişlərinin hesablanması barədə arayış sənədində 100.000AZN məbləğində gəlirin əldə edildiyini göstərib. Lakin vergi əməkdaşları kameral vergi yoxlama tədbiri apararkən müəyyən ediblər ki, həmin sahibkarlıq subyektinin 2022-ci ilin birinci rübü üçün təqdim olunmuş qaimə-fakturalara görə sözügedən gəlir məbləği 420.000AZN təşkil etmişdi. Belə olan halda vergi əməkdaşları bu sahibkarlıq subyektindən əlavə məlumatların və izahatın təqdim

edilməsini tələb etmək imkanına malikdir.

İkinci misal. Fərz edək ki, sahibkarlıq subyekti Vergi Məcəlləsində yer lan 151.5-ci çaddəyə əsasən 2022-ci ilin ikinci rübü üçün göndərdiyi car vergi ödənişlərinin hesablanması barədə arayış sənədində gəlirin 300.000AZN təşkil etdiyini qeyd etmişdir. Vergi əməkdaşlarına isə bəllidir ki, həmin sahibkarlıq subyektinin sözügedən dövrü əhatə etdiyi elektron qaimə-fakturalara uyğun olaraq gəlir məbləği 1.200.000AZN, daxil olmuş elektron qaimə-fakturaya görə 200.000AZN, habelə vahid bəyannamə üzrə 120.000AZN əmək haqları ilə bağlı xərclər olmuşdur. Ola bilər ki, vergi əməkdaşları sahibkarlıq subyektinə cari vergi ödənişlərinin hesablanması barədə arayış üzrə kameral uyğunsuzluq məktubu göndərməklə gəlir və xərclərlə əlaqədar izahat tələb etsinlər.

Yeri gəlmişkən bir vacib məqama da toxunmaq lazımdır. Belə ki, Vergi Məcəlləsində aparılmış dəyişikliklərə uyğun olaraq, əvvəlki ilin maliyyə nəticələrinə görə ziyanla fəaliyyət göstərmiş sahibkarlıq subyektləri ancaq Vergi Məcəlləsinin 151.5-ci maddəsinə uyğun cari vergi ödənişlərin hesablanması barədə arayış göndərməlidir. Aparılmış dəyişikliklərə qədər isə ziyanla fəaliyyət göstərən sahibkarlıq subyektləri Vergi Məcəlləsinin 151.1 və 151.2 maddələrinin tələblərinə əsasən cari vergi ödənişləri aparmırdı.

Vergi Məcəlləsinin 38-ci maddəsi səyyar vergi yoxlamalara həsr edilmişdir. Bununla əlaqədar biz səyyar vergi yoxlama tədbirinin müddətinin neçə gün artırılacağı ilə bağlı suala aydınlıq gətirəcəyik.

Kameral vergi yoxlama tədbiri ilə bərabər, səyyar vergi yoxlama tədbirinin də müddətində artımlar var. Belə ki, vergi qanunvericiliyində aparılmış dəyişikliklərdən sonra Vergi Məcəlləsində yer alan 38.2-ci maddəsinin 1-ci hissəsinin 4-cü və 5-ci cümlələrdə, eləcə də 2-ci hissəsindəki ismin uyğun hallarında "gün" sözü ismin uyğun hallarında "iş günü" sözləri ilə əvəz edilişdir. Yəni, bundan sonra səyyar vergi yoxlama tədbirinin müddəti otuz təqdim günü deyil, otuz iş günündən çox ola bilməz. İstisna hallar yarananda, üst vergi orqanının qəbul etdiyi qərara əsasən səyyar vergi yoxlama tədbirinin yerinə yetirilməsi müddətində doxsan təqvim günü deyil, doxsan iş günü civarında artımların olması mümkündür. Eyni zamanda, Vergi Məcəlləsində yer alan 38.2-ci maddədə müəyyənləşdirilən hallarda üst vergi orqanının qəbul etdiyi qarara uyğun olaraq səyyar vergi yoxlama tədbirinin

nəticələri ilə bağlı müvafiq altın tərtib edilməsinə ayrılan vaxtın otuz təqdim günü deyil, otuz iş günündən artıq olmamaq şərtilə uzadılması mümkündür.

Sözügedən maddəyə edilən dəyişikliklərdən sonra aydın görmək mümkündür ki, vergi orqanları tərəfindən sahibkarlıq subyektində yerinə yetirilən səyyar vergi yoxlama tədbirinin müddətinin yuxarı həddi otuz təqvim günü deyil, otuz iş günü müəyyənləşdirilib. Habelə, istisna hallar yarandıqda səyyar vergi yoxlama tədbirinin müddətində doxsan iş gününə qədər artımlara gedilə bilər ki, nəticədə müddət üç ay deyil, təqdibən 4,5 aya kimi davam etmiş ola bilər.

Aydınlıq gətirəcəyimiz növbəti məsələ səyyar vergi yoxlama tədbirinin aparıldığı zaman üç ildən artıq müddətin yoxlamaya cəlb edilməsi mümkünlüyü ilə bağlıdır.

Nəzərə almaq lazımdır ki, vergi qanunvericiliyində dəyişikliklərin aparılmasını nəzərdə tutan qanun layihəsi ictimaiyyət üçün açıqlanandan sonra sahibkarlıq subyektlərin müəyyən narazılıqların yaranmasına gətirib çıxaran və ictimaiyyətin birmənalı surətdə qarşılanmadığı yeniliklərdən biri Vergi Məcəlləsində yer alan 38.3.9cu maddənin yeni redaksiyada olması idi.

Bununla bərabər, Vergi Məsəlləsində yer alan 38.3.9-cu maddədə yeni redaksiyadan sonra qeyd olunur ki. aşağıda sadalanmış hallarda Vergi Məcəlləsinin 85-ci maddəsində göstərilmiş müddətlərdən asılı olmayaraq, ötən səyyar vergi yoxlama tədbiri ilə yoxlanılması aparılmış dövr əhatə olunmaqla üst vergi orqanının qəbul etdiyi qərara uyğun olaraq:

- *vergi yoxlama tədbirinin nəticələri ilə razılaşmaq istəməyən sahibkarlıq subyektləri növbədənkənar səyyar vergi yoxlama tədbirinin yerinə yetirilməsii yazılı formada tələ etdikləri təqdirdə (Maddə 38.3.9.1.);*
- *sahibkarlıq subyekti səyyar vergi yoxlama tədbirinin aparıldığı zaman müvafiq sənədləri təqdim etmədiyi təqdirdə, habelə aparılmış vergo yoxlama tədbirindən sonra əldə olunmuş məlumatlara əsasən sahibkarlıq subyektinin Vergi Məcəlləsinin müvafiq tələblərini pozması ilə bağlı məsuliyyətə cəlb olunması barədə vergi orqanının qəbul etdiyi qərardan sahibkarlıq subyektinin verdiyi sənədlərə görə üst vergi orqanına şikayətlə*

müraciət olduduğu təqdirdə (Maddə 38.3.9.2);

- *vergi yoxlama tədbirinin nəticələrinə uyğun olaraq sahibkarlıq subyekti tərəfindən vergi qanunvericiliyi pozulduğu halda buna görə məsuliyyətə cəlb olunmasl ilə bağlı vergi orqanlarının çıxardığı qərardan sahibkarlıq subyektinin səyyar vergi yoxlama tədbirinin aparıldığı zaman təqdim olunmuş sənədlərdən fərqli sənədlər verilməklə üst vergi orqanına şikayəti göndərildiyi təqdirdə*

Vergi yoxlamasından sonra gəlinmiş nəticə ilə narazılığını bildirən sahibkarlıq subyektləri növbədənkənar səyyar vergi yoxlama tədbirinin aparılmasını yazılı surətdə tələb edə bilər. Bu halda sözügedən yoxlama tədbiriəvvəlki yoxlamanı aparmış vergi orqanlarının əməkdaşlarının iştirakına yol verilmir.

Burada diqqətçəkən başlıca məqam "Məcəllənin 85-ci maddəsində qeyd olunan müddətlərdən asılı olmayaraq" ifadəsidir. Yeri gəlmişkən, sözügedən Məcəllənin 85.4-cü maddəsinə uyğun olaraq, vergi orqanlarının əməkdaşları vergilərə cəlb olunan hesabat dövrü bitdikdən sonra üç il ərzində sahibkarlıq subyektinin vergilərini, faizlərini və ona tətbiq olunmuş maliyyə sanksiyalarıını hesablamaq, eləcə də artıq hesablanmış məbləğləri təkrarən hesablamaq, vergilərin, faizlərinin və maliyyə sanksiyalarının hesablanmış yaxud təkrar hesablanmış məbləği vergi ödənişinə cəlb olunan hesabat dövrü bitdikdən sonra beş il müddətində tutmaq hüququnu özündə saxlayır.

Maddənin məzmunundan aydın olur ki, vergi əməkdaşları Vergi Məcəlləsində yer alan 85-ci maddəyə əsasən verginin ödənişinə cəlb olunmuş hesabat dövrü bitdikdən sonra üç il ərzində sahibkarlıq subyektinin vergilərini, faizlərini və ona tətbiq olunmuş maliyyə sanksiyalarını hesablamaq, eləcə də artıq hesablanmış məbləği təkrarən hesablamaq hüququ özündə saxlayır.

Vergi Məcəlləsində yer alan 38.3.9-cu maddədə göstərilir ki, yoxlama tədbiri aparılan müddət üç ildən artıq dövrü əhatə etməməlidir. Aparılmış dəyişikliklər müzakirə olunduğu müddətdə belə bir fikir irəli sürülmüşdür ki, vergi əməkdaşları tərəfindən üç illik müddət tələbinin iəli sürülməsi bununla əlaqədardır ki, sahibkarlıq subyektinin istəyinə görə təkrar səyyar vergi yoxlamasının aparılmasında kütləvilik hallarının qarşısı alınmalıdır. Məsələ burasındadır ki, bu, onlara əlavə

yükün yaranmasına gətirib çıxarır.

Diqqətçəkən məqam bundan ibarətdir ki, gerçəl praktiki fəaliyyətdə aşağıda qeyd olunmuş halların baş verməsinə rast gəlinir ki, bu da sahibkarlıq subyekti üçün qeyri-əlverişli situasiyaların yaranmasını şərtləndirir:

Birinci halda vergi yoxlama tədbirinin nəticələri ilə bağlı öz narazılığını ifadə edən sahibkarlıq subyektləri növbədənkənar vergi yoxlama tədbirinin aparılmasını yazılı surətdə tələb edir.

Nəzərə almaq lazımdır ki, söügedən Məcəllənin 33.8.9-cu maddəsində sahibkarlıq subyekti tərəfindən aparılmış vergi yoxlama tədbiri ilə narazılıq ifadə olunduqda onun növbədənkənar yoxlama tədbirinin keçirilməsi ilə bağlı tələb irəli sürmək hüququnun olması qeyd edilir və qanunvericiliklə vergi əməkdaşlarının həmin təkrar yoxlamanı keçirmək səlahiyyətinin olduğu da göstərilir. Yəni, təkrar yoxlamanın keçirilməsi vergi orqanlarının hüququ kimi dəyərləndirilir. Vergi əməkdaşları sahibkarlıq subyektinin şikayəti və təkrar yoxlama tədbirinin aparılması ilə bağlı yazılı formada edilmiş müraciətinə uyğun olaraq təkrar yoxlama tədbirinin yerinə yetirilməsi ilə bağlı qərar qəbul edildiyi təqdirdə, sözügedən Məcəllənin 85-ci maddəsində göstərilənlər çərçivəsində təkrar yoxlama tədbirinə start verildiyi tarixdən geriyə üç illik müddəti əhatə edən yoxlamanın aparılması mümkündür. Belə olan halda təkrar yoxlamaya başlanıldığı zaman əvvəlki yoxlama tədbirinin aid edildiyi üç illik dövr əhatə olunmamış qalır. Misal üçün, fərz edək ki, 2016-cı ilin fevralı – 2019-cu ilin yanvarı müddəti əvvəlki yoxlama tədbirinin keçirilməsi nəticəsində əhatə olunmuşdur. Yoxlama tədbiri 2019-cu ilin fevraldan başlamış həmin ilin avqustuna qədər davam etmiş, bununla da məsuliyyət qərarının çıxarılması həyata keçirilmişdir. Sahibkarlıq subyekti həmin yoxlama tədbirinin nəticələri ilə öz narazılığını birldirmişdir. Həmçinin, onun tərəfindən təkrar yoxlamanın aparılması tələbi 2019-cu ilin avqustunda irəli sürülür. Belə olan halda yeni yoxlama tədbirinin başlanılması ilə əlaqədar qərarın verilməsi həmin ilin sentyabrına təsadüf edir. Vergi Məcəlləsinin 85-ci maddəsinə uyğun olaraq, bu kimi hallarda yoxlama tədbiri ilə əhatə oluna biləcək dövr 2016-ci ilin sentyabr ayını və 2019-cu ilin eyni ayını əhatə edəcək. Beləliklə, sahibkarlıq subyekti tərəfindən mübahisələndirilən yoxlama hüdudlarında fevral-sentyabr müddəti ilə bağlı olan əməliyyatlar

yoxlanılmamış qalır və artıq aparılmış vergi yoxlama tədbirinin gəlindiyi nəticələrə hər hansı qaydada təsir göstərmək mümkün deyil. Göründüyü kimi, sahibkarlıq subyektinin şikayəti ilə bağlı sözügedən dövr yenidən aparıla biləcək yoxlama ilə tam şəkildə əhatə olunmamış qalır.

İkinci halda isə fərz edək ki, səyyar vergi yoxlama tədbiri həyata keçirilən zaman sahibkarlıq subyekti müvafiq sənədlər təqdim etməyib. Həmçinin, bu sahibkarlıq subyekti vergi yoxlama tədbirinin nəticələri ilə bağlı müvafiq qanunvericiliyin pozulması üçün məsuliyyətə cəlb olunması barədə vergi orqanlarının çıxartdığı qərardan müvafiq sənədlər təqdim edilməklə üst vergi orqanına şikayət ünvanlayıb.

Nəzərə almaq lazımdır ki, sözügedən Məcəllənin 42.1-ci maddəsində əsasən, vergi əməkdaşları yoxlama tədbirinə başladıqları vaxt sahibkarlıq subyektində həyata keçirilən əməliyyatların təsdiqi ilə əlaqədar təsdiqedici sənədləri tələb etməlidir. Real praktiki fəaliyyətdə sahibkarlıq subyektinin yoxlama tədbirinin gedişatında hər hansı sənədin təqdim edilməsinə rast gəlinmir və yaxlama tədbirinin nəticələri rəsmi qaydada hüquqi qüvvəyə mindikdə sahibkarlıq subyekti sonradan tərtib olunmuş sənədləri, məsələn, təhvil-təslim aktlarını, ümqavilələri, tələbnamələri, sifariş orderlərini və bu kimi digər sənədləri üst vergi orqanlarına təqdim etdikdə aparılmış yoxlama tədbirinin nəticələrini mübahisələndirmiş olur. Administratib orqan tərəfindən bu müraciətə "İnzibati icraat haqqında" qanuna göstərildiyi qaydada baxılır, ancaq sənədlər birbaşa təsərrüfat fəaliyyətini əhatə etdiyi üçün onlara görə istehsalın yaxud təsərrüfatın təkrar yoxlamaq zərurəti meydana gəlir. Yəni, aparılan yoxlama tədbiri ilə əlaqədar sahibkarlıq subyekti sənədləri təqdim etmədikddə Vergi Məcəlləsinin 43 və 67-ci maddələrinə əsasən vergi əməkdaşları tərəfindən vergi miqdarı tam əsaslı surətdə hesablamış kimi dəyərləndirilməlidir və yoxlama gedişatı, onun nəticələri tam şəkildə qanunamüvafiq olduğu üçün sahibkarlıq subyektinin müraciəti təmin olunmur. Ancaq sonradan təqdim edilmiş sənədlər işin faktiki halları ilə birbaşa əlaqəli olan mütəxəssis və ekspertlərin cəlb edilməsi ilə nəticələnməsi mümkün olan proseslər olduğuna görə, təkrar yoxlama tədbirinin aparılması vergi orqanına həvalə olunur. Belə olan təqdirdə isə birinci halda olduğu kimi yeni yoxlama tədbirinin başladığı müddət ilə əvvəlki yoxlama tədbirinin sona

çatdığı müddət arasında olan fərqlərə qədər mübahisə predmetinə çevrilən dövr itir və bu dövrün yoxlanılması mümkün olmur. Nəticə etibarilə sahibkarlıq subyektinin sənədləri bilərəkdən yaxud obyektiv səbəbə görə yoxlama gedişatında verməməsi üzündən vergi yoxlama tədbirinin nəticələri təmin edilməmil qalır.

İndi isə üçüncü hala nəzər salaq. Aparılmış vergi yoxlama tədbirinin nəticəsinə uyğun olaraq sahibkarlıq subyekti tərəfindən vergi qanunvericiliyin pozulmuşdur, onun məsuliyyətə cəlb olunması barədə qərar çıxarılır, lakin sahibkarlıq subyekti bununla razılaşmadığı üçün səyyar vergi yoxlama tədbirinin gedişatında təqdim olunmuş sənədlərdən fərqli sənədlər təqdim etməklə üst vergi orqanına şikayət ünvanlayır.

Praktiki fəaliyyətdə bu kimi hallar baş verdikdə təqdim olunmuş sənədlərdən tam şəkildə fərqli, əlavə sənədlərin verilməsi müşahidə olunur. Yoxlama zamanı sənədlər qismən verilir, sonralar isə vergi öhdəliyinə təsir göstərən başqa müqavilələr, təhvil-təslim aktları təqdim olunur. Həmçinin sahibkarlıq subyekti tərəfindən bu sənədlərin əvvəlki sənədlərlə bağlılığın olması bildirilir. Belə olduğu təqdirdə bütün sənədlər kompleks halında nəzərdən keçirilir və bu səbəbə görə sözügedə dövrün təkrarən yoxlamadan keçirilməsinə zərurət yaranır. Bu dövrün təkrar yoxlanılması isə yuxarıda qeyd etdiyimiz səbəblər üzündən, Vergi Məcəlləsində yer alan 85-ci maddəyə əsasllanaraq qeyri-mümkündür.

Beləliklə, aparılmış dəyişikliklərdə nəzərdə tutulmuş tədbirlər yoxlamaya cəlb edilmiş sahibkarlıq subyektinin hüquq və maraqlarına xidmət edir:

- *sahibkarlıq subyekti tərəfindən edilmiş müraciətə uyğun olaraq onun narazılıq bildirdiyi yoxlama tədbirinin nəticələri təkrarən həmin dövrün yoxlamadan keçirilməsi imkanını ehtiva edir;*
- *vergilərin ödənilməsindən yayınmaq üçün sonradan tərtib olunmqla təqdim edilən sənədlərin dəyərləndirilməsi, habelə vergi öhdəliklərinin düzgün müəyyən olunması məqsədilə bu dövrün təkrar yoxlamılmasına qərar verilir;*
- *sözügedən proseslər birmənalı şəkildə vergi orqanlarının istəyi ilə deyil, məhz sahibkarlıq subyektinin özünün təşəbbüsü, müraciətlərinə əsaslanmaqla həyata keçirilir.*

Bütün bu izahatlardan sonra Məcəllənin 38.3.9.-cu maddəsində edilmiş dəyişikliyi misallar vasitəsilə daha da aydın şəkildə çatdırmağı vacib bilirik.

Birinci misalda fərz edək ki, vergi əməkdaşlarının sahibkarlıq subyektində apardıqları və üç ilə bərabər (2019-cu il yanvar ayının 1-dən 2021-ci il dekabr ayının 31-nə qədərki) dövrü əhatə etdiyi səyyar vergi yoxlama tədbiri 2022-ci ilin mayında sona çatıb. Bu sahibkarlıq subyektinin rəhbəri müəyyənləşdirdi ki, baş mühasib tərəfindən bəzi sənədlərin düşünülmüş şəkildə vergi orqanlarına təqdim olunmayıb. Vergi əməkdaşları sözügedən sənədlərlə əlaqədar xərcləri nəzərə almayıb, odur ki, mənfəət vergisi üzrə daha böyük məbləğlər hesablanıb, verginin bəyan edilməməsi səbəbindən sahibkarlıq subyektinə tətbiq olunmuş maliyyə sanksiyası, eləcə də vergilərin ödənilməməsi üçün hesablanmış faizlər daha çox olmuşdur. Sahibkarlıq subyekti iyunda təkrar yoxlama tədbirinin aparılması üçün müraciət edib, bu vaxt vergi orqanı vergi qanunvericiliyinə əsaslanaraq, Məcəllənin 85-ci maddəsində yer alan müvafiq tələbləri nəzərə almalıdır, bu söbəbö görə də əvvəlki üç illik müddətdən artıq bir müddətin yoxlanılması qeyri-mümkündür. Lakin edilmiş dəyişiklik sayəsində vergi əməkdaşları əvvəlki vergi yoxlama tədbiri ilə əhatə olunduğu dövrü də yenidən yoxlamaq səlahiyyətinə malik olmağa başlayıb.

Həmçinin qeyd etmək lazımdır ki, vergi orqanlarının məsul şəxsləri səyyar vergi yoxlama tədbirinin sahibkarlıq subyektinin son yoxlamasından əvvəlki dövrünü əhatə edilməyəcəyinə nəzarət etməlidir.

Vergi Məcəlləsinin 42-ci maddəsi sənədlərin tələb edilməsini tənzimləyir.

Bu istiqamətdə aydınlıq gətirəcəyimiz birinci məsələ əlavə vergi yoxlama tədbiri aparıldığı zaman tələb olunan sənədlərin hansı müddət ərzində təqdim edilməsi ilə bağlıdır.

Əvvəla, sözügedən Məcəllənin 49.1-ci maddəsinə əsasən, səyyar vergi yoxlama tədbirinin materiallarına nəzər salınmadan onun nəticələri ilə əlaqədar vergi orqanlarının məsul şəxslərinin (rəhbər yaxud rəhbər müavininin) on gün ərzində həmçinin çıxarılmış qərarlardan biri əlavə vergi yoxlamasının aparılması ilə bağlı qərar ola bilər. Məcəllənin 42-ci maddəsində səyyar vergi yoxlama tədbirinin

yerinə yetirilməsi gedişatında müvafiq sənədlərin yaxud elektron faylların təqdim edilməsi haqqında tələb istiqamətləndirilən şəsin bu sənədləri yaxud elektron faylları on beş gün ərzində vergi orqanına təqdim etməklə bağlı tələb öz əksini tapır. Lakin əlavə vergi yoxlama tədbiri aparılarkən digər sənədlərin hansı müddət ərzində təqdim edilməsi tələbi vergi Məcəlləsində qeyd olunmamışdır. Məcəllənin 42.1-ci maddəsinə əlavə olunan hissədə göstərilir ki, sahibkarlıq subyekti vergilərin hesablanması prosesinə təsir göstərən, eləcə də yoxlama ilə əhatə olunan müddətdə təqdim edilən sənədlərdən fərqli sənədləri əlavə vergi yoxlama tədbirinin müəyyənləşdirildiyi gündən otuz iş günü ərzində təqdim etməlidir.

Bununla bağlı bir misala nəzər salaq. Fərz edək ki, sahibkarlıq subyekti Vergi Məcəlləsində yer alan 38.3.9-cu maddəsinə əsasən səyyar vergi yoxlama tədbirinin aparılması zamanı təqdim olunan sənədlərdən fərqli sənədləri verməklə əlavə yoxlama tədbirinin keçirilməsini istəyir. Səlahiyyətli vergi əməkdaşları tərəfindən əlavə yoxlama tədbirinin müəyyənləşdirildiyi gündən sahibkarlıq subyekti sözügedən sənədlər toplusunu otuz iş günü müddətində verməlidir.

Vergi Məcəlləsinin 47-ci maddəsi müşahidəçilərin iştirakına həsr olunur.

Bu maddə ilə bağlı aydınlıq gətirəcəyimiz sual müşahidəçilərin iştirak etmələri ilə əlaqədar hansı tələblərinin dəqiqləşdirilməsi ilə bağlıdır.

Məcəllənin 47.4-cü maddəsində aparılmış düzəlişlər müşahidəçilərin dəvətini tənzimləyir və bunun dəqiqləşdirilməsinə xidmət edir. Belə ki, həmin maddənin 5-ci hissəsində aparılmış dəyişikliklərə uyğun olaraq, eyni şəxs vergi əməkdaşları tərəfindən eyni sahibkarlıq subyekti ilə bağlı vergi ilində 1 dəfədən çox müşahidəçi qismində dəvət almamalıdır. Bu məqsədlə aparılmış dəyişikliklərdən sonra 47.4-cü maddəsinə "eyni vergi ödəyicisi üzrə" ifadəsi əlavə edilmişdir.

Bir daha misala müraciət edək. Qoy vergi orqanlarının əməkdaşları sahibkarlıq subyektində aparılan səyyar vergi yoxlama tədbiri gedişatında müşahidəçi şəxslərin iştirakını təmin etməlidirlər. Həmin sahibkarlıq subyektində vergi ilində növbəti yoxlama tədbirinin keçirilməsi ilə bağlı zərurət meydana gələrsə, o zaman əvvəlki yoxlama

tədbirində iştirak etmiş müşahidəçilərin yenidən dəvət edilməsinə icazə yoxdur.

Vergi Məcəlləsinin 49-cu maddəsi vergi yoxlamasının materiallarına baxılması ilə bağlı əldə olunan nəticələrlə əlaqədar qərarın çıxarılmasına həsr olunub.

Aydənlıq gətirəcəyimiz məsələ isə əlavə vergi yoxlama tədbirlərinin yerinə yetirilməsi ilə bağlı hansı məhdudiyyətlərini tətbiq oluna bilməsi ilə bağlıdır.

İlk öncə qeyd etmək lazımdır ki, bu Məcəllənin 49.1.3-cü maddəsində göstərilir ki, vergi orqanının rəhbər şəxsi yaxud rəhbərin müavini on gün ərzində səyyar vergi yoxlama tədbirinin materiallarına baxılmasının nəticələrinə əsasən əlavə vergi yoxlamaların yerinə yetirilməsi barədə qərar vermək səlahiyyətindədir. Lakin Vergi Məccəlləsində aparılmış axırıncı dəyişikliklərdən əvvəl burada əlavə vergi yoxlama tədbirinin aparılması müddəti və dövriliyi ilə əlaqədar hər hansı məlumatlar yer almırdı. Sözügedən Məcəlləyə 49.1-2-ci maddənin əlavə edilməsindən sonra isə onun 49.1.3-cü maddəsinə uyğun olaraq təyin olunan yoxlama tədbiri öncəki səyyar vergi yoxlama tədbirinin davamı kimi dəyərləndirilməli, eləcə də ancaq bir dəfə altmış iş günündən çox olmamaq şərtilə aparılmalıdır. Əlavə vergi yoxlama tədbirinin aparılmasının nəticələri ilə bağlı təkrar əlavə vergi yoxlama tədbirinin yerinə yetirilməsi haqqında qərarın qəbul edilməsinə yol verilmir.

Haqqında danışdığımız bu maddədən aydın olur ki, əlavə vergi yoxlama tədbiri ən çox altmış iş günü davam edə bilər və bu yoxlama tədbiri nəticəsində əlavə vergi yoxlama tədbirinin aparılması vergi qanunvericiliyində nəzərdə tutulmayıb.

Vergi Məcəlləsinin 50-ci maddəsi operativ vergi nəzarəti ilə bağlıdır.

Bəs Vergi Məcəlləsində aparılmış yeniliklərdən sonra operativ vergi nəzarət tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulurmu?

Sözügedən Məcəllənin 50.1-ci maddəsində operativ vergi nəzarət tədbiri ilə əhatə olunan məsələlər öz əksini tapır. Aparılmış dəyişikliklərə uyğun olaraq, operativ vergi nəzarət tədbiri Vergi Məcəlləsinin 33.2-ci maddəsinə əsasən, təsərrüfat subyekti (obyekti) vergi uçotunda olmayan halların yoxlanılasına da diqqət edəcək.

Məsələn, vergi orqanında çalışan vəzifləri şəxslər bu və ya digər təsərrüfat subyektinə baş çəkməklə onun vergi uçotunda dayanıb-dayanmamasının müəyyənləşdirilməsi ilə məşğul olmaq səlahiyyətində olacaqlar. Eyni zamanda nəzərə almaq lazımdır ki, 2022-ci il yanvar ayının 1-dən başlayaraq Məcəllənin 58.2.1-ci maddəsinə əsasən, sahibkarlıq subyektinin Məcəllədə yer alan 33.2-ci maddəsinə əsasən təsərrüfat subyektinin (obyektinin) səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən orqanın (qurumun) təyin etdiyi qaydada vergi uçotuna götürülməməsinə və (yaxud) təsərrüfat subyektinin (obyektinin) sahəsi haqqında təhrif edilmiş məlumatların təqdim olunmasına görə mikro sahibkarlıq subyektlərinə, qeyri-kommersiya strukturlarına və qeyrisahibkarlıq fəaliyyətini həyata keçirən şəxslərə münasibətdə 40AZN miqdarında, digər şəxslərlə bağlı isə 400AZN miqdarında maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Aydınlıq gətirəcəyimiz növbəti məsələ operativ vergi nəzarət tədbiri gedişatında məhsulların təqdim olunması ilə əlaqədar tədbirlərin həyata keçirilməsi ilə bağlıdır.

Nəzərə almaq lazımdır ki, bu Məcəllədə yer alan 50.1.3-cü maddəyə yeni redaksiya verilib. Artıq aparılmış dəyişikliklərdən sonra məhsulların Vergi Məcəlləsinin 58.8-ci maddəsi ilə nəzərdə tutulan sənədlərə uyğun olaraq əldə edilməsinə, məhsulların elektron qaimə-faktura əsasında təqdim olunmasına, topdansatış ticarət və istehsal obyektlərindən, eləcə də anbar sahələrindən məhsulların pərakəndə şəkildə satılması qaydasında sənədləşdirilməklə təqdim olunmasına, eləcə də məhsulların sahibkarlıq subyektinin bir təsərrüfat obyektindən digərinə göndərilməsi zamanı Vergi Məcəlləsinin 71-1.5.10-cu maddəsi ilə nəzərdə tutulmuş növdə elektron qaimə-faktura sənədinin tərtib olunması üzərində nəzarətin həyata keçirilməsi operativ vergi nəzarət tədbirinin əhatə olunduğu hallara aiddir.

Yeniliklərdən sonra təsdiq olunmuş maddəyə aşağıdakı halların əlavə edilməsi həyata keçiirlir:

- *topdansatış fəaliyyəti ilə məşğul olan ticarət və istehsal obyektlərindən, eləcə də onbar sahələrindən pərakəndə satışın həyata keçirilməsi ilə rəsmiləşdirilməsi*

Praktiki fəaliyyətdə rast gəlinən hallardan biri topdansatış fəaliyyətini həyata keçirən bəzi sahibkarlıq subyektlərinin məhsulları

təqdim edilməsi zamanı pərakəndə satış qaydasında rəsmiləşdirilməsi məsələsidir.

Bununla əlaqədar bir misala nəzər salaq. Fərz edək ki, ərzaq məhsullarının topdan satış qaydasında realizasiyasını həyata keçirən sahibkarlıq subyekti bəzi hallarda bu məhsulları alıcılara satarkən qarşı tərəfinn həmin məhsulların mədaxilinin aparılmasında maraqlı olmaması üzə çıxır. Belə olduqda sahibkarlıq subyekti məhsulların realizasiyasını qeyri-rəsmi formada yerinə yetirmək məcburiyyətində qalır. Topdansatış fəaliyyətini həyata keçirən sahibkarlıq subyektləri bu məhsulların pərakəndə satış qaydasında realizasiya etdiyini qeyd edir. Beləliklə, satılan məhsullar kommersiya məqsədilə alıcı tərəfə təqdim edilsə də, pərakəndə satışla satıldığı təqdirdə istehlak edilmiş kimi dəyərləndirilir. Belə halların baş verməsi uçotdan yayındırılan məhsulların dövriyyədə olmasına şərait yaragmış olur.

İkinci misalda isə bir qədər fərqli situasiyaya müraciət edək. Tutaq ki, bakaleya məhsullarını istehsal edən sahibkarlıq subyekti market tipli mağazalara öz məhsullarını təqdim edir. Bu zaman mağaza qaimə-fakturanın təqdim edilməsini istəmir və istehsalçı ilə satış fəaliyyətini həyata keçirən kommersiya obyekti arasında bütün hesablaşmalar rəsmi qaydada aparılmır. İstehsalçı tərəf olan sahibkarlıq subyekti məhsulların topdan satış üsulu ilə realizasiya etdiyini rəsmiləşdirə bilmir, odur ki, məcburiyyət qarşısında qeyri-qanuni yollara müraciət etməli olur və məhsulların satılmasını təqdiqləyən nəzarət-kassa aparatının çeklərii mühasibatlıq sənədlərinə əlavə edir.

Göründüyü kimi, hər iki misalda qeyd etdiyimiz hallar neqativ vəziyyətlərin yaranmasına gətirib çıxarır. Bunun qarşısını almaq məqsədilə vergi əməkdaşları tərəfindən operativ vergi nəzarət tədbiri həyata keçirilməklə topdansatış istehsal və ticarət obyektlərindən, eləcə də anbar sahələrindən məhsulların pərakəndə satışı formasında rəsmiləşdirilməklə alan tərəfə təhvil verilməsinə nəzarəti gücləndirmiş olurlar.

Yeri gəlmişkən, Vergi Məcəlləsində yer alan 58.13-cü maddəsində aparılmış dəyişikliklərdən sonra, topdansatış ticarət və istehsal obyektlərindən, eləcə də anbar sahlərindən məhsulların pərakəndə realizasiya formasında rəsmiləşdirərək satılmasına görə - məhsulları satan tərəfə təqvim ilində bu kimi hal ilk dəfə baş verdikdə satılmış məhsulların ümumi satış qiymətinin 10%-i, 2-ci dəfə baş verdikdə -

20%-i, 3 və daha çox baş verdikdə isə 40%-i məbləğində maliyyə sanksiyasının tətbiq olunması nəzərdə tutulmuşdur.

- *Sahibkarlıq subyektinin bir təsərrüfat obyektindən digərinə göndərilməsi zaanı Vergi Məcəlləsinin 71-1.5.10-cu maddəsində qeyd edilmiş növdə elektron qaimə-fakturasının tərtib olunması üzərində müvafiq nəzarət tədbirlərinin həyata keçirilməsi.*

Nəzərə almaq lazımdır ki, sözügedən Məcəllənin 71-1.5.10-cu maddəsində qeyd olunmuş elektron qaimə-fakturası 2022-ci il yanvar ayının 1-dən etibarən tətbiq edilməyə başlayıb. Bu elektron qaimə-fakturası "Aksizli məhsulların (neft məhsulları istisna edilməklə) təsərrüfatdaxili yerdəyişməsi haqqında" adlanır. Həmin sənədin adından da görünür ki, elektrin qaimə-fakturası aksizli məhsulların istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri yaxud onları ölkəyə xaricdən gətirən sahibkarları tərəfindən tətbiq olunur. Həmin növ elektron qaimə-fakterası aksizli məhsulların istehsalçıları tərəfindən aksizli məhsulların istehsal olunduğu binanın hüdudları çərçivəsində ona məxsus olmayan əməliyyatlara görə nəqliyyat vasitələrinə buraxılışı zamanı tətbiq edilir.

Həmçinin qeyd etmək yerinə düşərdi ki, operativ vergi nəzarət tədbiri həyata keçirilərkən aksizli məhsulların (neft məhsulları istisna edilməklə) təsərrüfatdaxili yerdəyişməsi haqqında elektron qaimə-fakturasının tərtib olunmamasına görə maliyyə sanksiyası tətbiq edilir. Məcəllənin 58.13-1-ci maddəsinə uyğun olaraq, burada yer alan 71-1.5.10-cu maddəsində nəzərdə tutulduğu növdə elektron qaimə-fakturasını tərtib edilmədən məhsulların bir təsərrüfat obyektindən digərinə göndərilməsinə görə sahibkarlıq subyektinə elektron qaimə-fakturasi əsasında rəsmiləşdirilməyən hər bir belə əməliyyat müqabilində 100AZN miqdarında maliyyə sanksiyasının tətbiqi nəzərdə tutulur.

Burada biz sahibkarlıq subyektinin təqdim etdiyi informasiyalara uyğun olaraq kameral vergi yoxlaması tədbirinin həyata keçirilməsi hallarına, onun hesabat təqdim etdikdən sonra hansı müddət ərzində reallaşdırılmasına, yoxlama tədbirinin yekunlarına görə əldə olunmuş nəticələrin sahibkarlıq subyektinə hansı zaman aralığına göndərilməsinə, yaranmış borc məbləğinin ödənilməsi barədə qərarın hansı hallarda təqdim edilməsinə, sahibarlıq subyekti dəqiqləşdirilmiş vergi bəyannaməsi və sosial hesabatları göndərdiyi hallarda təkrar yoxlama

tədbirinin aparılması ilə bağlı mümkün ehtimalları, yoxlama prosesində hansı hallarda dəqiqləşdirilmiş vergi bəyannaməni deyil, izahat göndərməli olduğuna, xronometraj üsulu vasitəsilə müşahidə tədbirini həyata keçirildiyi sahibkarlıq subyektində kameral vergi yoxlaması tədbirinin tənzimlnməsi məsələlərinə aydınlıq gətirəcəyik.

İlk şərh verəcəyimiz məsələ kameral vergi yoxlaması tədbirinin hansı hallarda həyata keçirilməsi ilə bağlıdır.

İlk öncə qeyd etmək lazımdır ki, kameral vergi yoxlama tədbiri sahibkarlıq subyektinin təqdim etdiyi informasiyalara, yəni vergi bəyannamələri, arayışlar və s. uyğun olaraq vergi əməkdaşları tərəfindən yerinə yetirilən yoxlama tədbiridir. Kameral vergi yoxlamalarının böyük əksəriyyəti Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) vasitəsilə reallaşdırılır. Burada önəmli bir məsələ ondan ibarətdir ki, kameral yoxlamanın aparılması vergi ilə bərabər həmçinin məcburi dövlət sosial sığorta və işizlikdən sığorta haqları ilə də əlaqədar tətbiq olunur.

Məsələn, fərz edək ki, "F" MMC tərəfindən təqdim olunmuş sadələşdirilmiş vergi hesabatı sənədində hər hansı bir rübün ilk ayında 300AZN dövriyyə göstərilib, lakin həmin aya görə təqdim olunmuş elektron qaimə-faktura sənədlərində öz əksini tapan ümumi məbləğ 450AZN-dir. Belə olan halda AVİS üzləşmə prosedurunu apararaq kameral bildirişin göndərilməsini həyata keçirir. Proqramın həmin göndərişində vergi bəyannaməsində uyğunsuzluqların olması qeyd edilir.

Başqa bir misala müraciət edək. Tutaq ki, fərdi sahibkarlıqla məşğul olan vergi ödəyicisinin əmək haqları ilə əlaqədar təqdim etdiyi vergi bəyannaməsinə uyğun olaraq, iyunda işçilərin əmək haqqısı ümumilikdə 1.850AZN təşkil etmişdir. Lakin kompüter məlumat bazasına görə sözügedən ayda əmək haqlarının ümumi məbləği 1.200AZN olaraq göstərilmişdir. Belə olan halda AVİS proqramı vasitəsilə üsləşdirmə əməliyyatı yerinə yetirilir və həmin sahibkarlıq subyektinə kameral məktubun göndərilməsi təmin olunur.

Haqqında danışdığımız məsələnin geniş izahına daha bir misalla yekun vuraq. Fərz edək ki, "F" MMC əlavə dəyər vergisi ilə əlaqədar 2.000AZN məbləğində əməliyyat aparıb. Lakin hər ay tərtib edilən vergi bəyannaməsində bununla bağlı informasiya təqdim edilməyib. Belə

olan halda da həmçinin AVİS proqramı vasitəsilə həmin vergi ödəyicisinə müvafiq bildirişin göndərilməsi təmin olunur.

Cavab verilməli olan növbəti sual kameral vergi yoxlama tədbirləriin hansı hallarda məhz AVİS proqramından kənar informasiyalara uyğun olaraq həyata keçirilməsi ilə bağlıdır.

Biz artıq demişdik ki, kameral vergi yoxlama tədbirlərinin böyük əksəriyyəti vergi orqanları tərəfindən riyazi və məntiqi əsaslar üzrə təyin edilən uyğun risk kriteriyalarına əsasən AVİS proqramı ilə elektron formada yerinə yetirilir. Lakin belə halların olması da mümkündür ki, bu zaman fərqli-fərqli risk kriteriyaları nəzərə alınmaq şərtilə individual qaydada həyata keçirilmiş təhlillər və daxil olmuş informasiyalara görə AVS proqramından kənar qaydada yerinə yetirilən yoxlamaların yukunlarına görə kameral vergi yoxlaması tədbirinin reallaşdırılması mümkün olsun.

AVİS- proqram təminatından kənar yoxlama tədbirlərinə misal olaraq, bu və ya digər sahibkarlıq subyekti tərəfindən təqdim olunan gəlir yaxud mənfəət bəyannaməsi üzrə ardıcıl üç il ərzində ziyanla işləməsi halını qeyd etmək olardı.

İndi isə kameral vergi yoxlama tədbirinin hesabatın təqdim edilməsindən sonra hansı müddətə aparılması mümkünlüyünə aydınlıq gətirək.

İlk öncə qeyd edək ki, əvvəlki dövrlərdə rast gəlinən hallardan daha biri bəyannaməni vergi orqanına təqdim etdikdən sonra bir neçə ay keçdikdə həmin orqan tərəfindən kameral məktibların gösndərilməsi ilə bağlı idi. Vergi əməkdaşları bu məsələni belə şərh edirlər ki, üç ildə kameral yoxlama tədbirinin aparılmasına qanunvericiliklə icazə verilir. Məlumdur ki, 2017-ci ilin yanvar ayının 1-dən Vergi Məcəlləsinə müvafiq dəyişikliklər edilmişdir. Bundan sonra kameral vergi yoxlama tədbirinin keçirilmə müddətinin yuxarı həddi təyin edilmişdir. Belə ki, bundan sonra vergi orqanlarının əməkdaşları vergi bəyannaməsi təqdim oldunduğu tarixdən 30 gündən çox müddətdən sonra kameral vergi yoxlama tədbirini reallaşdıra bilər.

Dediklərimizlə bağlı bir misal çəkək. Fərz edək ki, "F" MMC 2020-ci il üçün Mənfəət bəyannaməsini 2021-ci ilin martın 31-nə qədər təqdim etmişdir. Qüvvədə olan qanunvericiliyin tələblərinə əsasən, vergi əməkdaşları 2020-ci ilin aprelin 30-u tarixinə qədər kameral vergi

yoxlama tədbirini yekunlaşdırmalıdır. Məsələn, 2020-ci ilin mayın 10-da verilmiş bəyannaməyə görə kameral vergi məktubu vergi ödəyicisinə ünvanlanıbsa, bu, mövcud qanunvericiliyin tələbi ilə ziddiyyət təşkil edir.

Bu ziddiyyətin səbəbi ondan ibarətdir ki, Vergi Məcəlləsində yer alan 37.2-ci maddənin tələblərinə uyğun olaraq, kameral verggi yoxlama tədbiri sahibkarlıq subyekti tərəfindən sözügedən Məcəllənin 72-ci maddəsində nəzərdə tutulduğu kimi, bəyannamə vergi əməkdaşlarına təqdim olunduğu tarixdən 30 iş gün müddətində aparıla bilər.

Həmin müddət bitəndən sonra vergi bəyannaməsi üzrə təkrar kameral vergi yoxlama tədbirinin aparılması mümkündür.

İndi isə kameral vergi yoxlama tədbirinin nəticəsinin neçə gün ərzində sahibkarlıq subyektinə göndərilməli olduğuna aydınlıq gətirək.

Məsələ burasındadır ki, Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq, kameral vergi yoxlama tədbiri bitdikdən sonra vergi əməkdaşları vergi məbləğinin və sığorta haqlarının hesablanması məqsədilə əlavə sənəd yaxud qaynağı məlum olan informasiya aşkar edə bilər. Belə olan halda vergi ödəyicisinin yaxud sığortaedənə beş iş günü ərzində Vergi Məcəlləsində yer alan 72.5-ci maddəsi ilə nəzərdə tutulan dəqiqləşdirilmiş hesabat yaxud on iş günü ərzində məcburi dövlət sığorta və işsizlikdən sığorta haqları ilə əlaqədar təqdim olunma bildirişi göndərilsin.

Vergi əməkdaşları sahibkarlıq subyektinə "Vergi irqanına dəqiqləşdirilmiş vergi bəyannaməsinin, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqqı üzrə hesabatlarının təqdim edilməsi barədə Bildiriş" göndərir.

Bəs hansı şərtlər çərçivəsində borcun ödənilməsi barədə qərarın göndərilməsi təmin edilir?

Bu suala cavab vermək üçün, ilk növbədə, qeyd edə ki, vergi əməkdaşları kameral yoxlama tədbiri həyata keçirilərkən təqdim edilən bəyannamə və sosial hesabatlarda aşağıda göstərilmiş informasiyalarla bağlı bu və ya digər natamamlıqlar yaxud qüsurlar aşkar edildiyi təqdirdə beş iş günü müddətində vergilərin və sosial haqlarının hesablanması ilə əlaqədar müvafiq qərarın göndərilməsini təmin edirlər:

- vergi məbləğlərinin və sığorta haqlarının yanlış hesablanması;
- vergilərin və (yaxud) sığorta haqlarının aşağı göstərilməsi.

Dediklərimizi misalla daha da aydınlaşdırmağa çalışaq. Fərz edək ki, kameral vergi yoxlama tədbirinin həyata keçirilməsi zamanı aydın olmuşdur ki, sahibarlıq subyekti tərəfindən təqdim olunmuş məlumatlar əsasında 50AZN miqdarında aşağı vergi məbləği hesablanmışdır. Belə olan halda vergi əməkdaşları beş iş günü ərzində sahibkarlıq subyektinə vergi qanunvericiliyi ilə nəzərdə tutulmuş forma göndərilir, həmçinin bununla əlaqədar bütün tələb edilən tədbirlərin görülməsi barədə həmin sahibkarlıq subyektinə məlumatlar çatdırılır. Sahibkarlıq subyektndən bu və ya digər dəqiqləşdirilmiş vergi bəyannaməsi yaxud izahat təqdim olunmadığı təqdirdə isə vergi əməkdaşları sözügedən bu 50AZN-lik vergi məbləğini şəxsi hesaba işləmək hüququna malik olurlar.

İndi də sahibkarlıq subyektinin dəqiqləşdirilməmiş bəyannaməni və sosial hesabatı təqdim etdiyi halda təkrarən kameral vergi yoxlama tədbirinin həyata keçirilməsi mümkünlüyünə nəzər salaq.

Biz artıq qeyd etmişik ki, kameral vergi yoxlama tədbirinin nəticəsi olaraq sahibkarlıq subyektinə dəqiqləşdirilmiş vergi bəyannaməsi yaxud sosial hesabatın təqdim edilməsi barədə bildiriş ünvünlanır. Vergi Məcəlləsində yer alan 37.2-ci maddəyə uyğun olaraq, bildirişlə əlaqədar təqdim olunmuş dəqiqləşdirilmiş bəyanamə üzrə təkrarən 30 iş günü bərpa olunacaq.

Bir misal çəkək. Fərz edək ki, "F" MMC tərəfindən təqdim olunmuş sosial hesabat məlumatlarında uyğun olmayan məqamlar üzə çıxarılıb və sahibkarlıq subyekti bununla əlaqədar olaraq dəqiqləşdirilmiş hesabatın təqdim olunmasını təmin edib. Deməli, həmin dəqiqləşdirilmiş hesabata görə təkrarən 30 iş günü müddətində kameral vegi yoxlama tədbirinin aparılması təmin olunacaq.

Daha bir misala müraciət edək. Fərz edək ki, "F" MMC tərəfindən ona ünvanlanmış bildirişə görə dəqiqləşdirilmiş bəyannamənin təqdim olunmasına baxmayaraq, həmin bildirişdə öz əksini tapan çatışmazlıq faktları ilə əlaqədar bu və ya digər tədbirin görülməsi baş verməyib, ancaq təqdim olunmuş cari bəyannamədə düzəliş edilmədən dəqiqləşdirilmiş formada təqdim olunub.Aydındır ki, belə olan təqdirdə bu bəyannaməyə görə kameral vergi yoxlama tədbirinin keçirilməsi təmin ediləcək. Məsələ burasındadır ki, vergi əməkdaşları dəqiqləşdirilməmiş bəyannamələrdə yaxud hesabatlarda sahibkarlıq subyektlərinə ünvanlanan bildirişlərdə öz əksini tapan əlavə sənəd

yaxud qaynaqları bəlli olan informasiyaların nəzərə alınıb alınmaması məsələsinə aydınlıq gətirilir. Bu zaman hər hansı kənarlaşmalar üzə çıxarıldığı halda vergi əməkdaşları həmin sahibkarlıq subyektinə yeni bildirişin göndərilməsini təmin edir.

Bəs sahibkarlıq subyekti ona ünvanlanan bildirişə uyğun olaraq dəqiqləşdirilmiş bəyannamə göndərməsə, vergi qanunvericiliyinə görə hansı hərəkətlər nəzərdə tutulub?

İlk əvvəl nəzərə almaq lazımdır ki, kameral vergi yoxlama tədbiri ilə bağlı qaydalarda sahibkarlıq subyektinə ünvünlanmış bildirişə əsasən dəqiqləşdirilmiş bəyannamə və hesabatların müəyyən olunmuş müddət ərzində təqdim edilmədiyi halda artıq vergi əməkdaşları tərəfindən başqa addımların atılması zərurəti nəzərdə tutulur.

Sahibkarlıq subyekti müvafiq sənədləri təqdim etmədiyi təqdirdə, vergi əməkdaşları səyyar vergi yoxlama tədbirinin reallaşdırılması məsələsinin nəzərdən keçirilməsi məqsədilə AVİS proqramının köməyi ilə elektron formada onlayn rejimdə "Risklərin idarə olunması" menyusunun müvafiq pəncərəsində əks etdirirlər.

Həmin səbəbə görə sahibkarlıq subyektləri kameral vergi yoxlama tədbirləri ilə əlaqədar bildiriş aldıqları halda diqqətli olmalıdır. Məsələ burasındadır ki, əks təqdirdə vergi əməkdaşları tərəfindən səyyar vergi yoxlama tədbirlərinin yerinə yetirilməsi ilə bağlı qərar qəbul oluna bilər.

Aydınlıq gətirəcəyimiz növbəti məsələ sahibkarlıq subyektləri tərəfindən dəqiqləşdirilmiş bəyannamələrin deyil, izahat məktublarının təqdim edilməsi mümkünlüyü ilə bağlıdır.

Sahibkarlıq subyekti aldığı kameral məktubuna cavab olaraq bildirişdə öz əksini tapan kənarlaşma ilə əlaqədar yazılı izahat təqdim etdikdə, müvafiq aydınlaşdırılma işləri həyata keçirilir və hər hansı kənarlaşmalar üzə çıxarılmadığı təqdirdə sözügedən uyğunsuzluqlar Qaydaların müvafiq bəndlərinə əsasən AVİS proqramında nəzərdə tutulmuş qaydada bağlanır.

Bəs xronometraj üsulu vasitəsilə müşahidə tədbiri aparıldıqda sahibkarlıq subyektində kameral vergi yoxlama tədbirinin həyata keçirilməsi hansı qaydalar və tələblər rəhbər tutularaq tənzimlənir?

Bu suala aydınlıq gətirmək üçün ona diqqət yetirmək lazımdır ki, xronometraj üsulu vasitəsilə müşahidə tədbiri həyata keçirilən sahibkarlıq subyektlərində kamerallarla bağlı yanaşmalar müəyyən

dərəcədə fərqlidir. Məsələn, Vergi Məcəlləsində yer aloan 37.5-ci maddənin tələblərinə uyğun olaraq, sahibkarlıq subyektindən xronometraj üsulu vasitəsilə yeni müşahidə tədbirinin yerinə yetirilməsi haqqında müraciət daxil olan müddətədər (sahibkarlıq subyektinin vergi qanunvericiliyində əks olunmuş qaydada öz işini dayandırdığı, xronometrak üsulu vasitəsilə müşahidə tədbirinin aparıldığı müddəti əhatə edən səyyar vergi yoxlama tədbirinin reallaşdırıldığı hallar istisna edilməklə) xronometraj üsulu vasitəsilə ən axırıncı müşahidə tədbirinin nəticələri vergi məbləğlərin hesablanması üçün əsas kimi götürülməsi mümkündür.

Həmçinin qeyd etmək yerinə düşərdi ki, biz xronometraj üsulu vasitəsilə müşahidə tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar geniş bilgiləri ilə artıq tanış olmuşuq.

Hal-hazırda isə maddənin izahı ilə əlaqədar lazımi məlumatlara nəzər yetirməyimiz məqsədəuyğun olardı.

Məsələ burasındadır ki, kameral vergi yoxlama tədbirinin həyata keçirilməsi sahibkarlıq subyektində xronometraj üsulu vasitəsilə müşahidə tədbirinin yerinə yetirildiyi müəssisənin hesabatı ilə bağlı reallaşdırılırsa, onda sərgilənən yanaşma fərqli ola bilər. Bununla bağlı bir misalı nəzərdən keçirək. Fərz edək ki, "F" MMC-də xronometraj müşahidələrin nəticələrinə uyğun olaraq, dövriyyənin həcmi hər gün ortalama 1.500AZN təşkil etmişdir. Xronometraj vasitəsilə aparılmış müşahidə tədbirinin nəticələrinə görə dövriyyənin təyin edilməsinin praktiki reallıqda tətbiqinin izahını vermək üçün iki hala toxunaq:

Birinci halda fərz edək ki, "F" MMC tərəfindən təqdim olunmuş bəyannaməyə əsasən bu sahibkarlıq subyektinin dövriyyəsi 30.000AZN təşkil etmişdir. Həmin ay ərzində normal iş günlərinin sayı 25 gün miqdarında götürülsün. Belə olan halda vergi əməkdaşları sözügedən vergi ödəyicisinin dövriyyəsini 37.500AZN olaraq hesablaya bilərlər, yəni 1.500AZN x 25 gün = 37.500AZN.

İkinci halda isə, sahibkarlıq subyektinin həmin ay ərzində dövriyyəsinin 40.000AZN olduğunu və tərtib etdiyi bəyannamədə məhz həmin məbləği göstərdiyini iddia edək. Artıq vergi əməkdaşları xronometrai üsulu vasitəsilə həyata keçirilmiş müşahidə tədbirinin nəticələrinə əsasən hesablanmış 37.500AZN-lik məbləği deyil, "A" MMC tərəfindən təqdim olunmuş 40.000AZNlik məbləği nəzərə alacaqlar.

2.4. Səyyar vergi yoxlama tədbirlərinin keçirilməsi

Burada biz səyyar vergi yoxlama tədbirlərinin növlərinə, müddətinə və tətbiqinin əsaslarına toxunacağıq, sahibkarlıq subyektlərinin yoxlamalardan öncə xəbərdan olunmasına, dəqiqləşdirilmiş bəyannamələr göndərmək imkanının olmasına, növbəli və nəvbədənkənar səyyar vergi yoxlama tədbirlərinin fərqlərinə aydınlıq gətirəcəyik, aparılan yoxlamalar zamanı inventarizasiya prosesinin həyata keçirilməsinin zəruriliyinin əmələ gəlməsinə, yerinə yetirilmə qaydalarına və həmin prosesin nələri əhatə etməli olduğuna, yoxlama tədbirinin gedişatında sahibkarlıq subyektlərinin təqdim etməli olduqları sənədlərin tam siyahısına, ekspertlər, mütəxəssislər və tərcüməçilərin dəvət olunması qaydalarına və yoxlama tədbirinin nəticələrinin rəsmiləşdirilməsi prosedurlarına nəzər salıb mümkün qədər müfəssəl izahatlar verəcəyik.

Bununla yanaşı, biz məhdud məsuliyyətli cəmiyyətdə audit yoxlama tədbirinin həyata keçirilməsi ilə əlaqədar qüvvədə olan qanunvericilikdə aparılan ən son dəyişikliklər və əlavələrə də toxunacağıq.

Bu sırada birinci aydınlıq gətiricəyimiz sual səyyar vergi yoxlama tədbirlərinin hansı hallarda tətbiq edilməsi ilə bağlıdır.

Kameral vergi yoxlama və operativ vergi nəzarəti ilə bağlı mövzulara toxunarkən biz, çox da ətraflı olmasa, səyyar vergi yoxlama tədbirləri ilə bağlı müəyyən bilgilər vermişik. Səyyar vegi yoxlama tədbiri vergi əməkdaşlarının həyata keçirdikləri və sahibkarlıq subyektinin vergilərlə əlaqəli bütün fəaliyyət prosesini yoxlamağa şərait yaradan nəzarət xarakterli tədbirdir.

Sahibkarlıq subyektlərinin bir qismi düşünür ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli, 1410-JVQ saylı Qanuna uyğun olaraq, 2021-ci il yanvar ayının 1-ə qədər səyyar vergi yoxlama tədbirlərinin də dayandırılması deməkdir. Lakin sözügedən Qanunun 2.1-ci maddəsində göstərilir ki, vergi yoxlama tədbirləri həmin qanunvericilik aktının əhatə dairəsinə daxil deyil. Müsbət tərəf odur ki, son illər ərzində səyyar vergi yoxlama tədbirlərinin sayı xeyli aşağı düşüb.

İndi də səyyar vergi yoxlama tədbirinin neçə növdə olduğuna və

rəsmiləşdirilmə prosesinin necə aparıldığına aydınlıq gətirək.

Vergi Məcəlləsində yer alan 38-ci maddəyə uyğun olaraq, səyyar vergi yoxlama tədbiri ümumilikdə 2 növə bölünür: növbəti və növbədənkənar. Səyyar vergi yoxlama tədbiri vergi orqanı tərəfindən verilmiş qərara uyğun olaraq reallaşdırılır və növbəti yoxlama tədbiri yerinə yetiriləndə, vergi əməkdaşları yoxlamaya cəlb ediləcək sahibkarlıq subyektinə həmin yoxlamanın başlanmılması tarixindən ən azı on beş gün əvvəl yazılı şəkildə bildiriş göndərirlər.

Növbəti səyyar vergi yoxlama tədbiri təqvim ilində 1 dəfədən artıq olmamaq şərtilə həyata keçirilir.

Yuxarıda dediklərimizə aydınlıq gətirmək üçün misallara müraciət edək.

İlk öncə fərz edək ki, "F" MMC-də 2020-ci ilin fevralında səyyar vergi yoxlama tədbiri apaprılmışdır, deməli növbəti tədbirin keçirilməsi 2021-ci ildən tez baş verə bilməz.

İndi isə daha ətraflı şərh verək. Fərz edək ki, 2020-ci ilin fevral ayının 10-da sahibkarlıq subyekti bildiriş alıb ki, onuun fəaliyyətinin 2019-cu ilin fevral ayından 2020-ci ilin yanvar ayına qədərki müddət yoxlanılmalıdır. Belə olan halda səyyar yoxlama tədbirinin dövrü 2019-cu ilin fevral ayının 1-ni və 2020-ci ilin yanvar ayının 31-ni əhatə edəcək. Növbəti il 2020-ci ilin fevral ayından tez olmamaq şərtilə növbəti yoxlama tədbirinin keçirilməsi mümkündür və belə olan halda yoxlamanın əhatə etdiyi dövr 2020-ci ilin fevral ayından başlayaraq 2021-ci ilə qədər olacaq.

Növbəti səyyar yoxlama tədbirinin ən yaxşı tərəfi bundadır ki, yoxlama başmamazdan əvvəl 15 gün öncə sahibkarlıq subyektinə bildiriş təqdim olunur. Həmin bildiriş sahibkarlıq subyektinin səlahiyyətli nümayəndəsi tərəfindən mütləq şəkildə imzalanmalıdır. Bildirişin imzalanması həmin sənədin qəbulunun təsdiqi deməkdir.

Bəs sahibkarlıq subyektinin yoxlamanın aparılacağı barədə bildirişi alandan sonra dəqiqləşdirilmiş bəyannamənin təqdim edilməsi mümkündürmü?

Məsələ burasındadır ki, sahibkarlıq subyektinin növbəti səyyar vergi yoxlama tədbirinin həyata keçiriləcəyi barədə bildirişi alandan sonra 15 gün ərzində vergi orqanının informasiya bazasında hesabatları təqdim etmək vaxtı olur. Sahibkarlıq subyektinin həmin on beş gün

ərzində bütün maliyyə sənədlərinə təkrar baxmaq, vergi hesabatlarını təkrar araşdırmaq, həmçinin sözügedən müddətdə istədiyi qədər dəqiqləşdirilmiş beyannamələr təqdim etmək imkanı var.

On beş günlük müddət bitəndən sonra vergi əməkdaşları sahibkarlıq subyekti üçün informasiya bazasını qapadır və bundan sonra onun hər hansı hesabatın dəqiqləşdirilməsini aparmaq imkanı olmur. On beş gündən sonra isə vergi əməkdaşları müvafiq qərar qəbul edir və bu haqda vergi ödəyicisinə məlumat çatdırılır.

İndi isə növbəti səyyar vergi yoxlama tədbirinin müddətinin yuxarı həddinin nə qədər ola biləcəyinə aydınlıq gətirək.

Məlum olduğu kimi, Vergi Məcəlləsində yer alan 38.2-ci maddəyə uyğun olaraq, növbəti səyyar vergi yoxlama tədbirinin müddətinin otuz gündən çox olmasına yol verilmir. Lakin müəyyən hallarda bunun 90 günə qədər uzadılması da mümkündür. Qüvvədə olan qanunvericiliyə görə yoxlama tədbirinin müddətinin artırılması aşağıda göstərilmiş hallarda mümkün ola bilər:

- Nümunə qismində götürülən əşyaların araşdırılması, səyyar vergi yoxlama tədbirinin gedişatında ekspertizanın aparılması yaxud mütəxəssislər tərəfindən müvafiq rəylərin verilməsi məqsədilə müxtəlif bilik sferalarından istifadə olunmaq şərtilə aparıldığı təqdirdə;
- Səyyar vergi yoxlama tətbiqi ilə bağlı vergi əməkdaşlarının sahibkarlıq subyektlərinə ünvanladıqları sorğu məktublarına cavabların verilməsi müddəti cavabı göndərən şəxslər tərəfindən pozulduğu zaman;

Tədbirinin müddəti ilə əlaqədar qərarın verilməsi yoxlamanı təyin edən vergi orqanı deyil onun yuxarı instansiyası tərəfindən həyata keçirilə bilər. Əgər yoxlama yekunlaşıbsa, o halda onuun nəticələri haqqında akt tərtib edilməlidir. Aktın tərtib olunması müddətinin də həmçinin otuz günə qədər uzadılması mümkündür. Bu isə o deməkdir ki, ümumiyyətlə səyyar vergi yoxlama tədbirinin müddəti 120 gün təşkil edə bilər: 90 gün + 30 gün = 120 gün. Bu, növbəti səyyar vergi yoxlama tədbirinin müddətinin uzadılması sayılmalıdır.

Daha bir maraqlı sual COVID-19 pandemiyası ilə əlaqədar səyyar vergi yoxlama tədbirlərinin müddətinin necə tənzimlənməsi ilə bağlıdır.

Bu suala aydınlıq gətirmək üçün, ilk növbədə, Vergi Məcəlləsində yer alan 38.2-ci maddəyə nəzər salaq. Həmin maddənin tələblərinə

uyğun olaraq, səyyar vergi yoxlama tədbiri otuz gündən çox ola bilməz. Yalnız istisna təşkil edən hallarda, yəni st vergi orqanında qəbul edilmiş qərara əsasən müvafiq səyyar vergi yoxlama tədbirinin aparılması müddəti doxsan günə qədər uzadıla bilər.

Məlumdur ki, Vergi Məcəlləsinə 222.7 maddəsi əlavə edilmişdir. Həmin maddəyə uyğun olaraq COVID-19 pandemiyası ilə əlaqədar iqtisadi şəraitdə əhəmiyyətli dəyişikliklər baş vermişdir. Bu da fəaliyyəti səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş orqan yaxud strukturun qərarına əsasən tam yaxud qismən məhdudlaşdırılmış barəsində səyyar vergi yoxlama tədbiri davam etdirilən sahibkarlıq subyektlərinə 1 mart 2020-ci ildən başlayaraq yoxlama tədbirinin reallaşdırılmadığı müddətlər vergi Məcəlləsinin 38-ci maddəsinə uyğun təyin olunmuş müddətlərə daxil deyil.

Dediklərimizin daha rahat və aydın anlaşılması üçün bir misala müraciət edək.

Fərz edək ki, vergi əməkdaşları tərəfindən 2020-ci ilin fevral ayının 15-də mehmanxana xidməti fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektində səyyar vergi yoxlama tədbirinə başlanılıb. Ancaq Nazirlər Kabinetinin vergiyi qərarla mehmanxana xidməti fəaliyyəti məhdudlaşdırılma tətbiq edilən fəaliyyət sferasıdır, odur ki, həmin sahibkarlıq subyektində səyyar vergi yoxlama tədbirinin yekunlaşdırılması mümkün olmamışdır. Bu səbəbə görə mehmanxana xüsusi karantin rejimi qüvvədə olduğu müddətdə fəaliyyət göstərmədiyi dövr səyyar vergi yaxlama tətbirinin müddətinə aid oluna bilməz.

Bəs növbədənkənar vergi yoxlama tədbirinin hansı hallarda keçirilməsi nəzərdə tutulur?

Biz artıq qeyd etmişdik ki, səyyar vergi yoxlama tədbiri iki növdən ibarətdir ki, onlardan biri növbədənkənar vergi yoxlama tədbiridir. Həmçinin nəzərə almaq lazımdır ki, növbədənkənar səyyar vergi yoxlama tədbirinin il ərzində 1 dəfə deyil, praktiki olaraq istənilən vaxt təyin edilməsi mümkündür. Misal üçün, bir ildə iki dəfə və s. vergi Məcəlləsinin 38.3-cü maddəsində deyilir ki, növbədənkənar vergi yoxlama tədbirinin aşağıda sadalanan halların mövcudluğu zamanı vergi əməkdaşları tərəfindən həyata keçirilə bilər. Bunlar:

- Vergilərin hesablanması və ödənişinin aparılması məqsədilə zəruri hesab edilə biləcək vergi hesabatı sənədləri qanunvericilik

qaydasında nəzərdə tutulan müddətdə və bu haqda vergi əməkdaşlarından xəbərdarlıq daxil edildikdən sonra da təqdim edilməməsidir;

- Vergi yoxlaması tədbirindən sonra əldə olunmuş nəticələrlə bağlı yazılmış aktda dəqiq olmayan və (yaxud) təhriflərə məruz qalmış informasiyaların aşkar edilməsidir;
- Əlavə dəyər vergisinə görə artıq ödənilmiş vergilər, faizlər və maliyyə sanksiyaları başqa vergi, faiz və maliyyə sanksiyaların ödənişinin aparılması sayəsində yaxud sonra əmələ gəlmiş öhdəliklərə görə ödənişlərin hesaba aid edilməməsidir. Belə olan təqdirdə növbədənkənar vergi yoxlama tədbirinin ancaq sahibkarlıq subyektinin əlavə dəyər vergisinə cəlb olunan əməliyyatlar üzrə aparılması mümkündür;
- Ödənilməsi artıq aparılmış vergi, faiz və maliyyə sanksiyalarının qaytarılması haqqında sahibkarlıq subyekti tərəfindən müvafiq əraizənin təqdim edilməsidir;
- Vergi əməkdaşları tərəfindən əldə olunmuş qaynağı məlum olan bu və ya digər informasiyalar əsasında sahibkarlıq subyektinin əldə etdiyi gəlirləri yaxud vergitutma obyektinin gizlədilməsi (aşağı salınması) əlamətlərinin aşkar olunmasıdır;
- Cinayət prosesual qanunvericiliyinə əsasən məhkəmənin yaxud hüquq-mühafizə orqanının vergi yoxlama tədbirinin aparılması haqqında uyğun qərarın olması;
- Vergi Məcəlləsində yer alan 42.4-cü maddəyə uyğun olaraq sadalanan sənədlər sözügedən maddənin icazə verdiyi müddət ərzində (Vergi nəzarət tədbirinin yerinə yetirilməsi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərə uyğun daxil olmuş sorğu müraciətlərinin icrası ilə əlaqədar tələb olunan sənəd yaxud sənədlərin tələb edilən qaydada təsdiq olunmuş surətləri vergi əməkdaşlarının müraciətlərinə uyğun olaraq on iş günü ərzində təqdim edilməlidir) təqdim olunmadığı təqdirdə yaxud dəqiqliyi olmayan, və ya təhrifinə yol verilmiş informasiyaların təqdim edilməsidir;
- Sahibkarlıq subyekti qismində çıxış edən hüquqi şəxsin ləğv olunması, yenidən təşkili yaxud fiziki şəxs tərəfindən hüquqi şəxsin yaradılmadan sahibkarlıq istiqamətində fəaliyyət göstərməsinə xitam verilməsi haqqında müraciətin daxil olması;

- Vergi yoxlama tədbiri tamamlandıqdan sonra əldə olunmuş nəticələrlə razılaşmayan sahibkarlıq subyektləri növbədənkənar səyyar vergi yoxlama tədbirinin aparılması istəyi ilə bağlı yazılı formada öz tələbini ifadə etməsidir. Belə olan halda növbədənkənar səyyar vergi yoxlama tədbiri vergi orqanının öncəki yoxlama tədbirini yerinə yetirmiş vəzifəli əməkdaşları tərəfindən keçirilməsinin mümkünsüzlüyü.

2020-ci ilin yanvarın 1-dən sahibkarlıq subyekti riskli vergi ödəyicisi qismində qəbul edilirsə, onda növbədənkənar səyyar vergi yoxlama tətbiqinin həyata keçirilməsi mümkün olacaq.

Daha bir sualın izahını verək: növbədənkənar vergi yoxlama tədbirinin keçirilməsindən əvvəl sahibkarlıq subyektinə hər hansı məlumatın verilməsi nəzərdə tutulurmu?

Məsələ burasındadır ki, növbədənkənar vergi yoxlama tədbirinin keçidilməsi prosesində vergi əməkdaşları tərəfindən öncədən hər hansı bildirişlərin təqdim olunması nəzərdə tutulmur. Yəni, qərarın qəbulu birbaşa həyata keçirilir və sahibkarlıq subyektində yoxlama tədbirinin təyinn olunması ilə bağlı müvafiq işlərin yerinə yetirilməsi təmin edilir. Növbədənkənar yoxlama tədbiri təyin edilən kimi, sahibkarlıq subyektinin vergi orqanlarındakı informasiya bazası qapadılır, bu səbəbə görə sahibkarlıq subyekti hər hansı dəqiqləşdirilmiş vergi hesabatlarını təqdim etmək sahəsində bu və ya digər hüqaqlara malik deyil.

Maraqlıdır, bəs növbədənkənar vergi yolama tədbiri maksimum nə qədər çəkə bilər?

Məsələ burasındadır ki, vergi qanunvericiliyində növbəti səyyat vergi yoxlama tədbirinin keçirilməsinin müddəti və onun uzadılması barədə informasiyalar yer alır, ancaq növbədənkənar vergi yoxlama tədbirləri barədə Vergi Məcəlləsində yer alan 38-ci maddədə hər hansı qeydlərə rast gəlinmir.

Məntiqlə yanaşıldıqda belə qənaətə gəlmək olar ki, növbədənkənar vergi yoxlama tədbirinin müddəti qeyri-müəyyəndir, həmçinin bu tədbirinin müddətinin uzadılması üst vergi orqanı deyil, yoxlama tədbirininin keçirilməsini müəyyənləşdirmiş vergi orqanı da həyata keçirə bilər. Lakin təcrübədən aydın olur ki, növbədənkənar yoxlama tədbiri yerinə yetiriləndə ilkin olaraq onun ən artığı otuz gün müddətində tamamlanması nəzərdə tutulur və, şübhəsiz, tələb edildiyi hallarda bu müddətn uzadılması da mümkündür.

Növbəti məsələ əyyar vergi yoxlama tədbirinin hansı hallarda yeddi ilə qədər dövrü əhatə edə bilməsi ilə bağlıdır.

Bununla əlaqədar deməliyik ki, 2020-ci ilin yanvar ayının 1-dən başlayaraq Vergi Məcəlləsinin 56.1-ci maddəsi yeni redaksiyada verilir. Həmin yenilənmiş maddəyə uyğun olaraq, Vergi Məcəlləsinin tələblərinin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta, habelə icbari tibbi sığorta haqları istisna edilməklə, pozulması günündən üç il keçibsə, sahibkarlıq subyektinin bu hüquqpozmaya yol verdiyi üçün məsuliyyətə cəlb edilməsinə yol verilmir, eləcə də onun hər hansı vergi öhdəliklərinin yaranması da qeyri-mümkündür. Bu arada qeyd etmək vacibdir ki, Azərbaycan Respublikasının hüdadlarından kənarda əldə edilən gəlirlər üzrə xarici ölkələrin müvafiq orqanlarından lazımi informasiyalar daxil olduğu təqdirdə belə gəlirlər üzrə üç il deyil beş il, Azərbaycanın Cinayət-Prosesual Məcəlləsinə əsasən təyin olunan vergi yoxlama tədbirlərində isə Cinayət Məcəlləsinə uyğun olaraq cəlb olunma müddəti, yəni yeddi il keçməlidir.

Dediklərimizdən bəlli olur ki, Cinayət-Prosesual Məcəlləsinə əsasən təyin edilən vergi yoxlama tədbirlərinin üç ildən daha çox müddətdə, yeddi ilə qədər yerinə yetirilməsi mümkündür.

Dediklərimizi bir misal vasitəsilə daha da aydınlaşdıraq. Fərz edək ki, vergi əməkdaşları tərəfindən 2020-ci ilin aprel ayının 1-də vergi yoxlaması keçirilmişdir. Bu zaman 2017, 2018 və 2019-cu illər üzrə Mənfəət vergisi bəyannaməsinin yoxlanılmasına yol verilir. 2021-ci ilin yanvar ayının 1-dən isə vergi orqanlarının əməkdaşları Azərbaycanın Cinayət-Presessual Məcəlləsinə əsasən təyin olunan vergi yoxlama tədbirlərində ölkənin Cinayət Məcəlləsinə uyğun olaraq cinayət məsuliyyətinə cəlb olunma müddətini yəni yeddi ilə bərabər olan bir dövrü yoxlaya bilərlər.

Bununla yanaşı, məcburi dövlət sosial sığorta, işsizliyə görə sığorta, habelə icbari tibbi sığorta haqlarına görə yoxlama tədbirlərinin müddəti üç illə tənizmlənməsi nəzərdə tutulur. Sözügedən icbari ödənişlərlə bağlı yoxlama tədbirlərinin maksimum müddəti nəzərdə tutulmayıb.

Yəni, 2020-ci il apreal ayının 1-dən etibarın start götürmüş vergi yoxlama tədbirlərində məcburi dövlət sosial sığorta, işsizliyə görə sığorta, habelə icbari tibbi sığorta haqları ilə bağlı yoxlama tədbirlərinin aşağı müddətinin 2017-ci illə məhdudlaşmasına rəst gəlinmir.

Bununla bərabər, vergi əməkdaşları Azərbaycanın hüdudlarından kənarda əldə olunan gəlirlə bağlı xarici ölkələrin müvafiq orqanlarından uyğun informasiyalar əldə etdikləri hallarda bu gəlir üzrə üç deyil beş il üzrə hüquqpozmalarla bağlı yoxlama tədbirlərini keçirə bilərlər.

Bütün bunlar onu göstərir ki, 2020-ci ilin yanvar ayının 1-dən etibarən vergi əməkdaşlarına daha uzun müddətin yoxlanılması ilə əlaqədar müvafiq səlahiyyətlərin verilməsi öz əksini tapır.

Bəs səyyar vergi yoxlama tədbirlərinin təxirə salınması məsələsinin hansı hallarda gündəmə gətirilməsinə yol verilir?

Bu suala cavab vermək üçün ilk öncə yada salmalıyıq ki, yoxlama tədbirinin təxirə salınmasının növbəti və növbədənkənar səyyar yoxlama tədbirlərinin aparılması zamanı reallaşdırılması mümkündür. Təxirə salınmanın ən yüksək həddi doqquz ay təşkil edir. Vergi Məcəlləsində yer alan 38.7-ci maddəyə uyğun olaraq, təxirə salınma məsələsinin gündəmə gətirilməsi aşağıda sadaladığımız hallarda mümkün ola bilər:

- Sahibkarlıq subyektində həyata keçirilən səyyar vergi yoxlama tədbiri gedişatında həmin sahibkarlıq subyekti vergi orqanlarının məlumat bazasında əks olunan qeydiyyat ünvanlarında tapılmadıqda yaxud onun olduğu yerin müəyyənləşdirilməsi, habelə başqa səbəblərdən tapılması qeyri-mümkün olduqda – bu sahibkarlıq subyektinin olduğu yerin dəqiqləşdirilməsi işləri bitənədir;
- Fəaliyyəti səyyar vergi yoxlama tədbirinin obyekti olan sahibkarlıq subyektinin rəhbəri, yaxud onun səlahiyyətlərini həyata keçirən əvəzləyici şəxs və ya maliyyə məsələlərinə görə cavabdehlik daşıyan şəxs, habelə fərdi sahibkarın özü müvəqqəti əmək qabiliyyətini itirdiyi təqdirdə - əmək qabiliyyəti bərpa edilənə qədər;
- Vergi əməkdaşlarının təşəbbüsü əsasında mütəxəssislər dəvət oldunduqda yaxud ekspertiza aparıldıqda – mütəxəssisləri yaxud ekspertlərin rəyi yoxlamanı həyata keçirən səlahiyyətli şəxslərə təqdim olunana qədər;
- Səyyar vergi yoxlama tədbirinin obyektiv və hərtərəfli şəkildə yerinə yetirilməsi məqsədilə tələb olunan sənədlər, xüsusən də vergi əməkdaşlarının göndərdiyi sorğuya cavab xarici ölkədən daxil olmadığı təqdirdə - həmin cavab daxil olanadək;

- Vergi Məcəlləsində yer alan 43.11-ci maddənin müəyyənləşdirdiyi hallarda, yəni məhkəmə orqanlarının qəbul etdiyi qərarın qanuni qüvvəyə daxil oluna qədər.

Vergi Məcəlləsində yer alan 43.11-ci maddəyə uyğun olaraq, sahibkarlıq subyekti tərəfindən həmin Məcəllədə öz əksini tapan qaydada sənədləri və əşyaları təqdim edilmədiyi təqdirdə sözügedən sənədlərin və nümunə qismində əşyaların götürülməsi səyyar vergi yoxlama tədbirini bilavasitə yerinə yetirən vergi əməkdaşlarının əsaslandırılmış surətdə təqdim etdikləri müraciətlərinə görə məhkəmə orqanlarının çıxardığı qərar əsasında yerinə yetirilir.

2019-cu ilin yanvar ayının 1-dən başlayaraq sahibkarlıq subyektinin vergi yaxud maliyyə məsələlərinə görə cavabdehlik daşıyan şəxs də həmçinin öz əmək qabiliyyətini itirdiyi təqdirdə növbəti yaxud növbədənkənar vergi yoxlama tədbirinin dayandırılması mümkündür.

İndi isə yoxlama tədbirinin təirə salınmasını əks etdirən bir misala nəzər salaq.

Fərz edək ki, "F" Məhdud Məsuliyyətli Cəmiyyətində növbəti səyyar yoxlama tədbirinin həyata keçirilməsi qərarı qəbul edilmişdir. Olkin olaraq yoxlama tədbirinin müddəti 1 ay kimi götürülüb, ancaq sonra yoxlama müddətinin daha 1 uzadılmasına qərar verilib. Altmış gün keçəndən sonra isə maliyyə məsələlərinə görə cavabdeh şəxs xəstələnib. Bu səbəbə görə yoxlamanın dayandırılması məsələsi gündəmə gəlmişdir. Yoxlama tədbirinin dayandırılması ilə əlaqəli qərarın müddəti iki ay olaraq götürülüb.

Bu zaman belə bir sual meydana gəlir: bəs iki ay keçdikdə vergi əməkdaşları tərəfindən yoxlama müddətinin uzadılması və təkrarən təxirə salınması baş verə bilərmi? Bəli, iki ay keçdikdə vergi əməkdaşları tərəfindən yoxlama tədbirinin müddətinin təkrarən uzadılması yaxud təktatən təxirə salınması ilə bağlı qərar verilə bilər. Aydındır ki, belə qərarın qəbul edilməsi yalnız bunu labüd və qaçılmaz edən əsaslı səbəblərə görə mümkündür.

İndi də inventarlaşma prosesinin hansı hallarda həyata keçirilməsi mümkünlüyünə aydınlıq gətirək.

Məlumdur ki, 2019-cu ilin yanvar ayının 1-dən başlayaraq səyyar vergi yoxlama tədbiri gedişatında inventarlaşmanın həyata keçirilməsi məqsədilə vergi orqanlarının əsaslandırılmış qərarın verilməsinə zərurət

yoxdur, çünki sahibkarlıq subyektində səyyar vergi yoxlama tədbirinin keçirilməsi haqqında verilmiş qərar əsaslı və mötəbər olduğu üçün, həmin yoxlama tədbirinin keçirilməsi ilə parallel olaraq inventarlaşmanın da aparılması mümkündür.

Yeri gəlmişkən onu da qeyd edək ki, müvafiq qanunvericiliyə görə inventarlaşmanın aparılmasının növbəti və növbədənkənar vergi yoxlaması gedişatında təyin edilməsi mümkündür.

İnventarlaşdırma səyyar vergi yoxlama tədbirinin keçidirldiyi zaman aşağıda qeyd etdiyimiz hallarda verilmiş əsaslı qərarına uyğun olaraq vergi əməkdaşları tərəfindən aparılır:

- Sahibkarlıq subyektində vergi yoxlama tədbiriniin keçirildiyi zaman həmin sahibkarlıq subyekti tərəfindən bilərəkdən hesabatlarla bağlı sənədlərin aparılması üzə çıxarıldıqda;
- Sahibkarlıq subyektində sonuncu vergi yoxlama tədbirinin keçirildiyi zaman onun tərəfindən vergi qanunvericiliyi ilə müəyyənləşdirilmiş əsaslara müvafiq şəkildə hesabatlarla bağlı sənədlərin aparılması üzə çıxdıqda, bununla əlaqədar vergi əməkdaşlarıın xəbərdarlıq etmələrindən sonra sözügedən həmin nöqsanlar aradan qaldırılmadıqda, habelə hesabat müəyyənləşdirilmiş qaydaya müvafiq surətdə aparılmadıqda;
- Sahibkarlıq subyektində səyyar vergi yoxlama tədbiri keçirildikdə aksiz markaları ilə markalanması tələb olunan, lakin markalanmamış, məcburi nişanlanma vasitələrilə nişanlanması tələb edilən, lakin nişanlanması aparılmamış məhdullar, eləcə də markalanması tələb olunan, amma markalanması aparılmamış dini təyinatlı ədəbiyyat (kağız üzərində çapul olunmuş yaxud elektron daşıyıcılarına yazılmış), audio və video materiallar, məhsul və məmulatlar, eləcə də dini məzmunlu digər informasiya yönümlü materiallar aşkar olunduqda;
- Sahibkarlıq subyektində əmlak vergisi ilə bağlı aparılmış hesablamaların və ödəmələrin doğruluğunun yoxlanılması zamanı.

Aydınlıq gətirəcəyimiz növbəti sual inventarlaşma işinin hansı qaydalara riayət olunmaqla aparılmalı olduğu ilə bağlıdır.

Əvvəla qeyd etmək yerinə düşərdi ki, inventarlaşma prosesinin reallaşdırılması qaydaları Nazirlər kabinetinin 2003-cü il 12 iyun tarixli №82 qərarı ilə təsdiqlənmiş "Səyyar vergi yoxlaması zamanı vergi orqanları tərəfindən inventarlaşmanın aparılması Qaydaları"na əsasən həyata keçirilir.

Sözügedən həmin Qaydalarda səyyar vergi yoxlama tədbirinin gedişatında sahibkarlıq subyektinə məxsus yaxud onun istifadə etdiyi əmların, yəni, yaşayış sahəsinin, büdcədən maliyyələşdirilən idarə və bələdiyyələr istisna edilməklə, inventarlaşmanın həyata keçirilməsi qaydalarını müəyyənləşdirir.

Sözügedən Qaydalara uyğun olaraq, inventarlaşma prosesinin yerinə yetirilməsi müddəti, bir qayda olaraq, on günlük zamanla təyin olunur. Sahibkarlıq subyekti, habelə vergi orqanlarının əməkdaşları tərəfindən inventarlaşdırma siyahılarına imzalar atıldıqdan sonra həmin proses tamamlanmış hesab edilir.

Bununla yanaşı qeyd etməliyik ki, inventarlaşmanın aparılmasında müstəsna ahllar da mövcuddur. Belə ki, inventarlaşma həyata keçirilən obyektlər fərqli-fərqli məkanlarda yaxud ərazilərdə yerləşə bilər, bu prosesli əlaqəli işin miqyası həddindən artıq böyük ola bilər, sahibkarlıq subyekti inventarlaşmanın nəticələri ilə razı olmaya bilər və bu kimi digər hallarda inventarlaşmanın aparıldığı müddət vergi qurumunun əsaslandırılmış qərarı əsasinda vergi yoxlama tədbiri həyata keçirilməsi müddətindən artıq olmamaq şərtilə uzadıla bilər.

Bəs inventarlaşma aparılan zaman yoxlanılma obyekti qismində nələr çıxış edə bilər?

Məsələ burasındadır ki, inventarlaşma start götürənədək bu işlə bağlı təyin edilmiş maddi məsul şəxslər əmlakla bağlı bütün mədaxil və məxaric sənədlərinin mühasibatlıq şöbəsinə təhvil verilməsi, bu sənədlərin müsahibatlıqda müvafiq qaydada registrdə öz əksini tapması, madi məsuliyyətə verilmiş bütün qiymətlilərin mədaxil və məxaric edilməsi barədə iltizam verirlər.

Maddi məsul təyin edilmiş şəxslər öhdəliklrində olan əmlaklardan kənara borc və ya digər qaydada salanılması məqsədilə əmlak verdikdə, yaxud kənardan borc və ya digər qaydada saxlanılması məqsədilə əmlak aldıqları təqdirdə, bununla yanaşı, inventarlaşma həyata keçirildiyi yerlərdə onların özlərinə aid əmlaklar olduğu təqdirdə həmin əmlakları verdikləri izahatlarda aydın və dəqiqliklə göstərməlidirlər. Əmlakların əldə edilməsi məqsədilə pul vəsaitləri verilmiş təhtəlhesab şəxslərdən yaxud vəkalətnamə verilmiş məsul şəxslərdən də eyni şəkildə iltizamlar alınmalıdır.

Nazirlər Kabinetinin qəbul etdiyi müvafiq qərara uyğun olaraq,

inventarlaşma aparıldığı zaman əmlakların faktiki mövcudluğu onların sayılması, çəkilməsi, habelə ölçülməsi yolu ilə təyin edilir.

İndi də səyyar vergi yoxlama tədbirləri zamanı vergi əməkdaşının yoxlama aparıldığı əraziyə daixl olmasnın mümkünlüyünə aydınlıq gətirək.

Bununla əlaqədar qeyd edək ki, Vergi Məcəlləsində yer alan 40-cı maddəyə uyğun olaraq, vergi orqanlarının vəzifəli nümayəndələrinin növbəti və növbədənkənar səyyar vergi yoxlama tədbirlərinin gedişatında yalnız vergi orqanlarının rəhbərlərinin yaxud onların müavinlərinin yoxlama tədbiri aparıldığı həmin sahibkarlıq subyektində səyyar vergi yoxlama tədbirinin yerinə yetirilməsi barədə qərarı yaxud məhkəmələrin qərarı əsasında sahibkarlıq subyektinin fəaliyyətini reallaşdırmaq məqsədilə istifadə etdiyi əraziyə, bina yaxud tikililərə daxil olmaları mümkündür.

Aydındır ki, sözügedən vergi əməkdaşlarının xidməti vəsiqələrini təqdim etmək tələbi qüvvədədir. Vergi əməkdaşlarının yaşayış olan binalara daxil olmalarına yol verilmir. Sahibkarlıq subyekti tərəfindən vergi əməkdaşlarına onun sərəncamında olan əraziyə, binalara yaxud tikililərə daxil olmaq icazəsi verilmədiyi təqdirdə, vergi əməkdaşları İnzibati Xətalar Məcəlləsində yer alan 602.4-cü maddəyə istinad etməklə inzibati qaydada protokol tərtib etməlidirlər. Qeyd etdiyimiz maddəyə uyğun olaraq, sahibkarlıq subyekti tərəfindən yoxlama tədbirinin gedişatında yoxlamanın aparılması üçün zəruri olan sənədlər yoxlamanı aparan şəxsə yaxud şəxslərə təqdim edilmədiyinə, yoxlama prosesində meydana çıxan suallara istər şifahi, istərsə də yazılı surətdə müvafiq izahatlar təqdim edilmədiyinə, təhrif edilmiş, səhv informasiyaların təqdim olunmasına yaxud sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi məqsədilə istifadə edilən ərazilərə, istehsalat və emal sahələrinə, anbarlar, satış sahələri, avtonəqliyyat vasitələri, eləcə də sahibkarlıq subyekti tərəfindən istifadə edilən başqa yerlərə müvafiq qaydada baxışın keçirilməsinə maneçiliklər törədildiyinə görə vəzifəli şəxslərə 1.000AZN-dən başlayaraq 5.000AZN-ə qədər miqdarda cərimələrin tətbiq edilməsi nəzərdə tutulur.

Növbəti sualımız səyyar vergi yoxlama tədbirinin gedişatında müvafiq sənədlərin tələbinin irəli sürülməsi prosesinin qanunvericiliyə görə hansı qaydada tənzimlənməsi ilə bağlıdır.

Bu məsələyə izah verməkdən ötrü ilk növbədə vergi Məcəlləsində yer alan 42-ci maddəyə nəzər salaq. Həmin maddəyə uyğun olaraq, səyyar vergi yoxlama tədbirini aparan vergi orqanlarının vəzifəli şəxsləri sahibkarlıq subyektinə ünvanladıqları bildiriş məktubunda yoxlama tədbirinin həyata keçirilməsi üçün mühüm hesab edilən sənədləri, eləcə də elektron formatda materialları sahibkarlıq subyektindən Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada tələb edə bilərlər. Bütün bunlardan hansı sənədlərin təqdim edilməsi yalnız növbəti səyyar vergi yoxlama tədbiri gedişatında lazım olduğu aşkar bəlli olur. Məsələ burasındadır ki, bildiriş məktubu növbəti səyyar vergi yoxlama tədbiri gedişatında sahibkarlıq subyektinə təqdim edilir, növbədənkənar səyyar yoxlama tədbiri aparılarkən isə bildirişin təqdim olunması nəzərdə tutulmur.

Yeri gəlmişkən onu da xatırladaq ki, qüvvədə olan qanunvericiliyə uyğun olaraq, sənədlərin yaxud elektron formatda saxlanılan informasiyaların verilməsi haqqında tələb yönəldilən şəxsin bu sənədləri yaxud elektron formatındakı informasiyaları on beş iş günü ərzində vergi əməkdaşlarına təqdim etmək öhdəliyi mövcuddur.

İndi isə səyyar vergi yoxlama tədbiri aparılarkən sahibkarlıq subyekti tərəfindən müvafiq sənədlərin təqdim olunmaması mümkünlüyünü ətraflı şəkildə şərh edən.

Yada salmaq lazımdır ki, sahibkarlıq subyekti tələb edilən sənədləri təqdim etmədiyi təqdirdə vergi oraqnlarının əməkdaşlarıın iki istiqamətdə hüquqi addım atılması qüvvədə olan vergi qanunvericiyili ilə nəzərdə tutulur. Mümkündür ki, vergi əməkdaşları bu barədə müvafiq akt tərtib etsinlər, habelə sahibkarlıq subyektinin iştirakı olmadan Vergi Məcəlləsinin 67-ci maddəsini tələblərini rəhbər tutmaqla, qeyd edildiyi kimi, vergilərin hesablanmasının həyata keçirilməsini təmin etsinlər.

Vergi əməkdaşlarının Vergi Məcəlləsində yer alan və "Vergitutma obyektinin ayrı-ayrı hallarda müəyyən edilməsi qaydaları" adlanan 67-ci maddəyə uyğun olaraq, səyyar vergi yoxlama tədbirinin yerinə yetirilməsi gedişatında sənədlər təqdim olunmadıqda, ərazi və binalara, ancaq yaşayış binaları və sahələri istisna edilməklə, daxil olmaqla bağlı icazə verilmədikdə, mühasibat uçotunun aparılması yaxud mühasibət uçotunun müəyyənləşdirilmiş qaydada aparılmadığı təqdirdə,

mühasibat və hesabat sənədləri məhv edildiyi yaxid itirildiyi təqdirdə, eləcə də vergitutma obyektinin təyin olunması bu və ya digər başqa səbəblər üzündən qeyri-mümkün olduqda, vergi əməkdaşlarının ödənilməsi vacib hesab edilən vergi miqdarını aşağıda qeyd olunan əlaqəli informasiyalardan istifadə edilmək şərti ilə hesablamaq hüququ yaranır:

- Sahibkarlıq subyekti tərəfindən vergi əməkdaşlarına əvvəlki hesabat dövrləri üçün təqdim olunmuş vergi bəyannamələri;
- Sahibkarlıq subyektinin əldə etdiyi gəlirlər, o cümlədən satışdankənar əldə etdiyi gəlirlər haqqında rəsmi informasiya;
- Sahibkarlıq subyektinin xərcləri, xüsusən də fərdi istehlak məqsədi il əldə olunan məhsulların, həmçinin daşınar və daşınmaz əmlakın, yerinə yetirilən işlərin və göstərilən xidmətlərin alınması məqsədilə sərf olunan xərclər haqqında rəsmi informasiya;
- Sahibkarlıq subyektinin sərəncamında yaxud onun istifadəsində olan mülkiyyət, eləcə də maddi və qeyri-maddi əmlak haqqında rəsmi informasiya;
- Sahibkarlıq subyektinin istehsal və (yaxud) təqdim etdiyi məhsulların, görülmüş işlərin, göstərilmiş idmətlərin fiziki həcmi haqqında rəsmi informasiya;
- Sahibkarlıq subyekti tərəfindən həyata keçirilmiş idxal və ixrac əməliyyatları haqqında rəsmi informasiya;
- Sahibkarlıq subyektinə məxsus bank hesablarında mövcud maliyyə vəsaitləri, o cümlədən onun bank hesablarında maliyyə vəsaitlərinin hərəkəti haqqında əldə olunan rəsmi informasiya;
- Sahibkarlıq subyektinə məsus obyektlərdə həyata keçirilmiş xronometraj müşahidə tədbirlərinin nəticələri;
- Vergi əməkdaşlarının əldə edə bildiyi qaunağı məlum olan bu və ya digər informasiya.

Bununla yanaşı, sahibkarlıq subyektinin ödəmək öhdəliyi olan vergi məbləğinin əlaqəli informasiyalara uyğun olaraq təyin edilməsi məqsədilə aşağıda sadaladığımız kriteriyaların nəzərə alınması şərtilə sahibkarlıq subyektinin həyata keçirdiyi fəaliyyətə oxşar fəaliyyət istiqamətində işləyən sahibkarlıq subyektinin vergi əməkdaşlarının malik olduğu informasiyalardan istifadə olunması mümkündür.

Sözügedən addımlardan ikincisi müvafiq qaydada aktı tərtib

olunması şərtilə lazımi sənədlərin götürülməsi barədə qərarın verilməsidir. Belə olan halda vergi məcəlləsinin 67-ci maddəsinin tətbiqi mümkün deyil, odur ki, biz Məcəllənin 43-cü maddəsinin tələbləri haqqında danışmalıyıq.

Tamamilə aydındır ki, sahibkarlıq subyektinin yenə də tələb olunan sənədləri təqdim etməkdən yayınması mümkündür. Belə olan halda vergi orqanlarının əməkdaşlarının həmin sənədləri müvafiq məhkəmə instansiyalarına müraciət etmək yolu ilə əldə etməsi mümkün ola bilər.

Növbəti sual sahibkarlıq subyektinin yoxlama gedişatında hansı sənədləri təqdim etməli olduğu ilə bağlıdır.

Həmin suala cavab verməkdən ötrü ilk əvvəl bunu yada salaq ki, sahibkarlıq subyekti vergi məbləğlərinin hesablanmasının aparılmasına əsas yaradan bütün sənədlər toplusunu yoxlamaların və operativ vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi zamanı bu fəaliyyətin halı və motivasiyası nəzərə alınmaqla, vergi orqanlarının vəzifəli şəxslərinə təqdim etməyə borcludur. Qeyd etdiyimiz sənədlər toplusuna daxildir:

- Bank rekvizitlərinə və əməliyyatlarına aid sənədlər;
- Kassa sənədləri;
- Təhtəlhesab hesablaşmalara dair sənədlər;
- Məhsul, mal və materialların əldə olunmasina dair sənədlər;
- İdxal və ixrac əməliyyatlarının rəsmiləşdirilməsinə aid edilən sənədlər;
- Satış əməliyyatlarına aid sənədlər;
- Hazır məhsulların istehsal edilməsina aid sənədlər;
- Kalkulyasiyalar;
- Sahibkarlıq subyektinin sertifikatları;
- Lisenziyaları;
- Sahibkarlıq subyektinin balansında olan əsas vəsaitlərin alınması, dövriyyədən çıxarılması və silinməsinə dair sənədlər;
- Debitor və kreditor borclarla bağlı aparılmış hesablaşmalar;
- Tələb olunan halda kadrlara dair sənədlər;
- Kapotal qoyuluşlarına aid sənədlər;
- Götürülmüş bank kreditləri ilə əlaqədar hesablaşmaların aparılmasına dair sənədlər;
- Maliyyə hesabatları;
- Sahibkarlıq subyektinə aid başqa mühasibatlıq sənədləri.

Aydınlıq gətirmək niyyətində olduğumuz daha bir məsələ sənəd və əşyaların götürülməsi prosesinin necə tənzimlənməsi ilə bağlıdır.

Məsələ burasındadır ki, Vergi Məcəlləsində yer alan 43-cü maddənin tələbləri sənədlərin və əşyaların götürülməsi qaydalarını ifadə edir. Nəzərə almaq lazımdır ki, 2019-cu ilin yanvar ayının 1-dən başlayaraq səyyar vergi yoxlama tədbiri ilə bərabər operativ vergi nəzarəti tədbiri də həyata keçirilərkən sənədlərin və əşyaların götürülməsinə yol verilir. Sözügedən tarixə qədər ancaq səyyar vergi yoxlama tədbiri aparılarkən bu halın olması mümkün idi.

Digər bir yenilik də onunla bağlıdır ki, 2019-cu ilin yanvar ayının 1-ə kimi sənədlərin və nümunə qismində bu və ya digər əşyaların götürülməsi geca vaxtlarında, yəni axşam 20:00-dan səhər 08:00-a olan vaxt kəsiyində mümkün deyildi. Ancaq yeni dəyişikliklər qüvvəyə mindikdən sonra orada konkret zaman kəsiyi göstərilir. Bu isə o deməkdir ki, sahibkarlıq subyektiniin iş rejimi saatlarında tələb olunan müvafiq sənədlərin və nümunə qismində lazımi əşyaların götürülməsi mümkündür.

Diqqətçəkən daha bir vacib məqam ondan ibarətdir ki, əşyalar yalnız nümunə qimsində götürülə bilər. Bunun səbəbi ondan ibadətdir ki, hər hansı əsas vəsaitin, noutbukun yaxud kompüterin vergi əməkdaşları tərəfindən nümunə qismində götürülməsinə icazə verilmir.

Onu da qeyd etmək vacibdir ki, sahibkarlıq subyektinə məxsus sənədlərin və əşyaların onun tərəfindən vergi orqanlarının əməkdaşlarının qanuni tələbi ilə verilməməsi vergi müfəttişlərinin məhkəmə orqanlarına müraciət olunmasına əsaslar yaradır.

Bəs yoxlama tədbirlərinin aparılması zamanı ekspertlər, mütəxəssislər, tərcüməçilər və müşahidəçilərin dəvət olunmasına hansı hallarda zərurət yarana bilər?

Məlumdur ki, səyyar vergi yoxlama tədbiri həyata keçirilərkən zərurət yarandığı təqdirdə ekspertlər, mütəxəssislər, tərcüməçilər və müşahidəçilərin dəvət olunmasının tənzimlənməsi Vergi Məcəlləsində yer alan müvafiq olaraq 44-cü, 45-ci, 46-cı və 47-ci maddələri həyata keçirilir. Hal-hazırda sahibkarlıq subyektlərinin böyük əksəriyyətinin üzləşdiyi problemlər sırasında özünü daha aşkar və qabarıq şəkildə büruzə verən məsələ mütəxəssislərin cəlb edilməsidir.

Misal üçün, istehsalat yönümlü fəaliyyət həyata keçirən sahibkarlıq

subyektlərində səyyar vergi yoxlama tədbiri aparılarkən müvafiq mütəxəssislərin cəlb edilməsi hallarına çox da rast gəlmək mümkün deyil. Vergi orqanlarının əməkdaşları istehsal və satış prosesi ilə bağlı gerçəkləri təyin etmək məqsədilə istehsal normalarına, avadanlıqların gücünə, elektrik, qaz və bu kimi digər sərfiyyatlara aydınlıq gətirmək üçün mütəxəssislərə müraciət etməlidir. Qe3yd etdiyimiz həmin göstəricilər əsas tutularaq faktiki istehsal miqyası və satışların həcmi məhz mütəxəssislər tərəfindən müəyyənləşdirməlidir.

Bütün bu incə məqamlara bələd olmaq vergi əməkdaşlarının işi deyil. Daha dəqiq ifadə etsək, vergi əməkdaşların bütün bunlara bələd olmamaları təbii qarşılanır. Məhz bu səbəbə görə qeyd etdiyimiz hallarda vergi əməkdaşları tərəfindən verilmiş qərara uyğun olaraq, kənardan sözügedən sahələrdə fəaliyyət göstərən mütəxəssislərin cəlb edilməsi, eləcə də bu mütəxəssislərin rəyinə söykənərək qərarın verilməsi təcrübəsi vergi qanunvericiliyində də öz əksini tapmışdır.

Yuxarıda qeyd etdiklərimizdən daha bir sual yarana bilər ki, bu da sahibkarlıq subyektləri tərəfindən mütəxəssislərin yaxud ekspertlərin dəvət olunmasına etiraz etmələri ilə bağlıdır.

Bu məsələni aydınlaşdırmaq məqsədilə Vergi Məcəlləsində yer alan 44-cü maddəyə müraciət edək. Həmin maddədə ekspertizanın aparılması məsələləri ilə əlaqədar aydın şəkildə göstərilir ki, sahibkarlıq sibyektlərinin rəhbərləri yaxud səlahiyyətli nümayəndələri aparılmış ekspertizalar nəticəsində mütəxəssislər tərəfindən hazırlanmış rəylə bağlı öz narazılıqlarını ifadə etdikləri təqdirdə hansı addımların atılması nəzərdə tutulur. Lakin 45-ci maddə sahibkarlıq subyektinin ekspertiza rəyini tərtib etmiş mütəxəssislə razı olmadığı təqdirdə vergi əməkdaşları tərəfindən hansı addımların atılması ilə bağlı hər hansı konkret işlərin görülməli olduğuna aydınlıq gətirmir. Heç bir şübhə yoxdur ki, vergi qanunvericiliyindəki bu məqam sahibkarlıq subyekti üçün müsbət haldır. Məsələ burasındadır ki, sahibkarlıq subyektinin əlavə mütəxəssislərin cəlb edilməsi tələbini irəli sürməsi və ya öz vəsaitləri ilə mütəxəssisin cəlb olunması ilə bağlı təşəbbüslə çıxış etməsi mümkündür.

Bununla yanaşı, sahibkarlıq subyektinin rəhbərliyi yaxud səlahiyyətli nümayəndəsi verilmiş epskert rəyindən məhkəmə orqanlarına qanunvericiliklə nəzərdə tutulmuş qaydada şikayət vermək hüququ da tanınır.

İndi isə səyyar vergi yoxlama tədbirinin və yoxlamaya cəlb edilmiş materiallara baxılmasının nəticələri ilə bağlı rəsmiləşdirmə prosedurlarının nədən ibarət olduğuna aydınlıq gətirək.

Bununla əlaqədar yada salaq ki, səyyar vergi yoxlama tədbirinin həyata keçirilməsindən sonra əldə olunmuş nəticələrin rəsmiləşdirilməsi proseduru, habelə yoxlama tədbirinin materiallarına baxılmasının nəticələri ilə bağlı qərarın verilməsi prosesinin tənzimlənməsi Vergi Məcəlləsində yer alan müvafiq olaraq 39-cu və 49-cu maddələrə əsasən aparılır.

Həmin maddələrlə tanışlıqdan sonra aydın olur ki, səyyar vergi yoxlama tədbirinin yekununda aktın tərtib edilməsi və onun bir nüsxəsinin sahibkarlıq subyektinə təqdim edilməsi nəzərdə tutulur. Sahibkarlıq subyekti tərtib olunmuş akt sənədi ilə bağlı razılaşmadığını bildirdikdə, habelə onu imzalamaqdan imtina etdikdə, onda həmin aktın son hissəsində sahibkarlıq subyektinin rəhbərliyi yaxud səlahiyyətli nümayəndəsi tərəfindən imtina səbəbləri əks etdirilməlidir. Bu aktla razılaşmadığı təqdirdə sahibkarlıq subyekti otuz gün ərzində vergi orqanlarına şikayət vermək hüququna malikdir. Vergi orqanları tərəfindən otuz gün müddəti bitdikdən sonra on beş gün ərzində şikayətə baxılmalı, həmin şikayətlə əlaqədar qərar qəbul olunduqdan öncə həmin sahibkarlıq subyektinin nümayəndələri vergi orqanlarına dəvət edilməlidir.

Əgər sahibkarlıq subyektinin səlahiyyətli nümayəndələri yoxlama tədbiri nəticəsində tərtib olunmuş aktı imzalayırsa, o zaman on gün ərzində vergi orqanları tərəfindən müvafiq qərarın qəbul edilməsi təmin olunmalıdır. Sahibkarlıq subyekti tərəfindən şikayət edilərdə, onda şikayətə baxıldıqdan sonra on gün ərzində müvafiq qaydada qərarın verilməsi həyata keçirilir. Qərar çıxarıldandan sonra on gün ərzində sahibkarlıq subyektinə borc, faiz məbləğlərinin, habelə maliyyə sanksiyaları, inzibati cərimələrlə əlaqədar yaranmış borcların ödənilməsi və başqa pozuntuların aradan qaldırılması üçün qanunvericilikdə nəzərdə tutulmuş qaydada tələbnamənin göndərilməsi təmin olunmalıdır.

2019-cu ilin yanvarın 1-dən başlayaraq səyyar vergi yoxlama tədbirlərinin materiallarına baxılmasının nəticələri ilə əlaqədar vergi orqanlarının rəhbərləri yaxud rəhbərlərinin müavinləri tərəfindən on gün ərzində veriləcək qərarların siyahısının genişləndirilməsi nəzərdə

tutulmuşdur.

Həmin yeniliklər aparılana qədər, sözügedən siyahıda sahibkarlıq subyektinin Vergi Məcəlləsinin tələblərinin pozulması ilə bağlı məsuliyyətə cəlb olunması, sahibkarlıq subyektinin Vergi Məcəlləsinin tələblərinin pozulması ilə əlaqədar məsuliyyətə cəlb olunmasından imtina edilməsi, eləcə də əlavə vergi yoxlamaların yerinə yetirilməsi barədə qərarlar daxil idi.

Lakin 2019-cu ilin yanvar ayının 1-dən etibarən vergi orqanları qeyd edilmiş qərarlarla bərabər həmçinin əvvəlki vergi yoxlama tədbirinin nəticələri ilə bağlı verilmiş qərarın qüvvədə qalması, əvvəlki vergi yoxlama tədbirinin yekunlarına görə verilmiş qərarın tam yaxud qismən şəkildə ləğv olunması, yaxud da həmin qərarda müəyyən dəyişikliklərin aparılması ilə bərabər yeni qərarın verilməsi səlahiyyəti də tanınıb.

Bu bölümdə toxunacağımız sonuncu məsələ sahibkarlıq subyektləri üçün auditor yoxlamalarının aparılmasının məcburi xarakter daşıyıb-daşımamasıilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, 2019-cu ilin mayın 3-də qəbul edilmiş "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"na uyğun olaraq, auditor yoxlamaları istiqamətində ciddi dəyişikliklər edilib.

Sözügedən dəyişikliklərə görə, bütün növ məhdud məsuliyyətli cəmiyyətlər il ərzində maliyyə hesabatlarının düzgün olub-olmadığını yoxlatmaq məqsədilə hər il müstəqil auditorun, yəni kənar auditorun cəlb olunmasını təmin etməlidir. Ancaq mikro və kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan iş adamlarının obyektlərində auditor yoxlamasının keçirilməsi məcburi xarakter daşımır.

Onu da qeyd etmək lazımdır ki, Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"na uyğun olaraq, işçilərin sayı on nəfərə qədər olan, il ərzində əldə edilən gəlirin məbləği 200 min manatdan az sahibkarlıq subyektləri mikro sahibkarlığa aid edilir. Əgər işçilərin sayı 11-50 arasında olarsa və il ərzində əldə olunan gəlir 200.000-3.000.000 arasında dəyişərsə, bu cür sahibkarlıq subyektləri kiçik sahibkarlıqğa aid olacaqlar.

Sözügedən qərarda həmçinin göstərilir ki, il ərzində əldə olunan gəlirə hesabat ili müddətində təqdim olunmuş məhsulların (işlərin,

xidmətlərin) dəyəri, eləcə də, satışdankənar daxil olan gəlirlər aid olunur və iş adamlarının mikro, kiçik və orta yaxud iri sahibkar olaraq təyin edilməsi məqsədilə "işçilərin orta siyahı sayı" və "illik gəlir" meyyar parametrlərindən daha yüksək olanı əsas qismində qəbul edilir.

Burada maraqlı məqam ondan ibarətdir ki, yeni formalaşdırılan sahibkarlıq subyektlərinin mikro, kiçik, orta yaxud iri sahibkar subyektləri qismində təyin edilməsində onların dövlət qeydiyyatına yaxud vergi uçotuna götürüldüyü tarixdən 1 il ərzində müəyyən olunmuç işçilərin sayı əsas kimi qəbul olunur.

FƏSİL 3:

VERGİ QANUNVERİCİLİYİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT. VERGİLƏRİN HESABLANMASI VƏ ÖDƏNİLMƏSİNİN ÜMUMİ ƏSASLARI

3.1. Vergi qanunvericiliyinin pozulmasina görə məsuliyyət

Qüvvədə olan vergi qanunvericiliyi pozulduğu təqdirdə sahibkarlıq subyektlərinə münasibətdə müxtəlif maliyyə sanksiyaların tətbiq edilməsi nəzərdə tutulur. Həmin sanksiyaların tətbiqi Vergi Məcəlləsinin, İnzibati Xətalar Məcəlləsinin və Cinayət Məcəlləsinin müvafiq maddələrində əks olunan tələblərlə tənzimlənir. Bu bölümdə biz vergi qanunvericiliyin tələblərinin pozulmasının konkret halları ilə əlaqədar tətbiq edilməli olan maliyyə sanksiyaları nəzərdən keçirərək izahlarımızı konkret misallarla daha ətraflı şəkildə təqdim edəcəyik. Onu da qeyd edək ki, vergi qanunvericiliyinin pozulması hallarına biz işçilərlə əmək müqavilələrinin bağlanılmamasını, elektron-qaimə fakturaların verilməməsini, nağdsız şəkildə aparılan əməliyyatlar zamanı qüvvədə olan limitin aşılmasını, nağd hesablaşmalar zamanı mövcud qaydalarını pozulmasını, lazımi informasiyalarım təqdim edilməməsi müqabilində maliyyə institutlarına tətbiq edilən cərimələri və bu kimi digər pozuntu hallarını nəzərdə tuturuq.

Bununla yanaşı, sahibkarlıq subyektlərinin bank hesablarına sərəncam qoyulduğu zaman kassadan məxaric əməliyyatlarının həyata keçirilməsi mümkünlüyünə də aydınlıq gətirəcəyik.

İzah edəcəyimiz birinci məsələ maliyyə sanksiyalarının hansı hallarda tətbiq olunması ilə bağlıdır.

Vergi əməkdaşlarının sahibkarlıq subyektinə qarşı qüvvədə olan vergi qanunvericiliyinin tələblərinin pozulması müqabilində məsuliyyət tədbiri görmək səlahiyyətləri var. Həmin məsuliyyət tədbirlərinin tətbiq edilməsi Vərgi Məcəlləsinin, İnzibati ətalar Məcəlləsinin, habelə

Cinayət Məcəlləsinin müvafiq maddələri ilə tənzimlənir. 2019-cu ilin yanvar ayının 1-dən etibarən sahibkarlıq subyektlərinin sosial və işsizliklə bağlı qanundankənar əməllərinə nəzarətedici funksiyada həmçinin vergi orqanlarının səlahiyyət çərçivəsinə daxil edilmişdir. Odur ki, spzügedən sahədə məsuliyyət tədbirlərinin yerin yetirilməsi Vergi Məcəlləsinin müvafiq maddələri ilə tənzimlənir. Biz yuxarıda adlarını çəkdiyimiz hər üç Məcəllənin tələblərinə əsasən qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyət tədbirləri barədə ətraflı məlumat verəcəyik.

İkinci toxunacağımız məsələ əmək müqaviləsinin bağlanmadığı təqdirdə yaranmış məsuliyyətlə əlaqədar tətbiq edilməli olan maliyyə sanksiyasının hesablanma qaydası ilə bağlıdır.

Məlum olduğu kimi, 2019-cu ilin yanvar ayının 1-dən etibarən Vergi Məcəlləsində əmək haqlarından tutulan gəlir vergisi ilə bağlı güzəştlərin tətbiq olunması əmək haqları məsrəflərinin leqallaşdırılması istiqamətində motivasiyaedici tədbir qismində dəyərləndirilməlidir. Məhz həmin səbəbə görə əmək müqaviləsi bağlanmadan işçi heyətinin hər bir üzvünün çalışdırılması müqabilində tətbiq edilən maliyyə sanksiyaların məbləğində də artırmalara gedilmişdir.

Vergi Məcəlləsində yer alan 58.10-cu maddəyə uyğun olaraq, 2019-cu ilin yanvar ayının 1-dən maliyyə sanksiyası əmək müqaviləsi başlamamış işçiyə görə 1.000AZN deyil, təqvim ilində bu cür qanun pozuntusuna ilk dəfə yol verildikdə 2.000AZN, 2-ci dəfə bu hal təkrarlandıqda 4.000AZN, 3 və daha çox dəfə baş verdikdə isə 6.000AZN miqdarında tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Dediklərimizi əyani misalla daha aydın şəkildə çatdırmağa çalışaq. Fərz edək ki, vergi nəzarəti ilə bağlı həyata keçirilmiş müvafiq tədbirlər gedişatında mağazada işləyənlərdən iki nəfərin əmək müqaviləsi bağlanmadan fəaliyyət göstərməsinə cəhd edilmişdir. Əvvəlki qaydalar qüvvədə olanda təqvim ilində bu kimi pozuntuya ilk dəfə rast gəlinəndə 2.000AZN miqdarında maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulurdu: 1.000AZN x 2 = 2.000AZN. Lakin Vergi Məccəlləsində edilmiş sözügedən dəyişiklikdən sonra cərimənin məbləği artıq 4.000AZN təşkil edəcəkdir: 2.000AZN x 2 = 4.000AZN. Təqvim ilində ikinci dəfə bu qanunpozuntusuna yol verildiyi təqdirdə sahibkarlıq subyektinə hə bir rəsmiləşdirməmiş işçiyə görə 4.000AZN (təqdim etdiyimiz misalda 8.000AZN), 3 və daha çox baş verdikdə isə 6.000AZN (təqdim

etdiyimiz misalda 12.000AZN) miqdarında maliyyə sanksiyasının tətbiq edilməsi ilə bağlı qərar verilməlidir.

Bununla bərabər, İnzibati Xətalar Məcəlləsində yer alan 192.1-ci maddəyə uyğun olaraq, Azərbaycan Respublikasının Əmək Məcəlləsində öz əksini tapmış qaydaya görə əmək müqaviləsi rəsmiləşdirilmədən sahibkarlıq subyekti tərəfindən fiziki şəxsləri bu və ya digər işlərin icra edilməsinə yaxid xidmətlərin göstərilməsinə cəlb olunması da maliyyə sanksiyalarının tətbiqi ilə nəticələnir. Belə ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə 1.000AZN-dən 2.000AZN-ə qədər, sahibkarlıq subyektlərinin vəzifəli şəxslərinə isə 3.000AZN-dən 5.000AZN-ə qədər, hüquqi şəxs qismində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə isə 20.000AZN-dən 25.000AZN-ə qədər cərinə sahksiyalarının tətbiq olunması nəzərdə tutulmuşdur.

Cinayət Məcəlləsində yer alan 162-1-ci maddəyə görə, Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə nəzərdə tutulmuş qaydaya uyğun olaraq əmək müqailəsi rəsmiləşdirilmədən 10 nəfər yaxud daha artıq işçiləri olan heyətin bu və ya digər işlərin görülməsi yaxud xidmətlərin göstərilməsi faktə aşkar olunarsa, o zaman 7.000AZN-dən 10.000AZN-ə qədər cərimə sanksiyasının yaxud 2 ilə qədər islah işlərinin və ya 2 ilə qədər azadlığın məhdudlaşdırılmasının yaxud 2 ilə qədər azadlıqdan məhrum edilməsinin tətbiqi nəzərdə tutulmuşdur.

Buna bənzər qanunpozuntusuna təkrarən yol verildikdə 3 ilə qədər azadlığı məhdudlaşdırılmasının yaxud 3 ildən 7 ilə qədər azadlıqdan məhrumetmə cəzasının tətbiqi ilə bağlı qərar verilir.

Sözügedən qanunpozuntusuna yl vermiş şəxslər ancaq 1 dəfə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən müvafiq qaydada işçiləri ilə əmək müqaviləsi rəsmiləşdirdiyi təqdirdə, eləcə də ödəməli olan vergi məbləğləri, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarını tam həcmdə ödəyəndə cinayyət məsuliyyətinə cəlb edilməkdən aza olunacaq.

Növbəti sual bank hesablarına sərəncam tətbiq edildiyi təqdirdə sahibkarlıq subyektinin kassasından məxaric əməliyyatlarının aparılmasının mümkünlüyü ilə bağlıdır.

Bu suala aydınlıq gətirmək üçün vergi qanunvericiliyində sərəncamların tətbiq olunması ilə əlaqədar sahibkarlıq subyektinin həyata keçirdiyi iki tip əməliyyatlarla bağlı maliyyə sanksiyalarının tətbiqinin

nəzərdə tutulduğunu deməliyik. Bunlardan birincisi, sahibkarlıq subyektinin vergi sərəncamı tətbiq olunduğu kassadan məaric əməliyyatlarının yerinə yetirildiyi təqdirdə, ikincisi isə - bank vergi sərəncamı tətbiq olunduğu təqdirdə hesabdan məxaric həyata keçirildiyi haldır.

İlk öncə birinci situasiyanı dəyərləndirək.

Vergi Məcəlləsində yer alan 58.3-cü maddəsinə uyğun olaraq, həmin Məcəllənin 65-ci maddəsində nəzərdə tutulduğu qaydada vergilərlə bağlı borc məbləğlərinin və faizlərin, tətbiq olunmuş maliyyə sanksiyaların dövlət büdcəsinə ötürülməsi məqsədilə kredit təsisatlarına yaxud bank əməliyyatları yerinə yetirən şəxslərə sərəncamən tətbiq edildiyi gündən, kredit təsisatlarında yaxud bank əməliyyatları yerinə yetirən şəxslərdə hesabları olmadığı təqdirdə vergi Məcəlləsində yer alan 65.1-ci maddədə nəzərdə tutulmuş bildirişdə qeyd olunan müddət bitdiyi gündən sahibkarlıq subyekti tərəfindən öz kassasından, Azərbaycan Respublikasının mülki Məcəlləsinə uyğun olaraq pul vəsaitlərinin silinmə prosesinin növbəliliyi pozulduğu halda, nağd pullla məxaric əməliyyatları yerinə yetirildiyi halda – həyata keçirilmiş məxaric əməliyyatlarının əlli faizi qədər maliyyə sanksiyasının tətbi olunması nəzərdə tutulur.

İndi isə sanksiyanın tətbiq edilməsini müvafiq misallarla daha ətraflı şəlkildə təsvir edək.

Məsələn, "F" Məhdud Məsuliyyətli Cəmiyyətinin vergilər üzrə dövlət büdcəsinə köçürülməli olan 10.000Azn məbləğində borc yaranmışdır. Səlahiyyətli vergi əməkdaşları tərəfindən həmin məbləğin alınması məqsədilə "F" MMC-yə sərəncamın tətbiqi ilə bağlı qərar qəbul edilmişdir. Lakin məhdud cəmiyyətin kassasına satış əməliyyatının həyata keçirilməsi nəticəsində müəyyən miqdarda vəsait daxil olmuşdur. Vergi əməkdaşlarının sahibkarlıq subyektinin kassasını dondurması qeyri-mümkündür. Daha dəqiq desək, təcrübi baxımdan qeyri-mümkündür.

Bununla yanaşı, fərz edək ki, "F" MMC öz işçilərinə 1.000AZN məbləğində borca yaranmışdır. Müəssisənin rəhbər şəxsi daxil olmuş 5.000AZN-nin 1.000AZN-i işçilərinin əmək haqlarına, 3.000AZN-i isə zəruri mal-materialların əldə edilməsinə xərcləmişdir. Kassada 1.000AZN məbləğində vəsait qalmışdır. Səyyar vergi yoxlama tədbiri həyata keçirilərkən vergi əməkdaşları tərəfindən zəruri mal-

materialların əldə oounmasına xərclənmiş 3.000AZN-in əlli faizi miqdarında, yəni 1.500AZN məbləğində maliyyə sanksiyasının tətbi edilməsi ilə bağlı qərar qəbul olunacaq. Burada sahibkarlıq subyektinin vergi məbləğini azaltmaq hərəkətli müşahidə olunmur, söhbət ancaq vəsaitin zəruri mal-materialların alınmasından öncə büdcəyə istiqamətləndirilməli olduğundan gedir. Ardıcıllığa uyğun olaraq, ilk öncə işçilərin əmək haqqısı ödənilməli, daha sonra vergilərin müvafiq məbləği dövlət büdcəsinə köçürülməli, və yalnız qeyd edilmiş əməliyyatlar yerinə yetirildikdə mal-materiallarıın alınması həyata keçirilməli idi. Lakin "F" Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbərliyi qeyd etdiyimiz bu ardıcıllığa riayət etməyib, əvvəl əmək haqqı ödənilib, sonra isə vergiyə aid məbləğlər köçürülmədən mal-materialların alınması reallaşdırılıb. Məhz bu səbəbə görə, müəssisənin 1.500AZN miqdarında cərimə olunması ilə bağlı qərar düzgün hesab edilməlidir.

İkinci hala gəlincə isə onu deməliyik ki, bu vəziyyət Vergi Məcəlləsində yer alan 60.1.2-ci maddənin tələblərinə uyğun olaraq tənzimlənir. Bu maddəyə nəzər salaq.

"60.1.2. sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin milli və ya xarici valyutada cari və digər hesablarında vəsait olduqda, onun vergilərin ödənilməsinə dair tapşırıqlarını, eləcə də vergilər üzrə borcların, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinin hesabından Mülki Məcəllədə nəzərdə tutulan ödənişlərin növbəliliyinə uyğun şəkildə tutulması və ya bu Məcəllə ilə müəyyən olunan miqdarda vəsaitlərin dondurulması barədə vergi orqanlarının sərəncamlarını icra etmədiyi üçün növbəliliyi pozmaqla həyata keçirilən əməliyyatların məbləğlərinin və ya bu Məcəllə ilə müəyyən edilən həcmdə pul vəsaitlərinin dondurulması barədə vergi orqanlarının sərəncamlarında göstərilən məbləğlərin əlli faizi. Bu halda tətbiq olunan maliyyə sanksiyasının məbləği bu ödəmə tapşırıqlarında yaxud vergi orqanının sərəncamında qeyd olunan məbləğin əlli faizindən artıq olmamalıdır.

Vergi ödəyicisinin valyuta hesabından vəsait mübahisəsiz qaydada tutulduğu təqdirdə bank həmin gün Mərkəzi Bank tərəfindən müəyyən olunmuş rəsmi məzənnə əsasında sərəncamda göstərilmiş məbləğin yüz beş faizinə qədər hesabdakı valyuta vəsaitini dondurmalıdır. Valyuta vəsaiti vergi ödəyicisi tərəfindən manatla konvertasiya olunduqdan

sonra sərəncam icra edilir;"

Hər iki halda, Mülki Məcəllədə yer alan 965-ci maddəyə istinad olunur. Bu maddəyə də nəzər salaq:

"Maddə 965. Hesabda olan pul vəsaitlərinin silinməsinin növbəliliyi

965.1. Hesabda olan pul vəsaitlərinin məbləği hesaba qarşı irəli sürülən bütün tələbləri ödməyə kifayət etdiyi təqdirdə, hesabdan həmin vəsaitin silinməsi prosesi müştərilərin sərəncamlarının və hesabdan silinməyə görə başqa aiddiyyati sənədlərin daxil edildiyi ardıcıllığı, yəni təqmiv ardıcıllığına uyğun şəkildə həyata keçirilir, yeganə şərt qanunda ayrı qaydanın nəzərdə tutulmamasıdır.

965.2. Hesabda olan pul vəsaitləri müştərinin sərəncamlarını, habelə ona qarış irəli sürülən bütün tələbləri yerinə yetirməyə kifayət etmədiyi təqdirdə hesabdan pul vəsaitlərinin aşağıdakı ardıcıllıqla silinməsi həyata keçirilir:

965.2.1. ilk növbədə insan həyatına yaxud insan sağlamlığına dəymiş zərərlərin qarşılanması barədə tələblərin, eləcə də alimentlərin tutulması barədə tələblərin yerinə yetirilməsi məqsədilə hesabda olan pul vəsaitlərinin köçürülməsini yaxud verilməsini nəzərdə tutan sənədlər və ya həmin sənədlər əsasında verilən icra sənədi üzrə hesabdan silmələr həyata keçirilir;

965.2.2. ikinci növbədə əmək müqaviləsi əsasında çalışan şəxslərə işdən azad edildiklərinə görə müavinətlərin və əmək haqqının ödənilməsi ilə bağlı, habelə müəlliflik müqaviləsi üzrə müvafiq haqların ödənilməsi üçün hesablaşmaların aparılması məqsədilə pul vəsaitlərinin köçürülməsini yaxud verilməsini nəzərdə tutan sənədlər və ya həmin sənədlərə əsasən verilən icra sənədlərinə uyğun olaraq hesablardan silinmə, eləcə də həmin məqsədlərə görə verilmiş bank kreditlərinin hesablardan silinməsi həyata keçirilir;

965.2.3. üçüncü növbədə dövlət büdcəsinə, məcburi dövlət sosial sığorta haqlarına görə büdcədənkənar dövlət fonduna, habelə bələdiyyələrin büdcələrinə ödənişlərin aparılmasını nəzərdə tutan müvafiq sənədlər əsasında hesablardan silinmə yerinə yetirilir;

965.2.4. dördüncü növbədə ayrılmış kreditlər üzrə bankın tərəfindən irəli sürülən tələblərin icra olunmasını nəzərdə tutan ödəniş sənədlərinə görə hesablardan silinmə yerinə yetirilir;

965.2.5. beşinci növbədə digər pul tələblərinin həyata keçirilməsini nəzərdə tutan icra sənədlərinə əsasən hesablardan silinmələr icra olunur;

965.2.6. altıncı növbədə təqvim ardıcıllığına uyğun olaraq başqa ödəniş sənədlərinə uyğun olaraq hesablardan silinmələr yerinə yetirilir.

965.3. Bir növbəyə aid edilən tələblərə görə vəsaitlər sənədlərin daxil olmasının təqvim ardıcıllığına uyğun olaraq hesablardan silinir."

Maddənin mətnindən aydın olur ki, üçüncü növbədə dövlət büdcəsinə, məcburi dövlət sosial sığorta haqlarına görə büdcədənkənar dövlət fonduna, habelə bələdiyyələrin büdcələrinə ödəmələin təmn edilməsi məqsədilə müvafiq sənədlər əsasında hesablardan silinmələr yerinə yetirilməlidir.

Növbəti sualımız akssada pul vəsaitlərinin mövcud olmadığı təqdirdə maliyyə sanksiyasının tətbiq olunub-olunmaması ilə bağlıdır.

Bununla əlaqədar qeyd etməliyik ki, Vergi Məcəlləsində yer alan 58.1.1-ci maddəyə uyğun olaraq, 2019-cu ilin yanvar ayının 1-dən başlayaraq pul vəsaitlərinin 1.000AZN-də artıq olan məbləğdə uçotdan yayındırılması yaxud uçota alınmaması qarşılığında – 1.000AZN-dən artıq olan hissəsinin on faizi, təqvim ilində bu kimi hallar təkrarın baş verdikdə isə 1.000AZN-dən artıq olan hissəsinin iyirmi faizi həcmində maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulur.

Dediklərimizi misalla daha da aydınlaşdıraq. Fərz edək ki, səyyar vergi yoxlama yaxud operativ vergi nəzarət tədbiri gedişatında aydın olmuşdur ki, təqvim ilində sahikarlıq subyekti tərəfindən birinci dəfə uçot məlumatlarında kassasında 5.500AZN göstərildiyi halda, inventarlaşdırma zamanı həmin kassada cəmi 1.000AZN olması müəyyən edilmişdir.

Belə olduqda sahibkarlıq subyektinə 1.000AZN-dən artıq olan məbləğin on faizi həcmində maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulur, yəni 5.000AZN – 1.000AZN = 4.000AZN, 4.000AZN x 10% = 400AZN. Vergi Məcəlləsinə müvafiq dəyişikliklər edilməzdən öncə həmin məbləğ 200AZN təşkil edəcəkdə, yəni 4.000AZN x 5% = 200AZN. Sahibkarlıq subyektinin fəaliyyətində təqvim ilində bu kimi hallar yenidən baş verdiyi təqdirdə, 1.000AZN-dən artıq olan hissəsinin iyirmi faizi həcmində maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Bəs nağd pul hesablaşmaları aparıldığı zaman vergi

qanunvericiliyin tələblərində hər hansı pozuntulara yol verildiyi təqdirdə maliyyə sanksiyasının tətbiqi hansı şəkildə baş verəcək?

Bu suala cavab vermək üçün ilk növbədə Vergi Məcəlləsində yer alan 58.7-ci maddənin tələblərinə nəzər salaq:

58.7. Vergi Məcəlləsində yer alan 13.2.63-cü maddədə nəzərdə tutulan ticarət fəaliyyəti istisna edilməklə sahibkarlıq subyekti vergi ödəyicisi qismində vergi orqanlarında uçotda olmayan fiziki yaxud hüquqi şəxslərə əhali ilə pul hesablaşmaları əməliyyatlarının yerinə yetirilməsi qaydalarının pzulmasına, yəni nəzarət-kassa aparatı yaxud ciddi hesabat blanklarının tətbiqi həyata keçirilmədən (nəzarət-kassa aparatlarının quraşdırılması yerinə yetirilmədən, qanunvericilikdə müəyyən olunmuş formalarda ciddi hesabat blankları tətbiq olunmadan yaxud nağd ödənilmiş məbləğ mədaxil edilmədən), vergi orqanında qeydiyyatdan rəsmiləşdirilməmiş yaxud texniki tələbləri ödəməyən nəzarət-kassa aparatlarından istifadə olunmaqla qanunvericilikdə müəyyən edilmiş ciddi hesabat blankları tətbiq olunmadan yaxud müəyyən edilmiş qaydada təsdiq edilmiş formalara uyğun gəlməyən ciddi hesabat blanklarının istifadəsi ilə vətəndaşlarla pul hesablaşmalarının həyata keçirilməsinə, POS-terminalların quraşdırılması məcburi hesab edilən sahibkarlıq obyektlərində həmin terminalların quraşdırılması aparılmadan və POS-terminallar quraşdırılmış obyektlərdə nağdsız ödənişlərin qəbulundan imtina olunmasına yaxud alıcıya təqdim olunmalı olan çekin, bankların valyuta mübadiləsi şöbələrində müştəriyə təqdim edilməsi mütləq hesab olunan bank çıxarışlarının yaud başqa ciddi hesabat blanklarının təqim edilməməsinə yaxud ödənilən məbləğlərdən kiçik məbləği göstərməklə verilməsinə, nəzarət-kassa aparatlarının istifadəsi prosesi dayandırıldığı təqdirdə vətəndaşlarla pul hesablaşmalarının qeydiyyatının həyata keçirilməsi qaydalarında pozuntulara yol verildiyi üçün vergi ödəyicisinə:

58.7.1 təqdim ilində bu kimi hallar ilk dəfə baş verdikdə 1.000AZN midarında;

58.7.2. təqdim ilində bu kimi hallar 2-ci dəfə baş verdikdə 3.000AZN midarında;

58.7.3. təqdim ilində bu kimi hallar 3 və daha artıq dəfə baş verdikdə 1.200AZN, Vergi Məcəlləsində yer alan 218.1.2-ci maddədə qeyd edilən şəxslərə 6.000AZN miqdarında maliyyə sanksiyasının

tətbiqi nəzərdə tutulur.

İndi isə sözügedən maddənin mahiyyətini əhani misal vasitəsilə aydınlaşdıraq. Fərz edək ki, vergi əməkdaşları tərəfindən operativ vergi nəzarət tətbirinin həyata keçirildiyi zaman aydın olmuşdur ki, "F" MMC 2019-cu ilin fevral ayının 18-də müştəriyə 50AZN dəyərində məhsul alışına görə nəzarət-kassa aparatının çekini təqdim etməmişdi. Belə olan təqdirdə Vergi Məcəlləsində yer alan 58.7-ci maddəyə uyğun olaraq 1.000AZN məbləğində maliyyə sanksiyasının tətbiq olunmasına qərar verilməlidir. Lakin sözügedən Məcəllədə 2019-cu ilin yanvarın 1-dən başlayaraq qüvvəyə minən dəyişikliyə görə maliyyə sanksiyası 400AZN-dən 1.000AZN-ə qədər artırılmışdır, odur ki, 2018-ci ilin noyabrın 30-da qəbul edilmiş "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklərin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, 2019-cu ilin yanvar ayının 1-dən etibarən 1 il müddətinə bu kimi hallar ilk dəfə baş verdikdə vergi əməkdaşları rəsmi, yəni yazılı xəbərdarlıq təqdim etdikdən sonra reallaşdırılan vergi nəzarət tədbiri gedişatında tətbiq olunurdu.

Yəni, 2019-cu ilin fevralın 18-də maliyyə sanksiyası deyil, rəsmi xəbərdarlıq edilirdi."F" MMC tərəfindən 2019-cu ilin fevral ayının 20-də təkrarən nağd pulla hesablaşmaların qaydalarında pozuntulara yol verildiyi təqdirdə sahibkarlıq subyekti artıq 1.000AZN miqdarında cərimə edilirdi. Oxşar hala 2019-cu ilin apelin 20-də yol verilirdisə, o zaman 3.000AZN, növbəti dəfə və ondan artıq olduğu təqdirdə də 6.000AZN məbləğində maliyyə sanksiyasının tətbiq olunmasına qərar verilirdi.

"F" MMC tərəfindən 2020-ci il ərzində birinci dəfə oxşar qanun pozuntusuna yol verildiyi təqdirdə, artıq 6.000AZN deyil, 1.000AZN məbləğində maliyyə sanksiyasının tətbiq olunması barədə qərar çıxarılacaq. Məsələ burasındadır ki, Vergi Məcəlləsində yer alan 58.7-ci maddənin tələblərində müddət olaraq təqvim ili göstərilir.

İndi də POS-terminlarraın istifadə edilmədiyi üçün maliyyə sanksiyasının necə hesablanacağına nəzər yetirək.

Nəzərə almaq lazımdır ki, Vergi Məcəlləsində yer alan 58.7-ci maddəsində aparılmış dəyişikliklərə uyğun olaraq, 2020-ci ilin yanvarın 1-dən başlayaraq POS-terminalların quraşdırılmadığı yaxud POS-terminalların quraşdırılmış sahibkarlıq obyektlərində nağdsız qaydada

ödənişlərin aparılmasından imtina oldunduğuna görə də cərimənin tətbiqi nəzərdə tutulur.

Bunu əyani misalla daha müfəssəl şəkildə izah edər. Fərz edək ki, POS-terminal olduğu mağazada alıcı ödənişi POS-terminal vasitəsilə həyata keçirmək niyyətindədir. Laki sahibkarlıq subyekti buna imkan yaratmır. Deməli, həmin vergi ödəsiyicinə maliyyə sanksiyasının tətbiqi ilə bağlı qərar verilir. Beləliklə, həmin sahibkarlıq subyekti təqdim ilində bu kimi hallara ilk dəfə yol verdiyi təqdirdə ona 1.000AZN məbləğində, bu hal 2 və daha artıq baş verdiyi təqdirdə isə ona müvafiq olaraq 3.000AZN və 6.000AZN midarında maliyyə sanksiyasının tətbiqi nəzərdə tutulur. Ayındır ki, vergi qanunvericiliyin bu kimi pozuntuları operativ vergi nəzarəti gedişatında müəyyən edilir.

Növbəti misalı dəyərləndirək. Fərz edək ki, "F" MMC belə obyektlərə aiddir ki, orada POS-terminalların quraşdırılması məcburi xarakter daşıyır. Lakin sözügedən həmin tələb yerinə yetirilməmişdi, yəni "F" MMC-də POS-terminal quraşdırılmamışdır. Bu isə o deməkdir ki, həmin sahibkarlıq subyekti vergi qanuunvericiliyini pozmuşdur və ona maliyyə saknsiyasının tətbi edilməsi ilə bağlı müvafiq qərar qəbul ediləcək.

Xüsusilə qeyd etmək istərdik ki, Nazirlər Kabinetinin 04 oktyabr 2012-ci ildə qəbul edilmiş 219 saylı qərara uyğun olaraq, POS-terminalların mütləq şəkildə quraşdırılmalı olan obyektlər müəyyən olunub və həmin siyahını oxucularımızın diqqətinə təqdim edirik:

- pul dövriyyəsi və yerləşmə ərazisindən asılı olmamaq şərtilə əlavə dəyər vergisi qismində vergi orqanlarına uçotda olan sahibkarlıq subyektlərinin bütün təsərrüfat obyektlərində həmin sahibkarlıq subyekti əlavə dəyər ödəyicisi qismində qeydiyyata götürüldüyü gündən etibarən;

- pul dövriyyəsi və yerləşmə ərazisindən asılı olmamaq şərtilə avtonəqliyyat vasitələri və mebellərin satışı istiqamətində ixtisaslaşdırılmış müəssisələrdə, idman və sağlamlıq yönümlü komplekslərdə, səhiyyə təyinatlı obyektlərdə, otellərdə, şadlıq saraylarında, yanacaqdoldurma məntəqələrində, hava, su, dəmiryolu və avtonəqliyyat vasitələri ilə sərnişinlərin daşınmasını həyata keçirən sahibkarlıq subyektlərinin bilətlərin satışı məntəqələrində, eləcə də turizm şirkətlərində (təsərrüfat subyekti yaxud obyekti qeydiyyata götürüldüyü

gündən başlamaq şərtilə);

- rübə görə orta aylıq pul dövriyyəsinin 2.000AZN-dən çox olan sahibkarlıq subyektlərinə məxsus bütün təsərrüfat obyektlərində, bu halda xüsusi cədvəl tərtib olunur ki, həmin cədvələ əsasən ərazilər üzrə POS-terminalların mərhələli şəkildə tətbiq olunması aparılır;

- hüquqi şəxslərin və fərdi sahibkarların mülkiyyətində və istifadəsində olan minik avtonəqliyyat vasitələri ilə, məsələn taksi ilə, sərişindaşınma fəaliyyətini yerinə yetirən nəqliyyat vasitələrində, bu halda xüsusi cədvəl tərtib olunur ki, həmin cədvələ əsasən ərazilər üzrə POS-terminalların mərhələli şəkildə tətbiq olunması aparılır;

- təqdim edilən xidmətlər yaxud yerinə yetirilən işlər müqabilində dövlət rüsumları və haqlarının qəbulunu həyata keçirən dövlət müəssisələrində, bu halda xüsusi cədvəl tərtib olunur ki, həmin cədvələ əsasən ərazilər üzrə POS-terminalların mərhələli şəkildə tətbiq olunması aparılır.

POS-terminalların tətbiqi ilə əlaqədar müəyyən boşluqlar müşahidə olunan məsələlərdən biri sahibkarlıq subyektinin günahı olmadan POS-terminalların işlək vəziyyətdə olmadığı təqdirdə maliyyə sanksiyaların tətbiqinin həyata keçirilməməsi ilə bağlıdır. Belə düşünmək olar ki, vergi qanunvericiliyində aparılmış dəyişikliklərdə həmin məsələ nəzərə alınarsa, vergi öhdəliklərini yüksək səviyyədə yerinə yetirən nümunəvi sahibkarlıq subyektlərinin əsasə olmadan cəzalandırılmasına yol verilməyəcək.

Aydınlıq gətirəcəyimiz növbəti sual "Nağdsız hesablaşmalar haqqında" AR Qanununda öz əksini tapmış tələblərin pozulduğu təqdirdə maliyyə sanksiyalarının hesablanmasının hansı qaydada yerinə yetirilməsi ilə bağlıdır.

İlk əvvəl yada salaq ki, 2016-cı ilin dekabr ayının 16-da dövlət başçısı cənab İlham Əliyev tərəfindən "Nağdsız hesablaşmalar haqqında" AR Qanunu təsdiq edilmişdir. Sözügedən qanunun başlıca hədəfi respublikamızın ərazisində mülki dövriyyədə iştirak edən tərəflər arasında həyata keçirilən əməliyyatlarda və hesablaşmalarda şəffaflığın artırılması, istehlakçı qismində çıxış edən vətəndaşların hüquqlarının müdafiəsinin gücləndirilməsi, nağd hesablaşmalar əməliyyatlarınnı nağdsız hesablaşmalar əməliyyatlarla əvəz edilməsi istiqamətində stimullaşdırıcı amillərin təmin edilməsi, habelə bank sisteminin

inkişafında daha yüksək templərin əldə olunmasıdır.

"Nağdsız hesablaşmalar haqqında" AR Qanunundan irəli gələn tələblərin pozulması müqabilində maliyyə sanksiyalarının tətbiqi ilə əlaqədar Vergi Məcəlləsində yer alan 58.7-1-ci maddəyə edilən əlavələr aşağıdakılardan ibarət olmuşdur:

"58.7-1. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulmasına görə aşağıdakı vergi ödəyicilərinə Qanun pozulmaqla yerinə yetirilən əməliyyatın ümumi məbləğinin təqvim ilində bu kimi hal ilk dəfə baş verdikdə on faizi, 2-ci dəfə baş verdikdə iyirmi faizi, 3 və daha artıq dəfə baş verdikdə isə qırx faizi məbləğində maliyyə sanksiyası tətbiq olunur:

58.7-1.1. həmin Qanunun 3.3-cü, 3.4.4-cü və 3.4.7-ci maddələrində yer almış tələblərin pozulmasına görə ödənişi aparan vergi ödəyicisinə;

58.7-1.2. həmin Qanunun 3.4.1-ci maddəsində yer alan tələbləri pozmaqla pul vəsaitini nağd şəkildə qəbul edən lizinq verən tərəfə, kreditləri nağd şəkildə təqdim edən kredit verən tərəfə;

58.7-1.3. həmin Qanunun 3.4.2-ci maddəsinin tələblərini pozmaqla nağd şəkildə sığorta ödəmələrini həyata keçirən və sığorta haqlarını nağd şəkildə qəbul edən sığortaçıya yaxud təkrar sığortaçıya;

58.7-1.4. həmin Qanunun 3.4.3-cü maddəsini pozaraq xidmət haqqını yaxud başqa yığımları nağd şəkildə toplayan şəxslərə;

58.7-1.5. həmin qanunun 3.4.5-ci maddəsini pozmaqla stationar telefon və kommunal xidmətlərinin haqlarını nağd şəkildə toplayan şəxslərə;

58.7-1.6. həmin Qanunun 3.4.6-cı maddəsini pozmaqla faizsiz pul vəsaitini (vergi ödəyicisi qismində qeydiyyatda olmayan şəxslər tərəfindən pul vəsaitinin verilməsi hallarından başqa), digər ayrılmaları nağd şəkildə ödəmiş və qəbul etmiş şəxslərə;

58.7-1.7. həmin Qanunun 3.4.8-ci maddəsini pozmaqla təhsil haqqını nağd şəkildə qəbul edən şəxslərə;

58.7-1.8. həmin Qanunun 3.4.9-cü maddəsini pozmaqla nağd şəkildə ödənişləri qəbul edən şəxslərə".

Növbəti sualımız sahibkarlıq subyektinin ay ərzində hansı məbləğlərdə nağd pul əməliyyatlarını apardığı təqdirdə maliyyə sanksiyasının tətbiq olunmasından kənarda qala bilməsi ilə bağlıdır.

Vergi Məcəlləsində yer alan 58.7-1.1-ci maddənin tələblərinə

uyğun olaraq, "Nağdsız hesablaşmalar haqqında" AR Qanununun 3.3, 3.4.4 və 3.4.7-ci maddələrində yer alan tələblərin pozulması ilə bağlı ödənişi aparan sahibkarlıq subyektinə maliyyə sanksiyasının tətbiq edilməsi ilə bağlı qərar verilir. Əvvəlcə qanunda yer alan 3.3-cü maddədə hansı tələblərin irəli sürüldüyü ilə tanış olaq:

"3.3. Bu Qanunun 3.5-ci maddəsinin müddəalarının nəzərə alınması ilə əlavə dəyər vergisi məqsədləri üçün qeydiyyata götürülmüş vergi ödəyiciləri, habrlə vergilərin tətbiq edildiyi əməliyyatların həcmi ardıcıl on iki aylıq dövrün istənilər ayı (ayları) ərzində 200.000AZN-dən çox olan ticarət yaxud ictimai iaşə istiqamətində fəaliyyt göstərən vergi ödəyicilərinin təqvim ayında ümumi məbləği 30.000AZN-dən, digər vergi ödəyiciərinin isə təqvim ayında ümumi məbləği 15.000AZN-dən çox olan hesablaşmalara görə ödəmələr ancaq nağdsız şəkildə yerinə yetirilməlidir".

Həmin maddənin tələbləri ilə bağlı əyani misal gətirməklə həmin tələbləri aydınlaşdıraq.

Fərz edək ki, əlavə dəyər vergisi ödəyicisi qismində vergi orqanlarında qeydiyyatda olan "F" MMC tərəfindən bir təqvim ayında 30.000AZN məbləğində aylıq limitdan çox 50.000AZN-lik xidmətlərin göstərilməsi məqsədilə "A" MMC-yə nağd pul şəklində ödəniş həyata kieçirib. Bu zaman sahibkarlıq subyektinə birinci hal olduğu üçün 5.000AZN-lik, yəni 50.000AZN x 10% = 5.000AZN, 2-ci dəfə, 3-cü və daha çox baş verdikdə eyni miqdarda pozuntu olduğu üçün, uyğun olaraq, 10.000AZN və 20.000AZNməbləğində maliyyə sanksiyasının tətbiq olunması ilə bağlı qərar qəbul edilir: 50.000AZN x 20% = 10.000AZN və 50.000AZN x 40% = 20.000AZN.

Onu da qeyd etmək lazımdır ki, 30.000AZN-lik limit əlavə dəyər vergisi qismində qeydiyyatda olan sahibkarlıq subyektləri ilə bərabər, vergi tutulan əməliyyatlarının həcmi ardıcıl on iki aylıq dövrün istənilən ayında yaxud aylarında 200.000AZN-llik məbləğdən çox olan ticarət və (yaxud) ictimai iaşə sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə də şamil olunur. 2019-cu il yanvarın 1-dən başlayaraq dövriyyəsi 200.000AZN-dən çox, ticarət sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektləri avtomatik surətdə əlavə dəyər vergisi ödəyiciləri qisminə aid edilir.

Vergilər tətbiq olunduğu əməliyyatların ümumi məbləği ardıcı on

iki aylıq dövrün istənilən ayında yaxun bir neçə ayda 200.000AZN-dən aşağı olan, həmçinin əlavə dəyər vergisi ödəyicisi kimi qeydiyyatda durmamış sahibkarlıq subyekti üçün nağd pul şəklində həyata keçirilən əməliyyatlara görə maksimum miqdar 15.000AZN hesab edilir.

2019-cu ilin mayında maliyyə sanksiyası tətbiq edildiyi "F" MMC 2020-ci ilin martında oxşar qanun pozuntusu baş verdiyi səbəbindən ona artıq ümumi məbləğdən 40% deyil, 10% miqdarında maliyyə sanksiyasının tətbiq edilməsi qərarı veriləcək. Məsələ burasındadır ki, Vergi məcəlləsində yer alan 58.7-1-ci maddədə sanksiyanın dövrü qismində təqvim ilinə bərabər bir dövr götürülür. Hamımıza yaxşı bəllidir ki,yanvarın 1-dən dekabrın 31-ə qədərki dövr təqvim ili hesab olunur.

Bu məsələ ilə bağlı dediklərimizə yekun vuraraq onu da qeyd etmək yerinə düşərdi ki, təqdim etdiyimiz misalda 50.000AZN-lik nağd alışı qəbul edən "F" MMC-yə bu və ya digər sanksiyanın tətbiqi nəzərdə tutulmur. Bunun səbəbi sahibkarlıq subyektlərinin mədaxillə bağlı deyil, mhz məxaric əməliyyatları ilə əlaqədar limitin tətbiq edilməsidir.

İndi isə sahibkarlıq subyektinə hansı hallarda istədiyi məbləğdə məxaric əməliyyatları yerinə yetirilməsinə görə maliyyə sanksiyalarının tətbiq edilmədiyi hallara nəzər salaq.

Bunun üçün ilk öncə "Nağdsız hesablaşmalar haqqında" AR Qanununun 3.5-ci maddəsinə görə vergi ödəyiciləri tərəfindən vergi ödəyicisi qismində çıxış etməyən fiziki şəxslərdən aşağıdakı məhsullar nağd qaydada satın alına bilər:

- Kənd təsərrüfatı məhsullarının istehsalı sferasında fəaliyyət göstərən sahibkarlıq subyektlərindən kənd təsərrüfatı təyinatlı məhsullarının qəbulu;
- əlvan və qara metal qırıntılarının qəbulu;
- utilizasiya edilməsi üçün işlənmiş şinlərin qəbulu.

İstənilən mükəlləfiyyətə malik sahibkarlıq subyekti vergi orqanlarında vergi ödəyiciləri qismində qeydiyyatdan keçməmiş şəxslərdən istədikləri qədər qeyd olunmuş məhsulları nağd pul qaydasında almaq imkanına malikdir və bu səbəbdən hər hansı maliyyə sanksiyalarına məruz qala bilməz. Artıq sözügedən qanunvericilik aktının 3.3-cü maddəsində göstərilmiş 30.000AZN-lik yaxud 15.000AZN-lik limit qeyd etdiyimiz hallara şamil edilməyəcək.

Yuxarıda deyilənləri əyani misalla daha da aydınlaşdıraq.

Fərz edək ki, "F" MMC vergi ödəyicisi kimi vergi orqanlarında qeydiyyatdan keçməmiş bir şəxsə bir ayda 40.000AZN-lik informasiya texnologiyaları sferasına aid xidmətlər göstərmiş və həmin xidmətlər müqabilində ödənişi nağd pulla yerinə yetirmişdir. Eyni zamanda, başqa bir vətəndaşa 50.000AZ-lik əlvan və qara metal qırıntılarının qəbulu məqsədilə nağd pulla ödəniş etmişdir. Belə olduqda bir ay üçün nəzərdə tutulmuş limit məbləğindən əlavə aparılmış 40.000AZN-lik ödənişə görə maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulsa belə, 50.000AZN-lik ödəəniş "Nağdsız hesablaşmalar haqqında" AR Qanununun 3.5-ci maddəsinə müvafiq olmadığına görə bu və ya digər maliyyə sanksiyasının tətbiq edilməsi həyata keçirilməyəcək.

Bəs hansı sahibkarlıq subyektləri tərəfindən əmək haqlarının ödənişləri nağd pul şəklində aparıla bilməz?

Bu sualı cavablandırmaq məqsədilə, hər şeydən əvvəl, "Nağdsız hesablaşmalar haqqında" AR Qanununun 3.4.4-cü maddəsinə nəzər salmağımız məqsədəuyğun olardı:

"3.4.4. əməliyyatların həcmi ardıcıl surətdə on iki ayya bərabər olan bir dövrün hər hansı ayında yaxud aylarında 200.000AZN-ə qədər olan pərakəndə ticarətlə, iaşə sferasında və xidmətlərin göstərilməsi ilə məşğul olan şəxslərdən başqa bütün qalan şəxslər tərəfindən ödənilən əmək haqları, işə götürən tərəfindən ödənilməli olan, qanunvericilikdə müəyyən olunmuş başqa ödənişlər də daxil olmaqla, pensiyalar, təqaüdlər, maddi yardımlar, müavinətlər, birdəfəlik ödənilən müavinətlər də daxil olmaqla, kompensasiyalar və təzminatlar."

Yuxarıda sadaladıqlarımızdan belə bir qənaətə gəlinir ki, sözügedən maddədə konkret əlavə dəyər vergisi ödəyiciləri anlayışına yol verilmədən apardığı əməliyyatların ümumi məbləği ardıcıl on iki aya bərabər dövrün hər hansı ayında yaxud aylarında 200.000AZN-ə qədər olan şəxslər istisna edilməklə, başqa şəxslər əmək haqqını, pensiyaları, təqaüdləri, maddi yardımları, müavinətləri, kompensasiyaları və təzminatları nağd pul formasında ödəməyi borcludur.

Belə bir hal da ola bilər ki, nə zaman bu və ya digər əlavə dəyə vergisinin ödəyicisi tərəfindən həyata keçirilmiş əməliyyatların ümumi miqdarı ardıcıl on iki aylıq dövrün istəənilən ayında yaxud aylarında

200.000AZN-dən az olsun. Bu zaman onlar tərəfindən işçi heyətinin əmək haqları nağd pul şəklində ödənilə bilər, çünki müvafiq qanunvericilikdə buna yol verməyən hər hansı tələb mövcud deyil. Həmin ƏDV ödəyicisi qismində çıxış edən sahibkarlıq subyektinin on üçüncü ayda son on iki aylıq dövriyyəsi 200.000AZN-lik həddini keçə bilər. bu zaman onlar tərəfindən əmək haqlarının nağd pulla deyil, məhz nağdsız formada aparılması yerinə yetirilməlidir.

Daha bir situasiyanın olması mümkündür ki, bu zaman on dördüncü ayda son on iki ayın dövriyyəsində azalmalar baş versin və 200.000AZN-lik məbləğdən kiçik olsun. Bu zaman əlavə dəyər vergisinin ödəyicisi olan həmin sahiblarlıq subyekti təkrarən əmək haqları nağd pul formasında ödəmək imkanı əldə edəcək. Dediklərimizdən aydın olur ki, belə sahibkarlıq subyektləri üçün vergi qanunvericiliyinin uyğun tələblərinə əsasən əmək haqlarının nağdsız formada ödənilməsi prosesini tənzimləmək xeyli çətin olacaqdır. Zənnimizcə, haqqında danışdığımız maddədə əmək haqqının ödənilməsinin nağdsız formada aparılması malik olduğu dövriyyədən asılı olmayaraq bütün əlavə dəyər vergisi ödəyiciləri olan sahibkarlıq subyektlərinə aid olunmalıdır.

İstənilən halda, sahibkarlıq subyektlərinə tövsiyyəmiz və məsləhətimiz odur ki, fəaliyyət sferasından, mülkiyyət tipindən, hansı vergi ödəyicisi qismində qeydiyyatda durmasından asılı olmayaraq uçot işinin şəffaflığını təmin etsinlər və əmək haqlarının (işə götürənin ödədiyi, qanunvericilikdə müəyyən oldunduğu digər ödənişlər də daxil olmaqla), pensiyaların, təqaüdlərin, maddi yardımların, müavinətlərin (birdəfəlik müavinətlər də daxil olmaqla), kompensasiyaların və təzminatların ödənişini nağdsız şəkildə həyata keçirsinlər.

Indi isə sözügedən məsələnin daha rahat mənimsənilməsi üçün praktiki bir misalı nəzərdən keçirək. Fərz edək ki, "F" MMC-nin dövriyyəsi on iki aylıq müddət ərzində 200.000AZN-dən artıqdır. Bu sahibkarlıq subyekti 2019-cu ilin mayında öz işçilərinə 20.000AZN məbləğində əmək haqqı ödəyib. Ödəniş nağd pulla həyata keçirilib. Vergi əməkdaşları tərəfindən aparılmış səyyar vergi yoxlama tədbirinin gedişatında bu hal üzə çıxarılmışdır. Bu səbəbə görə həmin sahibkarlıq subyektinə bu halın ilk dəfə baş verdiyi üçün əməliyyatın ümumi məbləğinin on faizi, yəni 2.000AZN-lik məbləğ – 20.000AZN x 10% =

2.000AZN, təqvim ilində iki və üç və daha çox təkrar baş verdikdə müvafiq olaraq 20 və 40%-i miqdarında maliyyə sanksiyası tətbiq ediləcəkdir.

Tamamilə aydındır ki, əməliyyatlarının ümumi miqdarı ardıcı on iki aylıq dövrünün hər hansı ayında yaxud aylarında 200.000AZN-ə qədər olan sahibkarlıq subyektləri əmək haqqı ödəmələrini nağd pul şəklində reallaşdıra bilərlər. Lakin burada bir mühüm şərtə riayət olunmalıdır ki, bu da təqvim ayı ərzində nağd pul şəklində daxil olmuş ümumi məxaric əməliyyatlarının məbləğinin 15.000AZN-dən artıq olmasıdır.

Bəs ezamiyyət məsrəflərinın ödənişi nağd pul şəklində yerinə yetirildiyi təqdirdə maliyyə sanksiyası tətbiq oluna bilərmi?

Bu suala cava verməkdən ötrü xatırladaq ki, "Nağdsız hesablaşmalar haqqında" AR Qanununa uyğun olaraq, həyata keçirilən əməliyyatların ümumi miqdarı ardıcıl on iki aylıq dövrün hər hansı ayında yaxud aylarında iki yüz min manata qədər olan pərakəndə ticarət, iaşə və xidmət sferalarında işləyən sahibkarlıq subyektləri istisna edilməklə, digər vergi ödəyiciləri tərəfindən kompensasiya xarakterli ödəmələrin aparılması, həmçinin, işçinin məsrəflərini kompensasiya edən ezamiyyə xərcləri də daxil olmaqla, nadsız formada həyata keçirilməlidir.

Sözügedən qanunda öz əksini tapan tələblərə müvafiq olaraq sahibkarlıq subyektləri tərəfindən ezamiyyət məsrəflərinin ödənilməsi nağd pul şəklində həyata keçirildiyi təqdirdə sözügedən əməliyyatla bağlı ümumi məbləğin təqvim ilində birinci dəfə 10%-i, ikinci və üçüncü və daha artıq baş verdikdə uyğun olaraq 20%-i və 40%-i miqdarında maliyyə sanksiyasının tətbi olunması nəzərdə tutulmuşdur.

İndi isə dövlət satınalma müqavilələrinə əsasən vəsaitlərin nağd pul formasında istifadə olunarsa, o zaman maliyyə sanksiyasının tətbiq edilməsi prosesinin necə baş verəcəyinə nəzər salaq.

Məlumdur ki, "Nağdsız hesablaşmalar haqqında" AR Qanununun 3.4.7-ci maddəsinə uyğun olaraq, dövlət satınalma müqaviləsi əsasında əldə olunan maliyyə vəsaitlərinin sərf olunması tam şəkildə nağdsız formada yerinə yetirilməlidir.

Yuxarıdakı qaydanı əyani misal gətirməklə aydınlaşdıraq. Fərz edək ki, "F" MMC dövlət satınalma müqaviləsi əsasında yüz min

manatlıq vəsait əldə etmişdir. Həmin maliyyə vəsaiti üzrə on min manat məbləğində nağdsız formada əməliyyat həyata keçirilmişdir. Səyyar vergi yoxlama tətbiqi zamanı bu cür qanun pozuntusu birinci dəfə üzə çıxarıldığı təqdirdə 1.000AZN, yəni 10.000AZN x 10% = 1.000AZN məbləğində maliyyə sanksiyasının tətbiq olunması nəzərdə tutulmuşdur.

Aydınlıq gətirəcəyimiz növbəti məsələ kredit təşkilatı tərəfindən kredit məbləğinin nağd pul formasında verildiyi təqdirdə maliyyə sanksiyasının tətbiq olunub-olunmayacağı ilə bağlıdır.

Məsələ burasındadır ki, Vergi Məcəlləsində yer alan 58.7-1.2 maddəsində deyilir ki, "Nağdsız hesablaşmalar haqqında" AR Qanununun 3.4.1-ci maddəsinin tələbləri pozulduğu və pul vəsaitinin nağd formasında qəbul edildiyi təqdirdə bunu reallaşdıran lizinq verən sahibkarlıq subyektinə, habelə kreditləri nağ pul formasında təqdim edən kredit verən təşkilata maliyyə sanksiyasının tətbiqi nəzərdə tutulmuşdur.

Dediklərimizi əyani misalla aydınlaşdıraq. Fərz edək ki, kredit təşkilatı qismində fəaliyyət göstərən "F" MMC tərəfindən borc alan tərəfə nağd pul formasında 8.000Azn məbləğində kredit ayırıb. Səyyar vergi yoxlama tətbiqi gedişatında bu qanun pozuntusu üzə çıxdığı təqdirdə, ilk dəfə baş verdiyi üçün həmin sahibkarlıq subyektinə kredit məbləğinin 10%-i miqdarında maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulmuşdur: 8.000AZN x 10% = 800AZN. Təqvim ili ərzində sözügedən pozuntu 2 və 3 və daha artıq baş verdikdə kredit məbləğinin müvafiq olaraq 20%-i və 40%-i məbləğində maliyyə sanksiyasının tətbiq olunması ilə bağlı qərar veriləcəkdir.

Həmçinin qeyd etmək yerinə düşərdi ki, 8.000AZN-lik kredit nağd pul formasında əldə edən borc alan tərəfə bu və ya digər maliyyə sanksiyasının tətbiqi nəzərdə tutulmur.

Bəs sığorta ödənişlərinin nağd pul formasında verilməsi mümkündürmü?

İlk öncə Vergi Məcəlləsində yer alan 58.7-1.3-cü maddəyə nəzər salaq. Buradan aydın olur ki, "Nağdsız hesablaşmalar haqqında" AR Qanununun 3.4.2-ci maddəsində əks olunan tələblər pozulmaqla nağd pul formasında sığorta ödənişi həyata keçirən, habelə sığorta haqlarının qəbulunu nağd pul şəklində yerinə yetirən sığortaçı yaxud təkrarsığortaçı qimsində çıxış edən vergi ödəyicisinə müvafiq qaydada

maliyyə sanksiyasının tətbiq edilməlidir.

Buna aid bir misala nəzər salaq. Fərz edək ki, "F" adlı sığorta şirkəti yol-nəqliyyat hadisəsi nəticəsində qəzaya uğramış nəqliyyat vasitəsinin sürücüsünə 4.00AZN-lik sığorta ödənişini nağd pulla reallaşdırıb. Vergi qanunvericiliyinin tələblərinin bu formada pozulmasına görə sığorta şirkətinə 4.000AZN-lik məbləğin 10%-i miqdarında, yəni 400AZN-lik maliyyə sanksiyası tətbiq ediləcəkdir: 4.000AZN x 10% = 400AZN.

Həmçinin qeyd olunmalıdır ki, qüvvədə olan qanunvericiliyin tələblərinə əsasən sığorta ödənişlərinin qəbul edilməsi ilə əlaqədar da maliyyə sanksiyası tətbiq olunur.

Yuxarıda dediklərimizlə bağlı bir misala nəzər salaq. Fərz edək ki, "F" MMC tərəfindən işçilərin tibbi sığortalanması üçün "N" sığorta şirkətinə müraciət olunmuşdur və sözügedən şirkətə nağd pul şəklində 300AZN məbləğində ödəniş olunub. Vergi əməkaşları tərəfindən səyyar vergi yoxlama tədbiri həyata keçirilərkən sözügedən pozuntu aşkar edildiyi təqdirdə, həmin sahibkarlıq subyektinə ümumi məbləğin on faizi qədər, yəni 30AZN miqdarında maliyyə sanksiyasının tətbiq olunması ilə bağlı qərar veriləcək.

Həmçinin qeyd etmək lazımdır ki, təqvim ili ərzində vergi qanunvericiliyinin haqqında danışdığımız pozuntusu 2 və 3 və daha artıq dəfə baş verərsə, o zaman buna yol vermiş həmin sahibkarlıq subyektinə ümumi məbləğin müvafiq olaraq 20%-lik və 40%-lik cərimə sanksiyasının tətbiq edilməsi ilə bağlı qərar veriləcək.

Bəs məcburi əlavə dəyər vergisi qeydiyyatı olmadığı təqdirdə fəaliyyat göstərən sahibkarlıq subyektini hansı cəza gözləyir?

İlk əvvəl vergi ödəyicisi tərəfindən əlavə dəyər vergisi məqsədləri üçün qeytiyyata durmasının nə zaman könüllü, nə zaman isə məcburi olması ilə əlaqədar izahat tərəfimizdən artıq verilmişdir. Vergi qanunvericiliyində məcburi qaydada qeydiyyatdan keçməli olduğu təqdirdə qeydiyyat olmadan öz işini davam etdirən vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edilməlidir.

Məsələn, Vergi Məcəlləsində yer alan 58.4-cü maddəyə uyğun olaraq, sözügedən Məcəllənin 155-ci maddəsinə görə sahibkarlıq subyekti tərəfindən əlavə dəyər vergisi üzrə qeydiyyat məcburi xarakter aldığı təqdirdə, qeydiyyatdan keçməyərə öz fəaliyyətini davam etdirdiyi bütün dövr ərzində dövlət büdcəsinə ödənilməsi tələb olunan əlavə

dəyər məbləğinin əlli faizi qədər maliyyə sanksiyasının tətbiq olunması nəzərdə tutulur.

Bu və ya digər şəxsin əlavə dəyər vergisi ödəyicisi qismində qeydiyyatdan keçmək zərurəti meydana gəlibsə, lakin həmin sahibkarlıq subyekti əlavə dəyər vergisi ödəyicisi kimi qeydiyyatdan keçmədən təsərrüfat əməliyyatları həyata keçirməkdə davam edərsə, o zaman ona əlavə dəyər vergisi ödəyicisi kimi qeydiyyatdan keçməli olduğu dövrdən sonra aparılmış əməliyyatlarla bağlı maliyyə sanksiyası tətbiq edilir.

Bu fikri əyani misalla daha da aydınlaşdılraq. Fərz edək ki, "F" MMC-də 2020-ci il mart ayı ərzində dövriyyənin ümumi məbləği iki yüz min manatlıq həddini aşmışdır, artıq 1 aprel 2020-ci tarixdən etibarən əlavə dəyər vergisi ödəyicisi qismində qeydiyyatdan keçməlidir. Lakin "F" şirkəti buna bilərəkdən yol verməyib, bu sahibkarlıq subyektinin 2020-ci il mart ayından dövriyyəsi on min manat, may ayında iyirmi min manat, iyun ayında isə on beş min manat olmuşdur.Bu şirkət 2020-ci ilin iyul ayının 1-də ərizə ilə müraciət etmişdi ki, həmin tarixdən əlavə dəyər vergisi ödəyicisi qimsində qeydiyyata alınsın.

Belə olan zaman vergi orqanlarının əməkdaşları "F" MMC-yə qeydiyyat bildirişi təqdim edir və uçota alınma tarixini 1 iyul 2020-i il olmaqla rəsmiləşdirirlər. Bununla yanaşı, "F" MMC göstərilən dövriyyələri sadələşdirilmiş vergi bəyannaməsində də əks etdirərək sadələşdirilmiş vergi ilə bağkl öhdəliklərini yerinə yetirib.

Vergi orqanlarının əməkdaşları səyyar vergi yoxlama tədbiri həyata keçirərkən aprel, may və iyun ayları ərzində olan ümumilikdə 45.000AZN-lik dövriyyə daxil olan 18 faizlik əlavə dəyər vergisini – 6.864AZN məbləğini, yəni (45.000AZN / 1,18) x 18 faiz, bərpa edəcək və ona əlli faiz maliyyə sanksiyasi, yəni 3.432AZN tətbi ediləcək.

Növbəti sualımız əlavə dəyər vergisi məbləğinin gecikmə ilə ödənildiyi təqdirdə tətbiq ediləcək maliyyə sanksiyalarının necə hesablanmalı olduğu ilə bağlıdır.

Qeyd edək ki, Vergi Məcəlləsində yer alan maddələr sırasında əlavə dəyər vergisinin tutulması ilə əlaqədar daha çox tətbiq edilən maddə 58.6-dır. Bu maddəyə uyğun olaraq, Vergi Məcəlləsinin 175.1.3-cü maddəsinə əsasən sözügedən Məcəllənin 175.8-ci maddəsində əks olunan sahibkarlıq subyekti tərəfindən məhsulların, işlərin və idmətlərin

dəyəri ödənilən gündən gec əlavə dəyər vergisi məbləğinin ödənilməsi səbəbindən həmin sahibkarlıq subyektinə vatında ödənilməmi əlavə dəyər vergisi məbləğinin əlli faizi qədər maliyyə sanksiyası tətbiq olunur.

Həmin Məcəllənin 175.1.3-cü maddəsinə uyğun olaraq, sahibkarlıq subyektinə təqdim edilmiş elektron qaimə-fakturaya görə 2 yaxud daha artıq ödəmə həyata keçirilibsə, hər ödəmə ödəniş məbləğində ayrıca əməliyyat üçün aparılmış hesab olunur. Sahibkarlıq subyektinə təqdim olunmuş elektron qaimə-faktura ilə bağlı əldə olunmuş məhsulların, yerinə yetirilmiş uşlərin və görülən xidmətlərin haqqı ödənildiyi gündən gec olmamaq şərtilə əlavə dəyər vergisinin Vergi Məcəlləsi ilə, habelə səlahiyyyətli icra hakimiyyəti orqanı tərəfindən təyin olunmuş qaydada ödənilməsi həyata keçirilməlidir. Belə olan halda məhsulların, iş və xidmətlərin dəyərinə görə 2 yaxud daha çox ödəniş yerinə yetirilibsə, o zaman əlavə dəyər vergisinin miqdarı həyata keçirilmiş ödəmə məbləğlərinə müvafiq şəkildə əlavə dəyər vergisinin depozit hesabına köçürülməlidir.

Bu fikrin əyani misalla daha müfəssəl formada izahını verək. Fərz edək ki, əƏlavə dəyər vergisi ödəyicisi qismində çıxış edən "F" MMC 11.800AZN məbləğində məhsulu əlavə dəyər vergisinin ödəyicisi qismində qeydiyyatda olan "A" şirkətinə realizə edib. Belə olan təqdirdə "A" şirkəti ƏDV daxil olmadan 10.000AZN-lik məbləği bankdakı hesabından "F" MMC-nin bankdakı hesabına, 1.800AZN məbləğində əlavə dəyər vergisini də bankdakı hesabından, yaxud ƏDV depozit hesabından "F" MMC-nin depozit hesabına köçürməlidir. Vergi Məcəlləsində yer alan 175.1.3-cü maddədə öz əksini tapmış əsas tələb ondan ibarətdir ki, əlavə dəyər vergisi əsas məbləğlə bir gündə ödənilməlidir. Buna riayət olunmadığı təqdirdə Vergi Məcəlləsinin 58.6-cü maddəsinin tələbləri güvvəyə minir. Yəni, əlavə dəyər vergisinin əlli faizi miqdarında maliyyə sanksiyasının tətbiq olunmasına qərar verilir.

Haqqında danışdığımız misalın davamında fərz edək ki, "F" MMC tərəfindən 11.800AZN-lik məhsul əlavə dəyər vergisinin ödəyicisi qismində qeydiyyata alınmış "A" şirkətinə 10 may 2020-ci ildə satılıb. "A" şirkəti 10.000AZN əsas məbləği 15 may 2020-ci il tarixində bank vasitəsilə "F" MMC-nin bankdakı hesabına köçürüb. 1800AZN əlavə dəyər vergisini isə 2020-ci ilin 16 mayında özünə məxsus depozit

hesabından "F" MMC-yə məxsus depozit hesabına köçürüb. Belə olan təqdirdə səyyar vergi yoxlama tədbiri gedişatında "A" şirkətinə 900AZN məbləğində maliyyə sanksiyasının tətbiq olunması ilə bağlı qərar veriləcək: 1.800AZN x 50 faiz = 900AZN. Lakin əlavə dəyər vergisinin ödənişi 2020-ci ilin 15 mayında aparılsaydı, o zaman maliyyə sanksiyasının tətbiqinə qərar verilməcəkdi.

Həmçinin qeyd etmək lazımdır ki, vergi əməkdaşları tərəfindən əlavə dəyər vergisinin əsas məbləğdən əvvəl köçürüldüyü təqdirdə bu və ya digər maliyyə sanksiyasının tətbiq olunması nəzərdə tutulmur.

Bəs qaimə-fakturaların tətbiq edilməməsi ilə bağlı maliyyə sanksiyası hansı tərəfə tətbiq edilməlidir?

İlk əvvəl yada salaq ki, Vergi Məcəlləsində yer alan 58.13-cü maddəyə uyğun olaraq, vergi qanunvericiliyində nəzərdə tutulduğu elektron qaimə-faktora təqdim olunmalı olduğu halda məhsulların elektron qaimə-fakturası təqdim edilmədən verilməsinə görə məsuliyyət həmin məhsulları təqdim etmiş şəxsin üzərindədir və təqvim ilində bu qanun pozuntusu ilk dəfə baş verdikdə təqdim olunmuş məhsulların realizə qiymətinin on faizi, 2-ci dəfə baş verdikdə iyirmi faizi, 3-cü və daha artıq dəfə baş verdikdə isə qırx faizi məbləğində maliyyə sanksiyası tətbiq olunur.

Bir əyani misalla dediklərimizə şərh verək. Fərz edək ki, "F" müəssisəsi "E" müəssisəsinə 2.000AZN-lik məhsul təqdim edib, ancaq elektron qaimə-fakturanın göndərilməsini təmin etməyib. Vergi nəzarəti gedişatında bu pozuntu aşkar oldunduğu təqdirdə təqvim ilində bu ilk dəfə baş verdiyi zaman 200AZN, yəni 2.000AZN x 10% = 200AZN, 2-ci dəfə baş verdikdə 400 AZN, yəni 2.000AZN x x 10% = 200AZN, 3-cü və daha artıq dəfə baş verdikdə 800 AZN, yəni 2.000AZN x 40% = 800AZN miqdarında maliyyə sanksiyasının tətbiqqi ilə bağlı qərar qəbul olunur.

Vergə Məcəlləsində yer alan 16.1.11-6-cı maddəyə uyğun olaraq, aşağıda göstərilmiş şəslər tərəfindən vergi ödəyicisi qismində qeydiyyata alınan şəxslərə məhsul, işlər və xidmətlərlə əlaqədar Vergi Məcəlləsində nəzərdə tutulan qaydada elektron qaimə-fakturanı təqdim etmək hüququndan məhrumdurlar:

- bank əməliyyatlarını aparan şəxslər tərəfindən müştərilərin hesabları üzrə xidmətlərin yerinə yetirilməsi;

- Dövlət hakimiyyəti, yeri özünüidarəetmə orqanları, habelə büdcədən maliyyələşən təşkilatlar tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsi;
- Notariuslara aid xidmətlərin yerinə yetirilməsi, bura həmçinin notariat hərəkətlərinin yerinə yetirilməsinə və notariat hərəkətləri ilə bağlı xidmətlər də aiddir.

Bəs vergilərin aşağı salınmasına görə maliyyə sanksiyaların hesablanması necə aparılır?

Bu suala cavab vermək məqsədilə Vergi Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Cinayət Məcəlləsinə diqqət yetirərək orada nəzərdə tutulan cərimələri dəyərləndirək. İlk öncə Vergi Məcəlləsinə nəzər salaq.

Vergi Məcəlləsində yer alan 58.1-ci maddəyə uyğun olaraq, verginin, ödəmə mənbəyində verginin də daxil olmaqla, hesabatda əks etdirilən məbləği verginin hesabatda göstərilməli olan miqdarı ilə müqayisədə aşağı salınmışdırsa, eləcə də dövlət büdcəsinə köçürülməli olan vergi məbləğləri hesabat təqdim olunmamaqla yayındırıldığı təqdirdə həmin sahibkarlıq subyektinə, Vergi Məcəlləsinin 58.1-1-ci maddəsində nəzərdə tutulan haldan başqa, aşağı salınmış yaxud yayındırılmış vergi miqdarının, kameral vergi yoxlama tədbiri gedişatında hesablanan əlavə vergi miqdarından başqa, əlli faizi məbləğində maliyyə sanksiyasının tətbiqi ilə əlaqədar qərar verilir.

Bu dediklərimizin izahını əyani bir misalla verək. Fərz edək ki, səyyar vergi yoxlama tədbiri gedişatında "F" MMC tərəfindən 1.000AZN-lik məbləğdə əmlak vergisi hesabatda bəyan edilməyərək dövlət büdcəsinə ödənilməsindən yayındırılmışdır. Belə olan təqdirdə həmin sahibkarlıq subyektinə 500AZN-lik maliyyə sanksiyası tətbiq edilir: 1.000AZN x 50% = 500AZN.

İnzibati Xətalar Məcəlləsində yer alan 460-cı maddəyə uyğun olaraq, kiçik məbləğlərdə vergiləri, yəni 20.000AZN-dən çox olmamaq şərtilə, işsizlikdən sığorta yaxud məcburi dövlət sosial sığorta haqlarının ödənilməsindən yayındığı üçün – inzibati xətanın birbaşa obyektinə çevrilmiş veriglərin, habelə ödənişlərin məbləğinin 30%-dən 70%-ə qədər məbləğdə cərimənin tətbiqi ilə bağlı qərarın verilməsi nəzərdə tutulur.

Haqqında danışdığımız qanun pozuntusuna yol vermiş şəxs inzibati

xəta nəticəsində dəymiş ziyanın tam həcmdə ödənilməsini həyyata keçirdiyi təqdirdə onun inzibati məsuliyyətdən azad edilməsi mümkündür.

Cinayət Məcəlləsində yer alan 213-cu maddəyə uyğun olaraq, böyük məbləğdə vergiləri, yəni 20.000AZN-dən çox, ancaq 100.000AZN miqdarını aşmayan məbləğdə, işsizlikdən sığorta yaxud məcburi dövlət sosial sığorta haqlarının ödənilməsindən yayınmaya görə - cinayət nəticəsində dəymiş zərərin 2 mislindən 4 mislinə qədər cəramə yaxud 2 ilə qədər islah işləri yaxud 3 ilə qədər müəyyən vəzifə tutma yaxud müəyyən iş fəaliyyəti ilə məşğul olma imkanından məhrum edilməklə yaxud edilməməklə 3 ilə qədər azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılır.

Sözügedən Məcəllədə yer alan 231.2-ci maddəyə uyğun olaraq, mütəşəkkil dəstə tərəfindən külli miqdarda törədildikdə, yəni 100.000AZN-dən çox, ancaq 500.000AZN-i aşmayan miqdarda, - cinayətin baş verməsi ilə dəymiş ziyanın 3 mislindən 5 mislinə qədər cərimə yaxud 3 ilə qədər müəyyən vəzifə tutma yaxud müəyyən iş fəaliyyəti ilə məşğul olma imkanından məhrum edilməklə yaxud edilməməklə 3 ildən 5 ilə qədər azadlıqdan məhrum edilmə kimi cəzalarla cəzalandırılır.

Əgər Mütəşəkkil dəstə tərəfindən xüsislə külli miqdarda, yəni 500.000AZN-dən artıq olan miqdarda, törədilirsə, onda 3 ilə qədər müəyyən vəzifə tutma yaxud müəyyən fəaliyyətlə məşğul olma imkanından məhrum edilməklə törədilmiş cinayət nəticəsində dəymiş zərərin, yaxud əldə olunmuş gəlirin, 4 mislindən 5 mislinə qədər cərimə sanksiyası yaxud 5 ildən 7 ilə qədər azadlıqdan məhrumedilmə cəzasi ilə cəzaladırılır.

Burada qeyd etmək lazımdır ki, əvvəlki dövrlərdə şəxs tərəfindən birinci dəfə yaxud külli miqdarda vergilərdən yayınmaya yol verilərsə, onda baş vermiş cinayət səbəbindən dəymiş zərəri tam həcmdə ödədiyi təqdirdə cinayət məsuliyyətdən aza olunurdusa, indi buna yol verilmir.

İndi isə eletron formatda təqdim edilən məlumatlarda verginin aşağı salınması üzə çıxarılarsa maliyyə sanksiyasının necə hesablanacağı ilə yaxından tanış olaq.

Yada salaq ki, 2019-cu ilin yanvar ayının 1-dən eribatən əlavə olunmuş dəyişikliklərə uyğun olaraq, Vergi Məcəlləsində yer alan 58.1.1-ci maddəyə görə verginin, ödəmə mənbəyində verginin də

həmçinin, hesabatlarda qeyd edilən məbləğin verginin hesabatlarda göstərilməsi olan miqdarla müqayisədə müəyyən dərəcədə azaldılması baş verərsə, eləcə də dövlət büdcəsinə köçürülməli olan vergi miqdarının hesabatı təqdim olunmamaqla yayındırılması sahibkarlıq subyektinin veri orqanlarına elektron formatda təqdim etdikləri informasiyalar əsas tutularaq açkar olunduğu təqdirdəbu sahibkarlıq subyektlərinə azaldılmış yaxud yayındırılmış vergi miqdarının iyirmi beş faizi həcmində maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulur (kameral vergi yoxlana tədbirinin yekunlarına görə hesablanmış əlavə vergi məbləğlərindən başqa).

İndi isə bütün bu dediklərimizi uyğun misalla daha da aydınlaşdıraq. Fərz edək ki, sahibkarlıq subyekti hazırladığı hesabatlarda 300AZN əvəzinə 200AZN miqdarında vergi öhdəliyinin yaradıldığını əks etdirmişdir. Bu halda informasiyanı adi qaydada təqdim etmiş sahibkarlıq subyektinə 50AZN məbləğində maliyyə sankdiyası: (300AZN – 200AZN) x 50% = 200AZN, informasiyaları elektron formatda göndərən sahibkarlıq subyektlərinə isə iki dəfə daha az – 25AZN məbləğində maliyyə sanksiyasının tətbiq edilməsi ilə bağlı qərar veriləcək: (300AZN – 200AZN) x 25% = 25AZN.

Burada belə bir sual yarana bilər: hansı sahibkarlıq subyektləri hesabat məlumatları vergi orqanlarına elektron formatda göndərməlidir? Məsələ burasındadır ki, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, mühasibatlıq uçotunun məcburi şəkildə elektron formatda həyata keçirməli olan şəxslərin sırasına aid edilən sahibkarlıq subyektlərinin məlumatları da vergi orqanına elektron formatda təqdim olunmalıdır. Təəssüfedici məqam bundan ibarətdir ki, hazırki zamana qədər sözügedən siyahının təsdiqlənməsi yubanır.

Növbəti sualımız hesabat və digər informasiyaların göndərilməsi ilə əlaqədar tətbiq edilməli maliyyə sanskiyaların necə hesablanacağı ilə bağlıdır.

Burada vergi, sosial və işsizlik hesabatlılığı ilə əlaqədar nəzərdə tutulan maliyyə sanksiyaların tətbiqi ilə bağlı bilgiləri daha ətraflı şəkildə çatdırmaq məqsədəuyğun olardı. Belə ki, Vergi Məcəlləsində yer alan 57.1-ci maddəyə uyğun olaraq, mülkiyyətində olan və kənd təsərrüfatı istehsalında istifadəsi mümkün olan torpaq sahələrindən

istifadə edən həm fiziki şəxslərə, həm də ailə fermer təsərrüfatlarının əmək qabiliyyətində olan ailə üzvlərinə istisna olmaqla vergi hesabatını yaxud Vergi Məcəlləsinin 16.2-ci maddəsində qeyd edilən arayışı əsassız surətdə müəyyən olunan müddətdə təqdim etməmiş sahibkarlıq subyektlərinə vergi orqanının rəhbər şəxsi yaxud onun müavininin verdiyi qərarı ilə 40AZN-lik maliyyə sanksiyası tətbiq olunur.

Vergi Məcəlləsində əks olunmuş tələblərə uyğun olaraq, sahibkarlıq subyektləri daşıdıqları vergi mükəlləfiyyətinə müvafiq şəkildə aşağıda göstərilmiş hesabatları təqdim etməlidir:

- *əlavə dəyər vergisi ilə bağlı hesabat cari ay üçün ayın iyirmisinə qədər təqdim olunmalıdır;*
- *sadələşdirlmiş vergi hesabatının da cari rüb üçün rübdən sonra gələn ayın iyirmisinə qədər təqdim edilməsi tələb olunur;*
- *mənfəət yaxud gəlir vergisi ilə bağlı bəyannaməni növbəti ilin mart ayının 31-ə qədər təqdim edilməlidir;*
- *Əmlak vergisi ilə bağlı bəyannamə növbəti ilin mart ayının 31-ə qədər təqdim edilməlidir;*
- *Torpaq vergisi ilə bağlı bəyannamə növbəti ilin may ayının 15-ə qədər təqdim edilməlidir;*
- *Yol vergisi ilə bağlı bəyannamə növbəti ilin mart ayının 31-ə qədər təqdim edilməlidir;*
- *Torpaq vergisi ilə bağlı bəyannamə növbəti ilin may ayının 15-ə qədər təqdim edilməlidir;*
- *Muzdlu işlə bağlı ödəmə mənbəyində bəyannamə vahid vergi bəyannaməsi şəklində rüblük rüb bitəndən sonra gələn ayın 20-ci gününə qədər göndərilməlidir;*
- *Ödəmə mənbəyində bəyannamə rüblük rüb bitəndən sonra gələn ayın 20-ci gününə qədər göndərilməlidir;*
- *Bununla bərabər, Vergi Məcəlləsinin 16.2-ci maddəsinə uyğun olaraq, fəaliyyət dayandırılmış, vergilərin tətbiq edilməli olan əməliyyatlar aparılmayan sahibkarlıq subyektlərinin sözügedən vergilərlə bağlı boş arayışın göndərilməsi öz əksini tapmışdır. Bu arayışlar qeyd olunmuş hesabatların təqdim edilmə müddətlərində vergi orqanına təqdim edilməlidir.*

Həmçinin qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində yer alan 68.2-ci maddəyə əsasən müvafiq vergi bəyannaməsi, habelə arayışın

təqdim edilməsi ilə əlaqədar son tarix qeyri-iş günü ilə üst-üstə düşdüyü halda bu müddətin ondan sonra ardıcıllıqla gələn ən yaxın iş gününə keçməsi nəzərdə tutulmuşdur.

Bütün bu dediklərimizi bir misalla daha da aydın şəkildə izah etməyə çalışaq. Fərz edək ki, 2018-ci il üçün mənfəət vergisi ilə bağlı bəyannamə 2019-cu ilin mart ayının 31-ə qədər təqdim edilməlidir, lakin 31 mart tarixi iş günü olmayan bazar günü ilə üst-üstə düşdüyündən, hesabatın verilməli olan son tarix 2019-cu ilin apreal ayının 1-i olacaq.

Daha bir məsələnə də qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində yer alan 53.6-cs maddəyə uyğun olaraq, sahibkarlıq subyekti tərəfindən vergi qanunvericiliyinin bir deyil, bir neçə müddəaları üzrə puozulması maliyyə sabksiyalarının hər pozuntu ilə bağlı ayrı-ayrılıqda tətbiq edilməsinə gətirib çıxarır.

Dediklərimizə növbəti misal vasitəsilə şərh verək. Fərz edək ki, "F" MMC tərəfindən 2020-ci ilin yanvarına, fevralına və marta aid əlavə dəyər vergisi bəyannamələri təqdim olunmayıb. Belə olan halda vergi əməkdaşları sözügedən sahibkarlıq subyektinə üç aya görə təqdim olunmamış əlavə dəyər vergisi bəyannamələri üzrə 120AZN məbləğində maliyyə sanksiyasını tətbiqi ilə bağlı qərar verəcəklər: 40AZN x 3 = 120AZN.

2019-cu ilin yanvar ayının 1-dən etibarən özünün hüquqi qüvvəsinə minən dəyişikliklərdən əvvəl "Sosial sığorta haqqında" qanuna uyğun olaraq, sığortaedən tərəfin məcburi dövlət sosial sığortası ilə bağlı hesabatları və maliyyə sənədlərinin vaxtlı-vaxtında göndərilmədiyi üçün hesabat dövrü üzrə yaranmış sosial sığorta borclarının on faizi miqdarında, hesabat dövrü üzrə hesablanması vacib olan sosial sığorta haqlarının məbləğini təyin etmək mümkün olmadığı təqdirdə 44AZN məbləğində cətimə sanksiyası tətbiq olunurdu. Artıq hesabat yaxud arayışların verilməməsi ilə bağlı cərimə məbləğlərinin miqdarı Vergi Məcəlləsinin müddəalarına əsasən tənizmlənir.

Bəs uçota alımamasına, habelə dəyişikliklər barədə məlumat verilməməsinə görə maliyyə sanksiyasının məbləği hansı qaydalara əsasən hesablanır?

Vergi Məcəlləsində yer alan 58.2-ci maddəyə uyğun olaraq, bu Məcəllənin 33.4-cü maddəsində qeyd olunmuş müddət ərzində vergi

orqanlarında uçota alınmaq məqsədilə yaxud 34.3-cü maddəsində nəzərdə tutulmuş müddət ərzndə, yəni 30 gün ərzində, olduğu yer haqqında ərizənin təqdim edilməməsinə, eləcə də başqa uçot informasiyalarında, yəni söhbət sahibkarlıq subyektinin vergi uçotuna alınmama barədə ərizədə göstərilən rekvizitlərdən gedir, baş vermiş dəyişikliklərlə bağlı informasiyanın qırx gün ərzində təqdim olunmaması ilə bağlı qırx manat miqdarında maliyə sanksiyası tətbiq olunur.

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, kommersiya hüquqi şəxslər qismində çıxış edən sahibkarlıq subyektləri "Vahid pəncərə" xidmətindən yararlanaraq umota alınır. Bu və ya digər fiziki şəxs hüquqi şəxs yaradaraq kommersiya fəaliyyəti ilə məşğul olmaq niyyətində olsa, o zaman qeydiyyatdam keçəndən sonra həmin fəaliyyətini həyata keçirmək imkanı əldə edə bilər. Kommersiya yönümlü hüquqi şəxslər və fiziki çıxs qismində fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün müddətin nəzərdə tutulmaması vergi qanunvericiliyində öz əksini tapır.

Vergi Məcəlləsinin 33.4-cü maddəsində göstərilən hüquqi şəxslər başqa dövlət orqanlarında, misal üçün, Ədliyyə Nazirliyində, qeydiyyatdan keçən kommersiya yönümlü olmayan hüquqi şəxslərdir, onların sırasında, misal üçün, ictimai birliklər, fondlar, dini təşkilatlar, bələdiyyələr və s. göstərilə bilər. Sözügedən şəxslər səlahiyyətli icra hakimiyyəti orqanlarında qeydiyyatdan keçdikdən sonra otuz gün ərzində vergi ödəyicisi qismində uçotda dayanmalıdır. Əgər həmin otuz gün ərzində onların umota dayanması baş tutmasa, o zaman vergi əməkdaşları həmin şəxslərlə bağlı 40AZN miqdarında maliyyə sanksiyanı tətbiq etmək səlahiyyətinə malikdir.

Bununla yanaşı, istənilən sahibkarlıq subyekti vergi umotuna alınan zaman yazılı ərizə ilə müraciət edir. Həmin ərizədə kifayət qədər geniş məlumatlar öz əksini tapmalıdır. Misal üçün, hüquqi şəxs adını, fəaliyyət növünü, nizamnamə kapitalını, hüquqi ünvanını, öz rəhbərinin adını, soyadını və atasının adını, təsisçilərini və bu kimi digər vacib informasiyaları qeyd etməlidir. Həmin informasiyalarda bu və ya digər dəyişiklik baş vediyi təqdirdə bu sahibkarlıq subyekti qırx gün ərzində təsdiqedici sənələr də əlavə olunma qşərtilə təkrarən qeydiyyat idarəsinə yazılı ərizə ilə müraciət etməlidir. Qırx gün ərzində yazılı ərizənin təqdim olunmadığı halda qanunvericiliyə uyğun olaraq 40AZN-lik

maliyyə sanksiyasının tətbiq olunması nəzərdə tutulur. Bu tələbin həm də fiziki şəxslər qismində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə də şamil olunur.

İndi isə qanunsuz şəkildə sahibkarlıq fəaliyyətini həyata keçirən şəxslərə qarşı hansı növ cəzaların tətbiq edilməsi ilə bağlı geniş izahat verək.

Tücrəbədə belə hallar olur ki, sahibkarlıq subyekti vergi orqanlarında qeydiyyatdan keçmədən öz fəaliyyətini həyata keçirir yaxud nəzərdə tutduğu işləri reallaşdırmaq üçün lisenziyanın alınması tələb edildiyi təqdridə buna etinasız yanaşır və öz fəaliyyətini həyata keçirməklə məşğul olur. Qeyd etdiyimiz hər iki məsələ qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq anlamına gəlir.

İnzibati Xətalar Məcəlləsində yer alan 398-ci maddəyə uyğun olaraq, dövlət qeydiyyatından, yəni vergi ödəyicisi qismində qeydiyyatdan keçməmiş yaxud sahibkarlıq fəaliyyətini reallaşdırmaq üçün lisenziya tələb edildiyi hallarda buna etinasız yanaşaraq lisenzuya almayaraq öz fəaliyyətini həyata keçirməyə, və ya lisenziyada əksini tapan şərtləri pozmaqla yaxud xüsusi icazə alınmadan mülki dövriyyəsinə məhdudiyyətlər qoyulmuş əşyalarda istifadə etməklə sahibkarlıq subyekti qismində fəaliyyətini davam etdirən şəxslərsözügedən qanun pozuntusu nəticəsində dəymiş zərərin yaxud əldə olunmuş gəlirin 2 mislindən 4 mislinə qədər məbləğdə cərimə olunur.

Sözügedən Məcəllədə göstərilir ki, qeyd olunmuş qanun pozuntusuna birinci dəfə yol vermiş sahibkarlıq subyektləri həmin inzibati xətanı törətdiklərinə görə dəymiş zərərin tam şəkildə ödədikləri təqdirdə yaxud inzibati xətaya yol verdikləri üçün sahib olduqları gəlirləri tam şəkildə bödcəyə ödədikləri halda inzibati məsuliyyətdən azad edilir.

Həmin sahibkarlıq subyekti qanunsuz şəkildə öz işini həyata keçirməklə böyük miqdarda, yəni 20.000AZN-dən artıq miqdarda zərər yetirdikdə yaxud sözügedən miqdarda gəlir əldə etdiyi təqdirdə Azərbaycan Respublikasının CM-nin müvafiq maddələrinə uyğun olaraq cinayət məsuliyyətinə cəlb olunur.

Həmin Məcəllədə yer alan192-ci maddəyə uyğun olaraq, belə olan təqdirdə həmin sahibkarlıq subyekti cinayət əməlinə yol verdiyi üçün

vurulmuş zərərin, yaxud əldə olunmuş gəlirlərin 2 mislindən 4 mislinə qədər cərimə yaxud 6 aya qədər azadlığın məhdudlaşdırılması yaxud 6 ayadər azadlığdan məhrum edilmə cəzası üzrə məsuliyyətə cəlb olunur.

Bu kimi əməllərin törədilməsi nəticəsində külli miqdarda zərər dəydiyi təqdirdə yaxud külli miqdarda gəlirlər əldə edildiya halda və ya mütəşəkkil qrup tərəfindən törədildiyi zaman qanun pozuntusuna görə zərərin yaxud əldə olunmuş gəlirlərin 3 mislindən 5 mislinə qədər məbləğdə cərimə, yaxud 3 ilə qədər azadlığın məhdudlaşdırılması, yaxud 1 ildən 5 ilə qədər azadlıqdan məhrum edilmə cəzası tətbiq olunur.

Xüsusilə külli miqdarda zərər dəydiyi təqdirdə yaxud xüsusilə külli miqdarda gəlir əldə olunmaqla törədildiyi zaman isə 3 ilə qədər müəyyən vəzifəni daşıma yaxud müəyyən fəaliyyət növü istiqamətində çalışmaq hüququndan məhrum olunmaqla yaxud olunmamaqla cinayət tərkibli həmin qanun pozuntusuna görə dəymiş zərərin yaxud əldə olunmuş gəlirlərin 4 misli qədər cərimə yaxud 5 ildən 7 ilə qədər azadlıqdan məhrum olunma cəzası tətbiq edilir.

Yeri gəlmişkən, sözügedən qanun pozuntusuna birinci dəfə yol vermiş sahibkarlıq subyekti bunun nəticəsində dəymiş zərəri tam həcmdə ödədiyi təqdirdə yaxud cinayət tərkibli həmin qanunazidd hərəkətlərən əldə olunmuş gəliri tam şəkildə bödcəyə ödədiyi təqdirdə cinayət məsuliyyətindən azad edilmir.

Bəs ofisiantlar, aşbazlar yaxud başqa sabit bergi ödəyiciləri hansı hallarda maliyyə sanksiyasını ilə üzləşə bilər?

Məlumdur ki, Vergi Məcəlləsində yer alan 220-ci maddəyə uyğun olaraq, aşağıda sadaladığımız fəaliyyət istiqamətləri üzrə fərdi şəkildə, yəni hər hansı muzdlu işçini yaxud işçiləri cəlb etməmək şərtilə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi haqqında qəbz" təqdim olunmalıdır:

- Toy və şənlik mərasimlərində, habelə başqa əyləncəli tədbirlərdə aparıcılıqla, çalğıçılıqla, rəqqaslıqla, aşıqlıqla, məzhəkəçiliklə və bu kimi digər fəaliyyətlərlə məşğul olma;
- Fərdi foto, audio yaxud video xidmətlər (foto-studiya fəaliyyəti istisna olunmaqla) sferasında məşğul olma;
- Çəkməkçilər, pinəçilər;

- Saatların, televizorların, soyuducuların, eləcə də başqa məişət avadanlıqlarının təmiri ilə məşğul olma;
- Fərdi yaşayış evləri və bina mənzillərində ev qulluqçuları, xəstə insanlara, yaşlılara və uşaqlara qulluqetmə xidmətləri, dayə, fərdi sürücülük, ev təsərrüfatlarının təmizlənməsi, bağbanlar, aşbazlar, iaşə obyektlərində insanlara xidmət edən fiziki şəxslər, yəni ofisiantlar, gözətçilik və bu kimi digər oxşar işlərlə məşğul olma;
- Nəqqaşlı istiqamətində fəaliyyət göstərən emalatxanaların fəaliyyəti;
- Fərdi surətdə bərbərlik xidmətləri təklif edən şəxslər;
- Fərdi surətdə dərzilik edən şəxslər.

Vergi Məcəlləsində yer alan 58.12-ci maddəyə uyğun olaraq, "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" təqdim edilmədən fəaliyyət göstərdiyi üçün sahibkarlıq subyektinə aşağıda sadaladığımız formada cərimə sanksiyaların tətbiqi nəzərdə tutulur:

- Təqvim ilində bu kimi qanun pozuntuları ilk dəfə baş verdikdə bu fəaliyyət istiqaməti üçün təyin edilmiş aylıq sabit vergi miqdarının qırx faizi məbləğdə;
- Təqvim ilində bu kimi qanun pozuntuları 2 və daha artıq baş verdikdə bu fəaliyyət istiqaməti üçün təyin edilmiş aylıq sabit vergi miqdarının yüz faizi məbləğində cərimə sanksiyası tətbiq olunur.

Yuarıda dediklərimizin əyani misal vasitəsilə daha aydın şəkildə izahını verək. Fərz edək ki, "F" MMC-yə aid restoranda Vəliyev Murad adlı şəxs ofisiant qismində işləyir. Operativ vergi nəzarət tədbiri həyata keçirilərkən müəyyən edilmişdir ki, bu şəxs tərəfindən VÖEN açdırıldığına baxmayaraq, "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi barədə qəbz" əldə olunmamışdır. Paytaxt Bakıda iş fəaliyyətini həyata keçirən şəxs bir ay ərzində 20AZN məbləğində vergi ödəməlidir, təqvim ili ərzində birinci dəfə belə bir qanun pozuntusu baş verdiyi üçün Vəliyev Murada 8AZN miqdarında maliyyə sanksiyasının tətbiq edilməsi ilə qərar veriləcək: 20AZN x 40% = 8AZN.

Təqvim ilində bu qanun pozuntusu 2 və daha artıq baş verdiyi təqdirdə həmin fəaliyyət istiqamətinə görə təyin edilmiş aylıq sabit vergi

miqdarının yüz faizi məbləğində cərimə sanksiyası tətbiq olunacaq.

Haqqında danışdığımız maddədə bir vacib məqama xüsusilə yanaşılmalıdır. Məsələ burasındadır ki, operativ vergi nəzarət tədbiri gedişatında restoranda işləyən ofisiantın VÖEN-in olmaması aşkar edildiyi təqdirdə Vergi Məcəlləsində yer alan 58.10-cu maddəyə müraciət edilməlidir. Belə ki, həmin maddəyə görə restoranın sahibi qismində çıxış edən sahibkarlıq subyektinə əmək müqaviləsi bağlanılmadan işçini cəlb etdiyi üçün maliyyə sanksiyası nəzərdə tutulur və tətbiq edilməlidir.

Daha bir məsələyə diqqət yetirək. Belə ki, Vergi Məcəlləsinin 58.2-ci maddəsi xüsusi alınmalı olan "Fərqlənmə nişanı" əldə edilmədən avtonəqliyyat vasitəsilə sərnişindaşıma yaxud yükdaşıma fəaliyyətinin həyata keçirilməsi müqabilində 40AZN miqdarında maliyyə sanksiyasının tətbiqini nəzərdə tutur.

Növbəti aydınlaşdırılmalı olan məsələ ictimai iaşə obyektlərinin aşpazlar yaxud ofiziantları sabit qəbz olmadan işə cəld etdikləri təqdirdə vergi qanunvericiliyi ilə nəzərdə tutulmuş maliyyə sanksiyaların hansı qaydada tətbiq edilməsi ilə bağlıdır.

Bu məsələyə şərh vermək üçün qeyd edək ki, 2020-ci il yanvar ayının 1-dən etibarən Vergi Məcəlləsində yer alan 58.10-cu maddəsində dəyişikliklər edilmişdir. Həmin dəyişikliklərə görə işə götürən aparıcılıqla, çalğıçılıqla, rəqqaslıqla, aşıqlıqla, məzhəşiliklə, habelə foto, audio və video sektorunda məşğul olan şəxslərin, eləcə də iaşı müəssisələrində müştərilərə xidmət edən fiziki şəxslərin, yəni ofisiantların işə başlayana qədər "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi barədə qəbz" alınmadan işlərin həyata keçirilməsinə cəlb olunması üçün vergi orqanlarında qeydiyyatdan keçmiş sifarişçiyə hər bu kimi şəxsə görə təqvim ilində sözügedən qanun pozuntusu ilk dəfə baş verdiyi təqdirdə 2.000AZN, 2-ci dəfə baş verdikdə 4.000AZN, 3 və daha çox baş verdikdə isə 6.000AZN miqdarında maliyyə sanksiyasının tətbiq olunması nəzərdə tutulmuşdur.

İndi isə bir misal çəkək. Fərz edək ki, "Dənizkənarı" adlı restoran fərdi sahibkarlıqla məşğul olan bir ofisiantı işə cəlb etmişdir. Bu fərdi sahibkarlıq subyektində "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi barədə qəbz"in

olub-olmaması restoran tərəfindən yoxlanılmamış və həmin fiziki şəxs adıçəkilən qəbz olmadan öz işinə başlayıb. Həmin qanun pozuntusu əmək müqaviləsi bağlanılmadan işçinin işə cəlbe edilməsi kimi vergi qanunvericiliyinin pozulması ilə bir tutulur və ictimai iaşə istiqamətində fəaliyyət göstərən sahibkarlıq subyekti olan restorana təqvim ilində bu qanun pozuntusu ilk dəfə baş verdikdə 2.000AZN, 2-ci dəfə baş verdikdə 4.000AZN, 3 və daha artıq baş verdikdə isə 6.000AZN miqdarında maliyyə sanksiyasının tətbiq olunması nəzərdə tutulur.

Bəs banklara və bu istiqamətdə fəaliyyət göstərən başqa kredit təşkilatlarına hansı qanun pozuntularına görə cərimə sanksiyaların tətbiqinə qərar verilir?

Bank və başqa maliyyə təsisatlarına vergi qanunvericiliyinin hansı pozuntularına görə maliyyə sanksiyasının tətbiqi ilə bağlı məsələyə nəzər salmazdan öncə Vergi Məcəlləsinin 60.1.-ci maddəsinə diqqət edək. Həmin maddəyə uyğun olaraq vergi əməkdaşları tərəfindən hüquqi şəxslərə, fərdi sahibkarlara, filial və nümayəndəliklərə Vergi Məcəlləsində yer alan 35-ci maddəyə əsasən vergi əməkdaşlar tərəfindən təqdim edilən şəhadətnamə-dublikat olmadan adıçəkilən Məcəlləyə əsasən sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərin hesablaşma hesabları yaxud başqa hesablar açıldığı üçün – hər belə hesaba görə 400AZN miqdarında cərimə sanksiyasının tətbiq olunması nəzərdə tutulmuşdur.

Haqqında danışdığımız bu məsələ ilə bağlı bir misala müraciət edək. Qiy "F" MMC vergi orqanlarından şəhadətnamə-dublikat əldə etmədən bankların birində hesabın açılmasını reallaşdırmışdır. Vergi əməkdaşları tərəfindən aparılmış nəzarət tədbirləri gedişatında həmin qanun pozuntusu aşkar olunduğu təqdirdə bank belə hesabın açılmasına görə 400AZN miqdarında cərimə sanksiyası ilə üzləşməli olacaq.

İndi isə maliyyə təsisatlarına hansı cərimə sanksiyaların tətbiq edildiyinə nəzər salaq.

Vergi Məcəlləsində yer alan 60.3-cü maddəyə uyğun olaraq, maliyyə təsisatlarına aşağıda qeyd edilmiş maliyyə sanksiyaların tətbiqi nəzərdə tutulmuşdur:

"60.3.1. maliyyə təsisatları tərəfindən hüquqi və fiziki şəxslərə hesab açılanda yaxud maliyyə xidmətləri təqdim ediləndə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, eləcə də vergi və maliyyə

informasiyalarının mübadilə prosesini nəzərdə tutan Azərbaycanın da qoşulduğu beynəlxalq müqavilələrin tələblərinə əməl olunmamasına görə - hər bu kimi hesab yaxud əməliyyata görə 500AZN miqdarında;

60.3.2. Vergi Məcəlləsinin 16.1.11-4-cü maddələrində göstərildiyi elektron hesabatın müəyyən olunmuş qaydada və müddət ərzində təqdim olunmamasına görə - 1.000AZN miqdarında;

60.3.3 Vergi Məcəlləsinin 76-1-ci maddəsində əks olunan tələblərin yerinə yetirilməməsinə görə - həyata keçirilmiş əməliyyatların ümumi miqdarının 30%-i qədər, bu hesabatlar üzrə əməliyyatlar aparılmadığı təqdirdə - hər bir belə hesaba görə 400AZN miqdarında;

60.3.4. vergi və maliyyə informasiyalarının mübadilə prosesini nəzərdə tutan Azərbaycanın da qoşulduğu beynəlxalq müqavilələrdə əks olunan tələblərin pozulması sözügedən beynəlxalq müqavilələrin tərəfi qismində çıxış edən başqa dövlətin səlahiyyətli orqanının bildirişinə əsasən aşkar edildiyi təqdirdə - bu kimi hər hesaba görə - 1.000AZN miqdarında."

Qeyd etmək lazımdır ki, 2019-cu il yanvar ayının 1-dən başlayaraq maliyyə təsisatlarına əvvəllər olmadığı qədər – təqribən 10.000AZN məbləğində maliyyə sanksiyaları tətbiq edilmişdir. Həmin maliyyə təsisatları tərəfindən hüquqi və fiziki şəxslərə hesab açılanda yaxud maliyyə xidmətləri təqdim ediləndə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, eləcə də vergi və maliyyə informasiyaların mübadiləsini nəzərdə tutan Azərbaycanın da qoşulduğu beynəlxalq müqavilələrin tələblərinə əməl olunmasını və Vergi Məcəlləsində yer alan 76-1-ci maddəyə əsasən maliyyə təsisatları tərəfindən təqdim olunması nəzərdə tutulan informasiyaların öz əksini tapdığı forması uyğun formatda elektron hesabatların təqdim olunmasını təmin etməlidirlər. Həmin informasiya təqdim olunmadığı təqdirdə maliyyə təsisatlarına 10.000AZN miqdarında cərimənin məbləğinin tətbiqi ilə bağlı qərar qəbul olunur.

Məlumat üçün qeyd etmək yerinə düşərdi ki, maliyyə təsisatlarında vergi monitorinqinə "FATCA" deyilir. Respublikanın Nazirlər Kabinetinin 22 aprel 2014-cü il tarixli, 103s saylı sərəncamına əsasən FATCA-nı tətbiq etmək üçün ABŞ-ın Xəzinədarlıq Departamenti tərəfindən təsdiq olunmuş və razılıq vermiş dövlətlərin səlahiyyətli orqanları arasında informasiya mübadiləsinin qarşılıqlı surətdə həyata

keçirilməsini dəstəkləyən IGA1A modeli əsasında ABŞ Hökuməti və Azərbaycan Hökuməti arasında vergilərlə bağlı tələblərin yerinə yetirilməsi haqqında beynəlxalq qaydalara riayət edilməsinin yaxşılaşdırılması, habelə Xarici hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act – FATCA) tələblərinin reallaşdırılması barədə Hökumətlərarası Sazişin bağlanılması məqsədəuyğun hesab olunmuşdur.

Sözügedən sərəncamla hökumətlər arası bağlanılmış sazişə əsasən informasiya mübadilə prosesinin həyata keçirilməsi üçün səlahiyyətli orqan qismində keçmiş Vergi nazirliyi müəyyən olunmuşdur. Hökumətlər arasında bağlanılmış sazişin layihəsinin mətninin razılaşdırılması üçün qeyd edilmiş sərəncama uyğun olaraq komissiya yaradılmışdır.

Məlumdur ki, 2018-ci il noyabr ayının 30-da "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklərin edilməsi haqqında" qanun qəbul edilmişdir. Həmin qanuna uyğun olaraq, 60.3.1, 60.3.2 və 60.3.4-cü maddələrdə müəyyən edilmiş yeni sanksiyalar 01 yanvar 2019-cu ildən 1 il ərzində bu kimi qanun pozuntusu ilk dəfə baş verdikdə vergi əməkdaşları tərəfindən rəsmi, yəni yazılı formada verilmiş xəbərdarlığın əldə edilməsindən sonra aparılan vergi nəzarət tədbirinin gedişatında olunurdu.

Bəs məhsulların üzərinə aksiz markaları vurulmadan satışa çıxarıldığı üçün maliyyə sanksiyalarının hesablanması hansı qaydalara riayət edilməklə həyata keçirilir?

İlk öncə maliyyə sanksiyaların nədən ibarət olması ilə bağlı bilgiləri paylaşaq. Vergi Məcəlləsində yer alan 58.14-cü maddəyə uyğun olaraq, aksiz markaları ilə markalanması tələb olunan məhsulların həmin markalar üzərinə vurulmadan, eləcə də məcburi nişanlanma vasitələri ilə nişanlanmalı olam məhsulların məcburi nişanlanmalarla nişanlanmadan satışa çıxarılmasına, satış üçün saxlanılmasına, istehsal sahəsinin hüdudlarından kənara çıxarılmasına görən təqvim ilində bu qanunpozuntusu ilk dəfə baş verdikdə sözügedən məhsulların bazar qiymətinə əsasən ümumi dəyərinin bir misli, təqvim ilində belə qanun pozuntusu 2 və daha artıq baş verdikdə iki misli qədər cərimə sanksiyasının tətbiqi nəzərdə tutulmuşdur.

Bu əlavə aksiz markalarla markalanması tələb edilən məhsulların belə markalar vurulmadan, eləcə də məcburi nişanlanma vasitələri ilə

nişanlanması tələb edilən məhsulların məcburi nişanlanma ilə nişanlanmadan satışa çıxarılmasına, satılması üçün saxlanılmasına. Istehsal sahəsinin hüdudlarından kənara çıxarılmasına görə maliyyə sanksiyaların tətbiqi ilə əlaqədardır.

Vergi əməkdaşları tərəfindən vergi nəzarət tədbirlərinin aparılması gedişatında haqqında danışdığımız qanun pozuntuları üzə çıxarıldıqda, təqvim ilində ilk dəfə baş verdiyi üçün sözügedən məhsulların bazar qiymətləri ilə hesablanmış ümumi dəyərinin bir misli, təqvim ilində belə qanun pozuntusu 2 və daha artıq baş verdikdə iki misli qədər cərimə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Dediklərimizə praktiki bir misalla daha da aydınlıq gətirək. Fərz edək ki, vergi nəzarəti tədbiri gedişatında üzərində aksiz markası olmayan 1.000 ədəd siqater qutusu satışa çıxarılmışdır. Həmin siqaretlərin bir qutusunun bazar qiyməti 3AZN olursa, onda vergi əməkdaşları tərəfindən təqvim ilində bu hal ilk dəfə baş verdiyi təqdirdə həmin siqaret məhsulunun bazar qiymətləri əsasında hesablanmış ümumi dəyərinin 1 misli, yəni 3.000AZN, yəni 1.000 ədəd x 3AZN = 3.000AZN məbləğində, təqvim ilində u qanunpozuntusu 2 və daha artıq baş verdikdə isə 2 misli qədər – 6.000AZN miqdarında, yəni 1.000 ədəd x 3AZB x 2 = 6.000AZN məbləğində cərimənin tətbiqi ilə bağlı qərar əqbul ediləcək.

Məlumdur ki, 2018-ci ilin noyabr ayının 30-da "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklərin edilməsi haqqında" qanun qəbul edilmişdir. Həmin qanuna uyğun olaraq, 58.14-cü maddəyə görə maliyyə sanksiyası 01 yanvar 2019-cu ildən etibarən 1 il ərzində bu kimi qanun pozuntusu ilk dəfə baş verdikdə vergi əməkdaşları tərəfindən rəsmi, yəni yazılı formada hazırlanmış xəbərdarlıq təqdim olunduqdan sonra aparılmış vergi nəzarət tədbiri gedişatında tətbiq olunurdu.

Bəs aksiz məhsulları və nəzarət ölçü cihazları ilə əlaqədar pozuntu faktları müəyyən edildiyi təqdirdə malissə sanksiyasının tətbiqi hansı qaydalar çərçivəsində baş verir?

Bu suala cavab verməkdən ötrü Vergi Məcəlləsində yer alan 58.9-cu maddəyə nəzər yetirək. Həmin maddəyə deyilir ki, Vergi Məcəlləsinin 194.2-ci maddəsində qeyd olunan plombların vurulması və açılması arasında günlər ərzində nəzarət=ölçü cihazlarının

göstəricilərində dəyişikliklərin aparılmasına, texnoloji avadanlıqlar üzərinə vurulmuş plombların zədələnməsinə, istehsal edilmiş malların aksiz markaları ilə markalanmadığına yaxud məcburi nişanlamalarla nişanlanmadığına, tam şəkildə uçota götürülmədiyinə, aksiz markalarının və məcburi nişanlamanın inventarlaşdırılmasına qanundankənar hallar baş verdiyinə görə, habelə Vergi Məcəlləsinin 191.2-ci maddəsində öz əksini tapan tələblərin pozulması ilə müşayiət olunan hazır məmulatların istehsal binasının hüdudlarından kənara çıxarılması üçün sahibkarlıq subyektlərinə 5.000AZN miqdarında maliyyə sanksiyası tətbi olunur.

Yuxarıda dediklərimizlə əlaqəli bir misala nəzər yetirək. Fərz edək ki, vergi əməkdaşları tərəfindən səyyar yoxlama yaxud operativ nəzarət tədbiri aparılarkən aksiz markaları ilə markalanmalı olan hazır mallar istehsal binasının hüdudlarından kənara çıxarılmışdır. Belə olan halda sözügedən pozuntuya yol vermiş sahibkarlıq subyektinə 5.000AZN miqdarında cərimə sanksiyasının tətbiq edilməsi ilə bağlı qərar veriləcəkdir.

Növbəti aydınlıq gətirəcəyimiz məsələ əmlakların siyahılara alınması məqsədilə müvafiq informasiyanın təqdim edilmədiyi üçün maliyyə sanksiyalarının necə hesablanması ilə bağlıdır.

Nəzərə almaq lazımdır ki, Vergi Məcəlləsində yer alan 57.2-ci maddəyə uyğun olaraq, həmin Məcəllənin 89.3-cü maddəsi ilə nəzərdə tutulan informasiyanı əsassız şəkildə təyin edilmiş müddət ərzində təqdim etməmiş sahibkarlıq subyektinə vergi orqanlarının rəhbər şəxslərin yaxud onların müavinlərinin verdikləri qərara görə 100AZN miqdarında maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Sözügedən Məcəllənin 89.3-cü maddəsində qeyd olunur ki, vergi əməkdaşları vergi öhdəlikləri ilə bağlı yaranmış borcların ödənilmədiyi təqdirdə vergi qanunvericiliyi ilə müəyyənləşdirilmiş formada aktivləri haqqında informasiyanın on gün müddətində vergi orqanlarına təqdim olunmasını həmin sahibkarlıq subyektindən tələb edə bilər. Sahibkarlıq subyekti məktub aldığı tarixdən on gün ərzində malik olduğu aktivlər haqqında lazımi informasiyanı vergi orqanlarına göndərməsə, o zaman 100AZN miqdarında maliyyə sanksiyasının tətbiqi ilə cəzalandırılacaq.

3.2. Vergilərin hesablanması və ödənilməsinin ümumi əsasları

Bu bölmədə biz sahibkarlıq subyektinin vergi öhdəlikləri əmələ gəldiyi təqdirdə vergi əməkdaşları tərəfindən aparılan məlumatlandırılma prosesinə, hansı situasiyalarda sahibkarlıq subyektinin bank hesablarına sərəncam qoyulmasına, nə vaxt sahibkarlıq subyektinin ödənişinin birbaşa büdcəyə aparılması məqsədilə sərəncamın tətbiq olunmasına, hesabda olan və sərəncam tətbiq edilmiş məbləğdən daha çox pul vəsaitlərinin istifadə imkanlarına, sərəncamın qoyulması təqdirdə xarici valyuta hesablardakı pul vəsaitlərinin taleyinə, sərəncamın həyata keçirilməsinin dayandırılması hallarına, əlavə dəyər vergisinə görə yaranmış borc məbləğlərinin alınmasına, vaxtı ötmüş borc məbləğlərinə faizlərin hesablanmasına, sahibkarlıq subyektlərindən hansı iilərə görə vergi borclarının alınması mümkünlüyünə, habelə bunun sosial borclarla hansı əlaqədə olması məsələsinə nəzər salacağıq.

Birinci aydınlıq gətirəcəyimiz sual sahibkarlıq subyektlərinin vergilərlə bağlı öhdəlikləri əmələ gəldiyi təqdirdə vergi əəməkdaşları tərəfindən hansı məlumatlandırılma tədbirlərin görülməsi ilə bağlıdır.

Sahibkarlıq subyektinin qüvvədə olan Vergi Məcəlləsinin müddəalarına əsasən vergi borcu əmələ gəlirsə, onda AVİS kompüter proqramının köməyi ilə sahibkarlıq subyektinə elektron bildiriş göndərilir. Vergi Məcəlləsində yer alan 65-ci maddəyə uyğun olaraq, sahibkarlıq subyekti əmələ gəlmiş vegi öhdəliklərini vergi qanunvericiliyində nəzərdə tutulmuş müddət ərzində yerinə yetirməlidir, bunu etmədiyi halda vergi əməkdaşları Vergi Məcəlləsinin müvafiq müddəalarına əsasən hesablanmış yaxud təkrar hesablanmış vergi və faiz məbləğlərinin, habelə tətbiq olunmuş maliyyə, cərimə sanksiyalarının beş gün ərzində ödənilmənəsi ilə bağlı bildirişi həmin sahibkarlıq subyektinə göndərilməsini təmin edir.

Yuxarıda izah etdiyimiz məsələ ilə bağlı praktiki bir misala nəzər yetirək. Fərz edək ki, "F" MMC 2020-cu ilin yanvar ayının 14-də 2019-ci ilin 4-cü rübünə aid sadələşdirilmiş vergi bəyannaməsini təqdim edir. Həmin sənəddə yer almış informasiyalara uyğun olaraq, "F" MMC-nin 50AZN məbləğində vergi borcu əmələ gəlmişdir. Vergi əməkdaşları vergi bəyannaməsinin təqdim edilməsi ilə yanaşı sözügedən borcla bağlı faizlərin hesablanmasını həyata keçirmir yaxud borcla bağlı bildirişi

hazırlamır. Vergi Məcəlləsinə uyğun olaraq, sadələşdirilmiş vergi ilə bağlı yaranmış borc məbləğlərinin ödənilməsi üçün axırıncı müddət olan rüb sona çatdıqdan sonra gələn ayın 20-ə qədərdir.

Təqdim etdiyimiz misaldakı tarix 20 yanvarla üst-üstə düşür. 20 yanvar həm qeyri iş günü, həm də Ümumxalq hüzn günü olduğuna görə ödənişin aparılması üçün son tarix kimi növbəti iş günü, yəni 2019-cu ilin yanvarın 22-si hesab edilməlidir. Sahibkarlıq subyekti bu tarixə kimi vergi borcunu ödəmədiyi təqdirdə, 2019-cu il yanvarın 23-də vergi əməkdaşları yaranmış vergi borcunun beş gün ərzində ödənilməsi ilə əlaqədar sahibkarlıq subyektinə bildirişin göndərilməsini təmin edir. Ancaq bildirişi almış sahibkarlıq subyekti həmin beş gün ərzində yenidən ödənişi apardığı halda növbəti addım olaraq müvafiq tədbirin görülməsinə zərurət yaranmır.

İndi isə növəti suala aydınlıq gətirək: sahibkarlıq subyektinin ancaq maliyyə sanksiyası yaxud faiz borcu əmələ gəldiyi təqdirdə onun hesabına sərəncamın qoyulması mümkündürmü?

Geniş yayılmış fakt ondan ibarətdir ki, vergi ödəyicilərinin müəyyən bir qismi vergi öhdəliklərinin əmələ gəlməsini ancaq vergi borcları ilə məhdudlaşdığını düşünürlər. Gəlin Vergi Məcəlləsində yer alan 65.1-ci maddəyə müraiət edək. Həmin maddədə deyilir ki, vergi öhdəliklərinin yerinə yetirməməsi dedikdə bütün vergi növlərinə, həmçinin bu vergilərlə bağlı hesablanan faizlərə və vergi qanunvericiliyinin pozulması nəticəsində tətbiq olunmuş maliyyə sanksiyalarının mütləq şəkildə ödənilməsi tələbi başa düşülməlidir.

Misal üçün, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan vergi ödəyicisi sosial hesabatını təqdim etməyib, bu isə o deməkdir ki, vergi orqanları ona 40AZN məbləğində maliyyə sanksiyasını tətbiq etməlidir. Sahibkarlıq subyekti bu maliyyə sanksiyası ilə bağlı ödənişi aparmadıqda isə, vergi orqanlarının əməkdaşları həmin borc məbləğinin beş gün ərzində dövlət büdcəsinə köçürülməsini tələb edən bildirişi həmin sahibkarlıq subyektinə göndərir.

Aydınlıq gətirəcəyimiz növbəti məsələ sahibkarlıq subyekti tərəfindən beş gün ərzində vergi öhdəlikləri ilə əlaqədar yaranmış borc məbləğini ödəmədiyi tədqirdə növbəti addımın nədən ibarət olması ilə bağlıdır.

Bu sualla bağlı Vergi Məcəlləsində yer alan 65-ci maddəyə nəzər

salaq. Orada sərəncamın qoyulmasını şərtləndirən hallar barədə zəruri bilgiləri də əldə edə bilərik. Lakin məlumdur ki, ümumiyyətlə sərəncamın iki növü mövcuddur. Bu haqda məlumat verək.

Birincisi, sahibkarlıq subyektinin milli yaxud başqa valyuta ilə cari yaxud digər hesablarında borcların 105%-i miqdarında vəsaitlərin məxaric əməliyyatları ilə bağlı məhdudiyyətlərin qoyulması barədə sərəncam.

İkincisi isə, vergilərlə bağlı burc məbləğinin milli yaxud başqa valyutada cari yaxud digər hesablardan büdcəyə köçürülməsi ilə bağlı sərəncam.

Buradan görürük ki, sərəncamların tətbiqinin iki mənbəyi eynilik təşkil edir. Sahibkarlıq subyektinin milli yaxud digər valyutada cari yaxud başqa hesabları. Lakin tutulmanın qaydalarında fərqlər mövcuddur. Birinci halda yaranmış vergi borclarının 105%-i miqdarında məhdudiyyətlərin qoyulması haqqında danışılırsa, ikinci halda bilavasitə büdcəyə köçürülməsi tələb edilir.

Bəs nə zaman vergi öhdəlikləri ilə bağlı yaranmış borcun büdcəyə birbaşa köçürülməsinin reallaşdırılması məqsədilə sərəncamın tətbiqinə gedilir?

Bu istiqamətdə önəmli məsələ Vergi Məcəlləsində yer alan 65-ci maddə ilə bağlıdır. Belə ki, həmin maddənin qısa təhlili nəticəsində aydın olur ki, üç halda vergi əməkdaşları tərəfindən borcların dondurulmadan büdcəyə köçürülməsi barədə sərəncam göndərilir:

Birinci hal sahibkarlıq subyekti tərəfindən hesablanaraq bəyan olunmuş vergi məbləğləri Vergi Məcəlləsinin 65.1-ci maddəsinin nəzərə alınması şərtilə müəyyən olunmuş zaman kəsiyində ödənilməməsi ilə bağlıdır.

Sahibkarlıq subyektinə hesablanmış yaxud təkrarən hesablanmış vergi və faiz məbləğlərinin, habelə tətbiq olunmuş maliyyə sanksiyaları məbləğlərinin beş gün ərzində ödənilməsinin tələbi ilə bağlı sahibkarlıq subyektinə bildirişin göndərilməsi təyin olunubsa, onda həmin vergi ödəyicisinin vəsaitlərinin dondurulmasına hər hansı zərurət yaranmır.

Yeri gəlmişkən, vergi sərəncamlarının böyük əksəriyyəti həmin qayda əsasında sahibkarlıq subyektlərinə göndərilir.

İkinci hal sahibkarlıq subyektinin yazılı razılığın olması ilə bağlıdır.

Üçüncü hal isə vergi əməkdaşları tərəfindən hesablanmış vergi və

faiz məbləğlərinin, habelə tətbiq olunmuş maliyyə sanksiyaların əsasında sahibkarlıq subyektinin bildirişi aldığı gündən 30 təqvim günü ərzində məhkəmə orqanlarına yaxud digər müvafiq orqan yaxud quruma şikayət etməməsi ilə əlaqədardır.

Növbəti sualımız vergi əməkdaşları tərəfindən hansı hallarda hesabdakı vəsaitlərin dondurulması ilə bağlıdır.

Qüvvədə olan qanunvericiliyə uyğun olaraq, aşağıda göstərilmiş hallarda bank hesabında mövcud pul vəsaitlərinin dondurulması ilə bağlı sərəncamın verilməsi mümkündür:

1.Məhkəmə orqanlarının uyğun qərara yaxud vergi orqanlarının qərarı olduğu təqdirdə bu qərara əsasən;

2.Vergi orqanları tərəfindən hesablanmış vergi və faiz məbləğləri, habelə tətbiq olunmuş maliyyə sanksiyaları ilə bağlı sahibkarlıq subyektinin bildirişi əldə etdiyi gündən otuz təqvim günü ərzində məhkəmə orqanlarına yaxud müvafiq orqan yaxud quruma şikayət etdiyi təqdirdə;

3.Vergi əməkdaşları tərəfindən hesablanmış yaxud təkrar hesablanmış vergi və faiz məbləğləri tətbiq olunmuş maliyyə saksiyalarına görə.

İndi isə bir misalı nəzərdə keçirək. Fərz edək ki, "F" MMC tərəfindən borc məbləğinin bildirişində qeyd olunmuş 100AZN borcu ilə narazılıq bildirilmiş və müvafiq qaydada şikayət olunub. Onda vergi əməkdaşları sözügedən sahibkarlıq subyektinin milli yaxud digər valyutada olan cari yaxud başqa hesablarında vergi borcu ilə əmələ gəlmiş məbləğin 105%-i miqdarında vəsaitlərin məxaric əməliyyatlarına görə məhdudiyyətin tətbiqi ilə bağlı kredit təsisatına yaxud bank əməliyyatlarının həyata keçirilməsini reallaşdıran şəxsə icra sənədi qismində çıxış edən sərəncam təqdim edirlər.

Bəs sahibkarlıq subyektinin üç fərqli banklarda hesabı olduğu təqdirdə sərəncamın tətbiqi bütün hesablara şamil olunacaqmı?

Məsələ burasındadır ki, sahibkarlıq subyektinin bu və ya digər bank təşkilatında hesab açmaqdan ötrü vergi orqanlarından müvafiq qaydada şəhadət-dublikatın alınması mütləqdir. Bu səbəbə görə bank bütün hesablaqrla bağlı informasiyanın vergi əməkdaşlarına göndərilməsini təmin edir. AVİS proqramında bank hesabları haqqında informasiyalar yer alır. Odur ki, sərəncamın göndərilməsi də məhz bütün hesablara aid

olunur.

Lakin sahibkarlıq subyektinin əmanət hesabı mövcuddursa, o zaman bu hesaba sərəncamın qoyulması ancaq məhkəmə orqanlarının qərarına uyğun olaraq aparıla bilər.

Növbəti sualımız borc sərəncamının minimal məbləğinin müəyyənləşdirilməsi ilə bağlıdır.

Təcrübədə belə hallar olur ki, vergi əməkdaşları hətta bir mənət məbləğində sosial sığortanın ayırması ilə bağlı borc yarandığı təqdirdə də sərəncam tətbiq etmək səlahiyyətinə malikdir. Bununla yanaşı, Vergi Məcəlləsində sərəncamın yuxarı yaxud aşağı hüdudları ilə əlaqədar bu və ya digər məbləğin təyin olunmasına bu günə qədər rast gəlinməyib.

Mövcud informasiyaya əsasən, vergilər üzrə yaranmış borc on manat məbləğində artıq olarsa, vergi əməkdaşları bank hesabına sərəncamgöndərməlidir.

Növbəti sual sahibkarlıq subyektinin hesabında borcdan artıq vəsait olduğu təqdirdə vergi qanunvericiliyində həmin məbləğdən necə istifadə olunması tələbi ilə bağlıdır.

Vergi əməkdaşlarının sərəncamından sonra bank hesabında qalmış vəsaitdən istifadə məsələsi son illərin ən aktual məsələlərdən birinə çevrilib. Məlumdur ki, 2019-cu ildə AVİS proqram təminatında texniki problem meydana gəlmişdir. Bu səbəbdən sahibkarlıq subyektlərinin böyük əksəriyyətində sosial sığorta və işsizlikdən sığorta haqları ilə bağlı borclar əmələ gəlmişdir. Vergi əməkdaşları tərəfindən isə bu borclarla əlaqədar sahibkarlıq subyektlərinin bütün hesablarına sərəncam qoyulmuşdur. Təbii ki, banklar tərəfindən vergi orqanlarından daxil olmuş sərəncama uyğun olaraq sahibkarlıq subyektlərinin vergi borclarından çox olan vəsaitlərin istifadəsinə məhdudiyyətlər tətbiq edilmişdir. Həmin məsələnin öz həllini tapması üçün vergi orqanlarından açıqlama gəlmişdir ki, banklar tərəfindən bu kimi hərəkətlərə yol veilməsi qanunsuzdur.

Sözügedən açıqlamada deyilirdi ki, Vergi Məcəlləsində yer alan 65.8-ci maddəsinə uyğun olaraq, vergi borclarının alınması barədə sərəncam bir neçə bank yaxud kredit təsisatına verildiyi təqdirdə, habelə bu zaman vergi borcları sahibkarlıq subyektinin bu və ya digər milli yaxud xarıcı valyutada cari yaxud başqa hesablarından büdcəyə köçürüldükdə yaxud məhdudiyyətlər tətbiq edildikdə, vergi əməkdaşları

digər bank təşkilatlarına yaxud kredit təsisatlarına verilmiş sərəncamların mümkün qədər qısa müddət ərzində geri qaytarılmasını təmin etməlidir. Vergi əməkdaşlarının sərəncamı geri qaytarılanadək kredit təsisatları yaxud bank əməliyyatları həyata keçirən tərəflər vergi borclarının büdcəyə köçürülməsini təsdiqləyən sənədi rəhbər tutaraq alınmış həmin vəsaitlər qədər sahibkarlıq subyektinin pullarını hesabda dondormaq yolu ilə sözügedən pullarla bağlı sərəncamın icrasını dayandırmalıdır.

Bu sözlərdən aydın olur ki, məsələn, sahibkarlıq subyektinin 500AZN-lik vergi borcu yaranıbsa, həmin məbləğlə bağlı sərəncam dail olduğu təqdirdə bank bu pullara məhdudiyyət tətbiq etdikdən yaxud ödədikdən sonra başqa banklara yaxud kredit təsisatlarına verilən sərəncamların geri qaytarılması yubanmadan təmin edilməlidir.

Bəs 2020-ci il yanvar ayının 1-dən vergilərə görə toplanmış borcla əlaqədar hansı ciddi dəyişikliklər həyata keçirilmişdir?

Məsələ burasındadır ki, yeni edilmiş dəyişikliklərə uyğun olaraq Vergi Məcəlləsində yer alan 65.2-ci maddəyə aşağıda göstərilmiş ikinci cümlə əlavə olunmuşdur. Bunun nəticəsində maddədə öyrənirik ki, bu zaman kredit təsisatlarında yaxud bank təşkilatlarında həyata keçirilən əməliyyatları yerinə yetirən əməkdaşlar tərəfindən bank hesablarında sərəncam qoyulmuş pul vəsaitlərindən çox olan vəsaitlərə aid hesabdan məxaric olunmasını nəzərdə tutan sahibkarlıq subyektinin ödəniş tapşırıqları icra olunur.

Göründüyü kimi, sözügedən Məccəllədə həmin dəyişikliyin edilməsi 2019-cu ildə haqqında danışdığımız mübahisəli məsələnin tənzimlənməsi məqsədilə reallaşdırılmışdır. Yəni, sahibkarlıq subyektinin vergilərə görə yaranmış borcu 100AZNtəşkil etdiyi təqdirdə bank təşkilatları bütün hesablarda mövcud olan pul vəsaitlərinin dondurulmasını təmin edirdi. Buna görə də sahibkarlıq subyektinin hesabında yer almış pullarla bağlı əməliyyatları yerinə yetirmək imkanından məhrum idi.

Bununla bağlı bir praktiki məsələyə nəzər salar. Fərz edək ki, cari hesabda 10.000AZN-ə malik sahibkarlıq subyektinə 500AZN-lik sərəncam tətbiq olunub. Bu vaxt kredit təsisatları yaxud bank əməliyyatlarını həyata keçirən səlahiyyətli əməkdaşlar sözügedən bir məbləğinin 105%-i miqdarında pulları, yəni 525AZN-i dondurmağa borcludur: 500AZN

+ 5% = 525AZN. Sahibkarlıq subyekti cari hesabında 525AZN salamaq şərtilə öz vəsaitlərini nağdlaşdırmaq yaxud digər istiqamətlərdə köçürmələ etmək imkanına malikdir.

İndi isə sahibkarlıq subyektinin xarici valyuta hesabında pul vəsaitlərinin olduğu təqdirdə sərəncamın tətbiqi prosesi necə həyata keçirilməlidir?

Məlumdur ki, 2019-cu il yanvar ayının 1-də Vergi Məcəlləsinə 65.7.1-ci maddəsi əlavə olunmuşdur. Həmin maddədə deyilir ki, vergi ödəyicisi qismində çıxış edən sahibkarlıq subyekti tərəfindən onun bankdakı hesabında xarici valyutada yerləşdirilmiş pul vəsaitləri hesaba vergi əməkdaşlarının sərəncam tətbiq etdikləri tarixdən on bank günü müddətində konvertasiyanın aparılması qeydə alınmadığı təqdirdə növbəti iş günündə ölkəmizin Mərkəzi Bankının açıqladığı məzənnəyə uyğun xarici valyutada saxlanılan və sərəncamla məhdudlaşdırılmış pullar bank tərəfindən konvertasiya aparılmaqla sərəncamın icra edilməsi təmin olunur.

Bankın xarici valyutanın konvertasiya olunmasına kifayət edə biləcək qədər milli valyutası olmaqla konvertasiya əməliyyatı qüvvədə olan milli valyutaya müvafiq reallaşdırılmaqla sərəncamın tam şəkildə icraə edilməsi həyata keçirilir və hər dəfə bankın hesabına milli valyutada pullar daxil etdiyi təqdirdə mütləq şəkildə yerinə yetirilir.

Haqqında danışdığımız həmin əlavə sırf sahibkarlıq subyektinin xarici valyuta, məsələn ABŞ dolları, avro və s. hesabında pul vəsaitləri olduğu təqdirdə vergilərə görə yaranmış borcu ilə əlaqədar tətbiq edilən sərəncamın yerinə yetirilməsi ilə bağlıdır.

Dediklərimizi praktiki misalla daha da aydınlaşdırmağa çalışaq. Fərz edək ki, sahibkarlıq subyektinin hesabında 1.000 ABŞ dolları məbləğində vəsait yer alır, ergi əməkdaşları tərəfindən həmin sahibkarlıq subyektinin hesabına 2.000AZN-lik sərəncamın qoyulması ilə bağlı qərar qəbul edilmişdir. Sahibkarlıq subyekti on bank günü müddətində qeyd etdiyimiz bu dollar məbləğini konvertasiya etməlidir. Bunu etmədiyi təqdirdə bank tərəfindən bir iş günü müddətində Mərkəzi Bankın bəyan etdiyi məzənnəyə müvafiq şəkildə dollar vəsaitinin konvertasiyası həyata keçirilməlidir.

Fərz edək ki, Mərkəzi Bank 1 dollar üçün 1,7AZN məzənnə elan edib, habelə sahibkarlıq subyektinin bank hesabına konvertasiya

məsrəfləri də nəzərə alındıqdan sonra 1680AZN məbləğində pulun daxil olması qeydə alınmışdır. Vergi əməkdaşları tərəfindən tətbiq edilmiş sərəncamın miqdarı 2.000AZN olmasına baxmayaraq, bank 1680AZN-i vergi orqanlarının hesabına köçürür. Bank tərəfindən sərəncamla bağlı ödənilməsi aparılmamlış və 320AZN təşkil edən qalıq gələn dəfə sahibkarlıq subyektinin hesabına pul vəsaitləri daxil olanda icra ediləcəkdir.

Bəs nə zaman bank tərəfindən vergi orqanlarının göndərdiyi sərəncamın icrasının dayandırılması mümkün ola bilər?

Bununla əlaqədar aydınlıq gətirmək üçün Vergi Məcəlləsində yer alan 65.2.2-ci maddəyə nəzər salaq. Həmin maddəyə uyğun olaraq, vergi əməkdaşlarının hesablamalarına əsasən sahibkarlıq subyekti tərəfindən sözügedən Məcəllənin 65.1-ci maddəsində yer alan bildirişin daxil olduğu gündən otuz təqvim günü ərzində məhkəmə orqanlarına yaxud səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş orqan yaxud quruma şikayət göndərildiyi halda kredit təsisatı yaxud bank əməliyyatlarını həyata keçirən şəxs məhkəmə orqanının özünün qanuni qüvvəsinə minmiş qərarına yaxud səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş orqan yaxud qurumun qəbul etdiyi qərara əsasən Vergi Məcəlləsinin 65.2.1.3-cü maddəsinə uyğun olaraq verilən sərəncamın yerinə yetirilməsini həyata keçirir.

Növbəti misalımızda yuxarıda dediklərimizə aydınlıq verək. Fərz edək ki, sahibkarlıq subyektinə məxsus bank hesabı ilə bağlı 2.000AZN mqdarında vergi borcu ilə əlaqədar sərəncam gəlib. Bu sahibkarlıq subyekti borcla razı deyil və otuz gün müddətində vergi orqanlarına yaxud məhkəməyə müraqciət etmək niyyətindədir. Velə nolan halda bank təşkilatı tərəfindən sərəncamın icra olunması mümkün deyil. Şikayət göndərildiyi səbəbdən bank vergi orqanlarının yaxud məhkəmənin verdəcəyi qərarı gözləməlidir, bununla yanaşı qəbul edilmiş qərara müvafiq şəkildə sərəncamın yerinə yetirilməsini reallaşdırmalıdır.

Sahibkarlıq subyekti tərəfindən göstərilmiş müddət ərzində şikayətin göndərilməsi baş verməsə, onda bank təşkilatı sərəncamın icrası ilə bağlı müvafiq tədbirləri görməlidir.

Bəs toplanmış borc məbləğlərinin silinməsində ardıcıllıq necə gözlənilməlidir?

2020-ci il yanvar ayının 1-dən başlayaraq Vergi Məcəlləsində "Vergilər üzrə borcların ödənilməsi" qaydası adlanan 88 saylı maddənin yeni redaksiyası təsdiqlənmişdir.

Həmin maddədə aparılmış dəyişikliklərin başlıca məqsədi vergi və məcburi dövlət sosial sığorta ilə bağlı aparılmalı olan ödənişlərin həyata keçirilməsi qaydasının fərqləndirilməsindən ibarət idi.

Vergilərin vaxtlı-vatında ödnilməməsi ilə əlaqədar yaranmış borcların ödənilməsi eyni qaydada yerinə yetiriləcəkdir:

1.Yaranma tarixi ardıcıllığına riayət edilməklə hesablanmış vergilərin məbləği;

2.Hesablanmış faizlərin məbləği;

3.Təsdiq olunmuş maliyyə sanksiyalarının məbləği.

İndi isə praktiki bir misala nəzər yetirək. Tutaq ki, sahibkarlıq subyektinin 2020-ci ilin birinci və ikinci rübləri üzrə müvafiq olaraq 400 və 500AZN məbləğində vegi borclanması yaranmışdır. Sahibkarlıq subyekti 202o-ci il oktyabr ayının 10-da 100AZN məbləğində ödənişi apararsa, onda hər şeydən əvvəl birinci rüb üzrə borcun azaldılması baş verəcək.

2020-ci il yanvar ayının 1-dən başlayaraq məcburi dövlət sosial sığorta ilə bağlı əmələ gəlmiş borclar aşağıda göstərilmiş ardıcıllığa uyğun olaraq ödənilməsi tələb olunur:

1.Cari rübə aid olan borc məbləği;

2.Cari rübdən geri tarixlərə, yəni daha öncə əmələ gəlmiş borclara görə, yaranmış borclar ardıcıllıqla;

3.Əmələ gəlmə tarixi ardıcıllığa riayət olunmaqla hesablanmış faizlərin miqdarı.

Növbəti sualımız əlavə dəyər vergisi ilə bağlı əmələ gəlmiş borcların alınması prosesinin necə tənzimlənməsi ilə bağlıdır.

Bu suala cavab vermək üçün Vergi Məcəlləsində yer almış 65.2.3-cü maddəyə nəzər salaq. Bu maddədə deyilir ki, vergi əməkdaşları sahibkarlıq subyektinin əlavə dəyər vergisinin depozit hesabından ancaq sözügedən vergiyə görə əmələ gəlmiş vergi borclarının büdcəyə köçürülməsini təmin etməlidirlər. Əlavə dəyər vergisi ilə bağlı yaranmış borc məbləğlərinin ödənilməsi məqsədilə əlavə dəyər vergisinin depozit hesabında sahibkarlıq subyektinin kifayət edə biləcək məbləğdə pul vəsaitləri olmadığı təqdirdə ƏDV ilə bağlı əmələ gəlmiş vergi

borclanma məbləğinin büdcəyə köçürülməsi məqsədilə həmin vergi ödəyicisinin başqa hesablarına vergi qanunvericiliyinin nəzərdə tutduğu qaydada sərəncamın tətbiq olunması icra oluna bilər.

Dediklərimizi daha ətraflı şəkildə şərh etək məqsədilə yenidən bir misala diqqət yetirək. Fəörz edək ki, "F" MMC-nin əlavə dəyər vergisi ilə bağlı 500AZN məbləğində vergi borcu yaranmışdır. Belə olan halda vergi əməkdaşları, hər şeydən öncə, bu sahibkarlıq subyektinin əlavə dəyər vergisi üzrə depozit hesabındakı pul vəsaitlərindən borcun ödənilməsini təmin etməlidirlər. Haqqında danışdığımız MMC-nin əlavə dəyər vergisi üzrə depozit hesabında 200AZN məbləğində pul vəsaiti olduğu təqdirdə əmələ gəlmiş borclanma məbləğinin 300AzN-lik hissəsinin qarşılanması üçün sahibkarlıq subyektinin sərəncamında olan bank hesablarına sərəncam tətbi edilir.

Bəs əlavə dəyər vergisi üzrə depozit hesabı ilə bağlı qoyulmuş sərəncamı ödəməmək mümkündürmü?

Bu suala aydınlıq gətirmək məqsədilə yada salaq ki. 2019-cu il yanvar ayının 1-dən Vergi Məcəlləsinə 65.2.3-3 saylı maddə əlavə edilmişdir. Həmin maddəyə uyğun olaraq, vergi orqanlarını hesablamaları ilə bağlı sahibkarlıq subyekti tərəfindən Vergi Məcəlləsinin 65.1-ci maddəsində qeyd olunmuş bildirişin daxil olduğu gündən otuz təqvim günü ərzində məhkəmə orqanlarına yaxud səlahiyyətli icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi orqan yaxud struktura şikayət göndərildiyi halda Vergi Məcəlləsinin 65.2.3-1ci maddəsinə müvafiq şəkildə məhdudiyyətlər tətbiq edilmiş əlavə dəyər vergisi üzrə depozit hesabından ƏDV üzrə vergilər, faizlər və tətbiq olunmuş maliyyбə sanksiyası ilə bağlı borcların ödətdirilməsi məhkəmənin öz hüquqi qüvvəsinə minmiş qərarına yaxu səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş orqan yaxud struktur tərəfindən "İnzibati icraat haqqında" AR Qanun əsas götürülərək qəbul olunmuş qərara müvafiq surətdə həyata keçirilir.

Sözügedən yeniliklər sahibkarlıq subyektlərinin əlavə dəyər vergisi üzrə depozit hesablarından vergilərlə bağlı yaranmış borc məbləğlərinin ödətdirilməsi qaydası ilə əlaqədar reallaşdırılmış kifayət qədər müsbət və faydalı bir dəyişikliklərdir. Belə ki, həmin dəyişikliklərə əsasən sahibkarlıq subyektləri əmələ gəlmiş vergi borclanmaları haqqında bildirişləri əldə etdikləri gündən otuz təqvim günü ərzində məhkəmə

orqanlarına yaxud səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş orqan yaxud struktura şikayət göndərilmədiyi halda vergi əməkdaşları əlavə dəyər vergisi üzrə depozit hesabından həmin verginin ödənilməməsi nəticəsində əmələ gəlmiş borc məbləğinin, faiz və tətbiq olunmuş maliyyə sanksiyalarının büdcəyə köçürülməsini təmin etməlidirlər. lakin sahibkarlıq subyekti otuz təqvim günü ərzində məhkəmə orqanlarına yaxud səlahiyyətli vergi strukturlarına şikayət ərizəsini göndərməsə, əlavə dəyər vergisi ilə bağlı vergilərin, faizlərin və tətbiq olunmuş maliyyə sanksiyalarına görə əmələ gəlmiş borc məbləğlərinin 105%-i miqdarında pul vəsaitlərinə məhdudiyyətlər qoyulur və məhkəmə tərəfindən verilmiş qərara yaxud "İnzibati icraat haqqında" AR Qanunu əsasında qəbul olunmuş qərara uyğun tədbirlərin həyata keçirilməsi təmin edilir. Sahibkarlıq subyekti tərəfindən göndərilmiş şikayət araşdırıldığı günlərdə ona məxsus hesablarından pul vəsaitlərinin silinməsinə qanunvericilik tərəfindən icazə verilmir.

Yuxarıda dediklərimizlə bağlı yenidən praktiki misalı dəyərləndirək. Fərz edək ki, vergi əməkdaşları tərəfindən əlavə dəyər vergisi üzrə təqdim olunmuş bəyannamə ilə bağlı 3.000AZN məbləğində əlavə kameral vergi hesablanmasına qərar verilib. Sahibkarlıq subyektinə aid ƏDV depozit hesabında isə 7.000AZN pul vəsaiti vardır. Vergi əməkdaşları sahibkarlıq subyekti məhkəmə orqanlarına yaxud səlahiyyətli vergi strukturlarına şikayət göndərmədiyi təqdirdə hesablanmış vergi məbləğini otuz təqvim günü ərzində silmək səlahiyyətinə malikdir. Əgər sahibkarlıq subyekti tərəfindən qeyd etdiyimiz strukturlara şikayət göndərilərsə, onda 3.150AZN məbləğinə məhdudiyyətlər tətbiq edilir, yəni 3.000AZN + 3.000AZN x 5% = 3.150AZN, sahibkarlıq subyektinə aid hesabda qalmış 3850AZN isə onun tərəfindən müvafiq məqsədlər üçün sərf oluna bilər, yəni 7.000AZN – 3.140AZN = 3.850AZN.

Növbəti sualımızda biz vaxtı ötmüş vergi məbləğlərinə görə faizlərin hesablanması hansı qaydada ilə aparılır?

BunuMəsələ burasındadır ki, qüvvədə olan qanunvericiliyə əsasən, istənilən vergi öhdəliyinin ödənilməsi müddəti təyin edilib. Vergi Məcəlləsində yer alan 59-cu maddəyə uyğun olaraq, vergi yaxud cari vergilərin ödənilməsi sözügedən Məcəllə ilə təyin olunmuş müddətdə yerinə yetirmədikdə, həmin müddətdən sonrakı hər bir gecikmə gününə

görə sahibkarlıq subyektindən yaxud vergi agentindən ödənişi aparılmamış vergi yaxud cari vergi ödəmələri məbləğinin 0,1%-i qədər dəbbə pulu tutulur.

Vergi qanunvericiliyində müəyyən olunmuş faiz vergilərin ödənilməsinə münasibətdə bütün ötmüş müddətə, lakin 1 ildən artıq olmamaq şərtilə, tətbi olunur. Həmin faiz səyyar vergi yoxlama tədbiri gedişatında açkar olunmuş vaxtlı-vaxtında ödəməsi aparılmamış vergi məbləğlərinə həmin vergi məbləğinin sahibkarlıq subyektinə hesablandığı tarixdən tətbiq olunur.

Növbəti dəfə dediklərimizə bir misalla aydınlıq gətirək. Fərz edək ki, 2020-ci il aprel ayının 30-da həyata keçirilmiş səyyar vergi yoxlama tədbirinin yekunu kimi, həmin sahibkarlıq subyektinin yanvaq üzrə 900AZN əmək haqqından gəlir vergisinin ödənilməməsi üzə çıxmışdır. Həmin qanun pozuntusu aprelin 30-da müəyyən edilmişdir, lakin ödənişi aparılmamış vergi məbləğinə faiz, vergi üzrə borclanmanın əmələ gəldiyi tarixdən 0,1% miqdarında gecikdirilmiş günlərin miqdarına vurulmaqla müəyyən edilir. Məlum olduğu kimi, gəlir vergisi ilə bağlı əmələ gəlmiş məbləğin ödənilməsi sonrakı ayın 20-ə qədərdir, bununla əlaqədar yanvar ayında əmələ gəlmiş gəlir vergisi miqdarına görə faizin hesablanması fevral ayının 21-dən yerinə yetiriləcək.

Tutaq ki, sahibkarlıq subyekti sözügedən borclanma məbləğinin 2020-ci il may ayının 6-da ödəyir. Vergi borclanma məbləğinin əmələ gəldiyi tarixdən, yəni 2020-ci il fevralın 21-dən ödəniş aparıldığı tarixə, yəni 2020-ci il may ayının 5-nə qədər 74 gün ötüb. Bununla əlaqədar hesablanmış faizə görə 66,60AZN-lik məbləğ əmələ gələcəkdir, yəni 900AZN x 74 gün x 0,1% = 66,6.

Burada bir diqqətəlayiq məsələ vurğulanmalıdır. Nəzərə almaq lazımdır ki, faizin hesablanması bir il ərzində davam edir. Yuxarıda təqdim etdiyimiz misalda sahibkarlıq subyekti vergi ödənişini yerinə yetirmədiyi təqdirdə 2020-ci il fevralın 20-dən etibarən faiz hesablanmasına dayandırılacaq. Bununla yanaşı, faiz məbləğinin hesablanması ancaq vergi borcu ilə bağlıdır. Sahibkarlıq subyektinin maliyyə sanksiyalarına yaxud faiz borcuna faizin hesablanaraq əlavə edilməsi vergi qanunvericiliyində nəzərdə tutulmamışdı.

İndi isə müvəqqəti vergi rejiminin qüvvədə olduğu müddət ərzində sahibkarlıq subyektlərinin borcları ilə bağlı hansı güzəştlərin nəzərdə

tutulduğuna aydınlıq gətirək.

Qeyd edək ki, müvəqqəti vergi rejiminin tətbiq olunduğu sahibkarlıq subyektinin 2019-cu il üzrə vergi öhdəliyi ilə bağlı yaranmış borclanma məbləğinə müvafiq qaydada güzəştin tətbiqi qanunvericilik qaydasında nəzərdə tutulmuşdur. Məlumdur ki, Vergi Məcəlləsinə 224.8 saylı maddə əlavə edilmişdir. Həmin maddəyə uyğun olaraq, Vergi Məcəlləsinin 222.5-ci maddəsində qeyd olunmuş fəaliyyətlə məşğul olan şəxslərə vergilərin həmin Məcəllədə müəyyən olunmuş müddət ərzində ödənilmədiyi müqabilində Məcəllədə yer alan 59.1-ci maddəsinə əsasən faiz məbləğinin hesablanması 01 parel 2021-ci iln 01 yanvar 2021-ci ilə qədər dayandırılması nəzərdə tutulmuşdur.

Dayandırılmış müddət Vergi Məcəlləsində yer alan 59.2-ci madədə faizlərin hesablanmasına görə təyin olunmuş birillik müddətə daxil deyil.

Qeyd etmək yerinə düşərdi ki, sözügedən Məcəllənin 59.1-ci maddəsinə uyğun olaraq, vergi yaxud cari vergi ödəmələri Vergi Məcəllənin müəyyən etdiyi müddət ərzində reallaşdırılmasa, ödəniş müddətindən sonrakı hər bir keçmiş gün üçün sahibkarlıq subyektindən yaxud vergi agentindən ödəməsi aparılmamış vergi yaxud cari vergi ödəmələri miqdarının 0,1%-i qədər faiz tutulacaq.

Aydınlaşdırmaq üçün yenə də misala nəzər yetirək. Fərz edək ki, ictimai iaşə sekorunda fəaliyyət göstərən sahibkarlıq subyektinin 2020-ci ilin dördüncü rüb üçün 1.000AZN miqdarında sadələşdirilmiş vergiyə görə borc əmələ gəlmişdir. Sözügedən Məcəllədə aparılmış dəyişiklik-lərə əsasən, vergi borclarına 0,1% miqdarında faizlərin hesablanması 21 yanvar-1 aprel dövründə yerinə yetirilməlidir. Faizlərin hesablanması 1 aprel 2020-ci ildən 1 yanvar 2021-ci ilə qədər dayandırılır.

Lakin dayandırılmış müddət Vergi Məcəlləsində yer alan 59.2-ci maddədə faizlərin hesablanmasına görə təyin olunmuş birillik müddətə aid deyil. Yəni, sahibkarlıq subyekti tərəfindən söügedən borc tam ödənilmədiyi halda, qalıq borc miqdarına bir daha 0,1% qədər faizin hesablanması aparılacaq.

İndi isə vergi əməkdaşları tərəfindən sahibkarlıq subyektindən hansı illərə görə vergilər üzrə yaranmış borc məbləğinin tələb etmək səlahiyyətində olduqlarına aydınlıq gətirək.

Məlumdur ki, 2020-ci il yanvar ayının 1-dən başlayaraq vergi

yoxlama tədbirinin müddəti müəyyən hallarda üç ildən də böyük bir dövrə tətbiq edilə bilər. Həmin məsələ ilə əlaqədar Vergi Məcəlləsində yer alan 85.4-cü maddəsində uyğun dəyişikliklər aparılmışdır.

Biz artıq qeyd etmişdir ki, 2020-ci il yanvar ayının 1-ə qədər bütün növ sahibkarlıq subyektləri üçün səyyar vergi yoxlama tədbirlərinin aparılması haqqında vergi orqanları tərəfindən qəbul olunmuş qərarda verilmə günündən öncəki üç illik dövr əhatə olunurdusa, 2020-ci il yanvarın 1-dən sonra yanaşma artıq fərqlidir.

Yəni, vergi yoxlama tədbirləri xarici ölkələrdə qazanılmış gəlirlərə görə xarici dövlətlərin müvafiq qurumlarından uyğun informasiyalar əldə olunduğu təqdirdə yoxlama tədbirinin yerinə yetirilməsi barədə vergi orqanlarının qərar qəbul edilmiş gündən öncəki beşillik dövrü, AR CPM-ə müvafiq təyin olunan vergi yoxlama tədbirlərinə görə AR CM-ə uyğun cinayət məsuliyyətinə cəlb edilmə müddəti, yəni yeddi il təyin olunan müddəti ehtiva edir.

Bir daha praktiki misala nəzər yetirək. Məlumdur ki, Vergi orqanları 2020-ci il apreal ayının 1-də vergi yoxlama tədbirini yerinə yetirərkən 2017-ci, 2018-ci və 2019-cu illərə görə təqdim olunmuş Mənfəət vergi bəyannamələri yoxlamaq səlahiyyətindədir. 2020-ci il yanvar ayının 1-dən başlayaraq vergi əməkdaşları AR CPM-ə əsasən təyin olunmuş vergi yoxlama tədbirlərində isə AR CM-ə əsasən cinayət məsuliyyətinə cəlbolunma müddətində, yəni yedillik müddətdə yoxlamaq səlahiyyətindədir.

Bununla bərabər, məcburi dövlət sosial sığorta, işsizliyə görə sığorta və icbari tibbi sığorta haqları üzrə yoxlama tədbirlərinin müddəti üçillik dövrlə tənzimlənmir. Sözügedən icbari ödəmələrə görə yoxlama tədbirinin maksimal müddəti təyin olunmayıb. Fərz edək ki, 2020-ci il aprel ayının 1-dən etibarən başlamış vergi yoxlama tədbirlərində məcburi dövlət sosial sığorta, işsizliyə görə sığorta və icbari tibbi sığorta haqlarına görə yoxlama tədbirlərinin keçirilməsinin müddətində 2017-ci ilə qədər məhdudlaşmır.

Dediklərimiziə uyğun olaraq, səyyar vergi yoxlama tədbirləri ilə bağlı maksimum müddət məcburi dövlət sosial sığorta haqlarına, işsizliyə görə ödənilən sığorta haqlarına və icbari sığorta haqlarına tətbiq edilmir.

Məhz bu səbəbə görə, vergi əməkdaşları tərəfindən məcburi dövlət

sosial sığorta haqlarına, işsizliyə görə ösənilən sığorta haqlarına, eləcə də icbari tibbi sığorta haqlarına cəlb olunan hesabat dövrü bitdikdə istənilən dövr üçün, yəni üç il dövrlə bağlı tələb aradaq qalxır, sahibkarlıq subyektinin apardığı müvafiq icbari ödənişlər, faizlər və maliyyə sanksiyalarının hesabpanmasını aparmaq, eləcə də hesablamaı tamamlamış məbləğləri təkrarən hesablamaq hüququnu özlərində saxlanılır.

Bundan əlavə, məcburi dövlət sosial sığorta haqlarına, işsizliyə görə ödənilən sığorta haqlarına, habelə icbari tibbi sığorta haqlarının və onlara uyğun faizlərin, eləcə də maliyyə sanksiyaları ilə bağlı məbləğlərin hesablanmış yaxud təkrarən hesablanmış məbləği həmin məcburi xarakter daşıyan ödəmələrin cəlb olunan hesabat dövrü bitdikdə beş ildən artıq müddətdə tutmaq hüququnu özündə saxlayırlar.

İndi isə vergi əməkdaşları tərəfindən sahibkarlıq subyektlərinə borcları nə zaman qaytarmalı olduqlarına nəzər salaq.

Bu məsələni şərh etmək üçün hər şeydən öncə Vergi Məcəlləsində 2019-cu il yanvar ayının 1-də aparılmış dəyişikliklərə diqqət edək. Həmin yeniliklərə uyğun olaraq, hesabat dövrü ərzində vergilər tutulduğu dövriyyənin ən aşağı 50%-i əlavə dəyər vergisinin "0" dərəcəsi əsasında vergilərə cəlb edilən sahibkarlıq subyektinə, hesabat dövrü ərzində əvəzləşdirilməsi reallaşdırılan vergi məbləğlərinin hesablanmış vergilərdən çox olan qismi onların vergi yaxid gömrük orqanına ərizəsini təqdim etdikləri tarixdən iyirmi gün müddətində geri qaytarılır.

Bununla əlaqədar dəyişiklikər aparılmamasına baxmayaraq, başqa növ sahibkarlıq subyektləri üçün - əvəzləşdirilən vergi məbləğlərinin hesabat dövründə hesablanması aparılmış vergi məbləğlərindən çox olan hissəsi sahibkarlıq subyektinin vergi, habelə gömrük orqanına elektron formatda göndərilmiş ərizənin verildiyi tarixdən əvvəlki kimi 20 gün müddətində deyil, dörd aydan gec olmamaq şərtilə qaytarılması təmin olunur.

Yeri gəlmişkən onu da deyək ki, vergi əməkdaşları sahibkarlıq subyekti tərəfindən öz ərizəsini təqdim etdiyi gündən etibarən həmin məbləğlər geri qaytarılana qədər gecikdirilmiş hər bir günə görə, ödəniş tarixi də daxil olmaq şərtilə, sahibkarlıq subyektinə uyğun məbləğlərin 0,1% miqdarında faizin hesablanması yerinə yetirilir. Vergi əməkdaşları ödəmələri sahibkarlıq subyektinə qeyd olunmuş müddət ərzində, yəni

20 gün yaxud dörd ay müddətində qaytarsalar, onda hesablanması aparılmış faizin sahibkarlıq subyektinə ödənilməsi təmin edilməyəcək. Lakin vergi əməkdaşları ödəmələri qeyd olunan müddət bitdikdə ödəsələr, onda hesablanması aparılmış faiz məbləğini də sahibkarlıq subyektinə qaytaracaqlar.

Məlum olduğu kimi, 2020-ci il yanvar ayının 1-dən etibarən Vergi Məcəlləsində aparılmış dəyişiklik sahibkarlıq subyektinin xeyrinə atılmış bir addım kimi dəyərləndirmək olar. Sözügedən Məcəlləyə əlavə olunmuş 86.5-ci maddəyə uyğun olaraq, rekvizitlərin yanlış göstərilməsi və/yaxud bank əməliyyatlarının yanlış icra edilməsi nəticəsində səhvə yol verilməsi ilə ödənişi aparılmış pul vəsaitləri sahibkarlıq subyektinin vergi borclanması olmadığı təqdirdə iyirmi gün müddətində, məcburi dövlət sosial sığorta, işsizliyə görə ödənilən sığorta, eləcə də icbari tibbi sığorta haqqı ilə əlaqədar 45 gün ərzində sahibkarlıq subyektinə qaytarılacaq.

Tamamilə aydındır ki, sözügedən pul vəsaitlərinin qaytarılması prosesində AR Nazirlər Kabineti tərəfindən vergilmiş 16 oyul 2019-cu il tarixli 313 saylı Qərarı ilə təsdiq olunmuş "Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması" qaydaları da rəhbər tutularaq onlara riayət edilməlidir.

Bu bölümdə aydınlaşdırılmalı olan sonuncu məsələ vergi orqanları tərəfindən hansı hallarda sahibkarlıq subyektinin borclarının ümidsiz borclar qismində qəbul edilərək silinməsi ilə bağlıdır.

Məlum olduğu kimi, Vergi Məcəlləsində yer alar 93-cü maddədə aparılmış dəyişikliklərə uyğun olaraq, vergilər, faizlər, habelə maliyyə sanksiyaları ilə bağlı ümidsiz borc məbləğlərinin vergi orqanı tərəfindən silinməsinə icazə verilməsi nəzərdə tutulmuşdur.

2020-ci il yanvar ayının 1-dən başlayaraq vergi orqanları tərəfindən tətbiq olunmuş maliyyə sanksiyasının, məcburi dövlət sosial sığorta haqları, işsizliyə görə ödənilən sığorta haqları, eləcə də icbari tibbi sığorta haqları istisna edilməklə, dövlətimizin büdcəsinə köçürülməsi haqqında məhkəmə orqanlarının qərarının özünün hüquqi qüvvəsinə minəndən sonra beş ilə bərabər bir müddət tamamlanandan sonra onun ümidsiz borc qismində silinməsi ilə bağlı müvafiq qərar çıxarıla bilər.

Hal-hazırda çoxlu sayda sahibkarlıq subyektinin şəxsi bank hesablarında vergilərlə bağlı yaranmış borclanma məbləğləri mövcuddur. Eyni zamanda, məhkəmə orqanları tərəfindən verilmiş qərar olmadan xeyli müddətdir ki, sözügedən borc məbləğləri ilə bağlı ödənişlərin aparılması yerinə yetirilmir. Lakin 2020-ci il yanvar ayının 1-dən başlayaraq bu qəbildən olan birc məbləğlərin müddəti beş ildən artıq olduğu təqdirdə vergi əməkdaşları tərəfindən həmin borc məbləğlərinin ümidsiz borclar qismində qəbul edilərək silinməini icazə verən qərarlar çıxarılacaq.

FƏSİL 4:

VERGİLƏRİN ÖDƏNİLMƏSİ ÜZRƏ ÜMUMİ QAYDALAR

Vergi Məcəlləsinin 65-ci maddəsində vergi borclarının alınması qaydalarına həsr olunub.

Həmin maddə ilə bağlı aydınlıq gətirəcəyimiz ilk sual sərəncam xarici valyutada olan bank hesablarına istiqamətləndirildikdə prosesin necə həyata keçirilməsi ilə bağlı olacaq.

Məsələ burasındadır ki, 2022-ci il yanvar ayının 1-dən etibarən Vergi Məcəlləsində yer alan 65.7-ci maddənin 2-ci cümləsinin yeni redaksiyası ilə verilir. Sözügedən dəyişikliyi biz redaktə səciyyəvi kimi də dəyərləndirə bilərik. Əvvəla, həmin maddədə "bank və ya digər kredit təşkilatı" ifadəsi "bank, digər kredit təşkilatı və ya poçt rabitəsinin milli operatoru" ifadəsi ilə əvəzlənib. Daha sonar, dondurulma prosesi gedişatında artıq Vergi Məcəlləsinin 60.1.2-ci maddəsinə istinadlar yoxdur. Vergi Məcəlləsinin 65.7-ci maddəsi ilə prosesin hansı qaydada reallaşdırılması öz əksini tapır. Məcəllənin həmin maddənin 1-ci cümləsi yenidən tərtib olunaraq belə bir şəkil alıb ki, vergi əməkdaşlarının vergi borclarının və həmin borclara görə hesablanmış faizlərin, tətbiq olunmuş maliyyə sanksiyalarının dövlət büdcəsinə köçürülməsi barədə sərəncamı sahibkarlıq subyektinin xarici valyutada olan hesabına istiqamətləndirildiyi təqdirdə, bank, digər kredit təşkilatı yaxud poçt rabitəsinin milli operatoru həmin tarixdə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş rəsmi məzənnəyə əsasən sərəncamda əks olunan məbləğin 105 faizinə qədərki miqdarı hesabda olan xarici valyuta vəsaitlərinin dondurulmasını həyata keçirir və təcili surətdə bu haqda sahibkarlıq subyektini məlumatlandırır.

Bu maddə ilə bağlı izah etmək istədiyimiz ikinci məsələ valyuta hesabı üzrə sərəncamın tarixinin hesablanması ilə bağlı hər hansı fərqli yanaşmaların mövcudluğu ilə əlaqədardır.

Aparılmüş müvafiq dəyişikliklərdən sonar Məcəllənin 65.7-1-ci maddəsinin 2-ci cümləsi 4-cü cümlə hesab olunacaq. Bundan əlavə,

maddəyə 2-ci və 3-cü cümlələr də əlavə olunub. Həmn cümlələrin məzmunu bundan ibarətdir ki, maddə ilə müəyyənləşdirilmiş on bank günü müddəti ərzində vergi əməkdaşlarının yeni sərəncamı göndərilərsə, bu zaman həmin sərəncamda qeyd olunmuş vergi borcunun miqdarı vergi əməkdaşları tərəfindən əvvəlki sərəncama münasibətdə aşağı düşmüşdürsə, on bank günü müddəti əvvəlki sərəncamın tarixindən hesablanacaq. Haqqında danışdığımız maddə ilə müəyyənləşdirilmiş on bank günü müddəti ərzində vergi əməkdaşları tərəfindən sərəncamın göndərilməsi təmin edildiyi təqdirdə bu sənəddə əks etdirilən vergi borcunun miqdarı əvvəlki sərəncama münasibətdə yüksəlibsə, o zaman on bank günü ərzində əvvəlki sərəncamda qeyd olunmuş burcla əlaqədar sözügedən sərəncamın verildiyi gündən, çoxalan vergi borcu miqdarına münasibətdə isə yeni sərəcamın göndərilciyi gündən hesablanmalıdır.

Həmçinin qeyd etmək yerinə düşərdi ki, Vergi Məcəlləsində yer alan 65.7-1-ci maddəyə uyğun olaraq, sahibkarlıq subyekti tərəfindən onun bankdakı hesabında xarici valyuta şəklində saxlanılan pul vəsaitləri hesabına vergi orqanı tərəfindən verilmiş sərəncam daxil olduğu tarixdən on bank günü müddətində konvertasiya olunmadığı təqdirdə, sonrakı iş günündə ölkəmizin Mərkəzi Bankının müəyyənləşdirdiyi məzənnəyə əsasən xarici valyutada saxlanılan dondurulmuş pullar bank tərəfindən konvertasiya olunur və bununla sərəncam icra edilmiş kimi qiymətləndirilir.

İndi isə dediklərimizin daha rahat və aydın şəkildə mənimsənilməsi üçün misallara keçid alaq.

Əvvəla fərz edək ki, 2022-ci il mart ayının 10-da vergi əməkdaşlarının müvafiq sərəncamına əsasən sahibkarlıq subyektinin hesabına 200AZN-lik vergi borcunun ödənilməsi ilə bağlı məhdudiyyət tətbiq olunub. 2022-ci il mart ayının 15-də vergi əməkdaşları yeni sərəncam göndərməklə vergi borcunun məbləğinin 120AZN olduğunu qanunamüvafiq şəkildə müəyyənləşdiriblər. Beləliklə, buradan aydın görmək olar ki, 2-ci sərəncamə uyğun olaraq, vergi borcunun məbləği (yəni, 120AZN) 1-ci sərəncamla (yəni, 200AZN) müqayisədə daha aşağıdır. Bu zaman kredit təşkilatı xarici valyuta hesabının konvertasiya olunmasının başlanma tarixi qismində (on günlük müddətin hesablanması) 2022-ci il yanvar ayının 10-u götürəcək.

Növbəti misala keçək. Fərz edək ki. Vergi əməkdaşları 2022-ci il mart ayının 10-da 200AZN miqdarında vergi borclarının ödənilməsi barədə sərəncamı sahibkarlıq subyektinin bank hesabına tətbiq etmək qərarını həyata keçiriblər. 2022-ci il martın 15-i vergi əməkdaşları tərəfindən göndərilmiş sərəncamın məbləği 350AZN təşkil etmişdir. Belə olan halda kredit təşkilatı konvertasiyanın yerinə yetirilməsi üçün on günlük dövrün hesablanmasını aşağıdakı şəkildə həyata keçirəcək:

1). 200AZN vergi borcü ilə əlaqədar 2022-ci il martın 10-dan;

2). 150AZN vergi borcu ilə əlaqədar 2022-ci il mart ayının 15-dən, yəni, 350AZN (2-ci sərəncam üzrə məbləğ) – 200AZN (1-ci sərəncam üzrə məbləğ) = 150AZN.

Vergi Məcəlləsinin 67-ci maddəsində vergitutma obyektinin ayrı-ayrı hallarda müəyyən edilməsi qaydalarına həsr olunur.

Həmin maddə ilə əlaqədar aydınlıq gətirəcəyimiz ilk sual sahibkarlıq subyektinin "qara mühasibatlığının" vergilərin hesablanması üçün əsas qismində çıxış edə bilməsi ilə bağlıdır.

Məcəllənin 67.1.9-cü maddəsində həyata keçirilmiş dəyişikliklərə uyğun olaraq, vergi əməkdaşlarının ödənilməsi tələb edilən vergi miqdarını hesablamaq üçün onlar tərəfindən reallaşdırılan vergi nəzarəti gedişatında əldə olunmuş vergi ödəyicisinin sahibkarlıq fəaliyyəti ilə əlaqədar qanunla nəzərdə tutulan qaydada rəsmiləşdirilməsi aparılmamış əməliyyatlara görə informasiya da əlaqəli informasiyalar qismində qəbul edilə bilər.

Preaktiki fəaliyyətdə belə hallar olur ki, vergi orqanlarının əməkdaşları apardıqları yoxlama tədbirləri gedişatında sahibkarlıq subyektinin gerçək dövriyyəsinə aid olan "qara mühasibatlıq" sənədlərini üzə çıxarırlar. Sözügedən dövriyyə ilə əlaqədar vergi məbləğinin təyin edilməsinə əsaslar yaradan dəftərlərdəki yazılar yaxud bu və ya digər mühasibatlıq təyinatlı proqramlarda həyata keçirilən əməliyyatlar olur. Sahibkarlıq subyekti hesablanmış vergi məbləği ilə razılaşmaya bilər, belə olan halda isə vergi orqanlarının əməkdaşları məhkəməyə "qara mühasibatlığa" aid bütün sənədlərə uyğun olaraq vergi məbləğinin hesablanması təklifini irəli sürürdü. Belə olan halda isə mübahisələrin yaranması qaçılmaz olurdu. Məhkəmənin əsaslandırılması ilə bundan ibarət idi ki, sözügedən sənədlərlə bağlı əlaqəli vergi məbləğlərinin hesablanmasının həyata keçirilməsi üçün

qanunvericiliklə nəzərdə tutulan hər hansı hüquqi baza mövcud deyil. Vergi Məcəlləsində yer alan 67.1.9-cu maddəsinə əlavələrin olunması da məhz sözügedən hüquqi bazanın yaradılmasına yönəlib.

İndi də misala nəzər salaq. Fərz edək ki, vergi əməkdaşları tərəfindən aparılmış səyyar vergi yoxlama tədbirinin gedişatında sahibkarlıq subyektinin gündəlik satış həcminin qeyd olunduğu dəftəri sübut kimi əldə edə biliblər. Həmin dəftərdə aparılmış yazılara uyğun olaraq, sahibkarlıq subyekti yoxlamanın əhatə etdiyi dövr ərzində 220.000AZN-lik satış həyata keçirib ki, bud a rəsmi təqdim olunan göstəricidən dörd dəfəyə qədər daha artıqdır. Belə olan təqdirdə vergi orqanlarının əməkdaşları sözügedən dövriyyəni əldə olunmuş müvafiq məlumat qismində istifadə edir və sehibkarlıq subyektinin ödəməli olduğu vergi məbləğləri hesablamaq hüququna malikdirlər.

Növbəti misala nəzər salaq. Fərz edək ki, sahibkarlıq subyekti "qara mühasibatlığın" idarəçiliyini həyata keçirmək məqsədilə 1C proqram təminatında xüsusi hesabın yaradılmasını təmin edib. Vergi əməkdaşları tərəfindən keçirilmiş yoxlama tədbiri gedişatında "qara mühasibatlığın" idarə edilməsi ilə əlaqədar hazırlanmış proqram təminatının bazası əldə olunub. Belə olan təqdirdə vergi əməkdaşları uyğun məlumat qismində 1C proqramının göstəricilərindən istifadə etməklə vergilərin hesablanmasını həyata keçirmək hüququna malik olacaqlar.

Növbəti sualımız sahiblikdə olmayan məhsulların satışı zamanı vergi məbləğlərinin hesablanmasının dəyişib-dəyişməməsi ilə bağlıdır.

Bu məsələ ilə əlaqədar qeyd edək ki, vergi Məcəlləsində yer alan 67.15-ci maddəsinə uyğun olaraq, vergi əməkdaşlarının keçirdiyi vergi nəzarəti tədbiri gedişatında sahibkarlıq subyektinə aid uçot məlumatlarında, yaxud mühasibat umotuna və ilkin uçota aid olan sənədlərdə qeyd olunmuş məhsulların faktiki olaraq onun sahibliyində olmaması aşkar edildiyi halda vergi məbləğləri bu halın aşkar olunduğu hesabat dövrü üzrə, səyyar vergi yoxlama tədbiri gedişatında isə yoxlamanın əhatə olunduğu sonuncu hesabat dövrünə görə hesablanır.

2022-ci il yanvar ayının 1-də Vergi Məcəlləsinin 67.15-ci maddəsinə ikinci cümlənin əlavə oluması təsdiq edilib. Həmin cümlədə deyilir ki, bu maddənin məqsədləri üçün təqdim olunan məhsullar bir əqd yaxud müqaviləyə əsasən təqdim edilmiş hesab olunur.

İlk öncə Məcəllənin 67.15-ci maddsində ifadə olunmuş tələblərinə

nəzər salaq.

Bu məqsədlə bir misala müraciət edək. Qoy, vergi əməkdaşları tərəfindən sentyabr 2022-ci ildə həyata keçirilmiş operativ vergi nəzarəti nəticəsində 1.200 sayda məhsulun umotdan yayındığı müəyyən olunub. Həmçinin nəzərə almaq lazımdır ki, bu məhsulların ancaq sentyabr ayında deyil, əvvəlki aylar və rüblər ərzində də təqdim olunması ehtimalı kifayət qədər yüksəkdir. Lakin vergi Məcəlləsində yer alan 67.15-ci maddəsində belə bir tələb irəli sürülür ki, sözügedən bu kimi məhsulların təqdim olunmasının ancaq sentyabr ayında nəzərə alınması təmin edilsin.

2022-ci il yanvar ayının 1-dən etibarən belə məhsulların təqdim olunması bir əqd yaxud müqavilə əsasında təqdim edilmiş kimi qəbul olunacaq.

Növbəti misala nəzər salaq. Fərz edək ki, vergi əməkdaşları tərəfindən operativ vergi nəzarətinin gedişatında sahibkarlıq subyektinin uçot məlumatlarında yaxud sənədlərində qeyd edilmiş 40.000AZN miqdarında məhsulların faktiki surətdə onun sahibliyində olmaması müəyyən edilib. Belə olan halda səyyar vergi yoxlama tədbirinin aparılmasına zərurət yaranmaya bilər.

Vergi əməkdaşları bu məhsulları bir müqavilə üzrə son hesabat müddətində təqdim olunması qismində qəbul edir. Məhsullar eyni qiymət üzrə bir şəxsə realizə olunmuş kimi qəbul edildiyinə görə təqdimolunma qiyməti kimi bu məhsulun son satış qiyməti əsas götürüləcək.

İkinci misala keçək. Fərz edək ki, vergi əməkdaşları vergi nəzarəti gedişatında müəyyənləşdirblər ki, sahibkarlıq subyektinə aid uçot məlumatlarına uyğun olaraq, yük gömrük bəyannaməsi, eləcədə (yaxud) electron qaimə fakturası və (yaxud) electron alış sənədlərinə görə 180.000AZN-lik məhsulların daxil olması qeydə alınıb. Operativ vergi nəzarəti tədbiri həyata keçirilərkən sahibkarlıq subyektinin sahibliyində məhsulların olmadığı müəyyən edilib. Vergi əməkdaşları məhsulların təqdim olunması üzrə məbləğin 220.000AZN təşkil etdiyini müəyyənləşdiriblər. Odur ki, Vergi Məcəlləsində yer alan 157.3.1-ci maddədə nəzərdə tutulmuş tələblərə əsasən sahibkarlıq subyektinin məcburiyyət qaydasında əlavə dəyər vergisi məqsədləri üçün qeydiyyata durması təmin olunur. Belə olan təqdirdə məhsulların

təqdim edilməsi gedişatında əlavə dəyər vergisinin hesablanması yerinə yetirilir. Nəticədə, sahibkarlıq subyektinin əlavə dəyər vergisinə görə də həmçinin vergi borcu məbləği yaranır.

İzah edəcəyimiz növbəti məsələ vergi əməkdaşları tərəfindən əlaqəli məlumatların istifadə ardıcıllığının necə müəyyənləşdirilməsi ilə bağlıdır.

Əgər sahibkarlıq subyekti vergi orqanının nümayəndələrinə müvafiq məlumatların ötürülməsini təmin etmirsə, vergi orqanının vəzifəli əməkdaşlarını obyektin ərazisinə buraxmırsa, eləcə də bu kimi digər halların baş verməsi müşahidə olunursa, bu sahibkarlıq subyekti tərəfindən ödənilməsi təmin edilməli olan vergi məbləğinin hesablanması məqsədilə Məcəllənin 67-ci maddəsində bir neçə yanaşmanın nəzərdə tutulduğunu qeyd etməliyik.

Məsələn, sahibkarlıq subyektinin fəaliyyətinə oxşar fəaliyyət həyata keçirən sahibkarlıq subyektinin vergi orqanlarında olan informasiyalardan istifadəsi mümkün kimi görünür. Başqa bir hal qismində sahibkarlıq subyekti ilə AVİS və bu proqram təminatından kənar informasiyalardan istifadə olunmasını qeyd edə bilərik. Daha bir hal vergi əməkdaşları tərəfindən Vergi Məcəlləsinin 67.14 və 83.9-cu maddələrinə istinad olunmaqla Azərbaycanın Nazirlər Kabinetinin 01 mart 2001-ci il tarixli 55 sayıl qərarı ilə təsdiq olunmuş "Vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyənləşdirmək mümkün olmadığı hallarda mənfəətin (gəlirin) hesablanması Qaydaları"na müraciət edilməsidir.

Diqqətçəkən məqam Vergi Məcəlləsinin 67.1-ci maddəsində qeyd olunmuş hallarla bağlı ardıcıllığın necə təyin edilməsi maraqlı və diqqətçəkəm məqam kimi göstərilməlidir.

Vergi Məcəlləsinə əlavə olunmuş 67.17-ci maddəsinə uyğun olaraq, sözügedən Məcəllənin 67-ci maddəsində göstərilən vergitutma obyektinin müəyyənləşdirilməsi ilə əlaqədar ayrı-ayrı halların tənzimlənməsini həyata keçirən maddələr və bu maddədə sıraya görə ardıcıllığ gözlənilmədən tətbiq olunur.

Maddənin mətnindən aydın olur ki, gəlir yaxud xərclərdən hər hansı birinin müəyyənləşdirilməsi mümkünsüz olduğu təqdirdə vergi əməkdaşları birbaşa Azərbaycanın Nazirlər Kabinetinin 01 mart 2001-ci il tarixli 55 saylı qərarı ilə təsdiqlənmiş "Vergi ödəyicisinin əldə etdiyi

mənfəəti (gəliri) birbaşa müəyyənləşdirmək mümkün olmadığı hallarda mənfəətin (gəlirin) hesablanması Qaydaları"na istinad etmək hüququ özündə saxlayır.

İndi isə Vergi Məcəlləsinin 71-1-ci maddəsinə nəzər slaq. Bu maddə electron qaimə-fakturalara həsr olunub.

İlk növbədə electron qaimə-fakturaları təqdim etməli olan şəxslərin siyahısına kimlərin əlavə oludnuğuna aydınlıq gətirək.

Beləliklə, 2022-ci il yanvar ayının 1-nə qədərki dövrdə sözügedən maddəyə uyğun olaraq, electron qaimə-fakturanı aşağıda qeyd edilmiş şəxslərin təqdim edilməsi qanunvericilik tərəfindən tələb olunurdu:

- məhsullari təqdim edən şəxslər;
- işləri həyata keçirən şəxslər;
- xidmətlərin göstərilməsi ilə məşğul olan şəxslər.

Lakin 2022-ci il yanvar ayının 1-dən sonar Vergi Məcəlləsində aparılmış əlevə və dəyişikliklərə uyğun olaraq, məhsulların təsərrüfat-daxili yerdəyişməsini icra edən şəxslər də həmçinin electron qaimə-fakturaları təqdim etməyə borcludur. Bu isə o deməkdir ki, Vergi Məcəlləsində yer alan maddə 71-ə görə, həmin Məcəllənin müəyyən etdiyi hallarda məhsulları təqdim edən yaxud göndərilməsini təmin edən, müvafiq işləri görən, habelə xidmətlər göstərən və məhsulların təsərrüfatdaxili yerdəyişməsini reallaşdıran vergi orqanında uçotda dayanan şəxslər electron qaimə-fakturanı müəyyənləşdirilmiş müddətlər ərzində təqdim və tərtib olunmasını təmin etməlidirlər.

Aydınlıq gətirmək istədiyimiz növbəti sual əlavə dəyər vergisinin qaytarılması ilə əlaqədar hansı hallarda electron qaimə-fakturanın təqdim olunması ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, Məcəllənin 165.6-cı maddəsində göstərilir ki, fiziki şəxs qismində çıxış edən istehlakçıların ölkəmizin ərazisində bina tikintisi fəaliyyətini həyata keçirən şəxslərdən nağdsız qaydada aldıqları yaşayış və qeyri-yaşayış sahələrin müqabilində ödədikləri əlavə dəyər vergisiniin geri qaytarılması şərtlərini və qaydasını səlahiyyətli icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi orqan yaxud qurum tərəfindən təsdiq olunur. Sözügedən maddəyə əsasən qaytarılan məbləğ ödənilməsi həyata keçirilmiş əlavə dəyər vergisinin otuz faizini təşkil edir. 2020-ci il yanvar ayının 1-dən başlayaraq Məcəlləyə əlavə olunan həmin yenilikdən sonar göstərilmiş

qaydalar təsdiq edilməmişdir, odur ki, yaşayış və qeyri-yaşayış sahələri üzrə ödənilməsi həyata keçirilmiş əlavə dəyər vergisinin geri qaytarılması mümkün olmayıb.

Məhz qeyd etdiyimiz səbəbə görə Vergi Məcəlləsində yer alan 165.6-cı maddəsində yer alan tələblərə əsasən, əlavə dəyər vergisinin geri qaytarılması məqsədilə electron qaimə-fakturasının vahid forması ilə əlaqədar Vergi Məcəlləsinə müvafiq bənd əlavə edilmişdir. Sözügedən Məcəllənin 71-1.3-1-ci maddəsinə uyğun olaraq, fiziki şəxs qismində çıxış edən istehlakçının ölkəmizin ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız formada əldə edilmiş yaşayış və qeyri-yaşayış sahələri üçün ödənilməsi həyata keçirilmiş əlavə dəyər vergisinin geri qaytarılması məqsədilə elektron qaimə-fakturanın vahid forması səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyən olunmuş orqan yaxud struktur tərəfindən (Azərbaycan Respublikasının Prezidenti) təsdiq olunur.

Növbəti sualımız hansı növ electron qaimə-fakturaya ehtiyacın olmaması ilə əlaqədardır.

Bu məsələ ilə bağlı qeyd etmək lazımdır ki, Vergi Məcəlləsinin 2022-ci il yanvar ayının 1-ə qədər qüvvədə olmuş 71-1.4-cü maddəsinə uyğun olaraq, ticarət festivalların keçirildiyi dövrdə fiziki şəxslərin ölkəmizin ərazisində aldıqları, istehsal etdikləri və ya kommersiya məqsədləri üçün nəzərdə tutulmayan məhsullar üzrə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması məqsədilə electron qaimə-fakturanın vahid forması səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş orqan yaxud struktur tərəfindən təsdiq olunur. Artıq qeyd etdiyimiz kimi, Azərbaycanda müəyyən məhsullar vardır ki, onlar üzrə əlavə dəyər vergisinin qaytarılması prosesinin müvəfəqiyyətlə tətbiq olunması, eləcə də COVİD-19 pandemiyası səbəbindən ticarət festivalların təşkil edilməməsinə görə Məcəllənin 71-1.4-cü maddəsinin ləğv olunması məqsədəmüvafiq hesab edilmişdir.

Daha bir sual elektron qaimə-fakturaların adları ilə əlaqədar habsı redaktə səciyyəvi, habelə mühüm dəyişikliklərin həyata keçirilməsinə qərarın verilməsi ilə bağlıdır.

Məlum olduğu kimi, sözügedən Məcəllədə yer alan 71-1.5-ci maddədə müvafiq dəyişikliklər aparılmışdır, bundan sonra elektron

qaimə-fakturaların adlarında həyata keçirilmiş dəyişikliklər aşağıdakı kimidir:

Maddə	Elektron qaimə fakturanın əvvəlki redaksiyayadı adı	Elektron qaimə-fakturaların yeni redaksiyada adı	QEYD
71-1.5.3	Məhsulların qaytarılmasından başqa, Vergi Məcəlləsinin 163-cü maddəsinə uyğun olaraq	Məhsulların qaytarılmasından başqa, Vergi Məcəlləsinin 163-cü maddəsinə uyğun olaraq verilən	Dəyişiklik redaktə səciyyəvidir
71-1.5.4	Məhsulların vəkalət verən tərəfindən agentə verilməsi haqqında	Məhsulların (iş və xidmətlərin) vəkalət verən tərəfindən agentə verilməsi barədə	Vəkalət verən tərəfindən agentə verilməsi də mümkündür. Odur ki, düzəliş aparılıb
71-1.5.5	Agent tərəfindən məhsulların alıcılarına təqdim olunan	Agent tərəfindən məhsulları, işləri yaxud xidmətləri alan tərəfə təqdim edilən	Bu dəyişikliyin aparılmasının başlıca məqsədi agentlər tərəfindən subagentlərə məhsulların, işlərin yaxud xidmətlərin təqdim edilməsinin nəzərə alınmasıdır. Praktiki fəaliyyətdə ola bilsin ki, agentlər məhsulları, işləri yaxud xidmətləri alıcılara deyil, subagentlərə təqdim etsinlər
71-1.5.6	Agentlər tərəfindən məhsulların vəkalət verənlərə qaytarılması barədə	Agentlər tərəfindən məhsulların, işlərin yaxud xidmətlərin vəkalət verənlərə qaytarılması	Vəkalət verənlər trəfindən agentlərə işlərin yaxud xidmət-lərin verilməsi kimi, bu şəslər tərəfindən qaytarılması da mümkündür
71-1.5.7	Məhsulların emala verilməsi barədə	Məhsulların emala yaxud saxlanmaya verilməsi barədə	Sahibkarlıq subyekti özünün anbarı olmadığı səbəbdən və bu kimi digər hallarda məhsullarını başqa sahibkarlıq subyektinə saxlanılması məqsədilə vermək hüququna malikdir
71-1.5.8	Emal prosesindən keçmiş məhsulların qaytarılması barədə	Emal prosesindən keçmiş, və ya saxlan-maya verilmiş məhsul-ların qaytarılması barədə	Digər sahibkarlıq subyektinə saxlanılması məqsədilə verilən məhsullar geri qaytarıldığı zaman tətbiq olunur
71-1.5.9	Vergi Məcəlləsinin 177.5-ci maddəsinə uyğun olaraq	Vergi Məcəlləsinin 177.5-ci maddəsinə uyğun olaraq verilən	Redaktə səciyyəvidir

Qeyd etmək yerinə düşərdi ki, Məcəlləyə əlavə edilən 71-1.7-ci maddəyə uyğun olaraq, agentlər tərəfindən məhsulların, işlər yaxud

xidmətlərin subagentlərə verilməsi, eləcə də subagentlər tərəfindən məhsulların, işlər yaxud xidmətlərin alıcılara təqdim olunması prosesində Vergi Məcəlləsinin 71-1.5.5-ci maddəsinə əsasən electron qaimə-fakturanın tərtib olunması, eləcə də müvafiq olaraq əməliyyatın subagentlərə ötürülməsi və subagentlər tərəfindən yerinə yetirilməsi ilə əlaqədar qeydlər aparılır.

Eletrkon qaimə-fakturasının tələb olunan şəkildə qeyd edilməsini prosesin əvvəlindən sonuna kimi həyata keçirilən əməliyyatlar üzərindən nəzər salaq.

Birinci proseslə əlaqədar fərz edək ki, məhsulların sahibi qismində çıxış edən vəkalət verən tərəf 3.000AZN-lik məhsulları agentə təqdim etmişdir. Bu zaman vəkalət verən tərəfindən məhsulların, işlər və xidmətlərin vəkalət verən tərəfindən agentə təqdim olunması barədə electron qaimə-fakturanın tərtib edilməsi təmin olunmalıdır.

İkinci prosesdə fərz edək ki, agent qismində çıxış edən sahibkarlıq subyekti bu məhsulların 2.000AZN-lik hissəsini subagentə təqdim edib. Belə olan halda agent qismində çıxış edən sahibkarlıq subyekti agent tərəfindən məhsulların, işlər yaxud xidmətlərin alıcısına təqdim olunan adlı electron qaimə-fakturanı tərtib etməlidir. Yeri gəlmişkən, agent tərəfindən electron qaimə-fakturasının qeydlər üçün nəzərdə tutulmuş hissəsində əməliyyatın subagentə ötürülməsi ilə bağlı məlumatlar daxil edilməlidir.

Üçüncü proses çərçivəsində isə fərz edək ki, subagent kimi tanınan sahibkarlıq subyekti 1.800AZN-lik məhsulları alıcıya təqdim etmişdir. Belə olan halda da sahibkarlıq subyekti həmçinin agent tərəfindən məhsulların, işlər yaxud xidmətlərin alıcısına təqdim olunan adlı electron qaimə-fakturasını təqdim etməlidir. Və yenə də qeydlər üçün nəzərdə tutulmuş hissəsində prosesin subagent tərəfindən aparılması əks olunmalıdır.

Növbəti sual aksizli məhsullarala əlaqədar yeni electron qaimə-fakturalarının tətbiqinin hansı zərurətdən irəli gəlməsi ilə bağlıdır.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, Məcəlləyə iki yeni elektron qaimə-fakturası əlavə olunub:

- aksizli məhsulların, neft məhsullarından başqa, təsərrüfatdaxili yerdəyişməsi haqqında (maddə 71-1.5.10);
- ixrac qeydi ilə satış haqqında (maddə 71-1.5.11).

İlk öncə aksiz markaları ilə markalanmalı olan məhsulların, neft məhsulları istisna edilməklə, təsərrüfatdaxili yerdəyişməsi ilə bağlı məlumatın verilməsini məqsədəuyğun hesab edirik. Beləliklə, Vergi Məcəlləsində yer alan 71-1.6-cı maddəyə uyğun olaraq, Məcəllənin 71-1.5.10-cu maddəsində nəzərdə tutulduğu növdə electron qaimə-fakturası aksiz markaları ilə markalanmalı olan məhsulların istehsalçıları yaxud idxalçıları tərəfindən tərtib olunur. Bununla bərabər, Vergi Məcəlləsinin yeni əlavə edilən 71-1.8-ci maddəsinə uyğun olaraq, aksizli məhsulların istehsalçısı tərəfindən aksizli məhsulların istehsal binasının hüdudlarından onun mülkiyyətində oln başqa təsərrüfat obyektlərinə və ya öncədən sifariş edilməsi mümkün olmayan əməliyyatlara görə nəqliyyat vasitələrinə buraxılması Vergi Məcəlləsində yer alan 71-1.5.10-cu maddədə nəzərdə tutulan növdə electron qaimə-fakturası vasitəsilə rəsmiləşdirilməsi yerinə yetirilir.

Məlumatlandırmaq məqsədilə qeyd etməyi vacib bilirik ki, Məcəllədə aparılmış son əlavələrin və dəyişikliklərin həyata keçirilməsini nəzərdə tutan qanunvericilik aktının keçid müddəasında göstərilir ki, aksiz markaları ilə markalanmalı olan məhsulların, neft məhsulları istisna edilməklə, təsərrüfatdaxili yerdəyişməsi haqqında elektron qaimə-fakturasının 2022-ci il iyul ayının 1-dən tətbi edilməsi nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki. Vergi Məcəlləsində yer alan 71-1.5.10-cu maddədə göstərilən elektron qaimə-fakturası ilə əlaqədar Vergi Məcəlləsində müvafiq qaydada maliyyə sanksiyalarının tətbiqi də nəzərdə tutulur. Sözügedən Məcəllənin 58.13-1ci maddəsində qeyd olunduğu kimi, Vergi Məcəlləsinin 71-1.5.10-cu maddəsində nəzərdə tutulmuş növdə electron qaimə-fakturası tərtib olunmadan məhsulların bir təsərrüfat obyektindən digərinə göndərilməsi üçün sahibkarlıq subyektinə electron qaimə-faktura ilə rəsmiləşdirilməyən hər bir bu kimi əməliyyat müqabilində 100AZN-lik maliyyə sanksiyası tətbiq olunur.

Növbəti sual "ixrac qeydi ilə satış haqqında" electron qaimə-fakturasının hansı hallarda tətbiq ediləcəyi ilə bağlıdır.

Bununla əlaqədar qeyd edək ki, Məcəlləyə əlavə olunan növbəti electron qaimə-fakturası Vergi Məcəlləsində yer alan 71-1.5.11-ci maddəsinin tələbləri ilə tənzimlənir. "İxrac qeydi ilə satış haqqında" electron qaimə fakturasının tətbiqinin tənzimlənməsi ölkənin Nazirlər

Kabineti tərəfindən 2020-ci il noyabr ayının 14-də verilmiş 448 saylı Qərarı ilə təsdiq olunan "Malların ixrac qeydi ilə satışı" qaydaları vasitəsilə reallaşdırılır. Bu qaydaların 1 nömrəli əlavəsində "Malların ixrac qeydi ilə satış qaiməsi" forması təsdiq olunub.

"Malların ixrac qeydi ilə satışı Qaydası"na
2 nömrəli əlavə

İxrac qeydi ilə satılan malların ixrac edilməsinə dair

MƏLUMAT FORMASI

İxracatçı _____
(tam adı, VÖEN-i)

İstehsalçı _____
(tam adı, VÖEN-i)

Sıra №-si	*"İxrac qeydi ilə satış barədə" elektron-qaimə faktura"nın*[5]			Gömrük bəyannaməsinin		İxrac qeydi ilə satılan malların			
	tarixi	seriyası	nömrəsi	tarixi	nömrəsi	XİF MN kodu	adı	ölçü vahidi	miqdarı, həcmi

Qeyd. Məlumat forması ixracatçı tərəfindən malların gömrük rəsmiləşdirilməsini həyata keçirdikdən sonra 1 (bir) iş günü müddətində istehsalçıya və Dövlət Vergi Xidmətinə təqdim edilir.

Rəhbər _____
M.Y. **Fərdi sahibkar** _____
Baş mühasib _____

Mənbə 1: https://e-qanun.az/framework/46303
Mənbə 2: file:///C:/Users/lenovo/Downloads/e_qaime_Istifadeci_Telimati.pdf

Qaydalara uyğun olaraq, məhsulların ixrac qeydi ilə satışı dedikdə istehsalçı sahibkarlıq subyektləri tərəfindən məhsulların ixrac olunması üçün ixracatçılara bu Qayda vasitəsilə müəyyənləşdirilmiş şərtlər çərçivəsində satışının təşkili nəzərdə tutulur. Qaydalara görə ixrac qeydi ilə satışa çıxarılmış məhsulların ixracı üç ay, yaxud əlavə möhlət verildiyi təqdirdə altı ay ərzində həyata keçirilməlidir. Məhsullar ixracatçının müəyyənləşdirdiyi müddət ərzində ixrac olunması təmin edilmədiyi halda, yaxud göstərilən müddətdən sonra ixracı həyata keçirildiyi təqdirdə, ixrac qeydi ilə reallaşdırılan satış məhsulların

ölkədaxili satışı əməliyyatı kimi dəyərləndirilir.

İndi isə elektron əmtəə-nəqliyyat qaiməsi, habelə yük avtonəqliyyar vasitəsi üçün elektron yol vərəqinin tətbiq edilməsində başlıca məqsədin nədən ibarət olması haqqında izahat verək.

İlk əvvəl nəzərə almaq lazımdır ki, 2022-ci il yanvar ayının 1-dən başlayaraq Vergi Məcəlləsinə əlavə olunan iki maddədən biri 71-3 saylı maddədir ki, burada elektron əmtəə-nəqliyyat qaiməsi və yük avtomobil nəqliyyat vasitələri üçün elektron yol vərəqiniin tətbiqi haqqında danışılır. Vergi Məcəlləsinin 71-3.1-ci maddəsinə uyğun olaraq, "Avtomobil nəqliyyatı haqqında" AR Qanununa əsasən, əmtəə təyinatlı yüklərin nəql edilməsi üçün elektron əmtəə-nəqliyyat qaiməsi və yük avtomobil nəqliyyat vasitələri üçün elektron yol vərəqəsi tərtib olunur.

İlk öncə "Avtomobil məqliyyatı haqqında" AR Qanununa əsasən tətbiq edilməli olan əmtəə təyinatlı yüklərin nəql edilməsi ilə əlaqədar tələblərə nəzər salaq. Sözügedən Qanunun 40.1-ci maddəsinə uyğun olaraq, avtonəqliyyat vasitələri ilə əmtəə təyinatlı yüklərin daşınmasının rəsmiləşdirilməsi əmtəə-nəqliyyat qaiməsi vasitəsilə yerinə yetirilir. Qeyd etdiyimiz həmin bu qaimə vasitəsilə rəsmiləşdirilməsi həyata keçirilmiş əmtəə təyinatlı yüklər daşınma məqsədiləri üçün qəbul oluna bilməz.

Sözügedən maddənin məzmunundan aydın olur ki, əmtəə təyinatlı yüklərin nəql edilməsi müqabilində elektron əmtəə-nəqliyyat qaiməsi qanunvericilikdə nəzərdə tutulmuşdu. Lakin bir məsələ qeyd edilməlidir ki, 2022-ci il yanvar ayının 1-dən başlayaraq Vergi Məcəlləsində bu qaimələrin elektronlaşdırılması tələbi öz əksini tapmışdı. Bununla yanaşı, qanunda əmtəə-nəqliyyat qaiməsində qeyd olunması mütləq xarakter daşıyan tələblər də qeyd edilib ki, bunların sırasında aşağıdakılar göstərilməlidir:

- yük alan tərəfin rekvizitləri;
- yükün çatdırılmalı olan yer;
- yük yerlərinin sayı, qabları, tərkibi və brutto çəkisi;
- əgər yükün özü qiymətli obyektdən ibarətdirsə - həmin yükün dəyəri;
- əgər yüklər xüsusilə təhlükəli və potensialca təhlükəlidirsə - təhlükələrin hansı növdən ibarət olması, eləcə də bu kimi hallarda icar edilməli olan ehtiyat tədbirləri;

- qaimənin tərtib olunduğu yeri və tarixi;
- yük göndərən tərəfin adı, ünvanı;
- dayımağı həyata keçirən tərəfin adı, ünvanı;
- yükləmə həyata keçirilən yer və tarix;
- yük yerlərinin adı və nömrələri;
- daşımanın dəyəri (yüklərin daşınması haqqı, əlavə məsrəflər);
- zərurət yarandığı təqdirdə daşımanın şərtləri haqqında yükü göndərən tərəfin xüsusi direktivləri.

Qanunun 40.6-cı maddəsində göstərilir ki, ölkələrarası avtomobil yük daşımaları həyata keçirilərkən beynəlxalq nümunəli məhsul-nəqliyyat qaiməsi tərtib edilir. Həmin maddənin məzmunundan aydın olur ki, qaimə sənədində daşımanı reallaşdırdığı şəxslərlə bərabər daşınan məhsulların həcm göstəriciləri barədə də müvafiq informasiyaların əks etdirilməsi əhəmiyyətlidir.

Nazirlər Kabineti tərəfindən 2009-cu il sentyabrın 17-də verilmiş 142 saylı qərarla "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması" qaydaları təsdiq edilmişdir. Sözügedən qaydaların 3.4-cü bəndinə uyğun olaraq, avtonəqliyyat vasitələri ilə yüklərin daşınması haqqında müvafiq qaydada müqaviələlərin imzalanmasının rəsmiləşdirilməsi qaydalardakı nümunəvi formaya uyğun şəkildə 3 nüsxədə hazırlanmış əmtəə-nəqliyyat qaiməsi ilə həyata keçirilir. Əmtəə-nəqliyyat qaiməsi vasitəsilə rəsmiləşdirilməsi aparılmamış yüklərin daşınması qeyri-qanunidir. Nazirlər Kabineti tərəfindən verilmiş 142 saylı qərarın və qeyd edilmiş qaydaların yerinə yetirilməsi ilə bağlı nəzarət tədbirləri Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Daxili İşlər Nazirliyi tərəfindən icra olunur.

Növbəti aydınlıq gətirəcəyimiz məsələ elektron əmtəə-nəqliyyat qaimələrinin və avtonəqliyyat vasitələri üçün nəzərdə tutulmuş elektron yol vərəqələrinin kimlər tərəfindən tərtib edilməsi ilə bağlıdır.

Nəzərə almaq lazımdır ki, Vergi Məcəlləsində yer alan 71-3.2-ci maddəyə uyğun olaraq, elektron əmtəə-nəqliyyat qaiməsinin və yüklərin daşınmasını həyata keçirən avtonəqliyyat vasitələri üçün elektron yol vərəqinin forması, istifadəsi, uçotunun aparılması və tətbiq edilməsi qaydaları səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən orqan yaxud qurum (Azərbaycanın nazirlər Kabineti) tərəfindən təsdiqlənir.

Bununla yanaşı, Məcəllədə aparılmış son dəyişiklikləri ehtiva edən

qanunun keçid müddəasında deyilir ki, Azərbaycanın nazirlər Kabinetinin təsdiqləyəcəyi elektron əmtəə-nəqliyyyat qaiməsinin və yük avtonəqliyyatı üçün nəzərdə tutulmuş elektron yol vərəqəsinin forması, istifadəsi, uçotunun aparılması və tətbiq edilməsi qaydaları ilə bir gündə qüvvəyə minir.

Tamamilə aydındır ki, elektron əmtəə-nəqliyyat qaiməsi və yük avtonəqliyyatı üçün elektron yol vərəqəsi ilə əlaqədar yaranan sualların böyük əksəriyyətinə Nazirlər Kabineti tərəfindən təsdiqlənəcək qaydalarla tanış olduqdan sonra aydınlıq gətiriləcək. Qaydalar təsdiq olunana qədər elektron əmtəə-nəqliyyat qaiməsinin və yük avtomobil nəqliyyatı üçün elektron yol vərəqəsiin tətbiqi ilə əlaqədar aşağıdakıları bildirməyi vacib hesab edirik.

Əvvəla, elektron əmtəə-nəqliyyat qaiməsinin tətbiqi ilə əlaqədar qedy edilməlidir ki, onun tərtib edilməsinin zəruriliyi avtomobil nəqliyyatı vasitəsilə daşınan məhsullara nəzarətin gücləndirilməsi zəruriliyindən irəli gəlir. Praktiki fəaliyyətdə belə hallarda rast gəlmək mümkündür ki, sahibarlıq subyekti kənd təsərrüfatında istehsal olunmuş məhsulları "Malların alış aktları" vasitəsilə əldə edərək kənd təsərrüfatı məhsullarının bazarlarında satışını həyata keçirir. Sonra qeyd etdiyimiz alış aktı ləğv olunur, məhsulların təqdim edilməsi barədə müvafiq informasiyalar vergi orqanlarına bəyan edilmir. "Malların alış aktları" məhsulların avtomobil nəqliyyatı ilə daşınması zamanı müvəqqəti istifadə olunan sənəd qismində çıxış etmir.

Aparılmış son dəyişikliklərdən sonra isə bütün əmtəə yönümlü məhsullar və yüklər barədə informasiya vergi orqanlarının elektron bazasına daxil edilir, odur ki, ilkin uçot sənədlərinin ləğvi mümkün deyil. Məhz bu səbəbə görə Vergi Məcəlləsinə əlavə olunan 23.1.3-1-ci maddəyə uyğun olaraq, vergi orqanlarının vəzifələrinə məhsulların, o cümlədən də kənd təsərrüfatı təyinatlı məhsulların topdan satışını həyata keçirən ticarət nöqtələrində, bazarlarda nəzarət postlarının qurulması və həmin nöqtələrə Vergi Məcəlləsi ilə müəyyən olunan qaydalara riayət edilməklə sənədləşdirilməyən, eləcə də əmtəə-nəqliyyat qaiməsi verilməmiş məhsulların gətirilməsinə yol verməməsi istiqamətində səlahiyyətləri reallaşdırmaq nəzərdə tutulub.

Daha bir nümunə qismində vətəndaşlar tərəfindən toplanılan metal qırıntılarının uyğun sahibkarlıq subyektlərinə təhvil verilməsi prosesini

qeyd etmək olardı.

Yüklərin daşınması üçün nəzərdə tutulmuş avtonəqliyyat vasitələri üçün elektron yol vərəqinə gəldikdə onu deməliyik ki, burada daha bir məqsəd kimi sahibkarlıq subyektinin sərəncamında olan avtonəqliyyat vasitələrinin benzin, sürtgü yağları və bu kimi digər xərclərin düzgün müəyyən edilməsindən ibarətdir. Məsələn, fərz edək ki, vergi əməkdaşları tərəfindən vergi nəzarətinin həyata keçirilməsi nəticəsində avtonəqliyyat vasitəsinin xərclərinin təyin edilməsi istiqamətində bu və ya digər çətinliklər yaşanır. Vergi Məcəlləsində aparılmış son dəyişikliklərdən sonra vergi əməkdaşları sözügedən məsrəfləri elektron məlumatlar bazasına daxil olunan yük avtomobili üçün elektron yol vərəqəsindən təyin edə biləcəklər. Sahibkarlıq subyektinin məhsullarının onun sərəncamında olmayan avtonəqliyyat vasitəsi ilə daşınıldığı təqdirdə yük avtomobilləri üçün elektron yol vərəqəsinin məhsulları təqdim edən şəxs deyil, daşınması ilə məşğul olan şəxs tərəfindən tərtib olunması daha düzgün addım kimi dəyərləndirilir.

Vergi Məcəlləsinin 72-ci maddəsi vergi hesabatının tərtib olunması və təqdim edilməsi qaydasına aydınlıq gətirir.

Həmin maddə ilə bağlı aydınlıq gətirəcəyimiz ilk sual vergi hesabatlarının təqdim olunmasında köklü dəyişikliklərin nədən ibarət olması ilə bağlıdır.

Sahibkarlıq subyektlərinin təqdim etdikləri vergi hesabatları ilə əlaqədar köklü dəyişikliyin edilməsi Məcəlləyə əlavə olunmuş 72.4-1-ci maddə ilə əlaqədardır. Bu maddəyə uyğun olaraq, Vergi Məcəlləsinin 163-cü maddəsində qeyd edilmiş. Halarda vergi məbləğlərinin dəqiqləşdirilməsi qiymətləndirmə bazasında dəyişikliklərin həyata keçirildiyi hesabat dövründə yerinə yetirilir və sözügedən dövr üzrə sahibkarlıq subyektinin təqdim etdiyi vergi bəyannaməsində dəqiqləşdirlir.

İlkin təəssürat belə görünə bilər ki, haqqında danışağıdığımız dəyişiklik ancaq və ancaq əlavə dəyər vergisi üzrə təqdim olunan bəyannamə ilə bağlıdır. Məsələ burasındadır ki, Vergi Məcəlləsində yer alan 163-cü maddə bilavasitə əlavə dəyər vergisi ilə əlaqəli halların tənzimlənməsini həyata keçirir. Sahibkarlıq subyekti istənilən növ bəyannamələrə görə sözügedən Məcəllənin 72.4-1-ci maddəsinə uyğun olaraq cari bəyannaməyə görə dəqiqləşdirmələri reallaşdırmaq imkanı yaranacaq. Vergi Məcəlləsində yer alan 72.4-1-ci maddəsinə əsasən

Məbu Məcəllənin 163-cü maddəsinə istinadlar dəqiqləşdirmə işləri ilə əlaqədar halların müəyyənləşdirilməsindən irəli gəlir. Qeyd etmək yerinə düşərdi ki, sahibkarlıq subyektləri mühasibat uçotunda aparılan əməliyyatlarla əlaqədar bu və ya digər dəyişikliklərə getdikləri halda əvvəlki dövrü deyil, cari tarixə görə dəqiqləşdirilmiş mühasibat yazılışını qeyd etməlidir.

İlk öncə Vergi Məcəlləsində yer alan 163-cü maddəsində göstərilən halları dəyərləndirək. Bunun ardınca isə əyani misallarla vergi bəyannaməsinin təqdim olunması məsələlərinə də nəzər salaq.

Beləliklə, Vergi Məcəlləsinin 163.1-ci maddəsində göstərilir ki, burada aşağıdakı hallar üzrə mal göndərənlərin, iş görənlərin və xidmət göstərənlərin verginin tətbiq olunduğu əməliyyatlarına aid edilir:

- əməliyyat tam yaxud qismən ləğv edildiyi hallarda, o cümlədən məhsul tam yaxud qismən geri qaytarıldığı zaman;
- əməliyyat xarakterində dəyişikliklər baş verdiyi hallarda;
- qiymətlərin aşağı salınması yaxud bu və ya digər səbəblərə görə əməliyyat üzrə razılaşdırılmış kompensasiya dəyişdikdə; və ya
- sahibkarlıq subyekti elektron qaimə-faktura təqdim etdikdən sonra vergiyə cəlb olunan dövriyyənin dəqiqləşdirilməsinə əsaslar yaradan hallar aşkar edildikdə və həmin dəqiqləşdirmələr qanunvericiliyə uyğun şəkildə həyata keçirildikdə.

İndi isə, yuxarıda dediyimiz kimi, praktiki məsələlərə keçək.

Fərz edək ki, sahibarlıq subyekti 2021-ci ilin dekabr ayı ərzində 30.000AZN məbləğində məhsulu alan tərəfə təqdim edib. Alan tərəf 2022-ci ilin fevralında bu məhsulların 12.000AZN-lik miqdarını geri qaytarmışdır. Sahibkarlıq subyekti 2021-ci ilin mənfəət vergisi üzrə bəyannamədə 30.000AZN məbləğini gəlir qismində tanıyıb. Məhsulların geri qaytarılması prosesi 2022-ci ilin fevralında müşahidə olunub, odur ki, sahibkarlıq subyekti 2021-ci ilə görə deyil, məhz 2022-ci ilə görə təqdim etdiyi vergi hesabatlarında dəqiqləşdirmələr aparmalıdır.

Daga bir misala nəzər salaq. Fərz edək ki, sadələşdirilmiş vergi üzrə fəaliyyət göstərən sahibkarlıq subyekti tərəfindən 2022-ci ilin birinci rübündə təqdim olunmuş 3.000AZN-lik məhsul müqabilində ödəniş həyata keçirib, bu səbəbə görə, həmin rəqəmlər bəyannamədə də əks olunub. 2022-ci ilin ikinci rübündə alan tərəf keyfiyyət problemlərinə görə məhsulu geri qaytarmaq qərarına gəlib. Belə olan zaman artıq

sözügedən sahibarlıq subyektinin 2022-ci ilin birinci rübünə aid dəqiqləşdirmələrin aparılmasına zərurət yoxdur və bütün dəqiqləşdirmələr məhsulların geri qaytarıldığı həmin ilin ikinci rübü ilə bağlı vergi bəyannaməsində aparılacaq.

Növbəti misal. Qoy sahibkarlıq subyekti 2022-ci ilin birinci rübündə vətəndaş yaxud fiziki şəxsdən icarəyə götürdüyü ofiz üçün beş aylıq ödənişi əvvəlcədən ödəmək qərarına gəlib. Sahibkarlıq subyekti birinci rübə görə təqdim etdiyi ödəmə mənbəyindən tutulan vergi bəyannaməsi sənədində vergilərin bəyan olunmasını təmin edib. 2022-ci ilin ikinci rübündə ikitərəfli razılaşmaya uyğun olaraq icarə müqaviləsinə xitam verilmişdir və bu səbəbə görə sahibkarlıq subyektinin ödənişi apardığı beş aylıq icarə haqqından iki ayın məbləği geri qaytarılıb. Belə olan təqdirdə sahibkarlıq subyekti artıq 2021-ci ilin birinci rübünə görə dəqiqləşdirilmiş bəyannamə təqdim etməyəcək, ikinci rübə görə vergi orqanlarına təqdim etdiyi vergi bəyannaməsində isə müvafiq dəqiqləşdirmələrin aparılması təmin ediləcəkdir.

Bu məsələ ilə bağlı apardığımız izahların sonunda qeyd etməyi vacib bilirik ki, sahibkarlıq subyektinin vergi əməkdaşları tərəfindən səyyar vergi yoxlama tədbirini keçirildiyi dövrə dəqiqləşdirmə vermək hüququ məhdudlaşdırıldığına görə, bir qədər qeyd olunmuş hallarda bu və ya digər problemlərlə üz-üzə qalmalı olurdular. Məsələ burasındadır ki, aparılmış dəyişikliklərdən sonra Vergi Məcəlləsinin 163-cü maddəsində qeyd edilən hallara görə əvvəlki dövrlər üzrə təqdim olunan hesabatlar üzrə dəqiqləşdirmə aparılmasına zərurət yaranır, odur ki, bu problem də aradan götürülmüş olur.

Nəzər salacağımız növbət maddə Vergi Məcəlləsinin 76-cı maddəsidir. Bu, banklar və bank əməliyyatlarının ayrı-ayrı növlərinin reallaşdırılmasını həyata keçirən kredit təşkilatları tərəfindən məlumatların verilməsi tənzimlənməsinə həsr olunmuş maddədir.

Aydınlıq gətirəcəyimiz ilk məsələ bundan ibarətdir: banklar tərəfindən vergi orqanlarına təqdim edilməli olan informasiya bütün vergi ödəyicilərini əhatə edirmi?

Vergi Məcəlləsində yer alan 76.1-1-ci maddəsində aparılan dəyişikliklərdən sonra bank əməliyyatları həyata keçirən bütün sahibkarlıq subyektləri şəhadət-dublikat əsasında açılmış hesablar ürə yerinə yetirilmiş əməliyyatlar barədə məlumatları vergi əməkdaşlarına

hər ay təqdim etməlidir. Məsələn, Vergi Məcəlləsində yer alan 76.1-1-ci maddəyə uyğun olaraq, həmin Məcəllənin 76.1-ci maddəsində yer alan müddəalardan asılı olmayaraq, sahibkarlıq subyektinin vergi öhdəliklərinin müəyyənləşdirilməsi üçün ~~ƏDV qeydiyyatında olan~~ sahibkarlıq subyektlərinin şəhadətnamə-dublikat əsasında açılması təmin edilmiş hesabları üzrə həyata keçirilmiş əməliyyatlar barədə aylıq informasiyalar ~~banklar~~ bank əməliyyatları reallaşdıran şəxslər tərəfindən elektron qaydada hər ay yekunlaşdıqdan sonra növbəti ayın onuna kimi səlahiyyətli icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi orqan yaxud strukturin təsdiqlədiyi formada səlahiyyətli icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi orqan yaxud struktura təqdim olunur.

Real fəaliyyətdə bank əməliyyatların həyata keçirilməsinə görə cavabdehlik daşıyan şəxslər hansı sahibkarlıq subyektinin əlavə dəyər vergisi ödəyicisi qismində uçotda olub-olmamasını təyin etməkdə çətinliklərlə üzləşirdi. Odur ki, Məcəllədə yer alan 76.1-1-ci maddəsində aparılan düzəlişlərdən sonra sözügedən texniki problemlərin aradan qalxmasına kömək etməklə bərabər, vergi əməkdaşlarının bütün sahibkarlıq subyektlərinin bank hesabları üzrə hərəkət etmələri üzərində nəzarətin həyata keçirilməsi üçün hüquqi baza da formalaşdırılmış oldu.

Vergi Məcəlləsinin haqqında danışacağımız növbəti maddəsi maddə 78-dir. Burada vergi öhdəliklərinin yerinə yetirilməsindən bəhs olunur.

Bu kontekstdə ilk aydınlıq gətirəcəyimiz məsələ vergi öhdəlikləri ilə əlaqədar hansı uyğunlaşdrmaların həyata keçirilməsi ilə bağlıdır.

Məsələ burasındadır ki, Vergi Məcəlləsində yer alan 78.1-ci maddəsində aparılmış dəyişikliklərin əsas mahiyyəti vergi məbləğlərinin tərkibi ilə bağlı müfəssəl açıqlamaların təmin edilməsidir. Məsələn, sözügedən maddədə yer alan "vergi məbləği" söz birləşməsi "vergilərin (o cümlədən cari vergi ödəmələrinin, hesablanmış faizlərin və tətbiq olunmuş maliyyə sanksiyalarının" ifadəsi ilə əvəz olunmuşdur. Yəni, Məcəllənin 78.1-ci maddəsinə uyğun olaraq, vergi öhdəliklərinin yerinə yetirilməsi ödənilməsi zəruri olan ~~vergi məbləğlərinin~~ vergilərin (o cümlədən cari vergi ödəmələrinin), hesablanmış faizlərin və tətbiq olunmuş maliyyə sanksiyalarının müəyyənləşdirilmiş müddətlərdə və qaydada ödənilməsinin təmin edilməsidir. Sahibkarlıq subyektinin hesablarında yaxud kassasında vəsaitlərin, eləcə də onun əmlaklarının

mövcudluğundan asılı olmayaraq vergi öhdəliklərinin icra edilməsi məcburi xarakter daşıyır.

Növbəti sual vergi borclarının zaminlər tərəfindən ödənilməsinin zamin qismində çıxış edən sahibkarlıq subyektinin vergi öhdəliklərinə təsiri ilə bağlıdır.

Bununla əlaqədar demək lazımdır ki, 2022-ci il yanvar ayının 1-də Vergi Məcəlləsinin 78.4-cü maddəsinə belə bir məzmunlu 2-ci hissənin əlavə edilməsi qərara alınmışdır. Həmin hissədə deyilir ki, Vergi Məcəlləsinndə yer alan 85.9-1.2-ci maddəsinə əsasən, zamin qismində çıxış edən sahibkarlıq subyekti tərəfindən vergi borc məbləğinin ödənilməsinə möhlət verilmiş sahibkarlıq subyektinin vergi öhdəliklərinin yerinə yetirilməsi sözügedən öhdəliklərin başqa şəxslərin üzərinə köçürülməsi hesab olunmur və zaminlər tərəfindən vergi borcu öhdəliyi olan şəxslərin vergi öhdəliklərinin icra olunması zamin qismində çıxış edən sahibkarlıq subyektlərinin vergi öhdəlikləri ilə əlaqədar ödənişlərinə aid oluna bilməz.

Həmçinin qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində yer alan 85-ci maddəsinə aparılmış dəyişikliklərdən sonra, təyin olunmuş bu və ya digər limiti aşan borca malik sahibkarlıq subyektinin vergi borcunun ödənilməsinə möhlətin təqdim olunması zamanı bank zəmanəti ilə bərabər zaminlik müqaviləsinin də işlənib hazırlanması mümkündür. Zamin qismində çıxış edəcək sahibkarlıq subyekti ilə əlaqəli bütün tələblər barədə Vergi Məcəlləsində yer alan 85-ci maddəsinə əlavə edilənlər haqqında müfəssəl bilgilər təqdim olunacaq.

İndi isə Vergi Məcəlləsində yer alan 78.4-cü maddəsində öz əksini tapmış yeni tələbi praktiki misal vasitəsilə daha ətraflı şərh və izah edək.

Məsələn, iri vergi ödəyicisi qismində çıxış edən şəxs 400.000AZN məbləğindən artıq olan borc öhdəliyinə vergi əməkdaşlarının möhlət verilməsi məqsədilə digər sahibkarlıq subyekti ilə zaminlik müqaviləsini bağlamaq qərarına gəlir və buna nail olur. Beləliklə, zamin qismində çıxış edən digər sahibkarlıq subyekti ilə zaminlik müqaviləsi bağlanılır. Zəmin qismində çıxış edən sahibkarlıq subyekti təminat altına aldığı vergi borc məbləğinin 20.000AZN-lik hissəsinin ödənişini həyata keçirir. Məcəllənin 78.4-cü maddəsinin tələblərinə uyğun olaraq, sözügedən borc məbləğinin ödənilməsi zamin tərəfinin üzərində olacaq vergi öhdəliyinə aid edilməsi, başqa sözlə, vergilərlə bağlı yaranmış

öhdəliklərin başqa şəxsin üzərinə ötürülməsi hesab olunmayacaq.

İndi isə maddə 81-ə nəzər salaq. Burada vəfat etmiş, fəaliyyət qabiliyyətindən məhrum olmuş yaxud itkin düşmüş fiziki şəxslərin vergi öhdəliklərinin necə yerinə yetirilməli olması ilə tanış ola bilərik.

Həmin maddə ilə bağlı aydınlıq gətirəcəyimiz ilk sual vəfat etmiş sahibkarlıq subyektinin sahib olmuş vergi öhdəliklərinə hansı güzəştlərin tətbiq olunacağı ilə bağlıdır.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, dünyasını dəyişmiş yaxud qanunvericilik qaydasında vəfat etmiş hesab olunan fiziki şəxsin vergi öhdəlikləri ilə əlaqədar kifayət qədər ciddi dəyişikliklər həyata keçirilib. Vergi Məcəlləsində yer alan 81.1-ci maddəsində aparılmış iki dəyişiklikdən biri qanunvericiliyin tələblərinə uyğunlaşmadır. Bununla bərabər, digəri vergi borclarının ödənilməsi ilə bağlı güzəştlərin tətbiqini nəzərdə tutur.

İlkin dəyişikliyin başlıca məzmunu odur ki, Vergi Məcəlləsində yer alan 81.1-ci maddəsinə "Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ölmüş hesab edilmiş" ifadəsinin də əlavə olunması təmin edilmişdir. Mülki Məcəllənin 41.1-ci maddəsinə uyğun olaraq, hər hansı bir şəxsin yaşayış yerində onun harada olması haqqında 5 il müddəti dövründə bu və ya digər informasiyaların olması faktı öz təsdiqini tapmasa, eləcə də, o, ölüm təhlükəsi yaradan yaxud bu və ya digər bədbəxt hadisə nəticəsində öldüyünü hesab etməyə əsas yaradan şəraitdə xəbərsiz itki düşmüş hesab olunarsa, eləcə də onun haqqında 6 ay dövründə xəbər olmazsa, həmin şəxsin məhkəmə qaydasında ölmüş hesab edilməsi mümkündür.

Həmçinin, hərbi əməliyyatların aparılması ilə bağlı xəbərolmadan itkin düşən əsgər və zabitlər yaxud digər şəxslər əməliyyatların bitdiyi tarixdən minimum 2 il keçəndən sonra məhkəmə orqanları tərəfindən ölmüş hesab oluna bilərlər.

Vergi Məcəlləsinin 81.1-ci maddəsində aparılmış dəyişikliklərə əsasən, vergi əməkdaşları vəfat etmiş yaxud ölkə qanunvericiliyi tərəfindən müəyyən olunmuş qaydada ölmüş hesab edilən fiziki şəxsin bütün vergiləri deyil, ancaq əmlak vergiləri üzrə yaranmış vergi öhdəliklərini onun varisi yaxud varisləri miras qalmış əmlakların dəyəri çərçivəsində və mirasın alındığı gündəki payına mütənasib surətdə ödəyir.

Dediklərimizi misalla daha da aydınlaşdırmağa çalışaq.

Fərz edək ki, vəfat olmuş şəxsin 30.000AZN gəlir vergisi, 4.000 AZN əlavə dəyər vergisi, habelə 2.500 AZN əmlak vergisi üzrə borc məbləği qalmışdır. Vergi əməkdaşları Məcəllənin 81.1-ci maddəsində yer alan tələblərə əsasən ancaq 2.500AZN-lik məbləğdə əmlak vergisi üzrə vergi öhdəliklərini həmin şəxsin varisindən yaxud varislərindən miras qalmış əmlakın dəyəri çərçivəsində və mirasın alındığı gündəki payına mütənasib surətdə ödənilməsi tələbini irəli sürə bilərlər.

İndi isə hansı hallarda sahibkarlıq subyektinin vergilərlə bağlı yaranmış borcların əvvəlki dövrlər üzrə nəzərə alınacağı məsələsinə aydınlıq gətirək.

2022-ci il yanvar ayının 1-də Vergi Məcəlləsində yer alan 83.1-ci maddəsində aparılmış dəyişikliyə əsasən belə bir məzmundə əlavənin olunmasına qərar verilmişdir ki, Vergi Məcəllənin 85.4-cü maddəsində qeyd olunmuş müddətlər nəzərə alınmaq şərtilə, sahibarlıq subyekti tərəfindən vergi orqanlarında uçota dayandığı günə qədər əldə edilmiş gəlirlər, xaricdən daxil olmuş gəlirlərə görə hesablanmış vergi məbləğləri də daxil olmaqla sözügedən gəlirlərin aid olduğu hesabat dövrləri üzrə ayrı-ayrı hesablanmaqla vergi əməkdaşları tərəfindən vergi orqanlarının uçot sənədlərində öz əksini tapır. Sahibkarlıq subyekti tərəfindən xarici dövlətlərdə əldə etdiyi gəlirlərə görə vergilərin hesablanması həyata keçirilərkən, Vergi Məcəlləsinin 127-ci maddəsinin tələbləri nəzərə alınmalıdır.

Real fəaliyyətdə belə bir hallar olur ki, sahibkarlıq subyektinin uçota götürüldüyü dövrdən əvvəl də onun gəlirlərinin olduğunu müəyyən etmək mümkün olsun. Bu isə o deməkdir ki, aparılmış dəişikliklərdən sonra vergi orqanları sahibarlıq subyektinin uçota götürüldüyü günə qədər onu tərəfindən əldə olunmuş gəlirlər, həmçinin xarici dövlətlərdəki fəaliyyətdən əldə etdiyi gəlirlərə görə vergilərin bu gəlirlərin aid edildiyi hesabat dövrlərinə görə ayrılıqda hesablanmasını həyata keçirmək iqtidarında olacaq.

Yuxarıda dediklərimizə aid bir neçə misala nəzər salaq. İlk öncə fərz edək ki, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxs 2022-ci il fevral ayının 14-də vergi orqanında uçota alınmışdır. Bu zaman aydın olmuşdur ki, sahibkarlıq subyektinin həyata keçirdiyi fəaliyyət nəticəsində əldə edilmiş gəlir məbləğləri 2021-ci il iyul ayının 5-dən başlayaraq daxil olmağa başlayıb. Belə olan halda sahibkarlıq

subyektinə 2022-ci il fevral ayının 14-də VÖEN verilsə belə, şəxsi hesab vərəqəsinin başlanğıc günü, eləcə də vergi öhdəliklərinin bəyan olunması tarixin başlanğıcı kimi 2021-ci ilin III rübü götürüləcək.

Növbəti misal. Sahibkarlıq subyekti 23 fevral 2022-ci ildə uçota götürülür. Lakin həmin subyektin beş illik sahibkarlıq fəaliyyətini həyata keçirməsi müəyyən edilmişdir. Bu zaman vergi əməkdaşları ancaq üç il əvvəlki dövrlərə görə vergi məbləğlərinin hesablanması prosesini hesabat dövrləri üzrə ayrl-ayrılıqda reallaşdıracaqlar. Məsələ burasındadır ki, Məcəllənin 83.1-ci maddəsinə uyğun olaraq, 85.4-cü maddəsində öz əksini tapan müddətlərin nəzərə alınması təmin edilməlidir.

Sözügedən Məcəllənin 85.4-cü maddəsinə uyğun olaraq, vergi əməkdaşları tərəfindən vergi tətbiqinə cəlb olunmuş hesabat dövrü bitdikdə, üç il müddətində sahibkarlıq subyektinin vergisini, faizlərini, habelə maliyyə sanksiyalarını hesablamaq, habelə hesablanması həyata keçirilmiş məbləğləri təkrarən hesablamaq, vergi, faiz və maliyyə sanksiyaları ilə bağlı hesablanması aparılmış (təkrarən aparılmış) məbləğləri vergiyə cəlb olunan hesabat dövrü bitdikdə beş il müddətində tutmaq hüququnu özündə saxlayır.

İndi isə Vergi Məcəlləsinin 85-ci maddəsi ilə tanış olaq. Həmin maddə vergi öhdəliyinin icra olunması müddətlərini və bu müddətlərin dəyişdirilməsini tənzimləyir.

Bu maddə ilə bağlı aydınlıq gətirəcəyimiz ilk sual vergi müddətlərinin pozulması şərtilə ödənilməsində nələrin dəyişdiyi ilə bağlıdır.

İlk öncə qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində yer alan 85.2-ci maddəsində iki düzəliş reallaşdırılıb. Əvvəla, birinci düzəliş cari vergi ödənişləri üzrə müddətlərin pozulması müqabilində sahibkarlıq subyektinin faizlərin ödəməsi ilə bağlıdır. İkinci düzəliş isə daha çox redaktə səciyyəvidir. Yəni, sözügedən maddədə "müddətləri pozulmaqla ödənilməsinə" ifadəsi "müddətlərin pozulmasına" ifadəsi ilə əvəzlənib.

Məcəllədə yer alan 85.2-ci maddəsindən oxuyuruq ki, vergilərin (həmçinin, cari vergi ödənişlərinin) ödənilmə müddətlərində pozulmalar aşkar edildiyi təqdirdə, sahibkarlıq subyekti Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada və şərtlər çərçivəsində faiz ödəməlidir.

Bununla bağlı praktiki misala nəzər salaq. Fərz edək ki, sahibkarlıq subyekti cari vergilərə görə toplanmış məbləğin ödənilməsini hər hesabat rübü bitəndən sonra gələn ayın on beşinə kimi tamamlamalıdır.

Sahibkarlıq subyekti bu müddətləri pozmaq şərtilə ödənişləri aparırsa, o zaman əmələ gələn cari vergi məbləğləri üzrə Vergi Məcəlləsinin 59.1-ci maddəsinə əsasən, cari vergi məbləğinin 0,1%-i qədər faiz ödənişini həyata keçirməlidir.

Növbəti sual vergi yoxlama tədbirləri ilə əlaqədar üç illik müddət məsələsinin hansı yeni hala tətbiq edilməyəcəyi ilə bağlıdır.

Bu suala cavab vermək məqsədilə ilk əvvəl Vergi Məcəlləsinin 85.5-1-ci maddəsinə müraciət edək. Həmin maddədə aparılmış dəyişikliklərə uyğun olaraq, Məcəllədə yer alan 85.4-cü və 85-ci maddələrinə əsasən təyin olunan müddət məhdudiyyəti, əvvəlki redaksiyadakı kimi məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları ilə bərabər, Vergi Məcəlləsinin 38.3-9-cu maddədə qeyd olunmuş hallara uyğun şəkildə tətbiq edilməyəcək.

Həmçinin qeyd etmək lazımdır ki, Məcəllənin 38.3.9-cu maddəsində əks etdirilən tələblərə uyğun olaraq, aşağıda göstərilmiş hallarda Vergi Məcəlləsinin 85-ci maddəsində qeyd olunmuş müddətlərdən asılı olmayaraq, ötən səyyar vergi yoxlama tədbiri ilə əhatə edilən dövr ehtiva olunmaqla üst instansiyalı vergi orqanının verdiyi qərarları rəhbər tutaraq:

- vergi yoxlama tədbirinin nəticələrinə etiraz edən sahibkarlıq subyektləri növbədənkənar səyyar vergi yoxlama tədbirinin reallaşdırılmasını yazılı formada tələb etdiyi təqdirdə (Vergi Məcəlləsinin 38.3.9.1-ci maddəsi);
- sahibkarlıq subyekti tərəfindən səyyar vergi yoxlama tədbirinin gedişatında sənədlər təqdim olunmadığı halda, eləcə də vergi yoxlama tədbirinin nəticələrinə əsasən sahibkarlıq subyektinin Vergi Məcəlləsinin tələblərinin pozulmasına görə məsuliyyət daşıdığı barədə vergi orqanı tərəfindən çıxarılmış qərardan sahibkarlıq subyekti sənədləri təqdim etməklə üst instansiyalı vergi orqanına şikayət verdiyi təqdirə (Vergi Məcəlləsinin 38.3.9.2-ci maddəsi);
- vergi yoxlama tədbirinin nəticələrinə uyğun olaraq sahibkarlıq subyekti tərəfindən Vergi Məcəlləsinin tələblərinin pozulması ilə bağlı məsuliyyətə cəlb olunması barədə vergi orqanının çıxardığı qərardan sahibkarlıq subyektinin səyyar vergi yoxlama tədbirinin gedişatında təqdim olunan sənədlərdən fərqlənən başqa sənədlər təqdim olunması ilə üst instansiya vergi orqanına şikayəti verildiyi

təqdirdə (Vergi Məcəlləsinin 38.3.9.3-cü maddəsi).

Qeyd edilənlərlə bağlı bir misala nəzər salaq. Fərz edək ki, vergi orqanının sahibkarlıq subyektində həyata keçirdiyi və üç ili (2019-cu il yanvar ayının 1-dən 2021-ci il dekabrın 31-ə kimi) əhatə etdiyi səyyar vergi yoxlama tədbiri 2022-ci ilin mayında tamamlanıb. Sahibkarlıq subyektinə məlum olur ki, onun baş mühasibi bir neçə sənədi vergi orqanına təqdim etməkdən bilərəkdən yayınıb. Məhz buna görə də vergi orqanlarının əməkdaşları sözügedən sənədlərlə bağlı xərcləri nəzərə almamış və mənfəət vergisinin məbləği onlar tərəfindən daha yüksək miqdarda hesablanmış, sahibkarlıq subyektinə vergi borcunun ödənişinin aparılmamasına görə faizlər də lazım olduğundan yüksək olmuşdur. Sahibkarlıq subyekti iyunda təkrar yoxlama tədbirinin aparılması barədə müraciət ünvanlayanda, vergi orqanı tərəfindən vergi qanunvericiliyinə və Məcəllənin 85-ci maddəsinə əsasən məcburiyyət qarşısında olduğu səbəbdən əvvəlki üç ildən artıq müddəti yoxlamaq imkanı yox idi. Lakin artıq aparılmış dəyişikliklərdən sonra isə vergi orqanları tərəfindən əvvəlki vergi yoxlama tədbirinin əhatə etdiyi müddət də yoxlanılsın.

İndi isə sahibkarlıq subyekti tərəfindən vergi öhdəlikləri yerinə yetirildiyi zamanı hansı hallarda daha gec bir müddətə əvəz olunmasının mümkünlüyü məsələsinə toxunaq.

Məlum olduğu kimi, 2022-ci il yanvar ayının 1-dən etibarən vergi qanunvericiliyində müəyyən dəyişikliklər aparılmışdır. Həmin dəyişikliklərdən sonra sahibkarlıq subyekti tərəfindən vergi öhdəlikləri üzrə görülməli işlər uzadılması hallarının, habelə şərtlərinin daha konkretləşdiyini görə bilirik. Bununla yanaşı, nə zaman buna icazə olması yaxud qadağan edilməsi ilə rəğmən, tələb olunan sənədlərin komplektləşdirilməsi üçün də Vergi Məcəlləsində müvafiq uyğunlaşma yönümlü dəyişikliklərin həyata keçirilməsi ilə bağlı lazımi qərarlar verilmişdir.

Yeri gəlmişkən, öncəki redaksiya və yeni dəyişikliklər nəzərə alınmaq şərtilə vergi öhdəliklərinin reallaşdırılması müddətləri aşağıdakı kimi Vergi Məcəlləsi vasitəsilə müəyyən olunmuş müddətdən daha gec müddətə dəyişdirilməsi mümkündür:

- təbii fəlakətlər yaxud təhlükələr potensialına malik obyektdə baş verən qəza yaxud qarşısının alınması qeyri-mümkün olan qüvvənin təsirindən sonra sahibkarlıq subyektinə zərə dəydiyi təqdirdə (Vergi Məcəlləsinin 85.6.1-ci maddəsi);

- təhlükə potensialına malik obyektdə baş verən qəzalardan sonra sahibkarlıq subyektinə zəririn dəyməsi hallarının tənzimlənməsi yeni dəyişikliklərə əsasən həyata keçirilir;

- vergi borcu ilə bağlı toplanmış məbləğinin ödənişi birdəfəyə aparıldığı halda sahibkarlıq subyektinin iflasa uğramaq kimi təhlükənin mövcudluğu təqdirdə (Vergi Məcəlləsinin 85.6.2-ci maddəsi);

- "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət tərəfindən elan edilən sifarişlərin reallaşdırılması ilə bağlı sahibkarlıq subyekti tərəfindən yerinə yetirilmiş dövlət sifarişi üzrə səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş orqan yaxud strukturun (Maliyyə Nazirliyinin) verdiyi sifarişçinin borclu olduğunu təsdiqləyən arayışı təqdim etdiyi zaman (Vergi Məcəlləsinin 85.6.3-cü maddəsi).

İndi isə sözügedən dəyişikliyin daha da aydın şəkildə anlaşılması məqsədilə praktiki misala müraciət edək.

Qoy sahibkarlıq subyektinə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun şəkildə üç milyon manat məbləğində sifariş daxil olub. Bu sahibkarlıq subyekti bütün işları tamamilə yekunlaşdırandan sonra vergi əməkdaşlarına vergi bəyannaməsini təqdim etmişdir. Həmin bəyannamədə sahibkarlıq subyektinin 250.000AZN miqdarında vergi öhdəliyin yaranması öz əksini tapıb. Ona dövlətin borcu olduğu səbəbdən sahibkarlıq subyektinin öz vergi öhdəliklərini icra etmək məqsədilə tələb olunan likvid vəsaiti yoxdur. Belə olan təqdirdə o, Maliyyə Nazirliyinin verdiyi, habelə sifarişçinin borclu olduğunu göstərən arayışı təqdim etməlidir. Bu zaman yaranmış vergi öhdəliklərinin Vergi Məcəlləsi ilə müəyyən olunmuş müddətdən daha gec dövrə dəyişdirilməsini həyata keçirmək mümkündür.

- Sahibkarlıq subyektindən ancaq mövsümi xarakterə malik məhsulların təqdim olunması, mövsümi işlərin yerinə yetirilməsi yaxud mövsümi xidmətlərin göstərilməsi reallaşdırıldığı təqdirdə (Vergi Məcəlləsinin 85.6.4-cü maddəsi).

2022-ci il yanvar ayının 1-dən etibarən Məcəllədə aparılmış əlavə və dəyişikliklərdən sonra sözügedən əlavənin tətbiqi mövsümi xarakterə malik məhsulların təqdim olunması, mövsümi işlərin yerinə yetirilməsi yaxud mövsümi xidmətlərin göstərilməsi zamanü mümkün olur.

İndi isə ikinci misala nəzər yetirək.

Fərz edək ki, dondurma məmulatlarının satışı istiqamətində fəaliyyət göstərən sahibkarlıq subyektinin qış ayları ərzində satış həcmi əhəmiyyətli dərəcədə aşağı düşdüyü səbəbindən onun 20.000AZN-lik vergi borcu meydana gəlmişdir. Vergi əməkdaşlarının Məcəllənin 85-ci maddəsində qeyd olunmuş hallar nəzərə alınmaqla sözügedən vergi borcunun ödənişinin aparılmasına görə möhlət istəməsi qanunauyğundur. Məcəllədə aparılmış dəyişikliklərdən sonra bu yenilik sahibkarlıq subyektinin lehinə olan kimi dəyərləndirilməlidir.

Aydınlıq gətirəcəyimiz növbəti sual vergi öhdəliklərinin icra olunması müddətinin uzadılması hallarının başqa icbari ödəmələrə də şamil olub-olmaması ilə bağlıdır.

Yeri gəlmişkən, bir çox insanların maraq dairəsində olan məsələlərdən biri vergi öhdliklərin icra olunma müddətinin uzadılması hallarının başqa icbari ödənişlərinə nə dərəcədə aid edilməsi ilə əlaqədardır. Məsələn, həm dövlət sifarişlərizamanı ödəmələrin aparılmaması, həm də mövsümi xarakterə malik fəaliyyətdə gəlirlərin az olduğu dövrlərdə sahibkarlıq subyektlərinin öz işçilərinə görə məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta, habelə icbari tibbi sığorta haqları üzrə dövlət büdcəsinə vergi və sair öhdəliklərin əmələ gəlməsi təbii hal kimi dəyərləndirilə bilər.

Vergi Məcəlləsinə əlavə edilmiş 85.6-1ci maddəyə uyğun olaraq, burada yer alan 85.6.2 – 85.6.4-cü maddələrin məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları ilə bağlı tətbiqi nəzərdə tutulmamışdır.

Sözügedən maddənin mahiyyətindən aydın olur ki, ancaq təbii fəlakət yaxud təhlükə potensialına malik obyektlərdə baş verən qəza yaxud bu kimi qarşısı alınması qeyri-mümkün olan qüvvələrin təsiri zamanı sahibkarlıq subyektinə zərər dəyəndə məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları ilə bağlı vergi öhdəliklərinin icrası müddətinin uzadılması mümkündür. Onu da demək lazımdır ki, bundan əvvəl qeyd olunmuş 3 hala, yəni Vergi Məcəlləsinin 85.6.2 – 85.6.4-cü maddələrinə görə sahibkarlıq subyektinə bu kimi hüquqların tanınması nəzərdə tutulmur.

İndi isə hansı hallarda vergilərlə bağlı yaranmış öhdəliklərin icra edilməsi müddətinin uzadılmasının mümkünsüzlüyünü dəyərləndirək.

Qeyd edək ki, Məcəllənin 85.8-ci maddəsi yeni redaksiyada

işlənmişdir. Həmin yenilikdən sonra vergi öhdəliklərinin icrası müddətinin uzadılması hallarının dəqiq dairəsi müəyyən edilmişdir:

- Sahibkarlıq subyektinə münasibətdə Vergi Məcəlləsinin pozulması ilə əlaqədar cinayət işinin qaldırldığı təqdirdə (Vergi Məcəlləsinin 85.8.1-ci maddəsi);
- Sahibkarlıq subyekti riskli vergi ödəyicisi olduğu təqdirdə (Vergi Məcəlləsinin 85.8.2-ci maddəsi);
- Yaranmış vergi öhdəliklərinə görə məbləğ sahibkarlıq subyekti tərəfindən məhkəmə orqanlarında yaxud inzibati qaydada mübahisələndirildiyi təqdirdə (Vergi Məcəlləsinin 85.8.3-cü maddəsi).

Qeyd etdiyimiz bütün bu yeniliklər 2022-ci il yanvarın 1-dən qüvvəyə minmiş əlavələrdir.

Haqqında danışdığımızla bağlı bir praktiki misala nəzər salaq.

Fərz edək ki, sahibkarlıq subyekti mövsümi xarakterə malik məhsulların təqdim olunması, mövsümi işlərin yerinə yetirilməsi yaxud mövsümi xidmətlərin göstərilməsi istiqamətində öz iş fəaliyyətini qurmuşdur. Vergi əməkdaşları tərəfindən həmin sahibkarlıq subyektinin 30.000AZ-lik vergi öhdəlikləri üzrə borc müəyyən edilmişdir. Lakin sahibkarlıq subyekti bu borcla razılaşmır və borcu mübahisələndirmə predmetinə çevirib. Bu təqdirdə artıq sahibkarlıq subyektinin vergi öhdəliklərinin icra olunması müddətinin uzadılmasına icazə verilməyəcək.

- Vergi öhdəlikləri üzrə toplanmış borc miqdarı vergi ödəyicilərinin kateqoriyalarına görə uyğun olaraq Vergi Məcəlləsinin 85.9-cu maddəsində müəyyənləşdirilmiş pul məbləğlərinin aşağı həddindən az olduğu təqdirdə (Vergi Məcəlləsinin 85.8.4-cü maddəsi).

Sözügedən Məcəllədə həyata keçirilən dəyişikliklərdə vergi öhdəliklərinin icra olunması müddətlərinin uzadılması hallarına görə vergi ödəyicilərinə müvafiq olaraq yaranmış vrgi borc məbləğlərinin sərhədləri təyin edilmişdir. Məsələn, mikro və kiçik sahibkarlıq sferasında fəaliyyət göstərən sahibkarlıq subyektinin borcu 2.000AZN-20.000AZN hüdudlarında olduğu zaman onun tərəfindən vergi öhdəliklərinin icra olunması müddətinin uzadılması məqsədilə müraciət edilə bilər. Mikro və kiçik sahibkarlıq sferasında fəaliyyət göstərən sahibkarlıq subyektinin borc öhdəlikləri 2.000AZN-dən aşağı məbləğdə olduğu təqdirdə, Məcəllədə bu kimi hüquqdan istifadə imkanı nəzərdə tutulmayıb.

- Vergi Məcəlləsinin 85.6.3-cü və 85.6.4-cü maddələrinə münasibətdə müraciət ünvanlayan sahibkarlıq subyektinin vergi orqanlarında uçotda dayandığı müddət üç ildən az olduğu təqdirdə (Vergi Məcəlləsinin 85.8.5-ci maddəsi).

Belə düşünmək olar ki, 2022-ci il yanvar ayının 1-dən başlayaraq Məcəllədə sözügedən maddənin əlavə olunmasında başlıca hədəf müəyyən müddət ərzində sahibkarlıq subyektində vergi ödənişi mədəniyyətinin formalaşması dərəcəsinin müəyyənləşdirilməsidir. Bununla yanaşı, minimum üç il ərzində davamlı fəaliyyət göstərməsi müəyyən edilməsi məqsədilə göstərici hesab oluna bilər.

Yeri gəlmişkən, üç illik müddət təbii fəlakət, eləcə də təhlükə potensialına malik obyektlərdə baş vermiş qəzalar yaxud başqa qarşısının alınması qeyri-mümkün olan qüvvənin təsiri nəticəsində sahibkarlıq subyektinə bu və ya digər zərərlərin dəyməsi, eləcə də vergi öhdəlikləri ilə bağlı yaranmış borcların birdəfəlik ödənildiyi halda sahibkarlıq subyektini iflasdan qorumaq üçün tətbiq olunur. Bu isə o deməkdir ki, sahibkarlıq subyekti bir il ərzində işləsə belə, təbii fəlakətdən sonra zərərlə üzləşdiyi təqdirdə vergi borclarının ödənilməsi müddətinin uzadılması ilə bağlı müraciət etmək hüququna malikdir.

Növbəti sual vergi öhdəliklərinin icrası müddətinin uzadılması zamanı sahibkarlıq subyektinə məbləğ və sənədlərlə əlaqədar hansı tələblərin irəli sürülməsi ilə bağlıdır.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində yer alan 85.9-cu maddəsi yeni redaksiyada verilmişdir. Həmin yeniliyə əsasən, sahibkarlıq subyekti tərəfindən vergi öhdəliklərinin icrası müddətinin uzadılması məqsədilə o, vergi növləri üzrə vergi orqanlarına yazılı formada ərizəsini təqdim etməldir. Mikro və kiçik sahibkarlıq sferasında fəaliyyət göstərən vergi ödəyicilərinin borc məbləği 2.000AZN-dən 20.000AZN-ə qədər, orta sahibkarlıq sferasında fəaliyyət göstərən sahibkarlıq subyektlərinin borc məbləği 20.000AZN-dən 100.000ZN-ə qədər, habelə iri vergi ödəyicilərinin borc məbləği 100.000AZN-dən 300.000AZN-ə qədər olduğu təqdirdə sahibkarlıq subyektləri tərəfindən müraciətlərə sözügedən maddədə qeyd olunmuş məlumatları ehtiva edən sənədlərin də əlavə olunması mümkündür.

Sənədlərin siyahısı barədə hər hansı informasiyalar təqdim edilməzdən əvvəl qeyd etməyi vacib bilirik ki, Vergi Məcəlləsində yer

alan 85.8.4-cü maddəyə uyğun olaraq, vergi öhdəlikləri ilə bağlı yaranmış borc miqdarı vergi ödəyicilərinin kateqoriyalarına görə yuxarıda qeyd etdiyimiz pul məbləğlərinin aşağı həddindən az olduğu təqdirdə vergi öhdəliklərinin icrası müddətinin uzadılması məqsədilə müraciət olunması qeyri-mümkündür.

Dediklərimizlə bağlı bir misalı dəyərləndirək.

Fərz edək ki, iri sahibkarlıq subyektinin vergi öhdəlikləri ilə bağlı 85.000AZN-lik borc məbləği yaranmışdır. Sahibkarlıq subyekti tərəfindən ancaq mövsümi xarakterə malik məhsulların təqdim olunması nəticəsində vergilər üzrə borc məbləğinin yaranması səbəbindən vergi öhdəlikərinin icrası müddətinin uzadılması məqsədilə müraciət olunub. Belə olan halda vergi orqanları sözügedən məbləğlərin müəyyən olunan kateqoriyalardan aşağı olması səbəbilə həmin sahibkarlıq subyektinə imtina cavabı verəcəklər.

Burada maraq kəsb edən məqam bundan ibarətdir ki, sahibkarlıq subyektinin vergi öhdəlikləri üzrə yaranmış borc məbləği 300.000AZN-dən artıq olduğu təqdirdə prosesin necə tənzimlənəcəyidir. Vergi əməkdaşları tərəfindən sahibkarlıq subyektinin müraciəti qəbul olunarsa, o zaman tələb irəli sürülən sənədlərlə əlaqədar kiteriyaların fərqlənəcəyini qeyd etməliyik. Bununla bağlı biz bir qədər əvvəl məlumat vermişik. Odur ki, sözügedən məsələlərlə bağlı cədvəl şəklində vergi öhdəlikləri ilə əlaqədar borc məbləğləri toplanmış vergi ödəyiciləri üzrə tələb edilən sənədlərlə bağlı məlumatı hörmətli oxucularımıza təqdim edirik. Zənnimizcə, haqqında danışdığımız məlumatların məhz bu formada verilməsi, bir tərəfdən, kifayət qədər anlaşılan, digər tərəfdən isə rahat və kifayət edəcək həcmdə olacaqdır.

№	Vergi ödəyicisinin aid olduğu sfera	Vergilər üzrə borc məbləği	QEYD
1	Mikro və kiçik sahibkarlıq sferasında fəaliyyət göstərən sahibkarlıq subyektləri	2.000AZN-dən 20.000AZN-ə qədər olduğu təqdirdə	
2	Orta sahibkarlıq sferasında fəaliyyət göstərən sahibkarlıq subyektləri	20.000AZN-dən 100.000AZN-ə qədər olduğu təqdirdə	
3	İri sahibkarlıq sferasında fəaliyyət göstərən sahibkarlıq subyektləri	100.000AZN-dən 300.000AZN-ə qədər olduğu təqdirdə	

- Vergi Məcəlləsinin 85.6-cı maddəsində qeyd olunan hər bir hal ilə əlaqədar münasibətdə müraciət olunma gününə sahibkarlıq subyektinin kassasında, milli yaxud xarici valyutada cari yaxud başqa hesablarında vəsaitlərin qalığı, debitor və kreditorların VÖEN-i qeyd olunmaqla adı və borc məbləği, eləcə də son 1 ildə bank hesabları üzrə həyata kieçirilmiş əməliyyatlar haqqında arayışlar (vergi Məcəlləsinin 85.9.1-ci maddəsi);
- Vergi Məcəlləsinin 85.6.1-ci maddəsində nəzərdə tutulmuş halla əlaqədar münasibətdə hadisənin baş verməsi haqqında və bu hadisə nəticəsində dəymiş ziyanın məbləği haqqında müvafiq dövlət orqanları tərəfindən verilmiş arayışlar (Vergi Məcəlləsinin 85.9.2-ci maddəsi).

Növbəti sualımızda sahibkarlıq subyektinin vergi öhdəlikləri ilə bağlı yaranmış borcun təyin olunmuş meyarlardan artıq olduğu müəyyənləşdiyi təqdirdə bu prosesin necə tənizmləyəcəyinə aydınlıq gətirməyə çalışacağıq.

Nəzərə almaq lazımdır ki, sahibkarlıq subyektinin vergi öhdəlikləri ilə əlaqədar yaranmış borcun miqdarı vergi ödəyicilərin sahibarlıq fəaliyyətinə görə kateqoriyaların üzrə təyin olunan borc məbləğindən artıq olduğu təqdirdə təqdim olunan sənədlərin siyahısının genişlən-dirilməsi aparılır. Məcəlləyə əlavə olunan 85.9-1-ci maddəsinə uyğun olaraq, sahibkarlıq subyektinin vergi üzrə borc məbləğləri sahibkarlıq fəaliyyətindən asılı olaraq kateqoriyasına görə müvafiq olaraq Vergi Məcəlləsinin 85.9-cu maddəsində göstərilmiş məbləğlərin yuxarı həddindən çox olduğu təqdirdə - Vergi Məcəlləsinin 85.6.3-cü maddəsində nəzərdə tutulmuş hallar istisna edilməklə, bütün başqa hallarda sahibkarlıq subyektləri tərəfindən müraciətə 85.9-cu maddədə öz əksini tapmış sənədlərlə bərabər, aşağıda qeyd olunan sənədlərdən hər hansı biri əlavə olunmalıdır:

- bank zəmanəti (Vergi Məcəlləsinin 85.9-1.1-ci maddəsi);
- zaminlik müqaviləsi; bu müqavilədə əsas etibarilə zamin qismində çıxış edən şəxs minimum 1-illik müddətinə vergi orqanlarında uçota alınmış, dövlət büdcəsinə borcu olmayan, riskli vergi ödəyiciləri qrupuna aid edilməyən şəxs olmalıdır. Bununla yanaşı, belə şəxsin müraciət ünvankayan sahibkarlıq subyektinin vergi öhdəliklərini icra etmək imkanında olması ilə əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş

qaydada yüklü olunmamış aktivləri haqqında məlumatlar vergi əməkdaşlarına təqdim edilməsi təmmin olunmalıdır (vergi Məcəlləsinin 85.9-1.2-ci maddəsi);

- girov müqaviləsi; bu müqavilədə qanunvericilikdə nəzərdə tutulan qaydada vergi öhdəliklərinin təminatı qismində girov qoyulması nəzərdə tutulan əmlaklar haqqında müvafiq informasiyalar öz əksini tapmalıdır. Girov seçilmiş əmlakların ümumi bazar qiymətinin əlli faizi burcun təşkil etdiyi miqdardan artıq olmalıdır.

Girovla bağlı imzalanmış müqavilənin qanunvericilikdə nəzərdə tutulan qaydada etibarsız hesab olunması sahibkarlıq subyektinin üzərində olan vergi öhdəliklərin ləğv edilməsi anlamına gəlmir. Girovla bağlı imzalanmış müqabilənin qeydiyyatdan keçirilməsi ilə əlaqədar sərf olunmuş məsrəflərin ödənilməsi sahibkarlıq subyekti tərəfindən həyata keçirilir (Vergi Məcəlləsinin 85.9-1.3-cü maddəsi).

- Sahibarlıq subyektinin sərəncamında olan, eləcə də satılması baxımından yararlı vəziyyətdə olan daşınar və daşınmaz əmlakların siyahıya alınması ilə bağlı yazılı razılıq; həmin yazılır formada tərtib edilən razılıqda bu əmlaklar haqqında zəruri informasiyalar öz əksini tapmalı, əmlakların ümumi bazar qiymətinin əlli faizi borcun məbləğindən artıq olmamalıdır. Sahibkarlıq subyektinin müraciət təmin olunduğu təqdirdə vergi öhdəliklərin icra edilməsi müddətinin uzadıldığı dövrdə razılıq sənədində qeyd olunmuş əmlakların sahibkarlıq subyektinin istifadə hüququ təmin edilməklə vergi əməkdaşları tərəfindən siyahıya alınması təmin olunur. Vergi öhdəliklərinin icra edilməsi müddətinin uzadıldığı dövrdə sözügedən əmlakların hərraclarda satılması ilə əlaqədar vergi əməkdaşları tərəfindən məhkəmə orqanlarına müraciət ünvanlanmır və sahibkarlıq subyektinin bu əmlakların təqdim olunması vergi əməkdaşlarının razılığı əsasında reallaşdırıla bilər (Vergi Məcəlləsinin 85.9-1.4-cü maddəsi).

Sözügedən maddənin məzmununda diqqətçəkən məqam bundan ibarətdir ki, sahibkarlıq subyekti artıq qeyd etdiyimiz sənədlərdən birini təqdim edəcəyi təqdirdə başqa sənədlərin təqdim olunmasına zərurət yaranmaya da bilər. Lakin nəzərə almaq lazımdı ki, təqdim olunan sənədlə bağlı Vergi Məcəlləsində öz əksini tapmış tələblərin də yerinə yetirilməsi mütləqdir.

Dediklərimizi praktiki bir misalla şərh edək.

Məsələn, iri sahibkarlıq sferasında fəaliyyət göstərən sahibkarlıq subyektinin vergi öhdəliyi ilə əlaqədar 400.000AZN məbləğində borc əmələ gəlmişdir. Onun tərəfindən təqdim olunmuş sənədlərə uyğun olaraq, bu sahibkarlıq subyektinin mülkiyyəti kimi və realizə olunması üçün kifayət qədər yararlı vəziyyətdə daşınar və daşınmaz əmlakları vardır. Onların bazar dəyəri təqribən 450.000AZN-dir. Belə olan təqdirdə bu sahibkarlıq subyekti sənədlə əlaqədar qoyulan tələbləri icra etmiş hesab olunmur. Məsələ burasındadır ki, Məcəllənin 85.9-1.4-cü maddəsində deyilir ki, sahibkarlıq subyektinin mülkiyyəti qismində çıxış edən və realizasiya olunması baxımından yararlı vəziyyətdə olan daşınar və daşınmaz əmlakların bazar dəyəri vergi öhdəlikləri ilə bağlı toplanmış borcun 2 mislindən artıq olmalıdır. Burada isə sahibkarlıq subyektinin vergi borcu 400.000AZN təşkil edir, sənədlərə uyğun olaraq isə təqdim edilmiş əmlakların bazar dəyəri də 800.000AZN-dən artıq olmalıdır.

İndi isə ikinci misala nəzər salaq.

Fərz edək ki, orta sahibkarlıq sferasında fəaliyyət göstərən sahibkarlıq subyektinin ödənilmə müddətinin uzadılması planlanan vergi öhdəlikləri ilə bağlı yaranmış burc məbləği 120.000AZN-dir. Girov müqavilələrinə əsasən, sahibkarlıq subyektinin girov qoyduğu əmlakların ümumi bazar dəyəri 300.000AZN təşkil edir. Vergi Məcəlləsində yer alan 85.9-1.4-cü maddəsinin tələblərinə uyğun olaraq, vergi öhdəlikləri ilə bağlı yaranmış borc məbləği girov qoyulması nəzərdə tutulan əmlakların bazar dəyərinin 40%-ni, yəni 50%-dən az olması ilə əlaqədar, olduğuna görə, vergi əməkdaşları girov müqaviləsinə uyğun olaraq vergi öhdəliklərinin müddətinin artırılması ilə razılaşa bilərlər.

Daha bir misal.

Fərz edək ki, iri sahibkarlıq sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektinin vergi öhdəlikləri ilə bağlı yaranmış borc məbləği 480.000AZN təşkil edir. Həmin subyekt tərəfindən təqdim olunan sənədlərə görə iki ilə yaxın müddətdir ki, o, vergi qeydiyyatında dayanır və riskli vergi ödəyicilərinin siyahısında yer almır. Büdcəyə vergi öhdəlikləri ilə bağlı yaranmış borc məbləğləri olmayan sahibkarlıq subyekti vergi öhdəliklərini icra etmək imkanında olması ilə əlaqədar vergi qanunvericiliyində mövcud qaydalara əsasən yüklü olunmamış

aktivləri barədə informasiyanı da vergi əməkdaşlarına təqdim etməlidir.

Bank zəmanəti ilə bağlı demək lazımdır ki, bankın öhdəliyi borcu qismində çıxış edən sahibkarlıq subyekti olan üçüncü tərəf üzərində düşdüyü öhdəlikləri icra edə bilmədiyi halda bank tərəfindən həmin öhdəliyin reallaşdırılmasından ibarətdir.

İndi isə hansı hallarda vergi öhdəlikləri üzrə yaranmış borcların miqdarından asılı olmayaraq vergi öhdəliklərinin uzadılması məqsədilə ancaq təkcə arayışın tələb olunduğuna aydınlıq gətirək.

İlk öncə qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində yer alan 85.9-2-ci maddəsində göstərilir ki, sahibkarlıq subyekti ərəfindən Məcəllənin 85.6.3-cü maddəsində nəzərdə tutulmuş halla əlaqədar müraciət olunduğu təqdirdə, borcdan asılı olmayaraq, ancaq Məcəllənin 85.9.1-ci maddəsi ilə nəzərdə tutulmuş sənədlərin əlavə edilməsi lazımdır.

Vergi Məcəlləsində yer alan 85.6.3-cü maddəsində qeyd olunmuş hal deyəndə, biz "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq dövlət sifarişinin icra olunması ilə bağlı sahibkarlıq subyekti tərəfindən icra olunmuş dövlət sifarişi üzrə səlahiyyətli icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi orqan yaxud stuktur (Maliyyə Nazirliyi) tərəfindən verilmiş sifarişçi tərəfin borclu olduğunu təsdiqləyən arayışın təqdim olunması nəzərdə tutulmuşdur. Belə olan təqdirdə hansı vergi ödəyicisinə aid olması, habelə dövlət büdcəsinə olan borclardan asılı olmayaraq müraciət olunma gününə sahibkarlıq subyektinin kassasında, milli yaxud xarici valyuta formasında cari yaxud başqa hesablarında maliyyə vəsaitlərinin qalığı, debitorları və kreditorların VÖEN-i göstərilmək şərtilə adı və burc miqdarı, eləcə də son 1 ildə bank hesabları üzərindən həyata keçirilmiş əməliyyatlar haqqında arayışların təqdim olunması kifayətdir.

Aydınlıq gətirəcəyimiz növbəti sual vergi öhdəliklərinin icra olunmasına verilən möhlət müddətinin ən çoxu nə qədər olması ilə bağlıdır.

Bununla əlaqədar deməliyik ki, Vergi Məcəlləsində yer alan 85.10-cu maddəsinə uyğun olaraq, bu qanunvericilik aktının 85.6-cı maddəsində nəzərdə tutulan əsaslar olduğu təqdirdə vergi öhdəliklərinin icra müddətinin vergi orqanlarının çıxardığı qərara əsasən sahibkarlıq subyektinin seçimindən asılı olaraq aşağıda göstərilən qaydada uzadılması mümkündür:

- borc məbləğinin ödənməsinə altı aydan artıq olmayan müddət ərzində mövlətin verilməsi (Vergi Məcəlləsinin 85.10.1-ci maddəsi);
- cari vergi ödənişləri ilə bağlı borc məbləğinin ödənişinin həyata keçirilməsinə təqvim ilində altı aydan artıq olmayan müddətə möhlətin verilməsi (Vergi Məcəlləsinin 85.10.2-ci maddəsi);
- vergi öhdəliklərinin razılaşdırılmış qrafiklə hissə-hissə yerinə yetirilməsi şərtilə borc məbləğinin ödənişinin aparılmasına bir ildən artıq olmayan müddətə möhlətin verilməsi. Belə olan halda ödəniş qrafiki vergi əməkdaşları ilə sahibkarlıq subyekti arasında bağlanılmış uyğun akt sənədi ilə rəsmiləşdirilir (Vergi Məcəlləsinin 85.10.3-cü maddəsi).

Maddələrin məzmunundan aydın olur ki, vergi öhdəliklərinnin icra müddəti ilə bağlı maksimal dövr bir il olmaqla müəyyənləşdirilib.

İndi isə hansı hallarda möhlət hüququnuun maksimal müddətə şamil edilməklə həmin müddətin uzadılması məsələsinə aydınlıq gətirək.

Vergi Məcəlləsində yer alan 85.10-1-ci maddəyə uyğu olaraq, sahibkarlıq subyekti tərəfindən möhlət verildiyi dövrdə möhlət verilmiş vergi borcunun 75%-ə qədəri ödənilmiş olduğu təqdirdə onun yazılı müraciətinə əsasən Vergi Məcəlləsinin 85.10.1-ci maddəsi ilə müəyyənləşdirilən müddət bir ildən, 85.10.3-cü maddəsi ilə müəyyənləşdirilən müddət isə iki ildən artıq olmayan dövrə qədər üst vergi orqanı tərəfindən verilmiş qərara uyğun olaraq uzadıla bilər.

İndi isə misallara müraciət edək.

Birinci dəyərləndirdiyimiz misalda fərz edək ki, orta sahibkarlıq sferasında fəaliyyət göstərən sahibkarlıq subyektinin 80.000AZN miqdarında vergi öhdəlikləri ilə bağlı borc məbləği əmələ gəlmişdir. Vergi əməkdaşları vergi qanunvericiliyə uyğun olaraq vergi öhdəliklərinin yerinə yetirilməsi zamanı altı aylıq müddətin verilməsinə razılıq versələr də, sahibkarlıq subyekti sözügedən dövr ərzində 62.000AZN-lik borcunun ödənilməsini təmin etməmişdir. Belə olan halda ödənilməli olan məbləğin ümumi vergi borc miqdarının 75%-dən artıq olduğu səbəbindən möhlət müddətinin bir ildən çox olmamaq şərtilə artırılması mümkün ola bilər.

İkinci misalda isə fərz edək ki, iri sahibkarlıq sferasında fəaliyyət göstərən sahibkarlıq subyektinin vergi öhdəlikləri ilə yaranmış borcun

məbləği ümumilikdə 200.000AZN həcmindədir. Vergi əməkdaşları tərəfindən verilmiş qərara əsasən həmin sahibkarlıq subyektinə öz vergi öhdəliklərinin icra edilməsi məqsədilə bir il müddətində möhlətin verilməsi nəzərdə tutulmuşdur. Sahibkarlıq subyekti də sözügedən müddətdə vergi öhdəlikləri ilə bağlı 120.000AZN-lik ödənişin həyata keçirilməsini təmin edib ki, bu da ümumi öhdəliklər həcminin altmış faizi qədərdir. Sahibkarlıq subyekti möhlət dövrü ərzində üzərinə düşən vergi öhdəliklərinin 75%-dən az məbləği ödəmişdir, odur ki, vergi əməkdaşlarının möhlət müddətinin uzadılması ilə bağlı tutarlı əsasları yoxdur və sözügedən müddətin uzadılmaması ilə bağlı qərarın verilməsi istisna edilmir.

İndi isə vergi öhdəliklərinin uzadılması müddətində fazilərin hesablanmasının becə həyata keçirilməsinə aydnlıq gətirək.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində yer alan 59.1-ci maddəyə uyğun olaraq, vergi yaxud cari vergi borclarının ödənişinin təmin edilməsi Vergi Məcəlləsi ilə müəyyən olunan müddətlərdə ödənilməlidir. Bu təmin edilmədiyi təqdirdə ödəmə müddətindən sonrakı hər bir keçən gün üçün sahibkarlıq subyektindən yaxud vergi agentindən ödənişi təmin olunmamış vergi yaxud cari vergi borcunun ödəməsi miqdarının 0,1%-i miqdarında faiz tutulmalıdır.

Maraqlı məqam bundan ibarətdir ki, sahibkarlıq subyektini tərəfindən vergi öhdəliklərinin icra edilməsi ilə əlaqədar möhlətin verilməsi reallaşdırıldığı təqdirdə, Vergi Məcəlləsində yer alan 59.1-ci maddəsi ilə faizlərin hesablanması həyata keçirilirmi? Vergi Məcəlləsində yer alan 85.10-2-ci maddəyə uyğun olaraq, vergi orqanı əməkdaşlarının qərarına əsasən vergi öhdəliklərinin icra müddəti uzadıldığı təqdirdə spzügedən vergi borclarına müraciətin daxil olduğu gündən və müddətin uzadıldığı dövrdə faizlərin hesablanması həyata keçirilmir.

Haqqında danişdığımız maddənin məzmunundan görünür ki, vergi öhdəlikləri ilə bağlı yaranmış borc məbləğlərinin ödənilməsi ilə əlaqədar möhlət hüququnun təmin edilməsi məqsədilə müraciət olunma günündən və müddətin uzadıldığı dövrdə möhlət verilən vergi öhdəlikləri üçün faizlərin hesablanması aparılmır.

Növbəti sualımız sahibkarlıq subyektlərinin möhlət müddətində yaranmış başqa növ vergi öhdəliklərinin necə tənizmlənməli olması ilə bağlıdır.

Nəzərə almaq lazımdır ki, Vergi Məcəlləsində yer alan 85.10-3-cü maddəyə uyğun olaraq, vergi orqanlarının qərarı əsasında vergi öhdəlikləri ilə bağlı yaranmış borcların ödənilməsi ilə əlaqədar möhlət verilən müddət ərzində sahibkarlıq subyektinin yeni vergi öhdəlikləri borcunun əmələ gəldiyi təqdirdə bu borcun Vergi Məcəlləsində müəyyənləşdirilən ümumi qaydada dövlət büdcəsinə ödənilməsi təmin olunur.

İndi isə bir praktikimisala nəzər salaq.

Fərz edək ki, iri sahibkarlıq sferasında fəaliyyət göstərən sahibkarlıq subyektinin möhlət verilmiş 180.000AZN-lik bir vergi öhdəliyi əmələ gəlmişdir. Möhlətin verildiyi müddətdə sahibkarlıq subyektinin cari fəaliyyəti ilə əlaqədar 20.000AZN-lik borc məbləği yaranmışdı. Belə olan halda sahibkarlıq subyekti sözügedən borc məbləğinin ödənilməsini təmin etməsə, ona ümumi qaydaya uyğun yanaşma tərzi sərgilənir, vaxtlı-vaxtında ödəməsi təmin olunmamış borca Vergi Məcəlləsində yer alan 59.1-ci maddəsinə əsasən faizlərin hesablanması həyata keçiriləcəkdir.

Növbəti sualımız vergi öhdəlikləri ilə əlaqəli müraciətlərin cavablandırılması qaydası haqqındadır.

Məlum olduğu kimi, Vergi Məcəlləsində yer alan 85.1-ci maddəyə uyğun olaraq, səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş orqan yaxud struktur müraciətin, habelə digər sənədlərin daxil olduğu tarixdən otuz gün ərzində sahibkarlıq subyektinin müraciətlərinə baxılmasını təmin edilir və Məcəllənin 85.6-cı maddəsində nəzərdə tutulan əsasların mövcudluğu təsdiqləndiyi zaman vergi öhdəliklərinin icrası müddətinin uzadılması yaxud vergi öhdəliklərinin icrası müddətinin uzadılması ilə bağlı imtina olunması haqqında qərar çıxarılırr. Səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş orqan yaxud qurumun vergi öhdəliklərin icrası müddətinin barədə çıxardığı qərarda müddətin uzadılması səbəbi, vergi öhdəlikləri ilə bağlı yaranmış borcun miqdarı, ödəmə müddəti uzadılmış verginin növü yaxud vergilərin növləri, ödəmə müddəti və qaydası, eləcə də girov, bank zəmanəti, sahibkarlıq subyektinin mülkiyyətində yer alan və siyahıya salınmış daşınar və daşınmaz əmlaklarların, eləcə də zamin barədə qeydlərin göstərilməsi zəruridir.

Maddənin mətnində vergi əməkdaşlarının sahibkarlıq subyektinin

vergi öhdəliklərinə görə yaranmış borc məbləğnin ödənilməsii ilə bağlı möhlətin verilməsi ilə əlaqədar prosedur qaydalar, eləcə də sənədləşmələrlə bağlı tələblər müəyyən olunmuşdur.

Aydınlıq gətirəcəyimiz növbəti sual vergi öhdəlikləri ilə bağlı yaranmış borc məbləğinin ödənilməsi ilə bağlı müddətin uzadılmasının Vergi Məcəlləsində yer alan 85.4-cü maddədəki müddətə təsirinin necə hesablanması ilə bağlıdır.

Bununla əlazədar ilk olaraq onu qeyd etmək lazımdır ki, sözügedə Məcəllədə yer alan 85.12-ci maddəsində aparılmış dəyişikliklərdən sonra müəyyən əlavələr edilmişdir. Həmin əlavələrdəki 2-ci cümləyə uyğun olaraq, vergi əməkdaşlarının qərarına görə vergi öhdəlikləri ilə əlaqədar yaranmış borcun ödənilməsi ilə bağlı uzadılmış müddət Vergi Məcəlləsinin 85.4-cü maddəsində nəzərdə tutulmuş borcların tələb olunması ilə əlaqədar beş illik müddətə daxil deyil.

Dediklərimizi praktiki bir misalla daha da müfəssəl formada şərh edək. Qoy sahibkarlıq subyektinin 2019, 2020 və 2021-ci illərə görə 40.000AZN-lik vergi öhdəlikləri il bağlı borc məbləği əmələ gəlmişdir. Vergi əməkdaşları təqdim olunmuş sənədlərə əsasən 2022-ci ildə sahib-karlıq subyektinə bir illik möhlət müddəti müəyyənləşdiriblər Sahibkarlıq subyektinin bir illik müddətdə dövlətin büdcəsinə köçürdüyü vəsait onun 2019-cu ilə görə olan 12.000AZN-lik vergi borcunun 10.000AZ-lik hissəsi üçün kifayət edib. Sahibkarlıq subyektinə möhlətin verildiyi bir illik müddət nəzərə alınarsa, 2023-cü ildə sahibkarlıq subyektinin 2019-cu ilə görə vergilər üzrə toplanmış borcun tələb olunması müddətindən dörd ilin keçməsi şərtləndirildiyi təqdirdə, Məcəllədə yer alan 85.12-ci maddəsinə uyğun olaraq, sözügedən bu bir il nəzərə alınmadığı zaman tələb edilmə müddəti üç il götürülərək sabit qalacaq.

İndi isə girovla bağlı imzalanan müqavilənin qeydiyyatı ilə əlaqədar xərclərin kimin tərəfindən ödənilməli olduğuna aydınlıq gətirək.

Məlum olduğu kimi, Vergi Məcəlləsində yer alan 85.13-cü maddəsi 2022-ci il yanvar ayının 1-dən artıq ləğv edilmişdir. Sözügedən maddənin məzmununda göstərilirdi ki, girovla bağlı imzalanmış müqavilənin qanunvericiliklə nəzərdə tutulmuş qaydada etibarsız sayılması sahibkarlıq subyektinin yarandığı vergi öhdəliklərinin ləğvi anlamına gəlmir və girocla bağlı imzalanmış müqavilənin qeydiyyatı ilə

əlaqəli məsrəflər sahibkarlıq subyekti tərəfindən ödənilməlidir.

Sözügedən maddənin ləğvinin səbəbi bundan ibarətdir ki, bu tələblər Vergi Məcəlləsinin 85.9-1.3-cü maddəsində təsbit olunmuşdur. Odur ki, Məcəllənin 85.13-cü maddəsinin ləğvi ilə bağlı qərarın qəbul edilməsi tam məntiqəuyğun görünür.

Aydınlıq gətirəcəyimiz növbəti məsələ isə hansı hallarda möhlətə vaxtından öncə xitam verilməsinin mümkünlüyü ilə bağlıdır.

Nəzərə almaq lazımdır ki, Vergi Məcəlləsində yer alan 85.14-cü maddədə müvafiq dəyişikliklər edilmişdir. Həmin dəyişikliklərdən sonra vergi öhdəliklərinin icrasının uzadılmış müddətinə aşağıda göstərilən hallarda vaxtından öncə xitam verilməsi nəzərdə tutulmuşdur:

- sahibkarlıq subyekti öz vergi öhdəlikləri ilə bağlı yaranmış borc məbləğlərinin ödənişini vaxtından tez həyata keçirdiyi təqdirdə (Vergi Məcəlləsinin 85.14.1-ci maddəsi);
- Vergi Məcəlləsində yer alan 85.8.1-85.8.3-cü maddələrdə öz əksini tapan hallar müşahidə olnduğu zaman (Vergi Məcəlləsinin 85.14.2-ci maddəsi).

Yeri gəlmişkən, Vergi Məcəlləsinin 85.8.1-85.8.3-cü maddələrdində öz əksini tapmış hallar sırasında aşğıdakılar yer alır:

- sahibkarlıq subyektinə münasibətdə vergi qanunvericiliklə nəzərdə tutulan tələblərin pozulması ilə əlaqədar cinayət işi qaldırıldığı təqdirdə (Vergi Məcəlləsinin 85.8.1-ci maddəsi);
- sahibkarlıq subyekti riskli vergi ödəyiciləri siyahısında yer aldığı təqdirdə (Vergi Məcəlləsinin 85.8.2-ci maddəsi);
- vergi ödəlikləri ilə bağlı yaranmış borcun miqdarının sahibkarlıq subyekti tərəfindən məhkəmə orqanları vasitəsilə yaxud inzibati qaydada mübahisələndirilməsi baş verdiyi halda (Vergi Məcəlləsinin 85.8.3-cü maddəsi).

İndi isə dediklərimizi daha ətraflı izah və şərh etmək məqsədilə praktiki bir misala nəzər salaq. Fərz edək ki, vergi öhdəliklərinin icrası müddəti ərzində möhlət verilmiş sahibkarlıq subyektinin cari fəaliyyəti prosesində onun tərəfindən AR Nazirlər Kabinetinin 28 iyul 2020-ci il tarixli 265 saylı Qərarı ilə təsdiq olunmuş "Riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların Meyarları" adlı tələblərə əsasən, riskli sahibkarla subyektləri siyahısına daxil olması düzgün məqsədəuyğun hesab edilmişdir. Belə olan halda vergi əməkdaşları tərəfindən vergi

öhdəlikləri ilə bağlı yaranmış borcun ödənilməsi ilə əlaqədar möhlət müddətinə xitam veriləcək.

İndi isə möhlət verilmiş müddətə xitam hallarının vergi əməkdaşları tərəfndən necə həyata keçirilməsinə nəzər salaq.

Vergi Məcəlləsində yer alan 85.15-ci maddənin yeni redaksiyası verilmişdir. Həmin yeniliklərə uyğun olaraq, Vergi Məcəlləsində yer alan 85.14.2 və 85.14.3-cü maddələrdə göstərilən hallarda vergi öhdəliklərinin icrasının uzadılmış müddətinə vaxtından öncə xitam verilməsi barədə vergi əməkdaşları tərəfindən qərar qəbul edilməklə, Vergi Məcəlləsinin 85.9-1-ci maddəsində nəzərdə tutulmuş təminatlar hesabına vergi öhdəlikləri ilə bağlı yaranmış borcun alınması təmin olunur və beş gün ərzində sahibkarlıq subyektinə bu haqda məlumat çatdırılır.

İndi də növbəti misala nəzər salaq.

Fərz edən ki, vergi əməkdaşları tərəfindən vergi öhdəlikləri icrasına altı ay müddətində sahibkarlıq subyektinə möhlətin verilməsi ilə bağlı qərar qəbul edilmişdir. Həmin sahibkarlıq subyekti 2 ay keçdikdə riskli vergi ödəyiciləri siyahısına daxil edilib. Bu sahibkarlıq subyektinin vergi öhdəliklərinin icrası müddətinin uzadılması məqsədilə girov müqaviləsi əsasında daşınmaz əmlakları girov qismində qoyulmuşdu. Belə olan halda vergi əməkdaşları girovun vergi borcu əvəzi ödənilməsi prosedurunu möhlətin müddəti bitdikdən sonra həyata keçirə bilərlər.

Vergi Məcəlləsinin 87-ci maddəsi maddəsi artıq ödənilməsi aparılmış vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləğinin qaytarılmasını tənizmləyir.

Bu maddə ilə bağlı aydınlıq gətirəcəyimiz ilk sual artıq ödənişi aparılmış vergi məbləğlərinin geri qaytarılması qaydasının nə dərəcədə asanlaşdırılması ilə bağlıdır.

Məsələ burasındadır ki, 2022-i il yanvar ayının 1-nə qədər Vergi Məcəlləsində yer alan 87.3-cü maddədə redaksiya xarakterli dəyişikliklər və əlavələrdən sonra göstərilir ki, Vergi Məcəlləsində digər hallar müəyyən edilməyibsə, artıq ödənişi aparılmış vergilərin, faizlərin və maliyyə sanksiyalarının qalmış məbləğləri sahibkarlıq subyektinin yazılı formada təqdim olunmuş ərizəsinə uyğun olaraq 45 gün müddətində ona qaytarılır.

Göstərilən tarixdən sonra maddənin mətnindən "yazılı" sözü çıxarılmışdır. Artıq sahibkarlıq subyekti elektron formada tərtib edilmiş

ərizəsi vasitəsilə artıq ödənilməsi aparılmış vergilərin, faizlərin və maliyyə sanksiyalarının geri qaytarılması üçün müraciətini təqdim edə bilər.

Həmçinin qeyd etmək vacibdir ki, aparılmış dəyişiklik və edilmiş yeniliklərin başlıca səbəblərindən biri də maliyyə idarələrinin elektron formatda müraciətlərin qəbul olunmamasıdır. Buradan aydın olur ki, Vergi Məcəlləsində yer alan 57.3-cü maddəsində həyata keçirilmiş dəyişikliklər praktiki fəaliyyətdə meydana çıxan və sahibklarlıq subyektinin işini yüngülləşdirən halların sırasında yer alır.

Vergi Məcəlləsinin 90-cı maddəsi isə sahibkarlıq subyektinin əmlakları hesabına vergilərn tutulmasına həsr olunur.

Bu maddə ilə bağlı aydınlıq gətirəcəyimiz ilk sual isə sahibkarlıq subyektinin siyahıya salınmış əmlakları ixtisaslaşdırılmış açıq hərraclar vasitəsilə satılıb-satılmayacağı ilə bağlıdır.

Məsələ burasındadır ki, 2022-ci il yanvar ayının 1-dən etibarən hüquqi qüvvəyə minmiş dəyişikliklərə uyğun olaraq, sahibkarlıq subyektinin siyahıya salınmış mlaklarının satılmasında əhəmiyyətli dəyişikliklər baş vermişdir. Bundan sonra məhkəmə qərarı verildikdən sonrakı etaplarda baş verməli olan prosesləri müvafiq icra orqanı həyata keçirəcək. Satışın reallaşdırılması İqtisadiyyat nazirliyi yanında fəaliyyət göstərən müvafiq qurumlar icra edəcək.

Vergi Məcəlləsində yer alan 90.1-ci maddədə aparılmış dəyişikliklərə uyğun olaraq, sahibkarlıq subyektinin əmlakları nın siyahısı tərtib ediləndən sonrakı otuz gün ərzində vergi öhdəlikləri icra olunmadığı təqdirdə vergi əməkdaşları tərəfindən vergilər, faizlər və maliyyə sanksiyaları ilə bağlı dövlət büdcəsinə əmələ gəlmiş borcların ödənişinin təmin edilməsi üçün siyahısı tərtib olunmuş əmlakların zəruri və kifayət edəcə qədər miqdarda səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş orqan yaxud strukturun (İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti yanında Hərracın Təşkili üzrə Auksion Mərkəzi) təşkilatçılığı ilə, eləcə də qiyməti 5.000AZN-dən çox olmayan daşınar əmlakın ticarət şəbəkələri vasitəsilə satılması barədə qərarın qəbul edilməsi məqsədilə məhkəmələrə müraciət oluna bilər.

Sahibkarlıq subyektlərinin bir qismi belə düşünür ki, müvafiq səlahiyyətlərin icra orqanından alınması sahibkarlıq subyektinin

əmlaklarının siyahısı tərtib edildikdən sonra icra orqanının satışı ləğv olunduğu səbəbindən onun sərbəst qaydada realizasiyasını həyata keçirə bilməsi anlamına gəlir. Lakin Vergi Məcəlləsində yer alan 90.1-ci maddəsinin məzmunundan aydın olur ki, vergi əməkdaşları əmlakların realizasiyası barədə qərarın qəbul edilməsi məqsədilə məhkəmə orqanlarına müraciət etməlidirlər. Məsələ burasındadır ki, məhkəmənin çıxardığı qərardan sonra proses icra məmurları tərəfindən icra edilməyəcək. Sözügedən prosesi İqisadiyyat Nazirliyi yanında fəaliyyət göstərən müvafiq qurumları reallaşdıracaq. Bu da siyahısı tərtib olunmuş əmlakların satılmasının sürətləndirilməsinə xidmət edəcəkdir.

İndi isə sahibkarlıq subyektinin əmlaklarının növləri və qiymətlərinə görə satılması prosesinin necə təsnifləşdiriləcəyinə aydınlıq gətirək.

İlk öndə qeyd etmək lazımdır ki, vergi Məcəlləsində yer alan 90.3 və 90.4-cü maddələrində aparılmış dəyişikliklərin əsas mahiyyəti siyahısı tərtib olunmuş əmlakların əmtəə birjaları yanında təşkil olunmuş ixtisaslaşdırılmış təşkilat və icra məmurları tərəfindən deyil, başqa qurumlar tərəfindən realizasiya edilməsi kimi göstərilməlidir.

Aparılmış dəyişikliklərdən sonra siyahısı tərtib edilmiş əmlaklar aşağıda göstərilmiş qaydalara uyğun olaraq satılır:

№	Sahibkarlıq subyektinin siyahısı tərtib eilmiş əmlakların tipi	Satışı reallaşdıracaq qurum və yer	Qeyd
1	Dövlət əmlakından başqa dəyəri 5.000AZN-dən çox olmayan daşınar əmlak	Vergi əməkdaşları tərəfindən müəyyən olunmuş ticarət şəbəkələri	
2	Daşımaz əmlaklar və qiyməti 5.000AZN-dən çox olan daşınar əmlak	İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin yanında Hərracın Təşkili üzrə Auksion Mərkəz	

4.1. Fiziki şəxslərin gəlir vergisi

Bu fəsildə biz fiziki şəxslərin gəlir vergisinin nədən ibarət olduğu və necə tətbiqi edilməsi ilə tanış olacağıq.

Vergi Məcəlləsinin "Vergi ödəyiciləri" adlı 95-ci maddəsində deyilir ki, rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin ödəyiciləri qismində çıxış edir.

Həmin Məcəllənin 96-cı maddəsindən isə vergitutma obyekti ilə tanış ola bilərik. Belə ki, həmin maddəyə daxil olan 96.1-ci maddəsində qeyd olunur ki, rezidentlərin gəlirləri ilə bağlı vergitutma obyekti vergi ili üçün rezidentlərin bütün gəlirləri ilə bu dövr üçün Vergi Məcəlləsinin müəyyənləşdirdiyigəlirlərdən çıxılan miqdar arasındakı fərqi ifadə edən vergi tutumuna cəlb olunan gəlirlərdir.

Xüsusi notariusların 1 ayda həyata keçirdiyi notariat hərəkətlər, eləcə də notariat hərəkətləri ilə bağlı təqdim olunan xidmətlər üzrə tutulan haqla (xərclərin məbləği nəzərə alınmadan) vergitutma obyekti hesab edilir.

Vergilərin tutulması prosesi ödəmə mənbəyində həyata keçirildiyi təqdirdə, vergiyə cəlb olunan obyekt qismində vergilətin tətbiq olunduğu gəlir hesab edilir.

Vergi Məcəlləsinin 96.2-ci maddəsində göstərilir ki, Azərbaycanda daimi nümayəndəliyin fəaliyyət göstərməsi ilə öz işini quran qeyri-rezident vergi ödəyiciləri daimi nümayəndəliyi ilə bağlı olan vergilərə cəlb olunan gəlirləri ilə bağlı gəlir vergisinin ödəyiciləri qismində çıxış edirlər.

Vergilərin tətbiq olunduğu gəlirlər, konkret dörvlər üzrə Azərbaycan Respublikasında yerləşən mənbələrdən daimi nümayəndəliklə əlaqədar əldə olunan ümumi gəlirlər sözügedən bu dövrlərdə həmin gəlir məbləğlərinin əldə olunması ilə bağlı çəkilən və gəlirlərdən çıxılması nəzərdə tutulan arasındakı fərqdir.

Vergi Məcəlləsinin 96.3-cü maddəsində deyilir ki, Vergi Məcəlləsinin 96.2-ci maddəsi ilə əhatə olunmayan, ancaq vergilərin tətbiq cəlb olunması Vergi Məcəlləsinin 125.-ci maddəsi ilə nəzərdə tutulmuş ümumi gəlirləri, gəlirlərdən çıxılan məbləğlər nəzərə alınmadan ödəniş yerində vergilərin tətbiq olunduğu obyekt hesab edilir.

Vergi Məcəlləsinin 96.4-cü maddəsində göstərilir ki, məşğulluq yaxud əmlakın təqdim olunmasından gəlirlər ələ edən qeyri-rezident olan fiziki şəxslər Azərbaycan Respublikasında yerləşən mənbədən təqdim ilində əldə etdikləri bu kimi ümumi gəlirlərin Vergi Məcəlləsində təyin olunan, sözügedən dövrlər ərzində həmin gəlirlərə aidiyyəti olan və onlardan çıxılan məsrəflər qədər aşağı salınan miqdarla bağlı gəlir vergisinin ödəyicisi hesab olunurlar.

Vergi Məcəlləsinin 96.5-ci maddəsində deyilir ki, hüquqi şəxslərin nizamnamə kapitallarındakı iştrak payları yaxud səhmlər xalis aktivlərin iştirak yapları yaxud səhmlərə mütənasib dəyərindən artıq qiymətlərlə satıldıqda, faktiki satış qiyməti ilə nizamlamə kapitalındakı iştiraketmə paylarının yaxud səhmlərin nominal qiyməti arasındakı fərqlər, iştirak payları yaxud səhmlər xalis aktivlərin iştirak payları yaxud sahmlərə mütənasib qiymətindən kiçik qiymətlərə, məsələn, güzəştli qiymətlərlə,satıldığı təqdirdə isə alqı-satqı müqaviləsinin imzalandığı günə xalis aktivlərin mütənasib dəyəri ilə nizamnamə kapitalındakı iştirak paylarının nominal dəyəri arasında yer alan fərqlərə vergilər tətbiq olunur. İştirak payı yaxud səhmlər nominal dəyərdən artıq qiymətə alındığı təqdirdə, sözügedən iştirak payının yaxud səhmlərin satılması prosesində gəlirlərdən çıxılan məsrəflər həmin aktivlərin faktiki satınalma qiymətləri ilə nəzərə alınmalıdır.

Vergi Məcəlləsinin 97-ci maddəsi "Gəlir" adlanır.

97.1-ci maddədə göstərilir ki, rezidentlər qismində çıxış edən vergi ödəyicilərinin gəlirləri onların Azərbaycanda və respublikamızın sərhədlərinnin xaricində əldə etdikləri gəlirlərdən ibarətdir.

Məcəllənin 97.2-ci maddəsində isə qeyd olunur ki, vergi ödəyicilərinin gəlirləri onların Azərbaycanda yerləşən mənbələrdən daxil olan gəlir məbləğlərindən ibarətdir.

Vergi Məcəlləsinin 97.3, 97.3.1, 97.3.2 və 97.3.3-cü maddələrdən aydın olur ki, gəlirlər dedikdə aşağıdakılar nəzərdə tutulur:

- Muzdlu işlər xəttindən daxil olan gəlirlər:
- Muzdlu işlərə aid edilməyən fəaliyyət növləri xətti ilə daxil olan glirlər;
- Vergi tutumundan azad olunan gəlir məbləğlərindən və əsas vəsaitlərin təkrarən qiymətləndirilməsi nəticəsində əmələ gələn artımdan başqa bütün digər gəlir məbləğləri.

Vergi Məcəlləsinin 98-ci maddəsi muzlu işlərlə bağlı əldə olunan gəlirlərə aiddir.

Belə ki, sözügedən Məcəllənin 98.1-ci maddəsində göstərilir ki, fiziki şəxslərin muzdlu işlərlə bağlı əldə etdikləri gəlirlər - əmək haqları, həmin işlərdən əldə olunan bu və ya digər ödəmə yaxud fayda, o cümlədən öncəki iş yerindən, və ya gələcək muzdlu işlərdən əldə olunan gəlirlərdir.

Vergi məcəlləsinin 98.2-ci maddəsində qeyd edilir ki, sözügedən Məcəllədə yer alan 98.1-ci maddəsinin məqsədləri üçün gəlirlərin məbləğləri, aşağıda qeyd olunan məbləğlərdən işçilərin əldə etdikləri gəlir miqdarı üçün ödədikləri bu və ya digər xərclər çıxılandan sonra qalan məbləğlərə bərabərdir:

Söhbət, əvvəla 98.2.1-ci maddəsindən gediur. Burada göstərilir ki, fiziki şəxslərə banklararası auksionlarda yer alan faiz dərəcələrindən kiçik faiz dərəcələri tətbiq olunmaqla ssudalar veridliyi təqdirdə - bu növ ssudalarla bağlı banklararası kredit auksionlarında yer alan faiz dərəcələrinə müvafiq faizlərlə ödənilməsi vacib olan məbləğlə aşağıdakı faiz dərəcəsinə müvafiq ödənməli olan məbləğlər arasındakı fərq;

İkincisi, 98.2.2-ci maddəsində işə götürənlərin öz işçilərinə məhsulları, işləri yaxud xidmətləri təqdim etdiyi və ya hədiyyə verdiyi təqdirdə - bu kimi məhsulların, iş yaxud xidmətlərin bazar qiyməti ilə;

Və, nəhayət, Vergi Məcəlləsinin 98.2.3, 98.2.4, 98.2.5, 98.2.6, eləcə də 98.2.7-ci maddələrdən aşağıdakıları öyrənirik. İşçilərin məsrəflərinin əvəzi ödənildiyi təqdirdə - ödənilmiş məbləğ;

İşçilərin iş götürənlərə olan borclarının yaxud öhdəliklərinin bağışlandığı təqdirdə - spzügedən borcların yaxud öhdəliklərin miqdarı;

İşəgötürənlərin ödədikləri sığorta haqları;

Bu və ya digər təqdirdə - normativ-hüquqi aktlarda digər qiymətləndirmə üsulu qeyd edildiyi halda, Vergi Məcəlləsinin 14-cü maddəsinə əsasən təyin olunan dəyər;

İşəgötürənlərin işçilərinə yaxud təhtəlhesab şəxslərə verdikləri vəsaitlər uyğun icra hakimiyyəti orqanı tərəfindən (Azərbaycan Respublikasının Prezidenti) müəyyənləşdirdiyi orqan yaxud strukturun (Azərbaycan Respublikasının nazirlər Kabinetinin) müəyyənləşdirdiyi qaydalara uyğun geri qaytarılmadığı halda – sözügedə vəsaitlərin məbləği.

Vergi Məcəlləsinin 98.3-cü maddəsindən öyrənirik ki, ezamiyyətlərlə bağlı faktiki xərclərin, eləcə də səlahiyyətli icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Nazirlər Kabinetinin) müəyyənləşdirdiyi dəniz nəqliyyatında ezamiyyətlərlə bağlı xərclər əvəzinə üzücü heyət üzvlərinə sutka ərzində ödəmələrin yaxud başqa işgüzar məsrəflərin əvəzinin ödənməsi gəlirlərə daxil edilmir.

Sözügedən Məcəllənin 98.4-cü maddəsindən bilirik ki, Vergi Məcəlləsində yer alan 98.2-ci maddəsində qeyd olunmuş məbləğlərə və məsrəflərə aksizlər, ƏDV, eləcə də qiymətləndirilən əqdlərlə bağlı işə götürənlərin ödəməli olduqları bu və ya digər vergilər daxildir.

Bu Məcəllənin 98.5-ci maddəsində göstərilir ki, iş götürənlər tərəfindən Vergi Məcəlləsinin 109.3-cü maddəsinə uyğun olaraq,orada nəzərdə tutulan məsrəflərin çəkilməsinin nəticəsi qismində əldə olunan gəlirlər vergi tutulan gəlirlərə aid olunmur.

İndi isə Vergi Məcəlləsinin 99-cu maddəsində keçək. Həmin maddə muzdlu işlərə aid edilməyən fəaliyyətlərdən əldə olunan gəlirlərə həsr edilmişdir.

99.1-ci maddəsində öyrənirik ki, muzdlu işlərə aid edilməyən fəaliyyətlərdən daxil olan gəlirlərə görə sahibkarlıq fəaliyyətindən və həmin fəaliyyətə aid edilməyən işlər, gəlirlər daxildir.

Vergi Məcəlləsinin 99.2, 99.2.1, 99.2.2, 99.2.3 və 99.2.4-cü maddələrdən aydın olur ki, sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərə aşağıda göstərilənlər aid edilməlidir:

- Sahibkarlığın məqsədləri üçün istifadə edilmiş aktivlərin təqdim olunmasından daxil olmuş gəirlər;

- Sahibkarlığın məhdudlaşdırılması yaxud müəssisələrin öz işini dayandırılmasına razılıq verilməsi üçün alınan gəlirlər;

- əsas vəsaitlərin təqdim olunmasından əldə edilən, habelə Vergi Məcəlləsinin 114.7-ci maddəsinə əsasən gəlirə daxil olunan məbləğlər;

- Vergi Məcəlləsinin 141-ci maddəsinə əsasən gəlirlərdən çıxılan kompensasiya olunan məbləğlərdən yaxud ehtiyatların azaldıılmasından daxil olan gəlirlər.

Vergi Məcəlləsinin 99.3, 9.3.1, 99.3.2, 99.3.4, 99.3.5, 99.3.6, 99.3.7 və 99.3.8, 99.3.9, 99.3.10, 99.3.11, 99.3.12, eləcə də 99.3.13-cü maddələrdən aydın olur ki, sahibkarlığa aid olmayan fəaliyyət

növlərindən daxil olan gəlirlərə həmçinin aşağıda göstərilənlər aid edilməlidir:

- Faizdən əldə olunan gəlirlər;
- Dividendlərdən əldə olunan gəlirlər;
- əmlakların icarəyə verilməsi nəticəsində əldə olunan gəlirlər;
- toyalti;
- vergi ödəyicilərinə bağışlanmış borcların miqdarı, Vergi Məcəlləsində yer alan 98.2.4-cü maddəsinə qeyd olunanlar istisna edilməklə;
- sahibkarlığa aid fəaliyyət növlərinin məqsədləri üçün istifadə edilməyən aktivlərin təqdim olunmasından əldə edilən gəlirlər;
- təqvim ilində alınan hədiyyələr və mirasın miqdarı Vergi Məcəlləsinin 98.2.2-ci maddəsinə qeyd olunanlar istisna edilməklə;
- sahibkarlıq subyektlərinə məxsus aktivlərin ilkin qiymətinin yüksəldiyini ifadə edən bu və ya digər gəlirlər (təqdim edildiyi ~~yaxud vergilərin tətbiqi məqsədləri üçün amortizasiya hesablanması aparıldığı~~ halda) - əmək haqlarından başqa;
- həyatın yığım sığortaları ilə bağlı sığorta edilənin ödədikləri yaxud onun xeyrinə ödənilmiş sığorta haqqı ilə sığorta ödəmələri arasında yer alan fərqlər;
- xüsusi noratiusların apardıqları notariat hərəkətlərinə, eləcə də notariat hərəkətləri ilə bağlı təqdim olunan xidmətlər üçün ödətdirilən haqlar;
- vəkillik istiqamətində fəaliyyət göstərən şəxslərlərin sözügedən fəaliyyətlə əlaqədar təqdim etdikləri xidmətlər müqabilində ödətdirilən haqlar;
- oynanılan lotereya oyunlarından və idman mərc oyunlarından daxil olan uduş məbləğləri;
- mediatorluq istiqamətində fəaliyyət göstərən fiziki şəxslərin sözügedən fəaliyyətlə əlaqədar təqdim etdikləri xidmətlər müqabilində ödətdirilən haqlar, o cümlədən əldə edilən mükafatlar.

İndi də Vergi Məcəlləsiniin 100-cü maddəsinə keçid alaq. Həmin maddə gəlirin dəqiqləşdirilməsini tənzimləyir.

Fiziki şəxs tərəfindən alınmış və Vergi Məcəlləsinin 122, 123, 124, 150.1.9, habelə 150.1.10-cu maddələrinə əsasən Azərbaycan ərazisində yerləşən ödəmə mənbəyindən vergiləri tutulmuş dividendlər, faizlər,

icarə haqları, royalti, daşınmaz əmlaklar xətii ilə daxil olan gəlirlər, lotereyaların, eləcə də idman mərc oyunlarının keçirilməsindən daxil olan uduş məbləğləri ümumi gəlirlərdən çıxılır.

Vergi Məcəlləsinin 101-ci maddəsin gəlir vergisinin dərəcəsinə həsr olunmuşdur.

Məcəllənin 101.1-ci maddəsində öyrənirik ki, Vergi Məcəlləsinin 101.1.1-ci maddəsində yer alan müddəalar nəzərə alınmaqla, fiziki şəxsin muzdlu işlərdən daxil olan aylıq gəlirindən vergilərin ödənilməsi aşağıda təqdim olunan cədvələ əsasən aparılır:

Cədvəl №1

Verginin tətbiq olunduğu və bir ay ərzində əldə edildiyi gəlirin miqdarı	Verginin tutulmasının məbləği
2.500AZN-ə qədər	14%
2.500AZN-dən çox olduğu halda	350AZN + 2.500AZN-lik məbləğdən artıq olan miqdarın 25%-i

Vergi Məcəlləsinin 101.1-1-ci maddəsində deyilir ki, neft və qaz sferasında fəaliyyəti olmayan, eləcə də qeyri-dövlət sferasına aid olunan sahibkarlıq subyektində işlə təmin olunmuş fiziki şəxslərin muzdlu işlərdən bir ay ərzində əldə etdikləri gəlirlərdən vergi 2019-cu ilin yanvar ayının 1-dən etibarən yeddi illik müddətdə bu cədvələ əsasən tutulacaq:

Cədvəl №2

Verginin tətbiq olunduğu və bir ay ərzində əldə edildiyi gəlirin miqdarı	Verginin tutulmasının məbləği
8.000AZN-ə qədər	0%
8.000AZN-dən çox olduğu halda	8.000AZN-lik məbləğdən artıq olan miqdarın 14%-i

Vergi Məcəlləsinin 101.1-2-ci maddəsindən öyrənirik ki, iki yaxud daha artıq yerdə muzla çalışan fiziki şəxsin əldə etdiyi gəlirlərdən gəlir vergisinin tutulması ayrılıqda hər iş yerində ödəniliş məbləğdən ayrıca hesablanmaqla baş verir və büdcəyə köçürülür.

Vergi Məcəlləsinin 101.1-3-cü maddəsində göstərilir ki, fiziki şəxsin Vergi Məcəlləsində yer alan 150.1.1 və 150.1.2-ci maddələrə uyğun olaraq ödəmə mənbyində verginin tətbiq olunduğu gəlir

məbləğlərindən vergi sözügedən Məcəllədə yer alan 101.1 və 101.1-1-ci maddələri ilə nəzərdə tutulmuş dərəcələrə müvafiq qaydada hesablanır və aidiyyəti ilə ödənilməsi təmin olunur. Vergi Məcəlləsinin 159.1.3-cü və 150.1.7-ci (vergi orqanında uçotda olmayan fiziki şəxsin təqdim etdiyi xidemətlərə yaxud yerinə yetirdiyi işlərə münasibətdə) maddələri tətbiq olunduğu zaman gəlir vergisi Məcəllədə yer alan 101.1-ci maddəsində göstərilmiş vergi dərəcəsi uyğun qaydada pensiya alanların və xidməti təqdim edən şəxslərin gəlir məbləğlərinə tətbiq olunmaqla hesablanır.

Vergi Məcəlləsinin 101.1-4cü maddəsində deyilir ki, sözügedən Məcəllənin məqsədləri üçün neft və qaz sektorunda iş fəaliyyətinin və qeyri-dövlət sferasının meyarları səlahiyyətli icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Prezidenti) müəyyənləşdirdiyi orqan yaxud qurum (ölkənin Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilir.

Bu Məcəllənin 101.2-ci maddəsindən öyrənirik ki, sahibkarlıqla əlaqəli olmayan fəaliyyət üzrə hər il əldə olunan gəlirlərdən 14% dərəcəsi ilə vergi tutulması baş verir.

Muzdla işləyən şəxs qismində cəlb olunmuş fiziki şəxsə hüquqi şəs yaxud fərdi sahibkarın ödədiyi maddi yardımlar, mükafatlar yaxud təqaüdlərdən, eləcə də vəkil strukturların daxilində işləyən vəkillərin həmin strukturun ödədiyi gəlirlərdən vergi Məcəllədə yer alan 150.1.7-ci və 150.1.17-ci maddələrinə əsasən bu maddədə qeyd olunmuş dərəcə ilə hesablanır.

Sözügedən Məcəllənin 101.3-cü maddəsindən görürük ki, hüquqi şəxs formasında öz fəaliyyətini qurmamış fiziki şəxsin əldə etdiyi və vergilərin tətbiq olunduğu gəlirlərdən 20% dərəcəsi əsasında vergi hesablanır.

Məcəllədə yer alan 101.4-cü maddəsindən isə aydın olur ki, xüsusi notariuslar üçün Vergi Məcəlləsinin 96.1-ci maddəsinin 2-ci bəndi ilə müəyyən olunan vargitutma obyekti 10%-lik vergi dərəcəsi ilə verginin ödənilməsinə cəlb edilir.

Vergi Məcəlləsinin 101.5-ci maddəsində deyilir ki, idman mərc oyunları, loterayalar, eləcə də digər yarışlar və müsabiqələr keçirildiyi zaman əldə olunmuş uduşlar (mükafatlar) üzrə iştirakla əlaqədar pul məbləğləri (pul qoyuluşları) çıxılandan sonrakı məbləğlərdən 10 faiz miqdarında vergi dərəcəsi ilə vergi tutulmasına cəlb olunur. Burada

qeyd etmək lazımdır ki, Azərbaycanın sərhədlərindən kənarda təşkil olunan mərc oyunları, lotereyalar, yarışlar və müsabiqələr keçirildiyi zaman əldə olunan nağd pul məbləğlərindən vergi tutulması baş vermir.

Vergi Məcəlləsinin 101.6-cı maddəsində deyilir ki, vergi ödəyiciləri qismində vergi orqanlarında uçota alınmayan fiziki şəxs "Nağdsız hesablaşmalar haqqında" AR Qanununun 3.5-ci maddəsində qeyd edilmiş məhsulların təqdim olunmasından daxil olan gəlirlər (Vergi Məcəlləsi ilə vergilərin tətbiqindən azal edilən gəlirlərdən başqa) xərclərin çıxışlması həyata keçirilmədən ~~2~~5% vergi dərəcəsi ilə vergi tətbiqinə cəlb olunur.

İndi isə 102-ci maddəsinə nəzər salaq. Həmin maddə gəlir vergisindən azadolma və güzəştlərin tətbiq edilməsi hallarına həsr edilmişdir.

Belə ki, 102.1, 102.1.1, 102.1.2, 102.1.3 və 102.1.3.1-ci maddələrdən aydın olur ki, fiziki şəxslərə daxil olan və aşağıda kateqoriyaları göstərilmiş gəlirlər gəlir vergisinin tətbiqindən azad olunur:

Rotasiyaya əsasən xarici ölkələrə ezam olunan diplomatik xidmət əməkdaşlarının, diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini reallaşdıran əməkdaşların, Azərbaycanın xarici dövlətlərin ərazisində akkreditasiya olunmuş səfirlik və konsulluq şöbələrində ticarət nümayəndələrinin, onların aparat işçilərinin, eləcə də mühafizəsi mütləq olan Azərbaycan Respublikasının xarici dövlətlərdə və beynəlxalq qurumlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin və konsulluqlarının mühafizə işini yerinə yetirən hərbi şəxslərin xarici dövlətdə aldıqları əmək haqları, Azərbaycanın vətəndaşlığı olmayan diplomatik yaxud konsulluq işçilərinin rəsmi məşğulluqlarından daxil olan gəlirlər;

Azərbaycan Respublikasının rezidenti qismində çıxış etməyən şəxslərin iş yerlərindən daxil olan gəlirlər – həmin gəlirlər Azərbaycan Respublikasının rezidenti qismində çıxış etməyən işəhötürənlər tərəfindən və ya onların adından ödənildiyi təqdirdə və qeyri-rezidentin daimi nümayəndəliyinin yaxud onların adından, və ya daimi fəaliyyət göstərən nümayəndəliklərdə fəaliyyətləri ilə bağlı ödənişi həyata keçirilmirsə;

Təqvim ilində hədiyyə olunan əşyalar, ayrılan maddi yardımlar, birdəfəlik ödənilən müavinətlər və miras:

Hədiyyənin və təhsil haqqının ödənilməsi məqsədilə təqdim olunan maddi yardımların, birdəfəlik müavinətlərin məbləğinin 1.000AZN-ə qədər hissəsi, mirasın ümumi məbləğinin 20.000AZN-ə qədər miqdarı;

Azərbaycanın daxilində müalicə müqabilində aparılan ödənişləri, həmçinin cərahiyyə əməliyyatlarının ödənişini etmək məqsədilə maddi yardımların, birdəfəlik müavinətlərin miqdarı 10.000AZN-ə qədər hissəsi, xarici dövlətlərdə müalicə müqabilində aparılan ödənişlər, həmçinin cərahiyyə əməliyyatlarının ödənişini həyata keçirmək məqsədilə maddi yardımların, birdəfəlk müavinətlərin məbləğinin 50.000AZN-ə qədər hissəsi;

Təhsil yaxud müalicə, cərahiyyə əməliyyatların aparılması məqsədilə də həmçinin, haqlarının ödənilməsi üçün maddi yardımlar, birdəfəlik müavinətlər almış şəxsə sözügedən güzəştin verilməsi o zaman reallaşdırılır ki, qeyd etdiyimiz pul vəsaitlərinin təyinatı üzrə ödənilməsini təsdiqləyən müvafiq sənədlər təqdim edilir.

Vergi Məcəlləsinin 102.1.3.2-ci maddəsində göstərilir ki, hədiyyələr, maddi yardımlar və mirasın alınması vergi ödəyicilərinin ailə üzvlərindən əldə olunduğu təqdirdə onun tam dəyəri vergiyə cəlb olunur.

Sözügedən Məcəllənin 102.1.3.3-cü maddəsindən öyrənirik ki, şəhidlik zirvəsinə ucalmış insanların ailə üzvləri tərəfindən əldə olunmuş maddi yardımların 20.000AZN-ə qədərki hissəsinin vergiyə cəlb olunması uyğun qaydada qanunvericiliyin tələblərinə əsasən təmin edilməlidir;

Bu Məcəllənin 102.1.3.4-cü maddəsində qeyd edilir ki, Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda aparılmış hərbi əməliyyatlarda əlil olmuş hərbçilərin və mülki vətəndaşların əldə etdikləri maddi yardımların 20.000AZN-ə qədərki hissəsinə vergi tətbiq olunur.

Maddi yardımları əldə etdmiş müki vətəndaşlara sözügedən güzəştin tətbiqi o zaman mümkündür ki, səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyənləşdirilmiş orqan yaxud strukturun (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin) hərbi əməliyyatlarda əlillik müəyyənləşdirdiyini təsdiqləyən arayışı təqdim olunsun.

Vergi Məcəlləsinin 102.1.4-cü maddəsindən aydın olur ki, əmək qabiliyyətinin müəyyən müddətə itirilməsi müqabilində ayrılan müavinətlərdən başqa, dövlət müavinəti, dövlətin əvəzsiz aparılmış köçürməsi, dövlətin ayırdığı pensiya, dövlətin təqaüdü, hüquqi şəxslərin, onların filialları yaud nümayəndəliklərinin, eləcə də fərdi sahibkarların fəaliyyətinə xitam verilməsi və işçilərinin sayı və ştatlarının ixtisarı ilə

bağlı əmək müqavilələrinə xitam verildiyi təqdirdə işçiyə, eləcə də onun vəfati ilə bağlı əmək müqaviləsi dayandırıldıqda isə ölçüş şəxsin vərəsələrnə AR Əmək Məcəlləsinə uyğun şəkildə ödənilmiş təminat, eləcə də AR qanunvericiliyi və səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikası Prezidenti) tərəfindən verilmiş qərarlara əsasən büdcə vəsaitləri hesabına fərdi birdəfəlik ödəniş yaxud maddi yardım vergiyə cəlb olunması təmin edilməlidir.

102.1.5-ci maddəyə uyğun olaraq isə ödənilən alimentlərin də vergiyə cəlb edilməsi nəzərdə tutulur.

Bundan başqa, Vergi Məcəlləsinin 102.1.6-cı maddəsindən öyrənirik ki, fiziki şəxslərin əsas iş yerlərində, yəni əmək kitabçasında qeyd edilmiş yerdə, bu və ya digər muzdlu işlərlə bağlı əldə olunan aylıq gəlirləri 2.500AZN-ə qədər olanda, 200AZN, il ərzində gəliri 30.000AZN-ə qədər olanda, 2.400AZN miqdarında olan hissəsinə verginin tətbiqi təmin edilir;

102.1.7-ci maddəsinə uyğun olaraq, qiymətli daş və materiallardan, qiymətli daş və çetallardam hazırlanan məmulatlardan, incəsənət əsərlərindən, antik premdetlərdən və vergi ödəyicisi tərəfindən həyata keçirilən sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan yaxud istifadə olunmuş əmlaklardan başqa, daşınan maddi nəmlakların təqdim olunmasından daxil olan gəlirlər vergiyə cəlb olunur.

Vergi Məcəlləsinin 102.1.8-ci maddəsindən öyrənirik ki, sığorta hadisəsi baş verdiyi təqdirdə sığorta edilənlərin və faydalananların həyatlarına, eləcə də onların əmlaklarına yaxud əmlak mənafelərinə dəyən zərərlərin əvəzini ödəmək məqsədilə pul yaxyd natura formasında ödənilməsi həyata keçirilmiş vəsaitlər, eləcə də işə götürən tərəfin ödəmiş olduğu bütün növ icbari sığorta və könüllü tibbi sığorta ödəməli, müddəti üç ildən qısa olmamaq şərtilə bağlanılan müqavilələrlə həyatın yığım sığortasına və pensiya sığortasına görə işə götürən tərəfin sığorta edilənin vergiyə cəlb olunmuş gəlirlərinin 50%-dən artıq olmayan hissəsindən Azərbaycanda fəaliyyət göstərən sığortaçılara ödənilmiş sığorta haqları, həyatın yığım sığortasına, eləcə də pensiya sığortasına görə bağlanmış müqavilələrin qüvvəyə mindiyi güdən başlayaraq üç il müddəti keçdikdə sığorta edilənə və faydalanan tərəfə ödənilmiş bu və ya digər maliyyə vəsaitləri vergi qanunvericiliyində nəzərdə tutulmuş qaydada vergiyə cəlb olunur.

Vergi Məcəlləsinin 102.1.10, 102.1.11 və 102.1.12-ci maddələrinə əsasən, dəymiş zərərin əvəzlənməsi ilə əlaqədar təqdim olunan kompensasiya ödəmələri, birbaşa kənd təsərrüfatı məhsullarının istehsalı prosesindən əldə edilən gəlir məbləğləri, eləcə də sənətkarlıq fəaliyyətinin misgər, qalayçı və saxsı məmulatlar, təsərrüfat müxəlləfatları, bağşılıq-bostanşılıq alətləri, xalq musiqisi alətləri, oyuncaqlar, suvenirlər, qamışdan və qarğıdalıdan hazırlanan məişəty əşyalarının hazırlanması, keramika məmulatları bu və kimi digər məhsullar üzərində bədii işənmələrin həyata keçirilməsi, bədii tikmələr, ağac məmulatlarından məişət alətlərinin istehsalı və bu kimi digər sahələrdə fəaliyyət göstərən fiziki şəxslərin əldə etdikləri gəlirlərin də vergiyə cəlb olunması Vergi Məcəlləsində öz əksini apmış qaydalar çərçivəsində nəzərdə tutulmuşdur.

Sözügedən Məcəllənin 102.1.14-cü maddəsindən oxuyuruq ki, fiziki şəxsə kompensasiya səciyyəvi aşağıdakı ödəmələr vergiyə cəlb olunması təmin edilməlidir:

- iş vaxtı daimi yolda olan yaxud iş fəaliyyəti gediş-gəlişlərlə bağlı, yəni səyyar səciyyəvi qurumlarda çalışan işçilər üçün gündəlik ezamiyyə xərcləri müqabilində ayrılan əlavə vəsaitlərin, eləcə də səlahiyyətli icra hakimiyyəti orqanının (AR Nazirlər Kabinetinin) müəyyənləşdirdiyi dəniz nəqliyyatında ezamiyyə məsrəfləri müqabilində üçücü heyət üzvlərinə sutkalıq ödəmələrin qanunvericilik qaydasında nəzərdə tutulmuş miqdarı;
- səlahiyyətli icra hakimiyyəti orqanı (AR Nazirlər Kabineti) tərəfindən verilmiş qərara əsasən müəyyənləşdirilmiş ezamiyyə xərclərinin miqdarı;
- ağır, zərərli, təhlükəli ietshalat sahələrində çalışan insanların tibbi müayinələrdən keçmələrinin təmiin edilməsi məqsədilə işə götürən tərəfin hesabına qanunvericilik qaydasında ödənilməsi müəyyənləşdirilmiş xərclərin miqdarı;
- zərərli, ağır əmək şəraitində, yerin altında işləyən insanlara nəzərdə tutulan ödənişsiz müalicə-profilaktika təyinatlı yeməklər, süd və bu kimi başqa məhsulların dəyəri və onlara müəyyənləşdirilmiş müddətlər ərzində, tələbatlarına tam uyğun şəkildə, çeşidlərlə təqdim olunan xüsusi geyimlər, ayaqqabılar və başqa fərdi mühafizə vasitələrinin dəyəri;
- istehsal sahəsindən ayrılmaq şərtilə təhsil almaq üçün göndərilən

tələbələrə, doktorantlara, magistrlərə onları göndərmiş qurumlar və təşkilatlar hesabına ödənilən təqaüd miqdarı;

- təbii fəlakətlər yaxud hər hansı başqa fövqəlarə hallar zamanı səlahiyyətli icra hakimiyyəti orqanları (Azərbaycan Respublikasının Prezidenti, AR Nazirlər Kabineti, habelə respublikanın yerli icra hakimiyyətləri) tərəfindən verilmiş qərarlara əsasən, eləcə də xarici ölkə və başqa qurumların təqdim etdikləri birdəfəlik maliyyə yardımların məbləğləri;
- verdikləri qanla əlaqədar donorlar üçün nəzərdə tutulan və ödənilən kompensasiyanın miqdarı;
- dalğıc işlərinin məqsədləri üçün təqdim olunan pul vəsaitləri və mükafatları;
- ictimai təşkilat, xeyriyyə cəmiyyəti və fondunun ayırdığı maddi yardıım;
- hərbçilərə, həkimlərə, prokuratura işçilərinə, habelə prokuratura işçiləri olmayan hərbçilərə, hüquq mühafizə ~~və feldyeger rabitəsinin~~ xüsusi rütbəsinə malik işçilərə ayrılan bütün növ ödəmələr, ancaq vəzifəsinə və hərbi yaxud xüsusi rütbəsinə görə ödənilən əmək haqları istisna edilməklə, eləcə də əməliyyat-axtarış fəaliyyətində iştirak edən subyektlərlə əməkdaşlıq edənlərə, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətində olan subyektlərə köməklik göstərən insanlara ayrılan bütün növ məvacib, mükafat və bu kimi başqa maddi təminatlar;
- işıgötürənlər tərəfindən işçilərin hərbi və alternativ xidmətə cəlb edilməsi ilə bağlı ödənişi həyata keçirilən müavinətin qanunvericilik qaydasında nəzərdə tutulmuş miqdarı;
- müxtəlif yarış və müsabiqələrdə əşyalar formasında əldə olunan mükafatın tam dəyəri. Beynəlxalq yarış və müsabiqələrdə pul vəsaitləri formasında əldə olunan mükafatın 4.000AZN-ə qədər olan miqarı, ümumrespublika, şəhər və rayon səviyyəli yarış və müsabiqəyə gəlincə - 200AZN-ə qədər olan hissəsi;
- dövlət qulluqçularına təqaüd yaşına çatdıqları ilə əlaqədar könüllü işdən çıxmaları səbəbindən ayrılan birdəfəlik haqlar;
- AR Milli Məclisin deputatlarına ~~və hakimlərə~~ onlara aid səlahiyyətlərin icra edilməsi ilə əlaqədar xərclərin qarşılanması məqsədilə qanunvericilik qaydasında müəyyənləşdirilmiş məbləğdə ayrılan

aylıq pul təminatları və səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən verilmiş qərara uyğun olaraq vəzifəyə təyin edilən AR icra hakimiyyəti və başqa dövlət orqanlarının yaxud strukturların, AR Mərkəzi Bankının, dövlət adından formalaşdırılan publik hüquqi şəxslərin rəhbərlikdə təmsil olunan işçilərə səlahiyyətlərin yerinə yetirilməsi ilə əlaqədar təmsilçiliklər bağlı xərclərin qarşılanması məqsədilə ayrılan vəzifə əmək haqlarına aylıq əlavə pul təminatları;

- "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" AR Qanununa uyğun olaraq, fiziki şəxslər üçün ödənilən kompensasiyalar;
- Azərbaycanın keçmiş Prezidenti və onun ailə üzvləri üçün ödənilən pensiyalar, müavinətlər və bu kimi başqa ödənişlərin miqdarı;
- səlahiyyətli icra hakimiyyəti orqanı (AR Prezidenti) tərəfindən verilmiş qərara uyğun olaraq yaradılmış sənaye v ya texnoloji parkların rezidenti qismində çıxış edən, eləcə də hüquqi şəxs yaratmayaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sənay və ya texnoloji praklarda fəqliyyətdən əldə olunan gəlirlər (əmək haqlarına tətbiq edilən gəlir vergisindən başqa) – qanunvericilik əsasında sənaye və ya texnoloji parklarda qeydiyyatdan keçdikləri hesabat ilindən etibarən – on ilə bərabər olan bir müddətdə;01 fevral 2016-cı il tarixdən başlayaraq yeddi il ərzində yerli banklar və əcnəbi bankların Azərbaycan ərazisində işləyən filialları tərəfində fiziki şəxslərin əmanətlərinə görə ödənilməsi aparılan illik faiz gəlirləri, eləcə də emitentin investisiya yönümlü qiymətli kağızlara görə ödədiyi dividendlər, diskontlar, yəni istiqraz vərəqələrinin nominaldan kiçik yerləşdirilməsi ilə bağlı yaranan fərqlər, eləcə də faizlər üzrə hesablanan gəlirlər;
- Vergi Məcəlləsində müəyyən edilmiş qaydada gəlir və xərclərin uçotunun aparılması ilə məşğul olan, əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyatda olmayan və həyata keçirdiyi əməliyyat həcmi artıdıc on iki aylıq müddətin istənilən hər hansı ayı (ayları) üzrə 200.000AZN-lik məbləğdən kiçik miqdarda olan rezident müəssisəsinin təsisçiləri yaxud payçıları və ya səhmdrı qismində çıxış edən fiziki şəxslərin dividendlər xətti ilə əldə etdikləri gəlirlər;
- Investisiya təşviqi sənədi təqdim olunmuş və fərdi sahibkarlıqla məşğul olan şəxs sözügedən sənədi əldə etdiyi gündən gəlirlərinin

əlli faizi – yeddi il ərzində;

- pərakəndə satışın həyata keçirilməsi vasitəsilə məhsulların realizə olunmasının yerinə yetirilməsi ilə bağlı ticarət fəaliyyəti və (yaxud) ictimai iaşə sektorunda fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən dövlət büdcəsinə köçürülməsi mütləq olan gəlir vergisinin miqdarı 01 yanvar 2019-cu il tarixdən etibarən üç il ərzində "istehlakçıların hüquqlarının müdafiəsi haqqında" AR Qanunu ilə müəyyənləşdirilmiş POS-terminallarla nağdsız şəkildə həyata keçirilən ödəmələrin ümumi gəlirlərdə xüsusi çəkisinə müvafiq şəkildə müəyyənləşdirilən vergi məbləğinin 25%-i miqdarında azaldılır. Bu isə o deməkdir ki, sözügedən güzəştin alınması hüququ müəyyənləşdirilərkən, vergi əməkdaşları vergi orqanlarında uçotda dayanan şəxslər tərəfindən POS-terminallarla həyata keçirilən ödəmələrin məbləğini nəzərə almır;
- Vətən müharibəsi iştirakçılarının, habelə Vətən müharibəsində, eləcə də post-müharibə dövründə ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan döyüşlər və hərbi təxribatlar nəticəsində şəhid ailəsi statusu almış və əlilliyi müəyyənləşdirilmiş vətəndaşların banklara, bu sahədə fəaliyyət göstərən başqa təşkilatlara olan borc məbləğlərinin silinməsindən sonra meydana çıxan gəlirlər;
- lotereya təşkilatçılarının keçirdikləri lotereya oynarından və idman mərc oyunları operatorlarının keçirdikləri idman mərc oyunlarından pul formasında əldə olunan 500AZN-ə qədər uduş məbləğləri;
- sahibkarlıq subyektinin ən aşağı üç il müddətində sahiblik etdiyi mülkiyyətində yer alan iştirak payının yaxud səhmin təqdim olunmasından daxil olan gəlir məbləğlərinin 50%-i;
- səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəhyyən olunmuş orqan yaxud strukturun (Mənəvi Dəyərlərin Təbliğu Fondunun) ödədiyi maddi yardımlar;
- səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyən olunmuş orqan yaxud qurum tərəfindən müəyyənləşdirilmiş qaydaya əsasən icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi orqan yaxud strukturun (Azərbaycan Respublikasının İpoteka və Kredir Zəmanət Fondunun) zəmanət verdiyi kreditlər üzrə ödənişlərin həyata keçirilməsi təqdirində borc alanların borc məbləğlərinin ödənməsinin nəticəsi qismində əldə

olunan gəlirləri;
- Vergi Məcəlləsində müəyyən edilmiş formada gəlirlərin və məsrəflərin uçotunu həyata keçirən və mikro sahibkarlıq sferasında fəaliyyət göstərən sahibkarlıq subyektinin fəaliyyətindən əldə olunan gəlirlərin 75%-i;
- Mikro yaxud kiçik sahibkarlıq sferasında fəaliyyət göstərən sahibkarlıq subyekti qismində çıxış edən startapların "Startap" şəhadətnaməsi aldığı gündən innovasiya fəaliyyətindən dail olan gəlirlər – üç il müddəti ərzində;
- KOB klasterə daxil olan içtirakçı kimi fərdi sahibkarın KOB klaster şirkəti ilə imzalanmış mqqaviləyə uyğun olaraq təqdim edilən məhsullar, görülən işlər, göstərilən xidmətlərə görə əldə olunmuş gəlir məbləğlərinin kapital xarakterli məsrəflərin çəkilməsinə istiqamətləndirilən hissəsi – yeddi il müddəti ərzində;
- "Məşğulluq haqqında" AR Qanununa əsasən səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyən olunmuş orqan yaxud strukturun (AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi) haqqı ödənilən ictimai işlərə cəlb etdiyi işçilərinin həmin fəaliyyətlə bağlı gəlir məbləğləri;
- səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikası Prezidenti) tərəfindən müəyyənləşdirilən orqan yaxud qurumun (AR Nazirlər Kabinetinin) təsdiq etdiyi formada büdcə vəsaitləri hesabı ilə ödənişi aparılan ixrac təşviqi;
- lotereya biletlərinin satıcı olan tərəflə imzalanmış müqaviləyə uyğun olaraq yaxud onun tapşırığına görə lotereya biletlərinin bütün etaplarda agent qaydasında realizasiyasının yerinə yetirilməsi ilə bağlı göstərilən xidmətlərə görə daxil olan gəlirlər.

Vergi Məcəlləsinin 102.2-ci maddəsindən aydın olur ki, adları aşağıda qeyd olunmuş fiziki şəxslərin bu və ya digər muzdlu işlərdən verginin tətbiq edilməli olan və bir ay ərzində qazanılan gəlirlərin 400AZN miqdarında azaldılır:
- *Azərbaycanın Vətən Müharibəsi Qəhrəmanlarının gəlirləri;*
- *Azərbaycan Milli Qəhrəmanlarının gəlirləri;*
- *Sovet İttifaqı və osialist Əməyi Qəhrəmanlarının gəlirləri;*
- *Şöhrət ordinli şəxslərin (hər 3 dərəcəsi olan) gəlirləri;*

- *Birinci və ikinci qrup müharibə əlillərinin gəlirləri;*
- *Həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçü şəxslərin dul arvadları yaxud ərlərinin və övladlarının gəlirləri;*
- *1941-1945-ci illər dövründə arxa cəbhədə fədakarcasına çalışmış, orden və medallar almış şəxslərin gəlirləri;*
- *Qanunvericilik qaydasında müharibə veteranı adına layiq görülmüş şəxslərin gəlirləri;*
- *Çernobıl Atom Elektrik Starnsiyasında qəza, mülki yaxud hərbi təyinatlı nüvə obyektlərində baş vermiş başqa radiasiya qəzalarında, eləcə də nüvə qurğusunun hər hansı tipləri, həmçinin nüvə silahları və kosmik texnikalarla əlaqəli sınaq, təlim və digər işlər zamanı şüalanmaya məruz qalmış və şüa yüklənməsi ilə bağlı xəstəliyə düçar olmuş yaxud xəstəlik olmuş şəxslərin gəlirləri.*

Vergi Məcəlləsinin 102.3-cü maddəsindən aydın olur ki, orqanizmdəki funksiyaların 61 faizdən 100 faizə qədər pozulması üçün əlillik dərəcəsi müəyyən olunmuş (müharibə ilə bağlı əlillik dərəcəsi müəyyənləşdirilmiş şəxslər istisna edilməklə), 18 yaşa qədər əlillik dərəcəsi müəyyənləşdirilmiş insanların, daim qulluq edilməsi tələb olunan 18 yaşa qədər əlillik dərəcəsi müəyyənləşdirilmiş yaxud orqanizmdəki funksiyaların 81 faizdən 100 faizə qədər pozulması üçün əllilik dərəcəsi müəyyən olunmuş şəxslərə baxanlar və onlarla birgə yaşayan valideynlərdən (o cümlədən, övladlığa götürən şəxslərdən) birinin (öz istəkləri ilə), həyat yoldaşının, himayəçi şəxsin yaxud qəyyumun bu və ya digər muzdlu işdən vergiyə cəlb edilməli aylıq gəliri 200AZN miqdarında azaldılır.

Vergi Məcəlləsinin 102.4-cü maddəsindən öyrənirik ki, aşağıda sadalananların bu və ya digər muzdlu işdən verginin tətbiq edilməli olan və bir ay ərzində qazanılan gəliri 100AZN miqdarında azaldılır:

- həlak olmuş və ya hərbi əməliyyatların aparıldığı dövrdən sonra dünyasını dəyişmiş döyüşçülərin valideynləri, eləcə də vəzifələrinin icra olunması zamanı dünyasını dəyişmiş dövlət qulluqçularının valideynləri və həyat yoldaşları. Həmin şəxslərin həyat yoldaşlarına güzəştin tətbiqi o zaman reallaşdırılır ki, onlar ikinci dəfə nikaha daxil olmasınlar;
- 20 yanvar 1990-cı il tarixdə SSRİ qoşunlarının müdaxiləsindən sonra, eləcə də Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlarda həyatlarını itirmiş döyüşçülərin valideynləri və həyat

yoldaşları. Həmin insanların həyat yoldaşlarına güzəştin tətbiqi o zaman nəzərdə tutulur ki, onlar ikinci dəfə nikaha daxil olmasınlar;
- Əfqanıstana və hərbi amaliyyətlərin aparıldığı digər ölkələrə göndərilmiş hərbçilər və təlim-yoxlama tapşırıqların yerinə yetirilməsi məqsədilə çağrılmış hərbi vəzifəli şəxslər;
- Məcburi köçkün və bu kateqoriya bərabər hesab edilən insanlar. Həmin güzəştlər mənzil qanunvericiliyinə yaxud mülki hüquqi əqdlərə uyğun olaraq ayrıca mənzil sahəsinin əldə olunmasından sonra daim məkunlaşmaq imkanı tapmış şəxslərə aid olunmur.

Vergi Məcəlləsinin 102.5-ci maddəsindən aydın olur ki, qoyumluq səviyyəsindən asılı olmayaraq himayəsində ən azı 3 nəfər, həm də gündüz təhsil alan 23 yaşa qədər şagird və tələbə olan ər yaxud arvaddan biri verginin tətbiq edilməli olan aylıq gəliri 50AZN miqdarında azaldılır.

Qeyd etdiyimiz həmin qayda uşaqların 18 yaşına, tələbə və şagirdlərin 23 yaşına çatdığı ilin sonuna qədər, eləcə də uşaqların və himayədə olanların dünyasını dəyişdiyi təqdirdə ölüm ilinin sonuna qədər saxlanılır.

Fiziki şəxsin vergi tətbiq edilməli olan gəliri uşağın anadan olduğu, eləcə də himayədə olan şəxsin himayəyə götürüldüyü tarixdən etibarən azaldılır.

Himayədə olan şəxslərin sayı bir ildə azaldığı təqdirdə (uşağın dünyasını dəyişməsi hallarından başqa) himayədə olanların sayının azaldığı aydan sonrakı aydan etibarən onların saxlanması məqsədilə miqdarın çıxılmasına xitam verilir.

Vergi Məcəlləsinin 102.6-cı maddəsindən aydın olur ki, aşağıda sadalananlar himayədara aid olunmurlar:
- təqaüd, pensiya, eləcə də işsizlikdən sığorta ödənişi ilə təmin edilən insanlar (uşaqlar istisna olunmaqla);
- dövlətdən təminat alanlar (uşaq və körpə evlərində tərbiyə alan şəxslər);
- xüsusi məktəblərdə təhsil alanlar və internat evlərində olanlar, saxlanması üçün qəyyumundan haqq alınmayan uşaqlar, eləcə də tam dövlətin təminatında olan məktəblərin yanında fəaliyyət göstərən internatlarda olan uşaqlar.

Vergi Məcəlləsində yer alan 102.7-ci maddəsində qeyd olunur ki,

fiziki şəxslərin Vergi Məcəlləsinin 102.2, 102.3 və 102.4-cü maddələri ilə güzəşt hüququna malik olduğu halda, onlara həmin güzəştlərdən biri, məbləği daha yüksək olanı verilir.

Maddə 102.8-də isə deyilir ki, əmək haqlarından tutulan vergilər hesablandığı zaman fiziki şəxslərin həmin maddədə sadalanmış vergi güzəştləri ilə bağlı hüquq səlahiyyətli icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Nazirlər Kabinetinin) müəyyən etdiyi sənədlərin təqdim olunduğu gündən tətbiq edilir və ancaq fiziki şəxslərin əsas iş yerində, yəni əmək kitabçasında qeyd olunmuş yerdə, həyata keçirilməsi nəzərdə tutulur.

Fiziki şəxslərin sözügedən maddədə sadalanmış vergi güzəştləri əldə etmək əsasını verən statusu olduğu, ancaq güzəşt hüququnu əsdiqləyən uyğun sənədləri əmək müqaviləsi özünün hüquqi qüvvəsində minəndən sonra təqdim olunursa, o zaman vergi güzəştlərin sözügedən fiziki şəxslərin əmək müqaviləsi özünün hüquqi güvvəsinə mindiyi gündən hesablanlr.

İNDİ İSƏ FİZİKİ ŞƏXSLƏRİN GƏLİR VERGİSİNƏ NƏZƏR SALAQ:

Vergi Məcəlləsinin 101-ci maddəsi gəlir vergisinin dərəcəsinə həsr olunur.

Bu maddə ilə bağlı ilk aydınlıq gətirəcəyimiz sual vətəndaşlara ödənişlərin həyata keçirildiyi zaman gəlir vergisinin hesablanmasına hansı fərqli yanaşmanın tətbiq olunacağı ilə bağlıdır.

İlk öndə qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində yer alan 101.1-3cü maddəsində aparılmış dəyişikliklərin səbəbləri sahibkarlıq subyekti qismində vergi orqanında uçotda dayanmayan, VÖEN-nini təqdim etməmiş fiziki şəxslər üzrə ödəmə mənbəyində verginin müəyyənləşdirilməsinə yeni yanaşmanın tətbiq olunmasıdır. Sözügedən Məcəllədə yer alan 150.1.7-ci maddəsində əlavələrin edilməsindən sonra muzdlu işçi qismində cəlb olunan fiziki şəxslərə maddi yardımlar, mükafatlar və təqaüdlər ayıran vergi ödəyiciləri də ödəmə mənəyində vergi tutmalıdır.

Məhz buna görə Məcəllənin 101.1-3-cü maddəsində aparılmış dəyişikliklərdə uyğun olaraq, Vergi Məcəlləsinin 150.1.7-ci maddələri

tətbiq olunduğu zaman gəlir vergisi Vergi Məcəlləsinin 101.1-ci maddəsində nəzərdə tutulmuş verginin dərəcəsi uyğun olaraq pensiya alanların və xidmət göstərən şəslərin gəlir məbləğlərinə tətbiq olunmaqla hesablanması həyata keçirilir.

Tamamilə aydındır ki, sözügedən Məcəllənin 101.1-ci maddəsinə əsasən hesablama xidmətləri də şamil edilməlidir.

Yuxarıda dediklərimizə misallarla aydınlıq gətirək.

Əvvəla, fərz edək ki, sahibkarlıq subyekti vergi orqanında uçota durmadan fiziki şəxsə xidmət göstərdiyi üçün 200AZN miqdarında ödəniş aparacaq. Belə olan təqdirdə sahibkarlıq subyekti Məcəllənin 101.1-ci maddəsində yer alan tələbləri də nəzərə alınmaqla gəlir vergisinin miqdarını hesablayacaq.

İkinci misalda isə qoy sahibkarlıq subyekti vergi orqanında uçotda durmayan və muzdlu işçi qismində cəlb olunmamış fiziki şəxsə təqaüd təqdim edib. Belə olan halda hesablamalar aparılarkən Vergi Məcəlləsinin 101.1-ci maddəsinin tətbiqi nəzərdə tutulmur.

İndi isə maddi yardımlar, mükafatlar, təqaüdlər, eləcə də vəkillərə hesablanan ödəmələrdən gəlir vergisinin necə hesablanmalı olduğuna aydınlıq gətirək.

İlk öncə nəzərə almaq lazımdır ki, 2022-ci il yanvar ayının 1-dən etibarən Vergi Məcəlləsində yer alan 101.2-ci maddəsində dəyişikliklər aparılıb, əlavələr olunub. Həmin əlavələrə görə, artıq muzdlu işçi qismində cəlb edilməyən fiziki şəxsə hüquqi şəxs yaxud fərdi sahibkarların ödədikləri maddi yardımlar, mükafatlar və təqaüdlədən, eləcə də vəkillik strukturların daxilində fəaliyyət göstərən vəkillərin bu qurumun ödədiyi gəlirlərdən vergi Məcəllədə yer alan 150.1.7-ci və 150.1.17-ci maddələrinə əsasən sözügedən maddədə qeyd edilmiş dərəcəyə uyğun şəkildə tutulacaq.

Maddədə üç vacib məqama diqqət yetirməyimiz lazımdır.

Əvvəla, Vergi Məcələsində yer alan 101.2-ci maddədə sahibkarlıq subyekti tərəfindən muzdlu işçi qismində cəlb olunmuş şəxslərə ayrılaq müvafiq ödəmələrə də tətbiq olunur. Bu isə o deməkdir ki, işə götürən tərəf işçiyə ayırdığı maddi yardımın hesablanması fərqli formda aparılır.

İkincisi, hüquqi şəxsi yaxud fərdi sahibkarın muzdlu işçi qismində cəlb etmədikləri fiziki şəxsə ayrılan maddi yardımlar, mükafatlar və təqaüdlərlə bağlı ödəmə mənbəyində vergi tutulması prosesini

tənzimləyir. Sahibkarlıq subyektlərinin muzdlu işçi qismində cəlb etdikləri fiziki şəxsə xidmətlər göstərilməsi ilə bağlı vergilərin hesablanma prosesi bir qədər fərqli yanaşmaların tətbiqini nəzərdə tutur.

Vegi Məcəlləsində yer alan 101.2-ci maddəsinə uyğun olaraq, sahibkarlıq fəaliyyəti olmayan fəaliyyətlə bağlı il ərzində əldə edilən gəlirdən 14%-ə bərabər dərəcəyə əsasən vergi məbləği hesablanır.

Bir daha misallara müraciət edərək haqqında danışdığımız maddənin tələbini daha geniş və əyani şəkildə izah etməyə çalışaq.

İlk öncə fərz edək ki, sahibkarlıq subyekti iş fəaliyyətini həyata keçirdiyi rayonda ali məktəblərə qəbul imtahanlarında 600-dən çox bal toplamış abituriyentlərə 200AZN məbləğində təöqaüdün ayrılmasına qərar verib. Belə olan halda, sahibkarlıq subyekti ödəmə mənbəyində 14% miqdarında verginin hesablanmasını aparmaqla ödənişini reallaşdıracaq. Sahibkarlıq subyekti tərəfindən ödənilmiş vəsait 172AZN-ə bərabər olacaq: 200AZN (hesablanmış təqaüdün miqdarı) – 28AZN (ödəmə mənbəyində vergi – 14 faizlik dərəcə ilə) = 172AZN.

Üşüncüsü, VÖEN almaq şərtilə vəkillik fəaliyyətini həyata keçirən fiziki şəxsə vəkillik qurumunda işləyən vəkillərin əldə etdikləri gəlirlərdən hesablanan verginin məbləği bərabərləşdirilməlidir. 2022-ci il yanvar ayının 1-ə qədər vəkilllik qurumların daxilində çalışan vəkillərə tətbiq olunan gəlir vergisi Vergi Məcəlləsində yer alan 101.1-ci maddəsinə əsasən hesablanması nəzərdə tutulurdu. Sahibkarlıq subyektinin əldə etdiyi gəlirlər təqvim ayı müddətində 2500AZN-dən artıq olduğu təqdirdə, gəlir vergisinin tətbiq olunduğu dərəcə 25%-ə bərabər idi. Yəni, sözügedən şəxslərlə bağlı vergi yükünün çox olması üçün şərait təmin edilirdi. Beləliklə, aparılmış dəyişikliklərdən sonra hər iki sahibkarlıq subyektinə 14%-lik vergi dərəcəsi tətbiq edilməklə verginin hesablanması həyata keçiriləcək.

Aydınlıq gətirəcəyimiz növbəti sual isə vətəndaşlara ödənilən hansı növ ödənişlər üzrə vergi dərəcəsinin 2,5 dəfə artırılması nəzərdə tutulması ilə bağlıdır.

Vergi Məcəlləsində aparılmış ən son dəyişikliklərdən sonra meydana gələn yenilik bəzi məhsulların əldə edilməsi zamanı alıcılara ödənilən məbləğlərə görə ödəmə mənbəyində verginin tutulması ilə əlaqədardır. Belə ki, Məcəllənin 101.6-cı maddəsindən aparılmış dəyişikliklərdən sonra aydın olur ki, sahibkarlıq subyekti qismində

fəaliyyət göstərən, lakin vergi orqanlarında müvafiq qaydada uçotda durmayan fizikişəxsin "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda yer alan 3.5-ci maddəsində göstərilir ki, nəzərdə tutulan məhsulların təqdim edilməsindən əldə olunan gəlirlərdən (Vergi Məcəlləsi ilə vergilərdən azad edilər gəlirlərdən başqa) xərclər çıxılmadan 2% deyil, 5 faiz dərəcə ilə verginin hesablanması yerinə yetirilir.

Yeri gəlmişkən, Milli Məclisdə aparılan müzakirələrdə toxunulan vergi artımının ləğvi ilə əlaqədar məlumatlar daxil olsa da, millət vəkillərinin qəbul etdikləri ən son variantda vergi artımının qüvədə qalması müəyyən edilmişdir.

İndi isə sözügedən dəyişikliyə müvafiq şərh və izahat verək.

Artıq qeyd edildiyi kimi, maddənin mətnində istinad olunan "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda yer alan 3.5-ci maddədə göstərilir ki, sahibkarlıq subyektləri tərəfindən vergi ödəyicisi qismində çıxış etməyən fiziki şəxslərdən aşağıda sadalanan məhsulların nağd pul ödənilməklə satın alınması mümkündür:

- kənd təsərrüfatı məhsulunun istehsalı ilə məşğul olan şəxslərdən kənd təsərrüfatı məhsullarının qəbulu zamanı;
- əlvan və qara metal qırıntılarının qəbulu zamanı;
- utilizasiya və bu kimi digər məqsədlərdən ötrü kağızdan,şüşədən və plastikdən hazırlanmış məhsulların qəbulu zamanı;
- utilizasiya məqsədilə işlənmiş şinlərin qəbulu zamanı;
- xam dəri nümunələrinin tədarükü, yaxud alışı zamanı.

Qeyd olunmuş məhsulların, kənd təsərrüfatı istehsalçılarından əldə olunan kənd təsərrüfatı məhsullarından başqa, əldə edilməsi zamanı sahibkarlıq subyekti tərəfindən ödəmə mənbəyndə 5% miqdarında verginin hesablanması həyata keçirilməlidir.

Dediklərimizi əyani misalla daha da aydınlaşdıraq.

Fərz edək ki, 2021-ci il ərzində "F" MMC tərəfindən vergi ödəyicisi qismində çıxış etməyən fiziki şəxslərdən ümumi məbləği 40.000AZN təşkil edən əlvan və qara metal qırıntılarının qəbulu həyata keçirilib. Həmin dövrdə sözügedən fiziki şəxslər ödəmə mənbəyində 800AZN-lik vergi ödəmək məqsədilə həmin məbləği dövlət büdcəsinə köçürürdü: 40.000AZN ö 2% = 800AZN. 2022-ci il yanvar ayının 1-dən sonra

qüvvəyə minmiş dəyişikliklərə əsasən, sahibkarlıq subyekti tərəfindən ödəmə mənbəyindən hesablanmış vergi miqdarı 800AZN-ə deyil, 2.00AZ-ə bərabər olacaq. Yəni hesablama 40.000AZN x 2% kimi deyil, 40.000AZN x 5% olaraq aparılacaq.

Vergi Məcəlləsinin 102-ci maddəsi gəlir vergisindən azadolunmalara və güzəştlərə həsr edilmişdir.

Bu maddə ilə bağlı toxunacağımız ilk məsələ maddi yardımlar və müalicə haqları ilə əlaqədar nələrin dəyişdiyinə aydınlıq gətirməyi hədəfləyir.

Beləliklə, Vergi Məcəlləsində yer alan 102.1.3-cü maddə yeni redaksiya ilə təqdim olunur. Sözügedən bu maddənin 1-ci cümləsinin əvvəlki redaksiyasında göstərilirdi ki, hədiyyə, təhsil yaxud müalicə haqqını ödəmək məqsədilə maddi yardımların, birdəfəlik müavinətlərin məbləğinin 1.000AZN-ə qədər olan hissəsi, xarici ölkələrdə müalicə haqlarının ödənilməsi məqsədilə maddi yardımların, birdəfəlik müavinətlərin məbləğinin 2.000AZN-ə qədər miqdarı, mirasın dəyərinin 20.000AZN-ə qədər miqdarı gəlir vergisindən azad olunur.

Vergi Məcəlləsində yer alan 102.1.3.1-ci maddədə 1-ci cümlə yeni redaksiyasından aydın olur ki, hədiyyənin və təhsil haqqının ödənilməsi məqsədilə maddi yardımların, birdəfəlik müavinət məbləğlərinin 1.000AZN-ə qədər miqdarı, mirasın dəyərinin 20.000AZN-ə qədər miqdarı vergisindən azad olunur. Yeni redaksiya ilə bu maddənin əvvəlki mətnini müqayisə etsək aydın olacaq ki, hədiyyənin və təhsil haqqının ödənilməsi məqsədilə maddi yardımların, birdəfəlik müavinət məbləğinin, habelə mirasın gəlir vergisinin tutulması üçün cəlb olunmasında bu və ya digər dəyişikliklərə gedilməyib. Lakin müalicə haqqı Vergi Məcəlləsinin 102.1.3.1-ci maddəsinin 1-ci hissəsindən çıxarılıb. Bunun səbəbi xərclərin dəyəri, habelə istifadə yeri ilə bağlı sərgilənən baxışlarda fərqlərin olmasıdır.

Məsələn, sözügedən Məcəllənin 102.1.3.1-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq, ölkədə müalicə haqqı, həmçinin cərrahiyyə əməliyyatlarının haqlarının ödənilməsi məqsədilə maddi yardımların, birdəfəlik müavinətlərin dəyərinin 10.000AZN-ə qədər olan məbləği, xarici ölkələrdə aparılan müalicənin haqlarının, həmçinin cərahiyyə əməliyyatlarının ödənişini həyata keçirmək məqsədilə maddi yardımların, birdəfəlik müavinətin məbləğinin 50.000AZN-ə qədər

miqdarı gəlir vergisindən azad olunur.

Haqında danışdıqlarımıza aid bir misala nəzər salaq.

Fərz edək ki, düvlət müəssisəsində işləyən şəxs onkoloji xəstəlikdən əziyyət çəkir. Bununla bağlı onun işəgötürəni, yəni vergi ödəyicisi, 2021-ci ilin noyabrında həmin şəxsə 3.000AZN miqdarında maddi yardım göstərib. Bu zaman vergi ödəyicisi ayırdığı maddi yardım məbləğinin 2.000AZM-lik miqdarını öz işçisinin gəlirinə aid edərək gəlir vergisinin tutulmasını təmin etməlidir: 3.000AZN (ayrılmış maddi yardı məbləğinin ümumi miqdarı) – 1.000AZN (güzəştin tətbiq olnduğu məbləğ) – 2.000AZN. Sözügedən işçi 2022-ci ilin fevralında ölkədə əməliyyat oldunuğu səbəbdən işəgötürən tərəfindən ona təkrar olaraq 3.000AZN-lik maddi yardım ayrılmışdır. 2022-ci il yanvarın 1-dən etibarən qanuni qüvvəsinə minmiş 102.1.3.1-ci maddənin tələblərinə əsasən, vergi ödəyicisi tərəfindən 2021-ci ildə aparılmış ödənişdən fərqli olaraq, sözügedən məbləğdən bir və ya digər gəlir vergisinin hesablanması nəzərdə tutulmur.

Məsələ burasındadır ki, 2022-ci il yanvar ayının 1-dən etibarən tətbiq olunmuş dəyişikliklərə uyğun olaraq, Azərbaycanda müalicə haqlarını, həmçinin cərahiyyə əməliyyatlarının haqlarını ödəmək məqsədilə maddi yardımların, birdəfəlik ödənilən müavinətlərin məbləğinin 10.000AZN-ə qədər olan məbləği gəlir vergisinin tətbiqindən azad olunur.

İndi isə eyni mövzu üzrə ikinci misalımıza keçək.

Fərz edək ki, neft şirkətində işləyən şəxs 2022-ci il dekabr ayında avtoqəzaya uğrayıb. Bu səbəbə görə də cərrahi əməliyyat keçirməlidir.

Həmçinin qeyd edək ki, haqqında danışdığımız şəxsin xarici ölkədə müayinələrdən keçməsi məqsədilə işəgötürən tərəfindən dekabrda ona 8.000AZN-lik maddi yardımın göstərilməsi ilə bağlı qərar qəbul edilmişdir. 2021-ci ilin dekabrında Vergi Məcəlləsinə uyğun olaraq, vergi ödəyicisinin müalicə alması üçün öz işçisinə ayırdığı yardıma 1.000AZN miqdarında güzəşt tətbiq olunmuşdur, bundan sonra 7.000AZN işçinin gəlirlərinə əlavə olunur, habelə sözügedən miqdar ümumi qaydada gəlir vergisinə aid edilirdi: 8.000AZN (maddi yardımın bütpv miqdarı) – 1.000AZN (güzəştin tətbiq olunduğu miqdar) = 7.000AZN. Vergi ödəyicisi 2022-ci il ərzində bu işçisinə xarici dövlətdə müalicədən keçmək üçün 15.000AZN məbləğində ödəniş həyata

keçirib. 2022-ci il yanvar ayının 1-dən etibarən hüquqi qüvvəsinə minmiş dəyişikliklərə əsasən, sözügedən ödənişlərdən bu və ya digər gəlir vergisinin tutulması həyata keçirilmir. Məsələ burasındadır ki, xarici ölkələrdə müalicə haqqını, həmçinin aparılmış cərahiyyə əməliyyatlarının haqlarının ödənişini yerinə yetirmək məqsədilə maddi yardımların, birdəfəlik ödənilə müavinətlərin ümumi məbləğinin 50.000AZN-ə qədər olan miqdarı gəlir vergisinin tətbiqindən azad olunur.

Yeri gəlmişkən, yuxarıda diqqətinizə təqdim etdiyimiz misalın hər ikisində güzəştlərin tətbiq olunması məqsədilə təhsil yaxud müalicə, həmçinin cərahiyyə əməliyyatları haqqını ödəmək məqsədilə maddi yardımlar, birdəfəlik ödənilən müavinətlər almış insanlara sözügedən güzəşt o zaman nəzərdə tutulur ki, bu məbləğlərin təyinatı ilə bağlı ödənilməsini təsdiqləyən uyğun sənədlərin təqdim olunmasında hər hansı problem yaranmasın.

İndi isə şəhid və qazilərlə əlaqədar hansı güzəştlərin tətbinin nəzərdə tutulmasına aydınlıq gətirək.

Vergi Məcəlləsində aparılmış dəyişikliklər və əlavələrdən sonra burada yer alan 102.1.3-cü və 102.1.3.4-cü maddələrin mətnindən oxuyuruq ki, aşağıda sadalanan şəxslərə güzəştlərin tətbiq olunması nəzərdə tutulmuşdur:

- şəhidlik zirvəsinə ucalmış şəxslərin ailə üzvlərinin əldə etdikləri maddi yardımların 20.000AZN-ə qədər olan miqdarı (Vergi Məcəlləsinin 102.1.3.3-cü maddəsi);
- Ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda aparılmış hərbi əməliyyatlar zamanı əllil olmuş hərbçi və mülki şəxslərin aldıqları maddi yardımların 20.000AZN-ə qədər olan miqdarı.

Maddi yardım alan mülki şəxslərə həmin güzəşt o zaman təqdim edilir ki, səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş orqan yaxud strukturun şəxsin hərbi əməliyyatlarda əlilliyi müəyyən olunduğunu təsdiqləyən rəsmi sənəd təqdim edilsin (Vergi Məcəlləsinin 102.1.3.4-cü maddəsi).

Eyni zamanda, təqdim etdiyimiz misallardan aydın olur ki, 20.000AZN-lik güzəşt aşağıda sadalanan şəxslərə aid oluna bilər:

- şəhidlik zirvəsinə ucalmış insanların ailə üzvlərinə;
- ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda

aparılan döyüşlərdə əlil olmuş hərbi qulluqçulara;

- ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə əlil olmuş müıki şəxslərə.

İndi də bir daha misallara nəzər salaq.

Təqdim edəcəyimiz birinci misalda fərz edək ki, sahibkarlıq subyekti fəaliyyət göstərdiyi rayonda şəhid olmuş insanın ailəsi üçün 10.000AZN miqdarında maddi yardımın ayrılması ilə bağlı qərar qəbul edib. Bu maddi yardımın bütün tam hissəsi gəlir vergisinə cəlb olunmur.

Qeyd etmək yerinə düşərdi ki, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" AR qanununa uyğun olaraq, şəhid ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü üçün aparılan döyüşlərdə həyatını itirmiş, döyüş əməliyyatlarda itkin düşmüş və qanunvericilik qaydasında müəyyən olunmuş formada vəfat etmiş hesab olunan şəxsdir.

Onun ailə üzvlərinə gəlincə isə, qüvvədə olan qanunverici aktlara uyğun olaraq, adları aşağıda sadalanan şəxslər şəhid ailəsinin üzvü hesab olunur:

- ər yaxud arvadı, valideyləri, 18 yaşı tamam olmayan uşaqları, 18 yaşa qədər sağlamlıq imkanlarının məhdudluğu təyin edilmiş 18 yaşından çox olan əlillik dərəcəsi qanunvericiliyə müvafiq qaydada təyin edilmiş övladları, qardaş və bacıları, uşaq evində tərbiyə olunan şəxslər;

- peşə, orta ixtisas təhsili, ali təhsil ocaqlarında və səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş elmi təşkilatların magistratura səviyyəsində təhsil alan şəxslər isə bu təhsil müəssisəsini və elmi təşkilatların magistratura pilləsini bitirənə qədər, ancaq ən çoxu 23 yaşa qədər;

- əgər qanunvericiliyə uyğun olaraq onları saxlamalı olan şəxs yoxdur, babaları və nənələri.

Növbəti misallara nəzər salaq.

Fərz edək ki, işə götürən tərəf, yəni sahibkarlıq subyekti, ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə əlil olmuş hərbçiyə 4.000AZN miqdarında maddi yardım ayırıb. Qüvvədə olan qanunvericiliyə əsasən bu məbləğin tam hissəsi vergidən azaddır.

Bundan əlavə, fərz edək ki, sahibkarlıq subyekti ölkənin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etmiş

hərbçiyə 3.000AZN-lik maddi yardımın ayrılması haqqında qərar qəbul edib. Belə olan halda bu maddi yardımın miqdarı Vergi Məcəlləsində yer alan 102.1.3.4-cü maddəsinin təsiri altına düşmür. Məsələ burasındadır ki, Vergi Məcəlləsinin 102.1.3.4-cü maddəsində nəzərdə tutulur ki, həmin maddənin tələbləri əlil olmuş hərbçilərə şamil edilsin.

Daha bir misal. Qoy işə götürən tərəf qismində çıxış edən sahibkarlıq subyekti Ermənistanın silahlı qüvvələri tərəfindən atılmış mərmilərdən sonra yaralanmış Bərdə şəhər sakni olan şəxsin uşağına 3.000AZN məbləğində maddi yardımın ayrılması haqqında qərar qəbul etmişdir. Vergi Məcəlləsində yer alan 102.1.3.4-cü maddəsində göstərilir ki, ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə əlil olmuş mülki şəxslərə bu maddənin tələbləri şamil edilməlidir. Döyüş əməliyyatlarında əlil olmuş mülki şəxsin uşaqlarına ayrılan maddi yardım vergidən azad olunmur.

Sözügedən mövzunun yekununda qeyd etmək yerinə düşərdi ki, Vergi Məcəlləsində yer alan 102.1.3.4-cü maddənin təsiri altına düşən mülki şəxslə əlaqədar sənədin tələb olunması qanunauyğundur. Bu şəxs AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəxsin döyüş əməliyyatlarında əlil olmasını təsdiqləyən arayışı işə götürən tərəf qismində çıxış edən sahibkarlıq subyektinə təqdim olunmalıdır.

Haqqında danışdığımız maddə ilə bağlı aydınlıq gətirməli olan növbəti sual əmək müqavilələrinə xitam verilməsi ilə əlaqədar iki mühüm dəyişikliyin nədən ibarət olmasının açıqlanmasına hədəflənib.

Məsələ burasındadır ki, Vergi Məcəlləsində yer alan 102.1.4-cü maddədə həyata keçirilən dəyişikliklərdən sonra əmək müqaviləsinə xitam verildikdə AR Əmək Məcəlləsində uyğun olaraq ödənişi həyata keçirilən maddi təminatlarla əlaqədar iki halın tənzimlənməsi nəzərdə tutulur.

Əvvəla, Məcəllənin 102.1.4-cü maddəsinə uyğun olaraq, hüquqi şəxslərin, nların filialı yaxud nümayəndəliklərinin, eləcə də fərdi sahibkarların fəaliyyətinin dayandırılmasından sonra ödənişi aparılan müavinətin gəlir vergisindən azad olunması ilə əlaqədardır.

Dediklərimizə əyani bir misalla aydınlıq gətirək. Fərzə edək ki, hüquqi şəxs yaratmçış təsisçilər onun ləğv olunması ilə bağlı qərar qəbul edib. Eyni zamanda, əməkdaşlarla bağlanılmış əmək müqavilələri də dayandırılmalıdır, onlara xitam verilməlidir. Əmək Məcəlləsinin 77-ci

maddəsinə uyğun olaraq, əmək müqaviləsinə Əmək Məcəlləsinin 70-ci maddəsinin "a" bəndinin (müəssisənin ləğvi) tələblərinə əsasən itam veriləndə işçilərə işə götürən tərəfindən bağlanılmış əmək müqaviləsinə müvafiq olaraq müəyyənləşdirilən əmək stajının nə qədər lmasından asılı olaraq aşağıda göstərilmiş miqdarlarda işdən çıxmaları ilə bağlı müavinətlər ödənilir:

- 1 ilə qədər əmək stajı olduğu təqdirdə – orta aylıq əmək haqqına bərabər miqdarda;
- 1 ildən 5 ilə qədər əmək stajı olduğu təqdirdə - orta aylıq əmək haqqının ən azından 1,4 mislinə qədər;
- 5 ildən 10 ilə qədər əmək stajı olduğu təqdirdə - orta aylıq əmək haqqının ən azından 1,7 mislinə qədər;
- 10 ildən artıq əmək stajı olduğu təqdirdə - orta aylıq əmək haqqının ən azından 2 mislinə qədər.

Bundan sonra sahibkarlıq subyekti işçilərin əmək stajından asılı olmayaraq onlara ödənilməsi həyata keçirilən işdən çıxmaları bağlı müavinətlərdən gəlir vergisinin hesablanmasını aparmayacaq.

Sual yarana bilər ki, Əmək Məcəlləsinin 70-ci maddəsinin "a" bəndində "müəssisənin lğəv edilməsi" terminindən istifadə olunmasına baxmayaraqrəğmən, hansı səbəbə görə Vergi Məcəlləsinin 102.1.4-cü maddəsində "hüquqi şəxslərin, onların filialları yaxud nümayəndəliklərinin, eləcə də fərdi sahibkarların fəaliyyətlərinin ləğvi" ifadəsi yer alır? AR Konstitusiya Məhkəməsi Plenumunun 30 iyul 2021-ci il tarixli iclasında AR Əmək Məcəlləsinin üçüncü maddəsinin birinci hissəsinin, 294-cü və 296-cı maddələrinə şərh verilib. Konstitusiya Məhkəməsi Plenumunun qərarından bununla əlaqəli çıxarışı nəzərdə keçirməyimiz məqsədəuyğun olardı.

Həmin çıxarışda deyilir ki, əmək müqaviləsi işçi ilə sahibkar yaxud onun tərəfindən təyin olunmuş müəssisənin rəhbər şəxsi, eləcə də səlahiyyətli orqan tərəfindən imzalanıbsa, işçinin işlədiyi filial yaxud nümayəndəliyik lğv edildiyi təqdirdə əmək müqaviləsi Ar Əmək Məcəlləsində yer alan 70-ci maddəsinin "b" bəndində nəzərdə tutulmuş işçilərin sayı yaxud ştat vahidlərinin ixtisar olunması əsası ilə ləğvi həyata keçirilməlidir.

Bununla bərabər, bağlanılmış əmək müqaviləsi işçinin işlədiyi iş yerinə görə sahibkar tərəfindən müvəkkil olunmuş müəssisənin rəhbər

şəxsi ilə imzalanıbsa, işçinin işlədiyi filial yaxud nümayəndəliyin ləğvi həyata keçirildiyi zaman sözügedən bu müqavilə AR Əmək Məcəlləsində yer alan 70-ci maddənin "a" bəndində qeyd olunan müəssisənin ləğvi əsası üzrə ləv olunmalıdır.

Buradan aydın olur ki, bəzi hallarda işçinin işlədiyi filial yaxud nümayəndəliyin ləğvi baş verəndə əmək müqaviləsinə xitam verilməsi halları AR Əmək Məcəlləsində yer alan 70-ci maddənin "a" bəndində nəzərdə tutulmuş müəssisənin ləğv olunması əsası üzrə eyniləşdirilməlidir.

İkinci halla əlaqədar deməliyik ki, bu hal işçinin rəhmətə getməsi ilə bağlı əmək müqaviləsinə xitam verildiyi zaman AR Əmək Məcəlləsinə uyğun olaraq ödənişi həyata keçirilən təminatların gəlir vergisinin təsir zonasından alınması ilə əlaqədardır.

Əmək Məcəlləsində yer alan 77-ci maddənin 7-ci hissəsində göstərilir ki, işçinin rəhmətə getməsi ilə bağlı onunla imzalanmış əmək müqaviləsinə xitam verildiyi zaman ölən şəxsin vərəsəsi olan insanlara orta aylıq əmək haqqının ənz azı 3 misli qədər müavinətin ödənilməsi təmin olunmalıdır.

Dəyişikliklərin hər ikisini nəzərə alsaq, Vergi Məcəlləsində yer alan 102.1.4-cü maddənin əvvəlki mətnində əvvəllər deyilirdi ki, əmək qabiliyyəti müvvəqqəti itirildiyi təqdirdə bununla əlaqədar ödənişən müavinətdən başqa, dövlət tərəfindən ayrılan müavinətlər, dövlətin əvəzsiz köçürmələri, dövlət tərəfindən ödənilən pensiyalar, dövət tərəfindən ödənilən təqaüdlər, hüquqi şəxslərin, onların filiallarının yaxud nümayəndəliklərinin, eləcə də fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin fəaliyyəti ləğv olunduğu, habelə işçi sayının və ştatların ixtisar olunması ilə bağlı əmək müqavilələlərinə xitam verildiyi işçilərə, işçilərin rəhmətə getməsi ilə bağlı onlarla imzalanmış əmək müqavilələrinə xitam verildiyi zaman işçilərə, eləcə də işçilərin ölümü ilə bağlı həmin işçilərlə bağlanılmış əmək müqavilələrinə xitam veridiyi təqdirdə isə vəfat edən şəxsin vərəsəsinə AR Əmək Məcəlləsinə əsasən ödənişi həyata keçirilən təminat, eləcə də ölkəmizin qanunları və səlahiyyətli icra hakimiyyəti orqanları tərəfindən verilmiş qərarlara uyğun olaraq dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına individual birdəfəlik ödənişlər yaxud maddi yardımlar.

İndi isə Vətən müharibəsi ilə əlaqədar fiziki şəxsə hansı güzəştlərin

verilməsinə aydınlıq gətirək.

Məsələ burasındadır ki, 2022-ci il yanvar ayının 1-dən etibarən Vergi Məcəlləsinə yeni maddə əlavə olunub. Həmin 102.1.25-1.-ci maddəyə uyğun olaraq, Vətən müharibəsində işçirak edən şəxslərin, habelə Vətən müharibəsində, sözügedən müharibədən sonra ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə və hərbi təxribatların törədilməsi nəticəsində şəhid ailəsi statusu verilmiş, habelə əlillik dərəcəsi müəyyənləşdirilmiş şəxslərin bank və kredit qurumlarına olan borc məbləğlərinin silinməsindən əldə edilən gəlir sözügedən fiziki şəxsin gəlir vergisinin tətbiqi zonasından alınır.

Maddənin mahiyyətinə uyğun olaraq, banklar və başqa kredit strukturların ləğv etdikləri aşağıda göstərilmiş şəxslərin borc məbləğləri fiziki şəxsin gəlir vergisinin tətbiqi zonasından alınır:

- Vətən müharibəsind iştirak etmiş şəxslər;
- Vətən müharibəsində, eləcə də postmüharibə dövründə ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə və törədilmiş hərbi təxribatlarda şəhid statusu verilmiş şəxslər;
- Vətən müharibəsində, eləcə də postmüharibə dövründə ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə və törədilmiş hərbi təxribatlarda əlil olmuş şəxslər.

Burada qeyd etmək yerinə düşərdi ki, ölkə parlamentinə təqdim edilmiş layihədə Vergi Məcəlləsində yer alan 102.1.25-1-ci maddənin mətnində Vətən müharibəsi zamanı şəhidlik zirvəsinə ucalmış yaxud yaralanmış şəxsrlərlə bağlı güzəştlərin tətbiqi nəzərdə tutulmişdir. Amma Milli Məclisdə təklifi irəli sürülmüş dəyişikliklərin nəticələri olaraq Vətən müharibəsində iştirak edən şəxslər də həmçinin maddədə qeyd olunan güzəştli şəxslər kateqoriyalarına aid olundu.

Haqqında danışacağımız növbəti məsələ mikrosahibkarlıq sferasında fəaliyyət göstərən vergi ödəyicilərinə tətbiq olunan 75%-lik güzəştin ləğv olunması ilə bağlıdır.

Nəzərə almaq lazımdır ki, Vergi Məcəlləsindəki 102.1.30-cu maddə müəyyən dəyişikliklərə uğradı. Belə ki, artıq mikrosahibkarlıq sferasında fəaliyyət göstərən vergi ödəyicisi tərəfindən iş fəaliyyəti nəticəsində əldə olunmuş gəlirlərə 75 faizlik güzəşt ancaq Vergi Məcəlləsində müəyyn edilmiş qaydada gəlir və məsrəflərin uçotunun həyata keçirildiyi təqdirdə tətbiq olunması nəzərdə tutulmuşdur.

Vergi Məcəlləsindəki 102.1.30-cu maddədə aparılmış dəyişikliklər vətəndaşlar və əhalinin bütün kateqoriyalarına aid insanlar arasında kifayət qədər geniş və hərtərəfli müzakirəsi aparılan məsələlərə aiddir. Bəzi mütəxəssislərin rəyinə əsasən, vergi qanunvericiliyində müəyyənləşdirilmiş qaydada gəlir və məsrəflərinin umotunun həyata keçirilməsi ilə bağlı tələb mikrosahibkarlıq sferasında fəaliyyət göstərən vergi ödəyicilərinin 75%-lik güzəştinin ləğv olunmasına gətirib çıxaracaq.

Belə mütəxəssislər də var ki, onlar Vergi Məcəlləsində yer alan 75%-lik güzəştin tətbiqi zamanı istifadə edilən bir ifadənin izah və şərhinin verilməsini soz dərəcə mühüm hesab edirlər. Məsələn, sözügedən qanunvericilik aktında Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada gəlir və məsrəflərin uçotunun həyata keçirilməsindən danışılır ki, buna da aydınlıq gətirilməsi tələb olunur. Məsələ burasındadır ki, ölkə başçısı tərəfindən imzalanmış fərman dörd iqtisadi fəaliyyət sahələri – toptdan satış, pərakəndə satışı, istehsalat və ictimai iaşə kimi sahələri ilə bağlı veritutça məqsədləri üçün gəlir və məsrəflərin uçotunun həyata keçirilməsi qaydaları təsdiq edib. Lakin, məsələn, xidmət sahəsindən daxil olan gəlirlərin və bu sfera ilə bağlı olan məsrəflərin umotunun həyata keçirilməsinə müəyyən izahların və şərhlərin verilməsinə zərurət var.

Nəhayət qeyd etmək lazımdır ki, vergi orqanlarının əməkdaşları vergi nəzarəti ilə bağlı tədbirləri yerinə yetirərkən, gəlir və məsrəflərin uçotunun aparılıb aparılmadığını təyin etsə, onda xüsusi çəkinin necə nəzərə alınacağı məsələsi qeyri-müəyyən qalmadadır. Məsələn, sahibkarlıq subyekti tərəfindən uçotunun aparılması mütləq olan 10.000AZN məbləğindəki xərc elementi ilə bağlı 90 faizlik düzgün rəsmiləşdirmə proseduru yerinə yetirilibsə, onda 75%-lik güzəştin ləğv olunması baş verəcəkmi? Daha bir halı nəzərdən keçirək. Fərz edək ki, sahibkarlıq subyekti uçotunu həyata keçirməli olduğu on xərc elementindən ikisinə əməl etməyib, belə olan halda mikrosahibkarlıq sferasında fəaliyyət göstərən vergi ödəyicisinə tətbiq olunan 75%-lik güzəştlə bağlı prosedurlar həyata keçiriləcəkmi?

Burada qeyd etmək lazımdır ki, qaldırdığımız bütün məsələləri bağlı cavab olaraq mikrosahibkarlıq sferasında fəaliyyət göstərən vergi ödəyicisinə tətbiq olunan 75%-lik güzəştlə bağlı qüvvəyə minmiş yeni

tələbin vergi orqanının əməkdaşları tərəfindən idafə olunmuş əsaslandırmaları, hər şeydən əvvəl, oxucularımızın diqqətinə çatdırırıq, bundan sonra isə praktiki misallara keçid alacağıq.

Belə ki, vergi əməkdaşların fikrincə, sahibkarlıq subyektlərinin fəaliyyəti ilə bağlı uçot nizam-intizamının təmin olunması vergi siyasətinin başlıca istiqamətlərindən biridir və məhsulların, işlərin yaxud xidmətlərin təqdim edilməsi ilə bağlı uçot nizam-intizamının pozulmasına yol verən sahibkarlıq subyektlərinə münasibətdə cəza tədbirlərinin sərtləşdirilməsinə gedilir.

Bununla yanaşı, uçot nizam-intizamının pozulmasına cəhd göstərən, bu və ya digər formada sxemlər yaratmaq yolu ilə əldə etdikləri gəlirlərinin gizlədilməsinə çalışması, habelə vergilərin ödənilməsində boyun qaçırması sahibkarlıq subyektlərinin bəzi güzəştlərdən yararlanmaqla əldə etdikləri gəlirin və məsrəflərin uçotunun qanunla müəyyənləşdirilmiş qaydada həyata keçirən sahibkarlıq subyektləri ilə bağlı ədalətdən uzaq rəqabət mühitinin yaradılmasına gətirib çıxarır. Odur ki, təklif edilən məsələ son illər ərzində uçotun dürüstləşdirilməsi baxımından reallaşdırılan vergi siyasətinin ümumi pronsipləri nöqteyi-nəzərdən mütləqdir. Bununla yanaşı, gəliri oln təqdirdə öz fəaliyyəti ilə bağlı vergi hesabatını təqdim etməkdən boyun qaçıran yaxud sözügedən hesabatlarda təhrif edilmələrə rəvac verən şəxsin əldə etdiyi gəlir vergi orqanlarının əməkdaşları tərəfindən bərpa olunarkən sözügedən şəxslərə qarşı vergi güzəştlərinin də tətbiq edilməsi reallaşdırılmış olur. Bu da vergi qanunvericiliyinə riayət edənlərlə sözügedən qanunvericiliyə riayət etməyənlərin hər ikisinə vergilərlə bağlı güzəştlərin tətbiq olunması deməkdir, yəni, vergi qanunvericiliyinə əməl edənlərin stimullaşdırılması məsələsinə öz mənfi təsirini göstərmiş olur.

İndi isə misallara keçək.

İlki əvvəl fərz edək ki, 2021-ci ildə mikrosahibkarlıq sferasında fəaliyyət göstərən vergi ödəyicisi hər hansı bir sahibkarlıq subyektinin ona verdiyi sifarişi ilə bağlı 80.000AZN miqdarında məhsulun ona satılması əməliyyatını reallaşdırıb. Satılan məhsullar üçün elektron qaimə-faktura tərtib olunub. Belə olan halda, sadələşdirilmiş vergi ödəyicisi qismində çıxış etmək hüququna deyil, gəlir vergisinin ödəyicisi qismində çıxış etmək hesab olunur. Vergi orqanları

əməkdaşları tərəfindən həyata keçirilən vergi nəzarəti tədbiri sayəsində aydın olmuşdur ki, alıcı qismində çıxış edən tərəfə təqdim olunmuş məhsullar üzrə mədaxil sənədləri tərtib edilməmişdir. Belə olan təqdirdə vergi orqanlarının əməkdaşları Vergi Məcəlləsindəki 58.5.-ci maddəyə əsasən maliyyə sanksiyasını tətbiq etməlidir. Lakin bu həyata keçirilsə belə, yenə də vergi ödəyicisi Vergi Məcəlləsində yer alan 102.1.30c-maddəsi ilə nəzərdə tutulan güzəştdən yararlanmaq imkanı özündə saxlayacaq. Məsələ burasındadır ki, 2021-ci ildə sahibkarlıq subyektinin sözügedən güzəştdən istifadə olunması ilə əlaqədar bu və ya digər məhdudiyyətlər nəzərdə tutulmurdu. Lakin buna bənzər hal 2022-ci ildə müşahidə olunarsa, vergi orqanlarının əməkdaşları gəlir vergisi ilə bağlı 75%-lik güzəştin tətbiqini yerinə yetirməyəcək və sahibkarlıq subyekti 2-%-lik vergi dərəcəsinin nəzərə alınması ilə gəlir vergisini ödəməli olacaq.

İndi isə keçək ikinci misala.

Fərz edək ki, vergi ödəyicisi 2021-ci ildə keçirilmiş tenderdə qalib gəlib və fəaliyyət göstərdiyi rayının ərazisindəki yollarda elektrik dirəklərinin basdırılması işini yerinə yetirib. Həmin sahibkarlıq subyektinin 2021-ci il ərzində əldə etdiyi gəlirlər 120.000AZN, məcmu xərcləri isə 12.000AZN təşkil etmişdir. Vergi orqanlarının əməkdaşları tərəfindən aparılmış araşdırma zamanı müəyyən edilmişdir ki, keçirilmiş tenderdə 500 ədəd elektrik dirəyinin quraşdırılması nəzərdə tutulurdu, lakin sözügedən sahibkarlıq subyektinin uçot sənədlərində yalnız 50 sayda elektrik dirəyinin əldə edilməsi göstərilmişdir. Bu zaman vergi orqanlarının əməkdaşları bu sahibkarlıq subyektinə gəlir və məsrəflərin uçotunun vergi qanunvericiliyinin tələblərinə uyğun aparılmadığı üçün maliyyə sanksiyasının tətbiq edilməsi ilə bağlı qərar qəbul etsə də, sözügedən sahibkarlıq subyekti 2021-ci ilə görə Vergi Məcəlləsindəki 102.1.30-cu maddəsində göstərilmiş 75%-lik güzəşt hüququndan faydalanmışdı. 2022-ci il yanvar ayının 1-dən sonra buna bənzər halın baş verdiyi təqdirdə bu sahibkarlıq subyektinə 75%-lik güzəştin tətbiq edilməsi məhdudlaşdırılacaq.

Yeri gəlmişkən, əksər vergi ödəyicilərinin maraqlandığı başlıca məsələ xidmət sahəsi ilə bağlı Vergi Məcəlləsində yer alan 102.1.30-cu maddədə göstərilmiş 75%-lik güzəşt hüququnun hansı formada və necə tətbiq olunmuası ilə əlaqədardır.

Növbəti misalla tanış olaq. Qoy fərdi sahibkarlıqla məşğul olan vergi ödəyicisi internet saytı yaradıb.Onun gəlirlərinin əsas hissəsi də məhz digər sahibkarlıq subyektlərindən sifariş olunan reaklamlarla formalaşır. Göründüyü kimi, onun gəlirləri digər vergi ödəyicilərindən daxil olan vəsaitlər hesabına formalaşır. Gəlir vergisinin ödəyicisi qismində çıxış edən sahibkarlıq subyektinin 2022-ci il üçün gəlirləri 30.000AZN təşkil edib. Sahibkarlıq subyektinin məsrəfləri fərdi sahibkarlıqla məşğul olan vergi ödəyicisinə hesablanan sosial sığorta ayırması, habelə icbari tibbi sığorta məbləğləri ilə bərabər həmçinin bank təşkilatı və pulların nağdlaşdırılması üçün ödənilən 1%-lik sadələşdirilmiş vergidən ibarət olur. Bu zaman vergi orqanının əməkdaşları başqa məsrəflərin uçotunun həyata keçirilməsi ilə bağlı bu və ya digər tələbləri irəli sürmək hüququna malikdirmi? Məsələn, vergi orqanının əməkdaşları fərdi sahibkarlıq səliyyəti ilə məşğul olan vergi ödəyicisinin istifadəsində olan kompüterlərin mədaxil sənədlərini yaxud onun istifadəsində olan və ya çalışdığı obyektin uçota götürülməsini tələb edə bilərlər. Burada xüsusilə qeyd etmək lazımdır ki, vergi orqanının əməkdaşlarının xidmət göstərdikləri şəxslərlə bağlı məsrəflərin uçotunun aparılması üzrə bu kimi xırdalıqlara gedilməsi çox da real görünmür, lakin sahibkarlıq subyektinin malik olduğu güzəştin ləğv edilməməsi məqsədilə məsrəflərin dürüst uçotunun aparılması zəruridir.

Dördüncü misalla bağlı fərz edək ki, xidmət sektorunda öz fəaliyyətini həyata keçirən sahibkarlıq subyekti 2022-ci ildə əldə etdiyi gəlirlərin 40.000AZN-lik məbləğində olduğunu bəyan etmişdir. Vergi əməkdaşları tərəfindən həmin sahibkarlıq subyektinin bank hesablarına daxil olan vəsaitlərin strukturu araşdırıldığı zaman aydın olmuşdur ki, mikrosahibkarlıq sektorunda fəaliyyət göstərən həmin vergi ödəyicisinə daxil olmuş gəlirlərin məbləği 55.000AZN təşkil etsə də, təqdim olunmuş cari vergi ödənişləri barədə arayış yaxud vergi bəyannaməsində göstərilmiş gəlirlər azaldılıb. Bununla bağlı vergi əməkdaşları sözügedən sahibkarlıq subyektinin Vergi Məcəlləsindəki 102.1.30-cu maddəsində göstərilmiş 75%-lik güzəşti tətbiq etməyə də bilərlər.

Növbəti misal. Fərz edək ki, informasiya-kommunikasiya texnologiyaları sferasında öz fəaliyyətini həyata keçirən sahibkarlıq

subyektinin 2022-ci il ərzində 80.000AZN məbləğində gəliri olmuşdur. Vergi əməkdaşları tərəfindən aparılmış araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, bu sahibkarlıq subyekti qarşı tərəflə bağladığı müqaviləyə uyğun olaraq, server avadanlığının satışını həyata keçirmişdir. Sahibkarlıq subyekti tərəfindən bildirilir ki, bu server avadanlıqları Azərbaycana sahibkar qismində deyil, adi vətəndaş qismində gətirib yaxud müəyyən zamanda digər sahibkarlıq subyektindən alıb. Belə olan zaman vergi orqanının əməkdaşları tərəfindən təqdim olunan server avadanlıqlarına aid mədaxil sənədləri olmadığı səbəbindən həmin sahibkarlıq subyektinə Vergi Məcəlləsində yer alan 102.1.30-cu maddədə nəzərdə tutulmuş 75%-lik güzəşt tətbiq olunmaya da bilər.

Yekunda bir məqama diqqət yetirək ki, Vergi Məcəlləsində yer alan 37.2-ci maddəsində aparılmış dəyişikliklərə uyğun olaraq, cari vergi ödənişlərinin hesablanması barədə arayışla bağlı kameral vergi yoxlama tədbiri yerinə yetiriləcək. Belə hal da mümkündür ki, vergi orqanının əməkdaşları sahibkarlıq subyektinin cari vergi ödənişlərinin hesablanması ilə əlaqədar tərtib edilmiş arayışa kameral vergi yoxlama tədbiri yerinə yetirildiyinə görə ilin sonunda gəlir bəyannaməsinin tərtib olunmasını gözləmədən, rüb yaxud rüblər üzrə Vergi Məcəlləsindəki 102.1.30-cu maddəsində qeyd edilmiş 75%-lik güzəştin tətbi edilməsinə icazə verməsinlər.

İndi də keçid alaq növbəti suala. Bu dəfə əmək haqları ilə əlaqədar vergi güzəştlərinin tətbiqi nöqteyi-nəzərdən hansı inqilabi dəyişikliklərin baş verdiyinə aydınlıq gətirək.

İlk öncə qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində yer alan 102.8-ci maddəsindəki dəyişikliklərə uyğun olaraq, fiziki şəxs tərəfindən sözügedən maddədə sadalanmış vergi güzəştlərinin əldə olunmasına əsaslar yaradan statusda olması, ancaq güzəştlə bağlı hüququ təsdiqləyən uyğun sənədləri əmək müqaviləsi yaxud kontraktı özünün hüquqi qüvvəsinə minəndən sonra təqdim olunduğu təqdirdə vergi ilə bağlı güzəştlər həmin fiziki şəxsin əmək müqaviləsi yaxud kontrakt özünün hüquqi qüvvəsinə mindiyi gündən hesablanmalıdır.

Maddədə yer alan tələblərin mahiyyəti budur ki, işçi ona güzəşt hüququnu təsdiqləyən sənədi sonradan təqdim edibsə, işə götürən tərəf bu işçinin gəlir vergisi ilə bağlı bütün dəqiqləşdirmələri yerinə yetirməlidir.

Yuxarıda dediklərimizlə bağlı növbəti misallara nəzər salaq. Fərz edək ki, neft şirkətində çalışan işçi öz həyatını itirib, yaxud sonralar vəfat etmiş döyüşçü şəxsin övladı ilsa belə, Vergi Məcəlləsindəki 102.2.5-ci maddəsi ilə nəzərdə tutulmuş 400AZN-lik güzəşt hüququnu reallaşdırmayıb. Aylıq 1.500AZN məbləğində əmək haqqı alan işçi 2023-cü ilin yanvarında həmin bu sənədi işə götürənə təqdim edib, 2022-ci il yanvarın 5-dən etibarən işə qəbul edildiyini əsas gətirməklə son on iki aylıq dövrə görə tutulmuş 672AZN-lik gəlir vergisinin qaytarılması tələbini irəli sürmək hüququnu özündə saxlayır: 400AZN (Vergi Məcəlləsinin 102.2.5-ci maddəsi iə bağlı güzəşt) x 14% (gəlir vergisinin dərəcəsi) x 12 ay = 672 AZN.

İkinci misal. Fərz edək ki, dövlət quruminda çalışan işçiyə ikinci əlillik dərəcəsi verilmişdir. Bununla bərabər, həmin şəxs Vergi Məcəl-ləsinin 102.3-cü maddəsinə uyğun olaraq nəzərdə tutulmuş 200AZN-lik güzəşt hüququndan istifadə etməyib. Aylıq 800AZN məbləğində əmək haqqı almış işçi dövlət strukturunda beş ay çalışandan sonra iş yerini tərk edir. 2022-ci ilin noyabrında həmin işçiyə ikinci əlillik dərəcəsi verilməsi ilə yanaşı o, uyğun güzəştdən istifadə etmədiyinə görə əvvəlki iş yerinə müracitə etmək hüququna malikdir. Belə düşünmək olar ki, işə götürən tərəf bu beş aylıq müddətə görə işçinin 140AZN-lik məbləğini ona qaytarmalıdır: 200AZN (güzəşt məbləği) x 14% (gəlir vergisinin dərəcəsi) x 5 ay = 140AZN.

Növbəti misal Fərz edək ki, dövlət strukturu 2022-ci ilin iyun ayında müəyyənləşdirib ki, müharibə veteranı statusu verilmiş onun işçisinə əmək haqqı ilə bağlı güzəştin tətbiq edilməsi nəzərdən qaçıb. Sözügedən həmin şəxsə əmək haqqı ilə bağlı güzəşt tətbiq olunmayıb. Bu şəxs dövlət strukturunda 2020-ci il aprel ayının 1-dən işləyir, lakin buna baxmayaraq, güzəştləri əhatə edən düzəliş 2022-ci il yanvarından etibarən tətbiq edilməyə başlayacaq. Belə düşünmək olar ki, vergi qanunvericiliyində aparılmış dəyişiklik və əlavələr 2022-ci il yanvar ayının 1-dən sonra özünün hüquqi qüvvəsinə mindiyinə görə gəlir vergisi ilə bağlı dəqiqləşdirmələr də sözügedən bu tarixdən etibarən reallaşdırılacaq.

Burada diqqətçəkən məqam bundan ibarətdir ki, vergi orqanlarının əməkdaşları sahibkarlıq subyektinin gəlir vergisi ilə bağlı düzəlişlərini reallaşdırdığı zaman, əvvəlki dövr üçün vahid vergi bəyannaməsini

dəqiqləşdirməlidir. Bəs bunu necə edə bilər?

Məsələ burasındadır ki, Vergi Məsəlləsinin 72.4-cü maddəsindən öyrənirik ki, həmin Məcəllədə yer alan 163-cü maddədə nəzərdə tutulmuş hallarda verginin dəqiqləşdirilməsi qiymətləndirmə bazasında dəyişiklirlərin baş verdiyi hesabat dövründə həyata keçirilir. Bununla yanaşı, söügedən dövrlə bağlı sahibkarlıq subyektinin təqdim etdiyi vergi bəyannaməsində həm də dəqiqləşdirilir. Belə düşünmək olar ki, sahibkarlıq subyekti dəqiqləşdirmə işini vahid vergi bəyannaməsi üzrə də yerinə yetirəcək.

4.2. HÜQUQİ ŞƏXSLƏRİN MƏNFƏƏT VERGİSİ

İlk öncə Vergi Məcəlləsinin 103 maddəsinə nəzər salaq. Bu maddə hüquqi şəxslərə aid mənfəət vergisinin vergi ödəyicilərinin kim olduğuna aydınlıq gətirir.

Maddə 103.1-də göstərilir ki, Azərbaycanda rezident və qeyri-rezident müəssisə və təşkilatlar, eləcə də sahibkarlıq fəaliyyətini həyata keçirən və bu fəaliyyət üzrə gəlir əldə edən qeyri-kommersiya strukturları mənfəət vergisinin ödəyiciləri qismində çıxış edir.

Maddə 103.2-dən öyrənirik ki, fiziki şəxs hesab edilməyən bu və ya digər xarici ölkədən olan şəxs Vergi Məcəlləsinin 137-ci maddəsinə əsasən birgə sahibkarlıq fəaliyyətinin obyekti qismində dəyərləndirilməli olmadığını sübut etməyənə qədər, ona müəssisə qismində baxılmalıdır.

Vergi Məcəlləsinin 103.3-cü maddəsindən öyrənirik ki, 103.1 və 103.2-ci maddələrində yer alan müddəalar Vergi Məcəlləsinin 13.2.39.3-cü maddəsində qeyd olunanlara şamil edilmir.

Vergi Məcəlləsinin 104-cü maddəsi vergitutma obyektinə həsr olunub.

104.1-ci maddədən oxuyuruq ki, rezident qismində çıxış edən müəssisələr üçün vergitutma obyekti kimi onun mənfəəti qeyd edilir. Sahibkarlıq subyektinin əldə etdiyi bütün gəlirlər, həmçinin ölkəmizin hüdudlarından kənarda fəsaliyyət göstərən nümayəndəlik vasitəsilə əldə etdiyi gəlirlər Azərbaycanın sərhədlərinin kənarında əldə etdiyi dividendlər, faizlər, royalti ilə, vergidən azad olunan gəlir məbləğləri

istisna edilməklə, Vergi Məcəlləsinin onuncu fəslində qeyd olunan, gəlirlərdən çıxılan xərclər arasındakı fərqlə ifadə olunan mənfəətdir (vergilərdən azad olunan gəlirlərlə bağlı meydana çıxan xərclər istisna edilməklə).

104.2-ci maddədə göstərilir ki, Azərbaycanda daimi nümayəndəliyi yaratmaqla iş fəaliyyətini həyata keçirən qeyri-rezidentlər sözügedən fəaliyyətdən daxil olan mənfəətdən, yəni fəaliyyət göstərdiyi nümayəndəliyi ilə əlaqədar Azərbaycanda yerləşən mənbədən daxil olan ümumi gəlirin Vergi Məcəlləsinə uyğun şəkildə bu gəlirin əldə olunması ilə bağlı meydana gələn məsrəflər çıxıldıqdan sonra qalan məbləğdən vergi ödəməlidir.

Maddə 104.3-dən öyrənirik ki, qeyr-rezidentlər qismində fəaliyyət göstərən şəxslərin nümayəndəlikləri ilə əlaqəli olmayan onların ümumi gəlirləri, Vergi Məcəlləsinin 125-ci maddəsində nəzərdə tutulan halda xərclər çıxılır və qalan məbləğdən vergi ödənilir.

104.4-cü maddədə deyilir ki, Azərbaycanda fəaliyyət göstərən daimi nümayəndəliyi ilə əlaqəli olmayan əmlakların təqdim olunması xətti ilə gəliri olan qeyri-rezidentlər təqvim ilində ölkəmizdə yerləşən mənbədən daxil olan həmin növ ümumi gəlirlərində Vergi Məcəlləsində qeyd edilən və bu dövr ərzində belə gəlirlərə aid olunan xərclər çıxılandan sonra qalan məbləğə vergi tətbiq olunur.

Maddə 104.5-dən görürük ki, əsas vəsaitlərin təkrarən dəyərləndirilməsindən əmələ gələn artım, yəni təkrar dəyərləndirilmə nəticəsində əmələ gələn müsbət fərq, mənfəət vergisinin tətbiqi baxımından vergitutma obyekti qismində çıxış etmir.

Maddə 104.6-da isə hüquqi şəxsin nizamnamə kapitalında iştirak payı yaxud səhmlər xalis aktivlərin iştirak payı yaxud səhmlərə mütənasib dəyərindən daha yüksək qiymətə satıldığı halda faktiki təqdimetmə qiyməti ilə nizamnamə kapitalında iştirakı əks etdirən payın yaxud səhmin nominal dəyəri arasında fərq, iştirakı əks etdirən payı yaxud səhmlər xalis aktivlərin iştirak payı yaxud səhmlərə mütənasib dəyərindən daha kiçik qiymətə, ola bilsin həmçinin güzəştli qiymətlərlə satıldığı təqdirdə isə alqı-satqı müqaviləsinin imzalandığı günə xalis aktivlərin mütənasib dəyəri ilə nizamnamə kapitalında yer alan iştirak payının nominal dəyəri arasında fərqə bərabər məbləğdən vergi tutulan mənfəətdir. İştirak payları yaxud səhmlər nominal qiymətdən daha

yüksək qiymətə alındığı təqdirdə, sözügedən iştirak paylarının yaxud səhmlərin təqdim olunması zamanı gəlirdən çıxılan məsrəflər sözügedən aktivlərin faktiki satınalma qiyməti əsasında nəzərə alınmalıdır.

Vergi Məcəlləsinin 104.7-ci maddəsindən aydın olur ki, vəkil strukturunun daxilində fəaliyyət göstərən vəkillərin göstərdikləri, və ya göstərilməsi nəzərdə tutulan vəkillik fəaliyyəti ilə əlaqədar vəkil strukturuna daxil olan ödəmələrin vəkillərə ödənilən, və ya ödənişi nəzərdə tutulan hissəsi strukturun vergiyə cəlb edilən gəlirlərin aid olunmur.

Vergi Məcəlləsinin 105-ci maddəsi vergi dərəcələrinə həsr olunub.

Maddə 105.1-dən öyrənirik ki, müəssisələrin əldə etdiklərin mənfəətdən tutulan verginin dərəcəsi 20% təşkil edir.

105.2-ci maddədən isə aydın olur ki, qeyri-rezidentin fəaliyyətdə olan daimi nümayəndəliyi ilə əlaqəli olmayan, ancaq ölkəmizdəki mənbədən əldə olunan ümumi gəlirlərindən (əlavə dəyər vergisi və aksiz vergiləri çıxıldıqdan sonra) Vergi Məcəlləsinin 125-ci maddəsində qeyd edilən dərəcələrlə verginin tutulması nəzərdə tutulmuşdur.

Sözügedən Məcəllənin növbəti 106-cı maddəsi azadolmalar və güzəştlərlə bağlıdır.

Bu maddədə vergidən azad edilən gəlirlərin təsnifatı verilir. Beləliklə, aşağıda sadalanan kateqoriyalar vergidən azad olunur:

- Xeyriyyə təşkilatların əldə etdikləri gəlirlər – sahibkarlıq fəaliyyəti xətti ilə daxil olan gəlirlər istisna edilməklə;
- Qeyri-kommersiya qurumlarına daxil olan əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr;
- Beynəlxalq, dövlətlərarası və hökumətlərarası qurumların əldə etdikləri gəlirlər: sahibkarlıq fəaliyyəti xətti ilə daxil olan gəlirlər istisna edilməklə;
- Dövlət hakimiyyəti orqanları, büdcə təşkilatları, yerli özünü idarəetmə strukturları və dövlət adından yaradılmış publik hüquqi şəxslərin əldə etdikəri gəlirlər (sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlər, həmçinin, publik hüquqi şəxslərin Vergi Məcəlləsinin 164.1.48-ci maddəsində qeyd edilmiş işlərin yerinə yetirilməsi və xidmətlərin təqdim olunmasından (bu maddədə nəzərdə tutulmuş müddət ərzində) savayı digər ödənişli işlərin yerinə yetirilməsindən və xidmətlərin təqdim edilməsindən daxil

olan gəlirlər və faizlər istisna edilərək);
- Azərbaycan Mərkəzi bankının, tərkibində və tabeliyində olan qurumlarının, ipoteka kreditləşməsi, habelə sahibkarlara ayrılmış kredit məbləğlərinə təminat verilməsi sferasında öz işini qurmuş səlahiyyəti icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyənləşdirdiyi orqan yaxud strukturun (AR Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İkişaf Agentliyi qismində ölkənin Kənd Təsərrüfatı Nazirliyi və AR İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu qismində AR İqtisadiyyat Nazirliyi) nizamnaməsinə yaxud əsasnaməsinə müvafiq olaraq təqdim olunmuş güzəştli kreditlərlə bağlı müvəkkil kredit qurumlarının bu orqan yaxud strukturlara ödənişməsi təmin edilən faiz gəlirləri;
- Ayrılmış sığorta ödəmələri (bu zığorta hadisəsinin baş verməsi ilə bağlı zərərə aid olunan məbləğlər istisna edilməklə);
- Təhsil ocaqlarının, həmçinin sağlamlıq imkanları məhdud insanların təhsilə cəlb edilməsi məqsədilə yaradılmış xüsusi təhsil müəssisələrinin mənfəəti – mənfəətin dividendlərin ödənilməsinə istiqamətləndirilən hissəsindən başqa;
- Ölkə qanunvericiliyinə əsasən dövlətə olan vergi borclarının silinməsi prosedurundan daxil olan gəlirlər;
- Səlahiyyətli icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Prezidentinin) müəyyənləşdirdiyi hallarda hüquqi şəxslərin verdikləri qərara uyğun olaraq onun özünün, habelə onun mülkiyyətində yer alan rezident törəmə müəssisələrindən birinin balansandan digər müəssisənin balansına əvəzi ödənilmədən ötürülən aktivlərin dəyəri;
- Səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən verilmiş qərara uyğun olaraq bir hüquqi şəxsin balansından əvəzi ödənilmədən başqa şəxsin balansına verilən əsas vəsaitlərin ümumi dəyəri;
- Neft və qaz yataqlarının kəşfiyyatının, işlənməsinin və hasilatının həyata keçirilməsinin pay bölgüsü, ixrac boru kəmərləri barədə və bu qəbildən başqa sazişlərə çüvafiq şəkildə əsas fondların, daşınar əmlakların və başqa aktivlərin bu və ya digər şəkildə sözügedən sazişlərdə Azərbaycanı təmsil edən tərəfə təqdim olunması ilə bağlı

əməliyyatlar;

- Səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən verilmiş qərara uyğun olaraq yaradılmış sənaye və ya texnoparkların idarəetmə strukturunun yaxud operatorunun əldə etdiyi mənfəətin sənaye və ya texnoparklarının infrastrukturunun inşaasına və saxlanmasına istiqamətləndirilmiş hissəsi;
- Səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən verilmiş qərara uyğun olaraq yaradılmış sənaye və ya texnoparkların rezidenti qismində çıxış edən hüquqi şəxslərin sənaye və ya texnoparklarında həyata keçirilən fəaliyyət istiqamətlərində əldə edilən gəlir – qanunvericiliyin tələblərinə əsasən sənaye və ya texnoparklarda qeydiyyatdan keçdikləri hesabat ilindən etibarən – 10 il ərzində;
- Kənd təsərrüfatı məhsullarının istehsalı (həmçinin, sənaye üsullarının tətbiqi ilə istehsalı) sferasında fəaliyyət göstərən hüquqi şəxslərin sözügedən həmin fəaliyyətdən daxil olan gəlirləri – 2014-cü il yanvar ayının 1-dən 10 il ərzində;
- Məktəbəqədər təhsil ocaqlarına və uşaq evlərinə həmin fəaliyyətdən daxil olan gəlirləri 1 yanvar 2014-cü ildən başlayaraq 10 il ərzində;
- "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" AR Qanununa uyğun olaraq hüquqi şəxslərə ödənilməsi həyata keçirilən kompensasiya məbləği;
- Investisiyanın təşviqi ilə bağlı sənəd təqdim olunmuş hüquqi şəxslərin bu sənədi aldıqları tarixdən əldə etdikləri mənfəətin 50%-i – 7 il ərzində;
- Paylarının yaxud səhmlərinin 51%-i və daha artığı bilavasitə yaxud dolayı yolla dövlətin yaratdığı yaxud ona məxsus hüquqi şəxslər və dövlətin adından yaradılmış publik hüquqi şəxslər olmaqla, vergi ödəyicisi tərəfindən əldə olunmuş hesabat ilinin mənfəəti məbləğindən 10%-dən artıq olmayan hissəsinin səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyən olunmuş orqan yaxud strukturun (AR Nazirlər Kabinetinin) müəyyən etdiyi kriteriyalara müvafiq olan təhsil, səhiyyə, idman və mədəniyyət sferasında öz fəaliyyətini qurmuş

müəssisələr, idarələr və təşkilatlara köçürülən hissəsi – 1 yanvar 2019-cu ildən 10 il müddətinə, səlaiyyətli icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Prezidentinin) ictimai və sosial məqsədlər üçün yaratdığı fondlara köçürülməsi reallaşdırılan hissəsi ilə bağlı isə - 1 yanvar 2021-ci ildən başlayaraq 8 il müddətinə. Bu tələb ödənişi ancaq nağd şəklində aparılmayan xərclərlə bağlı tətbiq olunur;

- Sahibkarlıq subyektinin ən azı üç il müddətində sərəncamında olan iştirak payının yaxud səhmlərin təqdim olunmasından əldə edilən gəlir məbləğlərinin 50%-i;
- Vergi Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada gəlirl və xərclərin uçotunu həyata keçirən mikrosahibkarlıq sektorunda fəaliyyət göstərən vergi ödəyicisi qismində çıxış edən hüquqi şəslərin sözügedən fəaliyyət xətti ilə əldə olunan mənfəət məbləğinin 75%-i;
- KOB klaster şirkəti tərəfindən əldə olunan mənfəət – KOB klaster şirkətinin KOB klaste şirkətlərinin reyestr siyahısını daxil olunduğu tarixdən 7 il ərzində;
- KOB klasterin iştirakçısı qismində çıxış edən hüquqi şəxs və KOB klaster şirkəti arasında imzalanmış müqaviləyə uyğun olaraq təqdim olunan məhsullar, görülmüş işlər yaxud göstərilmiş xidmətlər xətti ilə daxil olmuş mənfəətin kapital səciyyəvi xərclərin sərf olunmasına yönləndirilən hissəsi – 7 il ərzində;
- Mikro yaxud kiçik sahibkarlıq sektorunda fəaliyyət göstərən vergi ödəyicisi olan və hüquqi şəxs qismində öz fəaliyyətini qurmuş startapların "Startap" şəhadətnaməsi onlara təqdim edildiyi gündən innovasiya fəaliyyəti xətti ilə əldə olunan mənfəət məbləğləri – 3 il ərzində;
- "Məşğulluq haqqında" AR Qanununa əsasən səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyən edilmiş orqan yaxud struktur (AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi) tərəfindən haqqı ödənilən ictimai işlərin təşkilatçılığı ilə əlaqədar həyata keçirilən iş fəaliyyətindən daxil olan gəlirlər;
- Səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyən olunmuş orqanın yaxud qurumun

(AR Nazirlər Kabinetinin) təsdiq etdiyi qaydaya uyğun olaraq büdcə vəsaitləri hesabına ödənilməsi həyata keçirilən ixrac təşviqi;

- Azərbaycanda keçirilən Formula-1 və Formula-2 idman yarışları ilə bağlı qeyri-maddi aktivlər üzərində müəllif hüququndan istifadə edilməsinə və ya istifadə hüquqlarının verilməsi ilə bağlı səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyən olunmuş orqan yaxud qurumla (AR Gənclər və İdman Nazirliyi ilə) imzalanmış müqaviləyə uyğun olaraq onun qeyri-rezident şəxslərə ödədiyi royalti gəlirləri – 1 yanvar 2018-ci il tarixdən 6 il ərzində;
- Lotereya oyunlarında iştirak edən biletlərin satışı ilə məşğul olan şəxslə imzalanmış müqaviləyə uyğun olaraq yaxud onun verdiyi tapşırığa görə lotereya biletlərinin bütün stadiyalarda agent qaydasında satışının reallaşdırılmasına görə göstərilən xidmətlər müqabilində daxil olan gəlir məbləğləri.

Vergi Məcəlləsinin 106.2-ci maddəsinə əsasən, əlillik dərəcəsi təyin olunmuş şəxsi qeyri-hökumət təşkilatına məxsus işçilərin ümumi sayının azı əlli faizi əlillik dərəcəsi almış insanlardan ibarət istehsalat müəssisələrinin mənfəət vergisinin dərəcəsi əlli faiz miqdarında aşağı salınır.

Həmin güzəştlərdən yararlanmaq hüququ təyin olunarkən işçi heyətinin orta siyahı sayına əvəzçilik, podrat müqavilələr və mülki-hüquqi səciyyəvi başqa müqavilələrə əsasən iş fəaliyyətini həyata keçirən alillik dərəcəsi müəyyənləşdirilmiş insanlar, həmçinin sağlamlıq imkanları məhdud olan 18 yaşına çatmamış uşaqlar daxil olunmur.

Vergi Məcəlləsinin 106.9-cu maddəsindən öyrənirik ki, pərakəndə formada həyata keçirilən satışda məhsulların realizasiyasının yerinə yetirilməsi ilə bağlı ticarət fəaliyyəti və (yaxud) ictimai iaşə sektorunda fəaliyyət göstərən hüquqi şəxslərin dövlət büdcəsinə ödəməli olduqları mənfəət vergisinin miqdarı 1 yanvar 2019-cu il tarixdən etibarən üç il ərzində "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" AR Qanunu tərəfindən müəyyənləşdirildiyi kimi POS-terminallardan istifadə edilməklə nağdsız şəkildə həyata keçirilən ödəmələrin ümumi gəlirlərdəki xüsusi çəkisinə müvafiq təyin olunan verginin 25%-lik həcmi qədər aşağı salınır.

Həmin güzəştin əldə olunması hüququ müəyyənləşdirilərkən vergi orqanlarında uçota dayanmış şəxslərin POS-terminallardan istifadə edilməklə yerinə yetirilən ödəmələrin məbləğləri nəzərə alınmır.

Vergi Məcəlləsinin 106.10-cu maddəsinin mətnindən öyrənirik ki, sözügedən Məcəllə ilə müəyyən edilmiş qaydaya uyğun olaraq gəlir və məsrəflərin uçotunu həyata keirən, əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyatda dayanmamış və yerinə yetirilən əməliyyatların miqdarı ardıcıl on iki aylıq müddətin istənilən hər hansı ayı yaxud ayları üzrə 200.000AZN-lik məbləğə qədər rezident müəssisənin təsisçici yaxud payçısı və ya səhmdarı qismində çıxış edən hüquqi şəxslərin divident gəlirləri vergidən azad olunur.

Vergi Məcəlləsinin 104-cü maddəsində hüquqi şəxslərin mənfəət vergisinin vergitutma obyekti haqqında bəhs olunur.

Bu maddə ilə bağlı aydınlıq gətirəcəyimiz məsələdə vəkil təşkilatında fəaliyyətlə məşğul olan vəkilin gəlirləri ilə əlaqədar nələrin dəyişdiyini izah edəcəyik.

Qeyd etmək lazımdır ki, Vergi Məcəlləsinin 104.7-ci maddəsində deyilir ki, vəkil qurumu daxilində iş fəaliyyəti ilə məşğul olan vəkilin göstərdiyi və ya göstərilməli olduğu nəzərdə tutulan vəkil fəaliyyəti ilə əlaqədar vəkil quruma daxil olan ödəmələrin vəkilə ödənilən və ya ödənilməsi nəzərdə tutulmuş hissəsi sözügedən vəkil təşkilatının vergiyə cəlb edilən gəlirlərinə aid olunmur.

Bununla bağlı bir praktiki məsələni nəzərdən keçirək. Fərz edək ki, vergi təşkilatına 1.22AZN-lik vəsait daxil olmuşdur. Bu məbləğin 480AZN-lik miqdarı vəkilə ödənilməli yaxud ödənilməsi nəzərdə tutulan hissədir. Vergi qanunvericiliyində aparılmış dəyişikliklərə uyğun olaraq, vəkil təşkilatının mənfəət vergisi ilə bağlı vergitutma obyekti qismində 1.200AZN-lik deyil, 720AZN-lik məbləğ çıxış edəcək: 1.200AZN (vəkil təşkilatına daxil olan vəsait) – 480AZN (vəkilə ödənilməli yaxud ödənilməsi nəzərdə tutulan hissə) = 720AZN.

İndi isə azadlolmalar və güzəştlərə həsr olunmuş Vergi Məcəlləsinin 106-cı maddəsi ilə tanış olaq.

Burada izah edəcəyimiz ilk sual publik hüquqi şəxslərlə bağlı hansı gəlirlərin vergiyə cəlb ediləcəyi ilə bağlıdır.

Nəzərə almaq lazımdır ki, Vergi Məcəlləsində yer alan 106.1.4-cü maddəsində aparılmış dəyişikliklərə uyğun olaraq, publik hüquqi

şəxslərin Məcəllənin 164.1.48-ci maddəsində qeyd olunmuş işlərin yerinə yetirilməsi və xidmətlərin təqdim olunmasından (bu maddənin nəzərdə tutulduğu müddət ərzində) başqa digər ödənişli işlərin yerinə yetirilməsindən və xidmətlərin təqdim olunmasından daxil olan gəlirlər və faiz gəlirləri ilə bağlı güzəştlərin tətbiq olunması həyata keçirilməyəcək.

Vergi Məcəlləsində yer alan 164.1.48-ci maddəsindən aydın olur ki, siyahı səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş orqan yaxud strukturun təsdiq olunan dövlət adından yaradılmış publik hüquqi şəxslər tərəfindən onlara aid nizamnamələrdə nəzərdə tutulmuş və onlara həvalə olunan vəzifələrin icra edilməsi məqsədilə büdcədən ayrılan vəsaitlər hesabına səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən orqan yaxud strukturla imzalanmış müqaviləyə uyğun olaraq işlərin yerinə yetirilməsi v xidmətlərin təqdim olunması – 1 yanvar 2020-ci il tarixdən etibarən 4 il ərzində əlavə dəyər vergisindən azad olunur.

Vergi Məcəlləsində yer alan 106.1.4-cü maddədə də həmçinin publik hüquqi şəxsin Məcəllənin 164.1.48-ci maddəsində göstərilən işlərin yerinə yetirilməsinin və xidmətlərin təqdim olunmasının mənfəətdən azad edilməsi göstərilib.

Lakin publik hüquqi şəxsin bundan əvvəl qeyd etdiyimiz hallardan başqa digər ödənişli işlər yerinə yetirməsindən və xidmətlər təqdim olunmasından daxil olan gəlirləri və faiz gəlirlərinə görə güzəştin tətbiq edilməsi nəzərdə tutulmur. Vergi Məcəlləsində yer alan 106.1.4-cü maddədə düzəliş aparılmasının başlıca məqsədi publik hüquqi şəxsin vergi ödənişinə ümumi qaydalarla cəlb olunan sahibkarlıq fəaliyyəti ilə bağlı əldə edilən gəlirlərin əmələ gəlməsində kifayət qədər vacib rol alan ödənişli xidmətlərin təqdim olunmasından daxil olan gəlirlərin və faiz gəlirlərinin qeyd olunması, tam açıqlamaya zərurət duyulmasıdır.

Növbəti sualımız dövlət qurumlarına ödənilən hansı kredit faizlərin gəlirdən azad olunması ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, 1 yanvar 2022-ci ildən başlayaraq Vergi Məcəlləsində yer alan 106.1.5-ci maddə yeni redaksiyada təsdiq olunub. Sözügedən maddəyə uyğun olaraq, AR Mərkəzi Bankının və onun tabeçiliyində olan qurumların, ipoteka kreditləşməsi və sahibkarların aldıqları kreditlərə təminat verilməsi sferasında öz fəaliyyətini qurmuş

səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyən olunmuş orqan yaxud strukturun (Azərbaycan Respublikasının Prezidentinin), AR Dövlət Neft Fondunun, Əmanətlərin Sığortalanması Fondunun əldə etdiyi gəlirlər, eləcə də səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş orqan yaxud strukturun (AR Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Kredit və İnkişaf Agentliyi kimi AR Kənd Təsərrüfatı Bazirliyi və AR İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Biznesinin İnkişafı Fondu kimi AR İqtisadiyyat Nazirliyi) nizamnaməsinə (əsasnaməsinə) müvafiq olaraq təqdikm olunmuş güzəştli kreditlərlə bağlı müvəkkil kredit təşkilatlarının sözügedən orqanlara yaxud strukturlara ödədikləri faiz gəlirləri mənfəət vergisindən azad olunur.

Dövlət başçısının imzaladığı fərmanla İqtisadiyyat Nazirliyi yanında fəaliyyət göstərən "Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu" publik hüquqi şəsin və "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin birləşmə formasında təkrar təşkiedicilik vasitəsilə "Azərbaycan Biznesiin İnkişafı Fondu" publik hüquqi şəxs yaradılmışdı. Fondun müvəkkil kredit təşkilatlarının köməyi ilə güzəştli şərtlər əsasında sahibkarlara kreditlər ayrılır. Məsələn, müvəkkil kredit təşkilatlarına ayrılan kreditlərin faizləri şərti olaraq iki faiz civarında təyin olunur və bank sahibkarlıq subyektlərinə həmin kreditləri şərti olaraq 5%-lə verir. Müvəkkil kredit təşkilatlarının "Azərbaycan Biznesinin İnkişafı Fondu" publik hüquqi şəxsə ödənişi həyata keçirilən 3% üzrə gəlir, fondun mənfəət vergisi ilə bağlı cəlb olunan gəliri hesaba alınmır. Məsələ burasındadır ki, fond sözügedən gəlirləri təkrar olaraq kreditləşməyə, habelə fondun saxlanılması xərclərinə istiqamətləndirir. Odur ki, bu gəlir məbləğləri mənfəət vergisi ilə bağlı azadedilmələrin çevrəsinə aid olunur.

Aydınlıq gətirəcəyimiz növbəti sual "YAŞAT" fonduna köçürülən ödənişlərin gəlirdən çıxılan xərclərə aid olunub-olunmaması ilə bağlıdır.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, 106.1.18-ci maddədə də dəyişikliklər aparılıb. Bu dəyişikliklər nəzərə alınmaq şərtilə Vergi Məcəlləsində yer alan 106.1.18-ci maddədə paylarının yaxud səhmlərinin 51 və daha yüksək faizi bilavasitə yaxud dolayı yolla dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılmış publik hüquqi şəxslərdən başqa, sahibkarlıq subyektlərinin hesabat ili ərzində

əldə etdiyi mənfəətin 10%-dən artıq olmayan hissəsinin səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş orqan yaxud strukturun meəyyən etdiyi kriteriyalaracavab verən elm, təhsil, səhiyyə, idman və mədəniyyət sferasında öz fəaliyyətini qurmuş müəssisələrin, idarələrin və təşkilatların hesabına köçürülən məbləğin hissəsi – 1 yanvar 2019-cu ildən başlayaraq on il ərzində, səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş orqanın yaxud strukturun ictimai və sosial məqsədlərdən ötrü yaradılmasına qərar verilmiş fondların hesabına köçürülən hissəsi ilə bağlı – 1 yanvar 2021-ci ildən etibarən səkkin il ərzində mənfəət vegisindən azad olunur. Həmin maddənin müddəaları ancaq ödənişi nağd şəkildə aparılmayan xərclərlə bağlı tətbiq olunur.

Maddədən aydın olur ki, yeni dəyişikliklərə uyğun olaraq, sahibkarlıq subyektinin uyğun icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş orqan yaxud strukturun sahibkarlıq subyektinin hesabat ilində əldə etdiyi mənfəətin 10%-dən artıq olmayan hissəsinin ictimai və sosial yönümlü tədbirlərə görə təşkil olunmuş fondların hesabına köçürülən hissəsi ilə bağlı da 1 yanvar 2021-ci ildən başlayaraq səkkiz il ərzində məndəət vergisinin ödənilməsindən azad olunması nəzərdə tutulmuşdu.

İndi də haqqında danışdığımız maddə ilə bağlı üç mühüm məsələyə nəzər salmağımız məqsədəuyğun olardı.

Birincisi, maliyyə vəsaitləri dövlət başçısı tərəfindən ictimai və sosial məqsədlər üçün təşkil edilmiş fondların hesabına köçürülməlidir. Məsələn, dövlət başçımızın imzaladığı 8 dekabr 2020-ci il tarixli fərmana uyğun olaraq təşkil olunmuş Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə bağlı yaralanmış və şəhid olmuş şəxslərin ailələrinin təminatına dəstək fondu (“YAŞAT Fondu”), eləcə də dövlət başçısının imzaladığı 4 yanvar 2021-ci il tarixli fərmana əsasən təşkil olunan “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxs.

QHT-lər və fiziki şəxslərin şəhid ailələri və qazi şəxslərə maddi dəstəyinin təmin edilməsi üçün təşkil olunan fondlara köçürülən vəsaitlər Vergi Məcəlləsində yer alan 106.1.8-ci maddəsinin əhatə çevrəsinə aid olunmur.

İkincisi, fondların hesabına köçürülən pul vəsaitləri sahibkarlıq subyektinin mənfəəti hesabına reallaşdırılmalıdır. Sahibarlıq subyekti

tərəfindən ödənilmiş məbləğ bilavasitə gəlir məbləğindən çıxılan məsrəflərə aid olunmur, müəssisə mənfəətlə işlədiyi təqdirdə müəyyən qismdə mənfəət vergisindən azad olunur.

Yuxarıda dediklərimizi praktiki misallarla aydınlaşdıraq.

Fərz edək ki, sahibkarlıq subyekti 2022-ci il ərzində "YAŞAT" fondunun hesabına 5.000AZN məbləğində pul vəsaiti köçürmüşdü. Lakin 2022-ci il üzrə vergi ilini ziyanla başa vurmuşdu. Vergi ödəyicisi ziyanla işlədiyi səbəbindən fonda ödəniş etdiyi 5.000AZN-lik məbləğ onun üzərinə götürdüyü vergi öhdəliklərinə bu və ya digər şəkildə təsir göstərmir.

Növbəti misal. Fərz edək ki, sahibkarlıq subyekti 2022-ci ildə 50.000AZN məbləğində mənfəət əldə edib və "Qarabağ Dirçəliş Fondu"na 7.000AZN-lik nağdsız şəkildə ianə edib. Sözügedən vəsaitin Vergi Məcəlləsində yer alan 106.1.8-ci maddəsinə uyğun olaraq, əldə olunmuş mənfəət məbləğinin 10%-i miqdarında, yəni 5.000AZN məbləğində mənfəət vergisinin ödənişindən aza olacaq. Sahibkarlıq subyektinin mənfəət vergisi 45.000AZN təşkil edəcək: 50.000AZN (mənfəət) – 5.000AZN ("Qarabağ Dirçəliş Fondu"nun hesabına köçürülən və mənfəətin 10%-lik qismini əmələ gətirən məbləğ) = 45.000AZN.

Üçüncüsü, vergi qanunvericiliyində aparılmı dəyişikliklər 1 yanvar 2022-ci ildən qüvvəyə minmişdir, lakin buna baxmayaraq, fondların hesabına köçürülən maliyyə vəsaitləri 2021-ci ildə əldə olunmuş mənfəətlə bağlı eyniadlı verginin tətbiqi zamanı nəzərə alınmalıdır. Vergi Məcəlləsində yer alan 106.1.18-ci maddəsindən aydın olur ki, mənfəət vergisinin tətbiqindən aza edilmələrlə əlaqədar irəli sürülən tələblər 1 yanvar 2021-ci ildən başlayaraq səkkiz il ərzində qüvvədə olacaq.

Yekunda bir məqama da diqqət yetirək ki, Vergi Məcəlləsindəki 106.1.18-ci maddəsi ilə bağlı azadedilmə təkcə nağdsız ödənilən məbləğlərə şamil olunur.

İndi isə mikrosahibkarlıq sferasında fəaliyyət göstərən hüquqi şəxslərin də 75%-lik güzəştdən məhrum olub-olmayacağına diqqət yetirək.

Qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində yer alan 106.1.20-ci maddədə aparılmış dəyişikliklərə uyğun olaraq, Məcəllədə müəyyən

olunmuş qaydaya əsasən əldə edilən gəlirlərin və məsrəflərin umotunu həyata keçirən mikrosahibkarlıq sferasında fəaliyyət göstərən sahibkarlıq subyektlərin yerinə yetirdikləri fəaliyyətdən əldə olunan mənfəətin 75%-i mənfəət vergisindən azad olunur. Mikrosahibkarlıq fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlə əlaqədar aparılmış dəyişikliklər oxşar surətdə Vergi Məcəlləsində yer alan 102.1.30-cu maddəyə görə də həyata keçirilib. Sözügedən dəyişiklilər barədə məlumat verərkən və izahlar təqdim edərkən biz xeyli misallar və şərhlər vermişdik. Odur ki, burada bütün bu məsələlərə bir daha toxunmağı məqsədəuyğun hesab etmirik.

Burada təkcə bir məsələyə toxunmağı vacib bilirik ki, "bu Məcəllə ilə müəyyən edilmiş qaydada gəlirlərin v məsrəflərin uçotunu həyata keçirən" ifadəsi Məcəllənin 106.10-cu maddəsində qeyd olunmuşdu. Sözügedən maddəyə uyğun olaraq, Vergi Məcəlləsində müəyyən edilmiş qaydaya uyğun əldə edilən gəlirlərin və sərf olunan məsrəflərin uçotunu həyata keçirən, əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyatdan keçməmiş və yerinə yetirilən əməliyatların ümumi miqdarı ardıcıl on iki aylıq dövrün istənilən ayı yaxud ayları ərzində 200.000AZN-ə qədər olan rezident müəssisənin təsisçi şəxsi yaxud payçısı və ya səhmlərinin sahibləri qismində çıxış edən hüquqi şəxslərin devedend şəklində dail olan gəlirləri vergi tutumundan azad olunur.

4.3. ƏLAVƏ DƏYƏR VERGİSİ (ƏDV)

Vergi Məcəlləsinin 153-cü maddəsi əlavə dəyər vergisinin anlayışına həsr olunub.

Məcəllənin 153.1-ci maddəsindən aydın olur ki, əlavə dəyət vergisi, yaxıd ƏDV vergiyə cəlb edilən dövriyyədən tutulan verginin miqdarı ilə Vergi Məcəlləsinin müddəalarına müvafiq olaraq təqdim edilən elektron qaimə-fakturalara yaxud idxal əməliyyatlarında əlavə dəyər vergisinin ödənişinin yerinə yetirilməsii ifadə edən sənədlərə əsasən əvəzləşdirilməsi aparılmalı olan vergi məbləğinin arasında olan fərqdir.

Məcəllənin 153.2-ci maddəsilə ölkəmizin ərazisində istehsal edilən kənd təsərrüfatı məhsullarının pərakəndə satışı aparıldığı zaman əlavə dəyər vergisi ticarət əlavəsi kimi qiymətin üzərinə gələn miqdardan hesablanan vergi məbləğidir.

Vergi Məcəlləsinin 153.3-cü maddəsindən öyrənirik ki, 1 yanvar 2022-ci il tarixdən başlayaraq üç il ərzində həm Azərbaycanda, həm də xarici ölkələrdə istehsal edilmiş kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı həyata keçirilərkən əlavə dəyər vergisi ticarət əlavəsindən tutularaq hesablanan vergi məbləği qismində çıxış edir.

Vergi Məcəlləsinin 154-cü maddəsində əlavə dəyər vergisinin vergi ödəyiciləri haqqında məlumat alırıq.

154.1-ci maddəsinə əsasən, sözügedən verginin ödəyicisi qismində qeydiyyatda duran yaxud qeydiyyata durmalı olan şəxs əlavə dəyər vergisi ödəyicisi hesab olunur.

Maddə 154.2-dən öyrənirik ki, qeydiyyata duran şəxs həmin qeydiyyat özünün hüquqi qüvvəsinə minəndən dərhal sonra bu verginin ödəyicisi hesab edilir. Qeydiyyadla bağlı ərziə verməli olan, ancaq qeydiyyata durmamış şəxs qeydiyyatla bağlı ərizə verməli dövrdən sonrakı hesabat müddətinin başlanğıc tarixindən vergi ödəyicisi hesab edilir.

154.3-cü maddəsində isə qeyd edilir ki, Azərbaycana ƏDV-nin tətbiq edildiyi məhsulların idxalını həyata keçirən şəxslər bu kimi idxal məhsulları ilə bağlı əlavə dəyər vergisinin ödəyiciləri hesab olunurlar.

Çaddə 154.4-də deyilir ki, əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyata durmadan öş fəaliyyəti ilə məşğul olan, yəni bu və ya digər xidmətləri təqdim edən, işləri yerinə yetirən şəxslər Vergi Məcəlləsinin 169-cu maddəsinə uyğun olaraq vergiyə cəlb olunmalı qeyri-rezident şəxsrlə sözügedən işlərin yaxud təqdim olunan xidmətlərin məbləğinə görə vergi ödəyicisi hesab olunur.

Vergi Məcəlləsinin 154.5-ci maddəsindən öyrənirik ki, həmin Məcəllədə yer alan 137-ci maddəsinə əsasən hüquqi şəxsin yaradılmasına getməyən həyata keçirilən müştərək sahibkarlıq fəaliyyəti əlavə dəyər vergisinin məqsədləri üçün ayrı olaraq şəxs hesab edilir. Haqqında danışdığımız Məcəllədə yer alan 137-ci maddəsinə əsasən hüquqi şəxsin yaradılmasına qərar vermədən müştərək sahibkarlıq fəaliyyəti əlavə dəfət vergisinin məqsədləri baxımından ayrıca şəxs hesab olunur. Qeyd etdiyimiz maddənin məqsədləri üçün ayrıca şəxs deyəndə biz sahibkarlıq istiqamətində müştərək fəaliyyətin üçotunu həyata keçrən şəxsi nəzərdə tuturuq.

Vergi Məcəlləsinin 154.6-cı maddəsində göstərilir ki, məcburi

qaydada müvafiq nişanlarla nişanlanması mütləq olan məhsulların istehsalçıları, eləcə də ~~sadələşdirilmiş verginin ödəyicisi qismində çıxış etmək hüququnu istifadə etmək lazım bilməyən~~ bina tikintisi fəaliyyətini həyata keçirən şəxs əlavə dəyər vergisinin ödəyicisi hesab olunur.

Növbəti 155-ci maddə qeydiyyatla bağlı ərizənin təqdim olunmasının tələb edilməsinə həsr olunub.

Məcəllənin 155.1-ci maddəsindən öyrənirik ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan və ardıcıl on iki aydan ibarət olan dövrün istənilən ayı yaxud ayları ərzində vergiyə cəlb edilməli olan əməliyyatların miqdarı 20.000AZN məbləğindən çox olan şəxslər, habelə Vergi Məcəlləsinin 218.1-ci maddəsində müəyyənolunmuş hüquqlardan istifadə etməyə qərar verməmiş ~~ticarət yaxud~~ ictimai iaşə fəaliyyəti həyata keçirən şəxslər (Vergi Məcəlləsində yer alan 218.4.1, 218.4.2 və 218.4.3-cü maddələrdə qeyd edilənlərdən başqa) Vergi Məcəlləsinin 157.3.1-ci maddəsində qeyd olunan tarixdən on gün müddətində əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyata götürülməsi barədə yazılı ərizəni təqdim etməlidirlər.

Bir əqd yaxud müqavilə ilə bağlı həyata keçirilən əməliyyatların ümumi miqdarı 200.000AZN-dən çox olduğu təqdirdə, həmin əməliyyat əlavə dəyər vergisinin tətbiq olunduğu əməliyyat qismində dəyərlənridilir və bu əməliyyatı yerinə yetirən şəxs onun yerin yetirildiyi günə qədər əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyata götürülməsi barədə yazılı ərizəni təqdim etməyə borcludur.

Vergi Məcəlləsindəki 154.6-cı maddədə qeyd olunan fəaliyyət istiqamətində öz işini qurmuş şəxs dövlət qeydiyyatından keçmək yaxud vergi orqanlarına uçota durmaq məqsədilə təqdim etməli olduğu yazılı ərizəsi ilə birgə, sözügedən fəaliyyətlə sonralar məşğul olduğu təqdirdə isə bu iş fəaliyyətini yerinə yetirməə başladığı günə qədər əlavə dəyər vergisinin məqsədləri baxımından qeydiyyata alınması ilə əlaqədar ərizə verməlidir.

Vergi Məcəlləsinin 155.2-ci maddəsindən aydın olur ki, qeyri-rezident tərəfindən məhsulların göndərilməsi, işlərin yerinə yetirilməsi, habelə xidmətlərin təqdim olunması ilə bağlı fəaliyyət bu Məcəllədə yer alan 155.1-ci maddəsinin məqsədləri nöqteyi-nəzərdən verginin tətbiq olunduğu əməliyyatların ümumi miqqdarı müəyyənləşdirilərkən ancaq

o halda nəzərə alınmalıdır ki, bütün bu sadalanmış fəaliyyət növləri Azəraycanda fəaliyyət göstərdiyi daimi nümayəndəliyin vasitəsilə reallaşdırılmıpş olsun.

Məcəllənin 155.3-cü maddəsindən isə öyrəniri ki, 154.5-ci maddədə qeyd olunmuş şəxs Vergi Məcəlləsində yer alan 155.1-ci maddəsində müəyyən olunduğu halda, və ya iştirakçı əlavə dəyər vergisinin məqsədləri baxımından vergi ödəyicisi qismində çıxış etdiyi təqdirdə, müştərək sahibkarlıq fəaliyyətinin uçotunu yerinə yetirən şəxs qeydiyyata durmaq məqsədilə ərizə verməyə borcludur.

İndi isə Məcəllənin 156-cı maddəsinə nəzər salaq. BU maddə könüllü qeydiyyat məsələsinə həsr olunub.

Vergi Məcəlləsinin 156.1-ci maddəsindən oxuyuruq ki, qeydiyyatdan keçmək məcburiyyəti aid edilməyən sahibkarlıq fəaliyyət növü istiqamətinə öz işini qurmuş şəxslər vergi orqanlarına əlavə dəyər vergisinin məqsədləri baxımından qeydiyyata alınmaqla əlaqədar könüllü surətdə ərizə təqdim etmək hüququna malikdir.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, sahibliyində yaxud istifadəsində olan taksi də daxil olmaq şərtilə avtonəqliyyat vasitələri Azərbaycanda sərnişinlərin yaxud yüklərin daşınması və ya sözügedən daşımaları bağlanılmış müqaviləyə uyğun olaraq başqa şəxs yaxud şəxslərin reallaşdırdığı və aşağıda qeyd olunmuş tələblərə uyğun gələn şəxs haqqında danışdığımız maddədə nəzərdə tutulan hüquqdan istifadə etmək imkanına malikdir:

- təqdim olunan xidmətlərin dəyərinin, alınmış məhsulların, yerinə yetirilmiş işlərin v xidmətlərin dəyərinin nağdsız şəkildə əldə olunmasını və ödənilməsini həyata keçirən şəxs;
- başqa sahibkarlıq subyektinə təqdim olunan xidmətlərlə bağlı əldə olunan gəlir məbləğlərini və gəlirin əldə olunmasına görə sərf olunan məsrəfləri elektron-qaimə faktura əsasında rəsmiləşdirilməsini həyata keçirən şəxs;
- təqdim olunan xidmətlərə görə aparılan əməliyyatların uçotunu vahid məqrkəzləşdirilmiş qaydada fəaliyyət göstərən elektron sistimlər vasitəsilə yerinə yetirən, eləcə də vergi orqanlarının məkdaşlarına bu sistemə distant çıxış imkanını yaradan şəxs;
- Vergi Məcəlləsinin 156.1-1-ci maddəsi ilə nəzərdə tutulmuş şəxslər 31 yanvar tarixdən gec olmamaq şərtilə əlavə dəyər vergisi

məqsədlərinə görə qeydiyyata alınması ilə bağlı yazılı ərizəsini uçotda dayandığı vergi orqanın əməkdaşlarına təqdim etməlidir və sözügedən bu şəxslərin əlavə dəyər vergisinin məqsədləri baxımından qeydiyyatları həmin ayın ilk günündən qüvvəyə minir.

İndi isə Vergi Məcəlləsinin 157-ci maddəsi ilə tanış olaq. Bu maddə qeydiyyat məsələlərini tənzimləyir.

Məcəllənin 157.1-ci maddəsindən öyərnirik ki, əlavə dəyər vergisinin məqsədləri nöqteyi-nəzərdən məcburi yaxud könüllü şəkildə qeydiyyata alınması ilə bağlı yazılı ərizəni səlahiyyətli icra hakimiyyəti orqanı (AR İqtisadiyyat Bazirliyi) tərəfindən müəyyən olunmuş formaya uyğun təqdim edilməlidir.

157.2-ci maddəsində isə göstərilir ki, şəxslər əlavə dəyər vergisinin məqsədləri baxımından qeydiyyata dayanarkən vergi əməkdaşların bu şəxslərin əlavə dəyər vergisi ödəyicilərinin dölət reyestrində qeydə aldıqdan və ərizə təqdim edildikdən sonrakı beş günlük müddətindən gec olmamaq şərtilə onlara səlahiyyətli icra hakimiyyəti orqanı (AR İqtisadiyyat Nazirliyi) tərəfindən müəyyən olunmuş formaya əsasən qeydiyyata alındıqları haqqında bildiriş verməli, bu bildiriş sənədində sahibkarlıq subyektlərinin adını, onlara aidiyyəti olan başqa informasiyaları, qeydiyyata durmalarının qüvvəyə mindiyi günü, eləcə də vergi ödəyicisinin eyniləşdirmə nömrəsini göstərməlidir.

Əlavə dəyər vergisinin ödəyiciləri qismində çıxış edən şəxslərin qeydiyyatları ilə bağlı bildirişi ADV ödəyicisinə bir dəfə təqdim olunur, həmin ödəyicidə saxlanılır. Əlavə dəyər vergisinin ödəyicləri olan sahibkarlıq subyektlərinin qeydiyyata götürülməsi haqqında bildirişləri itərsə, yaxud həmin bildiriş istifadə olunması üçün yararsız halda olarsa, həmin sahibkarlıq subyektinin müraciətinə uyğun olaraq, ona bildirişin surətinin təqdim edilməsi həyata keçirilməlidir.

Vergi Məcəlləsinin 157.3-cü maddəsindən öyrənirik ki, qaydiyyata durma hansı gündən etibarən baş tutmasından asılı olmayaraq, aşağıda göstərilən tarixlərdən birində qüvvəyə minəcəkdir:

1. *qeydiyyatın aparılması məcburi xarakter daşıdığı təqdirdə:*

- *ardıcıl on iki aylıq müddətin hər hansı ayı yaxud ayları ərzində verginin tətbiq olunduğu əməliyyatların miqdarı 200.000AZN-lik məbləğdən çox olduğu təqdirdə - növbəti ayın ilk günündə;*
- *bir əqd yaxud müqavilə əsasında əlavə dəyər vegisinin tətbiq*

olunması dairəsinə cəlb edilən əməliyyatın ümumi həcmi 200.000AZN-lik məbləğdən çox olduğu təqdirdə - əməliyyat aparılan günə qədər;

- *Vergi Məcəlləsində yer alan 154.6-cı maddədə qeyd olunmuş fəaliyyət növü istiqamətində öz işini həyata keçirən şəxslərin dövlət qeydiyyatına yaxud vergi orqanlarında uçota dayandıqları tarixdə, sözügedən fəaliyyət növü ilə sonrada məşğul olduqları təqdirdə isə bu fəaliyyət növünü həyata keçirməyə başladıqları gündə;*

2. *Qeydiyyat könüllü əsaslarla aparıldığı təqdirdə - qeydiyyatla bağlı yazılı ərizə təqdim olunduğu aydan sonra gələn hesabat dövrünün ilk günüdə;*
3. *Vergi Məcəlləsinin 85.4-cü maddəsində göstərilmiş üç il müddətindən artıq olmamaq şərtilə, sahibkarlıq subyektinin qeydiyyata durması barədə yazılı ərizəsində əks olunan tarixdə.*
4. *Vergi Məsəlləndə yer alan 85.4-cü maddədə qeyd olunan üç illik dövr bitəndən sonra sahibkarlıq subyektinin əlavə dəyər vergisinin dəqiqləşdirilməsi və əvəzləşdirilməsi prosedurunu həyata keçirməsinə imkan verilmir.*
5. *Sözügedən həmin maddədə qeyd olunmuş müddəalar Vergi Məcəlləsinin 218.4.1-ci maddəsindəki göstərilmiş şəxslərə tətbiq olunmur.*

Məcəllədəki 157.4-cü maddəsindən aydın olur ki, vergi orqanlarının əməkdaşları əlavə dəyər vergisinin ödəyicisi qismində çıxış edən şəxslərin reyestrini tərtib etməlidirlər. Sahibkarlıq subyektləri əlavə dəyər vergisinin reyestrinə daxil olunan zaman onların uçota dayanması barədə vergi orqanına göndərdikləri yazılı əraizədə öz əksini tapmış məlumatlardan istifadə edilir.

157.5-ci maddədə qeyd olunur ki, əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyata durmalı olan, ancaq qeydiyyatla bağlı yazılı ərizəni təqdim etməmiş sahibkarlıq subyektlərini vergi orqanlarının əməkdaşları öz təşəbüsləri ilə qeydiyyata almalı, habelə bu vergi ödəyicisinə buna uyğun qeydiyyat bildirişini göndərməlidirlər.

157.6 və 157.8-ci maddələrdən öyənirik ki, əlavə dəyər vergisinin ödəyiciləri qismində çıxış edən şəxslərin məlumatlarında dəyişikliklər olduğu halda onların daxil olduqları reyestrdə müvafiq düzəlişlərin aparılması ilə bağlı lazımi addımlar atılmalıdır. Bununla yanaşı, Vergi

Məcəlləsi ilə müəyyən edilmiş hallarda rəsmi surətdə göndərilən sorğulara uyğun olaraq, sorğu edən tərəfə "Əlavə dəyər vergisi ödəyicilərinin reyestrindən çıxarış" verilməlidir.

İndi isə vergi Məcəlləsinin 158-ci maddəsi ilə tanış olaq. Bu maddə qeydiyyatın ləğv olunması prosedurlarını tənzimləyir.

Məcəllənin 158.1-ci maddəsinə uyğun olaraq, sahibkarlıq subyektləri, həmçinin Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində qeyd olunmuş şəxslər (Vergi Məcəlləsinin 16.3-cü maddəsi ilə nəzərdə tutulmuş hallardan başqa) əlavə dəyər vergisinə cəlb edilən əməliyyatları həyata keçirməyə dayandırarsa, o zaman əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyatın ləğv edilməsi ilə bağlı yazılı ərizəni təqdim etməlidir. Belə olan təqdirdə əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyatın ləğv edilməsi sahibkarlıq subyektinin vergiyə cəlb olunan əməliyyatları tamamilə dayandırıldığı gündən etibarən qüvvəyə minmiş hesab olunur.

Vergi Məcəlləsinin 218.4.1-ci maddəsində qeyd olunmuş şəxslər əlavə dəyər vergisinin məqsədləri üçün sonuncu qeydiyyat qüvvəyə düşdüyü gündən başlayaraq üç il keçəndən sonra istənilən hər hansı zamanda qeydiyyatın ləğv edilməsi ilə əlaqədar yazılı ərizəni əqdim etmək hüququna malikdir.

Vergi Məcəlləsinin 158.2-ci maddəsindən öyrənirik ki, sahibkarlıq subyektinin verginin tətbiq olnduğu əməliyyatlarının ümumi miqdarı ötən tam on iki təqvim ayında 100.000AZN-dən artıq olmasa, Vergi Məcəlləsinin 158.1-ci maddəsində göstərilmiş hallardan başqa sahibkarlıq subyekti əlavə dəyər vergisinin məqsədləri üçün sonuncu qeydiyyatın qüvvəyə düşdüyü gündən başlayaraq 1 il keçəndən sonra istənilən zaman qeydiyyatın ləğvi ilə əlaqədar yazılı ərizə təqdim etmək hüququna malikdir. Əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyatın aradan qaldırılması vergi orqanlarının əməkdaşlarına qeydiyyatın ləğvi ilə bağlı təqdim etdiyi yazılı ərizənin verildiyi tarixdən etibarən qüvvəyə minmiş sayılır.

Vergi orqanlarının əməkdaşları əlavə dəyər vergisi ilə bağlı qeydiyyatın ləğv olunması haqqında informasiyanı 1 iş günündə səlahiyyətli icra hakimiyyəti orqanına (AR Maliyyə Nazirliyinə) göndərməyə borcludur.

Vergi Məcəlləsinin 158.3-cü maddəsindən öyrənirik ki, vergi

əməkdaşları əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyatın aradan qaldırılan şəxsin adını, bu şəxs barədə başqa məlumatları əlavə dəyər vergisinin ödəyiciləri qismində çıxış edən şəxslərin reyestrindən silməlidirlər. Bununla yanaşı, qeydiyyat zamanı təqdim olunmuş bildiriş sənədi geri alınmalıdır.

Məcəllənin 159-cu maddəsi vergitutma obyektinə həsr olunur.

159.1-ci maddədən aydın olur ki, məhsulların təqdim olunması, işlərin yerinə yetirilməsi, xidmətlərin göstərilməsi ölkə ərazisində istehsal edilən kənd təsərrüfatı məhsullarının pərakəndə satışı gedişatında tətbiq olunan ticarət əlavəsi və verginin əhatə etdiyi idxal verginin tətbiq edildiyi obyektdir. 1 yanvar 2022-ci il tarixdən başlayaraq üç il müddətinə ölkəmizdə və ölkəmizin hüdudlarından kənarda istehsal olunmuş kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə qaydasında satılması zamanı tətbiq olunan ticarət əlavəsi vergitutma obyekti qismində çıxış edir.

Vergi Məcəlləsinin 159.2-ci maddəsindən öyrənirik ki, vergitutumundan azad olunan məhsulların göndərilməsi, işlərin yerinə yetirilməsi və xidmətlərin təqdim olunması istisna edilməklə, sahibkarlıq fəaliyyətini həyata keçirməklə yaxud hüquqi şəxs yaratmadan birgə sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq məhsulların göndərilməsini, işlərin yerinə yetirilməsini və xidmətlərin təqdim olunmasını reallaşdıran şəxs bütün bunları Vergi Məcəlləsində yer alan 167 yaxud 168-ci maddələrə müvafiq surətdə ölkəmizin ərazisində icra edirsə, o zaman sadaladığımız əməliyyatlara vergilərin tətbiq olunması nəzərdə tutulur. Vergi Məcəlləsinin 168-ci maddəsinə əsasən ölkəmizin sərhədlərindən kənarda xidmətlərin təqdim olunması yaxud işlərin yerinə yetirilməsi vergitutumu obyekti qismində çıxış etmir.

Məcəllənin 159.3-cü maddəsində məhsulların idxalı vergitutumundan azad olunan idxal əməliyyatlarından başqa, verginin tətbiq edildiyi idxal hesab olunur. Tranzit yüklərin daşınması ilə, müvəqqəti idxal formasında ölkəmizin ərazisinə buraxılmış məhsullar yazud gömrük qanunvericiliyinə müvafiq surətdə daxili istehslak məqsədilə idxalı həyata keçiirlmiş yaxud qəbul edilmiş sayılmayan məhsullar əlavə dəyər vergisinin məqsədiləri üçün idxal məhsulları sırasına daxil deyil.

159.4-cü maddəsində deyilir ki, sahibkarlıq subyektinin haqqı

ödənilmək şərtilə yaxud əvəzsiz əsaslarla tabeçiliyində olan işçilərə və başqa şəxslərə məhsulların verilməsi, işlərin yerinə yetirilməsi yaxud xidmətlərin təqdim olunması, eləcə də barter əməliyyatları vergiyə cəlb edilən əməliyyatlar hesab olunur.

Məcəllənin 159.5-ci maddəsində isə qeyd olunur ki, sahibkarlıq subyekti məhsulları, işləri yaxud xidmətləri əlavə dəyər vergisi ödənilmək şərtilə əldə etdiyi təqdirdə və uyğun əvəzləşdirmə alındığı halda yaxud almaq hüququ varsa, bu kimi məhsullardan, işlərin yerinə yetirilməsindən və xidmətlərin təqdim olunmasından kommersiya məqsədləri güdülmədən istifadə olunması, fövqəladə hallardan, qanunvericilik qaydasında müəyyən olunmuş təbii itkilər normaları hüdudlarında xarab olmadan meydana çıxan itkilərdən, təbii itkilər normaları hüdudlarında xarabolma və buna bənzər əskikgəlmələr istisna edilməklə məhsulların itməsi, əskikliyi, xarab olması, tam amortizasiya edilmədən uçotdan alınması yaxud oğurlanması verginin tətbiq edilməli olduğu əməliyyatlara aiddir.

Vergi Məcəlləsinin 159.6-cı maddəsində göstərilir ki, sahibkarlıq subyektinin qeydiyyatı ləğv olunduğu təqdirdə ləğvetmə prosesində həmin subyektin mülkiyyətində qalmış məhsulları bu vaxt və verginin tətbiq edildiyi əməliyyatlar hüdudlarında təqdim olunan məhsullar qismində dəyərləndirilir.

159.7-ci maddəsindən isə aydın olur ki, onun başqa müddəalarından asılı olmayaraq, məhsulları əlavə dəyər vergisinə cəlb olunan əməliyyatların aparılması nəticəsində əldə olan, amma bu məhsulları əldə edərkən Vergi Məcəlləsinin 175-ci maddəsinə uyğun əlavə dəyət vergisini əvəzləşdirmək hüququna sahiblənməmiş şəxslərin bu məhsulları göndərməsi verginin tətbiq olunduğu əməliyyat qismində dəyərləndirilir. Bir halda ki, məhsular əldə olunan zaman əvəzləşdirilməsinə müəyyən dərəcədə icazə verilməmişdir, belə olan təqdirdə verginin tətbiq olunduğu əməliyyatın miqdarı əvəzləşdirmənin müəyyən dərəcədə icazə verilməmiş hissəsinə mütənasib surətdə kiçildilir. Təqdim olunmuş kreditlərin təminatı qismində bankların yaxud başqa kredit təşkilatlarının lehinə ipoteka yüklənmiş və hərraclar vasitəsilə bankların yaxud başqa kredit təşkilatlarının mülkiyyətinə keçirilmiş, eləcə də "İpoteka haqqında" AR Qanununda yer alan 43-cü maddəsinə əsasən əldə edilmiş əmlakların təqdim olunması ayrılmış

kredit üzrə ödənilməmiş əsas borc məbləği həddində verginin tətbiq olunduğu əməliyyat hesab edilmir.

159.8-cimaddədən öyrənirik ki, əlavə dəyər vergisinin ödəyicisi qismində qeydiyyata durmamış şəxslərin ƏDV tətbiq olunmaqla yerinə yetirilən əməliyyatları, eləcə də əlavə dəyər vergisindən azad olunmuş yaxud "0" dərəcəsi ilə əlavə dəyər vergisi ödəyən, ancaq ƏDV tətbiq olunmaqla həyata keçirilən əməliyyatları vergitutma obyekti qismində çıxış edir.

Vergi Məcəlləsinin 159.10-cu maddəsindən göstərilir ki, həmin Məcəllədə yer alan 164.1.11, 164.1.15, 164.1.16, 164.1.20-164.1.25, 164.1.33 və 164.1.35-ci maddələrinə əsasən əlavə dəyər vergisinin ödənilməsindən aza olunan idxal məhsullarının ölkəmizin ərazisində təqdim olunması verginin tətbiq edildiyi əməliyyat qismində çıxış edir.

Vergi Məcəlləsinin 160-cı maddəsi müəssisənin təqdim edilməsinə həsr olunmuşdur.

160.1-ci maddədən öyrənirik ki, müssisənin ~~yaxud müəssisədə müstəqil surətdə öz işini həyata keçirən bölmələrin bütün bank aktivlərinin~~ bir əməliyyat hüdudlarında bir sahibkarlıq subyektinin digər sahibkarlıq subyektinə təqdim olunması vergi tətbiq edilən əmliyyatlar sırasına daxil edilmir.

Məcəllədə yer alan 160.2-ci maddədə deyilir ki, 160.1-ci maddəsində qeyd olunan hallarda müəssisəni əldə edən yaxud onu qəbul edən şəxslər təqdim edənin göstərilən, habelə təqdim olunan müəssisəyə aid hüquqlarını və öhdəliklərini öz üzərinə götürməlidir. Buradan aydın olur ki, müəssisəni təqdim edən şəxsi əvvəlki vergi dövrləri üzrə vergiləri, faizlər yaxud maliyyə sanksiyalarını ödəmək öhdəliyindən azad etmir.

Məcəllənin 160.3-cü maddəsində deyilir ki, bu maddəniin tələbləri ancaq o zaman tətbiq edilməlidir ki, müəssisənin təqdim edən və əldə edən şəxslər təqdim olunma prosesindən sonra on gün keçmədən sözügedən maddənin müddəalarının tətbiqi məqsədilə vergi orqanlarının əməkdaşlarına yazılı formada məlumat vermiş olsunlar.

Vergi Məcəlləsinin 153-cü maddəsi bizə əlavə dəyər vergisi anlayışının nədən ibarət olduğunu göstərir.

Bununla əlaqədar şərh verilməli olan ilk məsələ əlavə dəyər vergisi anlayışında hər hansı dəyişikliklərin olub-olmaması ilə bağlıdır.

Əvəla qeyd edək ki, 2022-ci il yanvar ayının 1-dən etibarən Məcəllədə yer alan 153-cü maddə yeni redaksiyada təqdim olunub. Həmin maddənin 3 hissədən ibarət olduğunu qeyd etməliyik:

1. ƏDV verginin tətbiq olunduğu dövriyyədən hesablanır və ödənilməli olan vergi məbləği ilə Vergi Məcəlləsində yer alan müddəalara müvafiq olaraq təqdim edilən elektron qaimə-fakturaya yaxud idalda əlavə dəyər vergisinin ödənilməsini təsdiqləyən sənədlərə uyğun şəkildə əvəzləşdirilməsi aparılmalı olan vergini ifadə edən məbləğ arasında yer alan fərqdir (Vergi Məcəlləsinin 153.1-ci maddəsi).
2. Ölkə ərazisində istehsal edilən kənd təsərüfatı məhsullarının pərakəndə yolu ilə realizasiyası prosesində əlavə dəyər ergisi ticarət əlavəsindən hesablanmalı olan vergi məbləğindən ibarətdir (Vergi Məcəlləsinin 153.1-ci maddəsi).
3. 1 yanvar 2022-ci ildən başlayaraq üç ilə ərzində həm ölkəmizdə istehsal olunan, həm də xaricdən gətirilən kənd təsərrüfatı məhsullarının tpodan yaxud pərakəndə şəkildə realizasiyası prosesində əlavə dəyər vergisi ticarət əlavəsindən hesablanmalı olan vergi məbləği qismində çıxış edir (Vergi Məcəlləsinin 153.3-cü maddəsi).

Beləliklə aydın olur ki, kənd təsərrüfatı sektorunda istehsal edilmiş məhsullara aid olunmayan digər hallara görə ƏDV-nin hesablanmasında bu və ya digər dəyişikliklər mövcud deyil. Sözügedən dəyişikliklərin aparılmasının əsas səbəbi isə bundan ibarətdir ki, 1 yanvar 2022-ci il tarixdən başlayaraq 3 il ərzində həm ölkəmizdə kənd təsərrüfatı sektorunda istehsal edilmiş məhsulların, həm də xarici ölkələrdən gətirilmiş kənd təsərrüfatı məhsulların topdan və pərakəndə şəklində realizasiyası prosesində əlavə dəyər vergisi ticarət əlavəsindən hesablanması aparılan vergi məbləğ qismində çıxış edir.

İndi isə haqqında danışdığımız və sözügedən Məcəlləyə daxil edilən əlavələrin aparılmasının səbəblərinə aydınlıq gətirək. Vergi Məcəlləsinin bu maddəsi ilə əlaqədar diqqətəlayiq üç məsələ üzərində dayanmağımız məqsədəuyğun olardı.

Birincisi, onu deməliyik ki, əlavə dəyər vergisinin hesablanması kənd təsərrüfatı sektorunda istehsal edilmiş məhsulların həm topdan, həm də pərakəndə şəkildə realizasiyası prosesində ticarət əlavəsinə

tətbiq olunur.

Bununla bağlı bir mizala nəzər salaq.

Fərz edək ki, topdansatış fəaliyyəti istiqamətində öz işini qurmuş və əlavə dəyər vergisinin ödəyicisi qismində çıxış edən sahibkarlıq subyekti 2022-ci ildə bir kiloqramın qiyməti 1 manat 50 qəpik olan kartof əldə edərək onu 2AZN-ə realizasiya edir. Burada hesablanmalı olan ƏDV 36 qəpik təşkil etməyəcək: 2AZN (məhsulun topdansatış qiyməti x 18% əlavə dəyər vergisi) = 0,36AZN. Sözügedən verginin məbləği9 qəpik olacaq: 2AZN 2AZN (məhsulun topdansatış qiyməti) – 1,5AZN (məhsulun maya dəyəri) x 18% (əlavə dəyər vergisi) = 0,09AZN. Buradan aydın olur ki, realizasiya edilən məhsulara görə əlavə dəyər vergisinin miqdarında 0,27AZN-ə bərabər bir fərq mövcuddur: 0,36AZN – 0,09AZN = 0,27AZN.

Növbəti misalı dəyərləndirək.

Fərz edək ki, pərakəndə satış növü ilə məşğul olan və əlavə dəyət vergisinin ödəyicisi qismində qeydiyyatda duran sahibkarlıq subyekti maya dəyəri 2,00AZN təşkil edən kartof məhsulunun satışını 3,00AZN-ə həyata keçirir. Belə olan təqdirdə həmin sahibkarlıq subyekti tərəfindən təqdim edilən məhsul üzrə əlavə dəyər vergisinin məbləği 0,54AZN olmayacaq: 3,00AZN (məhsulun maya dəyəri, yəni topdansatış qiyməti) x 18% əlavə dəyər vergisi) = 0,54AZN. Bu məbləğ 0,18AZN təşkil edəcək: 3,00AZN (məhsulun maya dəyəri yaxud topdansatış qiyməti) – 2,00AZN (məhsulun maya dəyəri) x 18% (əlavə dəyər vergisi) = 0,54ZN.

Daha bir praktiki misala diqqət yetirək.

Fərz edək ki, sahibkarlıq subyekti tərəfindən 2022-ci ildə maya dəyəri 2Azn təşkil edən kartof məhsulu idxal olunmuşdur. Həmin məhsula görə bir kiloqramın dəyəri üçün 0,36AZN-lik əlavə dəyər vergisi hesablanaraq dövlət büdcəsinə köçürülmüşdür. Vergi Məcəllə-sində aparılmış yeni dəyişikliklərə uyğun olaraq, idxal əməliyyatları zamanı ödənilən əlavə dəyər vergisi kənd təsərrüfat sektorunda istehsal edilmiş məhsulların maya dəyərnə daxil olunur. Sahibkarlıq subyekti kartof məhsulunun 1 kq-nın topdansatış qiymətini 3AZN təyin edildiyi təqdirdə hesablanacaq əlavə dəyər vergisi 0,1152AZN miqdarında olacaq: 3,00AZN (məhsulun maya dəyəri) – 2,36AZN (idxal edilən məhsulun dəyəri) x 18% (əlavə dəyər vergisi) = 0,1152AZN.

Növbəti məsələ. Kənd təsərrüfatı sektorunda istehsal edilən məhsullarla əlaqədar aparılmış dəyişikliklər müddətli xarakter daşıyır. Haqqında danışdığımız maddənin mətnindən aydın olur ki, 1 yanvar 2022-ci il tarixdən etibarən üç il ərzində kənd təsərüfatı sektorunda istehsal edilmiş məhsulların, onların yerli yaxud respublika hüdudları kənarından gətirilməsindən asılı olmayaraq, topdan və pərakəndə realizasiya prosesində əlavə dəyər vergisi ticarət əlavəsindən hesablanmalı olan vergi məbləğinə bərabərdir.

Yeri gəlmişkən, kənd təsərrüfatı sektorunda istehsal edilmiş məhsullara görə əlavə dəyər vergisinin ticarət əlavəsinə hesablanması təklifi Kənd Təsərrüfatı Nazirliyinə məxsusdur. Milli Məclisə təklif olunan dəyişikliklərin ilkin layihəsində ticarət əlavəsinə əlavə dəyər vergisinin hesablanması iki il ərzində nəzərdə tutulmuşdur, lakin buna baxmayaraq, sonra bu müddətin üç ilə qədər artırılması ilə bağlı qərar qəbul edilmişdir.

Yekunda bu maddə ilə əlaqədar daha bir məqama nəzər yetirək. Belə ki, vergi qanunvericiliyində aparılmış son dəyişiklikləri nəzərdə tutan Qanunun keçid müddəasında göatərlilir ki, əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyata dayanmış, istər ölkəmizdə, istərsə də ölkə hüdudları kənarından gətirilən kənd təsərrüfatı sektorunda istehsal edilmiş məhsulların topdan və və pərakəndə realizasiyasını yerinə yetirən sahibkarlıq subyektləri 1 yanvar 2022-ci ilə tarixinə qədər əlavə dəyər vergisini ödəməsələr, onda əldə olunmuş və uyğun əvəzləşdirmə alınmış zərəncamlarında qalmış kənd təsərrüfatı sektorunda istehsal edilmiş məhsulların sonradan realizasiyası prosesində əlavə dəyər vergisi bu məhsulların tam satış dəyəri nəzərə alınmaqla, yəni onun məbləğindən hesablanmalıdır. Kənd təsərrüfatı sektorunda istehsal edilmiş məhsullar əlavə dəyər vergisi ödənilmək şərtilə almış və uyğun əvəzləşdirmədən yararlanmış sahibkarlıq subyektləri sərəncamlarında qalmış kənd təsərrüfatı sektorunda istehsal olunmuş bu məhsulları haqqında səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş orqan yaxud strukturun müəyyənləşdirdiyi şəkildə məlumatları 31 yanvar 2022-ci il tarixinə qədər qeydiyyata durduqları vergi orqanı əməkdaşllarına təqdim etməyə borcludur.

Yuxarıda dediklərimizi daha da aydınlaşdırmaq üçün növbəti misala nəzər salaq.

Fərz edək ki, 2022-ci il yanvarın 1-də kənd təsərrüfatı sektorunda istehsal edilmişməhsulların toptan satışını həyata keçirən sahibkarlıq subyekti ƏDV ödəyicisi qismində çıxış edir. Onun sərəncamında əlavə dəyər vergisinin əvəzləşdirilməsini yerinə yetirdiyi 1 kiloqramın qiyməti 3AZN təşkil edən pomidor məhsulu vardır. Qoy həmin sahibkarlıq subyekti köhnə və yeni bu növdən olan məhsulunu eyni qiymətə, məsələn 5AZN-ə realizasiya edib. Belə olan halda 2022-ci il yanvarın 1-ə qədər olan məhsullara görə əlavə dəyər vergisi məbləği 0,90AZN təşkil edəcək: 5AZN (təqdim olunan maya dəyəri) x 18% (əlavə dəyər vergisi) = 0,90AZN. Belə oacağı təqdirdə 2022-ci ilin yanvarın 1-dən başlayaraq əldə edilmiş məhsula görə 1AZN-lik ticarət əlavəsindən hesablanmış əlavə dəyər vergisinin miqdarı 0,18AZN təşkil edəcəkdir: 1AZN(5AZN (məhsulun maya dəyəri) – 4AZN (məhsulun alış dəyəri) x 18% (əlavə dəyər vergisi) = 0,18AZN.

Vergi Məcəlləsnin 155-ci maddəsi qeydiyyatla bağlı ərizələrin verilməsinin tələb olunmasına həsr edilmişdir.

Bu maddənin şərhi ilə bağlı aydınlıq gətirəcəyimiz ilk sual əlavə dəyər vergisi ödəyiciləri tərəfindən ƏDV qeydiyyatı barədə ərizənin nə vaxt təqdim edilməli olduğu ilə bağlıdır.

İlk əvvəl demək lazımdır ki, Vergi Məcəlləsində yer alan 155.1-ci maddəyə edilən əlavələrə uyğun olaraq, Məcəllənin 154.6-cı maddəsində öz əksini tapan fəaliyyəti həyata keçirən şəxslər dövlət qeydiyyatına yaxud vergi orqanlarında uçota dayanmaq məqsədilə yazılı formada tərtib olunmuş ərizələri ilə birgə, sözügedən fəaliyyəti sonradan həyata keçirdikləri təqdirdə isə bu fəaliyyətə start verdikləri günə qədər əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyatla bağlı ərizəni təqdim etməlidilər.

Vergi Məcəlləsində yer alan 154.6-cı maddəsinə uyğun olaraq, aşağıda qeyd olunmuş sahibkarlıq subyektləri mütləq şəkildə əlavə dəyər vergisi ödəyiciləri qismində uçotda dayanmalıdır:

1. Aksiz markaları ilə markalanmalı olan məhsulları istehsal edən sahibkarlıq subyektləri;
2. Məcburi nişanlanma ilə nişanlanması mütləq aparılmalı olan məhsulları istehsal edən sahibkarlıq subyektləri;
3. Binaların tikintisi istiqamətində öz fəaliyyətini qurmuş sahibkarlıq subyektləri.

Yuxarıda dediklərimizlə bağlı misallara nəzər salaq.

İlk öncə fərz edək ki, sahibkarlıq subyekti binaların tikintisi ilə məşğul olmağı planlaşdırdığı üçün vergi orqanlarında uçotda dayanmaq məqsədilə yazılı formada ərizə təqdim edir. Belə olan təqdirdə həmin sahibkarlıq subyekti əlavə dəyər vergisi ödəyicisi qismində də qeydiyyatdan keçmək üçün ərizə təqdim etməlidir.

İkinci misala diqqət yetirək. Qoy pərakəndə satışı istiqamətində öz fəaliyyətini qurmuş, lakin əlavə dəyər vergisinin ödəyicisi qismində çıxış etməyən sahibkarlıq subyekti 2022-ci il aprelin 1-dən etibarə binaların inşası sektorunda fəaliyyətini davam etdirməklə bağlı qərar verib. Belə olan təqdirdə sözügedən sahibkarlıq subyekti binaların inşası sektorunda öz fəaliyyətini davam etdirmək məqsədilə əlavə dəyər vergisinin ödəyicisi qismində uçota alınması ilə bağlı yazılı ərizəni də vergi orqanlarının əməkdaşlarına təqdim etməlidir.

Bu məsələ ilə əlaqədar oxşar dəyişikliklər Vergi Məcəlləsində yer alan və qeydiyyat məsələlərinə aid 157-ci maddəsində öz əksini tapmışdır. Bu Məcəllənin 157.3.1-ci maddəsində aparılmış dəyişikliklərdən sonra bir abzas əlavə olunmuşdur. Orada göstərilir ki, Vergi Məcəlləsinin 154.6-cı maddəsində nəzərdə tutulmuş fəaliyyət istiqamətində öz işini qurmuş şəxsin dövlət qeydiyyatına yaxud vergi orqanlarında uçota dayandığı tarixdə, həmin fəaliyyət istiqamətində sonrada işini qurduğu təqdirdə isə bu fəaliyyəti yerinə yetirməyə başladığı tarixdə əlavə dəyər vergisi qeydiyyatı hansı günün əvvəl gəlməsində asılı olaraq öz hüquqi qüvvəsinə minmiş olur.

İndi isə Vergi Məcəlləsinin 159-cu maddəsinə nəzər salaq. Bu maddə vergitutma obyekti ilə bağlıdır.

İlk izah edəcəyimiz məsələ əlavə dəyər vergisinin vergitutma obyektinə görə hansı fərqli yanaşmaların tətbiq olunması ilə bağlıdır.

Nəzərə almaq lazımdı rki, Vergi Məcəlləsində yer alan 159.1-ci maddəsində müvafiq dəyişikliklər aparılaraq əlavə cümlə daxil edilmişdir. Həmin cümlədən aydın olur ki, 1 yanvar 2022-ci il tarixdən etibarən üç il ərzində istər Azərbaycanda, istərsə də xarici ölkələrdə kənd təsərrüfatı sektorunda istehsal edilmiş məhsulların topdan və pərakəndə realizasiyası prosesində tətbiq olunan ticarət əlavəsi vergitutma obyekti qismində çıxış edir.

Biz artıq qeyd etmişdik ki, Kənd Təsərrüfatı nazirliyi tərəfindən irəli

sürülmüş təklif nəzərə alınaraq Azərbaycanda həm yerli, həm də xarici ölkələrdən idxal olunan kənd təsərrüfatı sektorunda istehsal edilmiş məhsulların istər topdan, istərsə də pərakəndə şəkildə satılması prosesində əlavə dəyər vergisinin hesablanması ticarət əlavəsindən həyata keçiriləcək. Hesablanma prosedurunu kifayət qədər geniş izah etdiyimiz üçün buna bir daha qayıtmağımıza lüzum görmürük.

Ayıdnlıq gətirilməli olan növbəti sual hansı hallarda məhsulların uçotdan çıxarılması əlavə dəyər vergisinin məqsədləri üçün verginin tətbiq olnduğu əməliyyat qismində dəyərləndirilməyəcəyi ilə bağlıdır.

Bununla əlaqədar qeyd edək ki, Vergi Məcəlləsində yer alan 159.5-ci maddəsində aparılmış dəyişikliklərə uyğun olaraq, vergi qanunvericiliyində müəyyənləşdirilmiş təbii itki anlayışına aid normalar çərçivəsində xarabolmadan əmələ gəlmiş itkilərdən, təbii itki normaları çərçivəsində xarabolmalar, eləcə də buna bənzər əskikgəlmə halları baş verdiyi zaman məhsulların əskikliyi verginin tətbiq olnduğu əməliyyat qismində dəyərləndirilməyəcək.

Dediklərimizi daha da ətraflı izah etmək üçün növbəti praktiki məsələyə nəzər salaq.

Fərz edək ki, əlavə dəyər vergisinin ödəyicisi qismində çıxış edən sahibkarlıq subyekti 30.000AZN miqdarınd məhsulları əlavə dəyər vergisi ödənilməklə alıb və əvəzləşdirməni reallaşdırıb. İlin sonuna yaxın aydın olmuşdur ki, 2.000AZN-lik məhsullar oğurlandığı səbəbdən onların sayında əskiklik yaranıb və 1.200AZN-lik məhsullar təbii itki normalarına uyğun olaraq icazə verilən hüdudlar çərçivəsində əskikgəlməni təşkil edir. Belə olan təqdirdə sahibkarlıa subyekti oğurlanmış 2.000AZN-lik məhsulları əlavə dəyər vergisi bəyannaməsində göstərsə və ƏDV-ni bəyan etsə belə, 1.200AZN məbləğində təbii itki normaları çərçivəsində əskikgəlmə olduğu səbəbdən bəyan edilməməlidir.

Növbəti suala nəzər salaq: hansı hallarda daşınmaz əmlakların təqdim olunması əlavə dəyər vergisinin məqsədləri üçün vergiyə cəlb olunan əməliyyat qismində dəyərləndirməyəcək?

Bu suala cavab vermək üçün ilk növbədə Vergi Məcəlləsində yer alan 160.4-cü maddəsinə nəzər salaq. Həmin maddəyə uyğun olaraq, hüquqi və fiziki şəxslərin daşımnmaz əmlakının, eləcə də əmlak komplekslərı formasında müəssisələrinin dövlət orqanları yaxud strukturlarına ödənişsiz əsaslarla verrilməsi zamanı bu, verginin cəlb olunduğu əməliyyat

kimi dəyərləndirilməyəcək. Biz artıq qeyd etmişdik ki, Vergi Məcəlləsinə əlavə olunmuş 144.1.4-cü maddəyə uyğun olaraq, hüquqi və fiziki şəxslərin daşımnmaz əmlakının, eləcə də əmlak kompleksləri formasında müəssisələrinin dövlət orqanları yaxud strukturlarına ödənişsiz əsaslarla verilməsi zamanı tutulan gəlirlər müəyyənləşdirildiyi halda gəlir yaxud zərərin nəzərə alınması baş verməyəcək.

Vergi Məcəlləsində yer alan 160.4-cü maddəsi də həmçinin buna bənzər dəyişikliyi özündə ehtiva edir.

Yenidən bir misala müraciət edək. Qoy əlavə dəyər vergisinin ödəyicisi qismində çıxış edən sahibkarlıq subyekti öz sahibliyində olan və dəyəri 120.000AZN təşkil edən daşınmaz əmlakı dövlət strukturuna ödənişsiz əsaslarla bağışlayıb. Məcəllənin 13.2.10-cu maddəsinə uyğun olaraq, məhsullar üzərində mülkiyyət hüquqlarının digər tərəfə verilməsi, eləcə də hədiyyə olunması məhsulların təqdim edilməsi qismində dəyərləndirilir. Vergi Məcəlləsində yer alan 160.4-cü maddədə aparılmış dəyişikliklərdən sonra öyrənirik ki, sahibkarlıq subyekti tərəfindən dövlət orqanları yaxud strukturlarına ödənişsiz əsaslarla verilmiş məhsulların təqdim edilməsi verginin tətbiq olunduğu əməliyyat qismində dəyərləndirilmir.

Vergi Məcəlləsinin 164-cü maddəsi vergi ödənilməsindən azad olunmaları tənzimləyir.

Bu maddə ilə bağlı izah edəcəyimiz ilk sual kitablar və kütləvi informasiya vasitələrlə bağlı əlavə dəyər vergisindən azadolmalar nədən ibarət olması məsələsini əhatə edir.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində yer alan 164.1.7-ci və 164.1.8-ci maddələrdə yeniliklər aparılmışdır. Həmin yeniliklərin təsdiq edilməsinin başlıca hədəfi kitablar və KİV-lər üzrə əlavə dəyər vergisindən azad olunma dairəsinin genişləndirilməsidir.

Burada Məcəllənin 164.1.7-ci və 164.1.8-ci maddələrin yeni və ilkin məzmununun müqayisəli şəkildə təqdim edərək dəyişikliklərə ətraflı şərh vermək yerinə düşərdi.

Sıra	Maddə	Əvvəlki redaksiya	Yeni redaksiya
1	164.1.7	KİV-lər tərəfindən hazırlanan məhsulların alqı-satqı prosedurunun bütün növlərində dövriyyələr, mətbu KİV-lər tərəfindən hazırlanan məhsullala əlaqədar redaksiya və poliqrafiya fəaliyyəti (reklam xidmətləri) istisna edilməklə	Siyahısı səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş orqan yaxud strukturun təsdiq etdiyi KİV-lər tərəfindən hazırlanan məhsulların və kitabların (elektron kitablardan başqa), eləcə də dərsliklərin və onların komplektlərinin idxalı və satışı, bu məhsulların istehsalı (nəşri) ilə əlaqədar rulon yaxud vərəqə formasında kağız məhsulunun idxalı və satışı
2	Maddə 164.1.8.	Ümumi təhsil ocaqları, eləcə də peşə təhsili istiqamətində fəaliyyət göstərən müəssisələr üçün dərslik komponentləri (iş dəftərlərindən başqa/ və uşaqlar üçün nəzərdə tutulmuş ədəbiyyatın istehsalı ilə əlaqədar redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti	Mətbu KİV-lər tərəfindən buraxılan məhsulların və kitabların, həmçinin elektron kitabları da daxil olmaqla, eləcə də dərslik komponentlərinin hazırlanması ilə əlaqədar redaksiya, nəşriyyat və poliqrafiya işi (reklam xidmətlərinin təqdim olunmasından başqa).

Qeyd etmək yerinə düşərdi ki, AR Nazirlət Kabineti KİV-lər tərəfindən buraxılan məhsulların və kitabların, elektron formatda hazırlanan kitablardan başqa, eləcə də dərslik komponentlərinin siyahısını təsdiq edəcək. Bu siyahıya düşən KİV-tərəfindən buraxılan məhsulların və kitabların, elektron formatda hazırlanan kitablardan başqa, eləcə də dərslik komponentlərinin idxal olunması və realizasiyası, bu məhsulların hazırlanması (nəşr olunması) ilə əlaqəli rulan yaxud vərəqə formasında kağız məhsulunun idxal edilməsi və realizasiyası əlavə dəyər dəyər vergisindən azad ediləcək. Vergi Məcəlləsində yer alan 164.1.7-ci maddənin əvvəlki redaksiya variantında hər hansı siyahının olması müəyyənləşdirilməmişdir.

İndi isə hərb yönümlü məqsədlər üçün istifadə edilən hansı təminatların əlavə dəyər vergisindən azad ediləcəyinə nəzər salaq.

İlk öncə yada salmaq lazımdır ki, Vergi Məcəlləsində yer alan 164.1.19-cu maddədə aparılmış dəyişikliklərdən aydın olur ki,

səlahiyyətli icra hakimiyyəti orqanının hərb yönümlü məqsədlər üçün istifadə edilən bütün texnikalar və texniki vasitələrin proqram təminatının ölkəmizə idxal olunması əlavə dəyər vergisindən azad edilən əməliyyatlar siyahısına daxildir. Bu, Azərbaycanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi baxımından həyata keçirilmiş mühüm dəyişiklikdir.

İzah edəcəyimiz növbəti məsələ kənbd təsərrüfatı ilə əlaqədar əlavə dəyər vergisi əməliyyatlarına görə hansı dəyişikliklərin həyata keçirilməsi ilə bağlıdır.

Məcəllənin 164.1.34-cü maddəsinə müraciət etsək aydın olacaq ki, kənd təsərrüfatı ilə əlaqədar əlavə dəyər vergisindən azad edilməsi mümkün olan əməliyyatlara görə bu və ya digər dəyişikliklərin aparılmasına qərar verilib. Bu dəyişikliklərə uyğun olaraq, siyahısı səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən orqan yaxud strukturun təsdiq edilmiş birbaşa kənd təsərrüfatında istifadə edilən suvarma və başqa qurğuların, maşın, avadanlıq və texnikaların, eləcə də kənd təsərrüfatı sektorunda istismar olunan texniki vasitələrin ehtiyat hissələrinin buraxılışı, ölkəmiz idxal edilməsi və realizasiyası əlavə dəyər vergisindən azad olunur. Aparılmış dəyişikliklərdə diqqətəlayiq hal bundan ibarətdir ki, Nazirlər Kabineti tərəfindən Vergi Məcəlləsindəki 164.1.34-cü maddəsinə əsasən, birbaşa kənd təsərrüfatı sektorunda istifadə edilən suvarma və başqa qurğuların, maşınlar, avadanlıq və texniki vasitələrin siyahısı tərtib edildikdən sonra, bu məhsulların idxal və ixrac edilməsi əlavə dəyər vergisindən azad ediləcək.

Bundan başqa, kənd təsərrüfatı sferasında ticarət əlavəsinin əlavə dəyər vergisinə cəlb olunmasını da nəzərə almaq lazımdır. Bu o deməkdir ki, kənd təsərrüfatı sektorunda buraxılan olunan məhsulların istehsalçıları ilə bağlı əlavə dəyər vergisindən azad edilən və aşağıda sadalanan əməliyyatlar tətbiq olunub:

- kənd təsərrüfatında istismar olunan texnika və texniki vasitələrin mülkiyyət hüququnun dəyişdirilməməsi şərti çərçivəsində kənd təsərrüfatı sferasında fəaliyyət göstərən istehsalçılara lizinq yaxud icarə çəklində verilməsi (Vergi Məcəlləsinin 164.1.34-1-ci maddəsi);

- kənd təsərrüfatı sektorunda buraxılan məhsulların istehsalçılarına aqrotexniki servis xidmətlərinin təqdim olunması (Vergi Məcəlləsinin

164.1.34-2-ci maddəsi).

İndi isə elektrik mühərriki ilə təchiz olunmuş avtomobillərin əlavə dəyər vergisindən azad olunması ilə bağlı tərtib edilmiş siyahıda genişləndirmələrin olub-olmamasına aydınlıq gətirək.

Məlumdur ki, 2022-ci il yanvarın 1-dən başlayaraq Vergi Məcəlləsinin 164.1.41-ci maddəsi qüvvəyə minmişdir. Müvafiq dəyişikliklər aparılmazdan əvvəl həmin maddəyə uyğun olaraq, ancaq elektrik mühərriki ilə təchiz edilmiş avmomobillərin idxal əməliyyatları əlavə dəyər vergisindən azad olunmuşdu. Lakin dəyişikliklərdən sonra ancaq elektrik mühərriki ilə təchiz edilən avtomobillərin idxal əməliyyatları ilə bərabər onların realizasiyası da həmçinin əlavə dəyər vergisindən azad hesab olunan əməliyyatlar sırasına daxil edilib. Elektrik mühərriki ilə təchiz olunmuş avtomobillərlə əlaqədar aşağıda qeyd edilən əməliyyatların da həmçinin 2022-ci il yanvarın 1-dən etibarən əlavə dəyər vergisindən azad olunması nəzərdə tutulmuşdur:

- istehsal tarixi üç ildən çox, eyni zamanda, mühərrikin həcmi 2.500 sm^3-dən artıq olmayan hibrid tipli avtonəqliyyat vasitələrinin idxal əməliyyatları və realizasiyası – 1 yanvar 2022-ci il tarixdən başlayaraq üç il ərzində (Vergi Məcəlləsinin 164.1.41-1-ci maddəsi);

- elektrik mühərriki ilə təchiz olunan avtomobillər üçün 2-ci və 3-cü səviyyə elektrik enerjisi doldurucularının idxal əməliyyatları və realizasiyası – 1 yanvar 2022-ci ildən başlayaraq üç il ərzində (Vergi Məcəlləsinin 164.1.41-2-ci maddəsi).

İndi isə əlavə dəyər vergtisindən azad edilən hansı növ məhsullara görə Nazirlər Kabinetinin siyahısına ehtiyacın yaranmasına nəzər salaq.

İlk öncə qeyd etmək yerinə düşərdi ki, 2022-ci il yanvarın 1-dən başlayaraq qüvvəyə minmiş 164.1.46-cı maddəsinə uyğun olaraq, heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə olunan yemlik məhsulların və yem əlavələrinin satışı ilə bağlı dövriyyələr – 1 yanvar 2020-ci ildən başlayaraq dörd il ərzində əlavə dəyər vergisindən azad olunmuşdur. Lakin maddədə söhbətin hansı yem məhsullarından və yem əlavələrindən getdiyi aydın deyildi. Odur ki, reallıqda hansı məhsulların əlavə dəyər vergisindən azad edilməsi məsələsinə aydınlıq gətirilməsi sahibkarlıq subyektləri və vergi orqanlarının əməkdaşları arasında qızğın müzakirələlərin aparılmasını şərtləndirirdi. Məsələ burasındadır ki, bəzən eyni növdən olan çəhsullar həm quş əti, həm də

insanların qidalanması qismində çıxış edə bilirdi. Vergi Məcəlləsində yer alan 164.1.46-cı maddəsində göstərilir ki, bu yemlik məhsulların və yem əlavələrinin heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə olunması ilə bağlı tələblər yer alır. Bu səbəbə görə də Məcəllədəki 164.1.46-cı maddəsində aparılmış dəyişikliklərdən sonra azadolmaların tətbiq edildiyi yemlik məhsullar və yem əlavələrinin siyahısının tərtib edilməsi ilə bağlı səlahiyyət Nazirlər Kabinetinə həvalə olunub.

Aydınlıq gətirəcəyimiz növbəti sual hansı əməliyyatların əlavə dəyər vergisinə sıfır (“0”) dərəcəsi ilə cəlb edilməsinə həsr olunur.

Məlumdur ki, Vergi Məcəlləsində yer alan 165.1.4-cü maddəsində aparılmış dəyişikliklərə uyğun olaraq, beynəlxalq və tranzit yük daşımalarılə əlaqəli ekspeditor xidmətlərinin təqdim edilməsi əməliyyatlarından əlavə dəyər vergisi sıfır (“0”) dərəcəsi ilə tutulacaqdır.

İndi isə dediklərimizə aid bir misala nəzər salaq.

Fərz edək ki, sahibkarlıq subyekti xirici ölkələrin birində istehsal olunmuş məhsulların Azərbaycana idxal edilməsi məqsədilə ekspeditor xidmətlərini təqdim edən tərəflə müvafiq kontraktın imzalanmasına qərar verib. Müqaviləyə uyğun olaraq, ekspeditor xidmətlərini həyata keçirən sahibkarlıq subyekti sözügedən məhsulların 3-cü şəxs vasitəsilə Azərbaqycana idxal olunmasını təmin edəcək, eləcə də bu xidmətin təqdim olunması məqsədilə məhsulları gətirən tərəfdən 4.000 ABŞ dolları məbləğində ödəniş acalaq. Məhsulların idxalını reallaşdıracaq şəxsin ekspeditor xidmətlərini təqdim edən sahibkarlıq subyektinə ödənişmiş 4.000 ABŞ dollarlıq məbləğ sıfır (“0”) dərəcəsi üzrə əlavə dəyər vergisinə cəlb olunacaq.

Növbəti suala şərh verək. Bu sual keçirilən ticarət festivalları ilə əlaqədar daha hansı maddənin ləğv olunduğuna aydınlıq gətirəcək.

Biz artıq qeyd etmidşik ki, Azərbaycanda ticarət festivalların təşkili məsələsi öz aktuallığıı bir qədər itirib, buna görə də bu halla əlaqədar Vergi Məcəlləsində yer almış maddələrin ləğv edilməsinə qərar verilmişdir. Məcəllədə ticarət festivallarının təşkili ilə əlaqədar üç maddənin ləğv olunmasına gedilmişdir ki, bunlar 24.0.7-2, 71-1.4 və 165.4 maddələridir.

Vergi Məcəlləsində yer almış və sonradan ləğv olunmuş 165.4-cü maddədə göstərilirdi ki, səlahiyyətli icra hakimiyyəti orqanının

müəyyənləşdirdiyi qaydaya əsasən təşkil olunan ticarət festivalları zamanı fiziki şəxslərin ölkə ərazisində aldıqları, istehsalat və ya kommersiya məqsədləri üçün nəzərdə tutulmamış məhsullar üzrə ödənilən əlavə dəyər vergisinin qaytarılması proseduru səlahiyyətli icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada yerinə yetirilir.

Bəs "ƏDV-ni geri al" kampaniyasında sözügedən siyahılardan hansı növ məhsulların adlarının çıxarılması, hansı məhsulların isə əlavə edilməsi nəzərdə tutulmuşdur?

Bununla əlaqədar qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində yer alan 165.5-ci maddəsində müvafiq dəyişikliklər aparılmışdır. Həmin dəyişikliklərə uyğun olaraq, fiziki şəxs qismində çıxış edən istehsalçıların ölkə ərazisində pərakəndə ticarət yaxud ictimai iaşə istiqamətində öz fəaliyyətini qurmuş sahibkarlıq subyektlərdən əldə edilmiş avtonəqliyyat vasitələri, alkoqollu içkilər, habelə tutun məmulatları üzrə əlavə dəyər vergisinin geri qaytarılmasına icazənin v erilməsi nəzərdə tutulmur.

Yeri gəlmişkən, 2022-ci il yanvarın 1-nə qədər istisna halları ancaq neft və təbii qaz məhsullarını əhatə edəcək.

2022-ci il yanvarın 1-dən etibarən isə tibb müəssisələrində təqdim olunan tibbi xidmətlər müqabilində nağdsızı formada ödənilən əlavə dəyər vergisinin 15 faizinin, nağd pulla ödənilən əlavə dəyər vergisinin də 10 faizinin geri qaytarılması nəzərdə tutulmuşdur.

Bir məqamı da demək yerinə düşərdi ki, vergi qanunvericiliyində aparılmış dəyişiklikləri nəzərdə tutan Qanunun keçid müddəalarında göstərilir ki, alkoqollu içkilər və tütün məhsulları münasibətində Vergi Məcəlləsində yer alan 165.5-ci maddəsinə görə istisna 1 oktyabr 2022-ci ildən etibarən tətbiq olunmağa başlayacaq.

Növbəti sualımız fiziki şəxslər tərəfindən həm yaşayış, həm də qeyri-yaşayış sahələri müqabilində ödənilən əlavə dəyər vergisinin qaytarılması prosedurunda nələrin dəyişdiyinə həsr olunur.

Məlum olduğu kimi, Məcəllənin 165.6-cı maddəsi fiziki şəxslər qismində çıxış edən istehlakçıların ölkə ərazisində binaların inşası fəaliyyəti üzrə öz işini qurmuş şəxslərdən nağdsız formada əldə edilmiş yaşayış və qeydi yaşayış sahələri müqabilində ödənilən əlavə dəyər vergisinin geri qaytarılması qaydalarını prosedurunu səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş orqan yaxud struktur

təsdiq edəcəyini nəzərdə tutur. Sözügedən həmin maddəyə əsasən, geri qaytarılmalı olan məbləğlər ödənişi həyata keçirilmiş əlavə dəyər vergisinin 30 faizinə bərabər olmalıdır. Aparılmış dəyişikliklər barədə məlumatları təqdim etəzdən əvvəl qeyd etməyi lazım bilirik ki, Vergi Məcəlləsində yer alan 165.6-cı maddəsində nəzərdə tutulmuş əlavə dəyər vergisinin geri qatarılması qaydaları və proseduru dövlətimizin başçısı tərəfindən təsdiq edilməmişdir. Odur ki, onun real təcrübədə tətbiqinə hələki başlanılmamışdır.

İndi də Vergi Məcəlləsində yer alan 165.6-cı maddədə aparılmış dəyişikliklər barədə məlumatı təqdim edək. Həmin dəyişikliklərə uyğun olaraq, fiziki şəxs qismində çıxış edən istehlakçılar eyni binadan bir yaxud bir neçə yaşayış yaxud da qeyri-yaşayış sahələrini əldə edən zamanƏ, əlavə dəyər vergisinin geri qaytarılması əldə olunmuç yaşayış sahəsinin 500 m^2, eləcə də qeyri-yaşayış sahəsinin 500 m^2-dən artıq olmayan hissəsinə mütənasib şəkildə ödənişi həyata keçirilmiş əlavə dəyər vergisinə tətbiq olunacaq.

Artıq qeyd olunduğu kimi, yaşayış, habelə qeyri-yaşayış sahələri müqabilində ödənişi aparılmış əlavə dəyər vergisinin qaytarılmasını tənizmləyən qaydalar hazırlanma mərhələsindədir. Hazırlanması həyata keçirilən qaydalarda əlavə dəyər vergisinin qaytarılması proseduruna sahə məhdudiyyətlərinin şamil edilməsi nəzərdə tutulmuşdur.

İndi isə Vergi Məcəlləsinin 168-ci maddəsi ilə tanış olaq. Həmin maddə işlərin yerinə yetirildiyi yaxud xidmətlərin göstərildiyi yerlərlə bağlıdır.

İlk öncə isə patentlər, lisenziyalar və ticarət markaları ilə əlaqədar hansı dəyişikliklərin aparılmasına aydınlıq gətirək.

Nəzərə almaq lazımdır ki, Vergi Məcəlləsində yer alan 168.1.5-ci maddəsinə uyğun olaraq, patent, lisenziya, ticarət markası, müəlliflik, eləcə də bu kimmmi digər oxşar hüquqların mülkiyyətə verilməsi yaxud güzəşt olunması ilə bərabər istifadə verilməsi də iş yaxud idmətlərin alıcısı qismindı çıxış edən şəxsin yerləşdiyi yaxud qeydiyyatda durduğu, təsis olunduğu, işlərin yaxud xidmətlərin alıcısının daimi nümayəndəliyi ilə birbaşa əlaqəli olduğu təqdirdə bu daimi nümayəndəliyin yerləşdiyi məkan hesab olunacaq.

Real həyatda icarət markasından istifadə olunması xidməti alıcının yerləşdiyi məkanda əsas götürülük, lakin buna baxmayaraq, Vergi

Məcəlləsindəki 168.1.5-ci maddəsində aparılmış əlavə və dəyişikliklərdə sahibkarlıq subyektlərinə daha konkret informasiyanın verilməsi təmin edilib.

İndi isə yuxarıda deyilənlərlə əlaqədar praktiki bir misala nəzər salaq.

Fərz edək ki, sahibkarlıq subyekti qeyri-rezidentə aid ticarət markasından Azərbaycanda istifadə olunması məqsədilə hər ay 3.000 ABŞ dolları məbləğində ödəniş həyata keçirilməlidir. Vergi Məcəlləsində yer alan 168.1.5-ci maddəsinə uyğun olaraq, xidmətlərin alıcısı qismindı çıxışedən tərəf Azərbaycanda yerləşdiyi üçün, sahibkarlıq subyekti qeyri-rezident olan tərəfə ödəniş apardığı zaman ƏDV məbləğini hesablamaqla büdcəyə köçürülməsini təmin etməlidir.

Bəs işçi qüvvəsinin təchiz olunması ilə əlaqədar xidmətlərin göstərildiyi yerin müəyyənləşdirilməsi necə həyata keçirilir?

Məlum olduğu kimi Məcəllənin 168.1.5-ci maddəsində yer alan 4-cü hissəsində dəyişikliklər aparılmışdır. Həmin dəyişikliklərə uyğun olaraq, işçi qüvvəsinin təchiz olunmasına görə xidmətlərin təqdim edilməsi (əgər işçilər həmin xidmətin alıcısı qismindı çıxış edən tərəfin fəaliyyət göstərdiyi yerdə çalışırsa) işlərin yerinə yetirilməsinin yaxud xidmətlərin göstərilməsinin alıcısı olan tərəfin yerləşdiyi yaxud qeydiyyatda durduğu, təsis olunduğu, işlərin yerinə yetirilməsinin yaxud xidmətlərin göstərilməsinin alıcısı qismində çıxıış edən tərəfin daimi daimi nümayəndəliyi ilə əlaqəli olduğu təqdirdə qeyd etdiyimiz bu daimi nümayəndəliyin yerləşdiyi yer müəyyən olunur.

Dediklərimizin daha asan anlaşılması məqsədilə bir misala müraciət etməyi məqsədəuyğun bilirik.

Fərz edək ki, qeyri-rezident qismindı çıxış edən şəxs Azərbaycanda sahibkarlıq subyekti ilə müqavilə bağlayıb. Həmin müqaviləyə əsasən o, Qarabağ bölgəsində aparılan quruculuq və bərpa işlərində iştirak edən işçilərin təchiz olunmalarını icra etməlidir. Bu əcnəbi işçilər Azərbaycanda fəaliyyət göstərdikləri üçün qeyri-rezidet qismində çıxış edən şəxsə ödənilməsi nəzərdə tutulan bütün məbləğlər üzrə əlavə dəyər vergisinin hesablanması vacibdir.

Vergi Məcəlləsinin 174-cü maddəsi verginin tətbiq olunduğu dövriyyədən dövlət büdcəsinə köçürülməli olan əlavə dəyər vergisinə həsr olunub.

Bu maddə ilə bağlı aydınlıq gətirəcəyimiz ilk məsələ hansı hallarda kənd təsərrüfatı sektorunda istehsal edilmiş məhsullarla bağlı əlavə dəyər vergisinin ticarət əlavəsindən deyil, ümumi dövriyyədən hesablanacağı ilə bağlıdır.

İlk əvvəl yada sala qki, Vergi Məcəlləsinə 174.4.-cü maddə əlavə edilmişdir. Həmin maddəyə uyğun olaraq, 1 yanvar 2022-ci il tarixdən başlayaraq istər Azərbaycanın, istərsə də xarici ölkələrin kənd təsərrüfatı sektorunda istehsal olunmuş məhsulların əldə edilməsi elektron qaimə-fakturalar, idxal gömrük bəyannamələri, eləcə də həmin bəyannamələr üzrə kəsilən hesab-fakturalar (invoyslar), və elektron alış aktları ilə, topdan və pərakəndə formada realizasiyası uyğun olaraq elektron qaimə-faktura, eləcə də kassa aparatının çekləri vasitəsilə rəsmiləşdirildiyi təqdirdə sözügedən həmin maddədə göstərilmiş gündən etibarən üç il ərzində əlavə dəyər vergisi ticarət əlavəsindən hesablanmaqla tutulmalıdır. Kənd təsərrüfatı sektorunda istehsal edilmiş məhsulların əldə olunması eletkron qaimə-fakturalar, idxal gömrük bəyannamələri, eləcə də həmin bəyannamələrlə əlaqəli hesab-fakturalar (invoyslar) və elektron alış aktları ilə, topdan və pərakəndə realizasiyası uyğun olaraq elektron qaimə-faktura və kassa aparatlarının çekləri vasitəsilə rəsmiləşdirildiyi təqdirdə əlavə dəyər vergisi ümumi dövriyyə məbləğindən husablanmaqla tutulmalıdır.

Vergi Məcəlləsinin haqqında danışçdığımız maddənin mətində üç mühüm məsələnin yer aldığını qeyd etməliyik.

Əvvəla, Vergi Məcəlləsinin bu maddəsində 1 yanvar 2022-ci il tarixindən başlayaraq kənd təsərrüfatı sektorunda istehsal olunaraq və alınan məhsullara görə sənədləşmə işlərinin tələb olunan səviyyədə yerinə yetirilməsinin vacibliyi önə çəkilir. Burada qeyd etmək yerinə düşərdi ki, Məcəllədə uyğun dəyişikliklərin aparılmasını nəzərdə tutan Qanundakı keçid müddəasında göstərilir ki, əlavə dəyər vergisinin məqsədlərinə uyğun olaraq qeydiyyatda duran, istər Azərbaycanda, istəırsə də xarici ölkələrdə kənd təsərrüfatı sektorunda istehsal olunmuş məhsulların topdan və pərakəndə realizasiyasını yerinə yetirən şəxslər tərəfindən 1 yanvar 2022-ci il tarixdən başlayaraq əlavə dəyər vergisi ödənilmək şərti ilə alınan və uyğun əvəzləşdirmə əldə edilmiş sərəncamlarında olan kənd təsərrüfatı məhsulların sonrada realizasiyası prosesində əlavə dəyər vergisi bu məhsulların tam realizasiyası

dəyərindən hesablanmalıdır.

İkinci mühün məsələ isə bundan ibarətdir ki, 1 yanvar 2022-ci il tarixdən etibarən kənd təsərrüfatı sektorunda istehsal olunan məhsullarla bağlı aşağıda qeyd edilmiş sənədlərdən ən azı birinin olmadığı təqdirdə əlavə dəyər vergisi ticarəti əlavəsinə deyil, ümumi dövriyyəyə tətbiq edilərək hesablanmalıdır:

- elektron qaimə-faktura (sahibkarlıq subyektlərindən alındığı təqdirdə) əsasında;
- idxal əməliyyatı ilə bağlı gömrük bəyannaməsi və həmin bəyannamə ilə əlaqəli hesab-faktura (invoys) (idxal əməliyyatı yerinə yetirildiyi təqdirdə) əsasında;
- elektron alış aktı əsasında.

İndi isə müvafiq misalı nəzərdən keçirək. Fərz edək ki, vergi əməkdaşları tərəfindən vergi nəzarət tədbiri həyata keçirildiyi zaman aydın olmuşdur ki, 1 yanvar 2022-ci il tarixdən başlayaraq əldə olunmuş 40.000AZN miqdarında kənd təsərrüfatı sektorunda istehsal edilmiş məhsulların təqdim olunması zamanı əlavə dəyər vergisi ticarət əlavəsinə tətbiq olunaraq hesablanmışdır. Sahibkarlıq subyekti məhsulların əldə olunmasını təqdiqləyən alış aktlarını verib, amma bu sənədlərin tərtib edilməsindən 2 aydan da çox vaxt keçmişdir. Bununla rəğmən, elektron alış aktının tərtin edilməsi təmin olunmamışdır. Belə olan təqdirdə vergi əməkdaşları əlavə dəyər vergisinin tutulmasını ticarət əlavəsindən deyil, ümumi qaydalara uyğun olaraq hesablamaqla həyata keçirə bilərlər.

Sonuncu məqam isə bundan ibarətdir ki, kənd təsərrüfatı sektorunda istehsal olunan məhsulların realizasiyası da vergi qanunvericiliyinə əsasən yerinə yetirilməlidir. Yəni, sahibkarlıq subyektini məhsulları təqdim edəkrən, onlar adları aşağıda göstərilmiş sənədlər vasitəsilə rəsmiyyətə salınmalıdır:

- elektron qaimə faktura (ticarət topdansatış formasında aparıldığı təqdirdə) əsasənda;
- nəzarət kassa-aparatından çıxan çek (ticarət pərakəndə formasında həyata keçirildiyi təqdirdə) əsasən.

İndi isə yuxarıda dediklərimizlə əlaqədar yenidən bir praktiki misala müraciət edək.

Belə ki, qol vargi orqanlarının əməkdaşları vergi nəzarət tədbirləri

həyata keçirərkən sahibkarlıq subyektinin sərəncamında 1 yanvar 2022-ci il tarixdən sonra alınmış 80.000AZN-lik kənd təsərrüfatı sektorunda istehsal edilmiş məhsulları ilə bağlı 20.000AZN məbləğində məhsul qalığının mövcudluğunu üzə çıxarıblar. Sözügedən bu məhsulların 35.000AZN-lik hissəsinin realizasiyası prosesində elektron qaimə-faktura və (yaxud) nəzarət kassa-aparatının çeki verilib və əlavə dəyər vegisinin ticarət əlavəsindən tutularaq hesablanması yerinə yetirilib. Lakin 25.000AZN məbləğində kənd təsərrüfatı sektorunda istehsal olunmuş məhsulların realizasiyası rəsmi sənədlərdə öz əksini tapmayıb. Belə olan təqdirdə vergi orqanlarının əməkdaşları bu məhsulların realizasiyası prosesində əlavə dəyər vergisinin ticarət əlavəsindən deyil, ümumi qaydada tutularaq hesablanmasını təmin edəcəklər.

Vergi Məcəlləsinin 175-ci maddəsi dövlət büdcəsinə həyata keçirilən ödəmələrin müəyyənləşdirildiyi zaman əvəzləşdirilən əlavə dəyər vergisinə həsr olunmuşdur.

Bu istiqamətdə aydınlıq gətirəcəyimiz ilk sual əlavə dəyər vergisinin əvəzləşdirilməsi ilə əlaqədar ödəniş qaydasının necə konkretləşdirilməsi ilə bağlıdır.

Əvvəla, nəzərə almaq lazımdır ki, Vergi Məcəlləsində yer alan 175.1-ci maddədə əlavə dəyər vergisinin əvəzləşdirilməsi ilə bağlı şərtlər müəyyən olunub. Bu maddədə göstərilir ki, əlavə dəyər vergisinin əvəzləşdirilməsinin həyata keçirilməsi məqsədilə aparılan hesablaşmalar prosesində aşağıda qeyd edilən 2 şərt mütləq şəkildə nəzərə alınmalıdır:

1. Məhsulların, yerinə yetirilən işlərin, göstərilən xidmətlərin əldə olunması zamanı ödənilən əlavə dəyər vergisinin məbləği, yerinə yetirilən əməliyyatı ifadə edən məbləğin dəyəri bankdakı hesaba ödənilməlidir. Bu isə o deməkdir ki, əlavə dəyər vergisinin ödəyicisi qismində uçotda olan şəs 118AZN miqdarında (əlavə dəyər vergisi də daxil olmaqla) məhsulun ödənişini apararsa, 100AZM məbləği mütləq şəkildə digər tərəfin bankdakı hesabına köçürülməlidir.

2. Əlavə dəyər vergisinin məbləği ƏDV üzrə depozit hesaba köçürülməlidir. Məsələn, sahibkarlıq subyekti 118AZN-lik (əlavə dəyər vergisi də daxil olmaqla) məhsulun 18AZN məbləğini əlavə dəyər vergisinin depozit hesabına köçürməlidir.

Məlum olduğu kimi, Vergi Məcəlləsində yer alan 175.1-ci maddədə

müvafiq dəyişikliklər aparılmışdır. Həmin dəyişikliklərdən sonra biz yeiliklərin yuxarıda göstərilmiş birinci halla bağlı olduğunu qeyd etməliyik. Yəni, dəyişikliklərə əsasən, əməliyyatların dəyəri alıcı tərəfin bank hesabından bu məhsulları, görülən işləri, göstərilən xidmətləri təqdim edən tərəfin bank hesabına köçürülməlidir. Maddənin mətnində aparılan dəəyişikliklər sırf redaktə xarakterə malik düzəlişlərdir, buna baxmayaraq, ödənişi yerinə yetirən tərəfin də bank hesabından istifadə olunmasında müəyyən konkretlik artıb.

Növbəti sualımız müvəqqəti idxal əməliyyatları yerinə yetirilməklə ölkə ərazisinə gətirilmiş məhsulların əlavə dəyər vergisinin əvəzləşdirilməsinin necə həyata keçirilməsi ilə bağlıdır.

Bununla əlaqədar qeyd etməliyik ki, Məcəllənin 175.10-cu maddəsində aparılmış dəyişikliklərdən sonra ikinci hissə əlavə olunmuşdur. Bu əlavəyə uyğun olaraq, müvəqqəti idxal formasında ölkə ərazisinə buraxılan, habelə müvəqqəti idxal xüsusi gömrük proseduru daxilində yerləşdirilən məhsullar sonradan dövriyyəyə daxil edilmək məqsədilə xüsusi buraxılış göbtük proseduru altında yerləşdirilərsə, o zaman idxal əməliyyatları ilə bağlı ödənişi aparılmış ƏDV məbləğləri məhsulların sərbəst dövriyyəyə buraxıldığı hesabat ayı ərzində əvəzləşdirilməlidir.

Bunula bağlı praktiki bir misala nəzər salaq.

Fərz edək ki, sahibkarlıq subyekti aprel 2022-ci ildə Azərbaycana buraxılmış 10.000AZN miqdarında müvəqqəti idxal xüsusi gömrük proseduru ilə yerləşdirilən məhsulları iyunda sərbəst dövriyyəyə buraxılması qərarına gəlib. Belə olan təqdirdə sahibkarlıq subyekti bu məhsullara görə əlavə dəyər vergisini apreldə deyil, iyunda əvəzləşdirməlidir.

İndi isə kənd təsərrüfatında istehsal edilmiş məhsullarla bağlı əvəzləşdirmənin necə aparılmasına aydınlıq gətirək.

Nəzərə almaq lazımdır ki, vergi Məcəlləsində yer alan 175.12-ci maddəsində müvafiq dəyişikliklər aparılmışdır. Həmin dəyişikliklərə uyğun olaraq, kənd təsərrüfatında istehsal olunmuş məhsulların topdan və pərakəndə formasında realizasiyasını həyata keçirən sahibkarlıq subyektləri 1 yanvar 2022-ci ildən etibarən əlavə olunmuş kənd təsərrüfatında istehsal edilmiş məhsullar üzrə üç il ərzində ödənişi aparılmış əlavə dəyər vergisinin məbləğlərini əvəzləşdirə

bilməyəcəklər.

Kənd təsərrüfatında istehsal olunan məhsulların əvəzləşdirilməsi ilə əlaqədar iki fərqli vəziyyəti nəzərdən keçirək:

1. idxal əməliyyatı yerinə yetirilərkən ödənilmiş əlavə dəyər vergisinin əvəzləşdirilməsi;

2. Azərbaycan ərazisində ödənilmiş əlavə dəyər vergisinin əvəzləşdirilməsi.

Sahibkarlıq subyektlərinin müəyyən bir qisminin narazılığına gətirib çıxarmış hal idxal əməliyyatları yerinə yetirilərkən ödənilməsi həyata keçirilən əlavə dəyər vergisinin əvəzləşdirilməsi ilə bağlıdır. Belə ki, sahibkarlıq subyektlərinin bir hissəsi düşünür ki, gömrük əməkdaşları bir çox hallarda əlavə dəyər vergisini məhsulların invoysda göstərilmiş dəyərindən deyil, statistik dəyərindən hesablamağa üstsnlük verirlər. Bu da sözügedən məbləğlərin əvəzləşdirilməklə məhsulların üzərinə əlavə olunması idxal edilən və kənd təsərrüfatında istehsal olunmuş məhsulların qiymətlərində kəskin artımların baş verməsnə gətirib çıxaracaq. Vergi orqanlarında çalışan əməkdaşlar və bu sahənin mütəxəssisləri isə belə düşünürlər ki, ödənişi aparılan əlavə dəyər vergisinin əvəzləşdirilməsi həyata keçirilmədən məhsulların üzərinə gəlməsi və bundan sonra ƏDV-nin ticarət əlavəsindən tutulması hallarında sahibkarlıq subyekti maliyyə itkiləri ilə üz-üzə qalmayacaq. Yəni, vergi orqanları hesab edirlər ki, istər Azərbaycanda, istərsə də xarici ölkələrdə kənd təsərrüfatında istehsal olunmuş məhsulların topdan və pərakəndə formasında realizasiyasının ticarət əlavəsindən tutulması hallarında Azərbaycanın daxilində istehsal olunan kənd təsərrüfatı malların münasibətdə qiymətlərin aşağı salınması müşahidə olunacaq.

Bununla bərabər, əlavə dəyər vergisinin ticarət əlavəsindən tutulmasının idxal yolu ilə Azərbaycana gətirilən və müxtəlif xarici ölkələrin kənd təsərrüfatında istehsal olunan məhsullarının maya dəyərinə təsir etsə belə, qiymət artımının baş verməsindən yayınmaq mümkün olacaqdır. Məsələn, sözügedən məhsulların idxalı və realizasiyası prosesində 15% miqdarında vergi yükü məhsulun maya dəyərinə münasibətdə olduğu səviyyədə qalmaqda davam edəcək. Bu isə o deməkdir ki, məsələn, 100AZN-lik məhsulun idxalı və 20AZN-lik ticarət əlavəsinin tətbiqinə gedilsə, bu halda məhsulların qiymətlərində hər iki halda, yəni köhnə qaydada və yenicə qüvvəyə minmiş qaydalarda

141,6AZN təşkil edəcək.

Bəs Azərbaycan ərazisində ödənilmiş əlavə dəyər vergisinin məbləğlərinin əvəzləşdirilməsi ilə bağlı tətbiq olunan məhdudiyyətlər mahiyyəti nədən ibarətdir? Vergi Məcəlləsində əlavə olunmuş bir sıra məddələrdən aydın olur ki, kənd təsərrüfatında fəaliyyət göstərən istehsalçılarla bağlı yerinə yetirilən bəzi əməliyyatların əlavə dəyər vergisindən azad edilməsi nəzərdə tutulur. Bu kimi əməliyyatlar kənd təsərrüfatında məhsulların istehsalı ilə məşğul olan sahibkarlıq subyektlərinə aqrotexniki servis xidmətlərinin təqdim olunmasını (vergi Məcəlləsinin 164.1.34-2-ci maddəsi) və kənd təsərrüfatında istismar olunan texnikaların mülkiyyət hüququnun keçməməsi çərçivəsində kənd təsərrüfatı istehsalçılarına lizinq yaud icarəyə verilməsinə (Vergi Məcəlləsinin 164.1.34-1-ci maddəsi) yönəlib.

İndi də növbəti misalımızı dəyərləndirək.

Fərz edək ki, topdatsatış formasında ticarətlə məşğul olan sahibkarlıq subyekti tərəfindən 2022-ci ilin mart ayı ərzində realizasiya etdiyi məhsulların ticarət əlavəsindən tutulan ƏDV məbləği 3.000AZN təşkil etmişdir. Sahibkarlıq subyektinə onun həyata keçirdiyi fəaliyyətlə bağlı təqdim olunan mühasibatlıq və kommunal haqlarına görə ödəmələr üzrə əlavə dəyər vergisinin miqdarı isə 400AZN olmuşdur. Bununla yanaşı, sahibkarlıq subyektinin əldə etdiyi və kənd təsərrüfatında istehsal olunmuç məhsullar müqabilində ödəniş etdiyi əlavə dəyər vergisinin məbləği 1.800AZN olmuşdur. Vergi Məcəlləsindəki 175.12-ci maddədə izah olunur ki, kənd təsərrüfatında istehsal edilmiş məhsullar üzrə üç il ərzində ödənilmiş əlavə dəyər vergisi məbləğlərinin əvəzləşdirilməsi aparılmır. Odur ki, sahibkarlıq subyekti tərəfindən mart ayı üzrə əvəzləşdiurilmiş əlavə dəyər vergisinin məbləği 400Azn təşkil edəcək.

Vergi Məcəlləsinin 179-cu maddəsi əvəzləşdirilməsi aparılan vergi məbləğlərinin hesablanmış vergi məbləğlərindən çox olduğu zaman büdcə münasibətlərinə həsr edilmişdir.

Bu maddə ilə bağlı əsas sual əlavə dəyər vergisinin qaytarılması ilə əlaqədar hansı texniki düzəlişlərin aparılmasının lazım olduğu ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, Vergi Məcəlləsindəki 179.2-ci maddədə müvafiq dəyişikliklər aparılmışdır. Həmin dəyişikliklərdən sonra

"elektron formada" sözbirləşməsi maddənin mətnindən çıxarılıb. Artıq maddədən aydın olur ki, başqa sahibkarlıq subyektləri üçün - əvəzləşdirilməsi həyata keçirilən vergi məbləğlərinin hesabat dövrü müddətində hesablanmış vergi məbləğlərindən çox olan hissəsi sahibkarlıq subyektinin vergi və gömrük orqanlarının əməkdaşlarına yazılı ərizələrini təqdim etdikləri gündən dörd aydan çox olmamaq şərtilə qaytarılması təmin edilir.

Qeyd olunmuş dəyişikliklərə qədər maddənin tələblərinə uyğun olaraq təqdim edilən ərizənin elektron formada tərtib edilməsi göstərilmişdir. Aparılmış dəyişikliklərdən sonra isə istənilən formalarda təqdim olunan ərizələrin tələb olunan formaya uyğunlaşdırılması həyata keçirilmişdir.

4.4. AKSİZLƏR

Vergi Məcəlləsinin 182-ci maddəsi aksiz anlayışına həsr olunub.

Bu maddədən aydın olur ki, aksiz – aksiz markaları ilə maralanmalı olan məhsulların satış qiymətinə əlavə edilən vergi növüdür. Ölkə ərazisində buraxılan, və ya idxal əməliyyatları yerinə yetirilməklə Azərbaycana gətirilən aksizli məhsullardan, vergilərdən azad olunan məhsullar istisna edilmək şərtilə, aksiz vergisi tutulmalıdır.

Vergi Məcəlləsində yer alan 183-ci maddə isə aksiz vergisi ödəyicilərinin kim olduğuna aydınlıq gətirir.

Məcəllənin 183.1-ci maddəsindən aydın olur ki, başqa halların nəzərdə tutulmadığı hallarda ölkə ərazisində ksiz markaları ilə markalanmalı olan məhsulların buraxılışı yaxud idxal edilməsi ilə məşğul olan bütün sahibkarlıq subyektləri yaxud fiziki şəxslər, eləcə də ölkəmizin hüdudlarından kənarda birbaşa özü yaxud podratçının köməyi ilə aksiz markaları ilə markalanmalı olan məhsulların istehsalını həyata keçirən və istehsal sahəsi yerləşdiyi yerdə vergi ödəyicisi qismində uçota durmayan Azərbaycanın rezidentləri aksiz vergisinin ödəyiciləri hesab olunur.

Vergi Məcəlləsinin 183.2-ci maddəsinə əsasən, sifariş verdiyi tərəfin təqdim etdiyi xammal materialından ölkə ərazisində məhsul istehsal olunduğu təqdirdə həmin məhsulun istehsalı ilə məşğul olan sahibkarlıq subyekti yaxud podratçı təşkilat aksiz vergisinin ödəyicisi

hesab edilməlidir.

Məcəllənin 183.3-cü maddəsində deyilir ki, aksiz markaları ilə markalanmalı olan məhsulları istehsal edən sahibkarlıq subyekti və bu məhsulların sifarişçisi qarşılıqlı surətdə asılı rezident şəxslər olduğu təqdirdə məhsulun sahibi yaxud sifarişçisi aksiz vergisinin ödəyicisi qismində çıxış edir.

Vergi Məcəlləsində yer alan 184-cü maddə isə vergitutma obyektinin nəz olduğuna aydınlıq gətirir.

Maddədə qeyd olunur ki, Vergitutma obyektləri kimi aşağıda göstərilən əməliyyatlar hesab olunur:

- Ölkə ərazisində istehsal olunan aksiz markaları ilə markalanmalı olan məsulların buraxıldığı binanın hüdudlarından kənara çıxarılması;
- idxal edilən məhsullarla bağlı – respublikanın Gömrük Məcəlləsinə əsasən aksizli markalarla markalanmalı olan məhsulların gömrük orqanlarının nəzarətindən çıxması.

Haqqında danışdığımız maddənin məqsədləri üçün istehsal həyata keçirilən binalara istehsal sahələrinin yerləşdiyi ərazilərdə mövcud olan anbar, köməkçi anbar sahələri, eləcə də digər bənzər binalar aid olunur.

Məcəllənin 185-ci maddəsində vergi tutulan əməliyyatın məbləğinə həsr olunub.

Yəni, respublikamızın ərazisində istehsal edilən neft məhsulların ~~və tütün məmulatları üçün~~ – vergi tutulan əməliyyatın miqdarı sahibkarlıq subyektinin müştərilərdən yaxud bu və ya digər başqa şəxslərdən, həmçinin barter əməliyyatlarına uyğun, əldə etdiyi yaxud əldə etməli olduğu haqqın topdansatış bazar qiymətindən kiçik olmayan məbləğ hesab olunur (söhbət aksiz vergisi, yol vergisi, eləcə də əlavə dəyər vergisi çıxılandan sonra qalan məbləğdən gedir). Azərbaycanda buraxılan və aksiz markaları ilə markalanmalı olan məhsullar üçün verginin tətbiq olunduğu əməliyyat qismində istehsal edilən məhsulların miqdarı götürülür.

Sözügedən Məcəllənin 185.2-ci maddəsindən aydın olur ki, idxal məhsulları üçün verginin tətbiq olunduğu əməliyyatın miqdarı Gömrük Məcəlləsinə əsasən müəyyənləşdirilən, ancaq topdansatış bazar qiymətlərindən az olmayan məhsulların gömrük dəyəridir. Burada idxal məhsulları dedikdə avtobusların, minik avtomobillərin, istirahət yaxud idman yaxtalarının, habelə buna bənzər məqsədlər üçün nəzərdə

tutulmuş başqa üzmə vasitələrin, eləcə də platinin, qızılın, bu qiymətli metallardan düzəldilmiş zərgərlik və bu kimi digər məişət məmulatların, emal edilmiş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazların istisna edilməsi nəzərdə tutulur. Həmçinin gömrük dəyəri aksiz vergisi, yol vergisi və əlavə dəyər vergisi çıxılandan sonra qalan dəyər hesab olunur.

Xarici ölkələrdən Azərbaycana gətirilən minik avtomobillər, avtobus nəqliyyat vasitələri, istirahət yaxud idman üçün nəzərdə tutulmuş yaxtalar və buna bənzər məqsədlərə xidmət edən başqa üzmə vasitələri üçün verginin tətbiq olunduğu əməliyyat qismində onların mühərriklərinin həcmi çıxış edir.

Xarici ölkələrdən Azərbaycana gətirilən platin üçün verginin tətbiq olunduğu əməliyyat həmin qiymətli metallın hər qramı, qızıla, bu qiymətli metaldan düzəldilmiş zərgərlik və bu kimi digər məişət məmulatlar üçün - qızılın min çəki vahidində yer aldığı miqdarı, emal edilmiş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazlar üçün – almazların bir karatı.

İndi isə Məcəllənin 186-cı maddəsi ilə tanış olaq. Burada verginin tətbiq olunduğu əməliyyatın vaxtından bəhs olunur.

Maddə 186.1-dən oxuyuruq ki, ölkə ərazisində buraxılan məhsullara görə - məhsulların istehsal sahələrinin yerləşdiyi binaların hüdudlarından kənara çıxarıldığı vaxt verginin tətbiq olunduğu əməliyyatın vaxtı hesab edilir.

Maddə 186.2-dən isə öyrənirik ki, məhsulların idxal əməliyyatları üçün – Gömrük Məcəlləsinə əsasən aksiz markaları ilə markalanmalı olan məhsulların gömrük orqanlarının nəzarətindən çıxdığı vaxt verginin tətbiq olunduğu əməliyyatın vaxtı hesab edilir.

Maddə 186-1 isə aksiz hesablanan dövriyyənin dəqiqləşdirilməsinə həsr olunub.

166-1.1-ci maddədən aydın olur ki, aksiz markaları ilə markalanmalı olan məhsulların istehsalçıları tərəfindən məhsulların istehsalı həyata keçirildiyi binaların hüdudlarından kənara çıxarılması ilə bağlı verginin hesablanması aparılmayıbsa, bu məhsulların xarab olması və ya yararlılıq müddətinin sona çatması, yaxud da hər hansı başqa səbəblər üzündən geri qaytarılması baş verərsə, hesablanmış aksiz məhsullarının qaytarıldığı hesabat dövründə azaldılır.

Məcəllənin 186-1.2-ci maddəsində göstərilir ki, aksiz markaları ilə markalanmalı olanməhsulların istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri tərəfindən məhsulların istehsal sahələrinin yerləşdiyi binaların hüdudlarından kənara həmin sahibkarlıq subyektlərin sərəncamında yaxud mülkiyyətində olan obyektlərə çıxarılmasından sonra sözügedən məhsulların xarab olması və ya yararlılıq müddətinin sona çatması səbəbilə geri qaytarılması baş verərsə, sahibkarlıq subyekti bu məhsulların aktlaşdırılması və hesablanması aparılmış vergi məbləğinin aşağı salınması məqsədilə vergi əməkdaşlarına müraciət etməlidir. Həmin müraciətdən beş iş günü ərzində vergi orqanlarının məsul şəxslərinin iştirakı ilə bu məhsulların aktlaşdırılması həyata keçirilir.

Maddə 186-1.3-də qeyd olunur ki, xarab olmuş və ya yararlılıq müddəti sona çatmış məhsullar üzrə aksiz vergisinin aşağı salınması uyğun aktın tərtib olunduğu hesabat dövründə yerinə yetirilir. Vergi hesabatı təqdim olunarkən hazırlanmış akt vergi əməkdaşlarına təqdim edilməlidir. Xarab olmuş və ya yararlılıq müddəti sona çatmış məhsul məhv edildiyi zaman bu məhsulun buraxılışı prosesində əvəzləşdirilməsi həyata keçirilmiş aksiz vergisinin dövlət büdcəsinə köçürülməsi təmin olunur.

Vergi Məcəlləsinin 187-ci maddəsi aksiz markaları ilə markalanmalı olan məhsulların ixrac əməliyyatlarının vergiyə cəlb edilməsini tənzimləyir. Burada göstərilir ki, belə məhsullar ixrac olunduğu zaman onlar "0" (sıfır) dərəcəsi ilə vergiyə cəlb edilir.

Məcəllənin 188-ci maddəsi isə azadolmalara həsr edilmişdir.

Bu maddədən öyrənirik ki, aksiz vergisindən aşağıdakı məhsulların azad olunması nəzərdə tutulmuşdur:

- fiziki şəxslərin fərdi istehlakı üçün nəzərdə tutulmuş alkoqollu içkilərin 1,5 litri, 200 ədəd siqaret, 20 qram qızıl, bu qiymətli metaldan düzəldilmiş zərgərlik və başqa məişət məmulatları, emal edilmiş, çeşidlənməsi həyata keçirilmiş, çərçivəyə salınmış və bərkidilmiş 0,5 karat almaz ölkəmizə gətirilməsi, eləcə də Azərbaycanın ərazisinə minik avtonəqliyyat vasitələri ilə gəlmiş şəxslər üçün bu minik avtonəqliyyat vasitəsinin texniki pasportu ilə nəzərdə tutulan onun bakındakı yanacaq miqdarı;
- ölkəmizin ərazisinə daxil olan və tranzik olaraq digər ölkələrə bizim

ərazidən nəql edilən məhsullar;

- Gömrük Məcəlləsində yer alan 192-ci və 194-cü maddələrdə nəzərdə tutulan hallarda məhsulların azərbaycanın ərazisinə müvəqqəti idxal əməliyyatları ilə gətirilməsi;
- Azərbaycanın Mərkəzi Bankına məxsus aktivlərdə yerləşdirilməsi məqsədilə ölkəmizə gətirilən platin, qızıl, bu qiymətli metallardan düzəldilmiş zərgərlik və bu kimi digər məişət məmulatları, emal edilmiş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazlar, Azərbaycanın Dövlət Neft Fondunun aktivləri qismində yerləşdirilməsi üçün nəzərdə tutulan və idxal vasitəsilə ölkəyə gətirilən qızıl;
- Məcəllənin 188.1.1-ci maddəsində yer alan müddəalar nəzərə alınmaqla, idxal vasitəsilə ölkəmizə gətirilən platin, qızıl, bu qiymətli metallardan düzəldilmiş zərgərlik və bu kimi digər məişət məmulatlar, emal edilmiş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazlar – 1 yanvar 2021-ci ildən etibrən üç il ərzində.

Vergi Məcəlləsinin 188.2-ci maddəsindən oxuyuruq ki, Məcəllənin 188.1-ci maddəsində qeyd olunmuş aksiz vergisindən azadolmaların tətbiqi yalnız o halda mümkün ola bilər ki, gömrük rüsumlarından azadolma şərtlərinə riayət olunsun. Gömrük rüsumunun tətbiq edilməsi üçün idxal, rüsumun qaytarılması rejiminin təsiri altına düşməsi yaxud azadolma şərtləri pozulduğuna görə gömrük rüsumunun ödənişinin aparılması tələb olunursa, bu rejim aksiz vergisinin tutulmasına da tətbiq edilməlidir.

Vergi Məcəlləsinin 189-cu maddəsi istehsal ehtiyacları üçün aksiz vergilərin əvəzləşdirilməsini tənzimləyir.

Maddə 189.1-dən aydın olur ki, aksiz markaları ilə markalanmalı olan məhsulların, xammal və materialların alışını həyata keçirən, habelə sözügedən məhsulları verginin tətbiq olunduğu digər aksizli məhsulların istehsal edilməsi məqsədilə tətbiq olunan şəxslər xammal və materialları əldə edərkən ödənişini aparmış aksiz vergisinin məbləğini əvəzləşdirmək yaxud geri almq hüququndan istifadə edə bilər.

Maddə 189.2 ilə nəzərdə tutulur ki, bu maddəyə uyğun olaraq aksiz vergisinin məbləği ancaq xammal və materialların buraxılışı ilə məşğul olan sahibkarlıq subyekti tərəfindən aksiz vergisinin ödənilməsini təsdiqləyən elektron qaimə-faktura, xammal və materiallar ölkəyə

gətirildiyi təqdirdə isə - uyğun sənədlər vergi əməkdaşlarına təqdim olunduğu zaman əvəzləşdirilir yaxud geri qaytarılır. Sənədlər vergi əməkdaşlarına təqdim olunduqdan sonra 45 gün müddətində tutulması təmin edilmiş aksizlərin məbləği sahibkarlıq subyektinə qaytarılır.

Vergi Məcəlləsinin 190-cı maddəsi aksiz məhsullarının siyahısına və vergi dərəcələrinə həsr olunmuşdur.

Maddəyə göstərilir ki, aksiz markaları ilə markalanmalı olan məhsullara aşağıdakılar aid edilməlidir:

- *içməli spirt, pivə, eləcə də bütün növ spirtki içkilər;*
- *tütündən hazırlanan məhsullar;*
- *neftdən hazırlanan məhsullar;*
- *minik avtonəqliyyat vasitələri (xüsusi nişanlarla və avadanlıqla təchiz edilən və xüsusi təyinata malik avtomobil nəqliyyatı vasitələrindən başqa);*
- *istirahət vaxtının keçirilməsi yaxud idmanla məşğul olmaq üçün nəzərdə tutulan yaxta, həmçinin bu kimi istiqamətdə istifadə edilən başqa üzmə vasitələri;*
- *ölkəmizə gətirilən platin, qızıl, bu medaldan düzəldilmiş zərgərlik və başqa məişət məmulatları, emal edilmiş, çeşidlənməsi aparılmış, çərçivəyə salınmış və bərkidilmiş almazlar;*
- *ölkəmizə gətirilən xəz-dəri məmulatları;*
- *energetik içkilər;*
- *istehsalda istifadə olunmaq üçün nəzərdə tutulan tütün növlərindən başqa çəkmək üçün tütün növləri, "homogenləşdirilmiş" yaxud "bərpa olunmuş" tütün növləri, çeynəmək yaxud buruna çəkmək üçün nəzərdə tutulan tütün növləri, eləcə də qəlyanlar üçün tütün növləri və tütün əvəzləyiciləri;*
- *qızdırılandan sonra istehlak olunan (buxar) tütünlər və tütün məhsulları;*
- *bir dəfə istifadə olunmaq üçün nəzərdə tutulan elektron siqaretlər, qəlyanlar və onları əvəz edən məmulatlar.*

Vergi Məcəlləsinin 190.2-ci maddəsindən aydın olur ki, ölkəmizə gətirilən və aksiz markaları ilə markalanmalı olan məhsullara, yəni istirahət vaxtının keçirilməsi yaxud idmanla məşğul olmaq üçün nəzərdə tutulan yaxta, həmçinin bu kimi istiqamətdə istifadə edilən başqa üzmə vasitələri, eləcə də platin, qızıl, bu medaldan düzəldilmiş zərgərlik və

başqa məişət məmulatları, emal edilmiş, çeşidlənməsi aparılmış, çərçivəyə salınmış və bərkidilmiş almazlar aksiz vergisinin dərəcələri səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycanın Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilir.

Maddə 190.3-ə əsasən, ölkəmizdə buraxılan içməli spirt növlərindən, pivə növlərindən, spirtli içkilər növlərindən, tütündən hazırlanmış məhsullardan, energetik içkilərdən, istehsal məqsədli tütün növlərindən savayı bütün digər çərkməli tütün növlərinə, "homogenləşdirilmiş" yaxud "bərpa olunmuş" tütün növlərinə, çeynəmək yaxud buruna çəkmək üçün nəzərdə tutulan tütün növlərinə, qəlyanlar üçün nəzərdə tutulan tütün növlərinə və tütünü əvəzləyən maddələrə, qızdırılmadan sonra istehlak olunan (buxar) tütünün növlərinə və tütündən hazırlanmış məhsullara, bir dəfə istifadə edilən elektron siqaretlər, qəlyanlar və onlar əvəz edən məmulatlara, eləcə də elektron siqaretlər üçün nəzərdə tutulmuş mayelərə aksiz vergisinin dərəcələrinin tətbiqi həyata keçirilir.

190.3.-1ci maddədən öyrənirik ki, içməli spirtin növlərinin, o cümlədən 80%-dən az olmamaq şərtilə daxildə spirt yer alan denaturalizasiya edilmiş etil spirtinin, habelə 90%-dən az olmaq şərtilə daxildə spirt yer alan denaturalizasiya edilmiş etil spirtinin hər litri üçün 4,0AZN məbləğində aksiz vergisi tətbiq olunur.

190.3.2-ci maddəsinin tələbi bundan ibarətdir ki, araq (vodka), tündləşdirilmiş içki növlərinin və tündləşdirilmiş içki materiallarının, likör və likörun hazırlanmasında istifadə edilən məhsulların hər litri üçün 4,0AZN məbləğində aksiz vergisi tətbiq olunur.

Daha sonra konyakdan və konyakın hazırlanmasında istifadə edilən materiallardan hər litrinə görə 4,0AZN məbləğində aksiz vergisi tutulur. Şampan şərablarına gəldikdə isə, onların hər litri üçün 2,6AZN məbləğində aksiz vergisi nəzərdə tutulmuşdur. Şərab və şərabın hazırlanmasında istifadə edilən materiallardan hər litrinə görə 0,2AZN məbləğində aksiz vergisi tutulur. Həmçinin, tərkibində alkoqol olmayan pivələrdən başqa pivənin müxtəlif növləri və tərkibində pivə olan başqa içkilər üçün hər litrinə görə 0,4AZN məbləğində aksiz vergisinən tətbiqi nəzərdə tutulmuşdur. Siqaraların (nazik siqaraların) hər 1000 ədədinə 43,0AZN-lik aksiz vergisi aid edilir. Tütün materialından hazırlanmış siqaretlərin və tütün əvəzləyicilərin aksiz vergisinə cəlb edilməsi hər 1000 ədədi üçün 38,5AZN-lik dərəcəsinə əsasən aparılır. Energetik

içkilərin hər litrinə 3,1AZN-lik aksiz vergisi tətbiq olunur. Siqaraların, eləcə də ucları kəsilən siqaraların aksiz vergisinə cəlb olunması hər bir ədədə görə 1,0AZN-lik məbləğlə həyata keçirilir. Elektron siqaretlərin istifadəsi üçün nəzərdə tutulmuş mayelərin aksiz vergisinin məbləği hər bir litri üçün 100,0AZN təşki edir. Sözügedən maddənin mətnində nəzərdə tutulmamış tündləşdirilmiş alkoqollu içkilərin, yəni tərkibində spirtin həcmi 9%-dən çox olmayan alkoqollu içkilərin hər litri üçün 0,4AZN ksiz vergisi nəzərdə tutulmuşdur.

Məcəllənin 190.3.14-cü maddəsindən ayın olur ki, qəlyanlar üçün istifadə edilən tütünlər, habelə tütün əvəzediciləri, istehsal təyinatlı tütün növləri istisna edilməklə çəkilməsi üçün nəzərdə tutulan başqa tütün növləri, "homogenləşdirilmiş" yaxud "bərpa olunmuş" tütün növləri, çeynənilməsi yaxud buruna çəkilməsi üçün nəzərdə tutulan tütün növləri üzrə hər kiloqramına görə 30,0AZN məbləğində aksiz vergisi tutulur.

190.3.15-ci madədə deyilir ki, qızdırılalaq istehlak olunan (buxar) tütünün növləri və tütündən hazırlanan məhsulların hər 1000 ədədinə 14,0AZN-lik aksiz vergisi şamil edilir.

Bununla yanaşı, bir dəfə istifadə olunan elektron siqaretlər, qəlyanlar və onların əvəzləyicilərinin hər biri üçün 0,25AZN məbləğində aksiz vergisi nəzərdə tutulmuşdur.

190.4-cü maddədə göstərilir ki, ölkəmizə gətirilən avtobus tipli nəqliyyat vasitələrinə, minik vatomaşınlara, istirahət vaxtının keçirilməsi yaxud idmanla məşğul olmaq üçün nəzərdə tutulan yaxtalara, həmçinin bu kimi istiqamətdə istifadə edilən başqa üzmə vasitələrinə, eləcə də platinə, qızıla, bu medaldan düzəldilmiş zərgərlik və başqa məişət məmulatlarına, emal edilmiş, çeşidlənməsi aparılmış, çərçivəyə salınmış və bərkidilmiş almazlara, xəzdən və dəridən hazırlanmış məhsullara aksiz dərəcələrinin tətbiqi aşaıda göstərilmiş qaydada həyata keçirilir.

190.4.1-ci maddə minik avtomaşınlara (Vergi Məcəlləsinin 190.4.1-1-cü madədə göstərilmiş bütün müddəalar nəzərə alınmaq şərtilə), istirahət vaxtının keçirilməsi yaxud idmanla məşğul olmaq üçün nəzərdə tutulan yaxta, həmçinin bu kimi istiqamətdə istifadə edilən başqa üzmə vasitələri ilə bağlı:

Verginin tətbiq olunduğu obyekt	**Aksiz vergisinin dərəcəsi**
Minik avtomaşınlar üzrə:	
mühərrikin həcmi 2.000 sm^3-ə qədər olduğu halda	mühərrikin həcminin hər 1 sm^3 üçün – 0,3AZN
mühərrikin həcmi 3.000 sm^3-ə qədər olduğu halda	600AZN + mühərrikin 2001-3000 sm^3 hissəsinə görə hər 1 sm^3 üçün – 5 AZN
mühərrikin həcmi 4.000 sm^3-ə qədər olduğu halda	5600AZN + mühərrikin həcmi 3001-4000 sm^3 hissəsinə görə hər 1 sm^3 üçün – 13 AZN
mühərrikin həcmi 5.000 sm^3- ə qədər olduğu halda	18600AZN + mühərrikin həcmi 4001-5000 sm^3 hissəsinə görə hər 1 sm^3 üçün – 35 AZN
mühərrikin həcmi 5.000 sm^3-dən çox olduğu halda	53600AZN + mühərrikin həcmi 5000 sm^3-dən artıq hissəsinə görə hər 1 sm^3 üçün – 70 AZN
İstirahət vaxtının keçirilməsi yaxud idmanla məşğul olmaq üçün nəzərdə tutulmuş yaxtalar, habelə bu məqsədlərə xidmət edən başqa üzmə vasitələri	Mühərrikin həcminin hər 1 sm^3 üçün – 6 AZN

Avtovuslar üçün isə aşağıdakı cədvəl rəhbər tutulur:

Verginin tətbiq olunduğu obyekt	**Aksiz vergisinin dərəcəsi**
Avtobuslara görə:	
mühərrikin həcmi 4.000 sm^3-ə qədər olduğu halda	mühərrikin həcminin hər 1 sm^3 üçün – 2AZN
mühərrikin həcmi 6.000 sm^3-ə qədər olduğu halda	1600AZN + mühərrikin 6001-8000 sm^3 hissəsinə görə hər 1 sm^3 üçün – 4 AZN
mühərrikin həcmi 8.000 sm^3-ə qədər olduğu halda	28000AZN + mühərrikin həcmi 6001-8000 sm^3 hissəsinə görə hər 1 sm^3 üçün – 6 AZN
mühərrikin həcmi 10.000 sm^3- ə qədər olduğu halda	4400AZN + mühərrikin həcmi 10000 sm^3 hissəsinə görə hər 1 sm^3 üçün – 10 AZN

Vergi Məcəlləsinin 190.4.1-2-ci maddəsində deyilir ki, ölkə ərazisinə gətirilən avtobus tipli nəqliyyat vasitələrinin istehsal tarixi bir ildən çox yaxud onların yürüş məsafəsi 100.000 km-dən çox olarsa, aksiz vergisi Məcəllədə yer alan 190.4.1-1-ci maddəsinə uyğun olaraq hesablanan məbləğə 1,5 əmsal tətbiq olunmaqla hesablanmalıdır.

190.4.1-3-cü maddəsindən aydın olur ki, əgər minik avtomaşınların mühərrikinin həcmi 3.000 sm^3-dən artıq, eləcə də

istehsal tarixi üç ildən çox olarsa, o zaman aksiz vergisinin ödənişi aşağıdakı cədvələ əsasən yerinə yetiriləcək:

Verginin tətbiq olunduğu obyekt	**Aksiz vergisinin dərəcəsi**
mühərrikin həcmi 4.000 sm^3-ə qədər olduğu halda	5600AZN + mühərrikin 3001-4000 sm^3 hissəsinə görə hər 1 sm^3 üçün – 15 AZN
mühərrikin həcmi 5.000 sm^3-ə qədər olduğu halda	20600AZN + mühərrikin 4001-5000 sm^3 hissəsinə görə hər 1 sm^3 üçün – 40 AZN
mühərrikin həcmi 5.000 sm^3-dən artıq olduğu halda	60600AZN + mühərrikin həcmi 5000 sm^3 hissəsinə görə hər 1 sm^3 üçün – 80 AZN

Vergi Məcəlləsinin 190.4.1-4-cü maddəsindən öyrənirik ki, ölkəmizə gətirilən minik avtonəqliyyat vasitələrinin istehsal tarixi yeddi ildən çox olduğu təqdirdə aksizlər həmin Məcəllədə yer alan 190.4.1 və 190.4.1-3-cü maddələrinə uyğun olaraq hesablanması aparılmış məbləğlərə benzinlə işləyən minik avtonəqliyyat vasitələri üzrə 1,2, dizel yanacağı ilə işləyən minik avtonəqliyyat vasitələri üzrə isə 1,5 artırıcı əmsal tətbiq olunmaq şərtilə hesablanmalıdır.

Qiymətli metallara gəlincə isə:

- ölkəmizə gətirilən platinin hər qramı üçün aksiz vergisi 4,0AZN;
- gətirilən qızılın, bu qiymətli metaldan düzəldilən zərgərlik və başqa məişət məmulatlarının qızılın min çəki vahidində yer alan miqdarına görə: qızılın min çəki vahidində yer alan miqdarı 375 olduğu təqdirdə, hər qarmı üçün 1,5AZN, qızılın min çəki vahidində yer alan miqdarı 500 olduğu təqdirdə, hər qramı üçün 2,0AZN, qızılın min çəki vahidində yer alan miqdarı 585 olduğu təqdirdə, hər qramı üçün 2,4AZN, qızılın min çəki vahidində yer alan miqdarı 750 olduğu təqdirdə, hər qramı üçün 3,0AZN, qızılın min çəki vahidində yer alan miqdarı 958 olduğu təqdirdə, hər qramı üçün 5,0AZN, qızılın min çəki vahidində yer alan miqdarı 999 olduğu təqdirdə, hər qramı üçün 6,0AZN aksiz vergisi tutulmalıdır.

Ölkəyə gətirilən, çeşidlənməsi həyata keçiriliş, çərçivəyə salınmış, habelə bərkidilmiş almazların bir karatına görə 400AZN olmaq şərtilə aşağıda göstərilən qaydalar üzrə aksiz vergisinin tutulması yerinə yetirilir:

- almazların 1 ədədinin miqdarı bir karatdan az olduğu təqdirdə, aksizlərin dərəcələri almazların faktiki miqdarına mütənasib olaraq aşağı salınır;
- almazların bir ədədinin miqdarı 1 karatdı üstələdiyi halda, aksiz vergisinin məgləği aksiz dərəcəsi üzrə almazların faktiki miqdarının hasilinə aşağıda göstərilmiş əmsalların tətbiq olunması nəzərdə tutulmuşdur:
- bir karatdan iki karata qədər olduğu təqdirdə - 2,0;
- iki karatdan üç karata qədər olduğu təqdirdə - 3,0;
- üç karatdan dörd karata qədər olduğu təqdirdə - 4,0;
- beş karatdan çox olduğu təqdirdə - 10,0.

Ölkəmizə gətirilən xəzdən yaxud dəridən hazırlanmış məmulatların topdansatış bazar qiymətlərindən az olmayan gömrük dəyərinin 10%-i aksiz vergisinə cəlb olunur.

Vergi Məcəlləsinin 190.5-ci maddəsində qeyd olunur ki, ölkəmizdə istehsal edilən neft məhsullarına, minik avtonəqliyyat vasitələrinə, eləcə də asudə vaxtının keçirilməsi yaxud idmanla məşğul olmaq üçün nəzərdə tutulan yaxtalar, habelə bunun üçün nəzərdə tutulmuş başqa üzmə vasitələri aksiz dərəcələri səlahiyyətli icra hakimiyyəti orqanının (rezpublikamızın Nazirlər Kabinetinin) müəyyənləşdirildiyi qaydada və miqdarda təyin olunur.

İndi isə Vergi Məcəlləsinin 191-ci maddəsinə nəzər salaq. Bu maddə aksiz vergilər ilə bağlı hesabat dövrünə və aksiz vergilərin ödənilməsinə aydınlıq gətirir.

Qeyd etmək lazımdır ki, 191.1-ci maddəyə uyğun olaraq, aksiz vergilərlə bağlı hesabat dövrü təqvim ayı götürülür. Aksiz markaları ilə markalanmalı olan məhsullar istehsal olunanda hər hesabat dövrü üzrə verginin tətbiq olunduğu əməliyyatlarla bağlı aksiz vergilərin hesabat dövründən sonra gələn ayın iyirmisindən gec olmamaq şərtilə ödənilməsi mütləqdir.

191.2-ci maddəsinin tələbləri bundan ibarətdir ki, sahibkarlıq subyektinin aksiz vergisinin ödənilməsi ilə bağlı hər hansı borclanmalar mövcud olarsa, onda bu borclar yarandığı tarixdən ödənildiyi günə qədər reallaşdırılan verginin tətbiq olunduğu əməliyyatlar üzrə aksiz vergiləri Vergi Məcəlləsinin 191.1-ci maddəsində yer alan tələblərə rəğmən, bu əməliyyatların yerinə yetirildiyi zaman ödənilməli və

sahibkarlıq subyektinin aksiz markaları ilə markalanmalı olan həmin məhsulları bu məhsullara görə aksiz vergisi ödənilənədək istehsal sahəsi yerləşdiyi binanın hüdudlarından kənara daşımaq hüququ olmur.

191.3-cü maddəsi aksiz markaları ilə markalanmalı olan məhsulların idxalı zamanı aksizin gömrük əməkdaşları tərəfindən gömrük rüsumlarının tutulması aparıldığı qaydada tutulmasının lazım olduğunu göstərir.

Aksiz vergilərin ödənilməsi dövlət büdcəsinə köçürülmə ilə aparılır.

191.5-ci maddə Vergi Məcəlləsi ilə müəyyənləşdirilən aksizli məhsullara şamil edilən aksiz dərəcələrinin "Tibbi sığorta haqqında" Qanunu ilə müəyyənləşdirilmiş hissəsinin icbari tibbi sığorta fonduna ödənilməsi tələbini ifadə edir.

Vergi Məcəlləsinin nəzərdən keçirilməli olan növbəti maddəsi 192-dir. Həmin maddə bəyannamələrin verilməsini tənzimləyir.

Belə ki, 192.1-ci maddəsində göstərilir ki, sahibkarlıq subyekti 191.1-ci maddəsində qeyd olunmuş hallarda səlahiyyətli icra hakimiyyəti orqanı (respublikamızın iqtisadiyyat nazirliyi) tərəfindən müəyyənləşdirilmiş qaydada vergilərin ödəişinin aparılması üçün nəzərdə tutulmuş zaman kəsiyində, hesabat dövründə verginin tətbiq olunduğu əməliyyatları qeyd etməklə bəyannamə təqdim etməlidir.

Vergi ödəyicisi qismində çıxış edən hüquqi şəxsin ləğvi proseduru həyata keçirildiyi halda, yaxud hüquqi şəxsi yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin fəaliyyəti dayandırıldığı təqdirdə aksiz vergisi ilə bağlı bəyannamə Vergi Məcəlləsinin nəzərdə tutduğu müddətdən gec olmayaraq otuz gün ərzində vergi əməkdaşlarına təqdim olunmalıdır. Belə olan halda vergi dövrü hesabat dövrü hesabat dövrü qismində çıxış edən zaman kəsiyinin başlanğıcından sahibkarlıq subyekti tərəfindən fəaliyyətin dayandırıldığı günə qədərki dövrü əhatə edir.

192.2-ci maddədə göstərilir ki, aksiz vergisinin ödəyicisi Vergi Məcəlləsinin 189-cu maddəsində qeyd edilmiş əvəzləşdirmə məqsədilə ərizəsini aksiz vergisinin ödənilməsi ilə bağlı təqdim olunan bəyannamə ilə birgə vergi əməkdaşlarına təqdim etməlidir.

Məcəllənin 193-cü maddəsi təkrar ixracın həyata keçirildiyi zaman aksiz vergisinin qaytarılmasını tənzimləyir.

Bununla əlaqədar 193.1-ci maddəsində qeyd olunur ki, sonrada təkrarən icracın həyata keçirilməsi məqsədilə ölkəmizə gətirilən məhsullar üçün aksiz vergisi məhsulların idxalı zamanı ödənilməlidir və bundan sonra təkrar ixrac əməliyyatının real həcminə uyğun məbləğdə aksiz vergisini almış gömrük orqanı tərəfindən 15 gün müddətində geri qaytarılmalıdır.

İndi isə Vergi Məcəlləsinin 194-cü maddəsi ilə tanış olaq. Həmin maddədə aksiz markaları ilə markalanmalı olan məhsullarla əlaqədar aparılan vergi nəzarətindən danışılır.

Maddə 194.1-də qeyd olunur ki, ölkəmizdə istehsal edilmiş və ya Azərbaycana gətirilmiş aksizli məhsulların siyahısı, bu məhsullara aksiz markalarının tətbiq olunması qaydası səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyənləşdirildiyi orqanın yaxud strakturun (Nazirlər Kabinetinin) qərarı ilə müəyyən olunur. Aksiz markalarının buraxılışı ilə bağlı sifarişin həyata keçirilməsi, aksiz markalarının satılması və uçotunun yerinə yetirilməsi səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyənləşdirilmiş orqanın (İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti timsalında İqtisadiyyat Nazirliyinin) təşkilatçılığı ilə reallaşdırılır və sözügedən markaların istehsal edilməsi ilə əlaqədar müvafiq sifarişlərin verilməsi, markaların satılması və uçotunun yerinə yetirilməsi ilə bağlı qaydalar səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyənləşdirilmiş orqan yaxud strukturun (Nazirlər Kabinetinin) qərarı ilə təsdiqlənir. Aksiz markaları ilə markalanmalı olan bu kimi məhsulların idxalı, saxlanılması (şəxsi məqsədlərdən başqa) yaxud satılması qadağn olunub və qanunvericilik aktlarında müəyyənləşdirilmiş məsuliyyətə cəlb edilməsinə gətirib çıxarır.

Vergi Məcəlləsinin 194.1-1-ci maddəsindən öyrənirik ki, aksizli məhsulların ölkəmizin əraizinsə dövriyyəsinin tənzimlənməsi qaydalası səlahiyyətli icra hakimiyyəti orqanının (Azərbaycan Respublikası Prezidentinin) qəbul etdiyi qərarla müəyyənləşir və bu qaydalarda ifadə olunmuş tələbləri pozan şəxslər Azərbycanda qüvvədə olan İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində nəzərdə tutulan hallarda məsuliyyətə cəlb edilir.

194.1-2-ci maddəsi aksiz markalarının verilməsi ilə bağlı "Dövlət

rüsumu haqqında" AR Qanununun müəyyənləşdirdiyi məbləğlərdə dövlət rüsumunun tutulmasını tələb edir.

Məcəllənin 194.2-ci maddəsi ilə müəyyən olunur ki, vergi əməkdaşları aksiz markaları ilə markalanması mütləq hesab olunan məhsulların istehsalını həyata keçirən sahibkarlıq subyektləri Vergi Məcəlləsi ilə müəyyənləşdirilən tələblərin pozulması hallarını aşkar etsələr, o zaman sahibkarlıq subyektlərinə məxsus yaxud onların sərəncamında olan bina yaxud anbarlarda (burada şəxsi istehlak nöqteyi-nəzərdən istifadə olunan anbarlar nəzərə alınmır) nəzarət postlarını qurur, ölçü cihazlarının istifadəsini təmin edir, plombların vurulmasını həyata keçirir, habelə başqa tədbirlər görür ki, aksiz markaları ilə markalanmalı olan məhsullar uçota götürülmədən, aksiz markaları ilə markalanmadan, bu məhsulların realizasiyası zamanı satış əməliyyatlar ilə əlaqədar elektron qaimə-fakturalar təqdim edilmədən, eləcə də Vergi Məcəlləsinin 191.2-ci maddəsində qeyd edilmiş hallarda və müəyyənləşdirilmiş prosedurlara müvafiq olaraq aksiz vergisini ödəmədən istehsal sahələri yerləşdiyi binaların hüdudlarından kənara çıxarılması hallarının qarşısı alınsın. Beləliklə, qeyd edilmiş həmin bütün tədbirlərin həyata keçirilməsinin təmin edilməsi səlahiyyəti vergi orqanlarının əməkdaşları üzərindədir.

Vergi Məcəlləsinin 194.2.1-ci hissəsindən aydın olur ki, nəzarət postları səlahiyyətli icra hakimiyyəti orqanı (İqtisadiyyat nazirliyi yanında Dövlət Vergi Xidməti timsalında İqtiadiyyat Nazirliyi) tərəfindən verilmiş qərara uyğun olaraq telefon yaxud başqa zəruri avadanlıqlarla təchiz olunmaqla, aksiz markaları ilə markalanmalı olan məhsulların istehsalını həyata keçirən sahibkarlıq subyektlərinə məxsus yaxud onların sərəncamında olan istehsal sahələrinin əsas giriş və çıxış qapılarından yaxın məsafədə yaradılması təmin edilir.

Vergi Məcəlləsinin 194.2.2-ci maddəsinin tələbləri bundan ibarətdir ki, nəzarət postları yaradılanda aksiz markaları ilə markalanmalı olan məhsulların istehsalını həyata keçirən sahibkarlıq sibyektlərinə məxsus yaxud onların sərəncamında olan texnoloji avadanlıqlar, ölçü vasitələri, habelə laboratoriya cihazları texniki cəhətdən saz, standartlara uyğun olmalıdır. Bu məqsədlə həmin avadanlıqların yoxlanışı həyata keçirilir və onların plomplanması səlahiyyətli icra hakimiyyəti orqanı İqtisdiyyat nazirliyi yanında

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, eəcə də həmin nazirliyin yanında Dövlət Vergi Xidməti tərəfindən yerinə yetirilir.

Məcəllənin 194.2.3-cü maddəsində göstərilir ki, nəzarət postlarında çalışan işçilər aksiz markalarının qalıq hissəsinin inventarizasiyasını aparmalı, istehsal edilmiş məhsulların həcminə uyğun olaraq nəzarət-ölçü cihazların, xammalın, materialların və hazır məhsulların yerləşdiyi anbarları, istehsal sahələrində mövcud olan texniki avadanlıqları plomblamalıdır. Bununla yanaşı, istehsal edilmiş məhsulun satışı aparılarkən bu məhsulların ilkin təsdiqedici sənədlərə, yəni qaimələrə, elektron vergi-fakturalara, mal-nəqliyyat qaimələrinə və s., baxış keçirilməli, aksiz markaları ilə markalanmalı olan məhsullara markalar vurulmalı, istehsal sahələrinin hüdudlarından kənara buraxılmasına, istehsal edilmiş məhsulların anbara və oradan alıcılara təqdim olunmasına, markaların yapışdırılması qaydasına necə riayət olunduğuna nəzarət etməlidirlər.

Məcəllənin 194.2.4-cü maddəsindən öyrənirik ki, istehsal həcminə əsasən nəzarət-ölçü cihazların, ammalın, materialların və istehsal edilmiş məhsulun yerləşdiyi anbarlara, istehsal sahələrində mövcud texniki avadanlıqlara plombların vurulmasının həyata keçirilməsinə nəzarət postlarında çalışan işçilər və istehsalçı tərəfin səlahiyyətli nümayəndələri vergi orqanlarının təsdiqlədiyi formaya uyğun olaraq kitabda qeydlər aparılır. Həmin qeydlərdə istehsal həcminə əsasən nəzarət-ölçü cihazlarında mövcud göstəricilər haqqında qeydlər aparılır, bu, iş gününün yekununda, növbələrin arasında təşkil edilən fasilələrdə, eləcə də lisenziyaların qüvvədə qalma müddətinin ləğv olunması yaxud bu lisenziyaların geri çəkilməsi, istehsal edilmiş məhsullara aksiz markaların vurulması məqsədilə həmin markaların, istehsal təyinatlı xammalın, yardımçı və qablaşdırıcı materialların olmaması, eləcə də texniki səbəblər üzündən avadanlıqların daha uzun zaman ərzində dayanması halında həyata keçirilir.

194.2.5-ci maddəsindən öyrənirik ki, avadanlıqların dayandırılması zamanı istehsal güclərinin qapadılması istehsalat prosesi ilə bağlı texnoloji xətlərə və avadanlıqlara plomblar belə yerlərdə vurulur ki, həmin plombların pozulması yaxudonlardan hər hansı qaydada istifadə edilməsi mümkünsüz olsun.

Vergi Məcəlləsində yer alan 194.2.6-cı maddəsindən aydın olur ki,

plombların vurulması, vurulmuş plombların isə çıxarılması nəzarət postunda çalışan işçilərin və sahibkarlıq subyektinin nümayəndələrinin iştirakı ilə uyğun qaydada tərtib edilmiş aktla rəsmiləşdirilməlidir.

Məcəllənin 194.2.7-ci maddəsində qeyd edilir ki, yaradılmış nəzarət postlarında çalışan işçilər iş balşanılan vaxtda nəzarət postlarında yoxdursa, istehsalı həyata keçirən sahibkarlıq subyektinin məsul işçiləri bu haqda vergi orqanlarına məlumat verməlidir. Bununla bərabər, həmin hadisənin səbəbi, vaxtı göstərilərək akt tərtib olunmalıdır ki, plombların açılması qanun çərçivəsində aparılmış əməliiyat hesab olunsun.

Vergi Məcəlləsinin 194.2.8-ci maddəsindən öyrənirik ki, nəzarət postlarında çalışan işçilər satış üçün nəzərdə tutulmuş hazır məhsulların sənədlər toplusunda qeyd edilmiş say, həcm, çəki göstəricilərinin bu məhsulların real sayına, həcminə və çəkisinə uyğun gəlib-gəlmədiyinə nəzarət etməli, sənədlərdə qeyd olunmuş göstəricilərin xüsusi jurnalda öz əksinin tapılmasını təmin etməlidirlər. Daha sonra nəzarət postlarında çalışan işçilər tərtib etdikləi məhsulların ilkin təsdiqedici sənədlərdə, yəni qaimədə, elektron qaimə-fakturada, mal-nəqliyyat qaiməsində və bu kimi digər sənədlərdə "buraxılışa iazə verilir" qeydinin aparılmasını təmin etməlidirlər.

Məcəllənin 194.2.9-cu maddəsindən aydın olur ki, plombların vurulması və çıxarılması əməliyyatları arasında keçən vaxt ərzində nəzarət-ölçü cihazlarının göstəricilərində dəyişikliklər aparıldığı təqdirdə texniki avadanlığın üzərində mövcud olan plomblarda zədələnmələr aşkar edildikdə, istehsal edilmiş məhsullara aksiz markalarının burulmasına çatışmazlıqlar üzə çıxanda, tam uçota götürülməsində, aksiz markaların inventarlaşdırılması prosesində hər hansı şəkildə kənarlaşmalar üzə çıxanda, habelə Vergi Məcəlləsinin 191.2-ci maddəsində yer alan tələbləri pozularaq istehsal edilmiş məhsulların istehsal sahələrindən kənara göndərilməsi müəyyənləşdirildiyi halda nəzarət postunda çalışan işçilər uyğun gaydada akt tərtib etməlidirlər. Eyni zamanda onlar tərəfindən vergi əməkdaşlarına məlmat da verilməlidir.

Vergi Məcəlləsiinn 186-1-ci maddəsi aksizlərin hesablandığı dövriyyələrin dəqiqləşdirilməsinə həsr olunub.

Bu maddə ilə bağlı ilk aydınalşdırılmalı olan məsələ aksiz vergisinin hesablandığı dövriyyələrin dəqiqləşdirilməsi məqsədilə hansı yeni prosedurların tətbiq edilməsi ilə əlaqədardır.

İlk öncə qeyd etmək lazımdır ki, sözügedən Məcəllədə aparılmış dəyişikliklər və əlavələr sırasında aksiz vergisi ilə bağlı yeniliklər də vardır. Belə ki, əlavə olunmuş 186-1-ci maddəsi aksizlərin hesablandığı dövriyyələrin dəqiqləşdirilməsi ilə bağlıdır və burada adları aşağıda sadalanan prosedurlar yer alır:

1. Aksiz markaları ilə markalanmalı olan məhsulları istehsal edən sahibkarlıq subyektləri tərəfindən məhsulların istehsal edildiyi sahələrin yerləşdiyi binaların hüdudlarından kənara çıxarılması ilə bağlı vergi məbləğinin hesablanması aparılıbsa, bu məhsulların xarab olması, yararlılıq müddətinin sona çatması yaxud hər hansı başqa səbəblər üzündən geri qaytarılması prosesində hesablanması apaılmış aksizli məhsulların qaytarıldığı hesabat dövründə azaldılmalıdır (Vergi Məcəlləsinin 186-1.1-ci maddəsi).
2. Aksiz markaları ilə markalanmalı olan məhsulların istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri bu məhsulların istehsal sahələrinin yerləşdiyi binaların hüdudlarından kənara həmin ssahibkarlıq subyektlərinin mülkiyyətində yaxud sərəncamında olan obyektlərə göndərilməsindən sonra məhsullar xarab olursa, və ya onların yararlılıq müddəti sona çatıb məhsullar geri qaytarılıbsa, onda sözügedən sahibkarlıq subyekti vergi orqanlarına müraciət etməlidir ki, bu məhsullar aktlaşdırılsın və hesablanması həyata keçirilmiş vergi məbləğləri müvafiq qaydada aşağı salınsın. Müraciət göndərilən tarixdən beş gün ərzində məsul vergi əməkdaşlarının iştirakı ilə sözügedən məhsulların aktlaşdırılması təmin edilməlidir (Vergi Məcəlləsinin 186-1.2-ci maddəsi).
3. Xarab olan və ya yararlılıq müddəti sona çatmış məhsullarla bağlı aksiz vergisinin aşağı salınması qanunvericilikdə nəzərdə tutulmuş qaydada aktın tərtib olunduğu hesabat dövründə aparılır. Bununla yanaşı, vergi hesabatı təqdim olunduğu zaman tərtib edilən akt vergi orqanlarına çatdırılır. Xarab olan və ya yararlılıq müddəti sona çatmış məhsullar məhv edilirsə, bu məhsulların istehsalı prosesində əvəzləşdirilməsi həyata keçirilmiş aksiz vergisinin dövlət büdcəsinəköçürülməsi təmin edilməlidir (Vergi Məcəlləsinin 186-1.3-cü maddəsi).

Burada aksiz vergisinin vergitutma obyekti üzərində diqqətlərimizin cəmləşdirilməsi məqsədəuyğun olardı. Nəzərə almaq lazımdır ki,

Vergi Məcəlləsində yer alan 184.1.-ci maddəsinə uyğun olaraq, ölkəmizin ərazisində istehsal olunan və aksiz markaları ilə markalanmalı olan məhsulların istehsal edildiyi istehsalar sahələrinin yerləşdiyi binaların hüdudlarından kənara çıxarılması aksiz vergisinin tətbiq olunduğu obyekt qismində çıxış edir.

Eyni zamanda, sözügedən Məcəllənin aksiz vergilərinə həsr olunmuş fəslində istehsal sahələri yerləşən binalardan çıxan və aksiz markaları ilə markalanmalı olan məhsulların bundan sonra məhsulların xarab olması və ya yararlılıq müddətinin sona çatması üzündən geri qaytarılması prosesində dövriyyənin dəqiqləşdirilməsi məsələsi Vergi Məcəlləsində nəzərdə tutulmamışdı. Sözügedən Məcəllənin 186-1-ci maddəsi aksizlərin hesablandığı dövriyyələrin dəqiqləşdirilməsinə həsr olunduğu üçün, onun Məcəlləyə daxil edilməsi zərurəti meydana gəlmişdir. Maddənin mətnində göstərilir ki, aksiz markaları ilə markalanmalı olan məhsilları istesah edən sahibkarlıq subyektləri tərəfindən bu məhsulların istehsal sahələrinin yerləşdiyi binaların hüdudlarından kənara bu sahibkarlıq subyektlərinin mülkiyyətində yaxud sərəncamında olan obyektlərə göndərilməsindən sonra bu məhsulların xarab olması və ya onların yararlılıq müddətinin sota çatması üzündən qaytarılması prosesində istisnasız şəkildə vergi əməkdaşlarının iştirakı ilə akt tərtib edilməlidir. Bundan sonra hmin muhsulların məhv edilməsi təmin olunmalıdır. Qeyd edilmiş prosedur qaydalarının həyata keçirilməsindən sonra sözügedən məhsulların istehsal edilməsi prosesində əvəzləşdirilmiş aksiz vergilərin dövlət büdcəsinə köçürülməsi ilə bağlı tədbirlər yerinə yetirilməlidir.

İndi isə vergi Məcəlləsinin 190-cı maddəsinə nəzər salaq. Həmin maddə aksiz markaları ilə markalanmalı olan məhsulların siyahısına və vergi dərəcələrinə həsr edilmişdir.

Aydınlıq gətirəcəyimiz ilk sual isə aksiz markaları ilə markalanmalı olan məhsulların yer aldığı siyahıda, habelə vergi dərcələrində hansı dəyişikliklərin aparılmasına aydınlıq gətirməlidir.

Bununla əlaqədar qeyd etməliyik ki, Vergi Məcəlləsində yer alan 190-cı maddədə aparılmış dəyişikliklərin 2 kateqoriyaya bölünməsi məqsədəuyğun hesab edilmişdir.

Əvvəla, aksiz markaları ilə markalanmalı olan məhsulların siyahısında aparılan dəyişikliklər öz əksini tapmalı idi. Həmn

dəyişikliklərə uyğun olaraq, qəlyan üçün nəzərdə tutulan tütün əvəzləyiciləri və bir dəfə istifadə olunması üçün nəzərdə tutulmuş elektron siqaretlər, qəlyanlar və onların əvəzləyiciləri aksiz markaları ilə markalanmalı olan məhsulların siyahısına əlavə edilib.

Aksiz markaları ilə markalanmalı olan məhsulların vergi dərəcələrində baş vermiş dəyişikliklərin cədvəl formasında tərtib edilməsini məqsədəuyğun hesab etmişik.

№	Maddə	Aksiz markası ilə markalanmalı olan məhsul	Aksiz vergisinin dərəcəsi		Qeyd
			Əvvəl	İndi	
1	190.3.1	İçmək üçün nəzərdə tutulmuş spirtn hər litrinə görə, həmçinin, daxilində 80%-dən aşağı miqdarda olan spirt hesab edilməyən denaturallaşdırılmamış etil spirti və daxilində 80%-dən aşağı miqdarda olan denaturallaşdırılmamış etil spirti	3,2 AZN	4,0 AZN	
2	190.3.2	Araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likör, likördən hazırlanan məhsullar – hər litrinə görə	3,2 AZN	4,0 AZN	
3	190.3.3	Konyak və konyakın hazırlanmasında istifadə olunan materiallar	3,2 AZN	4,0 AZN	
4	190.3.8	Tütünün mötəlif növlərindən hazırlanan siqaretlər və tütünün əvəzləşdiriciləri – hər 1000 ədəd üçün	35,0 AZN	38,5 AZN	
5	190.3.14	Qəlyanlar üçün nəzərdə tutulan tütün növləri və onların əvəzləşdiriciləri, istehsal təyinatlı tütün növlərindən başqa çəkilməsi üçün nəzərdə tutulmuş digər tütün növləri, “homogenləşdirilmiş” yaxud “bərpa olunmuş” tütün nüvləri, çeynəmək yaxud buruna çəkmək üçün tütün növləri – hər bir kiloqrama görə	30,0 AZN	30,0 AZN	Vergi Məcəlləsində yer alan maddə 190.3.14 üzrə aksiz markaları olmalı olduğu məhsulun adı yeni redaksiyada təsdiq olunub
6	190.3.15	Qızdırıldıqdan sonra istehlak olunan (buxar) tütün növləri və tütündən hazırlanmış məhsullar – 1000 ədəd üçün	12,9 AZN	14,0 AZN	
7	190.3.16	Bir dəfə istifadə olunması üçün nəzərdə tutulan eletrkon siqaretlər, qəlyanlar və onların əvəzləşdiriciləri – hər bir ədəd üçün		0,25 AZN	2022-ci il yanvarın 1-dən başlayaraq tətbiq olunan maddə

Növbəti sualımız hansı minik avtonəqliyyat vasitələrinə aksiz vergisinin fərqli formalarda hesablanması ilə bağlıdır.

Həmin suala aydınlıq gətirmək üçün ilk növbədə qeyd etməliyik ki, Vergi Məcəlləsində yer alan 190.4.1-ci maddə minik avtonəqliyyat vasitələrinə, istirahət vaxtının keçirilməsi yaxud idman təyinatlı yaxta, habelə bunun üçün nəzərdə tutulmuş başqa üzmə vasitələr üçün aksiz vergisinin tətbiq edilmə qaydasını müəyyənləşdirir, lakin vergi qanunvericiliyində həyata keçiirlmiş yeniliklərə uyğun olaraq, bu maddə ilə bağlı Vergi Məcəlləsinin 190.4.1-3-cü maddəsində yer alan müddəalar nəzərə alınmadan hesablamalar aparılacaq. Bununla yanaşı, Məcəlləyə əlavə olunmuş 190.4.1-3-cü maddəyə uyğun olaraq, həcmi 3000sm^3-dən artıq və istehsal olunduğu tarix üç ildən çox olan minik avtomobil nəqliyyatı üzrə tərtib edilmiş cədvələ əsasən aksiz vergisinin hesablanması aşağıdakı kimi yerinə yetiriləcək:

Verginin tətbiq olunduğu obyekt	**Aksiz vergisinin dərəcəsi**
mühərrikin həcmi 4.000 sm^3-ə qədər olduğu halda	5600AZN + mühərrikin həcmi 3001-4000 sm^3 hissəsinə görə hər 1 sm^3 üçün – 15 AZN
mühərrikin həcmi 5.000 sm^3- ə qədər olduğu halda	20600AZN + mühərrikin həcmi 4001-5000 sm^3 hissəsinə görə hər 1 sm^3 üçün – 40 AZN
mühərrikin həcmi 5.000 sm^3-dən çox olduğu halda	60600AZN + mühərrikin həcmi 5000 sm^3-dən artıq hissəsinə görə hər 1 sm^3 üçün – 80 AZN

Vergi Məcəlləsində yer alan 190.4.1-4-cü maddədən aydın olur ki, ölkəmizə idxal yolu ilə gətirilən minik avtonəqliyyat vasitələrinin istehsal olunma tarixi yeddi ildən aşağı olduğu təqdirdə aksiz vergisinin tətbiqi Vergi Məcəlləsinin 190.4.1 və 190.4.1-3 maddələri rəhbər tutularaq hesablanması aparılmış məbləğlərə benzin mühərriki ilə təchiz olunmuş avtonəqliyyat vasitələri üçün 1,2 və dizal mühərriki ilə təchiz olunmuş avtonəqliyyat vasitələri üçün 1,5 yüksəldici əmsalın tətbiqi ilə hesablanmalıdır.

Avtonəqliyyat vasitələrinə daha böyük əmsalla əmlak vergisinin tətbiq olunmasında məqsəd ölkəmizdəki avonəqliyyat parkının yenilənməsi istiqamətində təşviqedici tətbirlərin gücləndirilməsi, eləcə

də ekolji vəziyyətə mənfi təsir göstərən avtonəqliyyat vasitələrinin Azərbaycana idxal edilməsinə məhdudiyyətlərin tətbiq olunmasıdır.

Vergi Məcəlləsinin 194-cü maddəsində aksiz markaları ilə markalanmalı olan məhsulların üzərində vergi nəzarətinin həyata keçirilməsindən danışılır.

Bu maddə ilə əlaqəli aydınlıq gətirəcəyimiz ilk sual aksiz markaları ilə markalanmalı olan məhsullar üzrə elektron qaimə-fakturalarının hansı hallarda tətbiq ediləcəyi ilə bağlıdır.

Məlumdur ki, vergi qanunvericiliyində aparılmış dəyişikliklərdən sonra Məcəllənin 194.2-ci maddəsi "elektron qaimə-faktura təqdim edilmədən" ifadəsi ilə tamamlanıb. Bu da o deməkdir ki, Vergi Məcəlləsinin 194.2-ci maddəsindəki tələblərə uyğun olaraq, vergi əməkdaşları aksiz markaları vurulalı oln məhsulların istehsalı istiqamətində ixtisaslaşan sahibkarlıq subyektləri tərəfindən Vergi Məcəlləsində müəyyən olunmuş tələblərin pozulması halları üzə çıxarıldığı zaman, sahibkarlıq subyektlərinə məxsus yaxud onların sərəncamında olan uyğun binalarda yaxud anbarlarda, burada şəxsi istehlak məqsədilə istifadə olunan anbar və binalar istisna olunur, nəzarət postlarının, ölçü cihazlarının qurulması, plombların vurulması və başqa tədbirləri yerinə yetirməklə aksiz markaları ilə markalanmalı olan məhsulların uçota götürülmədən, markalar vurulmadan, elektron qaimə-fakturalar təqdim edilmədən, habelə Vergi Məcəlləsinin 191.2-ci maddəsinin tələbləri ilə nəzərdə tutulan hallarda və təyin olunmuş prosedur qaydalarına əsasən aksiz vergilərin ödənilmədən istehsal sahənin yerləşdiyi binanın hüdudlarından kənara daşınmasının qarşısının alınması istiqamətində zəruri tədbirlər görmək səlahiyyətinə malikdir.

Yeri gəlmişkən, aksiz markaları ilə markalanmalı olan məhsulların sahibkarlıq subyektrlərinə realizasiyası da elektron qaimə-fakturalar vasitəsilə rəsmiləşdirilir.

Elektron qaimə-fakturanın növlərinin siyahısına "aksizli məhsulların (neft məhsullarından başqa" təsərrüfat daxili yerdəyişməsi haqqında" elektron qaimə-fakturası əlavə olunub. Vergi Məcəlləsində yer alan 71-1.8-ci maddəyə uyğun olaraq, aksiz markaları ilə markalanmalı olan məhsulların istehsalını həyata keçirən sahibkarlıq subyektləri tərəfindən belə məhsulların isrehsal olunduğu sahələrin yerləşdiyi binaların hüdudlarından kənara bu sahibkarlıq subyektlərinin

mülkiyyətində yaxud sərəncamında olan başqa təsərrüfat subyektləri yaxud obyektlərinə, və ya öncədən sifarişi verilməmiş əməliyyatlarla bağlı avtonəqliyyat vasitələrinə buraxılışı Vergi Məcəlləsinin 71-1.5.10-cu maddədə nəzərdə tutulan növlərdə elektron qaimə-faktura vasitəsilə rəsmiləşdirilməsinin həyata keçirilməsi nəzərdə tutulur.

Vergi Məcəlləsində yer alan 58.13-1-ci maddəsindən öyrənirik ki, 71-1.5.10-cu maddə ilə nəzərdə tutulan növdə elektron qaimə-fakturası tərtib olunmaan məhsulların bir təsərrüfat subyekti yaxud obyektindən başqa subyekt yaxud obyektinə daşınmasına görə sahibkarlıq subyektinə elektron qaimə-fakturası ilə rəsmiləşdrilməmiş hər bir bu kimi əməliyyata görə 100AZN miqdarında maliyyə sanksiyası tətbiq olunmalıdır.

İndi isə aksiz markaları ilə markalanmalı olan məhsullar üzrə elektron qaimə-fakturasının verilməsini nəzərdə maddənin hansı səbəblərə görə ləğv edildiyinə aydınlıq gətirək.

İlk öncə qeyd etməliyik ki, Məcəllədə yer alan 195-ci maddənin ləğv edilmişdir. Həmin maddə elektron qaimə-fakturaların tətbiqi qaydalarına həsr olunmuşdur. Burada həmçinin aksiz markaları ilə markalanmalı olan məhsulları göndərən sahibkarlıq subyekti normativ hüquqi aktlara əsasən məhsulları qəbul edən tərəfə elektron qaimə-fakturanın verilməsi, eləcə də bu elektron sənədə əsasən əvəzləşdirilmə əməliyyatları ilə bağlı hallar qeyd olunmuşdur. Elektron qaimə-faktura ilə əlaqəli analoji hallar Vergi Məcəlləsinin 71-1-ci maddəsində tənzimlənir. Odur ki, aksiz vergisi ilə əlaqədar bölmə elektron qaimə-fakturalara həsr olunmuş maddəni təkrarladığı üçün onun ləğv edilməsi məqsədəuyğun hesab olunub.

4.5. SADƏLƏŞDİRİLMİŞ VERGİ

Aparılmış dəyişikliklərdən və əlavələrdən sobra Vergi Məcəlləsinin 218.1-ci maddəsinin yeni redaksiyasında göstərilir ki, adları burada sadalanan şəxslər sadələşdirilmiş vergi ödəyicisi qismində çıış etmək hüququna malikdirlər. Onların sırasında:

- Vergi Məcəlləsinin 11-ci fəslində yer alan müddəalar nəzərə alınmaqla, əlavə dəyər vergisinin ödəyiciləri kimi qeydiyyatdan keçməmiş və ardıcıl on iki ay ərzində istənilən hər hansı ayında

yaxud aylarında vergi tətbiq olunan əməliyyatların ümumi miqdarı 200 000AZN-dən yaxud bu məbləğdən aşağı olan şəxslər;

- Vergilərin tətbiq olunduğu əməliyyatların ümumi miqdarı ardıcıl on iki ay ərzində istənilən hər hansı ayında yaxud aylarında vergi tətbiq olunan əməliyyatların ümumi miqdarı 200 000AZN-dən yaxud bu məbləğdən aşağı olan və ictimai iaşə sektorunda fəaliyyət göstərən şəxslər.

Məcəllənin 218.2-ci maddəsində aydın olur ki, sadələşdirilmiş vergi əsasında vergi hesabatını həyata keçirmək hüququnda olan sahibkarlıq subyektləri (Vergi Məcəlləsində yer alan 218.4-cü maddədə göstərilmiş sahibkarlıq subyektlərindən başqa) hər təqvim ilinin aprelin 20-dən gec olmamaq şərtilə müvafiq vergi bəyannaməsini yaxud Vergi Məcəlləsinin 218.1-ci maqddəsində göstərilmiş hüququndan istifadə etmək niyyətində olmadığı ilə bağlı yazılı şəkildə təqdim olunan informasiyanı umotda dayandığı vergi orqannı əməkdaşlarına təqdim etməlidir. Vergi Məcəlləsində digər halların nəzərdə tutulmadığı təqdirdə sahibkarlıq subyekti tərəfindən ilin sonuna qədər seçilmiş metodun dəyişdirilməsi hüququ olmur. Sahibkarlıq subyekti göstərilmiş müddət ərzində vegi bəyannaməsini yaxud yazılı şəkildə informasiyanı təqdim etmədiyi halda vergi orqanının əməkdaşları həmin sahibkarlıq subyektinin öncəki vergi ilində seçmiş olduğu metodunu təsdiq etməlidir. İl ərzində yenicə öz fəaliyyətinə başlamış sahibkarlıq subyektləri tərəfindən vergi uçotunda dayanmaq məqsədilə təqdim etdikləri ərizələrində qeyd olunmuş emtod tətbiq olunur.

Vergi Məcəlləsinin 218.4-cü maddəsində Məcəllənin 218.1-ci maddəsindəki müddəalarından asılı olmamaq şərtilə orada göstərilmiş şəxslərin sadələşdirilmiş vergi ödəyicilərinin olduğu bildirilir:

1. Vergi Məcəlləsinin 156-cı maddəsində yer alan müddəalar nəzərə alınmaqla sərəncamında yaxud sahibliyində olan avtomobil nəqliyyatı vasitələri ilə (ölkələrarası yüklərin və sərişinlərin daşınması istisna edilməklə) ölkəmizin ərazisində sərnişinlərin və yüklərin nəql edilməsini (həmçinin taksi vasitəsilə) və ya sözügedən daşımaları müvafiq qaydada bağlanılmış müqavlələrə uyğun olaraq başqa şəxslərin iştirakı ilə həyata keçirən sahibkarlıq subyektləri;
2. Idman mərc oyunlarının operatorları və idman mərc oyunlarının

satıcıları, eləcə də lotereyaları təşkil edən şəxslər və lotereya biletlərini satan şəxslər;

3. Sahibliyində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim olunmasını yerinə yetirən fiziki şəxslər;
4. Fəaliyyət prosesində işçi dəvət edən fiziki şəxslərdən başqa, Vergi Məcəlləsinin 220.10-cu maddəsində qeyd edilmiş fəaliyyət növlərilə fərdi surətdə məşğul olan fiziki şəxslər;
5. Sahibliyində olan topraq sahələrinin təqdim olunmasını reallaşdıran fiziki şəxslər.

Adları aşağıda qeyd olunmuş şəxslər sadələşdirilmiş vergi ödəyiciləri qismində çıxış etmək hüququna malik deyillər:

- aksiz markaları ilə markalanmalı olan məhsulun istehsalını və məcburi nişanlarla nişanlanmalı olan malların buraxılışını həyata keçirən sahibkarlıq subyektləri;
- kredit müəssisələri, sığorta bazarında iştirak edən peşəkar tərəflər, investisiyaların yatırılması ilə məşğul olan fondlar və həmin fondları idarə edən şəxslər, qiymətli kağızlar bazarında müvafiq lisenziyaları əldə etməklə fəaliyyət göstərən şəxslər, lombardlar;

Vergi Məcəlləsinin 218.5.2-1-ci maddədən öyrənirik ki, Məcəllədə yer alan 218.5.2 və 218.5.10-cu maddələrində yer alan müddəalar icbari sığorta müqavilələri əsasında xidmətlər təklif edən sığorta agentlərinə tətbiq olunmur.

- dövlətin nəzarətində olmayan pensiya fondları;
- əmlakların icarəyə verilməsi nəticəsində və royaltidən gəlirlərdən yararlanan şəxslər;
- səlahiyyətli icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasnın Nazirlər Kabinetinin) müyyənləşdirdiyi təbii inhisar subyektləri;
- sahibliyində yer alan əsas vəsaitlərin ilin əvvəlinə (Vergi Məcəlləsinin 218.1.2 və 218.4-cü maddələrində qeyd olunmuş şəxslərdən başqa) qalıq dəyəri 1 000 000AZN-dən çox olan şəxslər;
- publik hüquqi şəxslər;
- rübdə işə cəlb etdiyi insanların (faktiki işə cəlb olunanların) orta sayı on nəfərdən artıq olan və istehsalla məşğul olan sahibkarlıq subyektləri;
- topdansatış ticarətlə məhsulların realizasiyasını həyata keçirən

sahibkarlıq subyektləri;

- vergi ödəyiciləri qismində qeydiyyatdan keçməyən şəxslərə, yəni əhaliyə təqdim olunan xidmətlərdən başqa, xidmətlərin həyata keçirilməsini təmin edən sahibkarlıq subyektləri (vergi Məcəlləsinin 218.4.1 və 220.10-cu maddələrində qeyd olunan sahibkarlıq subyektlərinin göstərdikləri xidmətlərdən başqa);
- qızıl, bu qiymətli metaldan hazırlanmış zərgərlik və başqa məişət məmulatlarının, eləcə də almazların (emalı, çeşidlənməsi, çərçivəyə salınması və bərkidilməsi həyata keçirilmiş, eləcə də emal olunması, çeşidlənməsi, çərçivəsə salınması və bərkidilməsi yerinə yetirilməmiş almazların) realizasiyası ilə məşğul olan şəxslər;
- xəz-dəri məhsullarının realizasiyası ilə məşğul olan sahibkarlıq subyektləri;
- bağlanılmış icbarı sığorta müqavilələrinə uyğun olaraq xidmətlərin göstərilməsi ilə məşğul olan sahibkarlıq subyektlərindən başqa, lisenziyasının alınması tələb edilən fəaliyyət növləri istiqamətində işləyən şəxslər.

Vergi Məcəlləsinin 218.6-cı maddəsi hansı hallarda sadələşdirilmiş veginin tətbiq edilməsi hüququnun qüvvədə olmasını tənzimləyir. Belə ki, həmin hallar aşağıdakılardan ibarətdir:

1. Vergi Məcəlləsinin 218.5.9-cu maddəsində yer alan müddəalardan asılı olmayaraq pərakəndə satışla məhsulların realizasiyasının həyata keçirilməsi istiqamətində öz işini qurmuş sahibkarlıq subyekti, eyni zamanda, topdansatış formasında məhsulların realizasiyasını da təşkil ediyi təqdirdə, rübdə elektron qaimə-fakturalar əsasında rəsmilşdirilməsi vacib olan əməliyyatların məbləği ümumi ticarət üzrə aparılmış əməliyyatların (satış fəaliyyətindən kənar daxil olan gəlirlər istisna edilməklə) məbləğinin 30%-dən artıq olmadığı təqdirdə;
2. Vergi Məcəlləsinin 218.5.10-cu maddəsində yer alan müddəalardan asılı olmayaraq, sahibkarlıq subyekti qismində vergi orqanlarında qeydiyyatdan keçməmiş şəxslərə, yəni əhaliyə təqdim olunan xidmətlər istisna edilməklə, digər xidmətlərin təqdim edilməsi ilə məşğul olan şəxslər əhaliyə xidmət göstərməklə bərabər, hüquqi şəxslərə və vergi ödəyiciləri qismində qeydiyyatdan keçmiş fiziki şəxslərə xidmətlərin təqdim

olunmasıilə məşğul olursa, hər hansı rübdə elektron qaimə-fakturalar vasitəsilə rəsmiləşdirilməsi təmin edilən əməliyyatların məbləği xidmətlərin təqdim olunması ilə bağlı yerinə yetirilən ümumi əməliyyatların (satış fəaliyyətindən kənar daxil olan gəlirlərdən başqa) məbləğinin 30%-dən artıq olmadığı halda.

İndi isə Vergi Məcəlləsinin 218-1-ci maddəsi ilə tanış olaq. Bu maddə azadolmalar və güzəştlərin tətbiqi haqqındadır. Sözügedən maddədə göstərilir ki, aşağıdakı sahibkarlıq subyektlərin vergidən azad olunması vergi qanunvericiliyində nəzərdə tutulmuşdur:

1. kənd təsərrüfatı sektorunda məhsulların istehsalı ilə (həm də sənaye üsullarının tətbiqi vasitəsilə) məşğul olan sahibkarlıq subyektlərinin buraxdığı məhsulların realizasiyasından əldə olunmuş hasilatın məbləği – 1 yanvar 2014-cü ildən başlayaraq on il ərzində;
2. qanun tərəfindən müəyyənləşdirilmiş hallarda dövlət büdcəsinə köçürülməli olan vergi borclarının silindəsi nəticəsində əldə edilər gəlirlər;
3. səlahiyyətli icra hakimiyyəti (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyənləşdirilmiş orqan yaxud strukturun (Azərbaycan Respublikasının Nazirlər Kabinetinin) müəyyən etdiyi qaydalara uyğun olaraq dövlət büdcəsindən ayrılmış vəsaitlər hesabına ödənilməsi aparılan ixrac təşviqi;
4. Vergi Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydalara uyğun olaraq öz gəlirlərinin və xərclərinin uçotunu həyata keçirən. əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyatdan keçməyən və yerinə yetirdiyi əməliyyatların məbləği ardıcıl on iki aylıq dövr ərzində hər hansı ayda yaxud aylarda 200 000AZN-ə qədər olan rezident müəssisələrinin təsisçiləri yaxud payçıları və ya səhmarları qismində çıxış edən şəxslərə ödənilmiş dividendlər;
5. Sahibliyində olan yaşayış və qeyri-yaşayış sahələrinin, eləcə də torpaq sahələrinin təqdim olunması ilə bağlı aşağıda qeyd edilmiş təqdim olunma halları: fiziki şəxs ən azı üç təqvim ilində yaşadığı yerə görə qeydiyyatdan keçdiyi yaşayış sahələrinin təqdim olunması; fiziki şəxslər söküntü aparılmış binada mövcud olan yaşayış sahəsində ən azı üç təqvim ilində (söküntüsü aparılmış binanın yerləşdiyi ərazidə inşa olunan yeni binada yaşadığı yer

üzrə qeydiyyatdan keçdiyi müddətlərin cəmi hesablanmaqla) yaşadıqları yer üzrə qeydiyyatda durduqları təqdirdə, söküntüsü aparılmış binaların ərazisində inşa edilmiş yeni binadan həmin fiziki şəxslərə təqdim olunan yaşayış sahəsinin verilməsinə də həmçinin bu maddənin müddəalarının tətbiq edilməsi vergi qanunvericiliyində nəzərdə tutulmuşdur. Belə olan halda sadələşdirilmiş verginin tətbiqindən azad edilmə məsələsi yerli icra hakimiyyəti orqanının verdiyi və özündə yaşayış sahəsinin sökülməsini və söküntüsü aparılmış yaşayış sahələrinin əvəzində yenisinin təqdim edilməsini təsdiqləyən arayışı uyğun olaraq fiziki şəxslərin söküntüsü aparılmış yaşayış sahələrinin sahəsinə uyğun (daha çox yaşayış sahəsi verildiyi təqdirdə söküntü aparılmış yaşayış sahəsinin 20%-i hüdudlarında artıq sahələr üzrə) tətbiq olunur. Fiziki şəxslərin sahibliyində (həmçinin ərin və onun həyat yoldaşının birgə sahibliyində) ancaq bir yaşayış sahəsi olduğu təqdirdə şəxslərin bu yaşayış sahəsi ilə bağlı qeydiyyatda olmalarından asılı olmayaraq ən azı 3 il müddətində bu yaşayış sahəsində yaşamalarını təsdiqləyən sənədlər (kommunal xidmətlərin təqdim olunması üzrə fəaliyyət göstərən müəssisələrin şəxslərin bu ünvanda abonent qismində qeydiyyatda olmalarını təsdiqləyən arayış) olduğu təqdirdə bu yaşayış sahələrinin təqdim olunması; Vergi Məcəlləsindəki 102.1.3.2-, 102.1.18, 144.1.1, 144.1.2 və 144.1.4-cü maddələrində nəzərdə tutulan hallar; fiziki şəxsin xüsusi mülkiyyəti olan yaşayış sahəsinin 30 m^2 qədər olan hissəsi;

6. Keçirilən lotereyaların biletlərini satan şəxslərlə bağlanılmış müqavilələrə uyğun olaraq yaxud onların tapşırığı ilə lotereyaların biletlərini bütün etaplarda agent qismində realizasiyasının təmin edilməsi ilə bağlı göstərilən xidmətlər nəticəsində daxil olan gəlirlərin məbləği.

Vergi Məcəlləsinin 218-1.2-ci maddəsindən aydın olur ki, pərakəndə satışın reallaşdırılması ilə məhsulların satılması ilə bağlı ticarət fəaliyyəti və (yaxud) ictimai iaşə sektorunda çalışan və sadələşdirilmiş vergi üzrə öz vergi öhdəliklərini yerinə yetirən ssahibkarlıq subyektlərinin dövlət büdcəsinə ödəməli olduqları vergilərin məbləği 1 yanvar 2019-cu ildən başlayaraq üç il ərzində

"istehlakçıların hüquqlarının müdafiəsi haqqında" AR Qanunu vasitəsilə müəyyənləşdirilmiş POS-terminallarla nağdsız surətdə həyata keçirilən ödəmələrin ümumi hasilatda yer aldığı xüsusi çəkiyə əsasən müəyyənləşdirilən vergi məbləğinin 25%-i miqdarında azaldılır.

Qeyd etdiyimiz həmin güzəştin təmin edilməsi hüququ müəyyənləşdirilərkən, vergi orqanlarında qeydiyyatdan ekçmiş sahibkarlıq subyektləri POS-terminallarla həyata keçirdikləri ödəmələrin məbləğinin nəzərə alınmaması qanunvericilikdə əks olunur.

Vergi Məcəlləsinin 219-cu maddəsi vergitutma obyektinə həsr edilmişdir.

Məcəllənin 219.1-ci maddəsindən aydın okur ki, hesabat dövründə sahibkarlıq subyektinin (Vergi Məcəlləsində yer alan 218.4-cü maddədə qeyd edilmiş sahibkarlıq subyektllərindən başqa) təqdim olunmuş məhsullarla, yerinə yetirilmiş işlərlə, təqdim olunmuş xidmətlərlə, eləcə də əmlaklarla bağlı əldə edilmiş ümumi hasilatın və satışdan kənar yollarla daxil olmuş gəlirlər məbləğlərinin (ödəmə mənbəyində vergi tətbiq edilməmiş gəlir məbləğlərindən başqa) miqdarı vergitutma obyekti hesab olunur.

219.2-ci maddəsində göstərilir ki, Vergi Məcəlləsinin 218.4.1-ci maddəsində qeyd olunmuş sahibkarlıq subyektlərinin mülkiyyəti olan yaxud onlar tərəfindən istifadə edilən avtomobil nəqliyyatı vasitələri vergitutma obyekti qismində çıxış edir.

Bu Məcəllədə yer alan 219.3-1-ci maddəsindən aydın olur ki, Vergi Məcəlləsinin 218.4.3-cü maddəsində nəzərdə tutulan şəxslər üçün mükiyyətlərində olan yaşayış və qeyri-yaşayış sahələrinin, həmçinin bina inşaası istiqamətində öz fəaliyyətini qrumuş sahibkarlıq subyektlərindən əldə edilmiş yaşayış və qeyri-yaşayış sahələri vergitutma obyekti qismində çıxış edir.

Bununla bərabər, Məcəllənin 218.4.5-ci maddəsində qeyd edilmiş şəxslərə üçün onların sahibliyində olan torpaq sahələri də vergitutma obyekti hesab olunmalıdır.

Məcəllənin 219.4-cü maddəsindən aydın olur ki, idman mərc oyunlarının operatorları hesab edilən şəxslər üçün idman mərc oyunu ilə bağlı biletlərin realizasiyasından daxil olan vəsaitlər, idman mərc oyununun satıcı olan tərəf üçün isə idman mərc oyununun operator şəxsinin ona həvalə etdiyi haqq yaxud mükafat sadələşdirilmişvergi üzrə

vergitutma obyekti hesab edilir.

Eyni zamanda, lotereyaların təşkilatçıları üçün lotereya biletlərinin realizasiyasından dail olan vəsaitlər, lotereya biletlərinin satışını həyata keçirən tərəf üçün isə lotereyanın təşkilatçısı tərəfindən ona verilən haqqın yaxud mükafatın məbləği sadələşdirilmiş vergi nöqteyi-nəzərdən vergitutma obyekti kimi dəyərləndirilir.

Məcəllənin 219.5-ci maddəsində göstərilir ki, sadələşdirilmiş vergi əsasında öz vergi öhdəliklərini yerinə yetirən hüquqi şəxslər əlavə dəyər vergisinin, mənfəət vergisinin, fiziki şəxslərə (yəni, hüquqi şəxsin yaradılmasını reallaşdırmamış sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə də həmçinin) gəldikdə isə, onlar gəəlir vergisi və əlavə dəyər vergisi ödəyiciləri hesab olunmur.

Tanış olacağımız növbəti maddə 220-dir. Burada sadələşdirilmiş verginin dərəcələri ilə tanış ola bilərik.

Belə ki, Vergi Məcəlləsinin 220.1-ci maddəsində qeyd olunur ki, sadələşdirilmiş vergi, Məcəllədə yer alan 218.4-cü maddədə göstərilmiş fəaliyyət istiqamətində öz işini quran və 218.1.2-ci maddədə nəzərdə tutulan sahibkarlıq subyektlərindən başqa, sözügedən vergi ödəyən sahibkarlıq subyektləri məhsulların təqdim olunmasından, işlərin yerinə yetirilməsindən, xidmətlərin təqdim edilməsindən daxil olan vəsaitlərin həcmindən, yəni ümumi hasilətin miqdarından, eləcə də satışlardan başqa digər istiqamətlər üzrə daxil olan gəlir məbləğlərindən 2% dərəcəsi ilə vergi tutulur.

Maddə 220.1-1-dən aydın olur ki, Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində qeyd edilmiş şəxslər üçün sadələşdirilmiş verginin hesablanması Məcəllədə yer alan 219.1-ci maddədə təyin olunmuşvergitutma obyektinə əsasən 8% dərəcəyə uyğun olaraq hesablanır.

Vergi Məcəlləsinin 220.5-ci maddəsindən öyrənirik ki, avtonəqliyyat vasitələri ilə sərişinlərin və yüklərin daşınmasını yerinə yetirən sahibkarlıq subyektləri üçün sadələşdirilmiş vergi aşağıda təqdim olunan cədvələ uyğun müəyyənləşdirilir:

Daşınmanın növü	Sadələşdirilmiş verginin tətbiq olunduğu ölçü vahidləri	Sadələşdirilmiş vergi üzrə hr ay ödənilən məbləğ (manatla)
Sərnişinlərin daşınması (taksilərdən başqa), oturacaq yerlərin sayına uyğun olaraq	1 oturacaq yerə görə	1,8
Taksilərlə sərnişinlərin daşınması	Nəqliyyat vasitəsinin 1 ədədinə görə	9,0
Yüklərin daşınması	Avtonəqliyyat vasitəsinin yükgötürmə qabiliyyətinə (hər tonuna) görə	1,0

Vergi Məcəlləsinin 220.6-cı maddəsindən aydın olur ki, yüklərin və sərnişinlərin daşınması növündən, eləcə də reallaşdırıldığı ərazisindən asılı olaraq, sərnişinlərin və yüklərin daşınmasını yerinə yetirən sahibkarlıq subyektləri üçün sadələşdirilmiş verginin tətbiqi Məcəllədə yer alan 220.5-ci maddədə qeyd olunmuş sadələşdirilmiş vergi məbləğinə aşağıda göstərilən əmsalların istifadə olunması ilə həyata keçirilir:

- Bakı şəhəri üzrə, paytaxtın kəndləri və qəsəbələri də daxil olmaq şərtilə, habelə paytaxtla Azərbaycanın başqa yaşayış məntəqələri arasında – 2,0;
- Abşeron rayonunda, Sumqayıtda, Gəncədə və həmin rayon və şəhərlərdə başqa yaşayış məntəqələri arasında (Vergi Məcəlləsinin 220.6.1-ci maddəsində qeyd olunanlardan başqa) – 1,5;
- Başqa şəhərlər və rayonlar üzrə, eləcə də həmin şəhər və rayonlarda başqa yaşayış məntəqələri arasında (Vergi Məcəlləsinin 220.6.1-ci maddəsində qeyd olunanlardan başqa) – 1,5;
- Başqa şəhərlərin və rayonların ərazisində, eləcə də həmin şəhər və rayonlarla başqa yaşayış məntəqələri arasında (Vergi Məcəlləsinin 220.6.1 və 220.6.2-ci maddələrdə qeyd olunanlardan başqa) – 1,0.

Vergi Məcəlləsindəki 220.7-ci maddəsi ilə müəyyən olunur ki, avtonəqliyyat vasitələrində, taksilərdən başqa, oturacaq yerlərin sayı yaxud yükgötürmə qabiliyyəti avtomobillərin qeydiyyat şəhadətnaməsində əks olunan parametrlərə uyğun müəyyənləşdirilir.

Eyni zamanda, avtonəqliyyat vasiələrində, taksidən başqa, oturacaq yerlərin sayı yaxud yük götürmə qabiliyyəti avtomobillərin

qeydiyyat .şəhadətnaməsində qeyd olunmaqla, bu parametrlər səlahiyyətli icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin) vergi orqanları üçün təqdim olunmuş arayışlara uyğun olaraq müəyyənləşdirilir. Oturacaq yerlərin sayı avtomobilin qeydiyyat şəhadətnaməsi yaxud səlahiyyətli icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin) vergi orqanları üçün təqdim etdiyi arayışlara uyğun olaraq müəyyənləşdirmək alınmadığı təqdirdə, sadələşdirilmiş vergi üzrə ödənilməli olan məbləğ yerlərin faktiki sayı üzrə təyin edilir.

220.8-ci maddəsindən öyrənirik ki, Vergi Məcəlləsinin 218.4.3-cü maddəsində adıçıkilən şəslər üzrə sadələşdirilmiş verginin məbləğinin hesablanması 219.3-1ci maddədə qeyd olunan vergitutma obyektinin hər $1m^2$ üzrə 15AZN təşkil etməklə sözügedən maddə ilə müəyyənləşdirilən qaydalar çərçivəsində yerinə yetirilir.

218.4.5-ci maddəsinin mətnində adıçəkilən şəxslər üzrə sadələşdirilmiş verginin məbləği 206.3-cü maddəsi ilə nəzərdə tutulan torpaqların hər 1 m^2 üzrə 0,5AZN olmaqla, haqqında danışdığımız maddədə nəzərdə tutulmuş şərtlər çərçivəsində hesablanır. Kənd təsərrüfatında istehsal prosesinə cəlb olunmuş torpaq sahələri üzrə sadələşdirilmiş verginin məbləğinin hesablanması aparılarkən bu maddənin məzmununda müəyyən edilmiş torpaq sahələrinin yerləşdiyi ərazilərə görə zona əmsalların tətbiq olunması mütləqdir.

Vergi Məcəlləsinin 218.4.5-ci maddəsi ilə nəzərdə tutulan şəxslər üçün kənd təsərrüfatında dövriyyədə olan torpaqlarla bağlı sadələşdirilmiş verginin məbləği Məcəllədə yer alan 206.1-1-ci maddəyə əsasən hesablanması aparılmış torpaq vergisi məbləğinin iki mislinə vurularaq hesablanır.

220.8.1-ci maddədə göstərilir ki, binalar və torpaq sahələri Bakı şəhərində, eləcə də onun qəsəbələri və kəndləri ərazisində yerləşdiyi halda, bu maddədə nəzərdə tutulmuş sadələşdirilmiş verginin ödənilməli oln məbləği üzərinə səlahiyyətli icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Nazirlər Kabinetinin) müəyyənləşdirdiyi zonalardan asılı olaraq, aşağıda qeyd olunmuş əmsalların tətbiqi həyata keçirilir:

Zonalar	Yaşayış və qeyri yaşayış sahəsinin, eləcə də torpaq sahəsinin yerləşdiyi ərazi ilə bağlı tətbiq edilməli olan əmsallar
1	4,0
2	3,0
3, 4	2,2
5, 6	1,8
7, 8, 9	1,5
10, 11, 12	1,2

Qeyd etmək lazımdır ki, vergi qanunvericiliyinə əsasən Gəncə, Sumqayıt və Xırdalan şəhərləri ilə bağlı sadələşdirilmiş verginin məbləğinə tətbiq olunan əmsal 1,5-ə bərabərdir.

Abşeron rayonu ərazisində yerləşən qəsəbələri və kəndləri (Xırdalan şəhərindən başqa), habelə Şirvanda, Mingəçevirdə, Naxçıvanda, Lənkəranda, Yevlaxda, Şəkidə və Naftalanda yerləşdiyi halda sadələşdirilmiş verginin məbləğinə tətbiq olunan əmsal 1,2 təşkil edəcək.

Bütün başqa rayonlarda, şəhərlərdə, qəsəbələrdə və kəndlərdə yerləşdiyi təqdirdə sadələşdirilmiş verginin məbləğinə tətbiq olunan əmsal 0,3 səviyyəsində təsdiq edilir.

Vergi Məcəlləsini 220.8-1-ci maddəsindən aydın olur ki, Məcəllədə yer alan 218.4.3-cü maddədə qeyd olunan şəxslərə görə binalarda yerləşən qeyri-yaşayış sahələriin təqdim olunması ilə əlaqədar sadələşdirilmiş verginin məbləği Məcəllənin 220.8-ci maddəsinə uyğun olaraq hesablanan vergi məbləğinə tətbiq edilməli olan əmsal 1,5-ə bərabərdir.

220.8-2-ci maddənin tələblərinə əsasən, sənayedə, tikintidə, nəqliyyat sektorunda, rabitə sahəsində, ticarət-məişət xidmətləri sferasında istifadə olunan torpaq ssahələri, eləcə də başqa xüsusi təyinatlı torpaqların təqdim olunmasını həyata keçirən şəxslər üçün sadələşdirilmiş verginin məbləği Məcəllədə yer alan 220.8-ci maddəsindəki 2-ci abzasın tələblərinə uyğun olaraq hesablanmış məbləğə Bakı, eləcə də paytaxtın qəsəbələri və kəndləri üçün 1,5-ə bərabər əmsalın, Gəncədə, Sumqayıtda və Xırdalanda olan ərazilər üçün 1,3-ə bərabər əmsalın, Abşeron rayonundakı qəsəbələr və kəndlər üçün, eləcə də Şirvanda, Mingəçevirdə, Naxçıvanda, Lənkəranda, Yevlaxda, Şəkidə və Naftalanda yerləşənlər üçün 1,2-ə bərabər əmsalın, digər raonlarda, şəhərlərdə, qəsəbələrdə və kəndlərdə yerləşən torpaq və binalar üçün 1,1-ə bərabər

əmsalın tətbiq olunması vergi qanunvericiliyində nəzərdə tutulmuşdur.

220.9-cu maddədən aydın olur ki, idman mərc oyunlarının operatorları idman mərc oyunlarına aid biletlərin realizasiyasından əldə etdikləri maliyyə vəsaitlərindən 6%-lik dərəcə ilə, idman mərc oyunlarının satıları qismində çıxış edən tərəf isə idman mərc oyunlarının operatorunun ona ayırdığı haqlardan yaxud mükafatlardan 4%-lik dərəcə əsasında ödənilməli olan sadələşdirilmiş verginin məbləği müəyyən edilir.

Vergi Məcəlləsindəki 220.9-1-ci maddəsindən aydın olur ki, lotereyaların təşkilatçıları tərəfindən lotereyaların biletlərinin realizasiyasından əldə olunan vəsaitlərdən 6% dərəcə əsasında, lotereyaların biletlərinin satışını həyata keçirən şəxslər tərəfindən isə lotereyaların təşkilatçılarının onlara verilmiş haqlardan yaxud mükafatlardan dörd faizlik dərəcəyə əsasən sadələşdirilmiş verginin məbləği hesablanması yerinə yetirilir.

Bununla yanaşı qeyd etmək lazımdır ki, vergi qanunvericiliyində nəzərdə tutulmuş fəaliyyət növlərinə uyğun olaraq öz işini fərdi şəkildə, yəni muzdlu işçiləri cəlb etməmək şərtilə qurmuş şəxslər Vergi Məcəlləsinin 218.4.4-cü maddəsində göstərilmiş fiziki şəxslər üçün sadələşdirilmiş verginin məbləği aşağıda göstərilmiş qaydada müəyyən olunur:

Fəaliyyət növü	**Sadələşdirilmiş vergi ilə bağlı sabit məbləğ**
Toy, şənlik məclislərində, eləcə də başqa tədbirdə aparıcı, çalğıçı, rəqqas, aşıq, məzhəkəçi və bu kimi başqa növ oxşar fəaliyyətlər	20
Fərdi fotoşəkillər, audio-video çəkilişlər (fotoşəkillərin hazırlandığı studiyalardan başqa) istiqamətində fəaliyyətlər	15
Çəkməşilik, pinəçilik fəaliyyətləri	5
Ev və mənzillərdəki ev qulluqçuları, xəstə adamlara, ahıllara və uşaqlara qulluq edənlər, dayəlik, fərdi sürücü, ev təsərrüfatlarında təmizliklə, bağbanlıqla, aşbazlıqla, gözətçiliklə və iaşə obyektlərində müştərilərə idmət edən fiziki şəxslər (ofisiant qismində)	10
Nəqqaşlıqla məşğul olan emalatxanalar	20
Fərdi şəkildə bərbəliklə məşğul olanlar	15
Fərdi şəkildə dərziliklə məşğul olanlar	10

Vergi Məcəlləsinin 220.1-ci maddəsindən öyrənirik ki, Məcəllədə yer alan 220.10-cu maddəsi ilə nəzərdə tutulmuş fəaliyyət növləri istiqamətində öz işini qurmuş fiziki şəxslər üçün hər ay ödənilməli olan verginin miqdarı aşağıda göstərilmiş əmsalların tətbiq olunması şərtilə təyin olunur:

1. Bakı üzrə, şəhərətrafı kəndlər və qəsəbələr də daxil olmaqla – 2,0;
2. Gəncə, Sumqayıt və Xırdalar şəhərləri üzrə - 1,5;
3. Abşeron rayonunda yerləşən qəsəbələr və kəndlər (Xırdalan şəhərindən başqa), Şirvanda, Mingəçevirdə, Naxçıvanda, Lənkəranda, Yevlaxda, Şəkidə və Naftalanda – 1,0;
4. Başqa rayonlarda, şəhərlərdə, qəsəbə və kəndlərdə - 0,5;
5. Hüquqi şəxslərin və fərdi sahibkarların pul vəsaitlərinin nağd şəkildə bank hesabından çıxarıldığı təqdirdə bir faizlik dərəcə əsasında sadələşdirilmiş verginin məbləği müəyyən olunur.

Vergi Məcəlləsinin 221-ci maddəsi sadələşdirilmiş vergi məbləğinin hesablanmasının qaydalarına, ödənilməsi müddətlərinə və vergi bəyannaməsinin verilməsinə aydınlıq gətirir.

Belə ki, sözügedən Məcəllənin 221.1-ci maddəində hesabat dövrü üçün sadələşdirilmiş vergi miqdarının hesablanması (Məcəllədə yer alan 218.4-cü maddədə göstərilmiş sahibkarlıq subyektlərindən başqa) Vergi Məcəlləsinin 220-ci maddəsində nəzərdə tutulmuş vergi dərəcəsini hesabat dövrünə aid ümumi hasilatın miqdarına tətbiq olunmaqla həyata keçirilir.

Bununla yanaşı, sadələşdirilmiş verginin ödənilməsi hər rüb üçün yerinə yetirilir.

Sözügedə vergini ödəyən sahibkarlıq subyektləri hesabat dövründən sonra gələn təqvim ayının iyirmisindən gec olmamaq şərtilə ödənişini etməli olduqları vergi məbləği barədə vergi əməkdaşlarına bəyannamə təqdim etməli, eləcə də bu müddət ərzində vergi məbləğini dövlətin büdcəsinə köçürüməsini təmin etməlidirlər.

Sahibkerlıq subyektləri öz fəaliyyətinə xitam verdikdə, eləcə də sahibkarlıq subyekti qismində çıxış edən hüquqi şəxsin ləğv edilməsi ilə bağlı qərar qəbul olunduqda Vergi Məcəlləsində nəzərdə tutulmuş zaman aralığından çox olmamaq şərti ilə vergi əməkdaşlarına bəyannamənin təqdim olunması təmin edilməlidir. Belə olan halda vergi dövrü qismində götürülən müddətin başlanğıcından sahibkarlıq subyekti öz

fəaliyyətinə xitam verərsə, eləcə də sahibkarlıq subyekti qismində çıxış edən hüquqi şəxsin ləğvi ilə bağlı qərar verilərsə yaxud fərdi sahibkar öz fəaliyyətini dayandırarsa, həmin tarixə qədər əmələ gələn dövr əhatə olunacaq.

Vergi Məcəlləsinin 221.3.1-ci maddəsindən yadın olur ki, Məcəllədə yer alan 218.4.2-ci maddədə qeyd olunmuş şəxslər hesabat rübündə sadələşdirilmiş vergi məbləğini 220.9 və 220.9-1-ci maddələrdə nəzərdə göstərilmiş qaydada hesablamalı və həmin rübdən sonra gələn təqvim ayının iyirmisindən gec olmamaq şərtilə səlahiyyətli icra hakimiyyətinin (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin) müəyyənləşdirdiyi formaya uyğun olaraq vergi əməkdaşlarına vergi bəyannaməsini təqdim etməli, habelə vergi məbləğini dövlətin büdcəsinə köçürməlidir.

Vergi Məcəlləsinin 221.4-cü maddəsindən aydın olur ki, avtonəqliyyat vasitələrilə sərnişinlərin və yüklərin daşınması əməliyyatlarına görə sadələşdirilmiş vergi məbləğinin hesablanması aşağıda qeyd olunmuş qaydalara uyğun şəkildə həyata keçirilir:

1. Sərnişinlərin və yüklərin daşınması ilə məşğul olan sahibkarlıq subyektlərinin hər bir avtonəqliyyat vasitəsinə görə sadələşdirilmiş verginin məbləği Məcəllədə yer alan 220.5-ci maddəsində qeyd olunmuş sadələşdirilmiş vergi miqdarının tətbiq edildiyi ölçü vahidlərini sözügedən maddədə göstərilmiş sadələşdirilmiş vergi məbləğinin aylıq həcminə, eləcə də Vergi Məcəlləsinin 220.6-cı maddəsində qeyd olunmuş əmsallara vurulmaqla hesablanması, eləcə də dövlətin büdcəsinə köçürülməsi təmin edilir;
2. Məcəllədəki 218.4.1-ci maddəsinə əsasən, sahibkarlıq subyektlərinin avtonəqliyyat vasitələri qeydiyyatdam keçdiyi yerdən asılı olmamaq şərtilə sərnişinlərin və yüklərin daşınmalarının faktiki yerinə yetirildiyi əraziyə görə Vergi Məcəlləsinin 220.5 – 220.7-ci maddələrinə əsasən sadələşdirilmiş verginin məbləğini ödəməlidirlər;
3. Etibarnaməyə əsasən yaxud icarə və ya başqa əşya hüquqları ilə əlaqədar bağlanılmış müqaviləyə görə istifadə olunan avtonəqliyyat vasitələrilə sərnişinlərin və yüklərin nəqlinin həyata keçirilməsi yerinə yetirilirdə, o zaman sadəələşdirilmiş vergi

məbləğinin ödənilməsi ilə bağlı nəqliyyat vasitələrini etibarnamə yaxud icarə və ya başqa əşya hüquqları ilə bağlı müqaviləyə əsasən idarə edən şəxs məsuliyyətlidir. Qalan hallarda sadələşdirilmiş vergi məbləğinin ödənilməsi üçün məsuliyyət avtonəqliyyat vasitəsinin sahibinin üzərinə düşür;

4. Əgər avtonəqliyya vasitələri hüquqi şəxslərin balansında olursa və həmin nəqliyyatlarla sərnişinlər yaxud yüklər daşınırsa, bu daşınmalar isə məhz bu hüquqi şəxslərin özləri tərəfindən yerinə yetirilirsə, onda sadələşdirilmiş vergi məbləğini də bu hüquqi şəxslər ödəməlidir.

Qeyd etmək lazımdır ki, Avtonəqliyyat vasitələrlə sərnişinlərin yaxud yüklərin daşınmasını yerinə yetirən sahibkarlıq subyektləri vergi qanunvericiliyində digər halların nəzərdə tutulmadığı təqdirdə spzügedən fəaliyyətlə bağlı vergi əməkdaşlarına vergi bəyannaməsini təqdim etməməlidirlər.

Bununla bərabər, avtonəqliyyat vasitələrilə sərnişinləri və yükləri daşıyan sahibkarlıq subyektlərinin sadələşdirilmiş vergi məbləğinin düzgün hesablamaları, eləcə də vaxtlı-vaxtında büdcəyə köçürmləri məsələsinə nəzarət səlahiyyətli icra hakimiyyəti orqanı (İqtisadiyyat Nazirliyinin tərkibindəki Dövlət Vergi Xidməti qismində İqtisadiyyat Nazirliyinin özü) tərəfindən həyata keçirilir.

Vergi Məcəlləsinin 221.4.7-ci maddəsinə əsasən, avtonəqliyyat vasitələrilə sərnişinlərin və yüklərin daşınmasını yerinə yetirən şəxslər hər bir avtonəqliyyat vasitəsi üzrə səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyənləşdirildiyi orqan yaxud strukturdan, yəni AR Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən, Bakının inzibati ərazisində avinəqliyyatla müntəzəm şəhərdaxili xətlər üzrə sərnişinlərin daşınmasını yerinə yetirən, eləcə də taksi minik avtonəqliyyat vasitələrilə sərnişinləri daşıyan sahibkarlıq subyektlərinə münasibətdə isə Bakı Nəqliyyat Agentiliyindən) təqvim ayının sonuna qədər öz istəkləri əsasında növbəti təqvim ayı, rübü, yarımilliyi yaxud ili üzrə ciddi hesbatn blankı qimsində çıxış edən "Fərqlənmə nişanı" almağı borcludurlar. "Fərqlənmə nişanı" sahibkarlıq subyektinin nəqliyyat siyasətini yürüdən səlahiyyətli mərkəzi icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat

Nazirliyinin) təsdiqlədiyi formada yazılı ərizəsinə uyğun olaraq 2 iş günü müddətindən gec olmamaq şərtilə təqdim olunur.

"Fərqlənmə nişanının" alınması məqsədilə sahibkarlıq subyektinin ərizəsinə bu fəaliyyət üzrə sadələşdirilmiş vergi məbləğinin, məcburi dövlət sosial sığorta və icbari dövlət tibbi sığorta haqlarının ödənişinin yerinə yetirilməsini təsdiqləyən bank ödəmə sənədinin əlavə olunması tələb edilir. Bankdan verilmiş ödəniş sənədində avtonəqliyyat vasitəsi üzərində olan dövət qeydiyyat nişanının seriyası və nömrəsi aydın surətdə qeyd olunmalıdır.

Həmçinin, avtonəqliyyat vasitələrlə sərnişinlərin və yüklərin daşınmasını yerinə yetirən hüquqi şəxs, eləcə də hüquqi şəxs yaratmadan sahibkarlıq subyekti kimi öz işini qurmuş fiziki şəxs hesablanaraq tutulmuş vergini, məcburi dövlət sosial sığorta, eləcə də icbari tibbi sığorta haqlarını tam həcmdə büdcəyə köçürməlidir. Bundan sonra həmin şəxslərə "Fərqlənmə nişanı" verilə bilər. Avtonəqliyyat vasitələrilə sərnişinlərin və yüklərin daşınmasını yerinə yetirən şəxslər ödənişi aparılmış vergi məbləğləri, məcburi dövlət sosial sığorta, eləcə də icbari tibbi sığorta haqlarını onların həmin təqvim ayında işləyib-işləməmələrindən asılı olmayaraq geri qaytarılması və növbəti təqvim ayında vergilərlə əvəzləşdirilməsi nəzərdə tutulmur.

Avtomobil nəqliyyatı vasitəsinin sahibi yaxud həmin nəqliyyatdan istifadə edən şəxs dəyişərsə, bu zaman sözügedən avtomobil sonrakı təqvim ayları üzrə öncəki sahibi yaxud istifadəçisi olmuş şəxs tərəfindən ödənişi həyata keçiirlmiş vergilər, məcburi dövlət sosial sığortası, eləcə də icbari tibbi sığortası haqları nəzərə alınmaq şərtilə vergilər, məcburi dövlət sosial sığortası, eləcə də icbari tibbi sığortası haqlarının ödənişinin aparıldığını təsdiqləyən "Fərqlənmə nişanı" təkrarən rəsmiləşdirilməli deyil.

Vergi Məcəlləsinin 221.4.8-ci maddəsindən öyrənirik ki, "Fərqlənmə nişanı" və Məcəllədə yer alan 221.4.9-cu maddədə qeyd olunmuş "Xüsusi fərqlənmə nişanı" ilə bağlı formalar nəqliyyat siyasətini yürüdən səlahiyyətli mərkəzi icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin) müəyyənləşdirdiyi və aşağıda qeyd olunan məlumatları özündə əks etdirməlidir:

1. vergi ödəyicisi qismində çıxış edən hüquqi şəxsin tam adı

yaxud fiziki şəxsin adı, ata adı və soyadı;
2. onun VÖEN-i;
3. xüsusi nişanın qüvvədə qalma zamanı;
4. avtomobil nəqliyyatı vasitəsinin hansı markadan olması və üzərindəki dövlət qeydiyyatı nişanının nömrəsi;
5. avtonəqliyyat vasitəsində oturacaq yerlərinin sayı yaxud nəqliyyat vasitəsinin yükgötürmə qabiliyyəti;
6. daşınmanın yerinə yetirildiyi ərazi;
7. ödənişi həyata keçirilmiş vergi miqdarı, məcburi dövlət sosial sığortası, eləcə də icbari tibbi sığortası haqları.

Vergi Məcəlləsinin 221.4.9-cu maddəsindən öyrənirik ki, sahibkarlıq subyektlərinin mülkiyyətində yaxud sərəncamlarında olan avtonəqliyyat vasitələrilə özləri tərəfindən həyata keçirilən istehsal prosesinin təmin edilməsi məqsədilə işçilərinin, habeə özlərinə aid yüklərin daşınması üçün istifadə edilən avtonəqliyyat vasitələrinin sadələşdirilmiş vergiyə cəlb edilməsi nəzərdə tutulmur, habelə sözügedən nəqliyyat vasitələrinin sahibləri tərəfindən "Xüsusi fərqlənmə nişanı"nın alınması mütləqdir.

Bu nişan sahibliyində yaxud sərəncamında avtonəqliyyat vasitələri olan sahibkarlıq subyektlərinin müraciətlərindən sonra 5 iş günü müddətində səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyya Nazirliyi) tərəfindən təqdim olunmalıdır. Nişanın alınması müqabilində bu və ya digər haqqın ödənilməsi nəzərdə tutulmur.

"Xüsusi fərqlənmə nişanı" əldə etmiş sahibkarlıq subyektləri tərəfindən avtonəqliyya vasitəsi satılarkən yaxud icarəyə verilərkən, eyni zamanda, maddədə göstərilməyən başqa məqsədlər üçün istifadə olunarkən, azı 1 iş günü öncə "Xüsusi fərqlənmə nişanı"nın vergi orqanllarına geri qaytarılması təmin edilməlidir.

Vergi Məcəlləsinin 221.4.10-cu maddəsindən aydın olur ki, sahibkarlıq subyektinin işçi personalının və sırf özünə aid avtonəqliyyat vasitələrinin uyğun şəkildə qeydiyyatı rəsmiləşdiriləndən sonra bu avtonəqliyyat vasitələrinin sahibləri 5 gün müddətində səlahiyyətli icra hakimiyyəti orqanına (Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyya Nazirliyinə) bu haqda məlumat təqdim etməldirlər. Həmin məlumat səlahiyyətli icra hakimiyyəti orqanının (Azərbaycan

Respublikasının İqtisadiyyat Nazirliyinin) təsdiqlədiyi formada verilməlidir.

221.4.13-cü maddədə deyilir ki, xüsusi nişanlar və avadanlıqlarla təchiz edilmiş xüsusi təyinatlı (sahibkarlıq fəaliyyəti nöqteyi-nəzərdən onlara başqa ssahibkarlıq subyektlərin göstərdikləri bu kimi xidmətlərdən başqa), eləcə də dövlət hakimiyyəti orqanlarının, büdcə qurumlarının və yerli özünüidarəetmə orqanlarının, Azərbaycanın Mərkəzi bankının, hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri barədə və bu kimi başqa sazişlər hüdudlarında öz fəaliyyətini quran xarici podratçı və subpodratçı təşkilatların, dövlət fondlarının, xarici dövlətlərin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq qurumların nümayəndəliklərinin rəsmi istifadəsində olan avtonəqliyyat vasitələri üçün "Fərqlənmə nişanı"nın yaxud "Xüsusi fərqlənmə nişanı"nın alınması tələb edilmir və belə avtonəqliyyat vasitələrinin mülkiyyətçiləri bu avtonəqliyyat vasitələri haqqında səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyənləşdirilmiş orqan yaxud struktura (Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə, Bakının inzibati ərazisində avtonəqliyyat vasitələrlə müntəzəm şəhərdaxili sərnişinlərin daşımmasını və taksi minik avtonəqliyyat vasitələrilə sərnişinlərin daşınmasını yerinə yetirən sahibkarlıq subyektlərə münasibətdə isə Bakı Nəqliyyat Agentliyinə) məlumat verməlidirlər.

Səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyənləşdirilmiş orqan yaxud struktur (Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Bakının inzibati ərazisində avtonəqliyyat vasitələrlə müntəzəm şəhərdaxili sərnişinlərin daşımmasını və taksi minik avtonəqliyyat vasitələrilə sərnişinlərin daşınmasını yerinə yetirən sahibkarlıq subyektlərə münasibətdə isə Bakı Nəqliyyat Agentliyi) növbəti təqvim ayının 10-na qədər ötən ayda təqdim olunmuş nişanlar haqqında səlahiyyətli icra hakimiyyəti orqan yaxud struktura (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin tərkibində Dövlət Vergi Xidməti qismində AR İqtisadiyyat Nazirliyinin özü) məlumat verməlidir.

221.6-cı maddəsində isə deyilir ki, Vergi Məcəlləsində yer alan 218.4-cü maddədə qeyd olunmuş şəxslər başqa fəaliyyət istiqamətlərində əldə olunmuş gəlir məbləğlərinin və məsrəflərin

uçotunu hər fəaliyyət istiqaməti ilə bağlı ayrı-ayrı aparmalıdır. Qeyd olunmuş şəxslərin sözügedən fəaliyyət növləri ilə əlaqədar mənfəəti yaxud zərəri başqa fəaliyyət istiqamətlərində əldə olunmuş mənfəətə yaxud zərərə aid edilməsi nəzərdə tutulmur.

221.7-ci maddədən aydın olur ki, əmlakların icarəyə verilməsi prosesindən, habelə royaltidən gəlirlər əldə edən sahibkarlıq subyektləri bu fəaliyyət növü ilə bərabər başqa fəaliyyət istiqamətləri ilə məşğul olduqları təqdirdə Vergi Məcəlləsinin 218.1 və 21.2-ci maddələrində yer alan müddəalar nəzərə alınmalı və başqa fəaliyyət istiqamətlərindən dail olan gəlir məbləğlərinə sadələşdirilmiş vergini aid etmək hüququnda olurlar. Belə olan təqdirdə əmlakların icarəyə verilməsi, royalti, habelə başqa fəaliyyət istiqamətləri ilə əlaqədar əldə olunan gəlirlər və xərclər məbləğlərinin uçotu fəaliyyət istiqamətləri üzrə ayrı-ayrılıqda həyata keçirilməlidir. İcbari sığorta müqavilələri ilə bağlı xidmətlər təklif edən sığorta agentləri qeyd etdiyimiz həmin fəaliyyətlə bərabər başqa fəaliyyət istiqamətləri üzrə məşğul olduqları təqdirdə, bu müqavilələrlə əlaqədar ümumi hasilatla bağlı sadələşdirilmiş vergini nöğvünü tətbiq etmək hüququnu özündə saxlayırlar.

Vergi Məcəlləsində yer alan 221.8-ci maddədən göründüyü kimi, Məcəllənin 220.10-cu maddəsi ilə nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə sadələşdirilmiş verginin hesablanması aşağıda qeyd olunmuş qaydalar üzrə həyata keçirilir.

221.8.1-ci maddədə göstərilir ki, Məcəllənin 218.4.4-cu maddəsinin məzmununda qeyd olunan fiziki şəxslər sadələşdirilmiş verginin ödənişini Məcəllədə yer alan 220.10-cu maddəsində göstərilmiş sabit verginin Məcəllədəki 220.11-ci maddəsində qeyd olunmuş əmsallara vurmaqla yerinə yetirilir və dövlətin büdcəsinə köçürülür.

221.8.2-ci maddəsində qeyd edilir ki, Vergi Məcəlləsinin 218.4.4-cü maddəsinin mətnində haqqında danışılan şəxslər uçotda olduqları yerdən asılı olmayaraq, sözügedən fəaliyyətin faktiki yerinə yetirildiyi ərazi üzrə vergi Məcəlləsinin 220.10 və 220.11-ci maddələrinə əsasən müəyyənləşdirilən sadələşdirilmiş vergi məbləğini ödəməlidirlər. Fiziki şəxslər eyni dövrdə Vergi Məcəlləsinin 220.11-ci maddəsində qeyd olunan müxtəlif əmsalların tətbiq edilən ərazilərdə öz fəaliyyətini həyata keçirirlərsə, onda ən yüksək əmsalın tətbiq olunduğu ərazi ilə bağlı müəyyənləşdirilmiş sabit verginin ödənilməsi təmin

olunmalıdır.

221.8.3-cü maddəsindən öyrənirik ki, Vergi Məcəlləsində hər hansı digər hallar nəzərdə tutulmadığı təqdirdə, Məcəllənin 218.4.4-cü maddəsində qeyd olunmuş fiziki şəxslər həmin fəaliyyətlə bağlı vergi əməkdaşlarına bəyannaməni təqdim etməməlidirlər.

Vergi Məcəlləsinin 221.8.4-cü maddəsindən aydın olur ki, Vergi Məcəlləsinin 218.4.4-cü maddəsində qeyd edilən fiziki şəxslər tərəfindən sadələşdirilmiş vergi məbləğinin düzgün hesablanması, eləcə də vaxtlı-vaxtında büdcəyə köçürülməsinin təmin edilməsinə səlahiyyətli icra hakimiyyəti orqanı (AR İqtisadiyyat Nazirliyinin tabeçiliyində olan Dövlət Vergi Xidməti qismində İqtisadiyyat Nazirliyinin özü) tərəfindən nəzarət olunur.

221.8.5-ci maddəsindən aydın olur ki, Vergi Məcəlləsinin 218.4.4-cü maddəsində qeyd olunmuş fiziki şəxslər Məcəlləə yer alan 220.10-cu maddəsində nəzərdə tutulmuş fəaliyyət istiqamətində öz işinə başlayana qədər, səlahiyyətli icra hakimiyyəti orqanı (AR İqtisadiyyat Nazirliyinin tabeçiliyində olan Dövlət Vergi Xidməti qismində İqtisadiyyat Nazirliyinin özü) tərəfindən könüllü surətdə növbəti ay, rüb, yarım il yaxud il üçün verilən "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarının ödənilməsi barədə qəbz"i təqdim etməlidir.

221.8.6-cı maddəsindən görünür ki, Vergi Məcəlləsiin 218.4.4-cü maddəsilə nəzərdə tutulan fiziki şəxs Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarının ödənilməsi barədə qəbz" əldə etmək məqsədilə yazılı ərizəni təqdim etməlidir. Bu zaman sadələşdirilmiş vergi məbləğinin və məcburi dövlət sosial sığorta haqlarının ödənişinin həyata keçirildiyini təsdiqləyən ödəmə sənədi müraciətə əlavə olunmasıdır. Ərizə elektron formada edilərkən ödəniş müraciət olunduğu zaman elektron şəkildə reallaşdırılmalıdır. Ödəmə sənədində sahibkarlıq subyektinin VÖEN-i qeyd edilməlidir. Vergi Məcəlləsinin 218.4.4-cü maddəsində nəzərdə tutulmuş fiziki şəxslər hesablanması aparılmış vergi məbləğini, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarının ödünişini bütünlüklə yerinə yetirdikdən sonra həmin şəxslərə "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarının ödənilməsi barədə qəbz"in verilməsi icra olunur.

Sözügedən qəbzin hansı formada olması səlahiyyətli icra hakimiyyəti orqanı (AR İqtisadiyyat Nazirliyinin tabeçiliyində olan Dövlət Vergi Xidməti qismində İqtisadiyyat Nazirliyinin özü) tərəfindən müəyyən olunaraq təsdiqlənir və aşağıda göstərilmiş məlumatları ehtiva etməlidir:

1. sahibkarlıq subyekti qismində çıxış edən fiziki şəxsin adını, atasının adını, soyadını;
2. sahibkarlıq subyektinin VÖEN-ini;
3. qəbzin qüvvədə olduğu dövrü;
4. fəaliyyətin reallaşdırıldığı ərazini;
5. ödənişi həyata keçirilmiş vergi məbləğini, eləcə də məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta üzrə haqların məbləğini;
6. fəaliyyətin adını.

Vergi Məcəlləsinin 221.8.7-ci maddəsində deyilir ki, "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarının ödənilməsi barədə qəbz" sahibkarlıq sbyektində saxlanılır. Sözügedən Məcəllədə yer alan 218.4.4-cü maddədə qeyd olunan fəaliyyət istiqamətində öz işini quran fiziki şəxs ödədiyi vergiləri və məcburi dövlət sosial sığorta haqlarını "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarının ödənilməsi barədə qəbz"in etibarlılığı dövründə fəaliyyətlə məşğul olub-olmadığından asılı olmayaraq geri qaytarılması və növbəti müddətlərin (ayların, rüblərin, yarımilliklərin və illərin) vergi məbləğləri ilə əvəzləşdirilməsi nəzərdə tutulmur.

221.8.8-ci maddədən öyrənirik ki, Vergi Məcəlləsinin 218.4.4-cü maddəsində qeyd olunmuş fəaliyyət istiqamətində öz işini quran fiziki şəsin ölkəmizin sərhədlərindən kənarda həmin fəaliyyətlə əlaqədar təqdim olunan xidmətlər üzrə əldə olunan gəlirləri Vergi Məcəlləsində müəyyən edilən ümumi qaydaya əsasən uyğun vergilərə cəlb olunur.

221.8.9-cu maddəsinə görə, Vergi Məcəlləsinin 218.4.4-cü maddəsində qeyd edilən fiziki şəxslər Məcəllədəki 220.10-cu maddəsi ilə müəyyən edilən fəaliyyətlərdən bir neçəsi üzrə ixtisaslaşdığı təqdirdə "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarının ödənilməsi barədə qəbz"i fəaliyyət növlərindən ayrı-ayrılıqda hər biri üzrə almalıdır.

221.8.10-cu maddəsinə müəyyən edilir ki, Vergi Məcəlləsinin

218.4.4-cü maddəsində qeyd olunan fiziki şəxslərin vergilər üzrə yaranmış öhdəliklərini "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarının ödənilməsi barədə qəbz" almaqla sadələşdirilmiş qayda üzrə həyata keçirilməsi sözügedən şəxslərin nağd formada hesablaşma apardıqları zaman alıcı tərəfə Vergi Məcəlləsinin 16.1.9-cu maddəsilə nəzərdə tutulan müvafiq qəbzləri və başqa ciddi hesabat blanklarını təqdim etməklə bağlı öhdəliklərdən azad etmir.

Vergi Məcəlləsinin 218-ci maddəsi sadələşdirilmiş verginin ödəyicilərinə həsr olunub.

Bu maddə ilə bağlı aydınlıq gətirəcəyimiz ilk sual istehsal sferasında həyata keçirilən fəaliyyətlə əlaqədar vergi qanunvericiliyində hansı ciddi dəyişikliklərin aparıldığı ilə bağlıdır.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində 2019-cu ildə aparılmış və təsdiqlənmiş dəyişikliklərə uyğun olaraq, bir qisim sahibkarlıq subyektlərinin sadələşdirilmiş vergi ödəyiciləri qismində çıxış etmək hüquqları məhdudlaşdırılmışdı. Sözügedən dəyişikliklərə uyğun olaraq, Məcəllədəki 218.5.8-ci maddəsində göstərilir ki, işçilərin sayı on nəfərdən artıq olan və istehsal sferasında fəaliyyət göstərən sahibkarlıq subyektlərin sadələşdirilmiş vergi ödəyiciləri qismində çıxış etmək hüquqları yoxdur.

Vergi qanunvericiliyində bu kimi tələblərin tətbiq edilməsi bir qisim sahibkarlıq subyektlərində müəyyən çaşqınlıq və suallar doğurmuşdur. Məsələn, sual oluna bilər ki, işçilərin sayı nəzərə alındığı təqdirdə ay ərzində bir neçə işçinin işdən çıxmasından sonra onların say tərkibi on nəfərdən artıq olsa, istehsal fəaliyyəti istiqamətində öz işini qurmmuş sahibkarlıq subyektləri sadələşdirilmiş vergi ödəyiciləri qismində çıxış etmək hüquqlarının itirlməsi ilə bağlı hər hansı təhdidlər yarana bilərmi?

Məsələ burasındadır ki, Məcəllədəki 218.5.8-ci maddəsində aparılmış dəyişikliklərdən sonra rübdə işçilərin, yəni faktiki surətdə işə cəlb edilənlərin orta sayında on nəfərdən artıq göstərici qeydə alınarsa, belə sahibkarlıq subyektləri öz istehsal fəaliyyətlərini rfeallaşdırmaqla sadələşdirilmiş vergi ödəyiciləri qismində çıxış etmək hüquqlarından məhrum olunur.

Maddənin məzmunundan aydın olur ki, əvvəlki variantdan fərqli

olaraq, burada üç yeni yanaşmanın tətbiq olunduğunu görürük. Əvvəla, 4 ay deyil, rüb götürülmüşdür. Daha sonra, işçilərin sayı deyil, onların sayının orta göstəricisinə əsaslanmağa üstünlük verilir. Və, nəhayət, faktiki surətdə işə cəlb edilmiş işçilərin sayı nəzərə alınır. Yəni, analıq məzuniyyətinə çıxanlar, qismən ödənişli sosial məzuniyyət götürənlər sözügedən siyahıya salınmırlar.

İzah etməli vacib saydığımız növbəti məsələ evlərinin sökülməsi aparılmış insanlara gələcək perspektivdə əmlaklar təqdim olunmasında hansı fərqli yanaşmaların tətbiq edilməsi ilə bağlıdır.

Bununla əlaqədar deməliyik ki, Vergi Məcəlləsində yer alan 218-1.1.5.1-ci maddəyə əlavə olunmuş 2-ci hissəyə uyğun olaraq, fiziki şəxslər söküntüsü aparılmış binalarda yerləşmiş yaşayış sahələrində azı üç təqvim ildə (söküntüsü aparılmış və söküntüsü aparılmış binaların yerində inşa edilən yeni binalarda yaşayış yerləri üzrə qeydiyyatda olduqları müddətlərin üst-üstə gəlməsi şərtilə) yaşayış yerləri üzrə qeydiyyatda durduqları təqdirdə, söküntüsü aparılmış binaların yerində inşa olunan yeni binalardan bu fiziki şəxslərə təqdim olunan yaşayış sahələrinin verilməsinə də hsqqında danışılan müddəalarının tətbiqi nəzərdə tutulmuşdur. Bu halda sadələşdirilmiş vergidən azadolunma məsələsi yerli icra hakimiyyəti orqanının verdiyi və özündə yaşayış sahəsinin söküntüsünün həyata keçirilməsini, habelə söküntüsü aparılmış yaşayış sahələrinin əvəzində yeni yaşayış sahələrinin təqdim olunmasını təsdiqləyən arayışa uyğun olaraq fiziki şəxslərin söküntüsü həyata keçirilmiş yaşayış sahələrinin sahələri hüdudlarında (bundan çox sahələrin verilməsi nəzərdə tutulursa, o zaman söküntüsü aparılmış yaşayış sahələrinin iyirmi faizi hüdudlarında artıq ayrılmış sahəyə görə) tətbiq edilməsi təmin olunmalıdır.

Aparılmış dəyişikliklərin və yeniliklərin balışca məqsədi bundan ibarətdir ki, xeyli müddət ərzində bir ünvanda qaydiyyatda duran şəxslərin evlərinin sökülməsindən sonra yeni ünvanlarda qeydiyyat tarixlərinin təkrarən başlaması vətəndaşlarının ziyanına ola bilər. Məsələ burasındadır ki, Vergi Məcəlləsindəki 150.1.9-cu maddəsinə uyğun olaraq, vətəndaşlar tərəfindən daşınmaz əmlakların satınalınması prosesində fiziki şəxslər ən aşağı üç il müddətində yaşadıqları yerlər üzrə qeydiyyatda olmalıdırlar.

Dediklərimizi əyani bir misalla daha da aydınlaşdıraq.

Fərz edək ki, on il ərzində qeydiyyatda olduğu yaşayış ebinin söküntüsünün aparılmasından sonra həmin evin mülkiyyətçisinə bu ərazidə yeni inşa olunmuş binadan yaşayış sahəsi ayrılmışdır. Vergi ödəyicisi qismində çıxış edən bu şəxs bir il keçdikdə ona verilmiş yaşayış sahəsinin satılması qərarına gəlsə, yerli icra hakimiyyəti orqanının verdiyi və özündə yaşayış sahələrinin söküntüsünün aparıldığını, habelə söküntüsü aparılmış yaşayış sahələrinin əvəzində yeni yaşayış sahələrinin təqdim olunmasını təsdiqləyən arayışı təqdim etməlidirlər.

Vergi Məcəlləsinin haqqında danışdığımız maddəsində diqqətəlayiq məsələələrdən biri yaşayış shaələrinin sahə ölçüləri ilə əlaqədardır. Belə ki, şəxsin söküntüsü aparılmış evdə yaşayış sahəsi 50m^2 olubsa, onda söküntüsü həyata keçirilmiş evin müqabilində təqdim olunmuş evin 60m^2 sahəsi ölçüsündə gözəştin tətbiq olunması mütləqdir: 50 m^2 (söküntüsü aparılmış yaşayış sahəsi) + 10m^2 (söküntüsü aparılmış yaşayış sahəsinin 20%-i miqdarında artıq olan sahə) = 50m^2.

İzah edəcəyimiz növbəti məsələ hansı hallarda üç il ərzində qeydiyyatda olmamış şəxslərə evlərini satarkən onlara verginin hesablanmayacağı ilə bağlıdır.

Nəzərə almaq lazımdır ki, Vergi Məcələləsinə 218-1.1.5.1-1-ci maddəsi əlavə olunmuşdur. Həmin maddəyə uyğun olaraq, fiziki şəxslərin sahibliyində (eyni zamanda, ərin və onun həyat yoldaşının ümumi sahibliyində) ancaq 1 yaşayış sahəsinin olduğu təqdirdə sözügedən şəxslərin bu yaşayış sahələriində qaydiyyatda durub-durmadqlarından asılı olmayaraq, ən aşağı üç il müddətində bu yaşayış sahəsində yaşadıqlarını təsdiqləyən sənədlər (kommunal xidmətlərin təchizatçılarının şəxslərin bu ünvanlarda abonentlər qismində qeydiyyatdan keçmələrini təsdiqləyən arayışlar) təqdim edildiyi təqdirdə spzügedın yaşayış sahəsinin təqdim olunması zamanı sadələşdirilmiş vergi ilə əlaqədar güzətşlərin tətbiq olunması nəzərdə tutulmuşdur.

Artıq qeyd etdiyimiz kimi, Məcəllənin 150.1.9-cu maddəsinə uyğun olaraq, vətəndaşlar tərəfindən daşınmaz əmlakların satılması prosesində fiziki şəxslərin ən aşağı üç ildə yaşadıqları yerdə qeydiyyatda olduqları təqdirdə onlara güzəştin tətbiq olunması nəzərdə tutulur.

Eyni zamanda, Vergi Məcələləsinə 218-1.1.5.1-1-ci maddəsinin əlavə olunması ilə fiziki şəxslərin qeydiyyatda olmadıqlarına rəğmən ən aşağı üç ildə bu yaşayış sahələrdə yaşamalarını təsdiqləyən sənədlərin mövcudluğu tələb olunur. Belə olan təqdirdə başqa bir şərtə diqqətin yetiriləcəyini deməliyik. Belə ki, fiziki şəxslərin mülkiyyətlərində (həmçinin ərin və onun həyat yoldaşının birgə sahibliyində) ancaq bir yaşayış sahəsi olmalıdır. Qeyd etdiyimiz iki şərtinin ikisinin də ödənildiyi təqdirdə yaşayış sahəsinin təqdim olunması zamanı sadələşdirilmiş vergi ilə bağlı hüzəştlər tətbiq olunacaqdır.

İndi isə yenidən əyani bir misala nəzər salaq.

Fərz edək ki, hər hansı bir vətəndaş beş il ərzində yaşadığı evüzrə qeydiyyatda deyil. Bu şəxs sözügedən ünvanda yaşadığı illərdə kommunal xidmətlərlə (elektrik enerjisilə, təbii qazla, içməli su ilə və s.) təchiz olunmuşdur. Bütün bu xidmətlərin istifadəsi müqabilində ona təqdim edilmiş bildirişlərlə bağlı ödənişlərin həyata keçirilməsi bu şəxs tərəfindən təmin olunmuşdur. Əmlak satılandan sonra kommunal xidmətlərin təchizatı ilə məşğul olan qurumlar şəxsin bu ünvanda abonent qismində qeydiyyatda keçdiyini təsdiqləyən arayışlar təqdim olunduğu təqdirdə bu yaşayış sahəsinin təqdim olunması zamanı sadələşdirilmiş vergi ilə bağlı güzəştlərin tətbiq olunması nəzərdə tutulur. Belə bir halın olması mümkün ola bilər ki, yaşayış sahəsini təqdim edən tərəfin özünün yaxud onun həyat yoldaşının adın, birgə ahibliyində olmaq şərtilə, daha bir yaşayış sahəsinin olması aydınlaşmışdır. Belə olan təqdirdə şəxsə təqdim olunan vergi güzəştşinin qüvvəsi bitmiş hesab olunacaq.

Vergi Məcəlləsinin 220-ci maddəsi sadələşdirilmiş verginin dərəcəsinə aydınlıq gətirir.

Bu maddənin şərhini hansı ərazilər üzrə yaşayış və qeyri-yaşayış sahəsinin satınalınmasına tətbiq edilən əmsalın azaldılmasının izah olunmasından başlamağımız məqsədəuyğun olardı.

Beləliklə, Vergi Məcəlləsində yer alan 220.8.4-cü maddədə həyata keçkrilmiş dəyişikliklərə uyğun olaraq, fiziki şəxslərin sahibliyində olan yaşayış və qeyri-yaşayış sahəsinin satınalınması prosesində bəzi ərazilərlə bağlı vergi yükünün aşağı salınması nəzərdə tutulmuşdur. Məsələn, 220.8.4-cü maddədə "0,5" əmsalı "0,3" əmsalı ilə əvəz olunmuşdur, bununla da fiziki şəxsin sahibliyində olan yaşayış

və qeyri-yaşayış sahəsi başqa rayon yaxud şəhər və qəsəbədə yaxud kənddə yerləşdiyi halda satınalınma zamanı müəyyənləşdirilmiş sadələşdirilmiş verginin məbləği daha aşağı əmsallarla vurulacaq.

Dediklərimizi daha da aydınlaşdırmaq məqsədilə yenidən bir praktiki misala nəzər salaq.

Fərz edək ki, Xudat rayonu ərazisində yaşayan şəxs iki ildə qeydiyyatda olduğu sahəsi 90m^2 təşkil edən evinin qohumu olmayan, yəni öz ailəsinə dail olmaya bir şəxsə satmaq qərarına gəlmişdir. Evin alqı-satqısı ilə bağlı bu əməliyyat 2021-ci ildən baş tutsaydı, notariusun ödəniş üçün tələb etdiyi sadələşdirilmiş vergi 450AZN-ə bərabər olacaqdı: 60 m^2 (yaşayış sahəsinin 30m^2-ı güzəştə düşdüyü nəzərə alınır) x 15AZN x 0,5 əmsala = 450AZN. Ancaq qanunvericilikdə aparılmış və yuxarıda haqqında danışdığımız əlavə və dəyişikliklərdən sonra sözügedən vergi 270AZN-ə bərabər olacaq: 60 m^2 (yaşayış sahəsinin 30m^2-ı güzəştə düşdüyü nəzərə alınır) x 15AZN x 0,3 əmsala = 270AZN.

Qeyd etdiyimizdən aydın olur ki, aparılmış dəyişikliklərdən sonra verginin məbləği 180AZ miqdarında kiçilir: 450AZN (2021-ci il üçün hesablanmış vergi) – 270AZN (2022-ci il üçün hesablanmış vergi) = 180AZN. Belə bir kifayət qədər əhəmiyyətli fərqin yaranması evini satan şəxsin vergi yükünün aşağı salınması anlamına gəlir.

Növbəti misala nəzər salaq. Fərz edək ki, şəxs Goranboyda yerləşə, sahəsi 60m^2 olan qeyri-yaşayış sahəsini satmaq qərarına gəlmişdir. Satış əməliyyatı 2021-ci ilə təsadüf etsəydi, notariusun tələb edəcəyi sadələşdirilmiş vergi 675AZN-ə bərabər olacaqdı: 60 m^2 x 15AZN x 1,5 əmsala (qeyri-yaşayış sahələri üzrə nəzərdə tutulan əmsal) x 0,5 əmsala (ümumi əmsaldır) = 675AZN. Lakin alqı-satqı əməliyyatı 2022-ci ilə təsadüf etdiyinə görə notariusun tələb edəcəyi sadələşdirilmiş vergi əvvəlki qeyd etdiyimiz məbləğdən az olmaqla 405AZN-ə bərabər olacaq: 60 m^2 x 15AZN x 1,5 əmsala (qeyri-yaşayış sahələri üzrə nəzərdə tutulan əmsal) x 0,3 əmsala (ümumi əmsaldır) = 405AZN.

İndi isə Vergi Məcəlləsinin 221-ci maddəsinə keçək. Həmin maddə sadələşdirilmiş vergi məbləğinin hesablanma qaydasına, eləcə də ödəniş üçün nəzərdə tutulan müddətə və vergi bəyannaməsinin verilməsinə həsr olunur.

İlk öncə kimlərin icbari tibbi sığorta üzrə bəyannamələri vermək öhdəliyinin olduğuna aydınlıq gətirək.

Məsələ burasındadır ki, 2021-ci ildən sonra fərdi sahibkarlıqla məşğul olan şəxslər, həmçinin sabit qəbzlər əsasında öz vergisinin ödənişini aparan sahibkarlıq subyektləri icbari tibbi sığortanın haqlarının müəyyənləşdirilməsində kifayət qədər ciddi çətiliklərlə üzləşirdi. İş ondadır ki, sabit qəbzlərin əldə edilməsi üçün sabit vergi və məcburi dövlət sosial sığorta haqları ödənilir. Odur ki, icbari tibbi sığorta ilə əlaqədar ayrı hesabat təqdim etmək zərurəri yaranırdı. Vergi Məcəlləsindəki 221-ci maddəyə edilən dəyişiklikdən sonra sabit qəbiz əldə edilməsi məqsədilə hər üç icbariödəmənin aparılmasına artıq zərurət yaranmır. Təsadüfi deyil ki, sahibkarlıq subyektinin icbari tibbi sığorta ilə əlaqədar bəyanmanın təqdim olunması öhdəliklərinə də son qoyulub.

Növbəti sualımız lotereya və mərc oyunları ilə əlaqədar vergi qanunvericiliyində hansı dəyişikliklərin edilməsi ilə bağlıdır.

Burada, ilk əvvəl, 4 mühüm məqamın mövcud olduğunu diqqətinizə çatdırmalıyıq.

Məlumdur ki, dövlət başçımızın 27 dekabr 2021-ci ildə imzaladığı fərmanla Vergi Məcəlləsində dəyişikliklərin aparılmasını özündə əks etdirən Qanun təsdiq edilmişdir. Həmin Qanunla əlaqədar aşağıdakı mühüm məsələlərin qeyd edilməsini vacib bilirik:

1. Sahibkarlıq subyektləri idman mərc oyunlarının biletlərini satarkən də lotereya biletlərdə olduğu kimi kassa-nəzarət aparatlarından istifadə etməlidirlər. Yəni həmin aparatlar quraşdırılmadan sözügedən biletlərin satışının reallaşdırılması qanunvericiliyə ziddir. Bunun tələbini özündə ehtiva edən dəyişikliklər Vergi Məcəlləsindəki 16.1.8.4-cü maddəsində həyata keçirilmişdir.
2. Lotereyalar və idman mərc oyunlarının biletləri satılarkən müvafiq informasiya sisteminin köməyi ilə hər gün Dövlət Vergi Xidmətinə bununla bağlı məlumatlar göndərilməlidir. Məlumdur ki, Vergi Məcəlləsinə 16.1.11-12-ci maddəsi əlavə edilmişdir. Həmin maddədə göstərilir ki, lotereyaların təşkilatçıları lotereyanın biletrlərini, idman mərc oyunlarının operatorları isə idman mərc oyunlarının biletlərini, eləcə də elektron mərc oyunlarının biletlərini satarkən lotereyaların biletlərinin və idman mərc oyunlarının

satıcılarının haqları yaxud mükafatları barədə informasiyaları səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş orqanın yaxud strukturun təsdiqlədiyi formaya uyğun olaraq lotereyaların təşkilatçılarının və idman mərc oyunlarının operatorlarının sərəncamında olan uyğun məlumatları bunun üçün nəzərdə tutulmuş informasiya sistemləri və mərkəzi mərc oyunları sistemlərinin köməyi ilə hər gün səlahiyyətli icra hakimiyyətinin orqanı tərəfindən müəyyənləşdirilmiş orqan yaxud strukturun informasiya sisteminə göndərilməsi sahibkarlıq subyektinin öhdəliklərini daxil olunub.

3. Gəlir vergisindən azadolma məbləğində artımlara gedilib. Beləliklə, Vergi Məcəlləsindəki 102.1.26-cı maddəsində göstərildiyi kimi, lotereyaların təşkilatçılarının keçidrikləri lotereya oyununbdab pul formasında əldə olunan 500AZN-ə qədər uduşların gəlir vergisindən azad edilməsi nəzərdə tutulur. Həmçinin demək lazımdır ki, qeyd olunmuş maddədəki mətninin öncəki redaksiyasında göstərilirdi ki, maliyyə bazarlasına nəzarəti həyata keçirən orqanda qeydiyyata durmuş lotereya oyunlarından pul formasında əldə olunan uduşların 10AZN-ə qədər olan hissəsinin gəlir vergisindən azad edilməsi nəzərdə tutulmuşdur.
4. Lotereya biletlərinin satışını həyata keçirən şəxslərlə imzalanmış müqavilə yaxud onların tapşırığına görə lotereyanın oynanılmasında iştirak edən biletlərin bütün etaplarda agent qismində satışlarının reallaşdırılması ilə bağlı təqdim edilən xidmətlərə görə daxil olan gəlir məbləğləri sahibkarlıq subyektinin tipinə müvafiq olaraq mənfəət, gəlir yaxud əlavə dəyə vergisindən azad olunur.

İndi isə əlavə dəyər vergisi ilə əlaqədar hansı düşəlişlərin hələ Milli Məclisin müvafiq komissiyalarında müzakirə olunduğuna şərh verək.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, Vergi Məcələsində aparılan dəyişikliklərlə əlaqədar Milli Məclisdə aparılan müzakirələrin gündəliyində olan məsələ 164.1.51-ci maddə ilə bağlıdır. Bu maddənin məzmununa uyğun olaraq, "Tibb sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən icbari tibbi sığorta fondunda olan vəsaitlər hesabına tibbi xidmətlərin təqdim edilməsi 1 yanvar 2020-ci ildən başlayaraq iki il ərzində əlavə dəyər vergisindən azad olunur.

Maddənin məzmunundan aydındır ki, tətbiq olunan güzəşt müəyyən bir müddətə bağlı olduğu üçün 2022-ci ilin yanvarından etibarən onun hüquqi qüvvəsi bitəcək. Milli Məclisdəki müzakirələrdə gündəlikdə olan qanun layihəsində təklif olunduğu kimi, bu müddətin üç ilə qədər uzadılması istənilir. Milli Məclis tərəfindən qəbul olunduğu, dövlət başçımız tərəfindən isə təsdiq edildiyi təqdirdə Vergi Məcəlləsindəki 164.1.51-ci maddəsində göstərilən müddətin bir ilə qədər uzadılması, yəni bir il də qüvvədə qalması öz rəsmi təsdiqini tapacaq.

Daha bir mühüm məqamı qeyd etməyi lazım bilirik ki, Vergi Məcəlləsində yer alan 102.1.24, 106.9 və 218-1.2-ci maddələrin məzmununda nəzərdə tutulmuş POS-terminalların tətbiqi ilə nağdsız formada həyata keçirilən ödənişlərlə bağlı müvafiq vergi məbləğinin 25%-i miqdarında aşağı salınması ilə əlaqədar güzəştlər 2019-cu il yanar ayının birindən etibarən üç il ərzində qüvvədə qalmışdı. 2022-ci il yanvarın birindən bu madələrlə bağlı azadedilmə müddəti tamamlanmış hesab edilməlidir.

Bəs fərdi sahibkarlıqla məşğul olan şəxslərin sosial ayırma və icbari kredit sığorta ilə bağlı öhdəliklərin hesablanması necə aparılır?

Azərbaycan Respublikasının "Sosial sığorta haqqında" Qanunun 14.5-ci maddəsinə uyğun olaraq fərdi sahibkarlıqla məşğul olan şəxslərin sosial ayırmaları aşağıda göstərildiyi kimi hesablanmalıdır:

Sahibkarlıq fəaliyyətilə məşğul olan şəxslərlə bağlı – minimal aylıq əmək haqqının inşaat və ticarət sferalarında 25%-i, başqa sahələrdə 15%-i miqdarının:

- Bakıda 100%-i;
- Sumqayıtda və Gəncədə 90%-i;
- Başqa şəhərlərdə 80%-i;
- Rayonların inzibati ərazi vahidlərinin inzibati mərkəzləri hesab edilən inzibati ərazi vahidlərində və qəsəbələrdə 60%-i;
- Kənd yerlərində 50%-i həcmində məcburi dövlət sosial sığorta haqları.

Hal-hazırda minimum əmək haqqının 300AZN-ə çatdığını nəzərə almaqla qanuna edilmiş dəyişiklikləri əyani misallar vasitəsilə cədvəl şəklində qruplaşdırmağı məqsədəuyğun hesab edirik:

Sıra	Ərazilər	İnşaat sferasında (minimal aylıq əmək haqqının 50%-nin)	Başqa sferalarda (minimal aylıq əmək haqqının 25%-nin)
1	Bakıda 100%-i	150AZN: 300AZN x 50% x 100% = 150AZN	75AZN: 300AZN x 25% x 100% = 75AZN
2	Sumqayıtda və Gəncədə 90%-i	135AZN: 300AZN x 50% x 90% = 135AZN	62,5AZN: 300AZN x 25% x 90% = 62,5AZN
3	Başqa şəhərlərdə 80%-i	120AZN: 300AZN x 50% x 80% = 120AZN	60AZN: 300AZN x 25% x 80% = 60AZN
4	Rayonların inzibati ərazi vahidlərinin inzibati mərkəzləri hesab edilən inzibati ərazi vahidlərində və qəsəbələrdə	90AZN: 300AZN x 50% x 60% = 90AZN	45AZN: 300AZN x 25% x 60% = 45AZN
5	Kənd ərazilərdə 50%-i	75AZN: 300AZN x 50% x 50% = 75AZN	37,5AZN: 300AZN x 25% x 50% = 37,5AZN

Qeyd: *Fərdi sahibkarlıqla məşğul olan şəxslər minimal əmək haqqı miqdarında 4% həcmində - 12AZN məbləğində icbari tibbi sığorta haqqını ödəməyə borcludur: 300AZN (minimal əmək haqqı) x 4% (icbari tibbi sığorta dərəcəsi) = 12AZN.*

4.6. ƏMLAK VERGİSİ

Vergi Məcələsinin 196-cı maddəsi əmlak vergisinin vergi ödəyicilərinin müəyyənləşdirilməsinə həsr olunur.

Məcəllədə yer alan 197-ci maddəsində qeyd olunmuş vergitutma obyektləri qismində çıxış edən fiziki şəxs və müəssisələr əmlak vergisinin ödəyiciləri hesab olunur.

Vergi Məcələsinin 197-ci maddəsi isə əmlak vergisinin vergitutma obyektlərinin müəyyənləşdirilməsinə həsr olunur.

Belə ki, vergitutma obyektləri sırasında aşağıdakılar yer alır:

- Rezident və qeyri-rezident qismində çıxış edən fiziki şəxslərin özəl mülkiyyətində olan və Azərbaycanın hüdudları daxilində yerləşən tikili yaxud tikililərin hissələri, onları bina deyə adlandırcacğıq, eləcə

də yerləşməsindən və istifadədə olub-olmamasından asılı olmayaraq rezident qismində çıxış edən fiziki şəxslərə aid su və hava nəqliyyatı;
- müəssisə və fərdi sahibkarlıqla məşğul olan şəxslərin sahibliyində yaxud sərəncamında olan əsas vəsaitlər (Vergi Məcəlləsinin 197.1.1-ci maddəsində qeyd edilmiş aktivlərdən başqa);
- Azərbaycanda özünün daimi nümayəndəliyinin köməyi ilə sahibkarlıq fəaliyyət istiqamətində öz işini qrumuş şəxslər üçün – ancaq daimi nümayəndəliklə əlaqəli olan əsas vəsaitlər (Vergi Məcəlləsinin 197.1.1-ci maddəsi ilə müəyyən olunan aktivlərdən başqa).

Vergi Məcəlləsinin 197.2-ci maddəsindən öyrənirik ki, vergitutma obyekti qismində çıxış edən, müəssisə yaxud fərdi sahibkarlıqla məşğul olan şəxslər tərəfindən hüquqi şəxsin yaradılmasına gedilmədən birgə fəaliyyət həyata keçirmək məqsədilə birləşdirilən əsas vəsaitlərin dəyəri, həmin vəsaitləri (Vergi Məcəlləsinin 197.1.1-ci maddəsində qeyd olunmuş aktivlərdən başqa) birləşdirən birgə fəaliyyətin iştirakçıları tərəfindən vergilərin ödənilməsinə cəlb olunması məqədlərinə idmət edən vergi bəyannaməsinə daxil edilir. Birgə fəaliyyətin həyata keçirilməsi nəticəsində yaradılan (alınan) əsas vəsaitlərin (Vergi Məcəlləsinin 197.1.1-ci maddəsində qeyd olunmuş aktivlərdən başqa) dəyəri isə birgə fəaliyyətdə iştirak edən tərəflərin müqavilə əsasında mülkiyyətlərində müəyyən edilmiş pay barədə uyğun şəkildə vergi bəyannaməsinə daxil olunmalıdır.

Vergi Məcəlləsinin nəzər salacağımız növbəti maddə 198-dir və vergi dərəcələrinə həsr olunub.

198.1-ci maddəsində göstərilir ki, fiziki şəxslər tərəfindən binalar, su və hava nəqliyyatı vasitələri üçün əmlak vergisinin ödənişini aşağıda qeyd edilən qaydalar çərçivəsində və dərəcələr üzrə yerinə yetirməlidirlər.

1. Bu şəxslərin xüsusi mülkiyyəti kimi dəyərləndirilən binaların sahəsinin (burada yaşayış sahələrinin 30m^2-lik sahədən çox olan hissəsi nəzərdə tutulur) hər bir m^2 müqabilində aşağıda təqdimk olunan cədvəldə əks etdirilən dərəcələrin tətbiq edilməsi nəzərdə tutulmuşdur (bina Bakında yerləşirsə, bu dərəcələrə səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilmiş 0,7 əmsalından aşağı və 1,5 əmsalından çox olmamaq şərtilə əmsallar tətbiq olunmaqla):

Yaşayış məntəqələri	**Fiziki şəxslərə malik, yəni onların mülkiyyəti qismində çıxış edən yaşayış və qeyri-yaşayış sahələri (manat)**
Bakıda	0,4
Gəncədə, Sumqayıtda və Abşeronda	0,3
Başqa şəhərlərdə (rayonların tabeçiliyində olan şəhərlərdən başqa), rayonların mərkəzlərində	0,2
Rayonların tabeçiliyində olan şəhərlər, qəsəbə və kəndlərdə (Bakının və Sumqayıtın, eləcə də Abşoronun qəsəbələri və kəndlərində başqa)	0,1

2.Su və hava nəqliyyəti vasitələri üzrə:

- su nəqliyyatında quraşdırılmış mühərrikin hər 1sm^3 üçün 0,02AZN;

- hava nəqliyyatında quraşdırılmış mühərrikin hər 1sm^3 üçün 0,02AZN;

- mühərriki quraşdırılmamış hava və su nəqliyyatları üzrə - onların bazar dəyərinin bir faizinə bərabər olmaqla.

Vergi Məcəlləsinin 198.2-ci maddəsində göstərilir ki, fərdi qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər əsas vəsaitlərinin Məcəllədəki 202-ci maddəsinə əsasən təyin edilən dəyərindən bir faizə bərabər dərəcəsinə uyğun olaraq əmlak vergisi ödəməlidirlər.

İndi isə Vergi Məcəlləsinin 199-cu maddəsinə keçək. Burada vergi güzəştləri və azadolunmalarla tanış olacağıq.

İlk öncə qeyd etmək lazımdır ki, dövlət hakimiyyəti orqanları, büdcədən maliyyələşən təşkilatlar, habelə yerli özünüidarəetmə orqanları, Azərbaycanın Mərkəzi Bankı və tabeçiliyində olan qurumlar, dövlətin adından formalaşdırılan publik hüquqi şəxslər (sahibkarlıq fəaliyyətinin məqsədləri üçün istifadə edilən əmlakla bağlı ödənilməsi tələb olunan əmlak vergisindən başqa), dövlətin tabeçiliyində olan fondlar, eləcə də əlillik təyin edilmiş insanların qeyri-hökumət təşkilatları əmlak vergisinin ödənilməsindən azad olunur. Bu, Vergi Məcəlləsinin 199.1-ci maddəsi ilə müəyyən edilir.

Məcəllənin 199.2-ci maddəsində isə göstərilir ki, misgərliklə, qalayçılıqla, duluşçuluqla və saxsı qabların, təsərrüfat məmulatların, baçılıqda və bostançılıqda istifadə edilən aələtrin, xalq musiqisi

alətlərinin, oyuncaqların, suvenir məhsullarının, qamış və qarğı materiallarından məişət əşyalarının hazırlanmasılə, keramikadan istehsal edilmiş müxtəlif məhsulların bədii tərtibatı ilə, bədii tikmə naxışlarla, ağac məhsullarından məişət alətlərinin düzəldilməsi ilə məşğul olmaq istiqamətində hüquqi şəxsi yaratmamaq şərtilə sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin sənətkarlıq emalatxana və bu kimi digər istehsal sahələrinin yerləşdiyi binalar yaxud binaların həmin emalatxanaların yerləşdiyi hissələri əmlak vergisindən azaddır.

199.3-cü maddəsindən isə aydın olur ki, binaları icarəyə, kirayəyə verilməsi, eləcə də sahibkarlıqla yaxud kommersiya fəaliyyəti ilə məşğul olmaq məqsədilə istifadə olunma hallarından başqa Vergi Məcəlləsinin 102.2-ci maddəsi ilə müəyyən olunan şəslərin, eləcə də pensiya yaşına çatmış insanların və müddətli hərbi xedmət keçən hərbçilərin, eləcə də onların ailə üzvlərinin müddətli hərbi xidmətin keçildiyi dövrdə binalarla bağlı ödəmək öhdəliyi olduqları əmlak vergisinin miqdarı 30AZN məbləğinə aşağı salınır.

Vergi Məcəlləsinin 199.4-cü maddəsində nəzərdə tutulur ki, vergitutma məqsədləri üçün təşkilatın və fərdi sahibkarlıqla məşğul olan şəxslərin mülkiyyətində olan əmlakın dəyəri qədər aşağı salınır:

1. Ekologiyanın, yandğından müdafiənın yaxud mülki müdafiənin məqsədləri üçün istifadə olunan əsas vəsaitlər;
2. Məhsulun ötürülməsi prosesində istismar edilən kəmərlər, dəmir və avtonəqliyyat yolları, rabitə və enerjinin ötürülməsi üçün nəzərdə tutulan xətlər, meliorasiya və suvarılma sisteminə daxil olan obyektlər, kosmik peyklər və başqa kosmik qurğular;
3. Fiziki şəxslərin mülkiyyətində olan və sahibkarlıq fəaliyyəti zamanı istismar edilməyən minik avtonəqliyyat vasitələri;
4. Təhsildə, tibb sferasında, mədəniyyətlə və idmanla bağlı sahələrdə iş fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektləri ancaq qeyd edilmiş sferaların təyinatı üzrə tətbiq etdikləri əsas vəsaitlər.

199.5-ci maddəsində deyilir ki, şəhərlərdə sərnişinlərin daşınması yönümdə istismar edilən trolleybus və tranvay tipli nəqliyyat vasitələrinə əmlak vergisi tətbiq edilmir.

Vergi Məcəlləsinin 199.7-ci maddəsindən isə aydın olur ki, səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən verilmiş qərara uyğun olaraq formalaşdırılan sənaye

parkların və ya texnoparkların rezidenti qismində çıxış edən hüquqi şəxs və hüquqi şəxsin yaradılmasına getmədən sahibkarlıqla məşğul olan fiziki şəxs Azərbaycan qanunvericiliyinə əsasən sənaye parkında yaxud texnoparkda qeydiyyatdan keçdiyi hesabat ilindən etibarən on il ərzində sənaye parkında yaxud texnoparkda öz əmlakı müqabilində əmlak vergisindən azad olunur.

199.8-ci maddənin mətnində isə deyilir ki, səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən verilmiş qərara uyğun olaraq formalaşdırılan sənaye parkların və ya texnoparkların idarəetməsi ilə məşğul olan təşkilat yaxud operatoru sənaye parkının yaxud texnoparkların ərazisindən yerləşdirilən öz əmlakları müqablində mlak vergisindən azad olunur.

Vergi Məcəlləsinin 199.9-cu maddəsindən öyrənirik ki, kənd təsərrüfatında məhsulların istehsal edilməsi (həmçinin sənaye üsulu ilə istehsal da daxil olmaqla) istiqamətində fəaliyyət göstərən istər hüquqi, istərsə də fiziki şəxs bu fəaliyyət gedişatında istifadə etdiyi əmlakla əlaqədar 1 yanvar 2014-cü ildən başlayaraq on il ərzində əmlak vergisindən azad edilir.

199.11-ci maddəsindən aydın olur ki, investisiyaların təşviqi sənədi təqdim edilmiş şəxslər yaxud fərdi sahibkarlıaq sözügedən sənədin təqdim edildiyi gündən uyğun investisiya layihəsi hüdudlarında investisiya vəsaitləri hesabına əldə olunmuş (alınmış, idxal edilmiş, istehsal olunmuş, inşa edilmiş yaxud quraşdırılmış) əmlak üzrə yeddi il ərzində əmlak vergisi ödəmir. Bu maddədə müəyyənləşdirilmiş azadolma investisiya təşviqi sənədinin əldə edildiyi günə qədər və hüquqiş şəxslərin yaxud fərdi sahibkarların öz fəaliyyətlərində istifadə etdikləri əmlaklara tətbiq olunmur. Bu maddədə müəyyənləşdirilmiş azadolma investisiya layihəsinin hüdudlarında sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı istifadə olunmamış binalara da aid edilir.

Vergi Məcəlləsinin 199.12-ci maddəsində göstərilir ki, 1 yanvar 2019-cu ildən başlayaraq 1 yanvar 2022-ci ilə qədər özəlləşdirilmiş dövlət əmlakları üçün ödənişi həyata keçirilmiş əmlak vergisinin aşağıda göstərilmiş şərtlər çərçivəsində sahibkarlıq subyektinin yazılı ərizəsinə uyğun olaraq qaytarılması yaxud həmin sahibkarlıq subyektinin razılığına əsasən sonrada ödənilməli olan vergi məbləğlərinə aid edilməsi nəzərdə tutulmuşdur:

1. Hesabat ili ərzində başqa vergilərlə əlaqədar hesablanması aparılmış və ödənişi təmin edilmiş vergi məbləğləri özəlləşdirmə prosesi yekunlaşmış əmlaklar üzrə bu hesabat ilinə görə büdcəyə köşürülməsi məqsədilə hesablanmış vergi məbləğindən aşağı olmasın;
2. Ödənişi həyata keçiirlmiş əmlak vergisinin qaytarılması ilə bağlı yazılı formada təqdim olunmuş ərizə ilə müraciət olunduğu günə sahibkarlıq subyektinin büdcəyə vergi, faiz və maliyyə sanksiyası üzrə ödənilməmiş borclar qalmasın;
3. Vergi Məcəlləsinin 199.12-ci maddəsinə görə müəttənləşdirilmiş güzəştlər üzrə hüquqlar eyni əmlaklara üçün ancaq bir hesabat ilində tətbiq oluna bilər;
4. Mikrosahibkarlıqla məşğul olan vergi ödəyicisi əmlak vergisi ilə bağlı öhdəlikləri yerinə yetirməkdən azad olunur (sahibliyində olan əsas vəsaitlərin ilin əvvəlinə qalıq dəyəri 1 000 000AZN-dən çox olan şəxslərdən başqa);
5. KOB klaster şirkəti KOB klaster şirkətlərin yer aldığı reyestr siyahısına daxil olunduğu gündən KOB klaster fəaliyyətində istifadə olunduğu əmlaklar üzrə yeddi iş ərzində əmlak vergisinin ödənilməsindən azad olunurlar.

Vergi Məcəlləsinin 199.16-cı maddəsindən aydn olur ki, səlahiyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyənləşdirilmiş orqan yaxud struktur ("Azərkredit QSC Bank Olayan Kredit Təşkilatı, habelə "Azərbaycan Sənaye Korporasiyası" ASC) ödəniş qabiliyyətindən məhrum olmuş banklar üzrə rezolyusiyası və sağlamlaşdırma üzrə tədbirlər hüdudlarında səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyənləşdirilmiş orqanın yaxud strukturun (Azərbaycan Respublikasının Prezidentinin) verdiyi qərara əsasən əldə etdiyi problemli aktivlərin yaxud borc məbləğlərinin əvəzində aldığı, onun mülkiyyəti olan yaxud balansında yer alan və siyahıları səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyənləşdirildiyi orqan yaxud qurum (AR İqtisadiyyat Nazirliyi) ilə razılaşdırılması həyata keçirilmiş əmlaklarla bağlı 1 yanvar 2019-cu ildən başlayaraq beş il ərzində əmlak vergisinin ödənilməsindən azad olunur.

İndi isə Vergi Məcəlləsinin 200-cü maddəsi ilə tanış olaq. Burada fiziki şəxslərin əmlak vergisinin hesablanmasının və ödənilməsinin necə aparılması ilə bağlı qaydalar öz əksini tapır.

200.1-ci maddədə göstərilir ki, binalara görə əmlak vergisi əmlakın sahəsinin hər $1m^2$-na uyğun olaraq hesablanmalıdır.

Fiziki şəxsin özəl mülkiyyətindəki binalar üzrə əmlak vergisinin hesablanması onların mövcud olduqları ərazilərin bələdiyyələri tərəfindən həyata keçirilir.

Məcəllənin 200.2-ci maddəsindən aydın olur ki, bir neçə sahibinə malik binalara görə əmlak vergisinin tətbiqi və hesablanması bu binaların hər sahibi üçün onların binaların sahəsində mövcud olan paylarına müvafiq şəkildə Vergi Məcəlləsinin 200.1-ci maddəsində qeyd edilmiş qaydalara əsasən aparılır.

2003-cü maddədən öyrənirik ki, su və hava nəqliyyatına görə ödənilməli olan vergi sözügedən nəqliyyat vasitələrin qeydiyyatını yerinə yetirən qurumların verdiyi məlumatlara əsasən hər il yanvar ayının birinə olan vəziyyətə görə hesablanmalıdır. Əgər bu kimi qeydiyyat yoxdursa, o zaman bu əmlakın mülkiyyətçisi sahibliyində olan su və hava nəqliyyat vasitələri ilə bağlı zəruri informasiyaları, yəni buraxıldığı il, alış qiyməti və texniki göstəricilərlə bağlı bilgilərin yer aldığı sənədləri hər il yanvarın birinə qədər səlahiyyətli orqana təqdim etməlidir.

Əgər su yaxud hava nəqliyyat vasitəsi bir neçə fiziki şəxsin sahibliyində olarsa, həmin nəqliyyat üçün vergi bu vasitəni öz adına rəsmiləşdirən şəxsdən tutulacaq.

Vergi Məcəlləsinin 200.4-cü maddəsində uyğun olaraq, bələdiyyələr vergi məbləğinin ödənilməsi haqqında tədiyə bildirişini sahibkarlıq subyektlərinə 1 avqust tarixdən gec olmamaq şərtilə təqdim etməlidir.

200.5-ci maddədən öyrənirik ki, cari təqvim ilinə görə vergi ilə bağlı hesablanmış məbləğ bərabər hissələrə - həmin il avqust ayının 15-ə qədər və noyabr ayının 15 qədər ödənməlidir. Əmlak vergisi əmlakların öncəki sahibi tərəfindən ödənilməmişsə, vergi maddənin mətnində müəyyənləşdirilmiş ödəmə vaxtında bu əmlakın mülkiyyətçisi tərəfindən ödənilməlidir.

200.6-cı maddədə qeyd olunur ki, binalar, su və hava naqliyyatı

üzrə fiziki şəxs tərəfindən əmlak vergisinin ödənilməsi yerli büdcəyə, yəni bələdiyyələrin büdcəsinə köçürülməklə təmin olunur.

Aydınlıq gətirəcəyimiz növbəti maddə 201-dir. Burada müəssisələrin və fərdi sahibkarlıqla məşğul olan şəxslərin əmlak vergisi məbləğinin hesablanması və ödənilməsi haqqında danışılır.

201.1-ci maddəsindən aydın olur ki, verginin tətbiqi məqsədləri üçün təşkilatın yaxud fərdi sahibkarlıqla məşğul olan şəxsin əsas vəsaitlərin orta illiq qalıq dəyəri Vergi Məcəlləsinin 202-ci maddəsinə əsasən müəyyən olunur.

201.1.1-ci maddəsində isə deyilir ki, təşkilatın və fərdi sahibkarlıqla məşğul olan şəxsin əsas vəsaitləri qalıq dəyərindən daha yüksək qiymətə sığortalanıbsa, onda əmlak vergisinin tətbiqi Vergi Məcəlləsinin 14-cü maddəsində yer alan tələblərə uyğun müəyyən olunmuş dəyərə əmlak vergisi dərəcəsi ilə həyata keçirilməlidir. Sığorta olunan əsas vəsaitlərin dəyəri bazar qiyməti ilə müəyyənləşdirildiyi təqdirdə Vergi Məcəlləsinin 202-ci maddəsində yer alan müddəalar tətbiq edilməlidir.

201.2-ci maddədə göstərilir ki, təşkilatın və fərdi sahibkarlıqla məşğul olan şəxsin əmlak vergisinin tətbiqi məqsədilə nəzərə alınan vergi dövrü bir təqvim ili qədər götürülür.

Vergi Məcəlləsinin 201.3-cü maddəsinə uyğun olaraq, təşkilatlar və fərdi sahibkarlıqla məşğul olan şəxslər cari vergi ödənişləri qismində hər rübün 2-ci ayının 15-ci günündən gec olmamaq şərtilə öncəki ildə müəyyənləşdirilmiş əmlak vergisinin 20%-i qədər vergini ödəməlidir.

Ötən hesabat ili ərzində əmlak vergisini ödəməyən şəxslər və növbəti il ərzində həmin verginin ödəyicisi qismində dəyərləndirilən şəxslər, eləcə də yeni formalaşdırılmış və əmlak vergisinin ödəyiciləri hesab edilən hüquqi şəxslər və fərdi sahibkarlıqla məşğul olan şəxslər əsas vəsaitlərin əldə olunduğu rübdən sonrakı hər rübün 2-ci ayının 15-ci günündən gec olmama şərtilə bu əmlaklar üzrə hesablanması aparılmalı olan illik əmlak vergisinin 20%-i qədər cari vergi ödənişlərini yerinə yetirməlidir.

Əmlak vergisi ilə bağlı cari vergilərin ödənilmə məbləğləri vergi ili üzrə sahibkarlıq subyektindən tutulan verginin miqdarına aid olunur.

Vergi Məcəlləsinin 201.4-cü maddəsində göstərilir ki, büdcəyə

hesabat dövri üzrə ödənilməsi təmin edilməli olan vergi məbləğləri hesabat dövri üzrə əvvəlki dönəmlərdə hesablanmış ödənişlər nəzərə alınmaqla müəyyən olunur.

Cari vergilər üzrə ödəmələr Vergi Məcəlləsinin 201.3-cü maddəsinin tələbləri ilə müəyyənləşən müddət ərzində ödənilməsə, o zaman ödəmənin həyata keçirilməli olan müddətdən sonrakı hər keçən günə görə sahibkarlıq subyektindən ödənilməsi təmin edilməmiş vari vergilər üzrə Vergi Məcəlləsinin 59-cu maddəsilə nəzərdə tutulan qaydada faizlərin hesablanması yerinə yetirilməlidir.

Əmlak vergisi ilə bağlı cari vergilərin ödənilməsi hesabat ilindən sonra təkrarən haqq-hesab edilməli və belə olan halda hesablanması aparılmış cari vergilərin məbləğləri hesabata görə vergi miqdarından daha çox olduğu təqdirdə, artıq hesablanmasına yol verilmiş cari vergi və ona müvafiq faizlərin məbləğləri azaldılmalıdır.

201.5-ci maddəyə əsasən, təşkilat və fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxs əmlak vergisi üzrə illik bəyannaməni hesabat ilindən sonra gələn ilin 31 martından gec olmamaq şərtilə vergi orqanlarına təqdim etməlidir.

Hüquqi şəxs yaxud qeyri-rezidentin fəaliyyət göstərdiyi daimi nümayəndəlik ləğv edilmə balansını qeydiyyatı yerinə yetirən orqanına təqdim etdiyi gündən 30 gün ərzində əmlak vergisi ilə bağlı bəyannaməni vergi orqanlarına təqdim etməlidir.

Əgər fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxsin bu fəaliyyətinə xitam verildiyi təqdirdə onun vergi uçotundan çıxarılması haqqında ərizəsinin təqdim olunduğu gündən 30 gün ərzində əmlak vergisi ilə bağlı bəyannamə mütləq şəkildə vergi orqanlarına təqdim edilməlidir.

201.6-cı maddədən aydın olur ki, il üzrə bəyannaəmələrə görə vergi məbləğləri bu vergi bəyannamələrinin təqdim edilməsi üçün nəzərdə tutulmuş müddətə qədər ödənilməlidir. Hesablanması aparılmış vergi məbləğləri Vergi məcəlləsində yer alan 119-cu maddə ilə məhdudlaşdırılmayan gəlirlərdən çıxılmalara aid olunur.

201.7-ci maddəsində göstərilir ki, təşkilatların və fərdi sahibkarlıqla məşğul olan şəxslərin əmlak vergisi büdcəyə köçürülməlidir.

Vergi Məcəlləsinin 202-ci maddəsi təşkilatların və fərdi sahibkarlıqla məşğul olan təşxlərin əmlaklarının vergilərinin tətbiq

edildiyi dəyərinin müəyyənləşdirilməsi qaydasına həsr olunur.

202.1-ci maddədən öyrənirik ki, vergitutmanın məqsədləri üçün təşkilatların və fərdi sahibkarlıqla məşğul olan şəxslərin əsas vəsaitlərinin orta illik qalıq dəyəri nəzərə alınır. Belə ki, təşkilatların və fərdi sahibkarlıqla məşğul olan şəxslərin əsas vəsaitlərinin orta illik qalığının dəyərinin hesablanması aşağıdakı qaydada həyata keçirilir:

202.1.1. Təşkilatların və fərdi sahibkarlıqla məşğul olan şəxslərin əsas əsaitlərinin hesabat ilinin ilk dövrünə və sonuna qalıq dəyəri toplanılmalı və 2-yə bölünməlidir. Təşkilatların və fərdi sahibkarlıqla məşğul olan şəxslərin əsas vəsaitlərinin orta illik qalıq dəyərinin hesablanması aparılarkən, əsas vəsaitləri təkrarən dəyərləndirilməsindən əmələ gəlmiş artımın, yəni təkrar dəyərləndirmə nəticəsində mələ gələn müsbət fərqin, nəzərə alınması mütləqdir.

202.1.2. Təşkilatlar və fərdi sahibkarlıqla məşğul olan şəxslər hesabatın ilində yaranırsa, uçota alınırsa, yaxud onlar əmlak vergisinin ödəyiciləri qismində çıxış edirsə, o zaman onların əsas vəsaitlərinin əmələ gətirildiyi, uçota alındıqları, yaxud əmlak vergisinin ödəyiciləri olduqları aydan sonra təqvim ilinin axırına kimi qalan ayların sayına vurulmalıdır.

202.1.3. Təşkilatlar və fərdi sahibkarlıqla məşğul olan şəxslər hesabat ilində ləğv edilirsə yaxud uçotdan çıxarılırsa, onlar məxsus əsas vəsaitlərin təqvim ilinin əvvəlinə və ləğv olunduqları yaxud uçotdan çıxarıldıqları tarixə olan qalıq dəyəri toplanılmalı və 24 ədədinə bölünməlidir. Həmçinin, təqvim ilinin əvvəlindən başlayaraq təşkilatlar ləğv olunduqları yaxud fərdi sahibkarlıqla məşğul olan şəxslər uçotdan çıxdıqları aya qədər bütün ayların sayına vurulmalıdır.

202.2. Haqqında danışdığımız maddədə fərdi sahibkarlıqla məşğul olan şəxslərə məxsus əsas vəsaitlərin orta illik qalıq dəyərinin müəyyənləşdirilməsi aparılarkən Vergi Məcəlləsinin 197.1.1-ci maddəsində qeyd olunmuş əsas vəsaitlərin nəzərə alınması tələb edilmir.

Vergi Məcəlləsinin 197-ci maddəsi əmlak vergisinin vergitutma obyektlərinə həsr olunur.

Bu maddə ilə bağlı aydınlıq gətirəcəyimiz sual əmlak vergisi ilə bağlı hansı ciddi dəyişikliklərin baş vern=məsi ilə bağlı olacaq.

Qeyd etmək lazımdır ki, əmlak vergisi il əlaqədar aparılmış

dəyişikliklər arasında fərdi sahibkarlıqla məşğul olan şəxslərin bəzi əsas vəsaitləri ilə bağlı əmlak vergisinin dövlət vergiləri sırasına aid edilməsini xüsusilə qeyd etmək lazımdır. Bu yeniliklə əlaqədar Məcəllənin 197.1.3-cü maddəsində aparılmış dəyişikliklərə uyğun olaraq, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin balansındakı əsas vəsaitlər (197.1.1-ci maddədə qeyd olunmuş aktivlərdən başqa) əmlak vergisi üzrə vergitutma obyekti qismində çıxış edir.

Həmçinin vuğrulamaq lazımdır ki, sözügedən Məcəllədə yer alan 197.1.1-ci maddədə qeyd olunmuş aktivlər rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və ölkəmizdə olan tikililərin yaxud onların müəyyən hissələrinin, eləcə də yerindən və istifadənin olub-olmamasından asılı olmayaraq rezident fiziki şəxslərə aid su və hava nəqliyyat vasitələridir.

Bu maddəniin məzmunundan görürü ki, 2022-ci il yanvar ayının 1-ə qədər qüvvədə olmuş Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxsin balansındakı əsas vəsaitlər (binalardan, su və hava nəqliyyatı vasitələrindən başqa) əmlak vergisi üzrə vergitutma obyektləri qismində çıxış etmir

Məsələn, fərz edək ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxsdən asılı olmayaraq, fərdi sahibkar 2021-ci ildə 100.000AZN-lik bu və ya digər dəzgaha malikdir, bu avadanlıqdan əmlak vergisinin hesablanması vergi qanunvericiliyi ilə nəzərdə tutulmur.

Bununla yanaşı, Vergi Məcəlləsinin 197.1.4-cü maddəsində aparılmış dəyişikliklərə uyğun olaraq, Azərbaycanda özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxs üçün – ancaq daimi nümayəndəliklə əlaqəli olan əsas vəsaitlər (Vergi Məcəlləsinin 197.1.1-ci maddəsində qeyd olunmuş aktivlərdən başqa) vergitutma obyekti qismində çıxış edir.

198- və 199-cu maddələrdə aparılmış dəyişikliklərlə bağlı qeyd etməliyik ki, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin balansındakı əsas vəsaitlər (Məcəllədəki 197.1.1-ci maddədə qeyd olunmuş aktivlərdən başqa) əmlak vergisi ilə bağlı vergitutma obyekti üzrə hər maddəyə görə təkrarçılığa yol verməyi lazım bilmədik.

Əmlak vergisi üzrə hesablanmış məbləğə gəldikdə isə deməliyik ki, təşkilatların və fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəslərin əmlak vergisi üzrə vergi məbləğlərinin hesablanması Məcəllədəki 201

və 202-ci maddələrə uyğun olaraq eyniləşdirilib. Bundan başqa, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər cari vergi ödəmələri qismində hər rüb üzrə rübdəki 2-ci ayın 15-dən gec olmamaq şərtilə ötən ildəki əmlak vergisi üzrə hesablanmış məbləğin 20%-i miqdarında vergi ödəmək öhdəliyi daşıyır.

İndi isə vergi Məcəlləsində yer alan 199-cu maddəyə toxunaq. Burada vergi güzəştləri və azadolmalar haqqında dnışılır.

Maraq doğuran sual əmlak vergisi ilə bağlı hansı güzəştlərin ləğv edilməsi ilə əlaqədardır.

Qeyd etməliyik ki, 199.4.2-ci maddədə yeni dəyişikliklərin təsdiq olunması ancaq redaktə xarakteri daşıyır, yəni güzəştlərin tətbiq edilməli olan əmlak növlərinin siyahısında bu və ya digər dəyişikliklər aparılmamışdır. Həmçinin qeyd olunmalıdır ki, Məcəllədəki 199.4.2-ci maddəsində də redaktə xarakterli dəyişikliklərin aparılmasından sonra aydın olur ki, məhsulun ötürülməsi istiqamətində istifadə edilən kəmərlər, dəmir və avtomobil nəqliyyatı üçün nəzərdə tutulan yollar, rabitə və enerji ötürücülüyü təyinatlı xətlər, meliorasiya və suvarma sisteminə daxil olan obyektlər, eləcə də peyk və bu kimi başqa kosmik obyektlər əmlak vergisindən azad olunur.

Kifayət qədər ciddi dəyişikliklər 199.4.43-cü maddəsindən aparılmışdır., Belə ki, burada əvvəlki redaksiyada göstərilirdi ki, vergitutma məqsədləri üçün təşkilata məxsus əmlakın dəyəri mexaniki nəqliyyat vasitələri dəyərində aşağı salınır, yəni güzəştin tətbiqi nəzərdə tutulur.

Maddədəki dəyişikliklər. yəni yeni redaksiyadan sonrakı yeniliklər isə ancaq fiziki şəxslərə aid sahibkarlıq fəaliyyətində tətbiq edilməyən minik avtinəqliyyat vasitələrinin əmlak vergisindən azad edilməsini nəzərə tutur.

Yuxarıda dediklərimizin daha aydın mənimsənilməsi məqsədilə praktiki bir misala nəzər salaq.

Fərz edək ki, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxs 30.000AZN dəyərində olan avtonəqliyyat vasitəsi ilə yüklərin daşınması istiqamətində çalışır. Yeni dəyişikliklərdən sonra, belə sahibkarlıq subyekti bu avtonəqliyya vasitəsinə görə əmlak vergisi üzrə hesablanmış məbləğləri dövlət büdcəsinə köçürməlidir.

İkinci misal olaraq qeyd edək ki, fərdi sahibkarlıqla məşğul olan

şəxs öz işində istifadə etmədiyi nəqliyyatlara görə əmlak vergi üzrə hesablamaları aparmayacaq.

199.4.4-cü maddədə də müəyyyən dəyişikliklər aparılmışdır. Nəticədə sözügedən maddə üzrə təhsil, tibb, mədəniyyət və idman sahələrində fəaliyyətini həyata keçirən sahibkarlıq subyektlərinin ancaq sadaladığımız istiqamətlər üzrə istifadə etdikləri əsas vəsaitlərə əmlak vergisi ilə bağlı güzəştlərin tətbiq olunması nəzərdə tutulmuşdur. Həmçinin nəzərə almaq lazımdır ki, təhsil, tibb, mədəniyyət və idman sferalarında öz fəaliyyətini həyata keçirən sahibkarlıq subyektləri dedikdə biz ancaq müəssisə və təşkilatları deyil, həmçinin fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxsləri də nəzərdə tuturuq.

Güzəştlərin aradan qaldırılması ilə əlaqədar ləğv olunan maddə 199.10-ci maddədir. Həmin maddədə deyilirdi ki, müəssisə və təşkilatların balansında yer alan, sərnişinlərin yaxud yüklərin daşınmasında istifadə olunan su nəqliyyatı vasitələri üçün ödənilməsi aparılan əmlak vergisi 25% aşağı salınır.

Bəs taksi fəaliyyəti istiqamətində öz işini qurmuş şəxs əmlak vergisini ödəməlidirmi?

Artıq qeyd olunduğu kimi, Vergi Məcəlləsində yer alan 199.4.3-cü maddə yeni redaksiyada təqim olunur və burada ancaq fiziki şəxslərə aid və biznes fəaliyyətində istifadə edilməyən minik avtonəqliyyat vasitələri əmlak vergisinin tətbiqindən azad olunur.

"Fərqlənmə nişanı" almaqla fərdi surətdə sərnişinlərinvə yüklərin daşınmasını yeirnə yetirən fərdi sahibkarlıq subyektləri tərəfindən əmlak vergisinin ödənilməsinin zəruriliyi maraq kəsb edən məsələlərdəndir. Məlum olduğu kimi, Vergi Məcəlləsində yer alan 199.10-cu maddədə güzəşt artıq ləğv edilmişdir, bu səbəbə görə taksi və yklərin daşınması istiqamətində öz fəaliyyətini qurmuş sahibkarlıq subyektlər üçün əmlak vergisinin ödənilməsi tələb olunmur (əgər onların əsas vəsaitlərinin qalıq dəyəri ilin əvvəli üçün 1 000 000 AZN-dən çox təşkil etmirsə). Buna görə də mikrosahibkarlıq subyekti qismində çıxış edən, fərdi şəkildə sərnişinlərin və yüklərin daşınmasını yerinə yetirən sahibkarlıq subyektlərinin əmlak vergisi ilə bağlı öhdəlikləri yaranmır.

4.7. TORPAQ VERGİSİ

Vergi Məcəlləsinin 203-cü maddəsi torpaq vergisinə həsr olunub.

203.1-ci maddədə deyilir ki, torpaq vergisinin tətbiqi mülkiyyətində torpaq olan şəxsin yaxud torpağın istifadəsini icarə yaxud başqa əsaslarla həyata keçirən şəxsin təsərrüfat fəaliyyətindən sonra əldəolunan nəticələrdən asılı olmayaraq torpaq üzrə hər il sabit tədiyə şəklində həyata keçirilir.

203.2-ci madddən öyrənirik ki, rezidentlər və qeyri-rezidentlər qismində çıxış edən şəxslər, eləcə də rezidentlər və qeyri-rezidentlər olan müəssisə və təşkilatlar haqqında onların mülkiyyətində yaud istifadələrində olan torpaqlarla bağlı müvafiq hüquqlarını təsdiq edə biləcək sənədlər alındıqdan sonra fiziki şəxs və bələdiyyə müəssisə və təşkilatları bələdiyyələrdə, başqa müəssisə və təşkilatlar isə vergi orqanlarında bir ay müddətində uçota durmaq üçün müvafiq qaydada müraciət etməlidirlər.

Vergi Məcəlləsinin 204-cü maddəsi ilə sözügedən verginin vergi ödəyicilərinə həsr olunub. Belə ki, ölkəmizdə mülkiyyətində yaxud başqa əsaslar üzərində torpağı olan o cümlədən də dövlət, bələdiyyə mülkiyyəti hesab edilən torpaqları icarə və başqa əsaslar üzərində istifadə edən fiziki şəxs və müəssisə yaxud təşkilat torpaq vergisi ödəyicisi qismində çıxış edir.

Vergi Məcəlləsinin 205-ci maddəsində isə sözügedən verginin vergitutma obyekti haqqında danışılır. Belə ki, fiziki şəxs və müəssisə yaxud təşkilat ölkəmizdə torpaq sahəsinin mülkiyyətçisi yaxud icarə, digər əsaslara üzərindən istifadəçisi qismində çıxış edirsə, həmin torpaqlar vergitutma obyekti kimi qəbul edilməlidir.

Vergi Məcəlləsinin 206-cı maddəsində isə sözügedən verginin vergi dərəcələri ilə tanış ola bilərik.

206.1-ci maddədə deyilir ki, Vergi Məcəlləsinin 206.1-1-ci maddəsi ilə nəzərdə tutulmuş hallardan başqa, kənd təsərrüfatına istifadə olunan torpaqlarla bağlı sözügedən verginin dərəcəsi torpağım hər $100m^2$-ı üçün 2AZN olaraq müəyyənləşdirilib.

206.1-1-ci maddədən aydın olur ki, səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycanın

Fövqəladə Hallar Nazirliyi, eləcə də Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti) tərəfindən verilmiş arayışa uyğun olaraq, təyinata əsasən istifadə olunan yaxud irriqasiya, meliorasiya, habelə başqa aqrotexniki səbəblər üzündən təyinatına uyğun istifadə olunması qeyri-mümkün hesab edilən və kənd təsərrüfatında dövriyyədə olan torpaqlara görə haqqında danışdığımız verginin dərəcəsi bir şərti bala üzrə 0,06AZN məbləğində müəyyənləşdirilir. Təyinatına uyğun istifadədə olan yaxud təyinatına uyğun istifadə olunması qeyri-mümkün olan və kənd təsərrüfatında dövriyyədə olan torpaqlar səlahiyyətli icra hakimiyyəti orqanının (Azərbaycan Respublikası Nazirlər Kabinetinin) təsdiqlədiyi qayda və meyarlara əsasən müəyyənləşdirilir.

206.3-cü maddədə göstərilir ki, Vergi Məcəlləsinin 206.1- və 206.1-1-ci maddələrində nəzərdə tutulan torpaqlardan başqa, torpaqların hər 100m^2 üzrə aşağıda qeyd edilən dərəcələrin tətbiqi nəzərdə tutulur:

Yaşayış məntəqələri	Sənayedə, inşaatda, nəqliyyatda. Rabitədə, ticarət və məişət xismətlərində, habelə başqa xüsusi sahələrdə istifadə olunan torpaqlar (AZN)		Yaşayış fondları, həyətyanı sahələrinə aid torpaq sahələri, eləcə də vətəndaşlara məxsus bağların tutduğu torpaq sahələri (AZN)	
	Sahəsi 10.000m^2-a qədər olanda	Sahəsi 10.000m^2-dan çox olan hissəsinə görə	Sahəsi 10.000m^2-a qədər olanda	Sahəsi 10.000m^2-dan çox olan hissəsinə görə
Bakı, eləcə də onun qəsəbələri və kəndləri	10	20	0,6	1,2
Gəncə və Sumqayıt, eləcə də Xırdalan və Abşeronun qəsəbələri, kəndləri	8	16	0,5	1,0
Başqa şəhərlər, rayonların mərkəzləri	4	8	0,3	0,6
Rayonların tabeçiliyindəki şəhər, qəsəbə və kəndlər	2	4	0,1	0,2

İndi isə Vergi Məcəlləsinin 207-ci maddəsi ilə tanış olaq. Bu maddə vergi güzəştləri ilə tanış edir.

207.1-ci maddəyə uyğun olaraq, aşağıda sadalanan torpaq sahələrinin torpaq vergisinə cəlb edilməsi nəzərdə tutulmur:

1. yaşayış təyinatlı məntəqələrin ümumi istifadəsinə aid torpaq sahələri;

2. dövlətin hakimiyyət orqanlarının, büdcədən maliyyələşən təşkilatların və yerli özünüidarəetmə orqanlarının, ölkənin Mərkəzi Bankının və tabeçiliyində olan qurumların, dövlət adından yaradılması həyata keçirilən publik hüquqi şəxslərin (sahibkarlıq fəaliyyətinin yerinə yetirilməsi məqsədilə istifadədə olan torpaq sahələrindən başqa), eləcə də respublikamızın Dövlət neft Fonduna aid yaxud onun istifadə etdiyi torpaq sahələri;

3. fiziki və hüquqi şəxslər tərəfindən istifadə edilən dövlət, meşə və su fonduna aid torpaqlar, Xəzər dənizinin altında olan və Azərbaycana aid sektorundakı torpaq sahələri;

4. Azərbaycanın sərhəd zolaqlarına və müdafiə məsələlərinə aid torpaq sahələri.

207.2-ci maddədə göstərilir ki, Vergi Məcəlləsiin 102.2-ci maddəsinin mətnində qeyd olunmuş şəxslərin mülkiyyətindəki torpaq sahələri üzrə torpaq vergisi 10AZN miqdarında aşağı salınır.

207.3-cü maddədən aydın olur ki, səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən verilmiş qərara uyğun olaraq yaradılması həyata keçirilən sənaye parkları və ya texnoparkların rezidentləri qismində çıxış edən hüquqi şəxslər və hüquqi şəxsin yaradılması həyata keçirilməmiş sahibkarlıqla məşğul olan fiziki şəxslər qanunvericiliyin tələblərinə əsasən, sənaye parkları yaxud texnoparklarda qeydiyyata götürüldükləri hesabat ilindən etibarən, sənaye parkları yaxud texnoparklarda istifadələrində olan torpaq sahələri üçün on il ərzində torpaq vergisinin ödənilməsindən azad olunurlar.

Vergi Məcəlləsinin 207.4-cü maddəsində göstərilir ki, səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən verilmiş qərara uyğun olaraq yaradılması həyata keçirilən sənaye parkları yaxud texnoparklarda yerləşən və istifadə

olunan torpaq sahələr üzrə torpaq vergisinin ödənilməsi tələb olunmur.

207.5-ci məddədən öyrənirik ki, investisiya təşviqi sənədi təqdim olunmuş hüquqi şəxslər və fərdi sahibkarlıqla məşğul olan şəslər bu sənədin alındığı gündən malik olduqları yaxud istifadə etdikləri torpaq sahələri ilə bağlı yeddi il ərzində torpaq vergisini ödəməməlidirlər.

Vergi Məcəlləsinin 207.6-cı maddəsindən aydın olur ki, KOB klaster şirkətləri KOB klaster şirkətinin reyestrinə daxil olduğu gündən yeddi il ərzində ona aid yaxud istifadə etdiyi və KOB klaster fəaliyyəti zamanı istifadədə olan torpaq sahələri ilə bağlı sözügedən vergini ödəməməlidirlər.

207.7-ci maddədən öyrənirik ki, səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyənləşdirilmiş orqan yaxud struktur ("Aqrarkredit" QSC Bank Olmayan Kredit Təşkilatı və "ASK" ASC) ödəniş qabiliyyətindən məhrum olmuş bankların rezolyusiyası və sağlamlaşdırılma işləri çərçivəsində səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyənləşdirilmiş orqan yaxud strukturun verdiyi qərara uyğun olaraq əldə edilmiş problemli aktivlərin yaxud borcların müqabilində əldə olunmuş, mülkiyyətində yaxud balansında yer alan, eləcə də siyahısı səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş orqan yaxud strukturla (ölkənin İqtisadiyyat Nazirliyi ilə) razılaşdırılmış torpaq sahələri üzrə 1 yanvar 2019-cu il tarixdən torpaq vergisinin ödənilməsindən azad olunur.

Vergi Məcəlləsinin 207.9-ci maddəsində qeyd edilir ki, geoloji ayırma sənədinə əsasən faydalı qazıntılar yataqlarının, neft və qaz yataqları istisna edilməklə, axtarışı, dəyərləndirilməsi və kəşfiyyatın aparılması prosesində istifadə olunan torpaqlar üzrə haqqında danışdığımız vergi uyğun təsdiqləyici sənədlərə, yəni geoloji-kəşfiyyat fəaliyyətini yerinə yetirən şəxslərin podrat kontraktına, geoloji-kəşfiyyatın planına, geoloji-kəşfiyyatla əlaqədar təqdim olunan hesabata, uyğun olaraq, faydalı qazıntılar yatağının axtarış, dəyərləndirilməsi və kəşfiyyatı işlərinə start verildiyi təqvim ilinə görə 75% aşağı salınır. Haqqında danışdığımız maddənin müddəaları eyni vergi ili ərzində geoloji ayırmanı əks etdirən sənədə uyğun olaraq faydalı qazıntılar yataqaqlarının, neft və qaz yataqlarından başqa,

axtarışı, dəyərləndirilməsi və kəşfiyyarı ilə bağlı işlərə cəlb olunan, eləcə də istismar olunaraq faydalı qazıntıların çıxarılması həyata keçirilən torpaqlar münasibətdə tətbiq olunmur.

İndi isə Vergi Məcəlləsinin 208-ci maddəsinə keçid olaq. Burada biz torpaq vergisinin necə hesablandığı və ödənilməli olduğunu əks etdirən qaydalarla tanış olacağıq.

Belə ki, 208.1-ci maddədə göstərilir ki, torpaq vergisi torpaqla bağlı mülkiyyət yaxud istifadə hüquqlarını təsdiqləyən sənədlərə əsasən müəyyən edilir. Hər hansı tikili yaxud qurğuların altındakı torpaq sahələrinə. eləcə də obyektlərin sanitar mühafizəsi məqsədlərində zərurət kəsb edən torpaqlar üçün torpaq vergisi tutulmalıdır.

Vergi Məcəlləsinin 208.2-ci maddəsindən öyrənirik ki, torpaq vergisinin ödənilməsi torpaqların ölçülərinə və sözügedən verginin dərəcələrinə uyğun olaraq hər il üçün hesablanır və may ayının 15-dən gec olmamaq şərtilə çatdırılması nəqəsdə tutulur.

208.3-cü maddədən aydın olur ki, səlahiyyətli orqanlar hər il 1 iyun tarixinə qədər fiziki şəxslərə torpaq vergisinin hesablanmasını aparır, eləcə də 1 avqust tarixindən gec olmamaq şərtilə onlara çatdırılır.

2084-cü maddədə isə ayrı-ayrılıqda bir neçə hüquqi yaxud fiziki şəxslərin sahibliyində yaxud sərəncamənda yer alan tikililərin altında qalmış yaxud onlara xidmət göstərilməsi məqsədilə ayrılan torpaqlar üzrə vergi onlara aid olan tikililərin sahələrinə mütənasib şəkildə hesablanır.

Vergi Məcəlləsinin 208.5-ci maddəsindən öyrənirik ki, torpaq vergisinin ödənilməsi ilə yanaşı məbləğlərdə avqustun 15-i və noyabrın 15-i tarixlərindən gec olmamaq şərtilə aparılır. Əgər torpağın öncəki sahibi torpaq vergisinin ödənilməsini yerinə yetirməyibsə, o zaman torpaq vergisi bu maddədə müəyyənləşdirilən ödəniş vaxtına qədər torpaq sahəsinin sahibi tərəfindən ödənilməlidir.

208.6-cı maddəyə uyğun olaraq, müəssisə və təşkilatların və Vergi Məcəlləsinin 206.1-ci maddəsi ilə nəzərdə tutulan hallarda fiziki şəxslərdən tutulan torpaq vergisi büdcəyə, başqa hallarda fiziki şəxslərdən tutulaq həmin vergi isə yerli büdcələrə köçürülür.

208.7-ci maddədə qeyd olunur ki, fiziki şəxsin sahibkarlıq fəaliyyətinin məqsədləri üçün istifadə olunan torpaq sahələrinə, eləcə də hüquqi şəxslərin torpaq sahələri ilə bağlı ödəməli olduqları torpaq

vergisinin məbləği Vergi Məcəlləsinin 119-cu maddəsinə əsasən məhdudlaşdırılmayan gəlirlərdən çıxılmalara aid olunur.

İndi isə Vergi Məcəlləsinin 203-cü maddəsinə nəzər salaq və yaranan suallara aydınlıq gətirək.

Əvvəla, torpaq vergisi ilə əlaqəli hansı redaktə xarakterli dəyişikliklərin aparılmasına nəzər salaq.

Məsələ burasındadır ki, "Torpaq vergisi" fəslində yer alan 203.1, 204 və 205-ci maddələrdə "istifadəçi" termini "torpaqdan icarə yaxud başqa əsaslarla istifadə edən şəxslər" anlayışı ilə əvəz olunub. Məsələn, Məcəllənin 203.1-ci maddəsində göstərilir ki, torpaq vergisinin torpaqdan istifadə edən və onların sahiblərinin təsərrüfat fəaliyyətlərinin nəticələrindən asılı olmayaraq torpağla bağlı hər il sabit tədiyyə şəklində hesablanması aparılır.

Dəyişikliklər nəticəsində 203.1-ci maddədə göstərilir ki, torpaq vergisinin hesablanması torpaqların mülkiyyətçi şəxslərin və torpaq sahəsindən icarə yaxud başqa əaslar üzrə istifadə edən sahibkarlıq subyektlərinin təsərrüfat fəaliyyətlərinin nəticələrindən asılı olmayaraq sahəyə uyğun olaraq hər il tədiyə şəklində aparılır.

Bu dəyişikliklərin həyata keçirilməsinin başlıca məqsədi ondan ibarətdir ki, torpaq sahələrindən icarə yaxud başqa əsaslar üzrə istifadə edən saibkarlıq subyektləri torpağı icarəyə verən tərəfin torpaq vergisi tədiyyəçisi qismində çıxış edib-etməməsinə baxmayaraq, torpaq vergisinin ödəyiciləri hesab olunurlar.

Vergi Məcəlləsinin 207-ci maddəsində vergi güzəştlərindən bəhs olunur.

Bu maddə ilə əlaqədar torpaq vergisi ilə bağlı tətbiq olunan yeni güzəştlərin mahiyyətinin nədən ibarət olduğuna aydınlıq gətirək.

Qeyd edək ki, Məcəlləyə 207.8-ci maddəsi əlavə edilmişdir. Həmin maddəyə uyğun olaraq, geoloji ayırma sənədlərinə əsasən faydalı qazıntıların yataqlarının, neft və qaz yataqlarından başqa, axtarışları, dəyərləndirilməsi və kəşfiyyatı işlərinə cəlb olunan torpaqlar üzrə torpaq vergisinin ödənilməsi uyğun təsdiqedici sənədlərə, yəni geoloji-kəşfiyyat işlərinin yerinə yetirilməsi ilə məşğul olan şəxslərin podrat kontraktlarına, geoloji-kəşfiyyat planlarına, geoloji-kəşfiyyat işləri ilə əlaqəli təqdim olunan hesabatlara, uyğun olaraq faydalı qazıntıların yataqlarının axtarışları, dəyərləndirilməsi və kəşfiyyatı

işlərinə başlanıldığı il üzrə 75% aşağı salınır. Haqqında danışdığımız maddədə yer alan müddəalar eyni vergi ili ərzində geoloji ayırma sənədlərinə əsasən faydalı qazıntıların yataqlarının neft və qaz yataqlarından başqa, axtarışları, dəyərləndirilməsi və kəşfiyyatı işlərinə cəlb olunan, habelə istismar edilməklə faydalı qazıntıların çıxarılmasını həyata keçirilən torpaqlarla əlaqədar tətbiq olunur.

Dediklərimizi misalla aydınlaşdıraq. Fərz edək ki, sahibkarlıq subyekti 2022-ci il ərzində Qarabağ bölgəsində dağ-mədən işlərinin yerinə yetirilməsi məqsədilə geoloji kəşfiyyat və tədqiqat tədbirlərini reallaşdırır. Yeni güzəştlərə əsasən belə bir imkan yaranır ki, dağ-mədən işləri ilə bağlı fəaliyyəti reallaşdıran şəxsə torpaq vergisi ilə bağlı 75%-lik güzəşt tətbiq olunmaqla onun maliyyə yükünün azaldılmasına nail olunsun. Sahibkarlıq subyekti 2022-ci il ərzində mədən işlərinin yerinə yetirilməsi məqsədilə geoloji kəşfiyyat və tədqiqat tədbirlərinin görülməsi nəticəsində faydalı qazıntıların çıxarıldığı torpaqlar üzrə sözügedən vergi ilə bağlı 75%-lik güzəşt hüququnu itirir.

4.8. YOL VERGİSİ

Burada yol vergisinin ödəyiciləri ilə tanış olacağıq. Onların sırasında Azərbaycanın ərazisinə daxil olan, habelə ərazimizdən sərnişin və yüklərin nəql edilməsi məqsədilə yararlanan avtonəqliyyat vasitələrinin sahibləri qismində çıxış edən qeyri-rezident şəxsləri, ölkə mizin ərazisində avtomobillər üçün nəzərdə tutulmuş benzinin, dizel yanacağının, eləcə də maye qazının buraxılışı yaxud idxal edilməsi ilə məşğul olan şəxsləri qeyd etməliyik. Eyni zamanda, yol vegisinin hesablama qaydası haqqında müfəssəl məlumat veriləcək, vergi vergisinin gəlirdən çıxılan məsrəflərə aid olub-olmaması və əlavə dəyər vergisinin hesablanması prosesində diqqətə alınıb-alınmaması da dəyərləndiriləcək.

İlk öncə yol vergisinin necə hesablandığına aydınlıq gətirək.

Vergi Məcəlləsinə uyğun olaraq, yol vergisinin ödəyiciləri qismində aşağıdakı şəxslər çıxış edir:

1. Azərbaycanın ərazisinə daxil olan və bu ərazidən sərnişinlərin və yüklərin nəql olunması məqsədilə istifadə

edən avtonəqliyyat vasitələrinin sahibləri qismində çıxış edən qeyri-rezidentlər.

Qeyd etmək lazımdır ki, bu qeyri-rezidentlər ölkəmizin ərazisinə daxil olarkən və Azərbaycanı tərk edərkən sərəncamlarında olan xarici ölkələrin avtonəqliyyat vasitələri üçün nəzərdə tutulmuş yol vergisini ödəməlidirlər. Aydındır ki, həmin ödənişlərin həyata keçirilməsi gömrük orqanlarında baş verir. Odur ki, sözügedən vergi məbləğlərinin hesablanması və ödənilməsi ilə bağlı nəzarət tədbirləri gömrük əməkdaşları tərəfindən yerinə yetirilir.

Məsələn, fərz edək ki, Türkiyənin vətəndaşı olan şəxs mülkiyyətində olan minik avtomobili vasitəsilə Azərbaycana istirahətə gəlir. Onun ölkəmizdə qaldığı müddət və idarə edəcəyi avtomaşın üçün yol vergisinin ödənilməsi məhz gömrük orqanlarında reallaşdırılacaq.

2. Azərbaycanın ərazisində avtomobillər üçün nəzərdə tutulmuş benzinin, dizel yanacağının, habelə maye qazın istehsalını yaxud idxalını həyata keçirən şəxslər.

Qeyd etmək lazımdır ki, ölkəmizdə buraxılaraq daxili istehlak üçün istifadə olunan (topdansatışla realizasiya edilən) və Azərbaycana idxalı həyata keçirilən avtomobil benzinilə, dizel yanacağılə, habelə maye qazla məşğul olan şəxslərdən yol vergisi tutularaq onlar bu verginin obyekti qismində çıxış edirlər. Tamamilə aydındır ki, Azərbaycana gətirilən avtomobil benzininə, dizel yanacağına və maye qazına görə vergilər gömrük əməkdaşları tərəfindən ödətdirilir.

Məsələn, yanacağın ölkə ərazisində satışı ilə məşğul olan sahibkarlıq subyektindən yanacaqdoldurma stansiyasına 100.000 litr həcmində avtomobil benzini satılmışdır. Belə olan halda satış prosedurunu yerinə yetirən tərəf, yəni həmin sahibkarlıq subyekti tərəfindən yol vergisinin məbləğini hesablanmalıdır. Vergi məbləğinin ödənilməsini isə yanacaqdoldurma stansiyası reallaşdıracaq.

Aydınlıq gətirəcəyimiz növbəti sual Azərbaycana daxil olan əcnəbi minik nəqliyyat vasitələrinə yol vergisinin necə hesablanması ilə bağlıdır.

Nəzərə almaq lazımdır ki, xarici dövlətlərə aid minik avtonəqliyyat vasitələrinin yol vergisi hesablanarkən Azərbaycan ərazisində qaldığı müddətə əsaslanırlar. Vergi Məcəlləsindəki 211.1.1.1-ci maddəyə uyğun olaraq, minik avtonəqliyyat vasitələrini

üçün mühərrikin həcm göstəricilərindən və Azərbaycanda qaldığı müddətdən asılı olaraq yol vergisinin hesablanması aşağıda göstərilmiş qaydada aparılır.

Məsələn, Türkiyədən gəlmiş vətəndaş Mahmud Arkan "HONDA CR-V" markalı, mühərrikin həcmi 2.400 sm^3 olan avtonəqliyyat vasitəsilə ölkəmizin ərazisinə daxil olmuşdur. Onun Azərbaycanda iki ay ərzində qalması planlaşdırılır. Belə olan təqdirdə bu şəxs 40 ABŞ dolları məbləğində yol vergisinin dövlət büdcəmizə ödənilməsini təmin etməlidir.

Bəs Azərbaycanın ərazisinə daxil olan xarici ölkə avtobusların sahibləri yol vergisinin məbləğini hansı qaydada hesablayıb ödəməlidir?

Məsələ burasındadır ki, minik avtomobil nəqliyyat vasitələrinin qaldıqları müddətlə bərabər, mühəririkin həcm göstəriciləri əsas götürüldüyü təqdirdə, avtobuslar üçün yol vergisinin məbləğinin müəyyənləşdirilməsində oturacaq yerlərin sayı böyük önəm daşıyır.

Məsələn, fərz edək ki, Azərbaycana oturacaq yerlərin sayı on altıya bərabər olan avtobusl daxil olur. Həmin avtobusun ölkəmizdə qalma müddəti iyirmi gün müddətində planlaşdırılır. Odur ki, bütün bunlar nəzərə alınmaqla yol vergisinin məbləği 140 ABŞ dollarına bərabər olacaq.

Növbəti sual yük avtonəqliyyat vasitələri üçün yol vergisinin necə hesablanması ilə bağlıdır.

İlk növbədə nəzərə almaq lazımdır ki, yüklərin daşınması üçün nəzərdə tutulan avtonəqliyyat vasitələri, qoşqulu və yarımqoşqulu yük maşınları üçün yol vergisi hesablanarkən, onların Azərbaycan ərazisində qalma müddəti ilə bərabər həmçinin oxların sayı da nəzərə alınmalıdır.

Məsələn, fərz edək ki, oxların sayı üçə bərabər olan yük avtonəqliyyat vasitəsi Azərbaycanda on gün ərzində qalacaq. Belə olan halda yer vergisinin məbləği 40ABŞ dolları miqdarında müəyyən ediləcək.

Yüklərin daşınması üçün nəzərdə tutulmuş nəqliyyat vasitələrinin çəkisinə və yükünün növünə əsasən də yol vergisinin məbləğində dəyişikliklər eilə bilər. Belə ki, Vergi Məcəlləsində yer alan 211.2-ci maddəyə uyğun olaraq, yol vergisi ağır tonnajlı yük maşınları üçün Azərbaycanda qət olunan yolun kilometrajından asılı olaraq, hər

bir kilometrə görə aşağıdakı qaydada dəyişir:

- 38 tondan 41 tona qədər olduğu halda – 0,15 ABŞ dolları;
- 41 tondan 51 tona qədər olduğu halda – 0,30 ABŞ dolları;
- 51 tondan 61 tona qədər olduğu halda – 0,45 ABŞ dolları;
- 61 tondan 71 tona qədər olduğu halda – 0,75 ABŞ dolları;
- 81 tondan artıq olduğu halda – 1,8 ABŞ dolları.

Bir halda ki, avtonəqliyyat vasitələri ilə təhlükəli yüklərin daşınması həyata keçirilir, onda yol vergisinin məbləğində əlavələr olacaq.

İndi isə Azərbaycanda qalma müddətində dəyişikliklər olduğu təqdirdə yol vergisinin necə hesablanmalı olduğuna nəzər salaq.

Yol vergisinin hesablanmasında tətbiq edilən hər 3 variantda Azərbaycanda qalma müddəti sözügedən verginin məbləğinə təsir göstərən iki faktordan biri qismində çıxış edir. Belə də hal ola bilər ki, yük avtomobili Azərbaycan ərazisində bəyan edildiyi müddətdən çox qalmalı olur. Onda xarici ölkənin nəqliyyat vasitəsi olan həmin avtomobil Azərbaycanın ərazisini tərk etdikdə artıq qalmalı olduğu müddətdən asılı olaraq ödənilməsi həyata keçirilməsi mütləq hesab edilən yol vergisinin son məbləği bundan əvvəl hesablanan eyni verginin məbləğindən Azərbaycan ərazisinə daxil olduğu zaman ödənişi həyata keiçirilmiş yol vergisinin məbləği çıxılaraq hesablanmalıdır.

Qeyd olunduğu kimi, Türkiyədən gəlmiş şəxs öz minik avtomobili ilə respublikamızın ərazisinə daxil olur və burada iki ay ərzində qalacağını düşünür. Avtomobilin mühərrikinin həcmi 2.400 sm^3, qalma müddəti də məlumdur. Belə olan təqdirdə yol vergisi müqabilində lkəmizin dövlət büdcəsinə ödənilməli olan məbləğ 40 ABŞ dollarına bərabərdir. Lakin hər hansı səbəblər üzündən sözügedən avtomaşın Azərbaycanda dörd ay ərzində qalmalı olur. Bu isə o deməkdir ki, ilk ödəniş aparılarkən nəzərə alınmamış müddət üç aydan çoxdur və təkrarən 40 ABŞ dolları məbləğində yol vergisinin ödənilməsi təmin edilməlidir.

Aydınlıq gətirəcəyimiz növbəti məsələ avtonəqliyyat vasitələrinin banzin, dizel yanacağı, habelə maye qazla işləməsinə görə yol vergisinin necə hesablanması ilə bağlıdır.

Respublikamızda istehlak olunaraq daxili tələbatın ödənilməsinə istiqamətləndirilərn (topdansatış qaydasında) avtomobil benzini, dizel

yanacağı, habelə maye qaza görə yol vergisi sadaladığımız yanacaq növlərinin hər litri üçün təyin edilmiş topdansatış qiymətinə (əlavə dəyər vergisi və aksizlər də daxil olmaq şərtilə) 0,02AZN məbləğində əlavə lərtətbiq edilməklə hesablanmalıdır.

Yuxarıda dediklərimizi əyani bir misalla aydınlaşdıraq.

Fərz edək ki, "F" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən istehsal olunmuş 12.000 litr həcmində dizel yanacağı satılan zaman 240AZN-lik yer vergisi ödənilməlidir. İdxal əməliyyatları ilə bağlı onu demək lazımdır ki, idxal xətti ilə daxil olan avtomobil benzini, dizel yanacağı, eləcə də maye qaz üçün yol vergisi ölkəmizin Gömrük Məcəlləsinə əsasən müəyyənləşdirilən, ancaq hər litrinə görə topdansatış bazar dəyərindən az olmayan gömrük dəyərinə (əlavə dəyər vergisi və aksizlər də daxil edilmək şərtilə) 0,02AZN əlavə olunmalıdır.

Onu da nəzərə almaq lazımdır ki, respublikamızın ərazisində avtonəqliyyat vasitələri üçün nəzərdə tutulmuş benzin, dizel yanacağı, habelə maye qazın istehsalı istiqamətində fəaliyyət göstərən sahibkarlıq subyektləri yol vergisinin ödənişini hər ay həyata keçirməli, eləcə də hesabat ayından sonra gələn ayın iyirmisindən gec olmamaq şərtilə yol vergisi üzrə bəyannaməni vergi əməkdaşlarına təqdim etməli və hesablanmış yol vergisinin məbləğini dövlət büdcəsinə köçürməlidir.

İndi isə yol vergisinin hesablanması zamanı mütləq şəkildə nəzərə alınmalı olan iki vacib məqamən nədən ibarət olduğuna nəzər salaq.

Məsələ burasındadır ki, yol vergisinin ödənilməsi ilə əlaqədar 2 məqam bunlardan ibarətdir.

Əvvəla, avtonəqliyyat vasitələri üçün nəzərdə tutulmuş benzin, dizel yanacağə, eləcə də maye qaz kimi yanacaq növlərinin satışını həyata keçirən sahibkarlıq subyektləri tərəfindən ödənilən yol vergisi onların gəlirlərindən çıxılmalı olan ərclər siyahısına aid oluna bilər.

İkincisi, yol vergisinin ödənişini həyata keçirməklə əldə olunan məhsullara görə əlavə dəyər vergisi hesablandığı zaman yol vergisinin müəyyənləşdirilmiş məbləğinin çıxılması təmin edilməlidir.

Məsələn, fərz edək ki, "F" Məhdud Məsuliyyətli Cəmiyyət tərəfindən yol vergisi ödənilməklə alınmış benzin məhsulu realizasiya edilərkən bu məbləğdən yol vergisini çıxmaqla əlavə dəyər vergisi hesablanır.

Vergi Məcəlləsinin 209-cu maddəsi yol vergisinin vergi ödəyicilərinə həsr olunur.

Burada göstərilir ki, ölkəmizə daxil olan və həmin ərazilərdən sərnişinlərin və yüklərin daşınması məqsədilə istifadə edən avtomobil nəqliyyatı vasitələrinin sahibləri qismində çıxış edən qeyri-rezident şəxslər, eləcə də ölkəmizdə avtonəqliyyat vasitələri üçün nəzərdə tutulan benzin və dizel yanacağının, habelə maye qazın istehsalı yaxud idxalı istiqamətində öz fəaliyyətini qurmuş şəxslər yol vergisinin ödəyiciləri hesab olunur.

Çəcəllənin 21-cu maddəsi isə vergitutmaq obyektinin nə olduğuna aydınlıq gətirir. Belə ki, ölkəmizə daxil olan və ölkəmizi tərk edən vaxt yol vergisi tutulmalı olan xarici ölkələrə aid avtomobil nəqliyyatı vasitələri, eləcə də Azərbaycanda istehsal olunaraq daxili istehlak üçün nəzərdə tutulan və topdansatışla realizə edilən, respublikamıza gətirilən və avtonəqliyyat vasitələri üçün nəzərdə tutulmuş benzin və dizel yanacağı, habelə maye qaz yol vergisi üçün vergitutma obyekti qismində çıxış edir.

Vergi Məcəlləsinin 211-ci maddəsində yol vergisinin dərəcələrinin nədən ibarət olduğunu öyrənə bilərik.

211.1.-ci maddədə göstərilir ki, avtomobil nəqliyyatının növü, mühərrikinin həcmi, Azərbaycanda qaldığı müddət, oturacaqların sayı, oxların sayı və avtomobil nəqliyyatının yüklə bigə ümumi çəkisi, ölkəmizdə qət olunan məsafə, təhlükəli yüklərin nəql edilməsi kimi amillərdən asılı olaraq, respublikamiza daxil olan və ölkəmizi tərk edən xarici ölkələrin qeydiyyatında olan avtomobilə nəqliyyatı vasitələri, eləcə də ölkəmizdə istehsal olunaraq daxildə realizə edilən və rezpublikamıza idxal edilən avtomobil benzini, dizel yanacağı, habelə maye qaz yol vergisinə cəlb edilməklə aşağıda göstərilən dərəcələrə uyğun olaraq hesablanmalıdır:

1. Azərbaycana daxil olan, Vergi Məcəlləsinin 211.1.1-ci maddəsində göstərilən kimi, ölkəmizi tərk edən vaxt yol vergisinin ödənilməsinə cəlb edilməli hallarda xarici ölkələrdə qeydiyyatda keçmiş avtomobil nəqliyyatı vasitələrindən:

Minik avtonəqliyyat vasitələri üzrə mühərrikin həcmi və Azərbaycanda qalacağı müddətə uyğun olaraq:

Azərbaycanda qalacağı müddət	**Mühərrikin həcmi 2.000m^3 qədər olsa**	**Mühərrikin həcmi 2.000m^3-dən 4.000m^3 qədər olsa**	**Mühərrikin həcmi 4.000m^3-ən çox olsa**
Bir ayadək	15 dollar	20 dollar	40 dollar
Üç ayadək	30 dollar	40 dollar	60 dollar
Bir ilədək	40 dollar	80 dollar	120 dollar
Bir ildən çox	40 dollar + bir ildən çox qaldığı müddətin hər günü üçün 0,5 dollar	80 dollar + bir ildən çox qaldığı müddətin hər günü üçün 0,6 dollar	120 dollar + bir ildən çox qaldığı müddətin hər günü üçün 1,2 dollar

2. avtobus tipli nəqliyyat vasitələri üçün oturacaq yerlərinin sayı və Azərbaycanda qalacağı müddətə görə:

Azərbaycanda qalacağı müddət	**Oturacaqların sayı 12-yə qədər olsa**	**Oturacaqların sayı 13-dən 30-a qədər olsa**	**Oturacaqların sayı 31 və daha artıq olsa**
Bir günə qədər	15 dollar	20 dollar	25 dollar
Bir həftəyə qədər	30 dollar	40 dollar	50 dollar
Bir ayadək	100 dollar	140 dollar	175 dollar
Üç ayadək	300 dollar	400 dollar	500 dollar
Bir ilədək	1050 dollar	1400 dollar	1750 dollar
Bir ildən çox	1050 dollar + bir ildən çox qaldığı müddətin hər günü üçün 12 dollar	80 dollar + bir ildən çox qaldığı müddətin hər günü üçün 15 dollar	120 dollar + bir ildən çox qaldığı müddətin hər günü üçün 20 dollar

3. Yüklərin daşınması üçün nəzərdə tutulmuş nəqliyyat vasitələri, quşqusu və yarımqoşqusu olan nəqliyyat üçün xoların sayı və ölkəmizdə qalacağı müddətdən asılı olaraq:

Azərbaycanda qalacağı müddət	**Dörd oxu və daha az olsa**	**Dörd oxu və daha artıq olsa**
Bir günə qədər	20 dollar	30 dollar
Bir həftəyə qədər	40 dollar	80 dollar
Bir ayadək	140 dollar	280 dollar
Üç ayadək	400 dollar	800 dollar
Bir ilədək	1400 dollar	2800 dollar
Bir ildən çox	1400 dollar + bir ildən çox qaldığı müddətin hər günü üçün 15 dollar	2800 dollar + bir ildən çox qaldığı müddətin hər günü üçün 30 dollar

4. Azərbaycana daxil olan və bəyan olunmuş zaman müddətindən çox respublikamızda qalmalı olan xarici ölkə qeydiyyatlı avtomobillər üçün ölkəmizin ərazisindən çıxarkən Azərbaycanda artıq qalmalı olduqları zaman müddətindən aılı olaraq ödəməli olduqları yol vergisi məbləğinin yekun miqdarı Vergi Məcəlləsinin 211.1.1.1, 211.1.1.2 və 211.1.1.3-cü maddələrinə əsasən hesablanması aparılmış yel vergisi məbləğindən Azərbaycana daxil olduğu zaman ödənmiş yol vergisi çıxılması şərtilə hesablanmalıdır.

5. Azərbaycanla xarici ölkələr arasıında bağlanılmış beynəlxalq avtonəqliyyat əlaqələri barədə hökumətlərarası müqavilələrə uyğun olaraq, kvotalar hüdudlarında mübadilə olunmuş "İcazə" blanklarına əsasən Azərbaycana daxil olmuş xarici ölkələrdə qeydiyyata alınmış avtomobillər üzrə yol vergisinin ödənişlərində azadedilmələr nəzərdə tutulduğu təqdirdə daxil olmaq günündən 30 gün sonra Azərbaycanda əlavə qaldıqları zaman kəsiyindən asılı olmamaq şərtilə, Vergi Məcəlləsinin 211.1.1.2 və 211.1.1.3-cü maddələrinə əsasən yol vergisi üzrə müvafiq ödəmələri aparmalıdır.

6. Azərbaycanda istehsal olunaraq daxili istehlak üçün nəzərdə tutulan avtomobillər üçün benzin, dizel yanacağə və maye qaz üçün yol vergisi hər litinin topdansatış qiymətinə (əlavə dəyər vergisi və aksizlər də daxil edilməklə) 0,02AZN miqdarında əlavə olunmaq şərtilə hesablanması həyata keçirilir. Azərbaycana gətirilən benzin və dizel yanacağı, eləcə də maye qaz üçün yol vergisinin məbləği Gömrük Məcəlləsinə əsasən müəyyən olunan, ancaq sadaladığımız yanacaq növlərinin hər litri üçün topdansatış qiymətindən aşağı olmamaq şərtilə gömrük dəyərinə (əlavə dəyər vergisi və aksizlər daxil edilməklə) 0,02AZN əlavə olunmaq şərtilə hesablanması aparılır.

Vergi Məcəlləsinin 211.2-ci maddəsindən aydın olur ki, 211.1.1.3-cü maddədə qeyd olunmuş vergi növünün məbləği ağır çəkiyə malik avtomobil nəqliyyatı ilə yüklərin daşınması müqabilində Azərbaycanda qət olunan yolun hər kilometrinə görə aşağıda göstərilmiş qaydada artırılması həyata keçirilir:

nəqliyyatın yüklə birgə ümumi çəkisi:

38 tondan 41 tona qədər – 0,15 dollar;

41 tondan 51 tona qədər – 0,30 dollar;

51 tondan 61 tona qədər – 0,45 dollar;

61 tondan 71 tona qədər – 0,60 dollar;
71 tondan 81 tona qədər – 0,75 dollar;
81 tondan artıq olarsa – 1,8 dollar.

Təhlükəli yükün nəql edilməsi üçün vergi Məcəlləsinin 211.1.1.3-cü maddəsində göstərilmiş vergi növünün miqdarı aşağıda qeyd olunduğu kimi artırılması həyata keçirilir:

Azərbaycanda qalma zamanı	Dörd oxu və daha az olarsa			Dörd oxu və daha çox olarsa		
	Təhlükəsi aşağı olan yüklərə	Təhlükəsi olan yüklərə	Təhlükəsi xüsusi olan yüklərə	Təhlükəsi aşağı olan yüklərə	Təhlükəsi olan yüklərə	Təhlükəsi xüsusi olan yüklərə
Bir gün	20 dollar	40 dollar	80 dollar	30 dollar	60 dollar	120 dollar
İki ayadək	140 dollar	280 dollar	560 dollar	280 dollar	560 dollar	1120 dollar
Üç ayadək	400 dollar	800 dollar	1600 dollar	800 dollar	1600 dollar	3200 dollar
Bir ilədək	1400 dollar	2800 dollar	5600 dollar	2800 dollar	5600 dollar	11200 dollar
Bir ildən çox	1400 dollar + bir ildən çox qaldığı müddətin hər günü üçün 15 dollar	2800 dollar + bir ildən çox qaldığı müddətin hər günü üçün 30 dollar	5600 dollar + bir ildən çox qaldığı müddətin hər günü üçün 60 dollar	2800 dollar + bir ildən çox qaldığı müddətin hər günü üçün 30 dollar	5600 dollar + bir ildən çox qaldığı müddətin hər günü üçün 60 dollar	11200 dollar + bir il-dən çox qal-dığı müddə-tin hər günü üçün 120 dollar

211.4-cü maddədən qeyd edilir ki, Azərbaycanda istehsal olunaraq daxili bazara topdansatış şəklində realizasiya olunan benizn və dizel yancağı, eləcə də maye qaz üçün hesablanması aparılmış yol vergisi məbləğinə nəzarətin edilməsi dövlətin vergi orqanları, ölkəmizə gətirilən benzin və dizel yanacağı, eləcə də maye qaz üçün yol vergisi məbləğinin həyata keçirilməsinə və ödənişinin təmin olunmasına nəzarəti isə gömrük orqanları yerinə yetirir.

Vergi Məcəlləsinin 212-ci maddəsində yol vergisinin tutulması qaydası haqqında bəhs olunur.

212.1-ci maddədən öyərnirik ki, Vergi Məcəlləsinin 211.1-ci maddəsi ilə nəzərdə tutulan yol vergisi xarici ölkələrdə qeydiyyata alınmış avtomobil nəqliyyatı vasitələri Azərbaycanın gömrüyünə daxil olarkən gömrüyün sərhəd-buraxılış məntəqələrində yaxud gömrüyün rəsmiləşdirilmə yerlərində, Azərbaycanın gömrük ərazisindən çıxarkən

isə yol vergisinin tətbiqinə cəlb edilməli zaman da gömrüyün sərhəd-buraxılış məntəqələrində gömrük əməkdaşları tərəfindən tutulmalı və bir bank günü müddətində büdcəyə köçürülməlidir.

Məcəllənin 212.3-cü maddəsində göstərilir ki, Azərbaycanda minik avtomobilləri üçün nəzərdə tutulmuş benzin və dizel yanacağının, eləcə də maye qazın istehsalını həyata keçirən şəxs tərəfindən yol vergisi hər ay ayda bir dəfə hesablanmalı, hesablanmış ayın sonrakı ayının iyirmisindən gec olmamaq şərtilə səlahiyyətliicra hakimiyyəti orqanı (Azərbaycanın İqtisadiyyat Nazirliyi) tərəfindən müəyyən-ləşdirilmiş formaya uyğun şəkildə yol vergisi ilə bağlı bəyannamə vergi əməkdaşlarına təqdim olunmaqla vergi məbləği büdcəyə köçürülməlidir.

212.5-ci maddədən aydın olur ki, avtomobil nəqliyyatını dövlət qeydiyyatından keçirən səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycanın Daxili İşlər Nazirliyi) rübdə bir dəfə hesabat rübündən sonra gələn ayın iyirmisindən gec olmamaq şərtilə yenicə qeydiyyata götürülmüş və qeydiyyatdan çıxmış avtomobil nəqliyyatı vasitələri haqqında informasiyanı səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycanın İqtisadiyyat Nazirliyi) tərəfindən müəyyənləşdirilmiş qaydada səlahiyyətli icra hakimmiyyəti orqanına (İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti kimi İqtisadiyyat Nazirliyinin özünə) təqdim etməlidir.

Vergi Məcəlləsinin 212.6-cı maddəsində qeyd edilir ki, xarici ölkələrə məxsus yük avtinəqliyyat vasitələri, qoşqulu və yarımqoşqulu avtomobil nəqliyyatları aşağıda göstərilmiş hallarda səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilmiş şəkildə 1 iyun 2016-cı ildən başlayaraq üç il ərzində yol vergisindən azad olunur:

1. Dəmir yolları ilə daşınan yüklər Azərbaycandakı səlahiyyətli icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilmiş sonuncu dəmir yolundakı stansiyada xarici ölkələrin yük avtonəqliyyat vasitələrinə, qoşqulu və yarımqoşqulu avtomobillərə yüklənilərək gömrüyün ən yaxın sərhəd-buraxılış məntəqəsindən keçiriləndə və digər ölkəyə daşınanda;
2. Xarici ölkələrin yük avtonəqliyyat vasitələri, qoşqulu və yarımqoşqulu avtomobillərlə yüklərin başqa ölkədən Azərbaycandakı səlahiyyətli

icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilmiş dəmir yolunun ilk stansiyası ilə müqayisədə gömrüyün daha yaxında yerləşən sərhəd-buraxılış məntəqəsindən keçməklə daşındığı halda.

4.9. MƏDƏN VERGİSİ

Vergi Məcəlləsinin 213-cü maddəsi mədən vergisinə həsr olunur.

Məlum olduğu kimi, Azərbaycanda, o cümlədən Xəzərin respublikamıza aid sektorunda faydalı qazıntıların hasil edilməsi ilə bağlı mədən vergisinin tutulması həyata keçirilir.

214-cü maddəsində sözügedən verginin vergi ödəyiciləri ilə bağlı məlumatlar verilir. Belə ki, Azərbaycanda, həmçinin Xəzərin respublikamıza aid zomasında yerin təkidindən faydalı qazıntıların çıxarılması ilə məşğul olan fiziki şəxslər, habelə müəssisə və təşkilatlar mədən vergisinin ödəyiciləri hesab olunur.

Vergi Məcəlləsinin 215-ci maddəsi sözügedən verginin vergitutma obyektlərinə aydınlıq gətirir. Belə ki, Azərbaycanda, həmçnin Xəzərin respublikamıza aid zonasında yerin təkidindən əldə olunan faydalı qazıntılar vergitutma obyekti hesab olunur.

Məcəllənin 216-cı maddəsi mədən vergisinin vergi dərəcələrini tənzimləyir.

216.1-ci maddədə göstərilir ki, yerin təkidindən əldə olunan və aşağıda sadalanan faydalı qazıntıların hansı növdən olmasından asılı olaraq, mədən vergisi həmin faydalı qazıntıların topdansatış qiymətlərinə tətbiq olunmaqla aşağıda göstərilən qaydada müəyyən edilir:

Mədən vergisi tətbiq edilən faydalı qazıntı	**Mədən vergisi dərəcələri (%-lə)**
Xam neft	2 6
Təbii qaz	2 0
Filiz faydalı qazıntılar	
Metalların bütün növləri	3

216.2-ci maddəsində göstrilir ki, yerin təkindən əldə olunan və adları aşağıda göstərilən faydalı qazıntıların hansı növə aid olmasından asılı olaraq, mədən vergisinin tətbiqi hər $1m^3$ üzrə aşağıda qeyd olunmuş dərəcələrə əsasən aparılır:

Mədən vergisinin tətbiq olunduğu faydalı qazıntılar	**Mədən vergisinə aid dərəcələr**
Qeyri-filiz faydalı qazıntılar:	
Seolit	1 , 0
Barit	1 , 0
Mişar daşları	2 , 0
Çınqıl xammalı	1 , 0
Yüngül doldurucuların (keramzitin, aqloporitin) istehsal edilməsi üçün nəzərdə tutulan gillər	1 , 0
Bentonit gilləri	1 , 0
Kərpic – kirəmit gilləri	1 , 0
Vulkan külü və pemza	1 , 0
Kvarts mənşəli qumlar	1 , 0
Tikintidə istifadə edilən qum növləri	1 , 0
Sement üçün xammal (əhəngin daş forması, mergel, gil, vulkanın külü)	1 , 0
Gips, gəc	1 , 0
Üzlənməsi üçün nəzərdə tutulan daşlar (mərmərlər, qabrrolar, tuflar, trafetrinlər, mərmərləşdirilmiş əhəngin daşı)	1 , 0
Qiymətli və yarım-qiymətli bəzək üçün daşlar	6 , 0
Duz	6 , 0
Tərkibində yod və brom olan sular	0 , 0 4
Mineral sular	10 , 0

Vergi Məcəlləsinin 217-ci maddəsində verginin hesablanmasının hansa qaydalarla aparılmasından, ödənilməsi müddətindən, eləcə də bəyannamənin təqdim edilməsindən danışılır.

217.1-ci maddədən aydın olur ki, mədən vergisinin hesablanması Vergi Məcəlləsinin 216.1-ci maddəsi ilə müəyyən olunan faydalı qazıntı növlərinə görə yerin təkidindən çıxarılan faydalı qazıntıların topdansatış qiymətlərinə, 216.2-ci maddə ilə müəyyən olunmuş faydalı qazıntı növlərinə görə isə yerin təkidindən çıarılan faydalı qazıntıların hər 1 m^3 uyğun vergi dərəcələrinin tətbiq olunması ilə həyata keçirilir.

Həmçinin qeyd edilməlidir ki, hesabat ayı üzrə mədən vergisinin miqdarı faydalı qazıntıların hasil olunduğu aydan sonra gələn ayın iyirmisindən gec olmamaq şərtilə ödənilməlidir.

Eyni zamanda, mədən vergisinin ödəyicisi hər ay hesabat ayından sonra gələn ayı iyirmisindən gec olmamaq şərtilə vergi orqanlarına mədən vergisi üzrə bəyannaməni təqdim etməlidir.

217.4-cü maddəsində göstərilir ki, müəyyən edilmiş qaydalara uyğun hesablanması aparılan verginin miqdarı Vergi Məcəlləsinin 119-cu maddəsinə əsasən məhdudlaşdırılmayan gəlirlərdən çıxılmalara tətbiq olunur.

Vergi Məcəlləsinin 217.5-ci maddəsinə əsasən, mədən vergisi büdcəyə köçürülür.

217.6-cı maddəsində isə göstərilir k, xam neft və təbii qaz hasil olunduğu zaman 217.1-ci maddəyə əsasən mədən vergisinin hesablanması aparılarkən hasil olunmuş neft və təbii qazın həcmindən texnoloji prosesə görə quyuya geri vurulmalı olan neft və qazın həcmi səlahiyyətli icra hakimiyyəti orqannının (Azərbaycan Respublikasının Nazirlər Kabinetinin) müəyyənləşdirdiyi normativlərə uyğun çıxılmalıdır.

Vergi Məcəlləsinin 217-1-ci maddəsi vergi güzəşltərinə həsr olunur.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, neftdən və təbii qazda başqa, digər faydalı qazıntıların hasili müqabilində sahibkarlıq subyektinin təqvim ilinə əsasən hesabladığı mədən vergisinin miqdarı bu faydalı qazıntı növlərinin hasil olunduğu torpağa görəı sahibkarlıq subyektinin bu təqvim ilinə görə hesabladığı və ödədiyi torpaq vergisinin miqdarından çıx olmamaq şərtilə təqvim ilinin son hesabat ayında aşağı salınır.

Vergi Məcəlləsinin 216-cı maddəsi sözügedən verginin vergi dərəcələrinə həsr olunur.

Bu maddə ilə əlaqədar aydınlaşdırılmalı əsas suallardan biri yerin təkindən çıxarılmış hansı yeni faydalı qazıntılar üzrə mədən vergisinin tətbiq olunması nəzərdə tutulur.

Məsələ burasındadır ki, Məcəllənin 216.2-ci maddəsində müəyyən dəyişikliklər aparılmış və əlavələt edilmişdir. Belə ki, həmin maddəyə əlavədə deyilir ki, yerin təkidindən hasil olunan gipsə, gəcə görə mədən

vergisinin hesablanması nəzərdə tutulur. Qeyri-filiz faydalı qazıntılar qismində çıxış edən gipsə, gəcə görə mədən vergisinin müəyyənləşdirilməsi 1 m^3 üçün 1,0 manat məbləğində aparılır.

Məcəllənin 217-ci maddəsi isə mədən vergisinin hesablanma qaydasına, ödənilməsi müddətinə və bəyannamələrin təqdim olunmasına aydınlıq gətirir.

Bu maddə ilə əlaqədar şərh edəcəyimiz məsələ hansı vergilərin bələdiyyələrə deyil, məhz dövlət büdcəsinə ödənilməsinin nəzərdə tutulması ilə bağlıdır.

Nəzərə almaq lazımdır ki, mədən vergisi ilə əlaqədar mühüm yeniliklərdən biri ondan ibarətdir ki, yerli büdcələrə ödənilməli olan mədən vergisi məqbləği dövlət büdcəsinə köçürülməlidir. Məsələ burasındadır ki, 2022-ci il yanvarın 1-də qədər Vergi Məcəlləsində qüvvədə olmuş 217.5-ci maddəyə uyğun olaraq, yerli əhəmiyyət daşıyan tikinti materiallarla, yəni kərpic-kiramid gillərlə, tikinti qumlarla və çınqıl xammallar bağlı mədən vergisinin ödənilməsi bələdiyyələrin büdcəsinə həyata keçirilir.

Lakin aparılan dəyişikliklərdən sonra 217.5-ci maddsində göstərilir ki, mədən vergisinin məbləği dövlət büdcəsinə ödənilməlidir. Bu isə o deməkdir ki, yerin təkindən hasil olunan bütün faydalı qazıntılar üzrə mədən vergisi məhz dövlət büdcəsinə köçürülməlidir.

Dediklərimizi əyani bir misalla daha da aydınlaşdıraq. Fərz edək ki, çınqıl xammalının istehsalı istiqamətində fəaliyyət göstərən sahibkarlıq subyekti tərəfindən hasil olunan 5 min m^3 həcmində çınqıl üçün 5.000AZN məbləğində mədən vergisi 2021-ci il ərzində bələdiyyənin büdcəsinə ödənilmişdir: 5.000 m^3 x 1AZN (vergi dərəcəsi) = 5.000AZN. 2022-ci ildən başlayaraq isə bu cür ödənişlər bələdiyyənin deyil, dövlətin büdcəsinə həyata keçirilir. Bununla bərabər, sahibkarlıq subyekti vergi orqanlarına mədən vergisi ilə bağlı vergi bəyannaməsini də təqdim etməlidir.

Bəs mədən vergisi ilə bağlı hansı güzəştlərin tətbiq olunması nəzərdə tutulmuşdur?

Nəzərə almaq lazımdır ki, 217-1-ci maddənin Məcəlləyə əlavə olunmasından sonra, neftdən və qazda başqa bütün qalan faydalı qazıntılar üzrə sahibkarlıq subyektinin təqvim ilində hesabladığı mədən vergisi ilə bağlı məbləğ bu faydalı qazıntı növlərinin hasil olunduğu

torpaqlar üzrə bu sahibkarlıq subyektinin təqvim ilində hesabladığı və ödədiyi torpaq vergisindən artıq olmamaq şərtilə təqvim ilindəki son hesabat ayında aşağı salınmalıdır.

Maddənin mətnindən aydın olur ki, sahibkarlıq subyektinə təqvim ilində hesablanması həyata keçirilmiş mədən vergisi ilə bağlı güzəştlərin tətbiqi vergi qanunvericiliyi ilə nəzərdə tutulur.

Yuarıda dediklərimizi misal vasitəsilə daha da aydınlaşdıraq. Fərz edək ki, qeyri-filiz faydalı qazıntıların çıxarılması istiqamətində fəaliyyət göstərən sahibkarlıq subyektinin il ərzində ödədiyi mədən vergisinin məbləği 20.000Azn təşkil edir. Sahibkarlıq subyekt tərəfindən faydalı qazıntıların hasil edildiyi torpaqla bağlı onun tərəfindən bu təqvim ilində hesablanması və ödənilməsi yerinə yetirilmiş mədən vergisi torpaq vergisinin miqdarında aşağı salınmalıdır.

Çapa imzalanıb: 13.04.2023
Kağızın formatı: 60x84 1/16.
Sifariş 188. Həcmi 24.125 ç.v. Tiraj 200.

"AA – Poliqraf" istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.

Əlaqə üçün: capevi@internet.ru Tel.: +994552075057